New York Times Bestselling Author

Jojo Moyes

Bu əsəri birnəfəsə oxudum. Çox gözəl yazılmış sevgi hekayətidir
Daily Mail

Bir üstəgəl Bir

roman

Moyes möhtəşəm hekayətçidir
PAULA MCLAIN, *The Paris Wife* -ın müəllifi

Telegram: @cinciva

Telegram: @cinciva

Coco Moyes

BİR ÜSTƏGƏL BİR

İngiliscədən tərcümə
Sevil Gültən

Azərbaycan Milli
Kitabxanası

Telegram: @cinciva

Ш6(4ИЗЛ)6-44

Jojo Moyes

THE ONE PLUS ONE

ARXIV

Telegram: @cinciva

Coco Moyesin "Bir üstəgəl bir" romanı – valehedici, oxucunu sonadək həyəcanlı durumda saxlayan əsər iki tənhalığın birləşdiyi zaman nələr yarada biləcəyindən bəhs edir.

...Tənha qadın.

Cess Tomasın iki uşağı və iki işi var. Hər gün yorucu iş. Həm yad evlərdə, həm də öz evində. Ona kimsənin yazığı gəlmir, kənardan köməyə də özü bel bağlamır. Buna görə də bəzən Cess riskli qərarlar qəbul etmək məcburiyyətində qalır.

...Dəlisov ailə.

Tanzi – Cessin əcaib-qəraib, lakin istedadlı qızıdır.

Nikki – Cessin ögey oğlu da məktəbdəki bir dəstə dələduz və dəcəl yaşıdları qarşısında aciz qalıb.

Bəzən Cessə elə gəlir ki, vəssalam, hər şey bitdi. Lakin Ed Nikolsla tanışlıq onun bütün həyatını dəyişir. İki ruhən tənha adam müxtəlif və çoxsaylı çətinlikləri adlayaraq, nəhayət, birgə həyata başlayırlar. Amma buna qədər onları Şotlandiyaya uzun, çox uzun, yorucu bir səfər gözləyir.

Telegram: @cinciva

Jojo Moyes **THE ONE PLUS ONE**
Coco Moyes **BİR ÜSTƏGƏL BİR**
Bakı, Açar Nəşriyyatı, 2015, 588 səhifə, 1000 tiraj
Çapa imzalanmışdır: 07.10.2015

İngiliscədən tərcümə: Sevil Gültən
Redaktor: Əziz Rzazadə
Korrektor: Tünzalə Xəlilqızı

Açar Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37

ISBN 978-9952-36-106-3

© Açar Nəşriyyatı, 2015
Copyright © Jojo Moyes, 2014

This edition was published by arrangement with the Curtis Brown Group Limited ("CB") of Haymarket House

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Açar Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu»na ziddir.

Telegram: @cinciva

Həmişəki kimi Çarlza

Telegram: @cinciva

Telegram: @cinciva

1

CESS

Qəribə təsadüf nəticəsində Cessika Tomas brilyant sırğa ucbatından ən yaxşı işini itirməli oldu. Daha doğrusu, onun işini itirməsinə səbəb brilyantı oğurlaması yox, əksinə, oğurlamaması idi.

Cess və Natali ər-arvad Ritterlərin istirahət evlərini demək olar ki, artıq üç il – Biçfront istirahət mərkəzi açılandan bəri təmizləyirdilər. Bu istirahət mərkəzi sanki cənnətin bir guşəsi idi. Daşınmaz əmlak investorları yerli əhaliyə söz vermişdilər ki, mərkəzdəki üzgüçülük hovuzundan onu da istifadə edəcəklər, mərkəzdən əldə edilən yüksək gəlir onların dəniz sahilində yerləşən doğma şəhərlərinin inkişafına kömək edəcək. Amma investorlar sözlərinin üstündə durmadılar.

Ritterlər ailəsi bu mərkəzdən istifadə edən daimi sakinlər idi. Demək olar ki, hər həftəsonu onlar Londondan uşaqları ilə bura gəlirdilər. Xanım Ritter tətil günlərində həmişə burda qalırdı, həmin vaxtlarda əri şəhərdə olurdu. Onlar vaxtlarının çox hissəsini çimərlikdə

Telegram: @cinciva

keçirir, yalnız maşınlarına yanacaq almaq, yaxud da evdəki ərzaq azacıq azalan kimi şəhərə gedirdilər. Cess və Natali onların Farrow və Ball stlində rənglənmiş geniş, dörd yataq otağı olan mənzillərini həftədə iki dəfə – bir dəfə onlar özləri evdə olarkən, bir dəfə isə olmadıqları vaxt təmizləyirdilər.

Aprel ayı idi, boş karton şirə qutularına və nəm hamam məhrəbalarına görə mühakimə yürütmək olardı ki, Ritterlər ailəsi "iqamətgah"dadır. İşləyərkən özləri ilə apardıqları radioya qulaq asa-asa Natali geniş yataq otaqlarını təmizləyir, Cess isə çarpayıların yataq dəstlərini dəyişirdi. Cess pərqu kimi yumşaq yorğan üzünü çıxaranda sanki tüfəng çıqqıltısına bənzər səs eşitdi. O, yaşadığı şəhərdə bu səsi çox eşitmişdi. Amma indi mərc gələrdi ki, Biçfrontda heç bir tüfəng yoxdur.

Elə bu vaxt onun nəzərləri döşəmədəki parıltıya tərəf yönəldi. O, pəncərə tərəfdən aşağı əyildi, döşəmədəki bir tay brilyant sırğanı baş barmağı ilə şəhadət barmağı arasına alıb ehtiyatla yuxarı qaldırdı. Sırğanı işığa tutub diqqətlə baxdı, sonra isə o biri otağa keçdi. Natali dizi üstə hamamın içini təmizləyirdi, tər damcıları koftasının üstündə şırımlar açmışdı. Səhərdən bəri iş başındaydılar.

– Bir buna bax, – Cess dedi.

Natali ayağa durub Cessin əlində tutduğu sırğaya çəpəki baxdı:

– Bu nədir?

– Brilyant sırğadır. Yorğan üzünü çıxaranda döşəməyə düşdü.

Telegram: @cinciva

– Bu xalis brilyant ola bilməz. Bir gör o nə boydadır?

Cess sırğanı barmaqları arasında o tərəf-bu tərəfə fırlatdıqca hər ikisi gözlərini zilləyib ona daha diqqətlə baxmağa başladılar.

– Lisa Ritter heç vaxt saxta brilyantdan istifadə etməz. Əlbəttə, öz pulları ilə almırlar. Eşitmişəm brilyant şüşəni kəsə bilir, – Cess bunu deyib sırğanı pəncərə şüşəsinə yaxınlaşdırdı.

– Cess, yaxşı fikirdir. Belə etsən, bir də görərsən pəncərə şüşəsi sınıb döşəməyə tökülüb, – Natali ayağa durdu, əlindəki əski parçasını su kranında yaxaladı.

– Maraqlıdır, bəs görəsən sırğanın o biri tayı hardadır? – deyə o soruşdu.

Hər ikisi yataq otağına keçib yataq dəstlərini qaldırıb bir daha silkələdilər, çarpayıların altına göz gəzdirdilər, diz üstə düşüb iri, yumşaq xalçanın hər yerini ələk-vələk etdilər, elə bil qətl hadisəsi vaxtı polislər evdə axtarış aparırdı. Yorulub əldən düşəndən sonra Cess qol saatına baxdı. Bir-birinin üzünə baxıb dərindən ah çəkdilər.

Bircə tay sırğa. Bu da qarabasmanın əsas əlaməti...

Evləri təmizlədikləri vaxtı onlar aşağıdakıları tapmışdılar:

– Diş protezi

– Qvineya donuzu

– Lap çoxdan itmiş nişan üzüyü (üzüyü tapdıqlarına görə onlara bir qutu şokolad hədiyyə etmişdilər)

– Klif Riçardın imzalı fotosu (Heç bir şokolad-filan vermədilər, üstəlik. ev sahibəsi bundan xəbəri olmadığını dedi).

Telegram: @cinciva

– Pul. Xırda pul yox, əlliliklərlə dolu firuzəyi bir portmanat. Kamodun arxasına düşmüşdü. Cess portmanatı Biçfrontda üç ay tətil vaxtı mənzil kirayə edən Linder xanıma verəndə o azacıq təəccüblənib demişdi: "Mən də deyirəm, görəsən bu portmanatım hara yoxa çıxıb". Sonra isə pul dolu portmanatı cibinə qoyub heç geri də baxmadan getmişdi. Sanki onlar portmanatı tapıb ona verməklə böyük səhv etmişdilər.

Qvineya donuzu istisna olmaqla fikirləşə bilərsiniz ki, onlar elə də çox qiymətli şey tapmayıblar. Hər dəfə onlar tapdıqları şeyləri sahibinə qaytaranda sahiblərinin gözündə qəribə bir işartı olurdu, elə bil onlar çox şey tapıblar, sahibinə yalnız birini verib qalanlarını öz ciblərinə dürtüblər. Yəqin cənab Ritter da güman edəcək ki, sırğanın o biri tayını onlar tapıb özlərinə götürüblər. O elə bir adam idi ki, onları yalnız onun evində olduğuna görə günahkar hesab edirdi. İlk dəfə onun evini təmizləməyə gələrkən bunu özü etiraf etmişdi.

– Hə, Natali, nə edək?

Natali çarpayı örtüklərini, adyalları camaşırxanaya aparmaq üçün hazır etmişdi.

Cessin sualını eşidib dedi:

– Onu bir yerə qoy. Sadəcə, qeyd yazıb qoyarıq ki, nə qədər axtarsaq da o biri tayını tapa bilmədik.

Bir qayda olaraq, hər dəfə gəlib evi yığışdırandan sonra bir, ya iki qeyd yazıb qoyar, hansı işləri gördüklərini ev sahiblərinə xatırladar, onlara nə qədər verəcəklərini yazardılar.

Telegram: @cinciva

– Yaxşı fikirdir, – Cess onunla razılaşdı.

– Biz ona bütün yorğan-döşəyi silkələdiyimizi deyəkmi?

– Nə etmişiksə deyək. İstəmirəm o elə düşünsün ki, sırğanın o biri tayını biz götürmüşük.

Cess qeydi yazıb qurtardı, tapdığı sırğa tayını da ehtiyatla qeyd yazdığı vərəqin üstünə qoydu. Üzünü Nataliyə tutdu:

– Yəqin ki, sırğanın o biri tayı xanım Ritterdədir. Onlar itmiş tayı tapdığımızdan çox sevinəcəklər.

Natali Cessə işarə etdi ki, vərəqin üstünə qoyduğu "nüvə apokalipsisinə" bir daha nəzər salsın, özü isə əlavə etdi:

– Şəxsən mən çarpayımda göz alması boyda brilyant itirsəydim, bunu elə həmin gün bilərdim.

Belə deyib o, çirkli yorğan üzlərini, mələfələri qapının arxasına topaladı.

– Düz deyirsən. İndi isə sən tozsoranı işə salıb dəhlizi təmizlə, mən isə uşaqların yataq otağına gedib yorğan üzlərini və mələfələri dəyişim. Əgər belə ləng işləsək Qordonların evində saat on ikinin yarısında olarıq.

Natali və Cessika Tomas dörd il idi ki, gündəlik olaraq evlərə gedib təmizlik işləri aparırdılar. Onlar Benson və Tomas Təmizləmə Xidmətinə müraciət edib bu işlə məşğul olmağa başlamışdılar. Cess iki ay ərzində aşkar etdi ki, onlara gələn zənglərin yarıdan çoxu yalnız ev təmizləmək işiylə əlaqəlidir.

Demək olar ki, təmizlədikləri evlərin çoxu Biçfrontda idi. Elə bil şəhərdə heç kimin pulu yox idi ki, verib

Telegram: @cinciva

evlərini təmizlətsinlər, pullarının çoxunu köhnə müştəriləri xanım Hamfri kimi yalnız bahalı maşınlarını təmizləməyə verirdilər. Çünki özü artıq qocaldığından təmizləyə bilmirdi. Xanım Hamfri təmizliyi dinə bərabər tutan qoca qadınlardan idi. Onların həyatının mənası nişastalanmış pərdələr və pilləkənin birinci pilləsini tərtəmiz qaşıyıb silməkdən ibarət idi. Onun evini təmizləməyə gedəndə qızlara elə gəlirdi ki, sanki xanım Hamfri qırx səkkiz saat ərzində ağzını belə açmayıb, bütün söz-söhbətini onlar gələn vaxta saxlayıb. Çərşənbə günləri Biçfrontda Ritterlərin və Qordonların mənzillərindəki işlərini qurtarandan sonra onun evini təmizləməyə gedirdilər. Bəxtləri gətirsəydi, daha bir neçə evi təmizləmək üçün də sifariş alardılar.

Cess koridor boyunca tozsoranı ora-bura dartırdı ki, evin qapısı açıldı. Xanım Ritter pilləkənlərin başında durub onları səsləyirdi.

– Ey, qızlar, burdasınız?

Xanım Ritter elə qadınlardandır ki, onlar üçün bütün qadınlar, hətta təqaüdçülər belə "qız"dır. "Şənbə günü qızlarla vaxtımı elə gözəl keçirdim ki...", "Kaş o balaca qızgilə gedəydim." – Ritter belə cümlələri tez-tez işlədirdi.

Cess və Natali onu çox xoşlayırdılar. Demək olar o həmişə şən olurdu, xəsis deyildi. Ən əsası isə o heç vaxt onlarla pis davranmaz, onlara xadimə kimi baxmazdı.

Onun səsini eşidib Natali və Cess bir-birinin üzünə baxdılar. Səhər tezdən işə başlamışdılar. Artıq iki

Telegram: @cinciva

sobanın (hansı ağıllı adam tətil günlərində donuz əti qızardar?) içini təmizləmişdilər, əgər geciksəydilər Hamfri bir az hirslənərdi.

On dəqiqədən sonra onlar dəyirmi mətbəx stolu arxasında oturmuşdular. Lisa Ritter bir boşqab biskviti onlara tərəf itələdi.

– Yeyin, qızlar, yeyin. Əgər siz onları yeyib qurtarsanız mən də görüb iştaha gəlmərəm, – belə deyib kəmərini daha da sıxdı. Natali və Cess heç vaxt inanmazdılar ki, Ritter nə vaxtsa işlə məşğul olub. O vaxtının çoxunu səyahətə sərf edən qadınlardan idi – ən çox da qırx yaşla altmış yaş arasında. Onun azca rənglənmiş şabalıdı saçları səliqəli halda arxada yığılmışdı. O, həftədə üç dəfə tennis oynayar, xüsusi müəllimlə fitneslə məşğul olurdu. Natalinin qadın salonunda tanışı deyirdi ki, Ritter hər dörd həftədən bir həyatında yeni bir dəyişiklik etməyi sevən qadındır.

– Marti necədir? – Ritter soruşdu.

– Hələlik yaxşıdır. Bildiyim ən son məlumat budur, – Cess cavab verdi.

– Hə, sən bu haqda mənə demişdin. Onu tapmağını nəzərdə tutursan, eləmi?

– Elə buna bənzər bir şeydir.

Sonra o susdu, bir də Cessə tərəf döndü:

– Sənin balaca qızın yenə də riyaziyyat kitabına yapışıb qalıb?

– Hə, həmişə belədir.

– Sənin uşaqların çox yaxşı uşaqlardır. And içərəm ki, bu tərəflərdə olan uşaqların anaları səhər tezdən şər

Telegram: @cinciva

qarışana kimi uşaqlarının harada olmalarından, nə işlə məşğul olmalarından xəbərsizdir. O gün Ceyson Fişer və onun dostları Dennis Qroverin pəncərəsinə yumurta atırdılar. Hə, yumurta!

Onun səsinin tonundan anlamaq olmurdu ki, o, uşaqların pəncərəyə yumurta atmasından həyəcanlanıb, yoxsa o gözəl ərzağın boş yerə sərf edilməsinə heyfsilənir.

Ritter manikürçü qadından, balaca itindən danışdığı vaxt Natali telefonuna mesaj gəldiyini görüb onu götürdü.

– Xanım Hamfri zəng edib, – o stulunu kənara itələyib ayağa durdu, – Yaxşı olar ki, biz gedək, – dedi.

Belə deyib o təmizlik səbətini qoluna keçirdi.

– Hər tərəf gözəldir, təmiz görünür. Hər ikinizə minnətdaram.

Xanım Ritter ayağa durub saçını arxaya doğru hamarladı. O, fikrə getmişdi. Birdən dedi:

– Cess, getməzdən əvvəl mənə bir neçə dəqiqəlik kömək edərsinizmi?

Müştərilərin çoxu bilirdi ki, Cess praktik işlərdə çox fəaldır. Vaxt olub bəzi müştərilər deyib ki, hansısa şəkli divardan asa bilmirlər, ya yüngülvarı suvaq işini bacarmırlar, xahiş ediblər onlara kömək etsinlər. Amma sonda Cess görüb ki, bütün gününü belə işlərə sərf edib.

Cess etiraz etmədi, sakitcə dedi:

– Əgər çox işdirsə, o biri işimizi qurtarandan sonra geri dönə bilərəm.

Telegram: @cinciva

– Yox, yox, istəyirəm ki, çamadanımı gətirməkdə kömək edəsən. Təyyarədə olarkən əzələlərim dartılıb, indi istəyirəm ki, çamadanımı pilləkənlərdən bura gətirməkdə mənə kömək edəsən, – Lisa Ritter belə deyib qapıya tərəf döndü.

– Harda? Təyyarədə?

– Hə, təyyarədə. Mən Mallorcada olan bacımı görməyə getmişdim. Axı hazırda uşaqlar universitetdədir, bütün vaxtımı özümə sərf etməliyəm. Elə deyilmi? Fikirləşdim ki, bir neçə günlük mini-fasilə pis olmazdı. Ərim də bunu təkid etdi.

– Bəs nə vaxt qayıtmısınız?

O sakit halda Cessə baxdı:

– İndicə. Mən ki qarşınızdayam!

Onun dediklərini anlamaq üçün heç iki saniyə gərək olmadı. Tez-tez günəş vannası qəbul etmək heç də pis vərdiş deyil. Cess hiss etdi ki, Ritterin üzünün dərisi qaralıb.

Təmizləmə işinin bu problemi vardı. Əgər sən başqa adamların çəngə-çəngə tüklərini hamam vannasının tıxacından dartıb çıxarmağa razısansa, bu çox yaxşı iş idi (Cess bunu etməyə razı idi). Demək olar ki, həftəsonunu, yaxud tətil günlərini keçirmək üçün Cess mənzil kirayə edənlərin sifarişinə heç vaxt etiraz etmirdi. Çünki bələləri bir qayda olaraq bir həftəliyə donuz kimi yaşamağa məcbur olur, arxayın olurlar ki, ev təmizləyən gəlib yığışdıracaq.

Belə hallarda onlar rahat işləyirlər, vaxtlarını özləri təyin edir, müştəriləri də özləri seçirlər.

Telegram: @cinciva

Əlbəttə, müştərilərinin içində pisi də olurdu, yaxşısı da. Eləcə də evlər, hədsiz çirkli olanı da olurdu, təmizi də. Vaxt olub ki, tualeti təmizləyəndə təsəvvür etdiklərindən daha bir pillə aşağıda hesab ediblər özlərini. Yox, bunu işlədikləri şirkət rəhbərləri demirdi onlara. Onlar özlərini belə hiss edirdilər. Ya da evlərin qapısına qoyduqları reklam vərəqlərində yazdıqları ucuz qiymətlər sanki onlara başqalarından alçaq olduqlarını xatırladırdı. Sanki sən öz həyatını özün istəyən kimi yox, başqalarının istədiyi kimi yaşayırsan.

Xanım Eldricin bazarlıq etmək vərdişlərindən söz açmaq maraqlı olardı. Vanna otağındakı zibil qabı aldığı ayaqqabıların qəbzi ilə dolu olar, ya da paltar şkafı geyinilməmiş paltarlardan aşıb-daşardı. Elbric danışardı ki, Lena Tompson bir uşaq doğmaq üçün dörd il əlləşib, ayda iki dəfə hamiləlik testindən istifadə edib. Cess sənə kilsənin arxasındakı böyük evin sahibi Mayklın maaşının altı rəqəmli olduğunu deyər (o, maaş çekini zaldakı stolun üstünə qoyubmuş. Natali and içmişdi ki, o kişi bunu bilərəkdən qoyub), onun qızının gizlicə siqaret çəkdiyindən, siqaret kötüklərini pəncərənin altına sıra ilə düzdüyünü yerli-yerində deyərdi.

Cess istəsə, təmizlədikləri evdə nələr gördüklərini bir-bir danışar. Elə ev sahibələri olub ki, çox səliqəli geyiniblər, saçlarının rəngi, dırnaqlarının lakı yerli-yerində olub, amma əyinlərindən çıxardıqları idman şalvarını evin ortasına tullayıb gediblər. Ya da elə cütlüklər olub ki, gecəni ayrı-ayrı çarpayılarda yatıblar, amma

Telegram: @cinciva

evlərini təmizləməyə gələnlərə yalandan deyiblər ki, "ötən gecə elə çox qonağımız olub ki, məcbur olub hərəmiz bir tərəfdə yuxulamışıq".

Onlar elə tualet təmizləyiblər ki, ora girmək üçün gərək özünlə əleyhqaz da götürəydin.

Hərdənbir isə Lisa Ritter kimi yaxşı, əliaçıq müştərilər də rastlarına çıxır. Belələrinin evində sadəcə tozsoranı mənzildə ora-bura dartırsan, sonra isə sanki heç bir iş görməmiş kimi rahatca evinə dönürsən.

104570

***

Cess Natalinin qoltuğunda təmizlik səbəti gəlməsinə baxdıqca tezliklə nə isə dəhşətli bir şeyin baş verəcəyini sanki aydınca görürdü. O, təmizlikdən parıldayan yuxarı otaqlara, xanım Ritterin bəzək masasına təkrarən nəzər saldı. Xırda yastıqları dənizə açılan pəncərənin altındakı divanın künclərinə səliqəli qoymuşdular. Brilyant sırğanın bir tayı və qeyd yazıb qoyduğu kağız da hələ əvvəlki yerində idi. Balaca əl qumbarası kimi işıq saçırdı.

Çamadanı pilləkənlərdən dartıb gətirən Cess Natalinin yanından keçəndə ona tərəf dönüb dedi:

– Sənə bir söz deyə bilərəmmi, Nat?

Cess çalışdı ki, Natalinin gözlərinin içinə baxsın, amma Natali gözlərini xanım Ritterin gözlərinə zilləmişdi.

– Sizin dikdabanlardan çox xoşum gəlir, – Nəhayət, Natali təngnəfəs halda dedi.

Azərbaycan Milli Kitabxanası

Telegram: @cinciva

– Eləmi, Natali? Onları xaricdə almışdım. Demək olar ki, su qiymətinə.

– Xanım Ritter İspaniyaya getmişdi, Nat! Mini-fasilə! – Cess dedi.

Natali başını qaldırıb ona nəzər saldı və gülümsündü. Heç nə demədi.

– O elə bu səhər geri dönüb.

– Tuflilər çox qəşəngdir.

Cess çamadanı darta-darta xanım Ritterə dedi:

– Çemodanı mənzilin içinədək aparacam.

Cess bir anlıq düşündü ki, cəld mənzilə girib bir tay brilyant sırğanı götürər, cibinə dürtər, sonra da Natali bir söz deməyə macal tapmamış onu küçəyə tərəf dartar, taksiyə itələyib uzaqlaşarlar. Bu haqda xanım Ritter heç vaxt heç nə bilməzdi.

Sonralar isə nə etmək lazım olduğunu planlaşdırarlar.

– Cess sizə heç nə deməyib hələ?

O, pilləkənlərin başına çatmışdı.

Natalinin səsi zınqırov səsi kimi açıq pəncərədən keçib onun qulaqlarında əks-səda verdi.

– Sırğanızın bir tayını tapmışıq. Düşündük ki, onun bir tayı sizdə olar.

– Nə? Sırğa tayı? – xanım Ritter təəccüblə soruşdu.

– Hə, brilyant sırğa. Məncə, o platin dəstidir. Yorğan üzünü çıxaranda döşəməyə düşdü. Xoşbəxtlikdən hələ tozsoranı işə salmamışdıq.

Araya uzun bir sükut çökdü.

Telegram: @cinciva

Cess pilləkənin başında dayanıb gözlərini yumdu, onun nə deyəcəyini gözləməyə başladı.

***

– Mən yazıq hardan bilim ki, xanım Ritterin qulaqları heç deşilməyib də!

Onlar çirkli paltarları camaşırxanaya aparan furqonda yerlərini rahatlamışdılar.

Natali siqaret çəkirdi. O, siqaret çəkməyi altı həftə əvvəl tərgitmişdi – dördüncü dəfə!

– Mən heç vaxt adamların qulaqlarına baxmıram. Sən necə, adamların qulaqlarına baxırsan?

Natali sırğa tayından söz açanda Lisa Ritter belə demişdi:

– Ola bilsin ki, yanılırsınız.

O, sırğa tayını əlinə alanda əlləri titrəyirdi, özünü ələ alıb dedi:

– Yəqin ki, bu, qızımın sırğasının tayıdır. Axırıncı dəfə evdə o olub. Onun eynilə belə brilyant sırğası var.

...Cess kinayə ilə dedi:

– Yox bir, sırğa kiminsə ayaqqabısında gəlib yataq dəstinin arasına düşüb? Mən bilirdim ki, elə belə olacaq.

Əlbəttə, heç bir qadın ona bəd xəbər verdiyin üçün sənə təşəkkür etməyəcək. O artıq bilir ki, bu sırğa ərinin sevgilisinin qulağından ora düşüb.

Heç kəs istəməz ki, ev təmizləyən onların ailə sirrindən xəbərdar olsun.

Telegram: @cinciva

– Həftədə səksən funt, üstəlik də tətil vaxtı əlavə ödəniş! Cəhənnəmə vasil olsun bu sırğa sahibi. Ona görə ən yaxşı işimiz əlimizdən çıxdı, – Natali təəssüflə dedi.

– Bəlkə, xanım Ritterin ərinin başqa ailəsi olmasından xəbəri yoxdur?

– Ola bilməz ki, bilməsin!

Natali Dinə rast gəlməzdən əvvəl bir kişi ilə iki il bir yerdə yaşamışdı, sonra məlum olmuşdu ki, o kişinin nəinki bir, hətta Southamptonda iki ailəsi varmış.

– Heç bir subay kişinin çarpayısının üstündə balaca yastıqlar ora-bura səpələnmir.

– Amma Nil Brevsterin çarpayısı həmişə belə olur.

– Nil Brevsterin musiqi kolleksiyasının 67 faizi Judy Garlanddır, 33 faizi isə Pet Shop Boys-dur.

Yolun bir tərəfində balaca bir uşaq kəsilmiş ağac kimi yerə yıxıldı, azca yerə uzanılı qalandan sonra nalə qopardı. Anasının hər iki əlində iri bazar zənbili vardı, bir müddət o, tələşlə baxdı.

– Keçən həftə onun nə dediyi yadındadır? Dedi ki, saç ustasından əvvəl bizdən canını qurtaracaq, – Cess yadına salıb dilləndi.

– Hə. "Evini təmizləyənlərdən canını qurtarmazdan əvvəl". Hə, onunçün bu ev təmizləyənlərin insan ya maşın olmasının fərqi yoxdu, – Natali başını yırğaladı.

– Yox, Cess, onun belə dediyi yadıma düşmür. Bu vaxtdan etibarən biz onunçün əri haqqında həqiqəti bilən yeganə adamlarıq. Belə qadınların yalnız görünüşü var.

Telegram: @cinciva

...Ana əlindəki zənbilləri yerə qoydu, əyildi ki, körpəni qaldırsın. Bir neçə ev o tərəfdə isə çox az sürülmüş bir "Ford" gözə dəydi.

Cess başını əliylə tutub dedi:

– Hər şey cəhənnəm olsun! Biz necə pul qazanacağıq? Bu, ən yaxşı işimiz idi.

– Hə, onun evi əla idi. Tərtəmiz. Həftə ərzində iki dəfə yüngülvarı təmizləyib parıldatmaq – vəssalam! – Natali pəncərədən bayıra baxırdı.

– O həmişə pulumuzu vaxtlı-vaxtında verirdi, – Cess dilləndi.

Natali əlavə etdi:

– Hələ bizə köhnə-kürüş paltarlarını, lazım olanda ərzaq da verirdi.

Brilyant sırğa hələ də Cessin gözləri önündəydi. Niyə onlar onu ciblərinə qoymadılar? Əgər onlardan biri onu oğurlasaydı, daha yaxşı olardı.

– Deməli belə, tezliklə işimiz əlimizdən çıxacaq. Gəl mövzunu dəyişək, Nat! Pivəxanadakı növbəmə getməzdən əvvəl ağlamaq istəmirəm.

– De görüm, Marti bu həftə zəng edib?

– Sənə demədim ki, mövzunu bu istiqamətdə dəyişəsən.

– Hə, de görüm, zəng edib?

– Hə, zəng edib, – Cess sakitcə dedi.

– Bəs o demədi ki, niyə keçən həftə zəng etməyib?

Natali Cessin ayağını bir az o tərəfə itələdi.

– Yox, heç nə demədi. Pul da yollamayıb. – Cess hiss edirdi ki, Natali gözlərini ona zilləyib.

Telegram: @cinciva

– Mənə bax, sən Uşaqlara Dəstək Agentliyinə müraciət edib atalarından haqlarını tələb etməlisən. Belə davam etmək olmaz. O, iki uşağına pul yollamalıdır.

Onlar bu barədə çox mübahisə etmişdilər, Cess hələ də ərini müdafiə edirdi.

– O hələ sağalmayıb. Mən ona çox təzyiq edə bilmərəm. Hələ heç işi də yoxdur.

– Amma sənin indi pula ehtiyacın var. Lisa Ritter kimi bir sahibənin mənzilində iş tapanadək sənin pula ehtiyacın var. Niki necədir?

– Mən Ceyson Fişergilin evi tərəfə getdim ki, Nikinin anasıyla danışım.

– Sən boş yerə vaxt itirirsən. O səni qorxutdumu?

– Elə buna bənzər bir şey.

Natali hələ də gözlərini Cessin üzündə saxlamışdı.

Cess sakitcə danışmağa başladı:

– O mənə dedi ki, əgər bir də onun qapısının ağzına ayaq bassam, məni elə döyəcək ki, düz bir həftə yerdə qalacam. Tək məni yox, həm də "mənim narkoman" uşaqlarımı da döyəcəyini dedi.

Belə deyib Cess balaca əl güzgüsünü çıxardı, saçlarını hamarlayıb arxada at quyruğu formasında yığdı.

– Hə, sonra da deyir ki, onun Ceysonu heç milçəyi də öldürməyə ürək etmir, –Cess dedi

– Onun necə olduğu sözlərindən bəllidir.

– Nə yaxşı ki, Norman yanımdaydı. Onun köməyi ilə bir yekə plastik torba zibili onların "Toyota"sı ilə üzbəüz zibilliyə qədər apara bildim.

Telegram: @cinciva

Natali üzünü Cessə tutdu:

– Cess, Marti nə vaxtdan evi tərk edib? İki ildir? Sən hələ cavansan. Onu saf-çürük etməkdənsə başqa ata minsən yaxşı olmazmı?

Son sözləri deyərkən üzünün ifadəsi dəyişdi.

– Nə? Başqa ata minim? Yaxı səslənir.

– Hə. Liam Stubbs sənə hayıl-mayıl olub. Elə onu "minsən" yaxşı olmazmı?

– Məncə heç bir X xromosom sahibi Liamı "minə" bilməz, – Cess belə deyib pəncərəni bağladı. Məncə, uşaqlar "Təzə Dayınla Görüş" oyununu oynamadan da həyatlarında irəliləyiş ediblər.

O, başını qaldırıb səmaya baxa-baxa dedi:

– Mən pivəxanadakı növbəmi təhvil verməzdən əvvəl müştərilərdən daha nəsə istəyib – istəmədiklərini soruşacam. Bəlkə onlardan hansısa birinə nəsə qulluq lazımdır. Heç adamın ağlına da gəlməzdi ki, o bizi işdən qova bilər.

Natali furqonun pəncərəsinin şüşəsini aşağı saldı, siqaret tüstüsünü havaya buraxdı

– O biri işimiz Yellow Brick Road-da yerləşən Emerald City-dədir.

***

Seacove prospektindəki on dörd nömrəli mənzil səs-küylə dolmuşdu. Tanzi dəqiq hesablamışdı ki, on altı yaşına qədər Niki həyatının boş vaxtının 88 faizini yataq otağında keçirib. Cess onu günahlandıra bilmirdi.

Telegram: @cinciva

O, əlindəki səbəti dəhlizə tulladı, jaketini asılqandan asdı, köhnə xalçanın tanış qoxusunu hiss etdi, Nikinin otağının qapısını itələdi. O, qulaqlarında qulaqcıq nəyisə dinləyirdi. Otağı bürüyən qoxu Cessin başını gicəlləndirdi.

– Niki! – Sanki tüfəngdən güllələr çıxıb havaya uçdu.

Belə deyib Cess ona tərəf getdi, qulaqcıqlarını dartıb çıxardı. Niki yuxudan qəfil oyadılan adam kimiydi.

– Nə işlə məşğulsan?

– Dərsimi təkrar edirəm, – Niki dilləndi.

Cess külqabını götürüb ona göstərdi:

– Axı sənə demişdim!

– Bu axşamdan qalandır. Yata bilmirdim.

– Niki, neçə dəfə demişəm axı! Evdə çəkmə!

Bu, hər gün təkrar olurdu. Cess öz-özünə deyirdi ki, nə yaxşı o hələ on beş yaşında çəkməyə başlayıb.

– Tanzi hələ gəlməyib?

Cess belə deyib döşəmədə "azıb" qalmış fincanı və corabları götürdü.

– Yox, o nahar edəndən sonra məktəbdən zəng edib onu çağırdılar.

– Nə üçün?

Niki kompüterdə nəsə yazıb, sonra Cess tərəf döndü:

– Bilmirəm. Kimsə məktəbdən zəng etmişdi.

Bax, elə bu vaxt Cess hər şeyi hiss etdi. Yerdə boyanmış tük, Nikinin yanağında isə döyülmə nişanəsi vardı.

Niki gizlətməyə çalışdı.

– Hər şey normaldır? Onlar yenə də arxanca düşmüşdülər?

Telegram: @cinciva

– Heç nə olmayıb, – Niki dedi.

– Niyə bəs mənə zəng etmədin?

– Balansımda pul yox idi.

Belə deyib o, kompüter arxasında oturdu və virtual əl qumbarasını atmağa başladı. Kompüterin ekranı alov dilimlərinə büründü.

***

Niki səkkiz il əvvəl gəlib Cessgillə bir yerdə yaşamağa başlamışdı. O Martinin Delladan olan oğlu idi. Marti demək olar ki, hələ yeniyetmə olarkən bu qadınla tanış olmuşdu. Cessgilə gələndə Niki bir dəri-bir sümük idi, cır-cındır içində, acından ölürdü. Onun anası təzə bir dəstəyə qoşulmuşdu, az sonra isə Biq Al adlı bir kişiylə Midlandsa çıxıb getmişdi. Bundan sonra Niki məktəbdə idman zalında paltar dəyişmə otağında gecələyirdi. Sosial işçilər onu aparmaq istəyəndə Cess ona dedi ki, gəlib onlarda yaşasın.

Bu vaxt Natali Cessə demişdi:

– Hə, yedizdirmək üçün başqa ağız da tapıb gətirdin.

– O mənim ögey oğlumdur.

– Sən onu dörd ildə iki dəfə görmüsən.

– Neynəyim? İndi ailələr belədir. Hər yerdə iki dəfə iki dörd deyil.

Hər dəfə o, Marti haqda düşünəndə deyirdi ki, bəlkə məcburiyyət qarşısında ailəsinə – oğluna cavabdeh olmaqdan imtina edib. Niki yaxşı uşaq idi. Tünd qara

Telegram: @cinciva

parlaq saçları vardı. O, Tanzi ilə mehriban davranırdı. Özünü yaxşı hiss edəndə danışıb gülür, Cessə imkan verirdi ki, onu qucaqlasın.

Cess Nikinin onlarla bir yerdə yaşamasına sevinirdi. Elə hiss edirdi ki, başqa birisi üçün də narahat olmaq yaxşı hissdir.

O, əlində telefon həyətə düşdü, dərindən nəfəs aldı. Sanki qarnına sancı dolmuşdu.

– Allo! Mənəm, Cessika Tomas. Mənə mesaj gəlib ki, sizə zəng edim.

Sükut. Heç bir cavab yoxdur.

– Sizə Nikiyə görə zəng etməyimi istəmişdiniz: Mən onun dərsləri ilə maraqlandım, o dedi ki, dərslərini evdə təkrar etmək üçün ona imkan yaratmısınız.

– Xanım Tomas, sizi Tanziyə görə narahat edirdim.

Daha çox narahatlıq. Cess nömrəyə bir daha nəzər saldı.

– Nə baş verib? Hər şey qaydasındadır?

– Üzr istəyirəm. Mən sizə dedim. Mən Tanzinin riyaziyyat müəllimi Tsvangaraiyəm.

– Aha.

Cess boz kostyum geyinmiş, dəfn bürosu rəhbərinə oxşayan müəllimi gözü önündə canlandırdı.

– Sizə demək istəyirəm ki, bir neçə həftə əvvəl keçmiş həmkarımla, Müqəddəs Ann məktəbinin müəllimi ilə maraqlı müzakirə aparmışıq.

– Müqəddəs Ann məktəbi? Özəl məktəb? – Cess təəccüblə soruşdu.

Telegram: @cinciva

– Bəli. Bu məktəbin riyaziyyat sahəsində xüsusi istedadı olan şagirdlər üçün ayrıca təqaüd proqramı var. Artıq məlumatınız var ki, biz Tanzini ən qabiliyyətli və ən istedadlı şagird hesab edirik.

– Bəli, bilirəm. Səbəb onun riyaziyyatı daha yaxşı bilməsidir.

– Yaxşı yox, daha yaxşı bilməsidir səbəb. Biz keçən həftə ona kağız verdik ki, bu məktəbin müsabiqəsində iştirak etsin. Bilmirəm, o bu barədə sizə deyib, ya yox. Evinizə məktub da göndərmişdik, məktubu oxuyub-oxumadığınızı bilmirəm.

Cess gözlərini qıyıb səmaya baxdı. Qağayılar səmada fırlanırdılar, sonra isə qaranlığın içinə doğru şığıdılar. Bir neçə bağ o tərəfdə Terri Bləkstounun radiodan gələn mahnısı eşidilirdi.

– Biz imtahanın nəticələrini bu səhər almışıq. Tanzi çox yaxşı nəticə əldə edib. Həddindən artıq yaxşı nəticə, xanım Tomas! Əgər razısınızsa, onlar maddi yardım üçün nəzərdə tutulan yerdən ötrü qızınızla söhbət etsinlər.

Sanki Cess tutuquşu kimi müəllimin sözlərini təkrar edirdi:

– Maddi yardım üçün nəzərdə tutulan yer?

– Bəli. Xüsusi qabiliyyəti olan uşaqlar təhsil haqqından azad ediləcəklər. Bu o deməkdir ki, Tanzi birinci dərəcəli məktəbdə təhsilini davam etdirə bilər.

Onun çox gözəl riyazi yaddaşı var, xanım Tomas! Məncə, bu onun üçün çox yaxşı imkan yaradacaq.

Telegram: @cinciva

Müqəddəs Ann məktəbi?.. Amma... Amma o məktəbə getmək üçün Tanzi avtobusa minməlidir. Ona məktəb forması lazımdır. Həm də o orda heç kimi tanımır.

– Bundan narahat olmayın. O özünə orda dost tapacaq. Bunlar xırda detallardır, xanım Tomas! Tanzi riyaziyyat sahəsində çox istedadlıdır.

Belə deyib müəllim bir az fasilə verib əlavə etdi: – İyirmi iki ildir ki, riyaziyyatdan dərs deyirəm, xanım Tomas! Amma bu vaxtacan riyazi qaydaları onun kimi tez qavrayan şagirdə rast gəlməmişəm. Demək olar ki, o artıq keçmədiyimiz dərslərdən də xəbərdardır. Alqoritmlər, ehtimal nəzəriyyəsi, sadə rəqəmlər...

– Ok. Tsvangarai müəllim, mən artıq heç nə başa düşmürəm. Qabiliyyətli və istedadlı – bu mənə kifayətdir.

Müəllim gülüb dedi:

– Sizinlə əlaqə saxlayarıq.

Cess telefonu cibinə qoyub bağdakı ağ plastik stulda oturdu. Bu stul onlar bura köçəndən bəri burdaydı, hər tərəfi mamırla örtülmüşdü. O artıq heç nəyə baxmırdı. Martinin həmişə açıq rəngli hesab etdiyi pərdələrə, heç vaxt atmaq istəmədiyi üçtəkərli velosipedə, uçmuş çəpərin uçan yerinə qoyulmuş çürümüş taxta parçasına gözlərini zilləmişdi. Qonşu qapıdan siqaret kötükləri bu velosipedin üstünə tökülürdü. Natali həmişə onu nikbin hesab edirdi. Bununla belə, bu anlarda Cessin gözləri yaşla dolmuşdu.

Pul problemləri ucbatından ərin səni, uşaqlarını tərk edib iş dalınca gedəndə ərləri yanında olan qadınlar həmişə səni "ər oğrusu" potensialına malik hesab edirlər.

Telegram: @cinciva

Ən pisi budur ki, sonu olmayan, bütün enerjini sərf etdiyin maliyyə çətinlikləri davam etdikcə uşaqlarını təkbaşına böyütməyin ürəyinin dərinliyinin dünyanın ən yalqız yeri olduğunu dərk etməkdir.

Telegram: @cinciva

2

TANZİ

Müqəddəs Ann məktəbinin qarşısındakı avtodayanacaqda 26 minik maşını vardı. Çınqıllı səkinin hər iki tərəfində 13 parlayan minik maşınları üzbəüz dayanmışdılar. 41 dərəcədə bucaq altında boş yerləri tutmuşdular.

Tanzi anası ilə birgə avtobus dayanacağında düşüb yolu keçərkən maşınlara baxırdı, sürücülərin bəziləri mobil telefonla danışır, bəziləri də arxa oturacaqda oturmuş dombagöz uşaqlarla söhbətə girişmişdilər. Anası cibindən açarları çıxarıb ovcunda oynatmağa başladı, sanki onun əlindəkilər də maşın açarları idi, lap elə indicə maşınlarını hardasa bu yaxınlarda park ediblər. Tanzi gözlərini anasına zilləyib baxırdı. Anası narahat görünürdü. Elə bil o qorxurdu ki, evlərini təmizlədiyi müştərilərdən biri ilə qəflətən rastlaşacaq, ondan bu məktəbin qarşısında nə etdiyini soruşacaq.

O heç vaxt bu məktəbin içində olmamışdı, amma ən azı on dəfə avtobusla bu məktəbin yanından gəlib

Telegram: @cinciva

keçmişdi. Çünki NHS (National Health Service) diş həkiminin ofisi bu yolun üstündə yerləşirdi. Məktəbin həyəti yaşıl çəpərlə əhatələnmişdi (Tanzi üçün maraqlı idi, görəsən bağbanın otbiçəni vardı, ya yox). Hündür ağacların qol-budaqları az qala yerə dəyirdi, sanki onlar uşaqlara kölgə salmaq üçün əkilmişdilər.

Müqəddəs Ann məktəbində şagirdlər çantalarını bir-birilərinin başı üstündə fırlatmırdı, ya oyun meydançasının bir tərəfində topalaşıb durmamışdılar ki, kimisə divara qısnayıb nahar üçün pul qopartsınlar. Burda üz-gözündən yorğunluq yağan müəllimlər çoban kimi şagirdləri sinif otaqlarına itələmirdilər. Bu məktəbin qızları yubkalarının belini beş-altı dəfə qatlayıb gödəltməmişdilər, yaxud da saçlarını açıb yanlarına tökməmişdilər. Bircə nəfər də olsun siqaret çəkmirdi. Şagirdlərin çoxunun gözündə eynək vardı. Anası Tanzinin əlini bir az möhkəm sıxdı. Tanzi anasını sakitləşdirmək istədi:

– Narahat olma, bura qəşəng məktəbdir.

Anası başıyla təsdiq etdi, sonra isə cır səslə:

– Hə, düz deyirsən, – dedi.

Tanzi davam etdi.

– Cənab Tsvangarai mənə deyib ki, burda oxuyan şagirdlərin hər biri ya "A" alır, ya da "ulduzlu A". Bu yaxşıdır, eləmi, ana?

– Təəccüblüdür.

Tanzi anasının əlindən dartdı ki, direktorun kabinetinə tez gedib çatsınlar.

Telegram: @cinciva

– Ana, sən bilən, mən bu məktəbə gəlib-gedəndən sonra Norman mənimçün darıxacaq?

– Gəlib-gedəndən sonra...

– Ana, Müqəddəs Ann məktəbində dərslər saat altıda qurtarmır. Çərşənbə axşamları və cümə axşamları günündə isə riyaziyyat dərnəkləri olur. Mən də bu dərnəklərə getmək istəyirəm.

– Tanzi, – Cess dayandı.

– Ana, bir ora bax, – Tanzi təəccüblə baxırdı.

Dəhlizdə bir qız əlində kitab oxuya-oxuya gedirdi. Həqiqətən də, o kitab oxuyurdu. Niki deyirdi ki, MakArtur məktəbində oyun meydançasında kitab oxuya-oxuya getsən, səni şil-küt edərlər, siqareti gizlətdiyin kimi gərək kitabı da gizlədəsən.

Cess qızına nəzər saldı. Tanzi həqiqətən də çox yorğun görünürdü. Son günlər o çox yorğun idi. O, zorla üzünə təbəssüm maskası taxıb birlikdə direktorun otağına girdilər.

– Salam, xanım Tomas! Salam, Kostanza! Sizinlə görüşməyimə çox şadam. Buyurun, əyləşin.

Məktəb direktorunun otağının tavanı çox hündür idi. Divarlar ağappaq idi və toy tortu kimi bəzənmişdi. Hər iyirmi santimetrdən bir suvaqaltı rozetkalar və o rozetkaların arasında isə qızılgül qönçələri çəkilmişdi. Otaqda qədim mebel vardı, dəniz sahilinə açılan pəncərədən həyətdə kriket oynayanları görmək olurdu. Direktorun qarşısındakı stolun üstünə kimsə kofe və evdə bişirilmiş biskvitlə dolu sini qoymuşdu. Tanzi cəmi bir

Telegram: @cinciva

neçə dəqiqə fikirləşib qəti qərara gəldi ki, kofe və biskviti onlar üçün gətiriblər.

– Birini götürə bilərəm? –Tanzi direktora tərəf baxıb soruşdu.

Direktor sinini ona tərəf itələdi.

– Əlbəttə, götürə bilərsən.

– Marçıldatma, – Cess ona işarə etdi.

Biskvitlər elə dadlı, elə qəşəng idi ki. Tam əmin olmaq olardı ki, onlar mağazadan alınma deyil, evdə hazırlanıb. Atası evdən getməzdən əvvəl anası da belə biskvitlər bişirərdi. O divanın bir küncündə oturub üzbəüz oturmuş iki kişiyə gözlərini zillədi. Bığlı kişi uşaqlara iynə vurmazdan əvvəl gülümsəyən tibb bacısı kimi gülümsəyirdi. Cess əl çantasını dizinin üstünə çəkdi, Tanzinin əlini əlində saxladı. Hə, anası Norman dişlədiyi yerdən tutmuşdu. Anasının ayaqları da həyəcandan əsirdi.

– Bu, cənab Kruikşankdır, riyaziyyat fənni üzrə baş müəllimdir. Mənim adım Dalidir. Son iki ildir ki, bu məktəbdə direktor işləyirəm.

Belə deyib onların hər ikisi ilə əl tutub görüşdü, gülümsədi.

Tanzi onların hər ikisi ilə əl verib görüşəndə beynində yalnız bir söz ilişib qalmışdı. "Riyaziyyat fənni üzrə baş müəllim".

– Konturları bilirsən?

– Yaxşı bilirəm.

– Bəs ehtimal nəzəriyyəsini necə, bilirsən?

Telegram: @cinciva

– Onu da bilirəm.

Kriukşank ona tərəf əyildi:

– Biz sənin test nəticələrinə baxırıq. Kostanza, düşünürük ki, sən gələn il riyaziyyat fənni üzrə GCSE (General Certificate of Secondary School) ala bilərsən, beləliklə də öz yolunu müəyyən edərsən. İnanıram ki, sən "A" səviyyəsində təhsil almaqdan həzz alacaqsan.

Tanzi ona baxdı.

– Kağızlarını gətirmisən?

– Bəzilərini gətirmişəm. Onlara baxmaq istəyirsiniz?

Tanzi ağlına da gətirməzdi ki, ona belə sadə sual verərlər. Sanki qarşısındakı Niki idi.

Dali Cessə kofe fincanını uzatdı. Sözə başladı:

– Xanım Tomas, mən sözü uzatmaq istəmirəm. Siz çox yaxşı bilirsiniz ki, qızınızın xüsusi qabiliyyəti var. Yalnız bir oğlanın test nəticələri onun nəticələrinə bənzəyirdi, həmin oğlan Trinity-da təhsil alır.

Tanzi başını yırğaladı, amma heç vaxt oğlan olmaq istəməzdi. Hər kəs bilir ki, qızlar riyaziyyatı daha yaxşı bilir.

Müəllim danışmaqda davam etdi. Tanzi biskvitlə dolu nimçəyə baxıb təyin etmək istəyirdi ki, bundan sonra hələ neçəsini yeyə bilər. Bu vaxt müəllimin sözləri qulağına çatdı: "...amma qeyri-adi bacarığı olan bir qrup şagirdlər üçün biz yeni təqaüd təsis etmişik"... Cəfəngiyatdır...

İndi isə bu sözləri eşitdi: "Bu təqaüd də bizim məktəbdə oxumağa imkanı olmayanlara şərait yaradacaq". ... Boş sözlər...

Telegram: @cinciva

Müəllim davam edirdi: "Kostanza kimi şagirdlərin riyaziyyat sahəsində bacarıqlarını inkişaf etdirmək üçün bu təqaüdün çox faydası var. Bizim həm də idman və musiqi kurrikulumlarımız da var. Bunlardan mənə nə?

"Riyazi qabiliyyəti olan şagirdlər həm də dilləri asanlıqla öyrənirlər, dramada daha fəal olurlar. Bu yaşda olan qızlar üçün bunlar çox maraqlıdır". Maraqlıdır.

– Mən yalnız riyaziyyatı sevirəm. Bir də itləri, – Tanzi əlavə etdi.

– Aha. Bizdə itlərlə bağlı elə bir dərnək-filan yoxdur, amma riyaziyyat biliyini inkişaf etdirmək üçün çoxlu imkanlarımız var. Onu da deyim ki, maraqlandığın istənilən sahəni də burda inkişaf etdirə bilərsən. Sən hansısa musiqi alətində çalmağı bacarırsanmı?

Tanzi başını yellədi.

– Bəs hansısa xarici dili necə, bilirsən?

Tanzi heç nə demədi.

– Başqa hansı maraqların var?

– Cümə günləri biz üzgüçülüyə gedirik, – Cess dedi.

– Ana, ata evdən gedəndən bəri biz bir dəfə də olsun üzməyə getməmişik.

Cess gülümsədi, amma onun gülüşündə bir əsəbilik hiss olunurdu.

– Getmişik, Tanzi!

– Hə, bircə dəfə. Mayın 13-də. Amma indi sən cümə günləri də işləyirsən.

İndi Cessin təbəssümü daha qəribə idi. Sanki o ağzını bir yerə yığa bilmirdi.

Telegram: @cinciva

Cənab Kruikşank otaqdan çıxdı, bir neçə dəqiqə sonra əlində çoxlu kağızla geri qayıtdı.

Tanzi əlindəki axırıncı biskviti ağzına dürtdü, ayağa durdu, gedib divanda onunla üzbəüz oturdu. Müəllimin qarşısında bir topa kağız vardı. Tanzi ağzına dürtdüklərini hələ tam udmamışdı.

Bu kağızlar Tanzinin testləri idi. Tanzi müəllimin yanında dayanıb nəyi edib nəyi etmədiyini bir-bir göstərirdi, eyni zamanda anası ilə məktəb direktorunun danışığını da aydınca eşidə bilirdi. Direktor deyirdi:

"Biz şagirdlərimizin psixoloji durumla ilə də maraqlanırıq. Məqsədimiz onları eyni istiqamətə yönəltməkdir. Əgər Kostanza bizim məktəbə gəlsə, onun qayğısına qalıb araya çıxan problemlərini də həll edəcəyik". Tanzi yenə də ürəyində dedi:

"Yaxşıca cəfəngiyat uydurur".

Göründüyü kimi, hər şey əla gedirdi. Tanzi bütün fikrini kağızdakılara yönəltmişdi. Yəqin ki, bu ehtimal nəzəriyyəsinin bir qolu olan stoxastik prosesdir. Cənab Kruikşank onun fikri ilə razılaşdı. O, barmağını vərəqə qoyub bir-bir nəyisə soruşur, izah edirdi.

– Stoxastik prosesin maraqlı cəhəti odur ki, əgər biz qabaqcadan müəyyən edilən vaxtı gözləsək sonra müşahidə edirik ki, interval necə böyükdür.

Tanzi bu haqda da bilirdi.

– Hə, bu halda meymunlar Maqbet sözünü yazmaq üçün daha çox vaxt sərf edirlər.

Telegram: @cinciva

– Elədir ki, var, – Müəllim gülümsəyib davam etdi: – Sənin bu nəzəriyyəni yaxşı qavramağına tam əmin deyildim.

– Əlbəttə, tam bilmirəm bu nəzəriyyəni. Amma Tsvanqarai müəllim bu haqda bir dəfə mənə demişdi. Ondan sonra mən internetdə bununla maraqlandım. Mən bütün meymunları bəyəndim!

Tanzi əllərini kağızlara yüngülcə toxundurdu. Gör nə qədər kağız vardı orda! Kağızların sayını bilmək istədi. O bilirdi ki, bu məktəbdə oxusa hər şey yaxşı olacaq. Anasına tərəf döndü, elə həyəcanlı idi ki, necə hərəkət etdiyini də bilmirdi:

– Ana, necə bilirsən, o kağızlardan mənə verərlər?

Cənab Dali ona baxdı. O, Tanzinin özünü qəribə aparmasına heç nə demədi, əksinə, Kruikşanka dönüb soruşdu:

– Bizdə ehtiyat kağız varmı?

– Var.

Belə deyib o Tanziyə bir yığın kağız verdi. Tanzi əliylə kağızları sığalladı. Bayırda zəng vuruldu, o şagirdlərin direktorun pəncərəsinin qarşısından, çınqılları xırçıldada-xırçıldada keçdiklərini görürdü. Pəncərədən boylanıb onlara baxdı. Bilmək istəyirdi ki, onların əllərində kitab var, ya yox.

Cess soruşdu:

– Hə, nəticə nə oldu?

Direktor sevincək dedi:

Telegram: @cinciva

– Biz Costanzaya... Tanziyə təqaüd verilməsini təklif edirik.

Belə deyib o parıltılı üzü olan qovluğu əlinə aldı, davam etdi:

– Təqaüd barədə olan bütün təkliflərin hamısı bu qovluqdadır. O, illik təhsil haqqının 90%-inə bərabərdir. Bu təqaüd bu vaxtacan təsis etdiyimiz ən yüksək təqaüddür. Bir qayda olaraq təsis etdiyimiz təqaüdlər təhsil haqqının 50%-ini əhatə edirdi. Yüzlərlə şagird bu təqaüdü əldə etməyə can atır. Təzə təqaüd proqramımız isə tamamilə qeyri-adi bacarığı olan şagirdlər üçün nəzərdə tutulub.

Tanzi yerindən dilləndi:

– Mənim kimi, düzdür?

– Hə, sənin kimi.

Belə deyib direktor biskvit dolu boşqabı Tanziyə tərəf itələdi.

Sən demə, boşqablara təzə biskvitlər gətirib qoyublarmış.

Tanzi düşündü: "Bu məktəb əladır".

Cess təkrar etdi:

– Doxsan faiz...

Bunu deyib o əlindəki biskviti təkrar qaytarıb nəlbəkiyə qoydu.

– Onu da əlavə edim ki, təqaüddən əlavə də xərclər ola bilər. Məktəbli forması, yol pulu, əgər musiqi ilə məşğul olmaq istəyərsə, eləcə də məktəbdən səyahətə getmək istəyə bilər. Amma vurğulamaq istəyirəm ki, bu sizin üçün böyük bir imkandır.

Telegram: @cinciva

Direktor Tanziyə tərəf əyildi.

– Biz səni öz məktəbimizdə görmək istəyirik, Tanzi! Sənin riyaziyyat müəllimin deyir ki, səninlə işləmək çox əladır.

– Məktəbi çox xoşladım, – belə deyib başqa biskvit götürmək üçün əlini uzatdı.

– Bilirəm ki, bəzi dostlarım bu məktəbdəki dərslərin yorucu olduğunu düşünürlər.

Onu deyim ki, mən məktəbi evdən üstün tuturam.

Otaqda olanların hamısı gülüşdü.

– Ana, sənə görə yox, – Tanzi əlini uzadıb başqa bir biskvit də götürdü, anasının xətrinə dəydiyini düşünüb dedi:

– Anam çox işləməlidir.

Hamı sakitcə ona qulaq asırdı.

– Cənab Kruikşank dedi:

– Bütün valideynlər belədir. İndi isə sizə fikirləşmək üçün vaxt verirəm. Gedib bir neçə gün götür-qoy edin. Əminəm ki, başqa suallarınız da olacaq. Xanın Tomas, bəs niyə kofenizi axıracan içməmisiniz? Söhbətimizi qurtarandan sonra şagirdlərimizdən birinə deyəcəm ki, sizi məktəblə tanış etsin. Sonra isə evə gedib ikilikdə müzakirə edərsiniz.

***

Həmin axşam Cess Nikinin otağına keçdi, ona dedi ki, skaypı qoşsun. Hər bazar günü o yarım saat əvvəl

Telegram: @cinciva

mesaj yazıb Martini xəbərdar edirdi ki, o da skaypa qoşulsun. O da Cess dediyi vaxtda anasının evində kompüter arxasına keçib Tanzi ilə danışırdı. Tanzi Nikinin stulunda oturub fikrini bir yerə cəm edib söhbətə başlayardı.

Həmin gün bazar günü deyildi.

Bu axşam Tanzi bağda itlə – Normanla oynayırdı. Tanzi ona topu atar, sonra gözləyərdi ki, it gedib topu gətirsin. Tanzi inanırdı ki, Norman bir gün atılan topu gedib gətirəcək. Çünki o hardasa oxumuşdu ki, təkrar etmək yolu ilə heyvanları nəyəsə öyrətmək olar. Düzdür, Norman saymağı bacarmırdı, amma Tanzi ümid edirdi ki, o da öz itinə nəyisə öyrədəcək.

Onlar Normanı heyvan sığınacağından götürmüşdülər. Bu o vaxtlar idi ki, Marti evi ilk dəfə tərk edib getmişdi, Cess də 11 gün oyaq qaldı, qorxurdu ki, Martinin getməsindən xəbər tutub onları elə yataqdaca öldürərlər, heç kimin də xəbəri olmaz. Heyvanları xilasetmə məntəqəsində Normanı çox tərifladilər:

– Uşaqlarla çox yaxşı rəftar edir, əla keşikçidir.

Amma Cess Normanı götürmək istəmirdi.

– Axı bu it çox böyükdür, – o dedi.

İtləri xilasetmə məntəqəsinin direktoru gülümsədi:

– Axı sizə dedik ki, o uşaqlarla yaxşı davranır.

Cess deyirdi ki, düz iki ildir Norman hədsiz çox yeyib ifraz edən bir maşına dönüb. O, evin ətrafında yırğalana-yırğalana gedir, tüklərini tökür, ətrafdan iy gəlirdi. Norman ağzının suyunu divanın üstünə qoyduqları

Telegram: @cinciva

balaca yastıqlara axıdar, yatarkən hürür, pəncələrini elə qaldırırdı ki, sanki üzür. Cess tez-tez deyirdi ki, heyvanları xilasetmə məntəqəsində ona düz deyiblər ki, Norman olan evə heç bir oğru yaxın düşməz. Bəli, Normanın iyindən evə kim yaxın düşər ki!

Cess artıq Normanı Tanzinin yatağından qovmağı tərgitmişdi. Tanzi hər səhər yuxudan oyananda Norman onun çarpayısının üçdən bir hissəsini tutub gərnəşər, tüklü ayaqlarını yorğanın üstünə uzadar, Tanzi isə üşüyərək yorğanı özünə tərəf çəkərdi. Cess dəfələrlə buna görə deyinmiş, Tanziyə gigiyena qaydalarını xatırlatmış, amma faydası olmamışdı. Tanzi ilə Norman bir-birinə çox bağlı idi.

Niki onların evinə gəlib onlarla bir yerdə yaşamağa başlayanda Tanzinin iki yaşı vardı. Bir axşam Tanzi gedib yatdı, səhər oyananda qonaq otağında Nikini gördü, anası dedi ki, Niki onun qardaşıdır və bundan sonra onlarla bir yerdə qalacaq. O vaxt Tanzi onunla Nikini hansı qohumluq əlaqəsi bağladığını bilmirdi, halbuki, sonralar bildi ki, onların 90% qohumluq əlaqəsi var. Bir dəfə Tanzi ondan soruşdu ki, onları bir-birinə bağlayan hansı genetik bağlılıqdır. Onda Niki belə demişdi: "Uduzmuş genlər". Tanzi onun zarafat etdiyini düşünmüşdü, amma genetika barədə anlayışı olmadığından heç nə deməmişdi.

Tanzi həyətdəki kranda əllərini yaxalayanda anası ilə Nikinin söhbətini aydınca eşitdi. Nikinin otağının pəncərəsi açıq olduğundan onların səsi aydınca eşidilirdi.

Telegram: @cinciva

– Sən bu gün suyun pulunu ödədin? – Niki soruşdu.

– Yox, poçta getməyə vaxtım olmadı.

– Demişdilər ki, bu axırıncı xəbərdarlıqdır.

– Hə, bunu mən də bilirdim.

Cessin səsində azacıq əsəbilik hiss olunurdu. Həmişə puldan danışanda nədənsə o əsəbi olurdu. Araya sükut çökdü.

Norman Tanzinin atdığı topu gedib gətirdi, düz onun ayağının altına qoydu. İtin ağzının seliyi topu nəm etmişdi, həm də topdan iy gəlirdi.

– Hə, Niki, mən sabah səhər vəziyyətdən çıxış yolu tapacam, buna söz verirəm. Sən atanla danışmaq istəyirsən?

Tanzi bilirdi ki. Niki hansı cavabı verəcək. O heç vaxt atası ilə danışmazdı.

– Ey, salam. – Cess Marti ilə danışırdı.

Tanzi birtəhər pəncərənin altına gəldi və orada sakitcə dayandı. İndi o atasının da səsini eşidirdi.

– Hər şey qaydasındadır? – Marti soruşdu.

Onun səsində gərginlik hiss olunurdu. Tanzi fikirləşdi ki, bəlkə atası nəsə pis hadisə baş verdiyini düşünür. Bəlkə, o, Tanzinin leykemiya xəstəsi olduğunu bilsə geri qayıdar. Bir dəfə Tanzi televizorda bir filmə baxmışdı. Həmin filmdə bir qızın valideynləri boşanırlar. Amma sonra qızda leykemiya olduğuna görə barışıb bir yerdə yaşayırlar. Tanzi leykemiya xəstəsi olmaq istəmirdi, çünki ona iynə vurulanda qorxudan ürəyi gedir, həm də onun çox gözəl saçları var, istəmir ki, saçları tökülsün.

Telegram: @cinciva

– Hər şey yaxşıdır, – Cess dedi.

O, Martiyə demədi ki, küçə uşaqları tez-tez Nikini döyürlər.

– İşlər necədir?

Pauza.

– Anan evin divar kağızını dəyişib? – Cess soruşdu.

– Nə deyirsən?

– Deyirəm ki, təzə divar kağızı vurmusunuz divara.

– Aha... Hm... onun deyirsən?

Tanzi özünü pis hiss etdi bunu eşidəndə. Hə, nənəgil evlərinə təzə divar kağızı vurublar. İndi atası və nənəsi elə evdə yaşayırdı ki, heç Tanzi daha tanıya bilməzdi. Tanzinin axırıncı dəfə atasını gördüyü gündən 348 gün keçmişdi. Nənəsini gördüyü vaxtdan bəri isə 433 gün keçmişdi.

– Sənlə Tanzinin məktəbi haqqında danışmaq istəyirəm, – Cess danışmağa başladı.

– Nə olub ki? Vaxtını oynamaqla keçirir?

– Ciddi bir şey yoxdur, Marti! Ona Müqəddəs Ann məktəbində təqaüd almaq təklif olunub.

– Nə? Müqəddəs Ann məktəbi?

– Tanzinin riyaziyyat sahəsindəki biliyini çox böyük hesab edirlər.

– Hə. Müqəddəs Ann... – Marti bir neçə dəfə təkrar etdi. Elə bil o qulaqlarına inana bilmirdi.

– Demək istəyirəm ki, onun bacarıqlı şagird olduğunu bilirdim, amma...

Hiss olunurdu ki, Marti eşitdiklərindən razı qalıb.

Telegram: @cinciva

Tanzi daha yaxşı eşitmək üçün divara daha da qısıldı, baş barmaqlarının üstündə durub dinləməyə başladı.

Kim bilir, bəlkə də Tanzi Müqəddəs Ann məktəbinə getsə ata geri qayıdar.

– Hə, deməli, cırtdan qızımız qəşəng məktəbdə oxuya bilər!

Onun səsində qürur duyulurdu. Artıq Tanzi atasının piyəxanadakı yoldaşlarına nə deyəcəyini təsəvvür edirdi. Amma yox, ata daha piyəxanaya getmir.

Çünki o həmişə Cessə deyirdi ki, özünə xərcləmək üçün pulu yoxdur.

– Hə, de görüm bəs problem nədir?

– Düzdür, bu çox böyük məbləğdə təqaüddür. Amma bu hər problemi həll etmir.

– Nəyi nəzərdə tutursan?

– Dediyim odur ki, hər rüb üçün bizə beş yüz funt da lazımdır. Məktəb forması lazımdır. Həmçinin qeydiyyat üçün də beş yüz funt ödəməliyik.

Bu dəfə araya uzun sükut çökdü. Sükut elə uzun çəkdi ki, hətta Tanzi düşündü ki, kompüter xarab olub.

– Onlar dedilər ki, bir il oxuyandan sonra problemlərimizi həll etməkdə kömək edəcəklər. Hansısa qrant, ya nəsə buna bənzər şey. Amma ən çətini elə birinci ili yola verməkdir.

Marti güldü. Bəli, o həqiqətən də gülürdü.

– Sən məni eşidirsən? – Marti soruşdu.

– Hə... indi eşidirəm.

– Cess, mən bu qədər pulu hardan tapım?

Telegram: @cinciva

– Mən fikirləşirdim ki...– Cess sözünü axıra çatdırmadı.

– Heç hələ fərli işim də yoxdur. Burda yeni heç nə baş verməyib. Mən... Mən, indi-indi özümə gəlirəm. Hə, qəşəng qız, başqa yol yoxdur.

– Bəs sənin anan kömək edə bilməz? Yəqin ki, o bir az da olsa qənaət edib pul yığmış olar.

– Yox... O indi içəridə deyil... İstəmirəm ki, sən onu pula görə narahat edəsən. Onun özünün çox problemi var.

– Marti, mən onu pula görə narahat etmirəm. Fikirləşdim ki, o bu dünyada olan iki nəvəsinə kömək edə bilər.

– Ey, Cess, artıq anamın cəmi iki nəvəsi yox, üç nəvəsi var. Elenanın da balaca bir oğlu var.

Tanzi sakitcə durdu.

– Mənsə heç onun hamilə olmasını da bilmirdim.

– Sənə bu barədə deməyi nəzərdə tutmuşdum.

Deməli, Tanzinin balaca bir bibisi oğlu da var. Amma onun bundan xəbəri yoxdur.

Norman şappıltıyla Tanzinin ayağının altına sərildi. Norman iri qəhvəyi gözlərini ona zilləmişdi. Sonra o yüngülcə zingildəyib o biri böyrü üstə çöndü. O elə zingildəyirdi ki, sanki yerdə uzanmaq çox ağır bir işdir. Norman hələ də gözlərini zilləyib Tanziyə baxırdı, elə bil gözləyirdi ki, Tanzi əllərini onun qarnına sürtsün. Amma Tanzi Normana fikir vermir, bütün fikri-zikri atasıyla anasının söhbətini dinləmək idi.

Telegram: @cinciva

– Bəlkə maşını satasan?

– Yox. Onu satmaram. Mən təzədən toy biznesi ilə məşğul olmaq istəyirəm.

– İki ildir ki, o maşın qarajda paslanıb qalıb.

– Bilirəm. Amma hələlik onu qoymaq üçün başqa yer yoxdur.

Artıq onların söhbətini eşitmək çətinləşmişdi, deyəsən söhbətləri sona çatmaq üzrəydi. Həmişə belə olurdu. Marti söhbətin əvvəlində Cessə "qəşəng qız" deyər, sonda isə hər ikisi çox gərgin olurdu.

Tanzi anasının dərindən nəfəs aldığını hiss etdi.

– Marti, sən bu barədə bir daha fikirləşə bilərsən? Tanzi həqiqətən də o məktəbə getmək istəyir. Ürəkdən istəyir. Riyaziyyat müəllimi onunla söhbət edəndə onun sifəti işıq saçırdı, sən gedəndən bəri...

– Hə, mən evdən çıxan gündən bəri onun üzü hələ belə olmayıb...

– Yox, mən belə demək istəmədim.

– Hə, hər şeyə günahkar mənəm.

– Yox, Marti, hər şeyə görə sən günahkar deyilsən. Amma mən burda oturub sənə demək istəmirəm ki, sənin gedişin onlara bir aləm sevinc bəxş edib. Yox, Tanzi hələ də başa düşmür ki, sən niyə evə gəlmirsən. O başa düşmür ki, səni niyə görmür.

– Cess, başa düş, mən məktəbə görə heç cür sənə kömək edə bilmərəm. Mənim üstümə gəlməyə heç bir haqqın yoxdur. Mən xəstə olmuşam. O gəlib məni görə bilər. Bunu sənə əvvəllər də demişdim. Rüblərarası tətildə onların hər ikisini göndər bura.

Telegram: @cinciva

– Bunu edə bilmərəm. Onlar hələ çox balacadır. Onları təkbaşına göndərə bilmərəm. Bir tərəfdən də üçümüzün getməyi üçün yol pulu tapa bilmirəm.

– Hə, bunda mən də günahkaram. Pulum olsa yol pulu yollayardım.

– Marti, Tanrı xətrinə, belə demə.

Tanzi dırnaqlarını ovcunun ən yumşaq yerinə batırdı. Norman hələ də gözlərini zilləyib ona baxır, gözləyirdi.

– Sənlə razılaşmıram, Marti, – Cess dedi.

Bu dəfə o lap yavaşca danışırdı, elə bil kiminsə eşidəcəyindən ehtiyat edirdi. Sanki müəllim sənə artıq bilməli olduğun qaydanı təzədən izah edirdi.

Cessin səsi təzədən eşidildi:

– İstəyirəm ki, bir yol tapıb onun məktəbinə kömək edəsən. O məktəbə getsə Tanzinin həyatı dəyişəcək. Bu o deməkdir ki, o, bu həyatda bizim kimi mübarizə aparmayacaq.

– Belə demək düzgün deyil.

– Nəyi nəzərdə tutursan, Marti?

– Cess, sən heç xəbərlərə qulaq asmırsan? Məzunların çoxu işsizdir. Hansı təhsil almağın heç nəyə dəxli yoxdur. Necə təhsil almağından asılı olmayaraq o mübarizə aparacaq bu həyatda.

Deyəsən Marti fasilə verdi, bir azdan sözünə davam etdi:

– Əlbəttə, bu məktəbdən sənə deyirlər ki, sənin uşağın qeyri-adidir, fərqlidir. Deyirlər ki, əgər Tanzi bu məktəbə getsə onun həyatı dəyişəcək və sair... və sair. Bax onlar bunu edirlər.

Telegram: @cinciva

Cess heç nə demədi.

– Əgər Tanzi həqiqətən də onların dediyi kimi bacarıqlı, istedadlıdırsa, riyaziyyatı yaxşı bilirsə həyatda öz yolunu tapacaq. O başqaları kimi MakArtur məktəbinə gedə bilər.

– Hə, demək istəyirsən ki, Tanzi də o düşüklərin, biclərin, Nikinin sifətinə zərbə endirən o vəhşi uşaqların oxuduğu məktəbə getsin? İstəyirsən ki, üzlərinə əl qalınlığında pudra sürtüb məktəbə gedən qızlarla bir parta arxasında otursun? Ən sadə məsələni həll edə bilməyən, əvəzində dırnaqlarını çeynəyən qızlarla yoldaşlıq etməyini istəyirsən? Yox, o bunu istəmir.

– Sən lap özündənrazı vəkillər kimi danışırsan.

– Yox, səhv düşünürsən. Mən sadəcə qızının o qızlardan fərqli olduğunu qəbul edən anayam. O ona qucaq açan məktəbə layiqdir.

– Mən heç nə edə bilmərəm, Cess! Bağışla məni!

Hiss olunurdu ki, Marti söhbətə son qoymaq istəyir. Özünü elə göstərirdi ki, elə bil kimsə onu çağırır.

– Cess, bura bax. Mən getməliyəm. Bazar günü skaypda söhbət edərik.

Uzun sükut çökdü araya.

Tanzi on dördə qədər saydı. İndi o qapının açıldığını və Nikinin səsini eşitdi:

– Deyəsən söhbətiniz qurtarıb.

Tanzi aşağı əyildi, nəhayət, əllərini Normanın qarnına sürtdü. O, gözlərini yumdu, Normanın qarnına düşən göz yaşını görmədi.

Telegram: @cinciva

– Niki, son vaxtlar lotereya bileti almışıqmı?

– Yox.

Bu dəfə sükut doqquz saniyə davam etdi. Sonra Cessin səsi sakit havada əks-səda verdi.

– Bəlkə yenidən lotereya bileti almağa başlayım?!

Telegram: @cinciva

3

ED

Ed iş otağında Ronanla kofe içirdi ki, Sidney içəri daxil oldu. Onun arxasınca isə dumanlı şəkildə xatırladığı bir kişi girdi otağa – Kostyumlulardan biri. Onun bomboz üzünün ifadəsi eləydi ki, sanki dünyanın sonudur. Hər ikisi içəri girəndə Yeqova şahidlərinə bənzədilər.

– Biz elə sizi axtarırdıq!

– Aha, indi ki, tapdınız bizi.

– Ronanı yox, səni!

Ed bir neçə dəqiqə onların üzünə baxıb gözlədi, sonra tavana qırmızı köpük üfürdü, təzədən onu tutdu. Çəpəki dönüb Ronana baxdı. Tam on səkkiz ay bundan əvvəl "İnvestacorp" payların yarısını almışdı, bununla belə hələ də onlar içəri girənləri Kostyumlulardan biri hesab edirdi. Öz aralarında pay almağa gələnləri onlar belə adlandırırdılar.

– Sən Dinna Levis adlı qadın tanıyırsan? – Sidney soruşdu.

Telegram: @cinciva

– Niyə soruşursan?

– Sən ona səhmlərin buraxılması haqda bir məlumat vermisən?

– Nə?

– Bu çox sadə sualdır.

Ed gah Sidneyin, gah da onunla gələn adamın üzünə baxdı. Otaqdakı atmosfer qəribə tərzdə dəyişmişdi.

Onun qarnı – "yük yığılmış lift" aşağıya, ayaqlarına tərəf "enməyə" başladı.

– Ola bilsin ki, iş barədə də söhbət etmişik, amma ciddi nəsə dediyimi xatırlamıram.

– Kim? Dinna Levis? – Ronan soruşdu.

– Ed, bunu aydınlaşdır. Sən ona SFAKS-ın dövriyyəyə buraxılışı haqda heç bir informasiya vermisənmi?

– Yox. Ola bilər. Nə olub ki?

– Polis aşağı mərtəbədə sənin ofisini axtarır, yanında da Maliyyə Xidmətləri Qüvvələrindən iki 2 başkəsən xuliqan. Dinnanın qardaşı sənin verdiyin informasiya əsasında qiymətli kağızlar üzrə qanunsuz əməliyyat keçirdiyinə görə həbs olunub.

– Ha-ha-ha. Gülməlidir.

– Kim? Dinna Levis? Bizim Dinna? – Ronan eynəklərini silməyə başladı.

Həmişə narahat olanda o belə edərdi.

– Sizin Deanna Levis? – Sidney soruşdu.

– Hə, biz onu kollecdən tanıyırıq.

– Bəs indi? Onunla indi də əlaqəniz var? Hə, onun qardaşının İnvestisiya fondu ilk gündə altı milyon

Telegram: @cinciva

dollar qazanıb. Təkcə Dinna bank hesabından yüz doxsan milyon "təmizləyib".

İndi Ed və Ronan daha gülmürdülər.

– Nə? Onun qardaşının İnvestisiya Fondu?

– Bəli, onun qardaşının.

– Mən başa düşə bilmirəm. Bu nə deməkdir? – Ronan soruşdu.

– İndi aydınlaşdıraram. Dinna ifadəsində deyib ki, Edin qiymətli kağızların dövriyyəyə buraxılması haqda ona dediklərini qardaşına deyib. O deyir ki, Ed ona bunların hədsiz çox olduğunu söyləyib. Görün nə baş verir? Cəmi ikicə gün sonra alıcılar arasında onun qardaşının fondu ən böyük yer tutur. Konkret olaraq sən ona nə demisən?

Ronan gözlərini zilləyib Edə baxırdı. Ed isə fikrini bir yerə cəmləməyə cəhd edirdi. Hətta onun necə udqunduğu da açıqca hiss olunurdu. O biri kabinələrdəki işçi qrupu içəri boylanıb ona baxırdılar.

– Mən ona heç nə deməmişəm. Bilmirəm. Ola bilsin ki, nəsə demişəm. Amma ona dediklərim dövlət sirri olmayıb, – Ed çaşqın halda mızıldandı.

– Sənin ona dediklərin dövlət sirri olub, Ed! Bu, əsl cinayətdir. Dinna deyib ki, sən ona dəqiq tarixi, vaxtı açıqlamısan. O qardaşına deyib ki, sən şirkətin çoxlu var-dövlət qazanacağını demisən.

– Belə deyibsə, yalan deyir. Onun ağzının üstündən güllələmək lazımdır. Biz onunla sekslə məşğul olmuşuq.

Telegram: @cinciva

– Sən onun ağzından güllə vurmaq əvəzinə öz ağzını boş qoyub hər sirri ona demisən.

– Bu belə olmayıb.

– Nə? Sən Dinna ilə sekslə məşğul olmusan? – Ronan həyəcanla soruşdu.

Ed Ronanın baxışlarını üzündə hiss edirdi.

Sidney onunla gələn, arxasında dayanmış adama tərəf döndü, sonra Edə dedi:

– Vəkilinizi çağırmağınıza ehtiyac var.

– Mən ki bundan heç bir xeyir götürməmişəm? – Ed soruşdu.

– SFAX hələ "yaşadığı" vaxtda Maykl Levisin İnvestisiya fondu "Ma yfly"da tək qalan ən böyük inverstorlardan biriydi.

– Heç mən onun qardaşının İnvestisiya fondu olmasından da xəbərim olmayıb.

Sidney ona nəzər saldı, səsinin tonunu yavaşıdıb dedi:

– Sən indi getməlisən. Polis məntəqəsində səni sorğu-sual etmək istəyirlər.

– Nə? Bu fırıldaqdır. Hər iyirmi dəqiqədən bir mənim iş görüşüm var. Mən heç bir polis məntəqəsinə gedən deyiləm.

– Bu işin dərinliyinə gedənə qədər hələ ki, biz səni işdən müvəqqəti olaraq kənarlaşdırırıq, – Sidney dedi.

Ed onun sözlərinə güldü, üzünü ona tutdu:

– Yoxsa məni uşaq hesab edirsiniz? Məni işdən kənarlaşdıra bilməzsiniz! Bu, mənim şirkətimdir! – belə

Telegram: @cinciva

deyib o köpük şarı havaya tulladı, təzədən onu tutdu, sonra isə üzünü çevirib getdi.

Heç kim yerindən qımıldanmadı.

– Mən heç yana gedən deyiləm. Bu, bizim şirkətimizdir. Onlara de ki, bu, bizim şirkətimizdir! – Ed üzünü Ronana döndərdi.

Ed Ronana baxdı, amma Ronan üzünü ondan çevirdi. Ed Sidneyə baxdı, o da sadəcə başını yırğaladı. Sonra Ed başını qaldırıb onun arxasında, heyrətdən əlləri ilə ağzını tutmuş katibəsinin yanında dayanmış uniformalı iki nəfərə nəzər saldı.

Elə bu an Edin havaya buraxdığı köpük şar döşəməyə. iki ayağının arasına düşdü.

***

Dinna Levis... Ola bilsin ki, çox da qəşəng qız deyildi. Amma universitet şəhərciyində yaşadığı vaxtlarda o Edin və Ronanın ən çox qiymətləndirdiyi qızlardan biriydi. O, onların hər ikisinə eyni münasibət göstərirdi. Ed xatırlayır ki, Dinna informatika mərkəzindən çıxanda hər ikisinin üzündə eyni ifadə olardı – sanki yaxınlıqdan yeməli bir "hamburger" keçirdi.

Ed mərc gələrdi ki, üç il müddətində Dinna bir dəfə də olsun onları yada salmamışdı. Yalnız bircə dəfə yağışlı bir gündə ondan xahiş etmişdi Mini-də onu tədris korpusuna aparsın. Ed onda elə həyəcanlanmışdı ki, sanki dili tutulmuşdu, bütün yol boyunca arxa oturacaqda əyləşən

Telegram: @cinciva

Dinnaya dönüb "Narahat olma!" demişdi. Onun bu iki kəlməsi üç oktavanı əhatə edirdi. O dönüb Edə nəzər saldı, sanki demək istəyirdi ki, Ed çoxlu Avstraliya seriallarına baxır. Sonra o ayaqqabısının burnuna düşmüş cips kağızını götürüb ayağı altına tulladı.

Əgər Edin Dinnaya olan cavabsız sevgisinə pis demək olardısa Ronanın sevgisini daha betər hesab etmək olardı. Demək olar ki, o daima ona şeir yazar, Valentin günündə adını bildirmədən ona güllər göndərərdi. Şəhərcikdə nahar fasiləsi vaxtı Dinnanın üzünə baxıb ümidlə gülümsəyər, onun ona fikir vermədiyini görəndə isə hisslərini gizlətməyə cəhd edərdi. Dinnaya olan sevgi Ronanı daha da müdrikləşdirdi. Bu hal cəmi üç il davam etdi. Hər ikisi başa düşdü ki, heç biri onun kimi qızın ürəyini ələ ala bilməyəcək. Universiteti bitirib şirkət təsis edəndən sonra onlar daha Dinna kimi qızlar haqda yox, qiymətli kağızlar haqda düşünməyə başladılar. Dinna Levis kimi qızlar yalnız içəndən-içənə onların yadına düşər, kolleqalarına tələbəlik vaxtı qızlarla vaxt keçirdiklərini danışmaq üçün lazım olurdu. Bununla demək istəyirdilər ki, onlar universitet illərində təkcə dərs oxumaqla kifayətlənməyiblər, hətta onların sosial həyatları da maraqlı olub.

"Eh, Dinna Levis" – tək qalanda onlar bir-birinə deyirdilər. Gözlərini uzaqlara zilləyib xəyala dalar, sanki o biri içmiş həmkarlarının başlarında onu gəzərdilər. Ya da bu vaxt yanlarında dayanmış qıza baxar, "O qəşəngdir, amma Levisə çata bilməz" deyərdilər.

Telegram: @cinciva

Sonralar, yəni üç il əvvəl, Edin arvadı Lara onu tərk edib Romaya getməmişdən altı ay sonra Dinna Levis facebook vasitəsiylə Edlə əlaqə yaratmışdı.

Məlum oldu ki, son bir neçə ildir o, Nyu-Yorkda yaşayır, geri qayıtmaq, bir neçə köhnə universitet dostlarını görmək istəyir. Eddən soruşdu ki, o Riananı, yaxud Samı xatırlayırmı? Soruşdu ki, o tələbə yoldaşları ilə görüşürmü?

Sonralar o bu barədə Ronana demədiyinə görə xəcalət çəkdi. Həmin vaxtlarda Ronan işlə ciddi məşğul idi. Dinnanı öz "sistemindən" çıxarmaq üçün ona illər lazım olmuşdu, niyə təzədən onu bu "sistemə" qaytarsın axı? Amma doğrusunu desək, Ed boşanma "bataqlığındaydı". Neçə vaxt idi ki, heç kimlə görüş təyin etmirdi. Ürəyinin dərinliyində az da olsa Dinnanı görmək istəyirdi, şirkətin gətirdiyi uğurların onu necə dəyişdirdiyini ona əyanı göstərmək istəyirdi.

Bəli, pul onun paltarında, saçlarının düzümündə də dəyişiklik etmişdi. Pul ona şəxsi məşqçi almışdı. Artıq Ed Nikolls Mini sürən lal-dinməz, çirkin oğlan deyildi. Düzdür, onda zənginliyin çox əlaməti yox idi, hər halda 33 yaşında o çox şey əldə etmişdi.

Onlar Sohoda bir barda görüşdülər. Görüşən kimi Eddən Riananı soruşdu: "Sən onu xatırlamırsan?"

Məlum oldu ki, Dinnanın uşağı da var. Uşağı haqda danışanda qəribə tərzdə qaşlarını yuxarı qaldırdı. Dinna bir dəfə də olsun Ronanı soruşmadı.

Ed gözlərini zilləyib ona baxırdı. O yenə elə əvvəlki kimi idi. Onun qara rəngli, zövqlə kəsilmiş saçları çiyni

Telegram: @cinciva

üstündə dalğalanırdı – lap şampun reklam edən qızların saçı kimiydi. Yanaqlarının ətrafındakı piylər daha yox idi. O əvvəlkindən də daha qəşəng və daha istiqanlı idi. Edin dediyi bütün zarafatlara gülürdü. Ed hiss edirdi ki, Dinna tez-tez dönüb ona nəzər salır, sanki içində təəccüb vardı, elə bil demək istəyirdi ki, o bir vaxtlar, tələbə vaxtı gördüyü Ed deyil.

Barda görüşəndən bir neçə saat sonra ayrıldılar. İki gün sonra Dinna ona zəng edib yenidən görüşmək istədiyini deyəndə Ed ürəyində az da olsa təəccübləndi. Bu dəfə onlara bara yox, kluba getdilər və Ed onunla rəqs etdi. Rəqs edərkən Dinna əllərini onun çiyninə qoyanda bir anlığa Edin içində onu yatağa salıb onunla sevişmək hissi oyandı. Dinna bir-iki qədəh içəndən sonra ona heç kimlə münasibətdə olmadığını söyləmişdi, bunun ona pis təsir etdiyini deyirdi. Deyirdi ki, bumdan sonra heç kimlə ciddi münasibətdə olmayacaq. Ed də ona Laradan söz açdı, onun öz işini ilk məhəbbət adlandırmasını, öz fikrini sübut etmək üçün onu tərk edib getməsini də Dinnadan gizlətmədi.

– Bir az melodramatikdir, – Dinna fikrini bildirdi.

– Lara italyandır. O, aktrisadır. Onun etdiyi hər bir hərəkət melodramatikdir.

– Melodramatik idi. – Deanna gülümsəyib sanki onun səhvini düzəltdi.

Belə deyərkən o gözlərini ona dikmişdi. Sonra ondan işi haqda soruşdu, dedi ki, onun şirkətinin hansı işlə məşğul olmasından xəbərsizdir.

Telegram: @cinciva

– Sənə qəribə də gəlsə mən texniki işlərdən bir az uzağam, – o dedi.

Dinna artıq Amerikan ləhcəsində danışırdı. Ayaqlarını Edin ayaqları üstünə qoymuşdu.

Ed işinin nədən ibarət olduğunu ona izah etməyə başladı. Ed danışdıqca Dinna gözlərini onun ağzına dikmişdi. O, Ronanla işə necə başladıqları ilk sınaqlardan, ilk ideyanın elə çarpayıda ağıllarına gəlməsindən danışdı. Maqnit kimi onları özünə çəkən media ilə görüşlərindən söz açdı.

İlk dəfə qiymətlərin qalxmasından, onların həyatındakı dəyişiklikləri yadına salırdı.

– Sən özünü dövlətli hesab edirsən? – Deanna soruşdu.

– Əlbəttə! – Ed dedi.

– Bunu necə izah edirsən? – Deanna soruşdu.

Edə elə gəldi ki, Deanna onu axmaq yerinə qoyub.

– Boşanana qədər vəziyyətim daha yaxşı idi. Sözsüz ki, indi də pis deyil. Özün bilirsən ki, mən çox da pulla maraqlanan adam deyiləm.

Belə deyib çiyinlərini çəkdi, davam etdi:

– Bir sözlə, işimdən razıyam. Mən öz şirkətimi xoşlayıram. İdeyalar verməyi, ideyalarımı insanların xeyrinə işləyən reallığa çevirməyi sevirəm.

– Bəs axı sən şirkətini satmısan?

– Bəli, şirkətim çox böyüyürdü. Mənə demişdilər ki, biz daha da inkişaf etdikcə Kostyumlular bütün maliyyə ehtiyatını ələ keçirə bilərlər. Mən heç vaxt işlərimin bu tərəfi ilə maraqlanmamışdım. Hər halda, mənim özümün çoxlu qiymətli kağız paylarım var.

Telegram: @cinciva

Ed gözünü Dinnaya zilləmişdi, yavaşca dilləndi:

– Sənin saçların həqiqətən də çox gözəldir.

Heç özü də bilmədi ki, bu sözləri hansı məqsədlə demişdi.

Taksidə olarkən Dinna onu öpdü. Bəli, Dinna taksidə olanda Edin üzünü incə əlləri ilə yavaşca özünə tərəf çəkib öpdü. Universiteti qurtarmalarından on iki il keçməsinə, onun aktrisa ilə neçə il evli olmasına baxmayaraq beynində bir fikir dolaşırdı: Dinna Levis məni öpür.

Həm də Dinna onu təkcə öpmədi, yubkasını bir az yuxarı qaldırıb uzun, nazik qılçalarını onun qıçları üstünə aşırdı, taksi sürücüsünü unudub özünü ona sıxıb üzünü, boynunu öpdü, əllərini köynəyinin içinə saldı, artıq Ed bir kəlmə belə deyə bilmirdi. Evinə çatıb taksidən düşəndə o nəinki verdiyi pulun qalığını götürdü, hətta sürücüyə nə qədər pul verdiyini də bilmədi.

Amma onunla seks çox möhtəşəm idi. Aman Allah, bu çox əlaydı! O, porno hərəkətlər edirdi. Son aylarda Lara ilə seks nəyinsə xətrinə olurdu. Edin etdiyi hərəkətdən asılı olaraq müxtəlif olurdu – tutaq ki, Ed ona kifayət qədər çox diqqət yetirmişdi, ya onunla daha çox vaxt keçirmişdi, ya onu restorana nahara aparmışdı və s. Hərdən də Lara arxasını ona çevirib elə yatırdı ki, sanki əri hansısa pis hərəkət edib.

Dinna Levis lüt soyunub ona baxanda, gözləriylə az qala onu yeyəndə Ed bilmədi ki, nə desin.

– Aman Tanrım! Dinna Levis mənimlədir.

Telegram: @cinciva

Sonra isə o, çarpayıda uzanıb üzünü onun penisinə sürtüb dedi: "Çoxdandır ki, belə bir siqaret çəkmirdim! Amma belə bir şeyi.....", – deyib şaqqanaq çəkdi.

– Desəydin mən özüm ... – Ed dedi.

Dinna "siqareti çəkib" qurtarandan sonra elə hərəkətlər etdi ki, Edə elə gəldi aşağı qonşuların hamısı həmin vaxtda "siqaret" çəkməklə məşğuldur.

O biri gecə də o, Edlə bir yerdə qaldı, o biri gün könülsüz getdi. Həmin vaxt o, həftə ərzində qardaşı ilə bir yerdə Fulhəmda, həftə sonu isə valideynləri ilə Bristolda qalırdı. İlk birinci həftə o gündəlik olaraq onun elektron poçtuna məktub yazdı və üç dəfə zəng etdi.

Ed onun barəsində Ronana heç nə demədi. O, Dinnanın mesajlarına çarpayısında uzanıqlı halda cavab verirdi. Çalışırdı ki, onun haqqında çox düşünməsin. Öz-özünə deyirdi: "Heç bir ciddi şey olmayıb".

Bir müddət əlaqələrə son qoydular. Hər ikisi sərbəst yaşamağın üstünlüyündən söz açdılar. Bir axşam Ed azca çox içmişdi. Özünü tək-tənha hiss edir, kədərliydi. Bir az dayanıb Dinnaya belə yazdı:

– Bu həftəsonu yanıma gəl.

– Gələ bilmərəm, – cavab çox tez gəldi

– Niyə?

– Müflis olmuşam.

Ed bir anlıq onun qara saçlarını barmaqları arasında hiss etdi. O, başı üstündə Laranın yox, başqa bir qadının durmasının necə gözəl olmasını düşündü. Ona cavab yazdı:

Telegram: @cinciva

– Sən gəl. Pulunu verəcəm.

O, cümə günü gecə gəldi. Onlar birlikdə yerli barlara getdilər, gəmiylə çayda səyahət, pivəxanaya gedib bir yerdə nahar etdilər.

...Dinna qollarını onun boynuna doladı, Ed sakitcə gözlərinin onun barmaqlarına zilləyib sakitcə deyirdi: "Dinna Levis! Mən Dinna Levislə yatıram. Levislə!

O elə ehtiraslı, elə gülərüz idi ki... o elə gülümsəyirdi ki, ona baxan kimi özün də gülümsəyirdin. Sən yatan kimi potmanatını oğurlamayan onun kimi birisiylə seksl̀ə məşğul olmaq elə gözəl idi ki...

Bazar günü axşam onlar birlikdə şam yeməyi yeyib, çoxlu şampan içdilər, sonra isə Edin evinə gəldilər. Evə çatan kimi Dinna əynindəki ipək kimi yumşaq qara şalvarını dartıb çıxardı. Əslində bu şalvarları çıxarmaq heç də çətin deyil, belindəki ipdən dartan kimi bir damcı su kimi sürüşüb ombasından aşağı düşür.

Dinnayla bir yataqda yatıb əlini onun qara saçlarına qoyanda, barmaqları arasında oynadanda Ed bu həyatın doğrudan da gözəl olduğunu düşünürdü.

Belə vaxtların birində Dinna ona dedi:

– Mən münasibətlərimiz haqqında valideynlərimə demişəm.

Ed təəccübdən yerində donub qaldı:

– Valideynlərinə?

– Buna narazı olmarsan, eləmi? Təzədən özümün... bədənimin... kiməsə məxsus olmasını düşünmək elə yaxşıdır ki...

Telegram: @cinciva

Ed gözlərini tavana zilləyib qalmışdı, ürəyində öz-özünə deyirdi: "Bəli, bəzi adamlar hər boş şeyi valideynlərinə deyirlər. Hətta cəmi iki həftədən sonra".

– Mən depressiyada idim. Amma indi... İndi... Özümü əla hiss edirəm. Xoşbəxtəm... Xoşbəxtlikdən dəli kimiyəm. Yuxudan duran kimi sənin barəndə fikirləşirəm... Həyatımda hər şey gözəldir, – Dinna işıq saçan gözlərini ona dikdi.

Ed maraqla soruşdu:

– Sən depressiyada idin?

– Hə. Amma indi hər şey qaydasındadır. Valideynlərim həqiqətən də mənə qarşı çox diqqətlidir. Başıma gələnlərdən sonra onlar məni həkimə apardılar, dərmanlar aldılar. Onlar mənə çox kömək etdilər. Valideynlər nə qədər qadağa qoysalar da, onlardan şikayətlənmək olmur....

– Mən hər xırda şeyi hiss edirəm. Həkimim deyir ki, çox həssasam. Adamlar var ki, hər çətinliyə dözə bilirlər. Mən belə adamlardan deyiləm. Bəzən olur ki, mən hansısa uzaq bir ölkədə heyvanın ya balaca uşağın ölüm xəbərini oxuyuram. Sözün həqiqi mənasında hönkürüb ağlayıram. Həqiqətən də, ağlayıram. Universitetdə oxuyanda da beləydim. Yadına gəlmir?

– Yox, xatırlaya bilmirəm.

Bu vaxt Dinna əlini Edin "xoruzunun" üstünə qoydu. Nədənsə Ed hiss etdi ki, bu dəfə Dinnanın istəyini onun ürəyincə yerinə yetirə bilməyəcək.

Telegram: @cinciva

O başını qaldırıb Edə baxdı. Onun qara saçları üzünə dağılmışdı, o saçını geri itələdi.

– İşi, evi itirmək çox pis şeydir. Sən müflis olmağın nə demək olduğunu bilmirsən.

Dinna gözlərini ona zilləmişdi, sanki ona nə qədər söz demək olduğunu götür-qoy edirdi.

– Bununla nəyi nəzərdə tutursan?

– Mən keçmiş ərimə bir yığın pul borcluyam. Amma ona dedim ki, bu pulları ona verməyəcəm. Çoxlu kredit borcum var. Buna baxmayaraq, elə hey mənə zəng edir, ona olan borcumu yadıma salır. Bu mənim gərgin olmağıma səbəb olur. O necə gərgin olduğumu başa düşmür.

– Sən nə qədər borcdan danışırsan?

– Eh, bir az çoxdur.

– Nə qədər?

Ed heç özü də əmin deyildi ki, bunu niyə bilmək istəyir.

Dinna məbləği ona dedi. Edin heyrətdən ağzı açıla qaldı məbləğin nə qədər olduğunu biləndə.

Dinna dedi:

– Xahiş edirəm, mənə borc verməyi təklif etmə. Mən boy-frendimdən heç vaxt pul götürmərəm. Belə olanda münasibətlər daha da mürəkkəbləşir.

Ed çalışdı ki, onun "boy-frend" sözünü necə gözəl tələffüz etməsini düşünməsin.

Ona baxdı, alt dodaqları titrəyirdi.

– Hm... Hm... Hər şey normaldır? Sənə heç nə olmayıb ki?

Telegram: @cinciva

Onun təbəssümü elə şirin idi ki.

– Mən yaxşıyam. Sağ ol, sənə minnətdaram, yaxşıyam.

Belə deyib barmağını onun sinəsinə toxundurdu:

– Yaxşı olar ki, borc haqqında düşünməyək.

Belə deyib o, Edin döşünün giləsini öpdü.

Həmin gecə Dinna qıçının birini onun boynuna dolayıb yatdı.

Ed dərin yuxuya getmədi. Nədənsə Ronana zəng etməyi arzuladı.

***

Növbəti cümə günü Dinna yenə gəldi. O biri cümə yenə gəldi. Neçə dəfə Ed ona dedi ki, həftəsonları görüləsi işləri var, amma qız bunu qulaqardına vurdu. Özünü elə göstərdi ki, sanki heç eşitmir. Atası ona pul vermişdi ki, nahar etsinlər.

– Atam deyir ki, məni təzədən xoşbəxt görmək onu çox sevindirir.

Tube stansiyasından onun evinə tərəf gələndə Ed ona zəng edib soyuqladığını dedi. Güman ki, onu öpməyə gəlmirdi.

– Eybi yox. Sənə soyuq olubsa, fərz et ki, mən də soyuqlamışam.

Evə çatan kimi bir neçə dəqiqə üzünü Edin üzünə söykəyib dayandı.

Onlar yeməkxanaya gedib pizza yedilər. Onun baxışları Edin içində narahatlıq yaradırdı. O hər şeydə bir

Telegram: @cinciva

məna axtarırdı. Belə ki, qırmızı avtobusu görəndə sevinir, amma kafedə pəncərənin qabağında dibçəkdəki solğun gül onu kövrəldirdi. Hamının üzünə gülümsəyirdi. O qədər çox danışırdı ki, hərdən deyirdi son dəfə nə vaxt danışmadan yemək yediyi yadına gəlmir. Evdə olanda isə o sidiyə gedəndə hamamın qapısını açıq qoyurdu. Elə bil Edin evinə qonaq gəlmiş at özünü yüngülləşdirirdi.

Yox, Ed buna hazır deyildi. Dinnanın ehtiyacları çox idi. Ed öz evində sərbəst olmaq istəyirdi, həmişəki kimi. O sakitlik istəyir, köhnə rejiminə qayıtmaq istəyirdi. Ona elə gəlirdi Dinna elə həmişə onun otağında olub, o heç vaxt tək olmayıb.

Həmin gecə Ed ona dedi ki, sekslə məşğul olmaq istəmir.

– Mən çox yorğunam, – Ed demişdi.

– Özümə arxayınam ki, səni "oyada" bilərəm.

Bunu deyib özünü çarpayıya atıb Edin üstünə uzandı. Ed bu "ağır yükün" altından canını qurtara bilmədi.

Dinna onun "xoruzunu" tıxac kimi ağzına alanda Ed dözə bilmədi:

– Dinna... indi yox... indi yox.

– Bilmək istəyirəm ki, sən məni yalnız bədənimə görə istəmirsən...

O, Edin qollarını qaldırıb öz boynuna doladı, balaca heyvan kimi inildəyəndən sonra onun qollarını buraxdı.

Ed Nicolls qaranlıqda gözlərini geniş açıb fikrə getmişdi.

Telegram: @cinciva

Düşünürdü ki, bəzən insan heç özü də bilmir qəflətən kimsə onun həyatına daxil olub həyatını yüz səksən dərəcədə dəyişə bilər.

O, dərindən nəfəs aldı.

– Hm... Hm... Dinna, gələn həftə mən iş üçün səfərə çıxmalıyam.

– Hara gedəcəksən? Gəzməli yerdir? – əllərini onun ombasına sürtərək soruşdu.

– Hm... Cenevrəyə gedirəm.

– Oh, nə gözəl. Çamadanının içində məni də apara bilərsən? – Dinna güldü.

– Nə?

– Mən səndən qabaq ora gedib otel otağında səni gözləyə bilərəm. Sən iclasdan yorğun qayıdanda sənin alnına sığal çəkib yorğunluğunu sənə unutduraram.

O, əlini uzadıb onun alnını sığalladı.

Edin edə biləcəyi yeganə hərəkət səksənib qalxmamağıydı.

– Həqiqətən? Düz deyirsən? Amma bil ki, bu sən deyən səfər deyil.

– Sənin bəxtin gətirib. Mən səyahət etməyi sevirəm. Əgər pulum olsaydı, elə bu dəqiqə təyyarəyə minib sən gedəcəyin yerə uçardım.

– Doğru deyirsən?

– Hə. Mən uşaqlıqdan sərbəst olmuşam. Uşaq kimi şıltaq.

Bunu deyib Dinna stolun üstündəki siqaret qutusundan bir siqaret götürüb yandırdı.

Telegram: @cinciva

– Deməli, mənimlə gedib yenə geri qayıtmaq istəyirsən?

– Hə, sonra da güllə kimi geri uçaram.

Ed çarpayıda uzanıb fikirləşəndə Dinna soruşdu:

– Sənin səhmlərin, payların varmı? – Ed ondan soruşdu.

O, Edin üstüylə diyirlənib yenidən öz yerinə qayıtdı.

– Çox az. Məncə bunlar mənə nənəmdən qalıb. Hansısa binada yüz səhm və iki yüz də Woolworths-dadır. Ha-ha... Çoxdur? Amma heç ağlına da gətirmə ki, mən birjalarda mərc gəlib qumar oynayıram, – belə deyib güldü.

Ed ağzından nə çıxdığını bilmədi:

– Bu, qumar deyil.

– Nə qumar deyil?

– Biz buna bənzər bir işlə məşğuluq. Bir neçə həftə sonra gəlirlərimiz olacaq. Böyük dəyişiklik gözlənilir.

– O nə işdir elə?

– Bu haqda sənə çox danışa bilmərəm. Bircə onu deyim ki, biz bu iş üzərində bir müddətdir ki, işləyirik. Bu iş bizi irəliyə aparacaq. Bütün biznesimiz bunla əlaqəlidir.

Dinna onun yanında sakitcə durmuşdu.

– Biz bu işdən böyük məbləğdə pul qazanacağıq.

Dinna özünü elə göstərdi ki, sanki Edin sözləri ona inandırıcı gəlmir.

– Yoxsa sən istəyirsən ki, mən mərc gəlim və son qəpik-quruşumu da bu mərcdə uduzum? Halbuki mən

Telegram: @cinciva

sənin danışdığın işin heç adını da bilmirəm, – Nəhayət, Dinna sözə başladı.

– Dinna, sənin o işin adını bilməyinə ehtiyac yoxdur. Sadəcə, istəsən mənim şirkətimdən paylar ala bilərsən. Bax, sən eks-ərinə borclu olduğun bir neçə min funtdan narahatsan. Amma əmin edirəm ki, sən bizim şirkətin paylarını alsan, keçmiş ərinə olan borcunu iki həftənin içində qaytara bilərsən. Sonra isə sən azadsan! İstədiyini edə bilərsən! İstədiyin yerə gedə bilərsən!

Araya uzun sükut çökdü.

– Ed Nikolls, deməli, sən bu yolla pul qazanırsan? Sən qadınları yatağına salırsan, sonra da onlara deyirsən ki, sənin şirkətinin paylarını alsın? Eləmi?

– Yox, sən məni düz anlamadın.

Dinna üzünü çevirdi, Ed hiss etdi ki, qız onunla zarafat edir.

Sonra o, əlini Edin üzünə qoyub onun yanaqlarını sığalladı:

– Sən mənə çox şirin... çox doğmasan. Bu çox yaxşı bir hissdir. Amma mənim indi minlərlə funtum yoxdur ki, şirkətinizin paylarını alım.

Ed ağzından sözlərin necə çıxdığından xəbəri olmadı:

– Mən sənə bu qədər pulu borc verə bilərəm. Əgər qazansan, pulumu geri qaytararsan. Yox, əgər pul qazana bilməsən, sənə pis məsləhət verdiyim üçün özüm günahkaram.

Dinna gülməyə başladı, amma Edin zarafat etmədiyini görəndə gülməyi dayandırdı.

Telegram: @cinciva

– Sən bunu mənimçün edərsən?

Ed razılıq mənasında başını yırğaladı:

– Düz deyirəm. Beş min dollar hal-hazırda mənimçün elə də önəmli deyil.

Ürəyində isə belə deyirdi "Lap bundan on dəfə də çox verərəm ki, burdan çıxıb gedəsən".

Diannanın gözləri heyrətdən bərələ qaldı.

– Aman Tanrım! Bu vaxtacan heç kim bunu mənə etməyib! Yox, mən buna inanmıram.

Səhər tezdən Dinna getməzdən əvvəl Ed ona çek yazdı. Bu vaxt o zaldakı güzgü qarşısında durub saçlarını yığırdı. Ondan alma iyi gəlirdi. Edin nə etdiyini dərk edəndə dedi:

– Blankı boş qoy. Qardaşıma deyəcəm ki, bu blankı mənimçün doldursun. O belə işlərdə mahirdir. Söz verirəm ki, tezliklə qaytaracam borcunu.

– Buyur, – Ed biznes kartı ona uzatdı:

– Bax, bu şirkətin adıdır. Dediyim kimi et. Söz verirəm bu sənə kömək edəcək. Səni müflis görmək istəmirəm.

O ürəyinin dərinliyindən gələn, onu xəbərdar etmək istəyən səsi boğdu.

***

Demək olar ki, Dinnadan gələn bütün mesajlara Ed sonralar cavab yazdı.

Özünü ehtiyatlı hiss edir, şən olmağa çalışırdı. İçində özünə deyirdi ki, nə yaxşı onu başa düşən bir nəfərlə vaxt keçirib. Bu mesajına Dinna cavab yazmadı.

Telegram: @cinciva

Qəribə də olsa, Dinna pul haqqında daha söz açmırdı. İstəsəydi yüz min qazana bilərdi. Kim bilir, bəlkə də o, çeki itirib, indi əlinə iynə alıb Edin şəkillərini deşməklə məşğuldur. Ya da bəlkə o Gvadelupedə olub həmin vaxtlar. Hər dəfə nə etdiyini yadına salanda Edin qarnına sancı dolurdu. Çalışırdı ki, bu haqda düşünməsin.

O mobil nömrəsini dəyişdi, öz-özünə deyirdi ki, bu sirri ona açmaq onun başına gələn bir bədbəxt hadisədir. Tədricən Dinnanın mesajları da azalmağa başlayırdı. İki ay da keçdi. Bir neçə dəfə o, Ronanla bir yerdə gecələr bir yerdə vaxt keçirib, Kostyumlulardan gileylənirdilər.

Ronan onların şirkətini təhlükə altına qoya bilən təhlükələrdən danışanda Ed baş verənlərin ona dərs verdiyini anlayırdı.

SFAX-ın dövriyyəyə buraxılmasından iki həftə sonra o iş otağında uzanmışdı. Otağının tavanına köpük şarlar üfürür, çətinliklərin öhdəsindən gəlmək üçün Ronanın dediklərini dinləyirdi ki, maliyyə direktoru Sidney içəri girdi. Elə bu anlarda Ed nəsə daha pis hadisənin baş verdiyini, yapışqan kimi sənə yapışıb qopmaq istəməyən qızın ucbatından özünə necə problem yaratdığını hiss etdi.

***

– Ed, bura bax.

– Nədir?

Qısa pauza.

Telegram: @cinciva

– Sən telefon zənglərinə belə cavab verirsən? Sən neçə yaşında olanda sosial bacarıqları öyrənəcəksən?

– Salam, Gemma! – Ed bacısının səsini eşidib ah çəkdi. Ayaqlarını çarpayının üstündə rahatlayıb oturdu.

– Demişdin ki, özün zəng edəcəksən. Hə, düz bir həftə əvvəl demişdin bunu. Mən də elə düşünürəm ki, üstünə ağır mebel aşıb.

Ed başını qaldırıb yataq otağına baxdı. Stulun başına keçirdiyi pencəyinə, divarda ona saat səkkizin yarısını olduğunu deyən divar saatına baxdı, əliylə boynunun arxasını ovuşdurdu.

– Hə, bəzi işlər çıxdı ortaya.

– Sənin iş yerinə zəng etdim, dedilər ki, evdəsən. Xəstələnmisən?

– Yox. Xəstə deyiləm... amma... bir iş üzərində işləyirəm.

– Nə deyirsən, vaxt tapıb atanı görməyə gələcəksən?

Ed gözlərini yumdu.

– Mən hazırda çox məşğulam.

Araya ağır sükut çökdü. Gemma heç nə demədi. Bir anlıq Ed xəttin o başında dayanan bacısını göz önünə gətirdi. Lal-dinməz gözlərini göyə dikən bacısını.

– Ata tez-tez səni soruşur. İllərdir ki, o elə hey səni soruşur.

– Gem, gələcəm... Amma... Mən... İndi şəhərdən kənardayam. Bəzi şeyləri aydınlaşdırmalıyam.

– Ed, hamımızın işi, problemi var. Söz ver ki, ataya zəng edəcəksən, oldumu? Lüks maşınlarından birinə

Telegram: @cinciva

minib ona baş çəkmək imkanın yoxdursa ən azı ona zəng et. O indi "Viktoriya War"da köçüb. Sən zəng edən kimi telefonu ona verəcəklər.

– Ok.

Edə elə gəldi ki, bacısı telefonu söndürüb, amma onun ah çəkdiyini eşitdi.

– Çox yorğunam, Ed! Hər həftə gedib ata-anama baş çəkməliyəm.

Ed günahının ağırlığını duydu. Bacısı heç vaxt şikayət etməzdi.

– Söz verirəm ki, vaxt tapıb onlara baş çəkəcəm.

– Ed, sən keçən həftə də belə demişdin. Bura bax, onların yanına getmək üçün uzağı dörd saat maşın sürməyin kifayətdir.

– Mən indi Londonda deyiləm, Gem!

– Haradasan?

Ed başını qaldırıb qaranlıqlaşan səmaya baxdı:

– Cənub sahilində.

– Məzuniyyətdəsən?

– Yox, işlərim bir az dolaşıqdır.

– Sənin inamın çox azdır. Bəlkə də sıfıra bərabərdir.

– Sağ ol, bunu mənim yadıma saldığına görə.

– Özünə inamlı ol. Bu sənin şirkətindir. Özünə ikihəftəlik məzuniyyət ayır. Öz şirkətinin Kim-Yonq-un-u ol! Diktə et!

Daha uzun sükut...

– Getdikcə daha qəribə olursan. Baş açmaq olmur səndən, – Gemma dedi.

Telegram: @cinciva

Ed ona cavab verməzdən əvvəl dərindən nəfəs aldı.

– Söz verirəm, vaxt tapıb gələcəm.

– Ok. Anaya zəng et.

– Zəng edəcəm.

Danışıq kəsiləndə xəttin o başında çıqqıltı oldu.

Ed bir müddət gözünü telefona zillədi. Sonra vəkilinin ofisinə zəng etdi. Avtocavabçının səsi eşidildi.

Müstəntiqlər onun otağında hər siyirməni çəkib baxmışdılar. Kinolarda olduğu kimi, onlar siyirmələrin içində olanları döşəməyə tökməmişdilər. Əllərində əlcək idman dəstinin astarını, hər qovluğun içini açıb-baxırdılar. Hər iki kompüterini, iki telefonunu götürmüşdülər. O bunların hamısına imza etmişdi, sanki onların hamısı onun xeyrinə idi.

– Şəhərdən çıxıb get. Çalış bu barədə heç nə düşünməyəsən. Əgər gəlməyinə ehtiyac olsa, özüm zəng edəcəm, – vəkili demişdi.

Müstəntiqlər buranı da axtarmışdılar. Burda az şey olduğundan onların axtarışı heç bir saat çəkmədi.

Ed istirahət evinin yataq otağında dayanıb ətrafına nəzər saldı. Həmin səhər ev təmizləyənlərin çarpayının üstünə saldığı təzə yumşaq örtüyə baxdı. Paltar şkafındakı cins şalvarını, idman dəstini, corabları gözdən keçirdi.

– Şəhərdən çıxıb get. Əgər deyilənlər düz olsa, bu o deməkdir ki, səhmlərimizin qiyməti ilə oyun oynamısan, – Sidney də ona belə demişdi.

Polis onun kabinetinə gəlib gedəndən bəri Ronan onunla kəlmə də kəsməmişdi.

Telegram: @cinciva

Ed telefona baxdı. Hazırda bacısı Gemmadan başqa o kimə zəng etsəydi, mütləq başına gələnləri izah etməliydi. Hə, təkcə Gemma bilmirdi onun başına gələnləri! Ronandan başqa bütün başqa dostlarının ona olan münasibətini bilmək istəyirdi. Ed divara baxdı. O fikirləşdi ki, keçən həftə Londonun hər tərəfini maşınla fırlanıb, işsiz nə edəcəyini bilmirdi. Dinna Levisə, Sidneyə həyatında baş verənlərə acıqlanıb bir butulka ağ şərabı divara necə tolazladığını yadına saldı. Əgər yenidən öz işinə qayıtsaydı onda da sevincindən belə edərdi.

O, stulun başına keçirdiyi pencəyini əyninə geyib, arxa qapının yanındakı komodun siyirməsindən açar brelokunu götürüb otaqdan çıxıb maşınına tərəf getdi.

Telegram: @cinciva

4

CESS

Tanzi həmişə bir az fərqli olmuşdu. Hələ bir yaşı olanda o oyuncaq kubiklərini sıra ilə, hər birini ayrı-ayrı düzər, sonra onlardan birini, ya ikisini dartar, yeni formalar yaradardı. İki yaşı olanda o artıq rəqəmləri tanıyırdı. Hələ məktəbə getməmişdən əvvəl isə riyaziyyata aid suallar olan kitablara baxardı. Belə kitablardakı suallar adətən aşağıdakı kimidir: "Niyə bir 1 kimi yazılır, 2 kimi yox?" Tanzi anasına deyirdi ki, vurma əməliyyatı əlavə etməyin başqa bir yolu imiş. Altı yaşı olanda Tanzi artıq "mozaika" sözünün mənasını bilirdi.

Marti bunu xoşlamırdı, narahat olurdu. "Normal" olmayan istənilən hərəkət Martini narahat edirdi. Amma Tanzinin hərəkətləri Cessi sevindirir, onu xoşbəxt edirdi. Onlara nadir hallarda gələn Martinin anası isə Tanzini əzbərçi adlandırır, bunu yaxşı şey hesab etmirdi.

– Hə, de görüm, nə etmək istəyirsən? – Natali soruşdu.

– İndi heç nə edə bilmirəm, – Cess cavab verdi.

Telegram: @cinciva

– Tanzi özəl məktəbə getsə, ordakı lovğa uşaqlarla bir yerdə oxusa nəsə problem olmayacaq ki?

– Bilmirəm, bəlkə də ola bilər. Amma bu bizim problemdir, onun yox, – Cess cavab verdi.

– Bəs o səndən uzaqlaşsa necə? Özünün əsl-nəcabətindən utansa necə?

– Nə?

– Sadəcə demək istəyirəm ki, o hansı nəsildən çıxdığını unuda bilər. – Natali dedi.

Cess başı sürməyə qarışan Nataliyə baxdı:

– Bəlkə də Tanzi hansı nəsildən çıxdığını unutsa, buna sevinərəm.

Cess Nataliyə Müqəddəs Ann məktəbindəki söhbət haqqında danışandan bəri nədənsə Natali buna qəribə baxırdı. Çünki neçə illərdir ki, o, hər səhər tezdən iki uşağını MakArtur məktəbinə aparıb-gətirir, bununla özünü xoşbəxt hesab edirdi. Düşünüb ki, onun uşaqları "normal" təhsil alırlar. İndi isə Tanzinin "fərqli" olduğunu qəbul edə bilmirdi.

Həqiqət o idi ki, Müqəddəs Ann məktəbindən gələndən bəri Tanzi çox həyəcanlı, sevincək idi. Neçə ay idi ki, o belə sevinməmişdi. Onun riyaziyyat testinin nəticəsi 100 faiz düz, o biri suallardan isə 99 faiz düz idi. (bir faizi düz etmədiyindən o, çox narahat idi).Tsvangarai Cessə zəng edib dedi ki, təqaüdün başqa "xırdalıqları" da ola bilər. Yəni əlavə kömək. Cess öz-özünə deyirdi ki, hələ də elə adamlar var pulu "xırdalıqlar" adlandırır.

Telegram: @cinciva

– Heç bilirsənmi ki, Tanzi yenə də o əyninə yekə uniformanı geyməli olacaq.

Bunu Biçfronta çatanda Natali Cessə dedi.

– Natali, Tanzi məktəbə uniforma geyməyəcək, – Cess əsəbi halda cavab verdi.

– Belə olsa o biri şagirdlər onu məsxərəyə qoyacaqlar.

– Natali, Tanzi o məktəbə uniform geyməyəcək, çünki o ora getməyəcək. Ümidim yoxdur ki, onu bu məktəbə göndərə bilim. İndi anladın?

Cess maşının qapısını şappıltıyla örtüb düşdü, Natalini gözləmədən yoluna davam etdi, bununla demək istədi ki, o heç bir sual eşitmək istəmir.

Yalnız yerlilər Biçfrontu "tətil parkı" adlandırırdılar. Buranı tikənlər bu yeri istirahət mərkəzi, sanatoriya adlandırırdılar. Çünki bu yer Si Brayt kimi təpənin başında yerləşmirdi, ayrı-ayrı yerlərdə müxtəlif formada tikilmiş evlərdən ibarət deyildi. Burda idman zalı, tennis kortu, üzgüçülük hovuzu, (əvvəldən yerli əhaliyə söz versələr də sonradan onları bura buraxmadılar), mini supermarketlər və s. vardı.

Çərşənbə axşamı və cümə axşamları, cümə günləri Natali Benson və Cess Tomas Biçfrontda iki mənzili, üç yataq otağı olan klub binası kimi geniş malikanələri təmizləyirdilər, sonra isə daha təzə tikilmiş müasir evləri təmizləməyə gedirdilər.

Cənab Nikolls darvazasının ağzında par-par yanan "Audi" saxlayardı. Natali və Cess bircə dəfə də olsun bu maşının sürüldüyünü görməmişdilər.

Telegram: @cinciva

Bir dəfə onun evinə iki uşağı və bomboz üzü olan əri ilə bir qadın gəlmişdi, o dedi ki, Nikollsun bacısıdır (yeri gəlmişkən, onlar gedəndə ev tərtəmiz idi). Başqa vaxtlarda onlar yalnız mətbəxi və yataq otağını təmizləyərdilər. Dəsmal və paltarların camaşırxanaya aparılması, gətirilib ütülənməsi üçün Cess əlavə pul alırdı.

Çoxlu dəsmallar yuyulub ütülənsə də bu evə heç vaxt qonaq gəlmirdi.

Onun evi çox geniş idi, divarlar əks-səda verirdi. Evdə dəniz bitkiləri vardı. Eləcə də bahalı səs sistemi quraşdırılmışdı divarlara. Amma evin divarlarında şəkillər asılmamışdı. Hətta Natali deyirdi ki, Nikolls sanki bu evdə yaşamır, yalnız gecələməyə gəlir bura. O deyirdi ola bilməz ki, o bu evə qadın gətirməsin. Bir dəfə Natali hamam otağından pomada tapmışdı, keçən il isə krujevalı yataq şalvarı və bir topa qadın alt paltarı görmüşdülər çarpayının altında.

Cess öz evini yadına saldı. Dar, cırıldayan pilləkənlər. Qopub düşən divar kağızı, (o yalnız nadir hallarda müştərilərinin evi ilə öz evini müqayisə edərdi. Belə olsa o dəli olardı çoxdan). Bu evin sahibi heç vaxt kitab şkafı almaq barədə düşünməyib, ya da üzvlük haqqı verilməsindən narahat olmayıb.

– O evdədir, – Natali dodaqaltı mızıldandı.

Onlar otağın giriş qapısını örtdüklərinə görə Nikollsın səsi dəhlizdə əks-səda verirdi. Deyəsən kiminləsə telefonla danışır, mübahisə edirdi. Natali onun səsini eşidib ağız-burnunu əydi, yavaş-yavaş zaldan gəlib keçdi.

Telegram: @cinciva

– Ev təmizləyənlərik, – o, kişini çağırdı. Kişi cavab vermədi, amma ola bilməzdi ki, o Natalinin səsini eşitməsin.

Onlar mətbəxi təmizləyib qurtarana qədər kişinin telefonla mübahisəsi qurtarmamışdı. Mətbəxdə cəmi bir fincan işlənmişdi, iki boş karton qutunu atmaq lazım idi. Soyuducunun yanında şüşə qırıqları, ətrafa səpələnmiş xırda qəlpələr vardı. Sanki kimsə sınmış stəkanın iri qırıqlarını yığmış, amma xırda qırıqları yığışdırmağa səbri çatmamışdı. Həm də divarda şərab ləkəsi vardı, elə bil şərab butulkasını divara çırpmışdılar. Cess divardakı ləkəni ehtiyatla yuyub təmizlədi. Evdən şərab iyi gəlirdi. Kişi isə hələ də mübahisə edirdi. Onlar kişinin telefonda nə dediyini yaxşı eşitmirdilər, çünki o olan otağın qapısı örtülü idi. Həm də o qapının ağzında danışmırdı. Bununla belə onun səsinin tonundan cin atına mindiyini hiss etmək olardı. Cess və Natali mətbəxdə sakitcə işlərini görürdülər, bir-biriylə pıçıltı ilə danışır, özlərini elə aparırdılar ki, guya kişinin otaqda olmasından xəbərsizdilər.

Onlar mətbəxdəki işlərini qurtarandan sonra Natali qonaq otağına keçdi, Cess isə zala getdi. O aşağı mərtəbəni, yemək otağını da yığışdırdı. Palıd ağacından düzəldilmiş iri stolu, onun ətrafında sıralanmış stulları bir-bir qaldırıb otağı təmizlədi. Burda olan şəkil çərçivələrini o yumşaq parça ilə təmizlədi. O istəyirdi ki, otağa girən kimi çərçivələrinin tozunun alındığı dərhal

Telegram: @cinciva

hiss edilsin. Üstü bəzəkli stolun üstündə bir butulka və bir stəkan vardı, Cess onları içəri apardı.

Cess iş görərkən Nikini düşünürdü. Dünən o məktəbdən qulağı zərbədən göyərmiş, şalvarının dizi çirkə batmış halda qayıtmışdı. İndi Nikinin həyatı pərdənin o biri tərəfində olan oğlanlardan asılı idi. Cess onu döyən oğlanları heç vaxt görməmişdi, belə getsə heç vaxt da görməyəcəkdi. O həmin oğlanları SK və RBOİ, TERM-N-ATOR adlandırırdı. Nikin dediyinə görə, onlar bir-birini əyləncə xətrinə əzişdirir, ağız-burunlarını guya gülmək xətrinə qana boyayırdılar. Onu kim günahlandıra bilərdi? Onun həyatı müharibə zonasına dönmüşdü.

İndi də Cess Tanzi haqqında düşünür, riyaziyyat müəllimi ilə danışarkən onun necə sevinməsini yadına saldı. Məktəb direktoru ilə söhbətdən sonra Cess bütün günü beynində hesablama aparır, gah üstə gəlir, gah çıxırdı. Onun beynində apardığı hesablama əməliyyatlarından Tanzinin xəbəri olsaydı ürəkdən gülərdi. Nə etsə də məktəbin verəcəyi təqaüd elə Cessin beynindəydi, sanki diş ağrısı kimi beyninə girib özünə orda məskən salmışdı. Cess bapbalaca maliyyə təpələrindən iri maliyyə dağları düzəltmək istəyirdi. O bəzi xırda-para şeyləri satdı. Beynində ona borc verə biləcək bütün adamları götür-qoy etdi. O bir-birindən tam fərqli adamların ona borc verəcəyini hesab edirdi: anası, Dorsetdə yaşayan xalası, bir vaxtlar evini təmizlədiyi, Tanzinin bacarıqlı uşaq olduğunu deyən, indi isə təqaüddə olan qadın ona borc verə bilərdi. Bəzi vaxtlarda əlli funt

Telegram: @cinciva

üçün ona-buna yalvaran Cessə indi heç kim bundan on dəfə çox pulu borc verməzdi. O həm də bilirdi, ona borc verə biləcək adamların heç bu qədər pulları yoxdur.

Cessə borc verməyi gücü çatan adamlar yalnız iri malikanələrdə yaşayan "balinalar " ola bilərdi. Bəzi qonşuları o "balinalardan" gedib bəhanələrlə borc almışdı, sonra isə bu " leşyeyən qartallardan" daima asılı qalmışdı. Cess yenə də Martinin sözlərini xatırladı. Doğrudanmı MakArtur məktəbi çox pis məktəbdir? Axı orda yaxşı oxuyanlar var. Niyə Tanzi də o şagirdlərdən biri olmasın?

Əsl həqiqət kərpic divar kimiydi. Cess Tomas həmişə Tanziyə deyirdi ki, ən çətin işin də öhdəsində gələ bilər. İndi isə məcbur qalıb onu o məktəbə qoymağa gücü çatmadığını deyə bilmirdi.

Cess fikirləşə-fikirləşə heç bir nahar edilməyən yemək otağını da təmizləyib qurtardı. Bu vaxt o hiss etdi ki, o biri otaqda hündürdən telefonla danışan Nikollsun səsi daha eşidilmir. Yəqin o nəhayət, mübahisə edib qurtarmışdı. Cess tozsoranı işə salıb zalı təmizlədi, hərdən də Nikolls olan otağın qapısını döydü, o olan otağı da təmizləməyə ehtiyac olub-olmadığını soruşmaq istədi. Cess qapını döysə də heç bir cavab gəlmədi, o yenə də qapını tıqqıldatdı. Bu dəfə kişinin möhkəm səslə danışdığını eşitdi:

"Sidney, mənim bundan xəbərim var. Ən azı on beş dəfə demisən, bu o demək deyil ki..."

Cess daha onun səsini eşidə bilmədi.

Telegram: @cinciva

O, artıq otağın qapısını açmışdı, buna görə o kişidən üzr istədi, kişi isə onu görən kimi əlini yüngülcə qaldırdı, sanki içəri girən insan deyil, itdir.

– Dayan, – kişi belə deyib qapını şappıltıyla onun üzünə örtdü. Qapının şappıltısı evdə əks-səda verdi.

Cess bir anlıq qapının arxasında sakitcə dayandı. Bütün bədəni əsəbdən səyriyirdi.

– Sənə dedim axı! Bu özəl məktəblər onun kimilərinə insanlarla necə rəftar etməyi öyrətmir, – hamamı təmizləyən Natali dedi.

Qırx dəqiqədən sonra onlar işlərini qurtardılar. Nikollsun tərtəmiz hamam dəsmallarını və yataq dəstlərini Cess bağlamanın içinə yığıb qapının ağzına qoydu ki, camaşırxanaya aparsınlar. Natali qapının dəstəyini təmizləyirdi. Bu onun sevdiyi iş idi. O, kranda və qapının dəstəyində olan barmaq izlərini təmizləməsə rahat olmurdu. Eləcə də qapının üstündə ünvan yazılan dəmir lövhəni təmizləyərdi, yazıların üstünü toz basardı, bəzən bu onlara gəldikləri ünvanı tapmaqda mane olurdu.

– Cənab Nikolls, biz gedirik.

Kişi indi mətbəxdəydi. Pəncərənin qapısını açıb gözlərini dənizə zilləmişdi. Bir əli başındaydı, sanki bir əlini başına qoyduğunu tamam unutmuşdu. Onun qara saçları vardı, eynək taxmışdı, hiss olunurdu ki, elə eynəklər dəbdədir. Belə eynəyi taxanlar sanki Vudi Allenə bənzəyirdi. Əynindəki kostyum eləydi ki, sanki 12 yaşlı oğlan uşağı xaç suyuna salınmaq üçün kilsəyə gedirdi.

– Cənab Nikolls!

Telegram: @cinciva

O, yüngülcə başını tərpətdi, sonra ah çəkdi. Telefonun ekranına baxıb onlara tərəf döndü:

– Təşəkkür edirəm.

– Hm... Hm... Biz pulumuzu istəyirik.

Natali əlindəki işi qurtarmışdı, əlindəki parçanı gah qatlayır, gah da açırdı. O, pul söhbətlərinə nifrət edirdi.

– Mən isə elə bilirəm ki, haqqınızı Təmizlik idarəsi verir.

– Yox, üç həftədir ki, onlar bizə heç nə vermir. İdarədə isə bir qayda olaraq heç kim olmur.

Nikolls cibindən portmanatını çıxarıb soruşdu:

– Yaxşı, sizə nə qədər borcluyam?

– Üç həftə... Üç həftə pal-paltarı camaşırxanaya aparmaq.

Kişi başını qaldırıb onlara baxdı, Natali dedi:

– Biz keçən həftə telefonunuza mesaj yazdıq.

Nikolls başını yırğaladı, sanki o belə xırda şeyləri yadında saxlaya bilmir. O soruşdu

– Yaxşı, nə qədər?

– Hamısı bir yerdə yüz otuz beş funt.

Nikolls cibindən çıxardığı pullara baxdı:

– İndi məndə o qədər pul yoxdur. Mən sizə 60 funt verim, qalanını isə yollayaram ünvanınıza. Ok?

Başqa vaxt olsaydı, Cess razılaşardı. Amma indi yox. Onların haqqını vaxtı-vaxtında verməyən belə zəngin adamlardan cana doymuşdu. Onlar özlərini elə göstərir ki, 75 funt onlar üçün heç nədir, amma anlamaq istəmirlər ki, 75 funt onun kimi ev təmizləyənlər üçün çox

Telegram: @cinciva

böyük məbləğdir. Bu cür adamlar ev təmizləyənləri insan hesab etmir, onları it hesab edib hətta qapını onların üzünə çırpırlar da.

– Yox, mənim pula indi ehtiyacım var, – Cess özünü toplayıb dedi.

Kişi bu dəfə ilk dəfə olaraq başını qaldırıb Cessə baxdı. Natali hələ də qapının üstünə ünvan yazılmış dəmir parçasını sürtməklə məşğul idi.

Cess davam etdi:

– Mən poçta gedib işıq pulunu, su pulunu ödəməliyəm. Mən onlara deyə bilmərəm ki, gələn həftə verəcəm.

Cess hələ də kişinin onun üzünə qapını çırpmasını başından çıxara bilmirdi.

Kişi Cessə qaşqabaqla baxdı, sanki o onun işini çətinə saldı. Onun qaşqabağını tökməsini görən Cessin ondan lap zəhləsi getdi.

– Bir dəqiqə yuxarı çıxıb qayıdıram, – belə deyib Nikolls cəld yuxarı mərtəbəyə qalxdı.

Cess və Natali narahat halda sakitcə durub gözləməyə başladılar. Yuxarı otaqdan siyirmələrin çaqqıltısı, bir-birinə dəyib şaqqıldayan asılqanların səsi eşidilirdi. Nəhayət, o əlində bir dəstə kağız pul geri qayıtdı. Cessin üzünə baxmadın əlindəki pulu ona uzatdı. Özünü toplayıb ona demək istəyirdi ki, onunla belə kobud rəftar etməli deyil, demək istədi ki, insanlar bir-biriylə bu cür rəftar etməli deyil. Amma Cess heç nə demədi. Nikolls pulu onlara elə verdi ki, sanki bu onların halal haqqı deyildi.

Telegram: @cinciva

Pulu onlara verən kimi Nikolls dönüb zala tərəf addımladı.

***

– Bağda Normanın yerinə düşən nədir?

– Heç nə.

Cess bir gözü saatda ola-ola əlindəki zənbildən baqqal dükanından aldıqlarını açıb çıxarır, eləcə də təmizlik aparmaq üçün lazım olanları bir tərəfə qoyurdu. Feathers-də o üç saatlıq növbədə olurdu. Bir saat ərzində işə çatmaq üçün o, ev işlərini qurtarmalıydı. Əlindəki iki konserv qutusunu şkafın yuxarısına tərəf itələdi, onları makaron paketlərinin arxasında gizlətdi. Hər dəfə servantın qapısını açanda mağazadan alıb ora qoyduqları sanki haray salıb qışqırırdılar: "Ey, sən kasıbsan!"

Niki aşağı əyilib itin ayağına dolaşmış fabrik mallarına baxdı:

– Cess, bu ağ dəsmaldır, bahalı bir şeydir. Amma dəsmal Normanın tüküylə doludur. Həm də palçığa batıb.

Bunu deyib Niki dəsmalı iki barmağı ilə ehtiyatla qaldırdı.

– Sonra yuyaram onu, – Cess ona baxmadan dedi.

– Bu atanın dəsmalıdır?

– Yox. Atanın dəsmalı deyil.

– Başa düşmürəm.

Telegram: @cinciva

– Niki, onları soyuducunun yanında bir yerə qoya bilərsən?

Niki bağa baxmağa başladı. Dənizdən əsən külək yuyulub sərilmiş paltarların çoxunu bir tərəfə atmışdı. Cessin çəhrayı rənglə rənglədiyi köhnə üç təkərli velosiped isə böyrü üstə aşmışdı.

– Şona Brayant avtobus dayanacağında Tanzinin paltarına lağ edib gülürdü, – Niki dedi.

– Tanzinin paltarına nə olub ki? – Cess əlində konserv Nikiyə tərəf döndü.

– Deyirdi ki, sən tikmisən onun paltarını.

– Nədən bilir ki, mən tikmişəm Tanzinin paltarını?

– Tanzidən soruşdu ki, paltarını hardan alıblar, Tanzi də dedi ki, sən tikmisən. Sən ki Tanzini tanıyırsan.

– Məncə, nə tikirəmsə Tanziyə çox xoşlayır. Demək istəyirəm ki, o, bu paltarda özünü xoşbəxt hiss edir.

– Narahat olma! Şona Brayant evimizdəki kitabları görüb evimizdən qorxduğunu demişdi.

– Şona Brayant axmağın biridir, – Cess dedi.

Niki əyildi ki, Normanın başını sığallasın, birdən nəsə görüb dedi.

– Elektrik şirkəti bizə son xəbərdarlıq çeki qoyub.

Cess yüngülcə ah çəkdi:

– Nə qədərdir?

Niki kağıza baxıb Cessə döndü:

– Hamısı bir yerdə iki yüz funt.

Cess bir paket makaron çıxarıb dedi:

– Eybi yox, yoluna qoyaram.

Telegram: @cinciva

Niki soyuducunun qapısını açdı:

– Sən atanın maşınını sata bilərsən.

– Yox, sata bilmərəm, o maşın atanın yeganə "xəzinəsidir".

– Axı ata burda olsaydı o maşından pul qazanmaq üçün istifadə edəcəkdi, sənə verəcəkdi.

Cess hələ heç özü də bilmirdi ki, niyə hələ də Martini müdafiə edir.

– Anasıgildə o maşını saxlamaq üçün bir fərli yer yoxdur. O geri qayıdanda özü qərar verər, bu maşını sataq, ya yox. İndi isə, yuxarı çıx. Kimsə gəlir.

Bağın içiylə onlara tərəf gələn qadını o aydınca görürdü.

– Nə? Sən Eylin Trentin ucuz paltarlarından alırsan? – Niki evə tərəf gələn qadına tərəf baxıb Cessdən soruşdu.

Onun sözünü eşidəndə Cessin yanaqları pörtdü.

– Yalnız bircə dəfə, – o dedi.

Niki isə ona baxıb soruşdu:

– Bəs deyirdin ki, pul yoxdur?

– Qulaq as, mən istəyirəm ki, Tanzinin beynindən Müqəddəs Ann məktəbini çıxaram.

Artıq evə gələrkən Cess məktəb barədə son qərarını vermişdi.

Onun başqa çıxış yolu yox idi.

Niki gözlərini ona zilləyib baxırdı:

– Bəs deyirdin ki, Eylin Trentin satdığı paltarlar...

Telegram: @cinciva

– Niki, sən özün bir bundan qabaq dedin ki, yoldan keçənlər Tanzinin paltarına baxıb gülürlər. Niki, bəzən... nəyəsə haqq qazandırmaq olar.

Niki yuxarı qalxdı.

– Hə, mən sənin balaca qızına yaraşan çoxlu paltar gətirmişəm. Bilirsən, balacalar belə şeyləri çox xoşlayır. Düzdür, sən demişdin ki, belə şeyləri almırsan, amma hər halda mən yenə də gətirdim ki, sənə göstərim.

O, döşəmənin üstündə qıçını qatlayıb oturdu, gətirdiyi paltarları xalçanın üstünə tökdü.

– Belə paltarlar mağazalarda çox bahadır. O biri bağlamada başqa paltarlar var.

Bu ətrafda heç kim bilmirdi ki, Aileen satan, hələ etiketləri üstündə olan ucuz pal-paltarı haradan tapıb gətirir. Cess Martiyə deyirdi ki, o, Eylin satan paltarları heç vaxt almaz.

Amma bunu o əvvəllər demişdi.

Cess əl atıb gah zolaqlı idman dəstini, gah da açıq çəhrayı donu əlinə aldı. Tanzini bu donda göz önünə gətirdi.

– Neçəyədir?

– Bax bu on funt, o biri beş funt, o biri isə 20 funtdur. Banlar başqa mağazada səksən funtdur.

– Dediyin qiymət bahadır.

– Yaxşı, sən təzə müştərisən, mən sənə bonus da verəcəm.

Aileen əl atıb balaca dəftərçəsini götürdü.

Telegram: @cinciva

– Hə, sən əlindəki üç paltarı götürsən, bu cins şalvarı sənə hədiyyə verəcəm. Tanrı xətrinə, – belə deyib Eylin gülümsədi. Ağzında dişinin boş yerləri görünürdü.

– Hamısı bir yerdə otuz beş funtdur, ayaqqabı da bura daxildir. Yalnız bu ay yay ayaqqabısını demək olar ki, su qiymətinə verirəm. Sən belə qiymətə heç yerdə beləsinə rast gəlmərsən.

Cess xalçanın üstünə səpələnmiş paltarlara baxdı. Onlar pis deyildi. O, Tanzinin gülümsəməyini görmək istəyirdi. O istəyirdi ki, Tanzi bütün günü işləyən, ona vaxt sərf etməyən anasının onu necə sevdiyini hiss etsin. Həftədə bir dəfə kompüterlə əlaqə saxlayan ata əvəzindən də sevdiyini bildirsin.

O istəyirdi ki, paltarları ona göstərib onun necə sevindiyini görsün.

– Gözləyin, gəlirəm.

Cess mətbəxə keçdi, servantın siyirməsindən işıq pulu qoyduğu kakao qabını götürdü, pulları saydı, sonra isə əlindəki pulları gətirib Eylinin ovcuna basdı.

– Sənin lə alver etmək çox gözəldir, – Eylin belə deyib o biri paltarları qatlayıb iri çantaya yığmağa başladı.

– Bir də iki həftə sonra gələcəm. Həmin vaxt ərzində daha başqa bir şey istəsən məni harda tapmaq lazım olduğunu çox yaxşı bilirsən.

– Sağ ol, məncə, hələlik bunlar kifayətdir.

O, Cessə tərəf baxıb bir daha gülümsədi.

Cess otağa girəndə Niki kompüter arxasındaydı.

Telegram: @cinciva

– Natali Tanzinin riyaziyyat dərnəyindən gətirəcək tezliklə Sən burda təkbaşına özünü rahat hiss edirsən?

– Arxayın ol!

– Çəkmə haaa!

– Dərslərini təkrar edəcəksən?

– Arxayın ol!

Hərdən Cess xəyala qapılar, əgər işləyəsi olmasaydı, necə bir ana olacağını göz önünə gətirərdi. O, uşaqlarla bir yerdə elə tort, piroq bişirərdi ki, onlar beş barmaqlarının beşini də yalayardılar.

O işləməsəydi daha çox gülümsəyərdi, divanda oturub onlarla söhbət edər, onlar mətbəx stolu arxasında oturub dərs hazırlayanda onların başı üstündə durub səhvlərini düzəldər, arxayın edərdi ki, mütləq yaxşı qiymət alacaqlar.

Aşağıdakı sözləri demək əvəzinə onların eşitmək istədiyi sözləri deyərdi:

– Bağışla, şam yeməyini indi hazırlayıram.

– Bunları yuyarsan.

– Getməliyəm, əzizim, növbədən qayıdanda yadıma sal.

Cess Nikinin üzünə baxdı. Onun üzündəki ifadəni oxumaq olmurdu. O, olanları qabaqcadan hiss etmə qabiliyyətinə malikdir.

– Normanı gəzdirməyi unutma. O tərəflərdə fırlanma.

– Ok.

– Bütün gecəni kompüter arxasında keçirmə.

Telegram: @cinciva

Niki artıq üzünü kompüterin ekranına tərəf çevirmişdi.

– Mən sənə dünyanın ən qəşəng tanketkasını alana qədər əynindəki retuzları təzə saxla.

O geri dönüb bir anlıq gülümsədi. Cess otaqdan çıxıb gedəndə yadına saldı ki, son dəfə Nikinin nə vaxt gülümsədiyini unudub.

Telegram: @cinciva

5

NİKİ

Mənim atam yaramazın ən yekəsidir!

Telegram: @cinciva

6

CESS

Feathers pivəxanası kitabxana ilə (yanvardan bəri bağlıydı) Happy Plaice (səhər saat 11-dən gecə saat 11-ə kimi açıq olurdu – ilboyu) arasında yerləşirdi. İçərisinə girəndə adama elə gəlirdi ki, hələ də 1989-cu ildir. Pivəxananın sahibi Des həmişə solmuş idman paltarı ya cins şalvar, əgər hava soyuq olarsa, dəri gödəkcə geyinərdi. Sakitlik olanda o hansısa şairin şeirini əzbərdən deyərdi.

Feathers Bifrontdakı pivəxanalarla müqayisədə elə də yaxşı deyildi. Burda təzə dəniz məhsulları, əla şərablar, ya da ailəvi gələnlərə yaxşı menyu təklif olunmurdu. Burda ölmüş heyvan ətindən müxtəlif yeməklər, "salat" adıyla (salat deyilən şeylər cipsə bənzəyirdi) salata bənzər nəsə verirdilər. Tom Prettinin musiqisindən başqa burda başqa musiqi eşidilmirdi. Səhərlər içəridəki xalçadan pivə və tütün qoxusu gəlirdi.

Amma əsas o idi ki, bu pivəxana işləyirdi. Feathers dəniz sahilində bütün il boyu fəaliyyət göstərirdi.

Telegram: @cinciva

Cess donuz ətindən piyi ayıra-ayıra Desdən soruşdu:

– Roksann burdadır?

Des zirzəmidən pivə götürüb yuxarı çıxırdı.

– Yox, anasına nəsə olub, – Des belə deyib bir anlıq nəsə düşündü. – Anasını müalicə edir – falçıların yanında. Psixoterapevtin, psixoloqun yox, falçının yanında.

– Kimin yanında? Telepatın?

– Orda adama çoxdan bildiklərini elə deyirlər ki, ağzın heyrətdən açıq qalır.

– Ekstrasens demək istəyirsən?

– Otuz funt pul verirsən, bir stəkan ağ şərabı qarşına qoyurlar, sənə qohum-tanışlarının içində baş hərfi "J" ilə başlayan adam adı soruşurlar, sən deyən kimi sevincək "həəə" deyib bağırırlar.

Des əyildi, deyinə-deyinə zirzəminin qapısını şappıltıyla örtdü. Sözünə davam etdi:

– Cess, mən özüm də bəzi şeyləri qabaqcadan xəbər verə bilərəm, amma buna görə səndən otuz funt almaram. Deyə bilərəm ki, o bu dəqiqə evində oturub, əllərini ovuşdurub və fikirləşir: Nə axmaq hərəkət etdim falçı yanına getməklə!

Cess qabyuyan maşından bir podnos təmiz stəkanları götürdü, şkafların içinə yığmağa başladı.

– Sən falçıların lax yumurtasına inanırsan?

– Yox.

– Əlbəttə, düz deyirsən. Sən hissiyyatlı qızsan, belə şeylərə inanmırsan. Hərdən heç bilmirəm ona nə deyim. Onun anası falçılara qızından da betər inanır. O elə bilir ki, qızı onun qoruyucu mələyidir. Hə, mələyi.

Telegram: @cinciva

Des çiyninə baxıb, əliylə çiynini şappıldadaraq, ağız-burnunu əyib Roksannı yamsıladı.

– Guya o belə edəndə anasını qoruyur.

Cess bikef olsa da gülməyini saxlaya bilmədi. Piyəxanda gülməmək olmurdu. Bura gələnlər deyib-gülür, şən olurdular. Bu o deməkdir ki, həftədə iki dəfə, iki nahar vaxtı o kiminsə evində pal-paltarı yığıb camaşırxanaya aparmaq barəsində düşünməyəcəkdi.

– Sən tez gəlmisən, – Des qapı açılanda qol saatına nəzər salıb dedi.

– Ayaqqabılarım əladır, – Çelsi içəri girib çantasını bir tərəfə tulladı, saçlarını sancaqla bərkitdi:

– Mən onlaynda görüş təyin edirdim. O əla oğlandır.

Çelsi üzünü Cessə tutub danışırdı, sanki Des otaqda yox idi.

Onun internet vasitəsilə görüş təyin etdiyi bütün kişilər həmişə gözəl olurdu – onlarla görüşənədək.

– Hə, onun adı Deviddir. O yemək bişirməyi, ütüləməyi, təmizləməyi sevən bir qadın axtarır. Həm də səyahət etməyi sevən birisini.

– Supermarketə səyahət edən? – Des soruşdu.

Çelsi özünü elə göstərdi ki, guya Desi görmür, atmacasını da eşitmir.

O qab dəsmalını götürüb stəkanları qurulamağa başladı.

– Cess, kaş sən də burda dombagöz, səndən çox qoca kişilərə qulluq edib çürüməkdənsə mənim tapdığım kimi birisini tapaydın.

Telegram: @cinciva

Futbol gedirdi televizorda.

Bu o demək idi ki, Des onlara pulsuz cips, pulsuz pendir təklif edəcək, kefi yaxşı olsaydı hətta kolbasa da verəcəkdi.

Keçən dəfə Cess Desin razılığı ilə evə pendir qalıqlarını aparıb pendirli makaron hazırlamışdı.

Natali tualetə girib çıxandan sonra neçə kişinin əlini yuması haqqında statistik rəqəm demişdi.

Pivəxana kişilərlə dolmuşdu, yarış başladı və gecə qeydsiz keçdi. O yenə də pul haqda fikirləşirdi. Məktəbdən ona ayın sonunadək vaxt olduğunu demişdilər. Əgər o vaxta qədər qeydiyyatdan keçməsəydi, bu, o deməkdi ki, hər şey batdı. Ondan sonra Cess il ərzində qənaət edib pul toplamalı, heç olmasa onu o məktəbə on iki yaşında qoymağı düşünəcəkdi. Amma heç kim zəmanət vermirdi ki, həmin vaxta qədər təqaüd qüvvədə qalacaqdı.

Cess elə fikirliydi ki, Desin bir parç pivəni bara qoyduğunu eşitməmişdi də.

– Cess, yadımdan çıxıb sənə deməmişəm ki, gələn həftədən bizə təzə kassa qoyacaqlar. Bu o deməkdir ki, hər şey ora yazılacaq. Sadəcə ekrana toxunmaq lazımdır.

– Nə? Təzə kassa?

– Hə, o biri kassa bəlkə məndən də yaşlıdır. Burda işləyən qadınların heç biri onu sənin kimi işlədə bilməz. Keçən dəfə Çelsi təkcə idi. On bir funt əskik gəlmişdi. Ona desən ki, bir paket quru çörək, pivə, pint əlavə etsin, gözləri kəlləsinə çıxacaq. Biz gərək zamanla ayaqlaşaq.

Telegram: @cinciva

– Rəqəmlərlə dəqiq olmaq gərəkdir. Sən bunu çox sevirsən. Sən hesablamaya Çelsi kimi baş sındırmırsan.

– Olmaz ki, mən elə bununla işləyim? Qorxuram təzəylə işləyə bilmərəm.

– Bacararsan. Necə işləməyi öyrədəcəklər sənə. Təlimatlanacaqsan.

– Təlimat...

– Yarın gün kifayət edər sənə. Pulsuz olacaq.

– Hə. Sadəcə ekranda tap-tap, vəssalam! Sanki hesabat verəcəksən, amma yoxlamaya gələn daz kişilər olmadan. Yadına salıram, bu daz kişilər yenə yoxlamaya gələcək.

***

Liam Stubbs saat ona on beş dəqiqə işləmiş gəldi. Cess bardan nəsə götürəndə Liam əyilib onun qulağına pıçıldadı:

– Ey, ürəyim!

Cess dönüb ona baxmadan dedi:

– Hə, yenə sənsən?

– Cess, zəhmət olmasa Stella pintası ver, – Liam ətrafa nəzər saldı: – Başqa verməli nəyin varsa, ondan da ver.

– Yaxşı qovurulmuş noxudumuz da var.

– Mənsə bir az yaş bir şey istəyirəm.

– Elə isə sənə pinta verim.

– Eh, yenə də özünü bilməməzliyə vurursan?

Telegram: @cinciva

Cess Liamı məktəb illərindən tanıyırdı. O elə kişilərdəndir ki, əgər imkan versən ürəyini parça-parça edərlər.

Mavi gözlü, həmişə sənə etinasız yanaşan, illərlə sənə fikir verməyən yaşlanandan sonra hər dəfə səni görəndə göz vuran kişilərdən idi. Onun saçları tünd şabalıdı idi, yanaq sümükləri bir az çıxmış və azacıq qaralmışdı. Balaca gül dükanı vardı, həmişə onun budkasının yanından keçəndə pıçıldayardı:

– Sən... Mən... Açılmış qızılgüllər...

Marti evi tərk edib getdiyi vaxtlarda onun da arvadı onu atıb getmişdi (seriallarda olduğu kimi bəzi qadınlar evdən çıxıb getməyə bəhanə axtarır).

Altı ay sonra isə Desin pivəxanada olmadığı günlərin birində Liam qadın tualetində Cessin köynəyini dartmış, sonra isə günlərlə Liamı görəndə Cess ona tərs-tərs baxıb gülümsəmişdi.

Marti evi tərk edib gedənə qədər onlar bir evdə tündməcaz bacı-qardaş kimi yaşamışdılar. Bəzən Marti həddən çox yorulduğunu deyir, Cessin deyinməyindən bezdiyini deyirdi.

Hərdən Cessə elə gəlirdi ki, o deyinməkdən ötrü darıxıb, Martidən ötrü yox.

Liam arxa qapının yanında görünəndə Cess cips kartonlarını götürürdü. Liam xuliqan kimi sakitcə ona yanaşdı, o pivəxananın divarına qısılmalı oldu. Onun üzündə qəribə bir təbəssüm vardı. Sanki onların hər ikisi eyni zarafatı edirdi. O, Cessin qabağında elə durdu

Telegram: @cinciva

ki, onun bütün bədəni Cessin bədənindən azca hündür idi, sakitcə dedi:

– Mən sənin haqqında fikirləşməyi tərgidə bilmirəm. Yalnız səni düşünürəm.

Əlindəki siqareti bir az ondan aralı tutdu. O belə centlmenlərdən idi.

– Mərc gələrəm ki, sən bu sözləri bütün qadınlara deyirsən.

– Sənin pivəxananın ətrafında hərəkətinə baxmağı çox xoşlayıram. Vaxtımın yarısını futbola baxıram, vaxtımın yarısını isə sənin üstünə əyilməyimi xəyal edirəm.

– Kim deyir ki, romantika yoxdur indi?

Liamdan pivə iyi gəlmirdi. Cess əl-qol atıb ondan yaxa qurtarmaq istəsə də bacarmadı. Liam Stubbsun yanında olanda Cessin həyata olan inamı az da olsa alovlanır, həyəcanlanırdı. Üfürülməmişdən əvvəl titrəyən ad günü tortunun üstündəki şamlar kimi bədəni titrəyərdi.

– İcazə ver, səni romantik aləmə aparım. Gəl burdan çıxıb gedək. Sən və mən. Romantik bir görüş. Yaxın gəl, Cess! Gəl bir yerdə olaq.

– Nə?

– Elə eşitdiyini.

Gözünü ona zillədi:

– Demək sən mənimlə münasibətdə olmaq istəyirsən? – Cess soruşdu.

– Bu sözü elə deyirsən sanki, biədəb bir söz dilinə gətirirsən.

Telegram: @cinciva

Cess arxa qapıya baxaraq özünü birtəhər onun qolları arasından çıxartdı:

– Liam, mən getməliyəm.

– Niyə mənimlə getmək istəmirsən? – Liam ona daha da yaxın gəldi. – İnan ki, qeyri-adi bir görüş olacaq...

O indi pıçıltıyla danışırdı.

– Mən iki uşaq saxlayıram, iki işim var. Sən də bütün günü maşında vaxt keçirirsən. Biz bir yerdə olsaq cəmi üç həftədən sonra divanda sevişmək əvəzinə zibili hansımızın atacağına görə mübahisə edəcəyik. – Cess belə deyib Liama gülümsədi: – Onda bu cür romantik anlar da əlimizdən çıxacaq.

Liam Cessin saçlarını barmağı arasına aldı, sonra saçın barmağı arasından necə sürüşüb çıxdığına baxdı.

– Sən yenə də ürəyimi qırırsan, Cess Tomas!

– Sən isə məni daha da yandırırsan.

Liam o kişilərdəndir heç vaxt onların sözlərini ciddi qəbul etmirsən. Cess düşünürdü ki, Liam həqiqətən də onu xoşlayır, çünki Cess onun hər hərəkətini ciddi hesab edirdi.

Cess Liamdan aralanıb pivəxanaya tərəf getdi, yanaqlarındakı qızartının hiss edilməməyinə çalışdı. Birdən dayandı:

– Ey, Liam!

Siqaretini tüstülədən Liam onun səsini eşidib geri boylandı:

– Sən mənə beş yüz funt borc verərsən? De görüm verərsən?

Telegram: @cinciva

– Balaca uşaq, o qədər pulum olsaydı verərdim məmnuniyyətlə.

Belə deyib əliylə ona öpüş göndərdi.

***

Cess pivəxananın ətrafında gəzişib boş butulkaları yığırdı, yanağındakı qızartı hələ də çəkilməmişdi. Elə bu vaxt onu gördü. O, bir küncdə oturmuşdu, qarşısında üç boş butulka vardı.

Əynində cins, idman köynəyi vardı, pivəxanadan "qoool" səsləri eşidiləndə o gözlərini telefonunun ekranına zilləyirdi. Cess baxanda o pivə butulkasını götürüb başına çəkdi. Bəlkə də o cins geyməklə başqalarından fərqlənmədiyini düşünmüşdü, amma sanki onun üstünə "təzə müştəri" yazılmışdı. O dönüb bar tərəfə baxanda Cess çıxıb getdi.

Bir azdan o pivəxanadaydı, qəlyanaltı sifariş verirdi.

Çelsi internetdəki tanışlığından danışırdı. Cənab Nikolls daha üç pinta içdi,

Pivəxanaya girən Liamın gözlərinə görünmək istəmirdi Cess. Saat on birə 10 dəqiqə qalmış Des onları çağırdı. Çelsi paltosunu geyinirdi.

– Hara gedirsən? – Cess soruşdu.

O, güzgü qarşısında dayanıb dodağına pomada çəkirdi.

– Des dedi ki, bir az tez gedə bilərəm .

Dodaqlarını gülməli şəkildə büzdü:

Telegram: @cinciva

– Görüşüm var.

– Görüşün var? Gecənin yarısında kim görüşə gedər?

– Devidin evində görüşəcəyik, – Cess gözlərini ona zilləyib baxanda Çelsi dedi.

– Hələ bacım da gələcək. O deyirdi ki, üçümüz birlikdə gözəl vaxt keçirə bilərik.

– Çelsi, sən heç "gecə zəngi" adlı bir ifadə eşitmisən?

– Nə?

Cess bir neçə dəqiqə ona baxdı, sonra isə – Heç. Sənə gözəl gecə arzulayıram, – dedi.

O, pivəxanaya girəndə Cess qabyuyana çirkli qabları yığırdı. Onun gözləri yarıyumulu idi, yerində ləngər vururdu, elə bil pulsuz rəqs edirdi.

– Zəhmət olmasa, pinta verin, – o dedi.

Cess daha iki bulaşıq parçı qabyuyana qoydu:

– Xidmət vaxtımız qurtarıb. Artıq saat 11-dir.

O, qol saatına baxdı:

– 11-ə hələ bir dəqiqə var.

– Siz bəs deyincə içmisiniz, – Cess dedi.

Sakitcə dayanıb gözlərini ona zilləmişdi.

Onun qısa, qara saçları yüngülcə yara daranmışdı, sanki son bir neçə saatı o vaxtını saçını kənara daramağa sərf etmişdi.

– Siz kimsiniz ki, mənə çox içdiyimi deyirsiniz?

– Mən içkini verən şəxsəm. Siz hətta məni tanımadınız da, eləmi?

– Tanımalıydım?

Cess bir neçə dəqiqə ona baxdı.

Telegram: @cinciva

– Gözləyin, – dedi.

O, pərt halda orda gözləyərkən Cess fırlanan qapıya tərəf getdi, onu açdı, qapı ona tərəf fırlananda ağzını açıb nəsə demək istədi. O yenə də qapını fırladıb açdı, onun qarşısında dayanıb soruşdu:

– İndi məni tanıdınızmı?

O yenə də gözlərini döyürdü. Cess hətta onun beyninin vintlərinin necə hərəkət etdiyini də hiss edirdi.

– Siz... Mən sizi dünən görmüşəm?

– Bəli... Ev təmizləyən.

O, əlini saçına apardı.

– Aha... Qapı... Mən qapını şappıltıyla... Hə... gizli söhbətim vardı.

– Hə, indi bildim niyə mənə qapını göstərdiniz. Niyyətiniz çatdı.

O aşağı əyildi, Cess onu güclə qaldırdı:

– Hə, üzr istəyirsiniz? – Cess soruşdu.

O hələ də eyni vəziyyətdə, əyilmiş halda dedi:

– Üzr istəyirəm. Mən çox... çox... çox üzr istəyirəm. Hə, indi isə içmək istəyirəm.

– Yox, olmaz, artıq saat 11-dir.

– Hə, sizə görə bu vaxt keçdi.

– Mənim o qədər vaxtım yoxdur ki, siz bir butulka içib qurtarana kimi gözləyim.

– Elə isə bircə qədəh araq verin... Mən içmək istəyirəm. Bircə qədəh araq. Götürün. Pulun qalığını qaytarmayın.

O, 20 funtu stolun üstünə qoydu.

Telegram: @cinciva

Onun başı üstündə durmurdu, ləngər vururdu yerində.

– Bircə qədəh. Yalnız bircə qədəh. İki qədəh. İki qədəh içmək üçün mənə iki saniyə bəsdir. Yox, bir saniyə.

– Yox. Olmaz. Siz kifayət qədər içmisiniz.

Desin səsi mətbəxdən eşidildi:

– Cess, Məsih xətrinə, ona araq ver.

Cess bir az dayandı, sonra isə butulkadan stəkana araq süzdü. Onun qoyduğu pulu götürdü, qalığını stolun üstünə qoydu.

O, stəkanı başına çəkdi, necə udduğu aydınca görünürdü.

Getmək istəyəndə Cess onu çağırdı:

– Siz pulunuzun qalığını unutmusunuz.

– Özünüzə saxlayın onu.

– İstəmirəm.

– Elə isə onu ordakı mərhəmət qutusuna atın.

Qalığı götürüb onun ovcuna basdı.

– Pulunuzu götürün.

O yenə də gözünü Cessə zillədi, Cess qapını açanda o birtəhər irəliyə doğru iki addım atdı. Elə həmin vaxt Cess onun cibindən bir topa açar çıxartdığını gördü. Par-par yanan "Audi" pivəxananın qarşısında park edilmişdi.

– Siz bu vəziyyətdə sürə bilməzsiniz, – Cess dedi.

– Mən yaxşıyam, – o etiraz etdi.

– Yox, siz sürə bilməzsiniz.

– Biz Heç Yerin ortasındayıq, – o, əlini göyə qaldırdı, dili topuq vura-vura dedi:

Telegram: @cinciva

– Mən indi hər şeydən neçə kilometr uzaqdayam, bura yapışıb qalmışam. Bu lənətə gəlmiş Heç Yerin tən ortasındayam, – o irəli əyildi, nəfəsi araq qoxuyurdu.

– Mən çox yavaş, çox yavaş sürəcəm...

Elə sərxoş idi ki, açarları onun əlindən almaq çox asan oldu.

– Yox. Mən sizin maşına minib bir qəza törətməyinizə cavabdeh ola bilmərəm. Gedin pivəxanaya girin, indi taksi çağıraram.

– Açarları mənə verin.

– Yox.

– Siz açarlarımı oğurlayırsınız.

– Mən sizi qəzadan xilas edirəm, – Cess açarları yuxarı qaldırdı, bara tərəf döndü.

– İsa xətrinə... verin açarları, – o dedi.

– Mən indi taksi çağıraram. Burda oturun. Siz taksiyə minəndən sonra açarlarınızı qaytaracam.

Cess bara girib Liama mesaj yazdı:

– Demək istəyirsən ki, bəxtim açılıb? – o cavab yazdı.

Cess yenidən pivəxanadan çıxdı, amma Nikolls yerində yox idi. Maşını isə əvvəlki yerində idi. Cess onu iki dəfə çağırdı, düşündü ki, bəlkə yaxınlıqdakı kolluğa girib özünü yüngülləşdirir. Birdən gördü ki, o yaxınlıqdakı skamyada uzanıb yuxuya gedib. Kənardan baxanda adama elə gəlirdi onun ürəyi gedib, qıc olub.

Bir anlıq Cess onu burda qoyub geri qayıtmaq istədi. Amma hava soyuq və dumanlı idi, oyanarkən onun portmanatı cibində olmayacaqdı.

Telegram: @cinciva

– Mən onu apara bilmərəm, – Liam elə maşının pəncərəsindən baxıb dedi.

– Onun vəziyyəti pis deyil. Sadəcə yuxuya gedib. Mən onu hara aparmaq lazım olduğunu sənə deyərəm.

– O gün belə birisini aparırdım, təzə oturacaqların üstünü qusub bulaşdırdı. Axırda da pul verməmiş getdi.

– Bu kişi Biçfrontda yaşayır. Heç vaxt pulu ödəmədən getməz.

Cess qol saatına baxdı.

– Liam, tez gəl, çox gecdir. Mən də evə getməliyəm.

– Elə isə qoy o burda qalsın, Cess. Bağışla, onu aparmaq istəmirəm.

– Belə danışaq. Sən onu evinə aparıb düşürəndən sonra məni evimizə apararsan. Əgər o maşında qaytarsa özüm təmizləyərəm. Arxayın ol, o, haqqını verəcək.

Cessin bayaq ona qaytardığı pul skamyanın yanına düşmüşdü, o, pulu götürüb saydı:

– On üç funt bəs edər?

Liam üzünü turşutdu:

– Cess, məni çətinə salma.

– Liam, – Cess gülümsündü və əlini onun çiyninə qoydu.

Liam yola baxdı:

– Ok. Bax qabaqcadan deyirəm, əgər o maşına qussa, onda 30 funt olacaq. Oturacağı da özün təmizləyəcəksən, oldu?

Cess yatmış Nikollsa tərəf əyildi, üzünü Liama tutdu:

– Hə, o razılaşdı, deyir ki, verər.

Telegram: @cinciva

Liam başını yellədi.

– Liam, gəl mənə kömək et, onu qaldıraq. Mən gecikirəm, evə getməliyəm.

Kişini birtəhər maşına gətirdilər, o, başını Cessin dizinin üstünə qoydu – balaca xəstə uşaq kimi. Cess əllərini hara qoyacağını bilmədi. Nəhayət, o, əllərini oturacağın başına qoydu, allaha yalvardı ki, o qusmasın. O hər dəfə zarıyanda, ya da o biri böyrü üstə dönəndə Cess dərhal maşının pəncərəsini açır, ya da əyilib ona baxırdı ki, görsün qusurmu. "Qusmağa cürət etmə!" – yavaşca ona pıçıldadı. Onların Biçfronta çatmağına iki dəqiqə qalmışdı ki, Cessin telefonun mesaj gəldi.

Mesaj qonşusu Belindadan idi, ekranın işığında oxudu:

"Oğlanlar bu gün yenə Nikinin dalınca gəlmişdilər. Mən onu yaxınlıqdakı mağazanın yanında gördüm. Naycel onu xəstəxanaya aparıb.

Soyuq yaş damcıları yanağını üşütdü. Cavab yazdı:

Mən yoldayam.

Cavab gəldi:

"Naycel deyir ki, sən ora çatanadək o orda qalacaq. Mən evdə Tanzi ilə bir yerdəyəm".

Cess yazdı:

"Sağ ol, Belinda. Bacardığım qədər tez gələcəm".

Sinəsinin altında ürəyi bərk-bərk döyünməyə başladı. Elə bu vaxt da Nikolls o biri böyrü üstə döndü, xoruldamağa başladı. Cess gözünü ona, onun səliqəli kəsilmiş saçına, tünd-mavi cins şalvarına baxdı, birdən

Telegram: @cinciva

ona acığı tutdu. Əgər o olmasaydı, Cess artıq evdə olardı, iti gəzdirməyə Niki yox, o getsəydi, bu hadisə də baş verməzdi

– Hə, çatdıq, – Liam dedi.

Cess ona Nikollsın evinin yerini göstərdi. Evə çatanda ikisi köməkləşib onu qaldırdı, evinə tərəf dartdılar. Cessin dizləri ağırlıqdan əsirdi. Onun evinə çatanda o azacıq qımıldandı, Cess bir topa açarların arasında darvazanın açarını axtardı, tapa bilməyəndə ağlına gəldi ki, özündə olan açardan istifadə etsin

– Sən onu hara qədər aparmaq istəyirsən? – Liam soruşdu.

– Divana qoyaq. Mən onu pilləkənlərdən yuxarı qaldıra bilmərəm.

– Hələ onun bəxti gətirib ki, evinə qədər sürüyüb gətirmişik.

Onu divana uzatdılar. Cess onun eynəklərini çıxardı, divanın üstündəki gödəkcəni onun üstünə örtdü və maşının açarlarını da divanın yanındakı bir gün əvvəl təmizlədiyi balaca stolun üstünə qoydu.

Yalnız bundan sonra o baş verənləri Liama dedi:

– Liam, məni xəstəxanaya apara bilərsən? Nikini yenə döyüblər.

Maşın boş döngələrdə sürətlə şütüyürdü. Cessin beyni sakit deyildi. O, xəstəxanada Nikini hansı vəziyyətdə görəcəyini düşünürdü.

"Nə baş vermişdi? Onu necə döyüblər? Bərk? Tanzi onu döyülmüş halda görüb?

Telegram: @cinciva

Sonra isə içində qəribə qorxu baş qaldırdı:

"O, xəstəxanada çox qalacaq? Ən azı məndən on beş funt alacaqlar. Lənət olsun Nikollsa və onun içdiyi arağa!"

– Cess, səni gözləyirəm burda, mən də ondan xəbər bilmək istəyirəm, – Liam maşını xəstəxananın qarşısında saxlayıb soruşdu

– Gözləyə bilərsən? Yalnız bir neçə dəqiqəyə qayıdıram.

Liam hələ maşını tam saxlamamış Cess qapını açdı.

Niki yandakı palatada idi. Tibb bacısı pərdəni çəkdi, Naycel oturduğu plastik stuldan ayağa durdu, onun mehriban üzü narahatlıqla dolu idi. Niki üzünü Cessə döndərdi, onun üzü, başı sarıqlıydı.

Cess birtəhər özünü hönkürüb ağlamaqdan saxladı.

– Onu rentgen etdirməlisən ki, nə baş verdiyini dəqiq biləsən. Niki məni polis çağırmağa qoymadı. İndi isə Belinda təkdir, mən gedim. Gecdir, – Naycel dedi.

Cess Naycelə təşəkkür etdi, sonra Nikiyə yaxın gəldi. O, əlini yorğanın üstündən onun çiyinlərinə qoydu.

– Tanzi yaxşıdır, – Niki ona baxmadan pıçıldadı.

– Bilirəm, əzizim!

Cess onun yanındakı plastik stulda oturdu.

– Nə baş verib?

O, yüngülcə çiyinlərini çəkdi. Niki heç vaxt bu haqda danışmaq istəmirdi. Nə məsələydi, Cess dəqiq bilmirdi. İndi də ona nə deyəcəyini bilmirdi. Ona deyə bilmirdi ki, polis Fişerləri tutacaq, çünki heç vaxt tutmayıblar.

Telegram: @cinciva

Ona deyə bilmirdi ki, hər şey yaxşıya doğru dəyişəcək, çünki hər ikisi bilirdi onların həyatı bundan yaxşı olmayacaq.

Cess Nikinin əllərini ovcuna alıb sakitcə:

– Hər şey yaxşı olacaq, ok? – dedi.

Niki gözlərini ona zillədi, sonra baxışlarını çevirdi.

– Onun vəziyyəti necədir? – Liam maşına tərəf gələn Cessdən soruşdu.

Cessin çiyinləri titrəyirdi. O, maşının arxa qapısını açdı, jaketini və çantasını götürüb düşdü. Liam isə güzgüdən ona baxırdı.

– O sağalacaq, – Cess dedi.

– Balaca xuliqanlar! Biclər! Mən indicə sənin qonşunla söhbət edirdim. Kimsə buna son qoymalıdır. Mən özüm onların dərsini verərdim, amma bəzi problemlərim var maşının sənədləriylə bağlı. Hamısı bekarçılıqdandır. Onlar boş-bekar qalıb nə edəcəklərini bilmirlər. Bu halda Nikini hədəf seçirlər.

Cess maşından düşüb yenə də arxa qapını açdı ki, paltosunu götürsün. Paltosunu götürəndə nəyinsə maşının ayaqaltısının üstünə düşdüyünü hiss etdi. Nəydisə bərk idi. Cess əyildi, ayaqaltının üstündəki bir dəst pulu gördü. Yarıqaranlıqda pula baxdı, sonra da pulun yanındakı laminasiyalı "Security kartı"nı gördü. Sözsüz ki, pul da, kart da Nikolls maşında böyrü üstə dönəndə onun cibindən düşmüşdü. Bir anlıq götür-qoy edib onları çantasına soxdu.

Telegram: @cinciva

O, əl atıb pul kisəsini götürdü, Liama tərəf dönəndə o dedi:

– Yox, lazım deyil. O pulu xərcləməli çox şey var. Qoy cibinə. Nə vaxt istəsən ki, gəlib səni işdən götürüm zəng elə, – Liam belə deyib Cessə göz vurdu.

– Ancaq...

– Heç bir ancaq-filan lazım deyil. Bir də arxayın ol ki, Niki sağalacaq. Pivəxanada görüşənədək!

Cess ona təşəkkür edəndə gözləri yaşla doluydu. O dayandı, Liam parkın ətrafında fırlanana qədər bir əlini yuxarı qaldırıb ona əl elədi. Liam maşının pəncərəsindən qışqırırdı:

– Niki bir az özünə gələn kimi ona de ki, bir daha onlara baş qoşmasın!

Telegram: @cinciva

7

CESS

Cess bir neçə saat plastik stulun üstündə mürgülədi. Yeri narahat olduğundan tez-tez oyanır, pərdənin arxasında yatan Nikinin zarımasını eşidib daha da narahat olurdu. Hərdən durub onun tikiş qoyulmuş yaralarına baxır, onu necə qoruyacağını düşünürdü. Cessi ən çox qorxudan onun başındakı çapıq yerləri idi. Səhər saat yeddidə tibb bacısı pərdənin arxasından boylanıb Cessə dedi ki, onunçün çay və qızardılmış çörək gətirib. Tibb bacısının mərhəmətini hiss edəndə göz yaşlarını saxlaya bilmədi. Məsləhətçi saat səkkizdən sonra gəldi, dedi ki, Niki mütləq bir gecə də xəstəxanada qalmalıdır, çünki onlar daxili qanaxma olub-olmadığını müəyyən etməlidir. Dediyinə görə, rentgen nəticələrinə baxarkən orda kölgə görünüb, bunu dəqiqləşdirməyə ehtiyac var. Cessə dedilər ki, hələlik evə gedib bir az istirahət etsin. Natali zəng edib öz uşaqları ilə bir yerdə Tanzini də məktəbə apardığını söylədi, evdə hər şeyin yaxşı olduğunu dedi.

Telegram: @cinciva

Evlərinə çatmağa iki dayanacaq qalmış Cess avtobusdan düşdü, Linn Fişerlərin evinin ətrafında fırlandı, nəhayət özünü ələ alıb darvazanı döydü, qapını açanda bacardığı qədər nəzakətlə ona dedi ki, əgər bundan sonra bir daha Ceyson hardasa Nikiyə yaxınlaşıb onu döysə onun üstünə polis gətirəcək. Linn Fişer Cessin üzünə tüpürüb dedi ki, əgər indi rədd olub getməsə gedib onun pəncərəsinə kərpiclər yağdıracaq. Cess darvazadan aralanıb gedəndə arxadan onun həyasızcasına gülüşünü eşitdi.

Cess bundan da betərini gözləyirdi. O, əsəbi halda heç kim olmayan, bomboş evinə qayıtdı, vergi pulundan götürüb su pulunu ödədi, elektrik pulunu isə təmizlik işlərindən aldığı pulla verdi. Evə gəlib doyunca ağladı, paltarını dəyişdi, piyəxanaya gedib nahar etdi (gündə bir dəfə orda nahar edə bilərdi). Fikrə qərq oldu, birdən hiss etdi ki, Stevart Prinql əllərini onun alt paltarından içəri salıb götünün üstünə qoyub. Cess bundan elə əsəbiləşdi ki, yarımçıq pinta butulkasını Prinqlın ayaqqabısına boşaltdı. Prinql gedib Desə şikayət etdi.

– Nə edirsən? Niyə belə edirsən? – onun hərəkətini görən Des bağırdı.

– Əgər səbəbini bilmək istəyirsənsə orda dayan, qoy o da gəlib əllərini sənin götünün üstünə qoysun, – belə deyib o stəkanları silməyə getdi.

– O haqlıdır,– Des Prinqla dedi.

Cess evə qayıdıb Tanzi gəlməzdən əvvəl tozsoranı işə alıb bütün evi təmizlədi. Çox yorğun və əsəbi idi, amma

Telegram: @cinciva

işini başqa vaxta nisbətən ikiqat sürətlə edirdi, dayana bilmirdi. O, evi təmizlədi, paltarları qatladı, çünki əgər o bir işlə məşğul olmasaydı nəm qoxuyan qarajda Martinin qarmaqdan asılmış baltasını götürüb Fişerlərin evinə gedər, onların hamısının axırına çıxardı. O, evi təmizləyirdi, çünki o bir işlə məşğul olmasaydı, evinin arxasındakı balaca bağa gedib üzünü göyə tutub var gücüylə qışqırar, qışqırar, heç kimin onu dayandırmağa gücü çatmazdı.

Bağın içiylə addım səsi eşidiləndə ev tərtəmiz idi, mebellərin tozu silinmiş, mətbəx tərtəmiz idi. Səs eşidib iki dəfə dərindən nəfəs aldı, öskürdü, sonra yenə dərindən nəfəs aldı, sonra üzündə saxta təbəssüm qapını açdı. Natali qapının ağzında dayanmışdı, Tanzi də yanında. Tanzi anasına tərəf qaçdı, qollarını onun boynuna doladı, gözləri yumulu halda onun belini qucaqladı.

– O, yaxşıdır, şirin-şəkər balam! Hər şey qaydasındadır. Sadəcə, səfeh oğlanların davasıymış bu, – Cess qızının başını sığalladı.

Natali başını yüngülcə yırğalayıb Jesə döndü:

– Özündən muğayat ol.

Cess Tanziyə buterbrod düzəldib verdi, sonra isə onun gedib bağda itin yanında oturub alqoritmlərlə məşğul olmağına tamaşa etdi, dedi ki, Müqəddəs Ann məktəbi haqda sabah ona dəqiq cavab deyəcək. Söz verdi ki, dəqiq xəbər deyəcək.

O, hamama girib Nikollsun cibindən maşına düşən pul dəstini açdı. Dörd yüz səksən funt idi. Pulları köhnə

Telegram: @cinciva

kalqotun içində gizlədib paltar dolabının siyirməsinə qoydu.

Cess artıq nə edəcəyini çox yaxşı bilirdi. Bəli, çox yaxşı bilirdi ki, nə edəcək. Bu pul onun özünün pulu deyildi. O hər gün uşaqlarına bu sözləri diktə edirdi: Heç vaxt oğurluq etmə. Özünün olmayan heç nəyi götürmə. Düz olanı et, sonda sən buna görə mükafatlanacaqsan.

Düz olanı et!

Elə isə bəs o niyə pulu aparıb ona vermədi?

Başqa bir səs onun qulağına pıçıldayırdı:

Niyə onu qaytarırsan? Onun bu puldan heç xəbəri də olmayacaq. O, sərxoş idi. Bu pul maşın parkında, taksidə, onun evində də harasa düşə bilərdi. İstənilən yerə düşə bilərdi. Bu xoşbəxtlikdir ki, o pul sənin qarşına çıxıb. Əgər sən yox, başqası bu pulu tapsaydı, neylərdi, aparıb sahibinə qaytarardı? Doğrudanmı elə düşünürsən ki, onu sahibinə qaytaracaqdı?

Pulun yanında tapdığı Security kartında yazılmışdı ki, onun şirkətinin adı "Mayfly"dır. Karta baxıb onun adının Ed olduğunu bildi.

Yox, o bu pulu Nikollsa qaytaracaqdı.

Çox götür-qoy etdi, çox düşündü...

Amma hələ ki, pulu aparıb qaytarmadı.

***

Cess heç vaxt pul haqda çox düşünməzdi. Marti pul qazanıb gətirirdi. Marti özü də həftədə iki dəfə

Telegram: @cinciva

pivəxanaya gedib pivə içməyə pul tapır, ya da Cess Natali ilə gedib gəzməyə pulları vardı. Onlar hərdənbir istirahətə də gedirdilər.

Düzdür, onlar başqalarının getdiyi yerlərdən daha yaxşı yerlərə səfər etmirdilər, amma hər halda səfərə çıxırdılar.

Sonralar Marti səfərə çıxmaqdan cana doydu. Bir dəfə onlar Uelsdə olanda düz səkkiz gün dalbadal yağış yağdı, bu da Martini bezdirdi, narahat etdi. Sanki yağış şəxsən onunçün yağırdı, o islanmış çadırdan başını çölə uzadıb deyirdi:

– Niyə biz də İspaniyaya, ya da daha isti bir yerə gedə bilmirik? Bu istirahət etmək yox, əzab çəkməkdir.

Marti maşın sürməkdən bezmişdi, elə hey maşından şikayət edirdi. O biri taksi sürücüləri hamısı onun əleyhinə idi. Nəzarətçilər onu aldadırdı. Sərnişinlər xəsis idi. Sonra o, piramida sisteminə qoşuldu, qazana bilmədi. Bir gecə isə o, pivəxanadan evə gəlib dedi ki, orda bir nəfərlə tanış olub. Həmin adam Hindistandan elektrik malları gətirir, onlar bir yerdə satıb qazana bilərlər.

Sonra isə məlum oldu ki, həmin adam söz verdiyi kimi, normal mallar gətirmir. Həmin il yay bir az yağışlı keçirdi. Onlardan gəlib elektrik malları alan bir neçə nəfər sonra gəlib şikayət etdilər ki, təzə aldıqları mal bütün o biri elektrik mallarını sıradan çıxarıb. Buna görə də Martinin aldığı mallar satılmadı, qalıb paslandı, aparıb qaraja qalaqladılar. Beləliklə də, onların qənaət edib yığdıqları pul zibilə, faydasız şeyə

Telegram: @cinciva

döndü, bir dəfə onları kisələrə yığıb Martinin maşınına qoyub zibilliyə apardılar.

Sonra Marti "Rolls Royce" markalı maşını aldı. Əvvəlcə toylara və dəfn mərasimlərinə sifariş qəbul edən bir sürücünün yanında işlədi, nəhayət, bu maşını ondan aldı. Heç bir ay işlətməmişdi ki, maşın sıradan çıxdı. Nə qədər düzəltsələr də, yenə də onun hansısa yeri xarab olurdu. Birinci qışı bu maşın qarajda qaldı. Siçanlar maşının oturacağının içini deşik-deşik etmişdilər. Daha bu maşın heç nəyə yaramırdı. Doğrudan da, kim istəyər ki, toy günündə siçan yemiş oturacaqda otursun? Beləcə o maşın qarajda yatıb qaldı. Cess hər dəfə onu görəndə soyuducularının boş olmasına səbəb kimi ona nifrətlə baxırdı.

Marti xəstələnib bütün gününü yataqda keçirəndə Cess kreditlə pul götürdü. Martinin xəstəliyinin bir adı vardı: Depressiya! Hamı belə deyirdi. Amma maraqlıydı ki, o həftədə iki dəfə pivəxanaya gedib pivə içəndə sanki depressiyası yox olurdu. Son qəpik-quruşlarını da xərcləyib qurtaranda Cess vəziyyətlərinin ağır olduğunu dərk etdi. O dəfələrlə Marti ilə söhbət etmək istəmiş, amma hər dəfə o, yorğanı başına çəkib ona qulaq asmamışdı. Belə günlərin birində Marti anasının yanına gedib orda bir az istirahət etmək qərarını Cessə bildirdi. Doğrusu, Cess onun getməsinə bir az sevindi də. Çünki iki yerdə işləsə də, bir dəri-bir sümük olan Nikini, Tanzinin qarnını güclə doyura bilirdi.

Telegram: @cinciva

– Get, get bir neçə həftə istirahət et. Yəqin ki, bir az özünü yaxşı hiss edərsən onda, – Cess Martinin saçını sığallayıb demişdi. Yalnız elə bu vaxt o, Martinin saçını axırıncı nə vaxt sığalladığını xatırlamaq istəsə də heç nə alınmadı.

Marti sakitcə ona baxmış, gözləri dolmuş halda Cessin əllərini sıxmışdı.

Bütün bunlar iki il əvvəl olmuşdu. O vaxtdan bəri heç biri – nə Marti, nə də Cess onun geri qayıtması məsələsini qaldırmamışdı.

***

Tanzi yatağa uzanana qədər hər şey normal idi. Cess ondan Nataligildə nə yediyini soruşdu, o evdə olmayanda Normanın nə etməsiylə maraqlandı.

Cess Tanzinin saçını daradı, sonra isə onun çarpayısının qırağında oturub ona bir hekayə oxudu – elə bil Tanzi lap balaca uşaq idi. Maraqlıdır, Cess hekayə oxuyanda Tanzi ona demədi ki, riyaziyyatla məşğul olmaq istəyir.

O, Tanzinin dərin yuxuya getməsinə arxayın olandan sonra xəstəxanaya zəng vurdu. Tibb bacısı Nikinin vəziyyətinin yaxşı olduğunu, sabah xəstəxanadan buraxılacağını dedi. Çünki rentgen nəticəsinə görə onun ciyəri zədələnməyib. Başındakı çapıq yerlərinin isə öz-özünə sağalacağını bildirdilər.

Cess Martiyə zəng etdi. O, birdən soruşdu:

Telegram: @cinciva

– Nikinin sifətində hələ də qara ləkələr var?

– Yox, onun üzü indi gömgöydür, – Cess dedi.

Sonra isə Martiyə hirsləndi:

– Sən niyə buna qarşı laqeydsən? Niyə o, dələduzların onun üzündə qoyduqları yara yerlərinə lağ edirsən?

Sonra isə saat ona on beş dəqiqə qalmış polis zəng edib dedi ki, Fişerlər olan hadisəni danıblar.

Cess səsini qaldırdı:

– Orda düz on dörd nəfər şahid olub.

O, səsini qaldırsa da, çalışırdı ki, əsəbdən bağırmasın.

– Hələ on dörd nəfər şahiddən əlavə balıq mağazasındakı satıcı kişi də olanları görüb. O, uşaqlar mənim oğlumun üstünə tullanıblar. Onlar dörd nəfər olub.

– Madam, yalnız ölüm halı olanda biz şahidləri çağırırıq. Həm də Cənab Brent deyir ki, hələ kimin kimi döydüyünü aydınlaşdırmaq lazımdır. Kim dava edirmiş? Fişerlər davaya sizin oğlunuzun birinci başladığını iddia edirlər, – polis belə deyib ah çəkdi. Sanki bu cür çağırışlar artıq onları bezdirib.

– Nə? Mənim oğlum? Mənim oğlumun onlara gücü çatar? Mənim oğlum heç yataq örtüyünü qaldırıb çarpayının üstünə sərə bilmir? Siz isə deyirsiniz ki, o kimisə döyə bilər.

– Madam, biz yalnız dəlillər əsasında hərəkət edirik, – onun səsinin tonundan hiss olunurdu ki, bu sözləri o dəfələrlə eşidib.

Cess dəstəyi əsəbi halda telefonun üstünə qoydu.

Telegram: @cinciva

O, bir neçə dəqiqə başını əlləri arasına aldı. Belə getsə Fişerlər öz hərəkətlərini yenə də davam etdirəcəklər. Yəqin ki, növbəti dəfə onlar Tanzini hədəf seçəcəklər. Bu barədə fikirlər onu üşütdü. Yenə də o, Martinin qarajdakı baltasını xatırladı. O, baltanı götürüb Fişerlərin evinə necə getməyi və onları qanlarına qəltan etməyi düşündü.

Telefon yenə də zəng çaldı. O, cəld dəstəyi qaldırdı.

– Hə, nə olub? Yoxsa demək istəyirsən ki, Niki özü-özünü o kökə salıb? Yoxsa o özü baş-gözünü yarıb?

– Xanım Tomasdır?

Cess gözlərini döyüb dəstəyə baxdı.

– Xanım Tomas, mənəm, Tsvanqarai müəllim...

– Oh, cənab Tsvanqarai! Üzr istəyirəm. Yaxşı vaxtda zəng etməmisiniz, – Cessin dəstəyi tutan əlləri titrəyirdi.

– Bağışlayın ki, sizə belə gec zəng etmişəm. Amma təcili məsələdir. Mən maraqlı bir şey öyrənmişəm. Riyaziyyat Olimpiadası haqda danışmaq istəyirəm, – cənab Tsvanqarai ehtiyatla danışırdı.

– Bu nə deməkdir?

– Bu təzə bir şeydir, istedadlı uşaqlar üçün Şotlandiyada təşkil olunub. Riyaziyyat yarışması da demək olar. Tanzini bu olimpiadaya göndərmək üçün hələ vaxtımız var.

– Riyaziyyat yarışması? – Cess gözlərini yumdu:

– Cənab Tsvanqarai, siz çox yaxşı bilirsiniz ki, indi bizim ora getmək imkanımız yoxdur. Fikirləşmirəm ki...

Telegram: @cinciva

– Xanım Tomas, bir mənə diqqətlə qulaq asın. Yarışda qalib gələnlərə beş yüz funt, min funt və beş yüz funt mükafat veriləcək. Əgər Tanzi qalib gəlsə Müqəddəs Ann məktəbində təhsil almaq üçün ən azı birillik təhsil haqqını qazanmış olur.

– Bir də təkrar edin, – Cess həyəcanlandı.

Cənab Tsvanqarai yuxarıda dediklərini xırdalıqlarına qədər izah etdi, Cess stula çökdü.

– Bu real şeydir?

– Bəli, realdır.

– Doğrudanmı düşünürsünüz ki, Tanzi orda qalib ola bilər?

– Orda onun yaş qrupu üzrə kateqoriya var. Heç cür inana bilmərəm ki, Tanzi yarışda uduza bilər.

Beş min funt. Bu məbləğ Tanzinin birillik təhsil haqqına bəs edər. – Bu sözlər onun beyninə həkk olunmuşdu.

– İnanıram ki, Tanzi üçün ordakı suallar çətin olmaz.

Cess bir daha ayağa durub yenidən oturdu.

– Hə, əlbəttə. Siz Şotlandiyaya getməlisiniz, – Tsvanqarai dedi.

– Cənab Tsvanqarai, düz deyin, bu realdır? Zarafat etmirsiniz?

– Xanım Tomas, mən məzələnməyi xoşlayan adam deyiləm.

– Cənab Tsvanqarai, siz çox gözəl kişisiniz...

Cess onun utancaq gülüşünü eşitdi, düşündü ki, bəlkə də o Tsvanqaraini gözəl adlandıran yeganə qadındır.

Telegram: @cinciva

– Hə, indi nə etmək fikriniz var? – Tsvanqarai soruşdu.

– Mən Tanzinin bəzi işlərindən nümunələri göndərəndən sonra onlar əvvəlki qaydalarında dəyişiklik etdilər. Qaydaya görə, onlar tanınmış məktəblərdən şagirdləri qəbul edirlər. Öz aramızda qalsın, onun qız olması lap yerinə düşdü. Amma tez qərar vermək lazımdır. Cəmi beş gün sonra builki olimpiada başlayır.

...Beş gün... Sabah isə Müqəddəs Ann məktəbində qeydiyyat üçün sonuncu gündür.

Cess otağın ortasında fikirli halda dayandı. Yuxarı qalxdı. Nikollsun pullarını kapron kalqotun içindəki "yuva"dan dartıb çıxardı, pulları bir zərfə qoyub zərfin ağzını yapışdırdı, üstünə ünvan yazdı.

O bu pulu geri qaytaracaq. Son qəpiyinəcən.

Hazırda isə o hələ bir qərara gələ bilmirdi.

Həmin gecə Cess mətbəxdə stol arxasında oturdu, rəqəmləri hesabladı, bir qaralama plan cızdı. İşıq pulunu, su puluna olan borcları hesabladı. Kredit borcunun nə qədər olduğunu bir yerə qeyd etdi. Edinburqa gedən qatarın biletiylə maraqlandı, qiymətləri telefonla öyrənəndə öz-özünə isterikalı adamlar kimi güldü. (187 dollar, stansiyaya getmək 13 dollar). Eləcə də Normanı aparası olsalar, 94 dollar da ona ödəməlidir. Bir müddət başını əlləri arasına alıb xəyala daldı. Birdən o ayağa durub "Rolls-Royce"un açarlarını axtarıb tapdı, bayıra çıxıb qaraja getdi. Oturacağın üstündəki siçan qığlarını təmizlədi, maşını işə salmağa çalışdı.

Telegram: @cinciva

Cess bir neçə saat hətta yay aylarında da nəm qoxuyan, köhnə-kürüş stol-stullarla, plastik vedrə, dəhrə, bel, boş kondisioner qutusu ilə dolu qarajda əlləşdi. Rəngi saralmış sürücülük vəsiqəsini götürdü. Vaxtından iki il keçmişdi.

O, maşının faralarını söndürdü. Benzinin iyi ətrafdan çəkilənədək qaranlıq qarajda oturdu Ən azı min dəfə ürəyində dedi: "Düzgün olanı et!"

Telegram: @cinciva

8

ED

Ed.Nikolls@mayfly.com: Sənə dediklərimi unutma. Əgər kartı itirsən sənə nə etmək lazım olduğunu xatırlada bilərəm.

Deanna1@yahoo.com: Unutmaram. Bütün gecəni beynimə həkk etmişəm.))

Ed.Nikolls@mayfly.com: Sənə dediklərimi etdin?

Deanna1@yahoo.com: Etdim. Təşəkkürlər!

Ed.Nikolls@mayfly.com: Yaxşı nəticə əldə etsən mənə də bildir.

Deanna1@yahoo.com: Kaş ki, nəticələr sıfır olmayaydı.

Deanna1@yahoo.com: Səndən başqa hələ heç kim mənimçün bunu etməyib.

Ed.Nikolls@mayfly.com: Doğrudan? Bu nədir ki? Xırda bir şeydir.

Deanna1@yahoo.com: Gələn həftə yenə də skaypa gələcəksən?

Ed.Nikolls@mayfly.com: Səhər bir az məşğul olacam. Qabaqcadan sənə xəbər verəcəm.

Telegram: @cinciva

Deanna1@yahoo.com: Kaş hər ikimiz üçün xeyirli olardı.))

Müstəntiq Edə imkan verdi ki, o, iki vərəqdə print edilmiş mesajları oxusun, sonra isə kağızları Pol Vilksə tərəf itələdi.

– Cənab Nikolls, burda yazılanlara əlavə şərhiniz varmı?

Şəxsi e-maillərin rəsmi sənəd kimi stol üstündə görməkdən əzablı heç nə yoxdur. Onun yazdığı ikimənalı cavablar, "smaylik" işarələri (onun neçə yaşı var? 14?) müstəntiqin otağında işıq altında kənardan adamı cəlb edirdi, içində nəyinsə gücdən düşdüyünü hiss etdirirdi.

– Sən heç nə deməli deyilsən, – Pol Edə dedi.

– Bizim yazışmamız heç nə haqda deyil, – Ed belə deyib kağızları kənara itələdi. – "Yaxşı nəticə əldə etsən mənə də bildir", – mən belə deyəndə nəsə seksual bir şey nəzərdə tutmuşam. Necə deyim, e-mail seks.

– Səhər saat 11-ə 14 dəqiqə işləmiş?

– Necə bəyəm?

– Ofisdə?

– Mən sərbəstəm.

Müstəntiq eynəklərini çıxarıb Edə qəribə tərzdə nəzər saldı:

– Nə? E-mail seks? Siz bununla məşğul olurdunuz?

– Yox. Amma orda yazılanlar da hələ hər şey demək deyil.

– Mən isə orda yazılanları istintaqa kömək hesab edirəm, cənab Nikolls! İki dəfə görüşməniz barədə

Telegram: @cinciva

protokolda yazılıb. Siz əlaqə saxlamaq haqda yazırsınız... – müstəntiq qarşısındakı kağızlara çırtma vurdu: "Görüm sənə kömək edə bilərəm?"

– Amma hər şey siz düşündüyünüz kimi deyil. O, depressiyada idi. Birinci ərindən təzə ayrılmışdı, həyəcanlı günlərini yaşayırdı. Mən sadəcə ona kömək etmək, halını yüngülləşdirmək istədim.

– Ed... – Polun səsi xəbərdarlıq zənginə bənzəyirdi.

– Daha bir neçə sualım var, – müstəntiq dedi.

Hə, müstəntiqin yenə sualı vardı. O bilmək istəyirdi ki, Dinna ilə neçə gündən bir görüşüblər, hara gediblər, onların əlaqəsinin konkret məqsədi nə olub və sair. Ed onlara deyəndə ki, o heç Dinnanın həyatı haqda çox şey bilmirmiş ona inanan olmadı. O deyəndə ki, Dinnanın qardaşı haqda heç nəyi bilmirmiş, ona inanmadılar.

– Davam edin! Deyin görüm sekslə bağlı heç bir əlaqəniz olmayıb? – Ed soruşdu.

– Amma Levis xanım belə demir. O sizin əlaqələrinizin seks üzərində qurulduğunu demir. O deyir ki, siz "yaxın və gərgin" əlaqədə olmusunuz. Deyir ki, bir-birinizi universitet illərindən tanıyırsınız. Deyir ki, onu bu işə siz "itələmisiniz". Deyir ki, sizin məsləhətinizlə etdiklərinin qeyri-qanuni olduğunu bilmirmiş.

– Deyir ki, biz onunla daha çox əlaqədə olmuşuq. Bu düz deyil axı. Həm də mən onu heç nəyə məcbur etməmişəm.

– Aha, deməli, siz ona informasiya verməyinizi qəbul edirsiniz, eləmi?

Telegram: @cinciva

– Belə demək istəmirdim. Sadəcə deyirəm ki...

– Məncə mənim müştərim demək istəyir ki, onun verdiyi səhv məlumatlara görə o cavabdeh deyil. Levis xanım aralarındakı əlaqəni öz bildiyi kimi yoza bilər. Qardaşına ötürdüyü məlumat haqda da öz istədiyi kimi danışa bilər, – Pol Vilks qeyd etdi.

– Əlaqələrimiz siz düşündüyünüz əlaqələrdən olmayıb, – Ed dedi.

Müstəntiq çiyinlərini çəkdi.

– Bilirsinizmi, sizin əlaqələrinizin nədən ibarət olması məni maraqlandırmır. Onunla bir yerdə olanda nə etməyiniz məni maraqlandırmır... Cənab Nikolls, mənə maraqlı olan odur ki, bu qadın ifadə verib ki, siz ona informasiya vermisiniz. O deyir ki, "fevralın iyirmi səkkizində bir dostun köməyilə çoxlu gəlirimiz olacaq". Onun qardaşının və onun özünün bank hesabları onun dediklərini sübut edir ki, onlar çoxlu gəlir əldə ediblər.

Bir saatdan sonra iki həftə müddətinə zamینə götürülən Ed vəkili Pol Vilksin iş otağında idi. Pol hər ikisinə viski süzdü, sakitcə əyləşdilər. Ed viskini götürüb içdi. Son vaxtlar o tünd içkilərə daha çox meyl edirdi.

– Onun qardaşına nə dedikləri üçün məsuliyyət daşıya bilmərəm. Mən potensialı olan hər bir partnyorun maliyyə işləriylə məşğul olan qardaşının olub-olmasını araşdırmalı deyiləm. Demək istəyirəm ki, kim belə edir?

Pol kreslosuna söykəndi, açıq-aşkar olan şeyləri izah etmək istəyən adam kimi ah çəkdi.

Telegram: @cinciva

– Ed, zəncirin bir ucu yenə də sənə gəlib çıxır. Levis və onun qardaşı külli miqdarda gəlir əldə ediblər. Onlar bütün bunları sənin Levisə qanunsuz verdiyin informasiyaya əsasən həyata keçiriblər.

– O, depressiyada idi, ona kömək etmək istəyirdim.

– Hə, sən ona həqiqətən də kömək etdin. Amma SFA (Sales Automation Software) və SOCA-nı sənin səbəblərin maraqlandırmır, Ed!

– Olmaz ki, biz bu akronumlər barəsində olan söhbətə son qoyaq? Heç bilmirəm sən indi kimdən danışırsan.

– Ed, maliyyə cinayətlərini kim yoxlayır? Bütün maliyyə cinayətkarlarını kimlər istintaq etdirir?

– Elə danışırsan ki, sanki mən artıq ittiham olunmuşam, – Ed viskini Polun qarşısına çəkdi.

– Mən isə deyərdim ki, bəli, sən artıq ittiham olunmusan, Ed. Məncə tezliklə işi məhkəməyə çıxaracaqlar. Onlar işi sürətləndirmək istəyirlər.

Ed gözlərini ona zillədi. Sonra başını əlləri arasına aldı.

– Bu, kabusdur. Mən sadəcə... Sadəcə onun məndən əl çəkməsini istəyirdim, Pol. Mən istəyirəm bunlar sona çatsın.

– Ed, hazırda bircə yolumuz var. Biz onları inandırmalıyıq ki, sən sadəcə kəllə-mayallaq aşmış bir qanmazsan.

– Əla.

– Bəs sənin özünün hansısa daha yaxşı ideyan var?

Ed başını yırğaladı.

Telegram: @cinciva

– Elə isə rahat ol, özünü ələ al.

– Mən bir şey də demək istəyirəm, Pol. Mən işimə qayıtmaq istəyirəm. İşləməyəndə mən nə işlə məşğul olacağımı bilmirəm. Bu boşluq məni dəli edir.

– Dediyim kimi, müstəntiqlər işi tezliklə yekunlaşdırmaq istəyirlər. Sənin yerinə olsaydım iş barədə düşünməzdim. SFA işi yenidən araşdıra bilər. Sənin tamamilə günahsız olmağın haqda fikrimi bildirmişəm. Ümid edirəm ki, məhkəməyədək sənin adın bütün bu "zir-zibildən" təmizlənəcək. Amma məni narahat edən medianın bundan xəbər tutmasıdır. Ən yaxşısı, sən bir həftə də gözə görünmə, – Pol əlindəki kağızları bir-birinə bərkitdi.

Ed Polun əlindəki kağızlara baxdı.

– Necə bilirsən, bu hadisə qəzetlərə yol aça bilər?

– Bilmirəm. Amma güman var ki, çıxa bilər. Yaxşı olar ki, ailənlə də söhbət et, istənilən neqativ yazılara hazır olsunlar.

Ed həyəcanla dedi:

– Bacarmaram.

– Nəyi bacarmarsan? – Pol soruşdu.

– Atamın vəziyyəti ağırdır. O xəstədir... Bu xəbər onu... – Ed başını yırğaladı.

Pol bir müddət gözlərini Eddən ayırmadı.

– Elə isə özün qərar ver buna. Amma bayaq da dediyim kimi, bütün bu "tufan" sovuşana kimi hardasa gözə görünmədən qalsan sənin xeyrinə olar. Hər şey aydınlaşmayana kimi "Mayfly" səni görmək belə istəmir.

Telegram: @cinciva

Söhbət külli miqdarda puldan gedir. Sən şirkət işçilərindən heç biri ilə əlaqə yaratma. Heç bir e-mail, heç bir zəng olmasın. Əgər təsadüfən kimsə özü sənlə əlaqə yaratmaq istəsə heç nə demə. Heç kimə! – Belə deyib Pol qələmini stola döyəclədi, elə bil bununla da söhbətin sona çatdığını bildirmək istədi.

– Deməli, mən gözdən uzaq bir yerdə gizlənirəm, ağzımı da mumlayıb, baş barmağımın üstündə fırlana-fırlana həbsxanaya gedəcəyimi gözləməliyəm, eləmi?

Vəkil ayağa durdu, stolun üstündəki qovluğu bağladı.

– Ed, bütün komandamız çalışır ki, iş belə sona çatmasın. Əlimizdən gələni edəcəyik ki, belə olmasın.

Ed də ayağa durdu, baş verənləri həzm etməyə çalışdı. Pol qapını açıb onu yola saldı.

– O, bir də sənə zəng etsə de ki, sən onunla maraqlanmırsan. Oldu?

Ed Polun ofisinin pilləkənlərində dayanıb durdu. Ofisin ətrafında çoxlu işçi ora-bura tələsirdilər. Katibələr gülə-gülə, əllərində buterbrod yeyə-yeyə yaxınlıqdakı parkda gəzişirdilər.

Başqa birisi ofisdə oturub Nespresso ilə məşğul idi. İş otaqlarına baxarkən Ed bir anlıq iş üçün nə qədər darıxdığını hiss etdi. Dostlarla bir yerdə yeməyə getdiklərini xatırladı. İndi isə o bütün günü qolları qoynunda televizor arxasında vaxt keçirməliydi. Neçə gündür ki, o heç kimlə danışmır, davam edən istintaqın sonunu gözləyirdi.

Telegram: @cinciva

Ed keçən həftə başına gələnlər barədə fikirləşirdi. Səhər Biçfrontda ayılanda özünü divanda uzanmış görüb bura necə gəldiyini yada salmağa çalışmışdı. Ağzı qupquruydu, susuzluqdan yanırdı. Eynəkləri kofe stolunun üstündəydi. Son ildə bu artıq üçüncü dəfəydi ki, həddindən artıq içdiyindən evə necə gəldiyini bilmirdi. Amma yalnız bu dəfə cibləri bomboş idi.

Əslində o çox da içməyi sevən adam deyildi. Lara həmişə təkidlə ona deyirdi ki, çox alkoqol qəbul etmək onu piyləndirir, o gileylənirdi ki, bir-iki qədəh içəndən sonra Ed möhkəm xoruldayır. Ed bu dəqiqə də yalnız içmək istəyirdi. Daha heç nə. Məsələ bundaydı ki, o, indi iş üçün elə darıxırdı ki, heç arvadı üçün belə darıxmamışdı. O, işi üçün keçmiş sevgilisi kimi darıxırdı. O, əvvəlki iş rejimi üçün darıxırdı. Son beş ildə onun iş rejimi dünyanın ən nizam-intizamlı rejimi idi:

– Səhər saat 7.00 – yuxudan durmaq, kofe içmək.

– Səhər saat 7:30 – şəxsi məşqçisiylə görüşmək, duş qəbul etmək, işə piyada getmək, Ronanla bir yerdə ikinci kofeni içmək.

– Səhər saat 9.00-da iş başlayır.

Axşam 8:30-da iş qurtarır, ya binanın altındakı barda Ronanla nəsə içirlər, evə piyada gedirlər, ya da işə qayıdıb əlavə nəyləsə məşğul olmaq.

Həmişə belə olub onun rejimi. Onu qane edən rejim. İndi isə Ed Nikolls hər səhər yuxudan duranda paltarını geyinmək üçün hansısa bir səbəb tapmalıydı. O özünü inandırmalıydı ki, həyatı hələ sona çatmayıb.

Telegram: @cinciva

– Özünü əl al, Ed! Sakitləş! Məntiqlə düşün, Ed! Hər problemin bir sonu olur. Həmişə bir çıxışı yolu tapılır.

Ed öz-özünə dedi. Dərindən nəfəs aldı.

O, təzə telefonuna (təzə idi, burda yalnız üç vacib nömrə vardı) nəzər saldı. Bacısı Gemmadan üç səsli mesaj gəlmişdi. Başqa heç kim zəng etməmişdi.

Ed "delete" düyməsini sıxdı, səki ilə maşın parkına tərəf getməyə başladı.

***

Ed bir müddət boş mənzilində oturdu, sonra pizza restoranına gedib nahar etdi, yenidən geri qayıdıb mənzilində oturdu. Şəhərdə heç bir işi olmadığına görə maşınına minib dəniz sahilinə tərəf sürdü. Londondan çıxarkən bütün yol boyu Dinna Levis gözləri qabağından çəkilmirdi. Dərviş kimi maşınla ora-bura getdikcə Dinnanın xəyalı ondan əl çəkmirdi. Ed onun iri, ala gözlərini, o zarafat edəndə sevinclə gözlərini necə qıymasını xatırladı. Onun gözlərinə zillənən baxışları sanki hiss edirdi. Keçmiş fikirlər gümüş balıq kimi gözləri önündə "atılıb-düşürdü". O necə böyük bir axmaqlıq edib? Niyə o fikirləşməyib ki, Dinna bu barədə kiməsə deyə bilər? Bəlkə Dinna və qardaşı hər şeyi qabaqcadan planlaşdırıblar? Bəlkə o hansısa psixotik qisas alırmış ondan?

Maşını sürdükcə fikirlər beynini döyəcləyirdi. Əsəbdən bütün bədəni titrəyirdi, irəli getdikcə özünə daha

Telegram: @cinciva

da acığı tuturdu. O, keçmiş arvadı Laraya verdiyi kimi mənzilinin açarlarını ona da verə bilərdi, ya da bank hesabı məlumatlarını ona da deyə bilərdi. O da Lara kimi hər şeyi "silib-süpürərdi". Belə olsaydı daha yaxşı olardı. Amma hər halda işini, dostunu itirməzdi.

Qodalminq çıxışından əvvəl o maşını saxladı, Dinnanın nömrəsini yığdı. Müstəntiqlər sübut axtarmaq üçün telefonun yaddaşında olan nömrələri götürdüklərinə görə nömrəni yadına salmalı oldu.

Ed onun üstünə bağırıb demək istəyirdi: "Sən nə etmək istəyirdin? Sən niyə mənim bütün həyatımı korlamaq istəyirdin? Səbəb nədir?"

Onun nömrəsinə zəng çatmırdı.

Ed əlində telefon maşından düşüb yol kənarında oturdu. Yalnız bundan sonra hirsi bir az soyudu. Bir az tərəddüd edəndən sonra Ronanın nömrəsini yığdı. Onun nömrəsini əzbərdən bilirdi.

Bir neçə zəngdən sonra Ronan telefonu qaldırdı:

– Ronan... – Ed dedi.

– Ed, sənlə danışmağa mənə icazə vermirlər, – Ronanın səsindən yorğunluq yağırdı.

– Bəli, bilirəm bunu. Mən sadəcə... Sadəcə demək istəyirəm ki...

– Nəyi? Nəyi demək istəyirsən, Ed?

Onun səsindəki əsəb bir az azalmışdı.

– Bilirsənmi, heç dövlət sirrini ötürmək anlayışının nə demək olduğunu bilmirəm. Düzdür, bu bizim şirkət

Telegram: @cinciva

üçün böyük bədbəxtlik gətirib. Amma sən mənim köhnə dostumsan. Köhnə dost. Mən sənə qarşı heç vaxt bunu etmərəm.

Çıqqıltı eşidildi, sonra isə Ronanın nömrəsinə də zəng çatmadı.

Ed maşının sükanı arxasına keçib başını bir neçə dəqiqəlik sükana söykədi. Beynini döyəcləyən fikirlərin beynindən rədd olub getməsinə çalışdı. Sonra isə sakitcə maşını işə salıb Biçfronta tərəf sürməyə başladı.

***

Ed şose yolu ilə sürəndə birdən telefonuna zəng gəldi. Ekranın yanıb-sönən işığında nömrəyə baxdı. Ah çəkdi, sonra isə hands-free-nin düyməsini basdı:

– Lara, nə istəyirsən? – Ed bu cümləni sual kimi demədi.

– Ey, balaca, necəsən?

– Hm... Hm... çox da yaxşı deyiləm.

– Yox, belə demə! Nə olub, nə məsələdir?

Adamın ağlına da gəlməzdi ki, Lara, keçmiş arvadı xalis italyandır. O, barmaqlarını Edin saçına toxundurar, yavaş-yavaş sığallayar, doğma ana kimi ətrafında vurnuxar, bəzən ürəkdən gülərdi. Ayrılmazdan az əvvəl onun bu hərəkətləri Edi qıcıqlandırırdı, amma indi isə gecə vaxtı, boş şose yoluyla gedərkən onun sığalları üçün darıxdığını hiss etdi.

– Heç... işlə bağlı problemdir.

Telegram: @cinciva

– Hə, işlə bağlı (o, ingiliscə "work" ("iş") sözünü "werk" kimi tələffüz edirdi)

Ed üçün maraqlıydı, görəsən onun ağlına gələrmi ki, Ed onunçun darıxıb.

O, yaxşı bilirdi ki, Lara ilə evlənmək yaxşı fikir deyildi. Heç ağlına da gəlməzdi ki, onunla evlənmək qərarına gələr. Ey, axmaq, bəs niyə sonda onunla evləndin? Onlar evləndilər, çünki o istəyirdi ki, evlənməklə Laranı xoşbəxt etsin. Amma evlənəndən cəmi ikicə həftə sonra Ed anladı ki, evlilik Laranı xoşbəxt edə bilməz, ən azı onunla evlənmək Laranı bəxtəvər etməz.

– Hər şey yaxşıdır, Lara. Sən necəsən?

– Anam məni lap dəli edib. Evimizin damında da problem yaranıb.

– Bəs işin varmı?

O, dişlərini dodağına sıxıb qəribə səs çıxartdı:

– Məni Vest Enddəki işimə geri çağırdılar. Sonra isə dedilər ki, guya yaşlı görünürəm. Çox qoca!

– Sən çox yaşlı görünmürsən!

– Mən də bilirəm! Mən lap 16 yaşında da görünə bilərəm! Hey, balaca, mən sənlə evin damı barəsində danışmaq istəyirəm.

– Lara, axı sizin müqavilələriniz olmalıdır.

– Amma onlar deyir ki, damı təmir etməyə çox pul lazımdır. Çooox. Mənimsə heç nəyim yoxdur.

– Nə olub ki?

– Qardaşıma biznesində pul lazım oldu. Bilirsən ki, atamın da sağlamlığında problem var. Mənim isə çoxlu kredit borcum var.

Telegram: @cinciva

– Elə bu?

– Damı təmir etməyə pulum yoxdur. Deyirlər ki, o bu qış dama bilər. Eduardo!

– Lara, axı sən həmişə dara düşəndə dekabr ayında mənzilimdən götürdüyün rəsm əsərlərini satardın.

Edin vəkili o vaxt ona demişdi ki, günah Edin özündədir, gərək boşanandan sonra evin açarlarını dəyişəydi.

– Mənim vəziyyətim pisdir, Ed. Sənin çün darıxıram. Mən o vaxt onları səndən bir yadigar qalsın deyə götürmüşdüm.

– Ok. Üzünə belə baxmaq istəmədiyin kişidən yadigar saxlamaq istəyirsən.

– Ed, mən o sözləri deyəndə acıqlı idim (o, ingliscə "angry" ("acıqlı") sözünü "engry" kimi tələffüz edirdi).

Ed əliylə gözlərini ovuşdurdu, siqnal verdi ki, onun sahil yoluna tərəf gedən yola buraxsınlar.

– Sənin lə xoşbəxt (o, ingiliscə "happy ("xoşbəxt") sözünü " heppy" kimi tələffüz edirdi) olduğumuz vaxtlardan bir xatirə saxlamaq istəyirdim.

– Hə, Lara, yəqin ki, bir də mənim üçün darıxanda ikimizin çərçivəyə salınmış şəklimizi götürəcksən, Mao Tse-tunqun on dörd min funt dəyəri olan şəkillərini yox, eləmi?

Onun səsi zəif eşidildi, pıçıltıyla danışırdı:

– Vecinə deyil ki, mənim üz tutmağa səndən başqa heç kimim yoxdur? – Lara pıçıltıyla soruşdu.

Onun səsi kədəliydi, incəydi. Lara bilirdi ki, onun səsi Edi həyəcanlandırıb.

Telegram: @cinciva

Ed arxa güzgüyə baxdı:

– Lara, bəs niyə Cim Leanardsa müraciət etmirsən ki, sənə kömək etsin?

– Nə?

– Hə, onun arvadı mənə zəng etmişdi. Onun arvadı xoşbəxt deyil, gülməli də olsa.

– Bu yalnız bircə dəfə olub. Mən yalnız bircə dəfə onunla getdim. Həm də kiminlə görüşmək mənim öz işimdir!

Bu vaxt Lara elə möhkəm qışqırırdı ki... Ed onun halını göz önünə gətirdi. O manikürlü dırnaqlarını pişik caynaqları kimi oynadır, sanki dünyanın ən xoşagəlməz kişisini dırnaqları ilə didməyə hazırlaşır.

– Sən tərk etdin məni. Yoxsa bütün həyatım boyu rahibə kimi yaşamalıydım? – Lara səsini qaldırdı.

– Yox, Lara, sən məni atıb getdin. Parisdən gəldiyin gün, mayın iyirmi yeddisində sən məni atıb getdin. Yadına gəlir?

– Lap xırda detallarına kimi yadında saxlamısan hər şeyi. Bax, elə buna görə səni atıb getdim.

– Mən isə elə bilirəm ki, məni atmağına səbəb işimi sevməyim, insan emosiyalarını başa düşməməyim olub.

– Yox, mən səni ona görə tərk etdim ki, penisin çox balacadır. Lap krevet penisi boyda.

– Bəlkə qreyfiş demək istəyirsən.

– Hər nəsə dünyanın ən balaca heyvanın penisi boyda.

– Sözsüz ki, səni kreveti nəzərdə tutursan. Səni bahalı, az tapılan şəkillərin asıldığı evimə buraxdığıma görə məni omar adlandırsan əla olar.

Telegram: @cinciva

Ed italyan dilində qarğış etdi, sonra isə telefonun çıqqıltıyla söndürülməsini hiss etdi. O, bir neçə kilometr məsafəni elə sürdü ki, buna sürmək demək olmazdı.

Sonra o ah çəkdi, radionu açdı, fikrini yola cəmləşdirib yoluna davam etdi.

***

Sahil yolundan çıxanda Gemma zəng etdi.

Telefonun ekranında Gemmanın adı yazıldı. Ed cavab vermədi, ona niyə zəng etmədiyi üçün bəhanə barəsində fikirləşməyə başladı. Ona elə gəlirdi ki, hər dəfə telefonuna zəng gələndə kimsə onun üstünə bağırır.

– Ed, demə ki, çox məşğulsan.

– Mən maşın sürürəm.

– Axı sənin hands-free-n var. Anam bilmək istəyir ki, sən ildönümü üçün təşkil etdiyimiz nahara gələcəksən ya yox.

– Hansı ildönümü naharı?

– Ed, özünə gəl, mən bu haqda sənə neçə ay əvvəl demişdim.

– Bağışla, yəqin ki, harasa qeyd etmişəm.

Ed onun dərindən nəfəs aldığını duydu.

– Ataya gələn çərşənbə axşamı evə gəlməyə icazə verəcəklər. Ana süfrə açmaq istəyir. O istəyir ki, biz də orda olaq. Sən söz vermişdin ki, gələcəksən.

– Hə. Bəli...yadıma düşdü.

– Nə? Yadına düşdü? Gələcəksən?

Telegram: @cinciva

Ed barmaqlarını sükana döyəclədi:

– Bilmirəm.

– Bura bax, Ed, dünən ata səni soruşurdu, ona dedim ki, sənin başın işə qarışıb. Amma, Ed, ata çox zəifləyib. Sənin ona baş çəkməyin çox vacibdir. Hər ikisinə, elə anaya da.

– Gemma, sənə demişəm ki...

Gemmanın səsi maşının içində bomba kimi partladı:

– Hə, mənə demisən ki, çox məşğulsan. Sən demisən ki, görüləcək bir yığın işin var... mənə demisən ki...

– Sənin qardaşın ideal deyil... Mənim çoxlu problemim var.

– İnanmıram ki, sənin probleminin nədən ibarət olduğunu başa düşəm. Cüzi maaş alan mənim kimi axmaq sosial işçi sənin problemindən baş açа bilməz. Hə, sənin ali təhsil almağın üçün hər şeyindən keçən adamdan danışıram mən. Bil ki, onun çox ömrü qalmayıb. Get ona baş çək, ölməzdən əvvəl oğullar atalarına nə deyirlərsə sən də ona o sözləri de, eşitdin?

– Yox, o hələ ölmür.

– Sən bunu hardan bilirsən? Sən düz iki aydır ki, onun üzünü görməmisən.

– Qulaq as, ona baş çəkməyə gedəcəm. Sadəcə...

– Nəyə görə sən hələ də bəhanə gətirirsən?

– Mən bəhanə gətirmirəm, Gemma!

– Boş şeydi! Sən biznesmensən. And içirəm əgər ataya bir şey olsa...

– Gem, mən səni eşitmirəm.

Telegram: @cinciva

Ed səsi yaxşı eşitməyəndə hands free-nin düyməsini basdı. Amma telefon sönməzdən əvvəl o bacısının "yaramaz" dediyini eşitdi.

Ed radionu açdı. Süd məhsulları haqqında bir proqram gedirdi. O, kanalları dəyişdi, amma proqramın musiqisi elə qəmli idi ki, o bacısını xatırladı. Radionu söndürməzdən əvvəl klassik musiqi axtardı. Sonra yerli radionun verdiyi proqramı dinlədi.

Telefon yenə zəng çaldı. O ekranda nömrəni gördü, amma cavab vermədi. Telefon yenə zəng çaldı. O yenə də cavab vermədi. Üçüncü dəfə zəng gələndə o ah çəkib "yes" düyməsini basdı.

– Bircə nahar... – sosial işçi olan bacısının səsi sakit idi. – Deyirəm ki, bircə nahar onlarla bir yerdə ol... Ed, səndən bircə xahişim budur.

Ed irəlidə polis maşınını görüb spidometri yoxladı.

"Bir yığın metal parçası", qabaq farası sönmüş "Rolls Royce" polis maşının işığında göründü. Maşının yanında bir balaca qız və böyük bir it vardı. Onların yanından keçəndə Ed başını pəncərədən çıxarıb baxdı.

– Hə, başa düşürəm ki, sənin çoxlu işin-gücün var, işin çox vacibdir. Biz hamımız bunu başa düşürük. Amma sən xəstə atanla, yaşlı anan və xilaskar bacınla bir dəfə ailə naharında iştirak etməlisən. Bunun üçün sənə çox yalvarmalıyam?

– Gem, hadisə baş verib, telefonu söndürmə... görüm...

Telegram: @cinciva

Balaca qızın yanında bir qarasaçlı yeniyetmə – qız, ya oğlan – Ed yaxşı görmədi – da vardı. Onun əlləri cibindəydi, üzünü nəsə yazan polisdən döndərmişdi. Deyəsən orda başqa uşaq da, yox, uşaq yox. bir qadın da vardı. Saçını arxadan at quyruğu yığmışdı. O qadın əl-qol ata-ata elə danışırdı ki, jestlərindən onu Laraya oxşatdı. Elə bil Laranın səsini eşitdi: Sən çox zəhlətökənsən...

Heç beş-on metr aralanmamışdı ki, gördüyü qadını kiməsə oxşatdı. Onu harda görüb? Beyni yoruldu fikirləşməkdən. Beachfrontda? Yaddaşında o qadınla bağlı olanlar göz önünə gəldi. Açarları o qadının əlində... O, qadın onun eynəklərini çıxarır... onun evində. Hə, bəs o qadın gecənin bu vaxtında uşaqlarla burda nə edir? Maşını saxladı, arxa güzgüdən onlara baxdı. İndi Ed ordakı "dəstəni" daha yaxşı görürdü. Balaca qız yolun qırağında oturmuşdu, it də yekə daş parçası kimi onun yanında qaralırdı.

– Ed, sənə nə olub? – Gemmanın səsi sükutu pozdu.

Sonralar o yadına sala bilmədi ki, onu belə hərəkət etməyə nə vadar etdi. Bəlkə də Ed evinə qayıdıb televizorun qabağında oturmağı istəmədiyi üçün geri qayıtmağa cəhd etdi? Bəlkə də o bu hadisənin iştirakçısı olmaqla adı həyata qayıtmaq istədi. Dəqiq bilmir. Bəlkə də o özünü inandırmaq istədi ki, bayaq bacısının hirslə ona dediyi kimi o heç də "yaramaz" deyil, o da bir işə yarayar.

Telegram: @cinciva

– Gem, sənə sonra zəng edəcəm. Tanıdığım adamdır...

Ed maşını saxlayıb zəif işıqlandırılan yolla polis maşınına çatana qədər geri sürdü, maşını yolun o biri tərəfində saxlayıb başını pəncərədən çıxardıb soruşdu.

– Kömək lazımdır?

Telegram: @cinciva

9

TANZİ

Nikini xəstəxanadan saat beşə on beş dəqiqə qalmış buraxdılar. Nikini görən kimi Tanzi avtobusla gətirdiyi Nintendonu verdi, sonra isə onun necə oyun oynamasına baxdı. Nikinin şişmiş sifətini ilk dəfə görəndə Tanzinin xoş əhvalı bircə anda yox oldu. Demək olar ki, qarşısındakı oğlan Nikiyə oxşamırdı. Tanzi gözünü ona zilləyib baxsa da gözləri sanki Nikiyə yox, divardan asılmış axmaq at şəkillərinə – onlar da heç ata oxşamırdı – zillənirdi. Tanzi Nikiyə Müqəddəs Ann məktəbi haqda, ora necə qeydiyyat olunacağı haqda danışmaq istədi, amma bu balaca otaqda, xəstəxana iyi gələn, Nikinin üz-gözü şişmiş vəziyyətini görərək o məktəb haqda düşünmək ağır idi.

O, yeriyəndə qəribə səslər çıxarırdı, amma ağzını yummaqla sanki səsin qarşısını alırdı ki, yaxındakılar onun səsini eşitməsin. Elə bil istəmirdi ki, ağrıdığını hiss etsinlər. Tanzi fikirləşirdi: Onu bu hala Fişerlər salıb. Bunu Fişerlər edib...

Telegram: @cinciva

Bu haqda düşünəndə azca qorxdu, çünki inana bilmirdi ki, onlar bunu heç bir səbəb olmadan ediblər.

Cess xəstəxanadakılarla bir az mübahisə etdi, onlara başa salmağa çalışdı ki, o Nikinin həqiqi anası olmasa da həqiqi anadan da yaxşıdır. Bəli, Nikiyə sosial işçi qayğı göstərmirdi. Onun buna ehtiyacı yoxuydu, çünki Cess ona anadan da əziz idi. Tanzi hərdən düşünəndə ki, Niki onların ailəsinin əsl üzvü deyil, pis olurdu, halbuki o ailənin tam bir üzvü idi.

Niki ayağa durub koridorda yerimək istəyəndə Tanzi əlini yüngülcə onun əllərinin üstünə qoydu. Başqa vaxt belə olanda Niki deyərdi: "Hə, qaçaq?" Amma indi o sadəcə Tanzinin barmaqlarını sıxdı, onun şişmiş ağzının kənarlarında təbəssüm hiss olundu. Əvvəllər onlar qaçarkən o Tanziyə baxıb sanki deyirdi:

"Tanzi, axı mən həqiqətən də tualetə getmək istəyirəm. Bəsdir qaçdıq".

Cessin sifəti solğun idi, hələ də o hansısa səbəbdən dodaqlarını çeynəyirdi, elə bil o çox şey demək istəyirdi, amma deyə bilmirdi. Niki Cessə tərəf baxmırdı.

Sonra isə Nikinin otağına çoxlu həkimlər və başqa adamlar gəldi. Cess Tanziyə dedi ki, otaqdan çıxıb dəhlizdə gözləsin, o da antiseptik dəhlizə çıxıb əlindəki kağızlarda riyaziyyat misalları etdi. Rəqəmlər həmişə onun əhvalını yaxşılaşdırırdı. Əgər rəqəmlərlə yaxşı rəftar etsən, onlar nə üçün nəzərdə tutulubsa, onu da edəcəklər – sanki bir sehrli qayda vardı, o qaydanı tapmaq üçün düzgün açarı tapmaq lazım idi.

Telegram: @cinciva

Tanzi otağa girəndə Niki geyinmişdi. O, asta addımlarla otaqdan çıxanda nəyisə xatırladı, geri qayıdıb tibb bacısına təşəkkür etdi.

– Çox yaxşı oğlandır, nəzakətlidir, – tibb bacısı Cessə dedi.

Cess Nikiyə aid olan şeyləri çantasına yığırdı, tibb bacısına dönüb dedi:

– Bu çox pis şeydir. O həmişə tək olmaq istəyir.

Tibb bacısı Tanziyə tərəf baxdı:

– Qardaşından muğayat ol!

Tanzi Nikinin arxasıyla əsas çıxışa tərəf gedəndə bütün söhbətlərin məzəli baxışla və " Muğayat ol" sözüylə bitdi.

Evə gəlib Cess nahar hazırladı, Nikiyə üç müxtəlif rəngli həb verdi ki, atsın. Sonra isə hamısı divanda oturub televizora baxmağa başladılar.

Televizorda Total Vipeout göstərilirdi. Başqa vaxtlar Niki bu filmə baxanda gülməkdən uğunardı, indi isə evə girəndən bəri heç onlarla kəlmə də kəsməmişdi. Cess inanmırdı ki, Nikinin danışmamağına səbəb çənəsinin ağrımasıdır. Sifəti qorxunc idi, qəribə görünürdü. Tanzi Nikiyə baxanda o dörd oğlanın onun başına necə tullanmasını, onu necə təpikləməsini, qonşunun onu uşaqların əlindən alıb mağazaya necə aparmasını göz önünə gətirdi. O, bu fikirləri başından qovmaq istəyirdi, çünki bu fikirlər onu qorxudurdu. Düzdür, anası demişdi ki, bir daha belə hadisə baş verməyəcək, amma o yenə də özündən asılı olmadan o hadisəni təsəvvür edirdi.

Telegram: @cinciva

Cess yuxarı otaqda məşğul idi. Tanzi hiss edirdi k, anası siyirmələri çəkir, nəsə götürür, otaqda ora-bura hərəkət edirdi. O qədər məşğul idi ki, hətta yatmaq vaxtının keçdiyini də hiss etmədi.

Tanzi Nikiyə yaxınlaşıb barmaqlarını onun yaralarına toxundurub soruşdu:

– Niki, ağrıdır?

– Nə?

– Üzün.

– Nə demək istəyirsən? – Niki Tanziyə elə baxdı ki, sanki onun nədən danışmasından xəbəri yoxdur.

– Üzünün forması məzəlidir.

– Sənin də üzünün forması məzəlidir. Sənin üzün səni incidir?

– Ha... ha... – Tanzi güldü.

– Titç, mən yaxşıyam. Bunu unut!

Tanzi gözünü ona zilləyib bir də baxanda Niki təkrar etdi:

– Doğru deyirəm...Unut yaralarımı.

Cess aşağı düşdü, Normanın xaltasını başına keçirdi. Norman divanın üstündə uzanmışdı, durmaq istəmirdi. O, iti qapının yanına çəkmək üçün dörd dəfə cəhd etdi. Tanziyə elə gəldi ki, anası iti gəzməyə aparmaq istəyir. Amma heç nə soruşmadı. Çünki o heç vaxt iti gecənin bu vaxtı gəzməyə aparmırdı.

O, iti qapıdan çölə çıxarıb otağa girdi.

– Hə, uşaqlar, durun paltolarınızı geyinin.

– Paltolarımızı? Nəyə görə?

Telegram: @cinciva

– Çünki biz Şotlandiyaya gedirik.

Niki heç başını da qaldırmadı. O, televizora baxmaqdaydı. Televizorun pultunu götürüb başqa kanala çevirdi, yavaşca mızıldandı:

– Hə, Şotlandiyaya gedirik.

Cess bir də təkrar etdi:

– Biz Şotlandiyaya yola düşürük.

– Ana, axı, maşınımız yoxdur.

– Niyə ki? "Rolls"la gedəcəyik.

Niki Tanziyə baxdı, sonra dönüb Cessə baxdı:

– Ana, axı sənin maşın sürməyə ixtiyarın yoxdur.

– Mən 12 yaşımdan maşın sürürəm. Heç vaxt da qəza törətməmişəm. Bir də biz B yolu ilə gedəcəyik, yolun çoxunu gecə qət edəcəyik. Kimsə bizim maşını saxlayınca biz artıq Şotlandiyada olacağıq.

Hər ikisi maraqla ona baxdılar.

– Bəs sən demişdin ki...

– Mən nə dediyimi yaxşı bilirəm. Bəzən sonluq nəticəyə haqq qazandırır.

– Bu nə deməkdir?

Cess əlini qəribə tərzdə havada fırlayıb sözə başladı:

– Həyatımızı dəyişə biləcək riyaziyyat yarışması var. Bu yarış da Şotlandiyada keçiriləcək. Hazırda ora getmək üçün yol pulumuz yoxdur. Reallıq budur. Bilirəm ki, burdan ora maşın sürmək ideal yol deyil, mən bunu heç də düzgün hesab etmirəm. Sizin ora getmək üçün başqa ideyanız yoxdursa, tələsin, maşına minin.

Telegram: @cinciva

– Ana, bəs yır-yığış etmirik?

– Hər şey hazırdır, maşına qoymuşam.

Tanzi dəqiq bilirdi ki, Niki də o fikirləşəni düşünür, yəni, nəhayət ki, ana ağlını itirdi! Amma Tanzi hardasa oxumuşdu ki, dəlilər də lunatiklər kimdir – onlara toxunmaq, narahat etmək olmaz. Buna görə də o sadəcə başını yırğaladı, elə bil bununla anasıyla razılaşdığını bildirirdi, paltosunu götürdü, arxa qapıdan keçib qaraja girdi. Norman artıq maşının arxa oturacağındaydı, onu görəndə sanki baxışları ilə "hə, mən də gedirəm" demək istəyirdi.

Qız maşına mindi. Maşının içindən kif qoxusu gəlirdi, o əllərini oturacağa toxundurmaq istəmədi, çünki oxumuşdu ki, siçanlar hər dəqiqə, dayanmadan işəyirlər və siçan sidiyi insanda səkkiz yüz xəstəliyə səbəb ola bilər.

– Ana, olarmı gedib əlcəklərimi də gətirim? – Tanzi anasına üz tutdu.

Anası ona dəliyə baxan kimi baxdı, ancaq razılıq əlaməti olaraq başını yırğaladı. Tanzi cəld yerə tullanıb evə tərəf qaçdı, əlcəklərini götürdü. İndi o özünü bir az yaxşı hiss edirdi. Niki ehtiyatla maşına mindi, qabaq oturacaqda oturmazdan əvvəl oturacağın tozunu, sükanı əliylə sildi.

Tanzi istədi ki, ona siçan sidiyinin fəsadları haqda desin, amma o nə anasını, nə də Nikini bildiyi faktla həyəcanlandırmaq istəmədi.

Telegram: @cinciva

Cess qarajın qapısını geniş açdı, motoru işə saldı, maşını qarajdan çölə sürdü. Sonra o maşından düşdü, qarajın qapısını bağlayıb, qıfılladı, sonra maşında oturub bir anlıq fikrə getdi. Birdən başını qaldırıb Tanziyə döndü:

– Tanzi, səndə qələm-kağız var?

O, çantasını götürüb qaranlıqda axtardı, sonra anasına qələm və kağız verdi.

Cess istəmirdi ki, Tanzi onun nə yazdığını görsün. Amma Tanzi başını pəncərədən çıxardıb onun nə yazdığını görə bildi:

FİŞERLƏR HÜNƏRİNİZ VARSA BİZİM QAPIYA YAXINLAŞIN MƏN POLİSƏ MƏLUMAT VERMİŞƏM ƏGƏR NƏSƏ OLSA BİLİRƏM Kİ SİZ ETMİSİNİZ POLİS NƏZARƏTDƏ SAXLAYACAQ

Anası nöqtə, vergül olmadan yazmışdı.

Cess yazıb qurtarandan sonra maşından düşdü, vərəqi qarajın qapısına bərkitdi. Küçədən baxanda vərəqi görmək olmazdı. Sonra o maşına girib yarısını siçan yemiş oturacağında əyləşdi və "Rolls" evlərini gecənin qaranlığında qoyub irəliyə doğru yola düşdü. Amma cəmi heç on dəqiqə keçməmişdi ki, Tanzi və Niki başa düşdülər ki, Cess maşın sürməyi unudub. Hətta Nikinin və Tanzinin də bildiyi ən sadə şeyləri – güzgüyə necə baxmağı, siqnal verməyi, manevr etməyi bilmir. O hər şeyi səhv edirdi, sükanın üstünə əyilərək, şəhərin mərkəzində saatda 15 kilometr sürətlə sürən qoca nənələr kimi sükandan bərk-bərk yapışmışdı.

Telegram: @cinciva

Onlar sənaye mərkəzini, xalça anbarını – Rose və Crown-u arxada qoydular. Tanzi burnunu pəncərəyə sıxmışdı. Faktiki olaraq onlar şəhəri tərk edirdilər. Axırıncı dəfə məktəbdən Durdle Door-ya gedərkən şəhərdən çıxmışdı.

Tanzi onu da xatırlayırdı ki, həmin səyahət vaxtı sinif yoldaşı Melani Abbotun ürəyi bulandı, o, "C" qiyməti alan beş nəfərin üstünə zəncir formasında qusdu.

– Sakit ol, – Cess öz-özünə deyirdi.

– Sən heç də sakit görünmürsən, – Niki ona dedi.

O hələ də Nintendo oynayırdı, ekranın işıldayan ekranında onun barmağının ləkələri görünürdü.

– Niki, istəyirəm ki, xəritəyə baxasan. Bu dəqiqə Nintendo oynamaq vaxtı deyil.

– Hə, əmin ol ki, biz şimala tərəf gedirik.

– Bəs şimal hardadır? İllərlə bu yolla maşın sürməmişəm. Deyin görüm, hansı tərəfə sürməliyəm?

Niki əlindəki xəritəyə baxıb soruşdu:

– Bizə M3 lazımdır?

– Mən bilmirəm, Niki, səndən soruşuram.

– Ver mən baxım, – Tanzi arxadan boylanıb Nikinin əlindən xəritəni aldı.

Tanzi xəritəylə əlləşdiyi vaxtda onlar dolama yolu iki dəfə fırlandılar, sonra isə halqavarı yola çıxdılar. Tanzi bu yolu dumanlı şəkildə olsa da xatırladı: Bir dəfə atasıyla anası kondisionerləri satmaq istəyəndə bu yoldan keçmişdilər.

Tanzi anasına dedi

Telegram: @cinciva

– Ana, olar ki, işığı yandırasan? Mən yaxşı oxuya bilmirəm xəritəni.

Cess ona tərəf döndü:

– İşığın düyməsi başının üstündədir.

Tanzi başını qaldırıb baş barmağını düyməyə toxundurdu. O düşündü ki, artıq əlcəklərini çıxarda bilər, çünki işıqda siçanlar oturacağa çıxmazlar. Onlar hörümçək kimi hərəkət edə bilmirlər. Tanzi düyməni bassa da işıq yanmadı

– Ana, bu işləmir axı.

– Niki, yaxşı olar ki, sən baxasan xəritəyə, – Cess hirsli halda Nikiyə baxdı.

– Yaxşı, baxaram. İndi isə bu qızılı ulduzları götürmək istəyirəm. Onlar beş min xal deməkdir.

Tanzi xəritəni bacardığı qədər səliqəli qatlayıb Nikiyə ötürdü. Nikinin başı oyuna qarışmışdı, fikrini cəmləməyə çalışırdı. İnsafla desək, qızılı ulduzları əldə etmək çox çətin idi.

– Niki, əlindəkini bir yana qoyacaqsan? Xəritəyə bax.

Niki ah çəkdi, xəritəni götürdü. İndi onlar Cessin tanımadığı bir barın yanından keçirdilər. İndi isə təzə bir otelin yanından keçirlər. Cess dedi ki, o, M3-ü ü axtarır, amma Tanzinin yadına düşmürdü ki, o nə vaxtsa belə bir işarə görüb yollarda. Bir tərəfdən də, Norman yavaşca zingildəməyə başladı, yazıq it heç 38 saniyə zingildəməmişdi ki, anası dedi ki, itin zingiltisi əsəblərinə toxunur.

Telegram: @cinciva

– Tanzi, nə olar, qoyma it zingildəsin. Onun zingiltisi fikrimi bir yerə toplamağa imkan vermir. Niki, sən də xəritəyə bax. Bu, vacibdir.

– Ana, itin ağzından su axır. Məncə o yerə düşmək istəyir.

Tanzi oturacaqda bir az kənara çəkildi.

Niki başını çıxarıb yolun kənarındakı işarələrə baxırdı:

– Məncə, axıracan bu yolla getsək Sauthəmptona çatarıq.

– Axı bu səhv yoldur.

– Mən də bunu demək istədim.

Maşının içindən benzin iyi gəlirdi. Tanzi düşündü ki, bəlkə nəsə sızma var. Əlcəyi ilə burnunu tutdu.

– Məncə biz yola düşdüyünüz yerə qayıdıb təzədən yola düşməliyik.

Cess deyinə-deyinə maşını yetində fırladıb təzədən dolama yola tərəf sürdü.

Dolama yolla sürəndə əsəbdən boğazının damarları tarım dartılmışdı, lap polad kabel dirəkləri kimi.

Sükanı sağa döndərib şose yoluna çıxanadək Cessin çıxardığı qəribə səsləri Tanzi və Niki eşitməzliyə vurdular

– Tanzi, iti sakitləşdir. Qoyma onu zingildəməyə, – Cess səbirsizliklə dedi.

Cess başını pəncərədən çıxarıb baxdı, Nikiyə döndü:

– Niki, mən nə edirəm? Biz hansı tərəfə gedirik?

Bu vaxt Tanzi içini çəkdi:

Telegram: @cinciva

– Ana, it osdurub. Mən iydən boğuluram.

– Niki, nə olar, xəritəyə bax.

Tanzi indi xatırladı ki, anası maşın sürməyə nifrət edir. O demək olar ki, istənilən informasiyanı tez qavramaqda çətinlik çəkirdi. Həmişə deyirdi ki, əsəb sistemi zəifdir, tez özündən çıxır. İnsafən, hazırda maşının içindən gələn iy istənilən adamın fikrini bir yerə cəmləməsinə mane olardı.

– Mən iydən boğuluram, – Cess əsəbi halda itə baxdı.

Norman yekə başını qaldırıb Cessə baxdı. Onun gözləri qəmgin idi, Cessin gözlərinə baxdıqca sanki itin gözləri daha da qəmgin olurdu.

– Niki, burda iki döngə var. Mən hansı döngədən dönüm?

– O biri döngədən. Yox, bağışla, bu döngədən, – Niki yola baxıb dedi.

– Nə?

Cess maşını yerində fırladıb şose yoldan çıxdı, şübhəsiz ki, düzgün etmədi. Maşın fırlananda Tanzi yuxarı atılıb-düşdü, itin xaltasından yapışdı.

– Ana, Tanrı xətrinə, bir az yavaş...

– Ana, mən o biri döngəni demişdim. Bu döngədən dönsək əsas yoldan neçə kilometr uzaq düşürük.

– Niki, az qala yarım saatdır ki, yoldayıq, amma hələ yola düşdüyümüz yerdən uzaqlaşmamışıq, – Cess dedi.

Bax, elə bu vaxt Tanze arxadan gələn maşının parlayan mavi işığını gördü.

Telegram: @cinciva

Cess də mavi işığı arxa güzgüdən gördü, gözünə inanmadı. Elə düşündü ki, irəlidə hansısa maşın qəza törədib. Amma birdən anladı ki, mavi işıq onları izləyir.

Niki oturduğu yerdə fırlanıb geri boylandı:

– Cess, onlar bizim maşının arxasınca gəlir, bizim maşını saxlamaq istəyirlər.

– Nə? Boş şeydir.

Cess dərindən nəfəs aldı, sürəti azaltmağa başladı.

– Hər şey yaxşı olacaq. Narahat olmayın, – o özünü sakit göstərməyə çalışdı.

Niki başını aşağı əydi.

– Niki, indi yox, indi yox.

Arxadan gələn maşın da deyəsən sürəti azaltmışdı. Cessin ovcu büsbütün tər idi. Hər şey yaxşı olacaq.

– Cess, bilirəm indi vaxtı deyil... Amma istəyirəm biləsən ki, narkotiki də özümlə götürmüşəm.

Telegram: @cinciva

10

CESS

Gecə saat on ikiyə iyirmi dəqiqə qalmışdı. Cess maşından düşüb şose yolunun qırağında iki polisin yanında dayanmışdı. Polis işçiləri onun gözlədiyi kimi onunla cinayətkar kimi yox, daha pis, axmaq, dəli bir adam kimi rəftar edirdilər. Onların dedikləri hər söz onların Cess haqda nə düşündüyünü ifadə edirdi:

– Madam, siz tez-tezmi gecə yarısı uşaqlarınızı maşına yığıb gəzintiyə çıxırsınız? Özü də yalnız bir qabaq farası işləyən maşınla! Madam, xəbəriniz varmı ki, sizin maşın texniki baxışdan düz iki il əvvəl keçib?

Onlar hələ sürücülük vəsiqəsinə baxmamışdılar.

Niki yolun kənarında durmuşdu, həyəcandan tər içindəydi, amma ona elə gəlirdi ki, polislər onun üst-başını iyləyib onun narkotik çəkməsiylə maraqlanacaqlar.

Tanzi onlardan bir az aralı, Normanın başını sığallayırdı.

Cess yalnız özünü günahkar bilirdi.

Telegram: @cinciva

Elə bu vaxt cənab Nikolls maşınını polis maşınının yanında saxladı.

Nikolls maşının pəncərəsini aşağı salıb ordan başını çıxaranda Cess onun kim olduğunu gördü. O artıq nə baş verəcəyini çox yaxşı bilirdi. Yəqin ki, Nikolls polislərə belə deyəcəkdi: "Bir farası yanmayan, sürücülük vəsiqəsi olmayan, iki il əvvəl texniki baxışdan keçmiş, kif qoxuyan bu maşını sürən qadın bilirsiniz kimdir? Bu qadın OĞRUdur".

O anlarda Cessin beynindən min fikir gəlib keçirdi. Fikirləşirdi ki, əgər onu həbsxanaya salsalar, bu iki uşağın qayğısına kim qalacaq? Hə, tutaq ki, onlar Martinin öhdəsində qalacaqsa, görəsən onun yadına düşəcəkmi ki, Tanzinin ayağı tez yekəlir. Yoxsa Tanzinin ayaq barmaqları ayaqqabısının içində ikiqat olandan sonra ona böyük ölçülü ayaqqabı almaq yadına düşəcək? Kim baxacaq Normana? O lənətə gəlmiş pulu niyə götürdüm? Yaxud səhv edib götürmüşdümsə niyə aparıb Ed Nikollsa qaytarmadım? Amma qəribə də olsa Nikolls maşından baxarkən heç nə demədi. Sadəcə, o qarşısındakı səhnəyə baxıb ona tərəf döndü.

– Köməyə ehtiyacınız var?

Nömrəsi 1 olan polis sakitcə dönüb Nikollsa baxdı. Maşındakı centlmen görkəmli bir kişiydi.

Polis ona baxıb:

– Siz kimsiniz? – soruşdu.

– Mən Edvard Nikollsam, bu qadını tanıyıram. Nə olub? Maşınında problem var?

Telegram: @cinciva

Belə deyib o yolun qırağındakı "Rolls"a diqqətlə baxdı, belə bir maşının yolda olmasına inana bilmədi.

– Hə, belə demək mümkünsə maşınında problem var, – Nömrəsi 2 olan polis dedi.

Cess öz-özünə deyirdi:

– İki il əvvəl texniki baxışdan keçib.

O, beynini deşən fikirləri özündən kənar etməyə çalışırdı:

– Mən uşaqları harasa aparmaq istəyirdim, indi isə güman edirəm ki, yenidən evə qayıdırıq.

– Siz maşını heç yana sürə bilməzsiniz artıq. Bu maşın müsadirə edilib. Tezliklə qəza maşını gələcək. Nəqliyyat vasitələrinin qeydiyyat aktının 33-cü maddəsinə əsasən, belə maşını sürmək cinayətdir. Texniki baxışdan keçməyən maşını şose yolunda sürmək olmaz. Kim bilir, bəlkə də sürücülük vəsiqənizin də vaxtı keçib, – Nömrəsi 1 olan polis dedi.

– Mənim heç bir sürücülük vəsiqəm yoxdur, – Cess dedi.

Hər iki polis ona tərəf döndü.

– Maşının texniki pasportu, mənimsə sürücülük vəsiqəm yoxdur.

Bu anda Cess Nikollsın ona necə heyrətlə baxdığını hiss edirdi. Cəhənnəm olsun hər şey! Onsuz da o deməsə də polislər bunu sonradan biləcəkdilər.

– Bizim bir problemimiz vardı. Mənim heç bir çıxış yolum yox idi. Bircə yolum vardı, uşaqları maşına mindirib A-dan B-yə aparmaq...

Telegram: @cinciva

– Bilmirsiniz ki, sürücülük vəsiqəniz olmadan, eləcə də texniki pasportu olmayan maşını sürmək cinayətdir?

Cess başını aşağı saldı:

– Bu, mənim maşınım deyil, – belə deyib o, otluqdakı daşı təpiklə itələdi.

– Madam, maşını oğurlamısınız? – polis soruşdu.

– Yox, maşını oğurlamamışam. İki ildir ki, bu maşın qarajımızda yatıb qalmışdı.

– Madam, bu mənim sualımın cavabı deyil.

– Bu, keçmiş ərimin maşınıdır.

– O bilir ki, siz maşını götürmüsünüz?

– Yox. Mən başqa kişiyə ərə getsəm, lap adımı dəyişsəm də, onun xəbəri olmaz. O son iki ildir ki, şimali Yorkşirdədir.

– Bura baxın, olmaz ki, onu indi sorğu-suala tutmayasınız? – Nikolls maşından düşüb əlini polisin çiyninə qoydu.

– Siz kimsiniz? Onun vəkilisiniz?

– Ona vəkil lazımdır?

– Texniki pasport olmayan maşını sürmək 33-cü maddəyə əsasən... – Polis davam etmək istəyəndə Nikolls dedi:

– Bəli, siz bunu bayaq dediniz.

O, polislərə baxdı:

– Olmaz ki bu qadını polis məntəqəsinə aparmayasınız? Axı görürsünüz ki, o çoox, çox peşmandır. Baxın, uşaqlar da üşüyür, evə getmək istəyirlər.

Telegram: @cinciva

– O texniki pasportu olmayan maşını sürücülük vəsiqəsi olmadan sürdüyü üçün ittiham olunacaq. Madam, adınız, ünvanınız?

Cess ad-soyadını, ünvanını nömrəsi 1 olan polisə dedi. Onun üzündə peşman olan adamın ifadəsi yox idi. Onun özünə acığı tutmuşdu. Polis hadisə barədə radiasiya vasitəsilə xəbər verirdi. Radiodalğalardan ona hansı cavab gəldisə o məmnun göründü və kənarda dayanmış uşaqlara baxıb başını yellədi.

– Bəli, maşın bu ünvanda qeydiyyatdadır. Amma maşın SORN adı altında qeydiyyatdadır, bu da o deməkdir ki...

– Hə, bilirəm, bu o deməkdir ki, onu şose yolu ilə sürmək olmaz.

– Deməli bunu bilirdiniz. Bəs niyə maşını sürməzdən əvvəl bunu fikirləşmədiniz?

Polis Cessə şagirdi danlayan müəllim kimi baxırdı.

Cess polisə döndü:

– Bilirsiniz nə var, doğrudanmı elə fikirləşirsiniz ki, əgər ümidsiz olmasaydım, gecənin bu vaxtı uşaqları belə bir maşına qoyub yola çıxardım? Yoxsa elə fikirləşirsiniz ki, mən balaca evimdə oturub qərar qəbul etdim ki, hə, mən uşaqlarımı gecəyarısı götürüb belə bir problemlə üzləşim.

– Madam, sizin nə fikirləşdiyinizi bilmək mənim vəzifəm deyil. Bildiyim odur ki, sizin maşının texniki pasportu , sizin isə sürücülük vəsiqəniz yoxdur.

Telegram: @cinciva

– Mənim başqa ümid yerim yox idi, ok? Sizin o lənətə gəlmiş ofisinizə getməyəcəm. Çünki heç bir səhv etməmişəm.

Nikolls əlini Cessin çiyinlərinə qoydu:

– Hm... Hm... Yaxşı olar ki, danışmayasınız.

Hər iki polis dayanıb Cessə baxırdılar. Norman yolun qırağında şappıltıyla yıxıldı. Tanzi sakitcə durub itə baxırdı, onun gözündə ümidsizlik vardı.

Cess fikirləşdi: "Aman Tanrım, o indi ətrafında nə görürsə xaosdur".

– Siz lazımi sənədləriniz olmadığınıza görə ittiham olunursunuz, xanım Tomas! Sizi xəbərdar edirəm ki, sizə məhkəmə çağırışı gələcək. Siz beş min funt məbləğində cərimə ödəyəcəksiniz, – Nömrəsi 1 olan polis belə deyib Cessə bir kağız uzatdı.

– Nə? Beş min? – Cess polisin sözünü eşidib gülməyə başladı.

– İndi gedə bilərsiniz, – polis dedi.

– Beş min. Beş min dediniz? – Cess yenə soruşdu.

– Hə, bir də əlavə olaraq deyim ki, siz bu... – polis belə deyib maşına baxdı, dili gəlmədi ki, ona "maşın" desin... – cərimə meydançasında qaldığı hər bir gün üçün 15 funt cərimə ödəməlisiniz.

– Anladım. Bəs əgər mənim maşın sürməyə icazəm yoxdursa, onu ordan necə çıxaracam?

– Başqaları necə edirsə, siz də elə edəcəksiniz. Ya da qarajda pul ödəyərsiniz, başqası maşını sürüb sizin ünvana gətirər. Amma sizə məsləhət görərdim ki, maşında

Telegram: @cinciva

sizə məxsus nə varsa götürəsiniz. Maşında nəsə itsə, buna cavabdeh deyilik.

– Əlbəttə, götürəcəm, – o mızıldandı.

– Ana, bəs biz evə necə gedəcəyik? – Tanzi soruşdu.

Ortaya sükut çökdü. Polislər üzlərini yana döndərmişdilər.

Elə bu vaxt Ed Nikolls dedi:

– Mən sizi evə apararam.

Cess ondan bir-iki addım aralı durdu:

– Yox. Yox, təşəkkür edirəm. Biz yaxşıyıq. Biz piyada gedərik. Çox uzaq deyil.

– Üç kilometrlik yoldur, – Nikolls dedi.

Tanzi gözaltı anasına baxırdı, elə bil anasının fikrində ciddi olub-olmadığını müəyyən etmək istəyirdi. Sonra o, yorğun halda anasının ayaqlarını qucaqladı. Cess indi xatırladı ki, Tanzi paltosunu eləcə pijamasının üstündən geyib.

Nikolls uşaqlara nəzər saldı:

– Bu yolu onsuz da geri qayıdıram. Mənim harda yaşadığımı bilirsiniz, – o başıyla şəhərə tərəf işarə etdi.

Tanzi və Niki danışmırdılar. Niki azacıq axsaya-axsaya bağlamaları əlinə alıb Nikollsın maşınına tərəf getməyə başlayırdı. Cess bu qədər bağlamanı Nikollsun maşınına yükləmək istəmirdi, bir tərəfdən də o yaxşı bilirdi ki, bu uzunluqda yolu Niki piyada gedə bilməz.

Cess Nikollsa döndü:

– Minnətdaram, böyük lütfkarlıq edirsiniz.

Cess onun gözlərinə baxa bilmirdi.

Telegram: @cinciva

– Oğlunuza nə olub? – Niki götürdüyü çantanı Cessin ayağı yanında yerə qoyanda nömrəsi 2 olan polis soruşdu.

– Gedin polis idarənizdə aydınlaşdırın bunu, – belə deyib yerdəki bağlamalara tərəf getdi.

***

Onlar polislərin yanından sakitcə aralandılar. Cess Nikollsun eyibsiz, rahat maşınında qabaq oturacaqda əyləşdi. Özünü heç vaxt özünü belə narahat hiss etməmişdi. Amma uşaqların baş verən hadisədən sonra necə heyranlıqla maşının içində ora-bura boylanmalarını görürdü. O, pəncərədən ətrafdakı yaşıl çəpərlərə, kərpic divarlara baxır, küçə işıqlarını müşahidə edirdi, inana bilmirdi ki, evdən cəmi saat yarım əvvəl çıxıblar. Bu müddət ona bütöv bir ömür kimi uzun göründü. Beş min funt cərimə. Məhkəməyə getmək. Maşını cərimə meydançasından çıxartmaq... Orda pul ödəmək. Az qala o dəli olacaqdı. Ən pisi isə o Tanzinin Müqəddəs Ann məktəbində təhsil alması üçün sonuncu şansı da əldən vermişdi.

Həmin gecə Cess ilk dəfə sanki boğazına nəyinsə tıxandığını hiss etdi.

Nikolls ona döndü:

– Nə olub?

– Hər şey yaxşıdır.

Telegram: @cinciva

Belə deyib o üzünü başqa tərəfə çevirdi. Əlbəttə, o heç nə bilmədi. O bilmədi ki, Cess bağlamaları götürüb onun maşınına minənə qədər hər şeyin bir oyun, Nikollsun hiyləsi olduğunu düşündüyünü bilmədi. Cess düşünürdü ki, polis gedəndən sonra Nikolls nəsə dəhşətli bir şey edib ondan tələb edəcək ki, oğurluq pulu geri qaytarsın.

Amma əksinə oldu. Nikolls ona kömək etmək istədi.

– Hm... Hm... burdan sola dönə bilərsiniz? Biz burdan aşağıda yaşayırıq. Sona qədər gedin. Sola dönün, sonra isə sağdakı ikinci döngə...

Şəhərin mənzərəli yerləri artıq yarım mil geridə qalmışdı.

Bura Danehall idi. Burda hətta yay aylarında da ağaclar skelet kimi çılpaq olar, köhnə maşınlar kərpic topalarının yanında heykəl kimi yapışıb qalardı. Evlər isə küçədən asılı olaraq müxtəlif idi. Ya çiy kərpicdən, ya da qırmızı kərpicdən PVC qapı-pəncərəli evlər idi. Nikolls maşını sola döndərdi, Seacole prospektinə tərəf yavaş sürətlə sürdü. Cess arxa oturacağa boylandı, gördü ki, Tanzi yuxuya gedib, ağzı bir az aralı, başını Normana söykəyərək mürgüləyir. Norman da Nikiyə söykənmişdi. Niki yatmamışdı, pəncərə şüşəsinə söykənib ətrafa baxırdı. Hare və Terrier-dən keçdilər, küncdə bir dəstə kişi siqaret tüstülədirdi, bəziləri evə getməyə hazırlaşır, bəziləri isə evə getməmək üçün ora-bura boylanıb bəhanə axtarırdılar sanki.

Telegram: @cinciva

– Yaxşı olar ki, siz burda çox qalmayasınız. Sizin maşının markası narkotik satan yerli alverçilərin maşınlarının markasıyla eynidir, – Cess başı ilə küncdə dayanan kişilərə işarə edib dedi.

– Siz hara getmək istəyirdiniz? – Nikolls soruşdu.

– Şotlandiyaya. Bu, uzun əhvalatdı, – Cess burnunu çəkdi.

Nikolls gözlədi.

Cess özünü ələ aldı:

– Qızımı Riyaziyyat Olimpiadasına aparmaq istəyirdim. Yol pulu çox bahadır. Amma polisə ödəyəcəyimiz cərimədən çox deyil.

– Nə? Riyaziyyat Olimpiadası? – Nikolls maraqlandı.

– Hə, heç mən də bir həftə əvvələ qədər bu haqda heç nə bilmirdim. Axı dedim, bu uzun əhvalatdı.

– Bəs indi nə etmək istəyirsiniz?

Cess arxa oturacaqda mürgüləyən Tanziyə baxdı, çiyinlərini çəkdi. Bilmədi ki, nə cavab versin.

Birdən Nikolls Nikinin sifətini gördü, onu ilk dəfə görürmüş kimi maraqla baxdı.

Cess yenə də dedi:

– Bu da uzun əhvalatdı.

– Sizin nə yaman çox əhvalatlarınız !? – Nikolls pəncərədən boylanıb küncdə dayanan kişilərə baxdı.

Cess baş açmadı ki, Nikolls dərin fikrə gedib, yoxsa onların maşından düşməsini gözləyir.

– Sağ olun. Minnətdaram sizə.

Telegram: @cinciva

– Yox. Mən sizə minnətdaram. Sizə borcluyam. Bilirəm ki, o gün pivəxanada sərxoş olanda məni evimə siz gətirmisiniz. Evimdə divanda ayılanda maşınımın açarları kofe stolunun üstündə, maşın isə parkdaydı. – Nikolls fasilə verib dedi: – Bir də özümün "yaramaz" olmağımı xatırlayıram. İkinci dəfə.

Cess qızardı.

Niki artıq maşının qapısını açmışdı. Soyuq hava Tanzinin üzünə dəyib onu oyatdı. O, gözlərini ovuşdurub Cessə baxdı. Sonra o, yarıyuxulu halda maşının içinə göz gəzdirdi. Elə bil son bir saat ərzində baş verənləri yadına salırdı.

– Ana, bu o deməkdir ki, biz yarışa getmirik?

Cess bağlamaları ayağının yanına yığmışdı. O bu barədə burda söhbət etmək istəmirdi.

– Tanzi, gəl evə gedək, çox gecdir.

– Ana, biz Şotlandiyaya getmirik? – Tanzi bir də soruşdu.

Cess bir daha Nikollsa dönüb ona təşəkkür etdi.

Sonra isə bağlamaları səkiyə tərəf apardı. Hava çox soyuq idi. Niki darvazanın ağzında durub gözləyirdi.

Yenə Tanzinin səsi gəldi:

– Ana, bu deməkdir ki, mən Müqəddəs Anne məktəbinə də getməyəcəm?

Cess gülümsəməyə çalışdı.

– Əziz balam, gəl bu haqda indi danışmayaq.

– Biz indi nə edəcəyik? – bu dəfə Nici soruşdu.

– Niki, indi yox. Gəlin evə gedək.

Telegram: @cinciva

– Sən indi polisə beş min funt borclusan. Biz Şotlandiyaya necə gedəcəyik?

– Uşaqlar!!! Gəlin bir evə girək, – Cess onlara təpindi.

Norman yüngülcə zingildəyib maşından düşdü.

– Ana, sən heç demədin ki, hər şeyi yoluna qoyacaqsan. Axı həmişə belə deyirdin.

– Aha, hər şeyi yoluna qoyacam, – Cess maşında qalan bağlamaları darta-darta dedi.

– Ana, sən "yoluna qoyacam" sözünü heç vaxt belə səslə demirsən, – Tanzi ağlamağa başladı.

Hər şey elə gözlənilməz idi ki, Cess bir anlıq nə edəcəyini, ona nə deyəcəyini bilmədi. O sadəcə şokdaydı.

– Bunları götür, – o yüngül bağlamanın birini Nikiyə verdi, özü isə maşının içinə əyilib Tanzini ordan çıxarmağa çalışdı.

– Tanzi, əzizim, gecdir. Evdə bu haqda danışarıq.

Nikolls sükan arxasında durub onlara baxırdı. Sanki demək istəyirdi ki, bütün bunlar onunçün lap çox oldu. Cess ondan üzr istəməyə başladı:

– O çox yorulub, – Cess belə deyib Tanzini qucağına götürməyə çalışdı.

Amma Tanzi öz yerinə qayıtdı.

Elə bu vaxt Nikollsun telefonu zəng çaldı.

– Gemma, – o, yorğun halda dedi.

Elə bil o, bu zəngi gözləyirmiş.

Cess acıqlı səsin telefonda uğuldadığını aydınca eşidə bilirdi. Elə bil telefonun içində eşşəkarısı vardı.

– Bilirəm, – Nikolls sakitcə dedi.

Telegram: @cinciva

– Mən Müqəddəs Ann məktəbinə getmək istəyirəm, – Tanzi ağlayırdı. Neçə vaxtdı ki, Tanzinin eynəyinin şüşəsi qopub düşmüşdü, amma Cess vaxt tapıb optikaya gedə bilmirdi ki, şüşələri yerinə bərkitsinlər. Tanzi üzünü əliylə tutub hönkürürdü.

– Ana, qoy gedim. Ana, qoy mən o məktəbə gedim...

– Sus... sss... – Cessin həyəcandan səsi tutulmuşdu, güclə danışırdı.

Tanzi heç vaxt heç nə üçün yalvarmazdı. Darvazanın yanında dayanan Niki maşına tərəf gəldi, elə bil Tanzinin ağlamasına dözə bilmirdi.

Nikolls telefonda nəsə dedi, Cess yaxşı eşidə bilmədi. Tanzi içini çəkə-çəkə hönkürürdü. O, maşından düşüb evə getməkdən imtina edirdi.

– Əziz balam, gəl, düş, – Cess onu sürüyüb çıxartmaq istədi.

O ayaqlarını maşının qapısına dirəyib ağlayırdı:

– Ana, ana. Mən çox yaxşı oxuyacam orda.

– Tanzi, sən maşında qala bilmərsən, düş.

– Ana, nə olar...

– Balaca, düş, səni özüm aparacam ora, – Nikolls qəfil dedi.

Cessin başı maşının şüşəsinə dəydi:

– Nə?

– Sizi Şotlandiyaya özüm aparacam.

Nikolls telefonunu cibinə qoyub başını sükana söykəyib dayanmışdı.

– Mən Northumberlanda getməliyəm. Ordan Şotlandiyaya yaxındır. Sizi aparıb orda düşürərəm.

Telegram: @cinciva

Ortaya dərin sükut çökdü. Hamı sakitcə dayanmışdı. Küçənin axırından gülüş səsləri eşidildi, kimsə maşının qapısını şappıltıyla örtdü. Cess saçını qaydaya saldı.

– Sizin bunu təklif etməyiniz çox gözəldi, amma biz bunu qəbul edə bilmərik.

Niki irəli əyilib dedi:

– Yox, niyə ki? Biz bunu qəbul edə bilərik.

Belə deyib o Tanziyə nəzər salıb bir daha təkrar etdi:

– Biz qəbul edirik.

– Mən heç sizi tanımıram... Sizdən bizi aparmağı xahiş edə bilmərəm, – Cess dedi.

Nikolls heç ona tərəf baxmadı.

– Burda nə var ki? Bu heç də böyük iş deyil. Sadəcə sizi maşına götürəcəm.

Tanzi burnunu çəkdi, sonra əllərilə gözünün yaşını sildi:

– Ana, nə olar, ana, qoy aparsın.

Cess əvvəlcə Tanziyə baxdı, sonra Nikinin göyərmiş sifətinə, təkrar yenə Nikollsa baxdı.

– Mənim sizə verməyə heç nəyim yoxdur. Heç nəyim.

Nikolls başını qaldırıb ona baxdı, baxışları ilə iti göstərdi:

– Yəni mənim maşınımın arxa oturacağını da təmizləyə bilməzsiniz bunun əvəzində?

Cess dərindən nəfəs aldı, sanki bir az yüngülləşmişdi:

– Ok. Bunu edərəm.

– Ok. İndi isə gedib bir neçə saat yataq, səhər tezdən gəlib sizi götürəcəm...

Telegram: @cinciva

11

ED

Ed Nikolls Danehall-ı tərk edəndən sonra heç on beş dəqiqə keçməmişdi ki, nə etdiyini anladı. Gör o nəyə razı olub? O deyingən ev təmizləyən qadını, onun əcaib görünüşlü uşaqlarını, dəqiqəbaşı osduran nəhəng itini Şotlandiyaya aparırsan? O buna razılıq verəndə nə fikirləşib? Bacısı Gemmanın səsi onun qulaqlarındaydı hələ də: "Sən tanımadığın balaca qızı və onun ailəsini şəhərin o başına aparırsan və mənə də "hadisə baş verib" deyirsən? Ok. Pauza... De görüm o qəşəngdir?"

– Nəyi deyirsən? – Nikolls soruşdu.

– Qızın anasını deyirəm... Çox cəlbedicidir? Sinəsi qəşəngdir? Kirpikləri uzundur?

– Yox, bu belə deyil...

Bayaq Gemma zəng edəndə onların hamısı maşında idi. O, fikrini bacısına çatdıra bilmədi.

– Hə, təsəvvür edirəm ki, hər iki sualımın cavabı "Yes"dir. Ed, Tanrı xətrinə... – Gemma belə deyib dərindən ah çəkmişdi.

Telegram: @cinciva

Sabah səhər tezdən duran kimi onlara gedib üzr istəyəcək, ona hansısa işinin çıxdığını izah edəcək. O başa düşəcək. Onsuz da o yaxşı tanımadığı bir adamla maşına minmək istəmirdi. Ed ona bu təklifi edəndə heç də sevincindən atılıb-düşməmişdi.

Ən azı onların qatarla getməsi üçün yol pulu verəcəkdi. Əlbəttə, bu onun günahı deyil ki, Cess adlı o qadın sürücülük vəsiqəsi olmadan köhnə, metal topasına bənzər maşınla yola çıxmağa qərar verib. O başdan-başa problemlər içindədir, uşaqları, özü... Edin isə həyatında problemlər kifayət qədərdir, yeni problemə ehtiyacı yoxdur.

Bu fikirlərlə o əl-üzünü yudu, dişlərini fırçaladı, son günlərdə ilk dəfə olaraq yorulduğu üçün dərin yuxuya getdi.

***

Ed maşınını onların darvazası ağzında saxlayanda saat doqquz təzə tamam olmuşdu. O istəmişdi ki, bir az tez gəlsin. amma evin yerini yadına sala bilmirdi. Seacole küçəsini tapana qədər ən azı yarım saat vaxt itirmişdi. Küçənin axırındakı barı görəndə gecə kişilərin ora toplaşdığı yadına düşdü.

Hava rütubətli, soyuq idi. Küçə bomboş idi, yalnız səkinin bir tərəfində quyruğu sual işarəsi kimi yuxarı qalxmış bir kürən pişik vardı. Elə bil heykəl idi. Gündüz vaxtı Danehall ona lap düşmən kimi görünürdü. O düz gəlib-gəlmədiyini bir daha yoxladı.

Telegram: @cinciva

Yaxınlıqdakı evin pəncərəsinə baxdı, ümid etdi ki, istədiyi ünvana gəlib. Yuxarı otaqlardan birinin pəncərəsində çəhrayı, ağ pərdə vardı, eyvanda iki səbət asılmışdı. Evin qabağında üstü brezentlə örtülü bir maşın vardı. Bu onun axtardığı ev deyildi. Amma birdən üzbəüz balaca bağın içində üçtəkərli uşaq velosipedinin yanında ayağını qaldıran böyük iti görən kimi tanıdı. Hə, bu it dünən gecə arxa oturacaqda ləhləyən həmin it idi. Bu səhər maşının qapısını açıb içəri girəndə hələ də itin iyi çəkilməmişdi.

O, darvazanın qapısını ehtiyatla itələyib açdı, qorxdu ki, it onu tuta bilər, amma it bir az ona tərəf gəldi, sonra isə yekə başını döndərib ona maraq etmədi, ağacın kölgəsində şöngüdü, qabaq qıçlarını qaldırdı, sanki Ed bu dəqiqə gedib onun qarnını sığallayacaqdı.

– Hə, keçib getdim, sağ ol, – o, itə nəzər saldı.

Ed bağın içindəki cığırla evə tərəf getdi, qapının ağzında dayandı. O özü üçün bir "nitq" də hazırlamışdı:

"Salam, mən həqiqətən də təəssüf edirəm, amma işimlə əlaqəli vacib bir iş ortaya çıxdı. Bir neçə gün işdən ayrılıb heç yana gedə bilmərəm. Hər halda, sizin qızınızın Olimpiadada iştirakı üçün kömək edə bilərəm. Məncə, onun dərslərini yaxşı oxuması çox yaxşı bir işdir. Buyurun, götürün, bu sizin yol pulunuzdur".

Bu fikirlər gecə ona bir az inandırıcı gəlirdi, nədənsə bu səhər fikirləri ona az inandırıcı göründü. O elə qapını döymək istəyirdi ki, yarısı qapının üstünə yapışmış, yarısı havada yellənən bir kağız gördü:

Telegram: @cinciva

FİŞERLƏR HÜNƏRİNİZ VARSA BİZİM QAPIYA YAXINLAŞIN MƏN POLİSƏ MƏLUMAT VERMİŞƏM ƏGƏR NƏSƏ OLSA BİLİRƏM Kİ SİZ ETMİSİNİZ POLİS NƏZARƏTDƏ SAXLAYACAQ

O, kağızdakıları oxuyub qurtarmışdı ki, qapı açıldı. Balaca qız qapının ağzında dayanmışdı.

– Hə, biz hazırıq, – qız yan tərəfdəki bağlamalara tərəf baxıb dedi.

– Anam dedi ki, siz bir daha gəlməyəcəksiniz. Amma mən bilirdim ki, gələcəksiniz. Ona görə də ona dedim ki, saat on olmamış qoymaram bağlamaları boşaltsın. Siz isə dediyim vaxtdan düz 53 dəqiqə tez gəldiniz.

Ed gözünü döyüb baxırdı.

– Ana! – balaca qız qapını itələyib açdı, Cess dəhlizdəydi. Onun əynində aşağısı kəsilmiş cins və qolları çırmanmış kofta vardı. Saçlarını at quyruğu formasında arxadan yığmışdı. O uzaq yola çıxan adama oxşamırdı.

– Salam, – Ed birtəhər özünü ələ aldı.

– Salam.

Cess onu görəndə qəribə tərzdə başını buladı. Məlum oldu ki, uşaq düz deyirmiş. O həqiqətən də Edin gələcəyini gözləmirmiş

– Sizə kofe təklif edirdim, amma dünən yola düşməzdən əvvəl olub-qalan südü də işlətdik.

Ed cavab verməyə imkan tapmamış gözlərini ovuşduran oğlan göründü. Onun sifəti hələ də şiş idi. İndi onun sifəti bənövşəyi, sarı rəngdə idi. O zaldakı çantalara, bağlamalara baxıb dedi:

Telegram: @cinciva

– Bunlardan hansını götürəcəyik?

– Hamısını. Mən hələ Normanın yorğanını da götürmüşəm, – balaca qız dedi.

Cess ehtiyatla Edə baxdı. Ed ağzını açıb nəsə demək istəyirdi, amma ağzından heç bir söz çıxmadı. Demək olar ki, zalın çox hissəsini kitablar, jurnallar, dərsliklər tutmuşdu. Ed heç özü də bilmədi ki, niyə kitabları görəndə təəccübləndi.

– Cənab Nikolls, siz bu çantanı götürə bilərsiniz? – balaca qız ehtiyatla onları Edə tərəf sürüyüb dedi:

– Mən bunları götürməyə cəhd etdim. Amma güclə qaldıra bildim. Niki isə hal-hazırkı vəziyyətində bunları götürə bilməz, bunlar onunçun çox ağırdır.

– Arxayın ol, götürərəm, – Ed əyildi ki, çantaları qaldırsın, bir anlıq dayandı: "İndi o nə edəcək? O nə desinz"

– Cənab Nikolls, görün mən nə deyirəm. Bu səfər... – Cess onun qarşısındaydı. Cess də elə Ed kimi narahat görünürdü.

Elə bu vaxt qabaq qapı şappıltıyla açıldı. Əynində idman köynəyi, şort, əlində də beysbol dəyənəyi olan bir qadın içəri girdi:

– ƏLİNİZDƏKİLƏRİ YERƏ QOYUN! – O bağırdı.

Ed donub qalmışdı heyrətdən.

– ƏLLƏRİNİZİ YUXARI QALDIRIN.

– Nat! Onu vurma! – Cess onun üstünə qışqırdı.

Ed əllərini yavaşca qaldırdı, üzünü ona tərəf döndərdi.

– Bu nədir? – qadın gah Edə , gah da Cessə baxırdı.

Telegram: @cinciva

– Cess, aman Tanrım, elə bildim evinizdə kimsə var.

– Hə, evimizdə kimsə var.

Qadın əlindəki dəyənəyi yerə tulladı, sonra təəccüblə Edə baxdı.

– Oh, aman Allahım! Bu... O... Aman Tanrım... Üzr istəyirəm... Təəssüf edirəm... Mən sizi qapının ağzında gördüm, fikirləşdim ki, oğrusunuz.

O, əsəbi halda gülür, sonra isə üzünü Cessə çevirib ağız-burnunu əydi, guya Ed onu görmədi.

Ed dərindən nəfəs aldı. Qadın gülümsəməyə çalışdı.

– Bilirsiniz ki, bu tərəflər oğrularla doludur.

O bir addım geri çəkildi, başıyla işarə etdi:

– Ok. Anladım. Mən gedib telefonumu götürmək istəyirəm. Maşında qalıb...

Ed ovuclarını açıb qadına göstərdi, cığırla maşınına tərəf getdi. O, maşının qapısını açdı, nəsə götürüb qapını bağladı, bununla da sanki bir qərara gəlmək üçün vaxt qazanırdı. Bir səs deyirdi: "Sür get! Başqa bir səs isə deyirdi: "Hazırda bunu etmək vaxtı deyil".

Ed qayda-qanuna riayət edən adam idi, nə edəcəyini müəyyənləşdirmək istəyirdi. Bu qadının problemləri çox idi, Edi də əsəbiləşdirən bu idi.

O, cığırla evə tərəf gəlir, konkret olaraq hansı sözləri deyəcəyini götür-qoy edirdi. Qapıya yaxınlaşanda yarım-açıq qapı arxasında iki qadının səsini eşitdi. Onların söhbətini aydınca eşitmək olardı.

– Ona demək istəyirəm ki, onunla getmək istəmirik. Bir sözlə, "yox" deyəcəm.

Telegram: @cinciva

– Cess, deyə bilməzsən.

Kənardan oğlanın səsi eşidildi:

– Niyə?

– Çünki bu çox mürəkkəb işdir. Mən onunçün işləyirəm.

– Sən onun evini təmizləyirsən. Bu eyni şey deyil.

– Bir yandan da biz onu tanımırıq. Mən həmişə Tanziyə demişəm ki, Tanzi, tanımadığın maşına minmə. İndi isə özüm tanımadığım adamın maşınına minib uzaq yol getmək istəyirəm.

– O eynək taxır. Lap seriallardakı killerə bənzəyir.

– Hə, Dennis Nilsen kimi geyinir. Eləcə də Harold Şipman kimi.

– Nat, sən nə çox killer adı bilirsənmiş.

Oğlanın səsi eşidildi:

– Əgər o pis bir hərəkət etsə iti onun üstünə qısqırdarıq.

– Yaxşı ideyadır. Norman sizin ailəni çox yaxşı qoruyub.

– Nikolls itin sizi necə qorumağını bilmir, eləmi?

– Nat, məncə o centlmenlik etmək istəyir. Ötən gecə başımıza gələn "dram"ın şahidi oldu. Hiss olunur ki, o bunu etmək istəmir, amma söz verdiyi üçün məcburdur. Tanzi ağladığı üçün o bu qərara gəldi.

Tanzi bağın içindəydi. Çiyninə dağılmış saçları havada yellənirdi. İt onun yanında ayaqlarını sürüyərək qapıya tərəf gəlirdi. Yarım it, yarım yak idi. Tanzi onun belinə nəsə rəngli bir paltar atmışdı.

Telegram: @cinciva

– Mən onu geyindirmişəm. Çünki səyahətimizin çox hissəsini o yatmalı olacaq.

Tanzi ləhləyən itdən qabağa keçdi.

– Hə, Tanzi, eşidirəm, – Ed dedi.

– Mən həqiqətən də riyaziyyatı çox yaxşı bilirəm. Biz olimpiadaya ona görə gedirik ki, mən orda "A" səviyyəsində imtahan verib qalib olacam, çoxlu pul qazanacam. Bilirsiniz ki, mənim adımı binar koda çevriləndə nə olur?

Ed qıza baxdı, soruşdu:

– Tanzi sənin tam adındır?

– Yox. Məni sadəcə belə çağırırlar.

Ed onun yanaqlarını üfürdü, dedi:

– Hm... Hm... Ok. 01010100 01100001 011110 10 0 1101001 01100101

– Siz sonda 01 01 dediniz, yoxsa 1010?

– Mən 0101 dedim, – Ed həmişə Ronanla bu oyunu oynayardı.

– Pis deyil. Siz onu yaxşı tələffüz etdiniz.

Tanzi irəli keçib qapını itələdi.

– Mən heç vaxt Şotlandiyada olmamışam, – dedi. – Niki deyir ki, orda qoyunun içalatından müxtəlif yeməklər bişirirlər. Düzdür?

– Bildiyim odur ki, orda heyvandarlıqla məşğuldurlar.

Tanzi dönüb itə baxdı, it azca mırıldadı.

Ed artıq başa düşürdü ki, Şotlandiyaya gedəcək.

O, evin qapısını açanda hər iki qadın bir anda səslərini kəsdi. Ed əyilib zaldakı bağlamaları götürdü. Onlar hər iki əlinə bağlama götürən Edə baxırdılar indi.

Telegram: @cinciva

– Yola düşməzdən əvvəl bunları maşına yığmaq lazımdır. Siz isə məşhur bir killeri görmək şansınızı əldən verdiniz. Onların eynəyi uzağı görmür, yaxını görür. Mənimki isə əksinə, uzağı görür.

***

Şəhəri tərk etmək 45 dəqiqə çəkdi. Tıxaca düşmüşdülər. Cess qabaqda, Edin yanında oturmuşdu. Çox sakit və narahat görünürdü. Əllərini möhkəmcə dizləri üstünə qoymuşdu. Ed güman edirdi ki, Cess onun o qadınla olan söhbətini eşitdiyini hiss edib. Maşına minəndən bircə kəlmə də kəsməmişdi.

Oğlan – Niki isə arxa oturacaqda bacısının o biri tərəfində oturmuşdu. Maşında kondisioner vardı, bununla belə itdən gələn iy hiss olunurdu. Buna görə də Ed kondisioneri söndürdü, əvəzində isə pəncərələrin dördünü də açıq qoydu. Bu sakitliyi Tanzinin sualları pozdu:

– Siz heç əvvəllər Şotlandiyada olmusunuz?

– Siz hardan gəlirsiniz?

– Sizin orda eviniz var?

– Bəs onda siz niyə bu şəhərdə qalırsınız?

Ed dedi ki, o bəzi işlərini qaydaya salmalıdır. Əlbəttə belə demək "mən oturub məhkəmə qərarını, mənə 7 il həbs kəsəcək qərarı gözləyirəm" deməkdən daha asan idi.

– Sizin arvadınız var?

– Daha yoxdur.

Telegram: @cinciva

– Siz vəfasız çıxdınız?

– Tanzi! – Cess ona göz ağartdı. Ed arxa güzgüyə boylanıb, "yox" dedi.

– Jeremy Kyle serialında isə bir qayda olaraq iki şəxsdən biri vəfasız çıxır. Bəzən onların hansısa birinin başqa adamdan uşağı olur, onlar DNT analizi edirlər. Hər şey düz olanda qadın kimisə vurmaq istəyir. Əksər hallarda isə onlar ağlamağa başlayırlar.

Belə deyib o, pəncərədən yollara baxdı.

– Bu qadınların əksəri sanki dəlidir. Çünki kişilərin başqa qadından uşaqları, ya da çoxlu qadın dostları olur. Statistik olaraq onlar bunu etməlidir. Amma heç bir qadın heç vaxt bu statistika haqda düşünmür.

– Mən Jeremy Kyle serialına heç baxmıram, – gözlərini maşının sükanına dikən Ed dedi.

– Heç mən də baxmıram. Anam işdə olanda mən Natali xalagilə gedirəm. O gedib başqalarının evini yığışdıranda bu filmi kasetə köçürür, axşamlar da evdə baxır. Onda bu filmin 47 seriyasının kaseti var.

– Tanzi, cənab Nikolls fikrini bir yerə cəmləşdirmək istəyir. Onun başını qatma, – Cess qızına təpindi.

– Eybi yoxdur, – Ed dedi.

Cess saçını sığalladı. O artıq ayaqlarını oturacağın üstünə qoymuşdu. Ed adamların ayağını oturacağın üstünə qoymasına nifrət edirdi, hətta ayaqqabılarını çıxarsalar belə.

– Aha, bəs elə isə arvadınız sizi niyə atıb getdi?

– Tanzi! – Cess yenə ona təpindi.

Telegram: @cinciva

– Mən nəzakətli hərəkət edirəm. Sən özün demişdim ki, nəzakətli söhbət etmək yaxşı işdir.

– Hə? Üzr istəyirəm. – Cess qızına çəpəki baxdı.

– Doğrudan da maraqlıdır, – Ed güzgüdən Tanziyə baxdı:

– Arvadım deyirdi ki, mən çox işləyirəm.

– Amma Jeremy Kyle serialında heç bir qadın belə demir.

Yollardakı maşınlar seyrəldi. Onlar şose yoluna çıxdılar. Hava gözəl idi, Ed əvvəlcə istədi ki, sahil yoluyla getsin, amma risk etmədi, yenidən tıxaca düşməkdən qorxdu. İt yavaşca zingildəyir, oğlan sakitcə Nintendo ilə oynayırdı, fikrini bir yerə cəm etməyə çalışırdı, Tanzi isə yorulmuşdu, səssizcə oturmuşdu. Ed radionu açdı, nəsə həmin an fikirləşdi ki, hər şey qaydasındadır, narahatlığa əsas yoxdur. Hər halda, evə yapışıb qalmaqdansa lap tıxaca düşmək yaxşıdır.

– Satnav sistemi hesablayıb ki, təxminən səkkiz saat tıxaca düşməyəcəyik, – Ed dedi.

– Şose yolunda da? – Cess soruşdu.

– Bəli. Hətta ən son model "Audi"nin də qanadları yoxdur, – Ed sola baxdı.

O gülümsəməyə çalışdı, Cessə bildirmək istədi ki, o zarafat edir, amma Cess hələ də ciddi vəziyyətdə idi.

– Hm... hm... bir balaca problem var, – Cess dedi.

– Hə, bir problem, – Ed ona baxdı.

– Maşını sürətlə sürsəniz Tanzinin ürəyi bulanacaq, qusacaq.

Telegram: @cinciva

– Sürətli deyəndə nəyi nəzərdə tutursunuz? Səksən? Doxsan?

– Hm... əlli... bəlkə də qırx.

Ed arxa güzgüyə baxdı. Doğrudanmı qızın rəngi saralıb, doğrudanmı o qaytarmaq istəyir? Yox, Tanzi gözlərini pəncərədən çölə zilləyib baxırdı. Bir əlini itin başına qoymuşdu. Qırx? – Ed sürəti azaltdı, Cessə döndü:

– Siz zarafat edirsiniz, eləmi? Demək istəyirsiniz ki, burdan Şotlandiyaya B yolu ilə gedək?

– Yox. Ola bilər. Deyəsən, o indi yaxşıdır. Amma bir qayda olaraq o, maşınla çox gedə bilmir, buna görə həmişə problem çıxıb ortaya... Sadəcə, sizin bu gözəl maşını bulaşdırmaq istəmirəm.

Ed yenidən arxa güzgüyə boylandı:

– Biz o biri yolla gedə bilmərik. Bu, gülüncdür. Onda Şotlandiyaya neçə gündən sonra çatarıq. Hər halda, o yaxşı olacaq. Maşın tamamilə təzədir. Belə maşında heç kimin ürəyi bulanmaz.

Cess düz irəli baxırdı, birdən soruşdu:

– Sizin uşağınız yoxdur, eləmi?

– Niyə soruşursunuz? – Ed soruşdu.

– Heç, elə-belə.

***

Arxa oturacağı dezinfeksiya etmək, şampunla yumaq iyirmi beş dəqiqə vaxt apardı. Bununla belə Ed hər dəfə başını maşının içinə salanda qusmaq iyi hiss

Telegram: @cinciva

edirdi. Cess benzindoldurma stansiyasında bir vedrə aldı, uşaqlardan birinin çantasına qoyduğu şampunu çıxarıb arxa oturacağı şampunla yudu. Cess oturacağı təmizləyəndə Niki maşından düşüb maşına söykənərək dayandı, üzünü yana çevirdi ki, şişmiş üzü nəzərləri cəlb etməsin. Tanzi də aşağı düşüb itin yanında oturdu, vərəm həkimləri kimi ağzını cuna ilə bağlamışdı.

– Üzr istəyirəm, – Cess koftasının qollarını çırmaladı.

– Eyib etməz. Siz özünüz təmizləyirsiniz.

– Mən sizə pul verərəm ki, oturacağın üzünü dəyişəsiniz.

Ed qaşlarını qaldırıb ona baxdı. O oturacağın üstünə sellofon torba qoydu ki, uşaqlar qusası olsa onun içinə qaytarsınlar.

– İndi maşının içindən iy gəlməyəcək. Oturacağı şampunla yudum, – Cess işini qurtarıb dedi.

Bir neçə dəqiqədən sonra onlar yenidən maşına mindilər. Heç biri iy hiss edilmirdi.

Ed pəncərənin şüşəsini nə qədər aşağı gedə bilərsə bir o qədər aşağı çəkdi, sonra isə satnavı yenidən yükləməyə başladı.

– Aha, bu Şotlandiyadır. B yolları vasitəsilə. – O belə deyib "təyinat" düyməsini sıxdı:

– Qlazqo, ya Aberdin?

O, Cessə baxdı.

– Əlbəttə, Aberdin, – Cess dedi.

Ed başını döndərib onlara baxdı, istəmədi ki, səsində məyusluq hiss olunsun.

Telegram: @cinciva

– Hamınız yaxşısınız? Su var? Sellofon torba oturacağın üstündədir? Qusmaq üçün götürdüyünüz sellofon torbalar necə, yanınızdadır? Aha... Çox yaxşı. Getdik!

Təzədən maşına oturub mühərriki işə salanda sanki Ed bacısının gülüşünü eşitdi.

– Ha-ha-ha... Ed XİDMƏT EDİR...

***

Portsmutdan sonra qısa müddətə yağış yağdı. Ed arxa yolla, aşağı sürətlə sürürdü. O hələ də maşının pəncərəsini bağlamamışdı. Yağış damcıları onun üzünə dəydikcə sanki bir anlıq hər şeyi unudurdu. O fikirləşdi ki, ayağını elə sürət pedalının üstünə qoymalı deyil, bu onun bütün enerjisini alırdı. Sonda o, sürətin avtomatik tənzimlənməsi sistemini işə saldı.

Niki yuxulamışdı. Cess dodaqaltı onun cəmi bir gün əvvəl xəstəxanadan çıxması haqda nəsə dedi. Ed bir istədi ki, nə baş verməsini soruşsun, amma o tam əmin deyildi ki, bu ailənin problemləri onu həqiqətən də maraqlandırır, ya o özü maraq xətrinə soruşmaq istəyir. Ed ondan heç soruşmadı.

Maşının tısbağa sürəti ilə getməsindən istifadə edib o, Cessi tanımaq istədi.

Cess yenə də sakitcə oturmuşdu, başını heç Ed tərəfə döndərmirdi, elə bil Ed nəsə onu hirsləndirən bir hərəkət etmişdi.

Telegram: @cinciva

İndi isə Ed Cessi öz evində ondan pul istədiyi vəziyyətini göz önünə gətirdi. Ed deyəndə ki, pulun qalığını sonra göndərər, o etiraz etmiş, Ed də yuxarı otağa çıxıb pul gətirmişdi. Həmin vaxtlarda Cess ona düşmən kimi baxırdı. Sonra Ed onun pivəxanadakı hərəkətini yadına saldı. O, sərxoş olarkən Cess dayə uşaq yanında necə oturarsa o da onun yanında oturmuş, onu evə gətirib divana uzatmışdı. Ola bilsin ki, Cess hələ də onun "yaramaz, axmaq" olduğunu fikirləşir.

"Eybi yox", – Ed öz-özünə dedi. Maksimum iki, ya üç gün. Sonra o heç vaxt onları görməyəcək. Qoy hər şey yaxşı olsun.

– Siz çox evləri təmizləyirsiniz?

Cess bir anlıq qaşqabağını tökdü:

– Hə.

– Müntəzəm olaraq təmizlədiyiniz çox ev var?

– İstirahət parkında olanlar.

– Ev təmizləmək... Sizin... sizin xoşladığınız işdir?

– Demək istəyirsiniz ki, mən uşaqlıqdan ev təmizləməyi arzu edərək böyümüşəm, eləmi? – Cess qaşlarını qaldırdı, Edə baxdı, sanki yoxlamaq istəyirdi ki, o bu sualı zarafatla verir, ya sualı ciddidir.

– Hm. Hm. Yox. Mən peşəkar dalğıc olmaq istəyirdim. Amma Tanzi dünyaya gəldi, mən uşaq arabası almaq haqda düşündüm.

– Ok. Deyəsən axmaq sual verdim.

Cess burnunu çəkib dedi:

Telegram: @cinciva

– Bu mənim arzu etdiyim iş deyil, yox. Amma pis deyil. Mən evimin yaxınlığında işləyirəm və evini təmizlədiyim adamların əksərini xoşlayıram.

"Əksərini", – Ed ürəyində dedi.

– Qazandığınız dolanışığa kifayət edir?

Cess başını ona tərəf çevirdi:

– Nəyi nəzərdə tutursunuz?

– Elə nəyi soruşdumsa onu nəzərdə tuturam. Yəni qazancınız sizə bəs edir? Gəlirli işdir?

Onun sifətinin rəngi dəyişdi.

– Birtəhər keçinirik.

– Yox. Heç də yox, – Tanzi arxadan dilləndi.

– Tanzi! – Cess arxaya döndü.

– Ana, axı sən həmişə deyirsən ki, kifayət qədər pulumuz yoxdur, elə deyil?

– Dilim bu sözə öyrəşib, – Cess qızardı.

– Cənab Nikolls, bəz siz nəylə məşğulsunuz? – Tanzi Eddən soruşdu.

– Mən qiymətli kağızlar buraxan şirkət üçün işləyirəm. Bilirsən, bu nədir?

– Əlbəttə, bilirəm. – Tanzi dedi.

Niki başını qaldırdı, Ed arxa güzgüyə baxıb gördü ki, o, qulaqcıqlarını çıxarıb. Görəndə ki, Ed ona baxır, Niki baxışlarını başqa tərəfə yönəltdi.

– Siz oyunlar dizayn edirsiniz? – Tanzi soruşdu.

– Yox.

– Mənsə elə bilirdim sizin iş budur. Bəs onda nə işlə məşğulsunuz?

Telegram: @cinciva

– Aha, biz son illər bəzi qiymətli kağızlar üzərində işləyirik ki, bu da bizi nağdsız cəmiyyətə doğru aparır.

– Bu kağızlar necə işləyəcək?

– Deməli belə, sən nə isə alanda, ya da pul ödəyəndə sadəcə içində ştrix kodu olan telefonu yelləyirsən. Hər bir xırda mübadilə üçün sən çox az hesab ödəyirsən. Lap bir funtun çox cüzi bir hissəsi qədər.

– Biz ödəmək üçün də ödəyəcəyik? Heç kim bunu istəməz, – Cess söhbətə qoşuldu.

– Bax, siz burda səhvə yol verirsiniz. Banklar bunu istəyir. Pərakəndə satışla məşğul olanlar bunu xoşlayır. Çünki bu onlara kart, çek, nağd sistem əvəzinə yalnız bir sistem verir. Bu vaxt kredit kartına ödədiyinizdən çox az faiz ödəyirsən. Deməli, bu hər iki tərəfə – həm alana, həm satana faydalıdır.

– Bəzilərimiz ən pis vəziyyətə düşənə qədər kredit kartı götürmür, – Cess dedi.

– Sonralar yuxarıda haqqında dediyim sistem sizin bank hesabınızla əlaqəli işləyəcək.

– Bəs əgər banklar, pərakəndə satışla məşğul olanlar siz deyən ştrix kodlarının hamısını əldə etsələr, biz onda seçim edə bilməyəcəyik.

– Ona hələ çox var, – Ed dedi.

Araya qısa sükut çökdü. Cess dizini bir az qaldırıb, əllərini dizinin aşağısında birləşdirdi.

– Hə, deməli, varlılar, banklar, pərakəndə satışla məşğul olanlar daha da varlanır, kasıblar isə daha da kasıblaşır.

Telegram: @cinciva

– Bəlkə də, nəzəriyyədə belədir. Amma maraqlı tərəfi də var. Bu o qədər cüzidir ki, siz onu heç hiss etməyəcəksiniz. Həm də çox rahatdır.

Cess nəsə dedi, amma Ed onun dediyini yaxşı eşitmədi.

– Bəs o dediyiniz neçəyədir? – Tanzi soruşdu.

– Hər mübadilə üçün sıfır bir faiz. Bir pensdən də çox az.

– Bir gündə neçə mübadilə ola bilər?

– İyirmi? Əlli? Etdiyiniz alverdən asılıdır.

– Aha, bir gündə tutaq ki, əlli pens.

– Hə. Dəqiq. Bu ki, heç nədir.

– Həftədə üç funt əlli pens, – Cess dedi.

– İldə isə yüz səksən iki funt. Uzun il olarsa bir az da çox, – Tanzi hesabladı.

Ed bir əlini sükandan araladı.

– Bu çox da böyük məbləğ deyil.

Cess yerində qurcalandı, üzünü Tanziyə tutub soruşdu:

– Tanzi, biz yüz səksən iki funtla nə ala bilərik?

– İki məktəb şalvarı, dörd məktəb koftası, bir cüt ayaqqabı. Bir dəst gimnastika paltarı və bir cüt ağ corab, əgər onları supermarketdən alırsınızsa. Bütün bunlar səksən beş funt doxsan yeddi pens. Yüz funt iki günün baqqaliyyə malları – evə qonaq gəlməsindən asılı olaraq əgər ana bir butulka şərab da alırsa.

Tanzi bir neçə dəqiqə fikirləşdi:

– Ya da bir ayın şura vergisi. Ana, biz D qrupuna daxilik. Düzdür?

Telegram: @cinciva

– Hə.

– Bu pulla Kentdə mövsümü 3 günlük istirahət etmək olar. Yüz yetmiş beş funt və əlavə dəyər vergisi, – Tanzi aşağı əyildi, sonra sözünə davam etdi: – Biz keçən il ora getmişdik. Biz bir gecəni əlavə qaldıq. Çünki anam sahibkarın pərdələrini təmir etmişdi. Hətta orda hovuz da vardı.

Yenə araya sükut çökdü.

Ed danışmağa başlayırdı ki, Tanzinin başı iki oturacağın arasında göründü.

– Ya da anamın dörd yataq otağı olan mənzili təmizləməkdən bir ayda aldığı pul, çirkli paltarları, dəsmalları camaşırxanaya aparmaq da bura daxildir.

Tanzi özündən razı halda arxaya dönüb oturacağa söykəndi.

Onlar üç mil də getdilər. Dörd yol ayrıcına döndülər. Dar döngə tərəfə istiqamət aldılar. Ed nəsə demək istədi, amma hiss etdi ki, səsi çıxmır. Arxada Niki qulaqcıqlarını taxmış, üzünü yana döndərmişdi. Günəş buludların arxasında gizlənmişdi.

Cess ayağını bir az irəli uzatdı, radionun səsini artırmaq üçün əyildi, Eddən soruşdu:

– Eh, ümid edək ki, siz işinizdən xeyir əldə edəsiniz.

Telegram: @cinciva

12

CESS

Cessin nənəsi həmişə deyərdi ki, xoşbəxt həyatın açarı az yaddaşdır. Düzdür, o, yaddaşını itirib kəmağıl olmamışdan əvvəl, hətta yaşadığı yerin adını da unutmamışdan qabaq belə deyərdi. Cess hələ uşaq olanda nənəsinin bu sözlə nə demək istədiyini başa düşmüşdü.

İndi də Cess o lənətəgəlmiş pulu ağlından çıxarmalı, tamam unutmalıydı. Belə getsə, yəni Nikollsun maşınında oturub bütün yol boyu o pul haqda düşünsəydi özünü yoracaqdı. Marti ona həmişə deyərdi ki, onda dünyanın ən pis poker sifəti var, üzünün çox soyuqqanlı ifadəsi var. Deyərdi ki, onun üzü sakit göl kimi duyğularını əks etdirir. Belə getsə o açıb hər şeyi Nikollsa etiraf edəcək, ya da gərginlikdən dəli olacaq, ya dırnaqlarıyla oturacağın üzünü didəcəkdi.

Hələ ki, o sakitcə oturub Tanzinin onunla olan söhbətinə qulaq asırdı. Öz-özünə deyirdi ki, bir yol tapıb Nikollsun etdikləri üçün ona pul verəcək. Əgər Tanzi qalib gəlib mükafat alsa həmin puldan götürüb verə

Telegram: @cinciva

bilərdi. Ya da başqa yol tapardı. O öz-özünə deyirdi ki, Ed onları bu uzaq yerə aparmağı öhdəsinə götürüb, ona görə də yol boyu onunla nəzakətli davranmalıdır.

Vaxtaşırı olaraq o arxaya dönüb uşaqlara baxır, düşünürdü: "Mən başqa nə edə bilərdim?"

Arxada oturub ətrafa baxaraq həzz almaq pis deyildi. Şose yolunun kənarları güllərlə çəpərlənmişdi, yağış yağıb buludları qovub aparandan sonra səma 1950-ci illərin açıqcaları kimi açıq mavi rəngdəydi. Tanzinin təzədən ürəyi bulanıb qusmadı. Evdən uzaqlaşdıqca o anlayırdı ki, çiyinləri aşağıya doğru əyilir. Neçə aylardan bəri o, Tanzini indi daha sərbəst, daha rahat hiss etdiyini görürdü. Son vaxtlar Cessin həyatı narahatlıqla dolu idi, elə bil narahatlığın altından qalın, qara xətt çəkmişdilər. Görəsən Fişerlər bir də nə edəcəklər? Nikinin başında hansısa problem olmayacaq ki? Tanzinin işini necə yola verməli? Bütün bu fikirlərin hamısı bir şeylə toqquşurdu: Pul. Pul. Pul.

– Siz narahat deyilsiniz ki? – Ed soruşdu.

Səs eşidib səksənən Cess dodaqaltı mızıldandı:

– Yaxşıyam. Sağ olun.

Hər ikisi başını qəribə tərzdə yellədi.

Ed hələ də rahatlaşmamışdı. Bunu aydınca hiss etmək olardı. Eynək taxsa da dərin fikrə getdiyini görməmək olmurdu. Cess hələ də tam anlaya bilmirdi ki, o niyə onları Şotlandiyaya aparmaq qərarını verib, buna səbəb nədir. Amma Cess qəti əmin idi ki, ilk dəfə Tanzi qaytarmaq istəyəndə, anasına deyəndə ki, qusmaq

Telegram: @cinciva

üçün ona sellofon torba versin, bax elə həmin anlardan Ed verdiyi qərara peşman olmuşdu.

– Olmaz ki, tappıldatmağa son qoyasınız? – Ed üzünü Cessə tutdu.

– Tappıldatmaq?

– Hə. Ayağınızı yerə vurursunuz. Hə, döyəcləyirsiniz.

Cess ayaqlarına baxdı.

– Siz belə edəndə fikrim yayınır.

– Siz istəyirsiniz ki, ayağımı tappıldatmayım?

Ed arxa güzgüdən ona baxdı:

– Hə, zəhmət olmasa.

Cess ayaqlarını bir az aşağı çəkdi, amma bu vəziyyətdə özünü narahat hiss etdi, bir an sonra o oturacaqda ayaqlarının üstündə oturmuşdu

– Əllərinizi...

– Nə?

– Hə, indi də əllərinizi dizinizə vurursunuz.

Cess özündən asılı olmadan belə etmişdi.

– İstəyirsiniz ki, siz sürərkən mən tamam lal-dinməz oturum, eləmi?

– Belə demək istəmirəm. Amma tappıltı səsi fikrimi bir yerə cəmləməyimə mane olur.

– Aha, mən bədənimin istənilən hissəsini tərpədəndə süz sürə bilmirsiniz.

– Belə demək istəmirəm.

– Bəs nə demək istəyirsiniz?

– Tap. Tup... tap... tup... Hirslənirəm onda.

Cess dərindən nəfəs aldı, uşaqlara tərəf döndü:

Telegram: @cinciva

– Hə, uşaqlar, heç biriniz tərpənməyin. Ok? Gərək cənab Nikollsu acıqlandırmayaq.

– Yox, uşaqlar səs salmır, siz səs salırsınız, – Nikolls mülayim səslə dedi.

– Ana, sən adamı çox qıcıqlandırırsan, – Tanzi dedi.

– Təşəkkür edirəm, Tanzi! – Cess hirslə onun əllərini sıxdı.

Cess bunu deyib sakitcə oturdu, dişlərini bir-birinə sıxıb sakit durmağa çalışdı, fikrini yaxşı şeylərə yönəltmək istədi, özünü inandırdı ki, Nikolls hələ onları Şotlandiyaya sürmək fikrindən daşınmayıb. Demək olar ki, altmış mil yol gəlmişdilər, amma Nikolls hələ də fikrini dəyişməmişdi. Əlbəttə, bütün ailəni maşına yığıb yola düşəndən sonra fikir dəyişmək bir az çətin olardı.

O, başını oturacağın "başaltı"sına söykədi, gözlərini yumdu, beynindən Nikollsun pulunu, Martinin o dəmir-dümür maşınını, uşaqlar barədə narahatlığını çıxarıb atmaq, onları neçə mil arxaya vıyıldatmaq, bahalı maşının uğultusunun içindən keçməsini, hələ də açıq olan pəncərədən sahil küləyinin üzünü döyəcləməsini, radiodan eşidilən musiqinin qulaqlarının içinə dolmasını istəyirdi. O özünü tamam başqa bir qadın kimi hiss etməyi arzulayırdı.

***

Onlar nahar etmək üçün Oksforddan bir az aralıda bir kafenin yanında dayandılar. Maşın dayananda

Telegram: @cinciva

yüngülcə gərnəşib, bellərini, ayaqlarını azacıq şıqqıldadıb yüngülləşdilər. Nikolls maşından düşüb kafeyə girdi, Cess isə həyətdəki skamyada oturub piknik süfrəsi açdı, bu səhər gedəcəklərinə tam əmin olandan sonra tələsik hazırladığı buterbrodlarını torbadan çıxardı.

– Zəhləmgetmiş... – Niki çörək diliminin içində nə olduğuna baxıb dedi.

– Hə, tələsik hazırladım bunları.

– Başqa nəsə var?

– Cemli buterbrod var.

Niki ah çəkdi, çarəsiz halda əlini torbaya uzatdı. Tanzi skamyanın axırında oturub riyaziyyat kitablarına baxırdı. Maşında o kitab oxuya bilmirdi, çünki ürəyi bulanırdı. Ona görə də o hər imkandan istifadə edib kitabların vərəqlərini çevirib təkrar edirdi. Cess Tanzinin tapşırıq dəftərində bəzi tənliklərin cavabını necə silməsinə , fikrə gedib düz cavab üçün fikrini necə cəmləşməsinə baxırdı.

– Buyurun, – Nikolls əlində məcməyi onların yanına gəldi, skamyada əyləşdi. – Düşündüm ki, içmək üçün hərəmizə ayrı şey alım.

Belə deyib o, iki butulka "Kola"nı uşaqlara tərəf itələdi.

– Sizin nə içmək istədiyinizi bilmədim, ona görə də müxtəlif növ içki aldım.

O, bir butulka yarısı sidrə oxşayan İtalyan pivəsi, bir stəkan çaxır, başqa "kola", limonad və bir butulka da portağal şirəsi almışdı. Özü mineral su içdi. Padnosun ortasında isə balaca dağ kimi cipslər qalaqlanmışdı.

Telegram: @cinciva

– Bunların hamısını aldınız? – Cess soruşdu.

– Orda növbə vardı. Ona görə də geri qayıdıb sizdən nə yemək istədiyinizi soruşa bilmədim.

– Mənim çox pulum yoxdur. – Cess bikef halda Edin üzünə baxdı.

Ed onun üzünə qorxunc bir şeyə baxdığı kimi baxdı.

– Bu sadəcə içkidir. Mən ki sizə ev almamışam.

Elə bu vaxt onun telefonuna zəng gəldi. O telefonunu qamarlayıb onlardan aralanıb parkın içinə getdi, gedə-gedə danışırdı.

– Görüm o bizim buterbrodlardan birini yemək istəyərmi? – Tanzi anasına baxdı.

Cess Ed gedən tərəfə baxırdı, o bir əli cibində, bir əlində də telefon parkın içində görünməz oldu.

– Yox, Tanzi, indi yox, sonra təklif edərsən.

Niki heç nə demədi. Cess ondan yaralarının incidib-incitmədiyini soruşanda o, dodaqaltı dedi ki, daha yaxşı hiss edir özünü.

– Hər şey yaxşı olacaq. Tanzinin məktəb məsələsini də yoluna qoyacağıq. Bəzən adam beynindəki fikirlərdən uzaq duranda özünü yüngülləşmiş hiss edir.

– Heç bilmirəm indi beynimdə hansı problem var, – Niki dedi.

Cess ona ağrıkəsiciləri verdi, sonra onun həbləri "kola" ilə necə içməsinə, ayaqlarını necə uzatmasına baxdı. Cess çalışmışdı iti elə yerləşdirsin ki, Niki maşının qapısına sıxılmasın. Amma it o qədər böyük idi ayaqlarını aşağı qoysa yerləşməzdi. O, arxa oturacaqda,

Telegram: @cinciva

Niki ilə Tanzinin ortasında şöngümüşdü yol boyu. Düzdür, onun bədəninə kəmər dolamışdılar, amma o, yavaş-yavaş öz yerindən sürüşür, başı Tanzinin dizi üstə, arxası isə Nikini dəri oturacaq boyunca küncə itələyirdi.

Niki iti havaya çıxardı, o yeriyərkən çiyinlərini əyir, ayaqlarını güclə sürüyürdü. Cess düşündü ki, görəsən Nikinin siqareti varmı. Niki bikef idi, çünki neçə saat bundan əvvəl ehtiyat enerjisi qurtardığı üçün onun Nintendosu sönmüşdü. Cess onun bu oyun qurğusuna yapışıb qalmasından narahat idi.

Hər ikisi parkda iti gəzdirən Nikiyə baxırdılar.

Niki əvvəllər də çox az-az gülümsəyirdi, Cess onun son vaxtlar lap az gülümsədiyini hiss edirdi. O çox zəif, susuz balığa bənzəyirdi, evdə olanda yalnız çox az hallarda yataq otağından çıxırdı. Niki xəstəxanada olanda üzü tam ifadəsiz idi. Kimsə deyib ki, bədbəxt uşağın nə qədər xoşbəxtdirsə sən də o qədər xoşbəxtsən.

Tanzi başını əyib dərsliklərilə məşğul idi. Birdən başını qaldırıb anasına baxdı:

– Ana, mən yeniyetmə qız olanda gedib hardasa başqa yerdə yaşayacam.

Cess təəccübdən donub qaldı:

– Nə?

– Məncə gedib universitetin yataqxanasında yaşasam lap yaxşı olar. Çünki mən Fişerlərin yaşadığı ərazidə böyümək istəmirəm.

Tanzi iş dəftərində hansısa rəqəmin üstündən xətt çəkdi, sonra bir rəqəmi pozdu, onların yerinə dörd yazdı.

Telegram: @cinciva

– Kim? Fişerlər?

– Hə. Onlar mənimçün qorxulu bir kabusdur.

Cess güclə udqundu, bilmədi ona nə desin, özünü ələ aldı:

– Tanzi, sən onlardan qorxmamalısan. Onlar sadəcə axmaq oğlanlardır. Yalnız qorxaqlar onlar kimi hərəkət edər. Onlar heç kimdir.

– Ana, onlar "heç kimə" bənzəmirlər.

– Tanzi, mən onlarla olan problemi həll edəcəm. Ok? Onlardan qorxma. Onların məsələsinə son qoyacam.

Onlar sakitcə skamyada oturdular. Ətrafda sakitlik idi, yalnız uzaqdan traktor səsi eşidilirdi. Sonsuz səmada quşlar dəstəylə uçuşurdular. Nikolls yavaş-yavaş geri qayıdırdı. O, dübbədüz yeriyirdi, sanki hansısa problemi həll etmişdi. Telefonu əlindəydi.

Cess uzaqdan gələn Edə baxırdı, Tanzi dedi:

– Mürəkkəb tənlikləri həll edib qurtardım. Sən etdiklərimi görmək istəyirsən?

Tanzi tapşırıqları yazdığı səhifəni qaldırdı. Cess sevimli qızının sifətinə baxdı. Onun üzündə təbəssüm vardı, eynəyini düzəldib dedi:

– Mən mürəkkəb tənliklərlə işləməyi sevirəm.

***

Səyahətlərinin ikinci hissəsi iki saat yarım çəkdi. Nikolls sükanı əliylə döyəcləyirdi. Sanki onlar yenə də tıxacdaydılar (əslində tıxacda deyildilər). Bu müddətdə

Telegram: @cinciva

iki zəngə cavab verdi. Zənglərin biri Gemma adlı qadından idi, Nikolls onun zənginə cavab vermədi (bəlkə keçmiş arvadıydı?), o biri zəng isə açıq-aydın idi ki, işiylə əlaqəliydi. İkinci zəng edənə dedi ki, bir azdan özü zəng edəcək. İkinci zəngdən sonra Nikolls düz qırx dəqiqə sakitcə dayandı. O maşını benzindoldurma stansiyasında saxlayanda italyan aksentiylə "Eduardo, uşaq" deyən başqa bir qadın zəng etdi. Nikolls telefonu "hands– free"-dən ayırıb çölə çıxdı.

– Yox, Lara, – o danışa-danışa maşından bir az aralandı. Amma onun səsi yenə də maşında eşidilirdi:

– Lara, biz bu məsələni müzakirə etmişik... Sənin vəkilin düz demir... Yox, mənə omar demək heç nəyi dəyişməyəcək...

Niki bir saat yatmışdı. Yatarkən onun qara saçları şişmiş yanaqlarına tökülmüşdü. Yuxuda olanda onun üzü sakit görünürdü.

Tanzi zümzümə edə-edə itin başını sığallayırdı. Norman yatırdı, yatarkən bir neçə dəfə bərkdən osdurmuşdu, buraxdığı kəskin iy yavaş-yavaş maşının içinə yayılırdı. Heç kim nədənsə iydən şikayət etmirdi. Sanki bu iy az da olsa hiss edilən qusmaq iyini yox edirdi.

Nəhayət, Nikolls maşına oturdu, onlar bir böyük şəhərin balaca qəsəbəsinə çatanda Nikolls soruşdu:

– Uşaqlara nəsə lazımdır?

Cess artıq uşaqların nəyi istəyib-istəməyəcəyini deməsə də, Nikolls alıb gətirirdi.

Telegram: @cinciva

Yolun kənarları boyunca maşın parkı vardı. Orda heç kim gəzmirdi.

– Biz burda "McDonalds" tapa bilərik, – Nikolls dedi.

– Yox, biz "McDonalds"ın məhsullarını yemirik.

– Siz "McDonsalds"dan yemirsiniz? – Nikolls soruşdu.

– Yox. Əgər istəyirsinizsə bir də təkrar edə bilərəm: "Biz "McDonalds"ın heç nəyini yemirik!

– Necə bəyəm? Siz vegetariansınız?

– Yox, amma deyin görüm buralarda supermarket tapa bilmərik? Mən bir şey alıb buterbrod düzəldərəm.

– Əgər pula görə deyirsinizsə "McDonalds"da ucuzluqdur.

– Yox, pula görə demirəm.

Cess ona deyə bilmirdi ki, əgər o valideyn olsaydı bəzi şeyləri etməzdi. Elə şeylər var ki, onu hamı istəyir, məsələn, böyük malikanədə yaşamaq, gəlirli işdə işləmək, uşaqlarla "McDonalds"da nahar etmək və sair. Cessin buna gücü çatmırdı.

Nikolls yüngülcə ah çəkdi:

– Ok. Biz gecəni qalmaq üçün bir yer taparıq, onda həmin yerdə restoran olub-olmamasıyla da maraqlanaram.

– Məncə, maşında gecələməyi planlaşdırmışam.

Nikolls maşını yolun kənarında saxlayıb təəccüblə Cessin üzünə baxdı:

– Nə? Maşında yatmaq istəyirsiniz?

Cess bilmədi ki, ona nə desin, bir az həyəcanlandı:

– Axı Norman da bizimlədir. Heç bir otel onu içəri buraxmaz. Maşında bizə pis olmazdı.

Telegram: @cinciva

Nikolls telefonu çıxartdı, nəsə yazmağa başladı:

– Məncə buralarda hardasa itlər üçün yer olmalıdır.

Cessin yanaqları qıpqırmızı olmuşdu.

– İstərdim ki, heç nə etməyəsiniz, – Cess dedi.

Nikolls yazmağı dayandırdı.

Cess dedi:

– Həm də faktiki olaraq bizim otel üçün pulumuz yoxdur.

Nikollsun barmağı hələ də telefonun ekranındaydı.

– Bu axmaqlıqdır. Maşında yatmaq olmaz, – o dedi.

– Yalnız iki gecə. Heç nə olmaz. "Rolls"la gəlsəydik, onun içində yatacaqdıq. Elə buna görə də adyal götürmüşəm.

Tanzi arxa oturacaqdan onlara baxırdı.

Cess dedi:

– Mənim gündəlik büdcəm var. Maksimum gündəlik 20 funt ərzağa xərcləyirəm.

Nikolls ona dəliyə baxan kimi baxırdı.

– Yox, mən demirəm ki, siz oteldə qalmayasınız, – Cess əlavə etdi.

Cess ona əslində oteli üstün tutduğunu deyə bilmədi.

– Bu mənasız söhbətdir, – nəhayət, Nikolls dilləndi.

O təzədən sükan arxasına keçəndə Cessə elə gəldi ki, Nikolls onları maşının içində qoymaq istəmir.

***

Bir neçə mili sakitcə getdilər. Heç kəs danışmırdı. Hiss olunurdu ki, Nikolls möhkəm əsəbiləşib. Cess

Telegram: @cinciva

fikirləşirdi ki, onlar bundan sonra maksimum iki-üç gün bir yerdə olacaqlar. Şotlandiyada olimpiada təşkil olunan yerə çatanda Cess ona deyəcəkdi ki, bundan sonra gedə bilər, geri qayıdanda özləri gedəcəklər. Ağlına da gətirmirdi ki, qırx səkkiz saatdan çox onun maşınında otura bilər. Əgər Tanzi hamının gözlədiyi nəticəni əldə edib qazana bilsə, onun aldığı mükafatın bir hissəsini xərcləyib qatara bilet alıb geri qayıdarlar.

Bir neçə gündən sonra Nikollsdan "canını qurtaracağını" fikirləşəndə Cess özünü yaxşı hiss edirdi, ona görə də Nikolls maşını Səyahət Mehmanxanasının həyətinə doğru sürəndə heç nə demədi.

– Bir neçə dəqiqəyə qayıdıram, – o, belə deyib maşından düşdü, maşın parkından keçib getdi. O maşının açarlarını da götürüb səbirsizcəsinə əlində dınqıldada-dınqıldada gedirdi.

– Biz gecəni burda qalacağıq? – Tanzi gözlərini ovuşdurub ətrafa baxırdı.

– Biz yox, Nikolls qalacaq burda. Biz maşında qalacağıq. Bu, əsl macəra olacaq, – Cess dedi.

Ortaya sükut çökdü.

– Uraaa! – Niki sevincək qışqırdı.

Cess bilirdi ki, maşında yatmaq Niki üçün çətin olacaq. Amma Cess nə edə bilərdi?

– Niki, sən arxa oturacaqda uzanıb yatarsan. Tanzi ilə mən də qabaq oturacaqda. Yaxşı olacaq.

Nikolls əllərini gözünün üstünə qoyub batmaqda olan günəşə sarı baxa-baxa geri qayıdırdı. Cess gördü ki, o, pivəxanada sərxoş olanda necəydisə, indi də elədir.

Telegram: @cinciva

– Hə, onların bircə boş otağı var. İki nəfərlik çarpayı. Uşaqlar orda qala bilərlər. Mənsə baxım görüm bu yaxınlarda başqa mehmanxana varmı.

– Yox, mən axı sizə dedim. İstəmirəm ki, siz bizimçün otel pulu ödəyəsiniz. Kifayət qədər hörmət etmisiniz.

– Mən bunu sizə görə etmirəm, uşaqlarınıza görə edirəm.

– Yox! Hörmətinizi başa düşürük, amma bizimçün elə maşının içi də rahatdır, – Cess bir az diplomatik olmağa çalışırdı.

Nikolls əliylə saçını sığallayıb dedi:

– Bilirsiniz, nə var? Maşınımın arxa oturacağında bir gün əvvəl xəstəxanadan çıxmış bir oğlanın narahat halda uzanıb yatdığını bilə-bilə mən iyirmi metr yaxınlıqdakı oteldə yata bilmərəm. Niki çarpayıda yatmalıdır.

– Yox, – Cess refleksiv olaraq dedi.

– Axı səbəb nədir? – Nikolls soruşdu.

Cess cavab verə bilmədi.

Nikollsın üzünün ifadəsi dəyişdi, sanki rəngi qaraldı.

– Mən narkoman, pozğun adam deyiləm. Niyə qoymursunuz ki, oğlunuzla ikimiz bir otaqda yataq. O elə mən boydadır.

Cess qızardı.

– Son vaxtlar Niki üçün çox ağır keçib. Ona görə də istəyirəm ki, gözüm onun üstündə olsun. Başqa heç bir səbəb yoxdur .

– Ana, "narkoman" sözünün mənası nədir? – Tanzi maraqla soruşdu.

Telegram: @cinciva

– Mən də orda Nintendo-ya ehtiyat enerji yığa bilərəm, – Niki arxa oturacaqdan dedi.

– Bilirsiniz, bu çox gülünc bir müzakirədir. Mən çox acmışam. Nəsə yemək istəyirəm, – Nikolls başının qapıdan içəri soxub dedi, sonra üzünü Nikiyə tutdu:

– Hə, Niki, de görüm sən maşında yatmaq istəyirsən, yoxsa oteldə?

Niki çəpəki Cessə baxdı:

– Oteldə. Heç mən də narkoman, pozğun uşaq deyiləm.

– Bəs mən necə, mən narkomanam? – Tanzi soruşdu.

– Ok. Hər şey aydındır. Nikiylə Tanzi oteldə, ikinəfərlik çarpayıda yatır, siz isə həmin otaqda döşəmənin üstündə yatırsınız. Oldu?

– Axı mən istəmirəm ki, bizimçün otelə pul ödəyəsiniz, özünüz isə maşında yatasınız. Bundan başqa, it də bütün gecəni hürüb sizi narahat edəcək, o sizi tanımır.

Az qala Nikollsun gözləri hədəqəsindən çıxacaqdı, onun səbir kasası dolmuşdu:

– Ok. Uşaqlar oteldə yatır, mən də sizinlə maşında yatırıq, it də yanımızda. Hə, hamının işi düzəldi, hamımız xoşbəxtik.

Amma onun özü xoşbəxt olana oxşamırdı.

– Mən heç vaxt oteldə qalmamışam. Ana, mən oteldə qalmışam nə vaxtsa? – Tanzi soruşdu.

Araya qısa sakitlik çökdü. Cess görürdü ki, situasiya onun ucbatından gərginləşib.

Niki yaxşı görünürdü. Onun üzünün göyərməyən hissəsində də sulu dərmanın yeri görünürdü.

Telegram: @cinciva

– Oteldə çimmək əla olar, – Niki dedi.

– Niki, sən mənə nağıl danışacaqsan? – Tanzi zarafatla soruşdu.

– Əgər bilsə danışar, – Cess belə deyib azacıq gülümsəyən Nikiyə baxdı. Onun təbəssümü də Cessin ürəyini parçalayırdı.

– Ok, – Cess dedi.

O məcbur olub bu razılığa gəlmişdi.

***

Otelin geniş zalı hələ çöldən, pəncərədən də görünürdü. Pəncərələrdə sual işarəsinə bənzər işıqlar tez-tez yanıb sönür, köpüklü içkilər, qızardılmış balıq şəkilləri adamı iştaha gətirirdi. Cess bulka, pendir, cips, hədsiz baha olan alma aldı. Uşaqlarla maşın parkının bir tərəfindəki otluqda oturub şam etdi. Yolun o biri tərəfi ilə maşınlar ildırım sürətiylə cənuba tərəf şütüyürdü. Cess Nikollsa da onlarla bir yerdə şam etməyi təklif etdi, amma o, Cessin ortaya qoyub yediklərinə baxıb ona təşəkkür etdi, restoranda yeyəcəyini bildirdi. Cess ürəyində düşündü ki, bəlkə Nikolls bir müddət onlardan uzaq olmaq istəyir.

Nikolls gözdən itəndən sonra Cess bir az rahatlaşdı. Yeyib qurtarandan sonra o uşaqları fikirli halda oteldəki otaqlarına apardı. Onlarla bir yerdə qalmadığı üçün fikirliydi. Uşaqların otağı birinci mərtəbədə, parkla üzbəüz idi. Cess Nikollsdan xahiş etmişdi ki, maşını

Telegram: @cinciva

mümkün qədər uşaqların otağının pəncərəsinə yaxın yerdə park etsin.

Niki otağa girən kimi hamama girdi, ən azı bir saat orda qaldı. Sonra o, hamamdan çıxıb televizoru yandırdı, çarpayıda uzandı. O indi hədsiz yüngülləşmiş görünürdü.

Cess Nikinin dərmanlarını çarpayının yanındakı tumboçkanın üstünə qoydu, Tanzini də çimizdirdi. Tanzi də pijamasını geyinib rahatlandı. Cess onlara xəbərdarlıq etdi ki, gec yatmasınlar.

Sonra Nikiyə döndü:

– Siqaret çəkmə. Ciddi sözümdür.

– Necə çəkə bilərəm? Bütün ehtiyatımı götürmüsən, – Niki əsəbi halda dedi.

Tanzi böyrü üstə uzandı, kitablarını çarpayının üstünə qoyub rəqəmlərin sakit dünyasına baxırdı.

Cess iti də yedizdirdi, gəzdirdi, sonra maşına girib qapını açıq qoyub arxa oturacaqda oturub Nikollsun restorandan çıxmasını gözlədi.

Saat ona on beş dəqiqə işləmiş Cess maşının zəif işığında qəzet oxumağa çalışdığı vaxtda Nikolls "zühur etdi". Əlində telefonu elə tutmuşdu ki, hiss olunurdu elə indicə telefonla danışıb. Cess üçün onu görmək nə qədər "xoş" idisə, Nikolls üçün də o qədər "xoş" olduğu görünürdü. O, maşına minib qapını örtdü.

– Mən qəbul otağındakılara demişəm ki, əgər işdir, kimsə sifarişini geri götürsə, otaq boşalsa mənə zəng etsinlər.

Telegram: @cinciva

Başını sükana qoyub əlavə etdi:

– Daha mən onlara demədim ki, mən maşın parkında maşının içində gözləyirəm.

Norman hələ də aşağıda idi, elə bil yüksək yerdən indicə tappıltıyla yerə düşmüşdü. Cess bilmədi ki, Normanı indi maşına gətirsin ya yox. Uşaqlarsız, yarıqaranlıq maşında Nikollsla bir yerdə özünü bir az qəribə hiss etdi.

– Uşaqlar rahatlandılar? – Nikolls soruşdu.

– Onların kefi kökdür, minnətdaram.

– Deyəsən oğlunuz yaxşıca hücuma məruz qalıb.

– Düzələcək.

Araya sükut çökdü. Nikolls ona baxdı. Sonra o hər iki əlini sükanın üstünə qoyub başını arxaya söykədi. Əllərinin arxasıyla gözlərini ovuşdurdu, sonra Cessə tərəf döndü:

– Deyin görüm sizi məyus edəcək hansısa səhv hərəkət etmişəm?

– Nə?

– Siz elə rəftar edirsiniz ki, sanki bütün günü sizi hirsləndirirəm. Mən o gün pivəxanadakı hərəkətim üçün üzr istədim sizdən. Əlimdən nə gəlirsə sizə etmişəm. Amma yenə də elə hərəkət edirsiniz ki, sanki nəsə səhv etmişəm.

– Yox. Yox, siz heç bir səhv etməmisiniz, – Cess kəkələyə-kəkələyə dedi.

Nikolls bir müddət ona baxdı:

– Bəzən qadınların "Heç bir səhv yoxdur" düşüncəsi var. Onlar kiminsə səhv hərəkət etdiyini düşünür,

Telegram: @cinciva

amma sonra özləri səhv etdiyini anlayıb az qala dəli olurlar. Yoxsa siz də indi o vəziyyətdəsiniz?

– Yox.

– Görürsünüz, siz "yox" deyirsiniz, amma bəlkə ürəyinizdə başqa şey fikirləşirsiniz.

– Mən kodla danışmıram, həqiqətən də, heç bir səhv hərəkətiniz yoxdur.

– Elə isə olmaz ki, bir az sərbəst olasınız? Sizin belə ciddi görkəminiz məni doğrudan da, narahat edir.

O, başını yavaşca irəli çevirdi.

– Siz isə elə görünürsünüz ki, sanki bizə etdiyiniz təklif üçün peşman olmusunuz. Faktiki olaraq, biz maşına minməmişdən də əvvəl (öz-özünə xəbərdar edib ürəyində: "Ağzını yum, Cess, ağzını yum", – deyirdi) mən niyə bu təklifi etdiyinizi bilmirdim.

– Nəyi?

– Heç nə. Dediklərimi unudun getsin.

Nikolls gözlərini şüşətəmizləyənə dikib durmuşdu. O həmin anlarda həqiqətən də çox, çox yorğun görünürdü.

– İstəsəniz sabah səhər istənilən yerdə bizi tullayıb gedə bilərsiniz, biz də daha sizi narahat etmərik, – Cess dedi.

– Sizin istədiyiniz budur?

O, ayaqlarını qaldırıb oturacaqda rahat oturdu, əlavə etdi: – Belə olsa yaxşı olardı.

Onlar sakitcə dayandılar. Göyün üzü tam qaranlıq idi. Cess iki dəfə ağzını açdı ki, nəsə desin, amma heç

Telegram: @cinciva

nə deyə bilmədi. Nikolls isə fikrə qərq olmuş halda otel otağının pəncərələrinə baxırdı.

Cess bir az aralıda, otel otağında sakitcə yatan Nikini və Tanzini düşünürdü, özünün də onlarla bir yerdə olmasını arzulayırdı. Özünü bir az pis etdi. Niyə axı o bir az yaxşı görünməyə cəhd etmir, niyə o belədir? Yalnız bir-iki günlükdür hər şey. O özünü axmaq hesab edirdi, niyə axı qaşqabaqlı oturub maşında?

Hava getdikcə soyuyurdu.

Nəhayət, Cess Nikinin adyalını götürüb Nikollsa uzatdı:

– Buyurun.

– Aha, nə yaxşı oldu! Təşəkkürlər. – O, adyalın üstündəki Super Marionun şəklinə baxıb dedi.

Cess iti içəri çağırdı, özü də bir az qapıya tərəf çəkilib itin rahat olmasına çalışdı, sonra Tanzinin adyalını üstünə örtdü.

– Gecəniz xeyrə qalsın.

O, maşının qəşəng interyerinə baxır, beynindəki qarmaqarışıq fikirlərdən canını qurtara bilmirdi. Görəsən stansiya burdan neçə kilometr uzaqdadır? Görəsən qatara bilet neçəyədir? Ən azı onlar hardasa səhər yeməyi yemək üçün də pul verməlidir. Bəs it necə olacaq? Cess Normanın yüngülcə xorultusunu eşidib fikirləşdi ki, it olmasaydı, indi arxa oturacaqda rahatca uzana bilərdi.

– Saat onun yarısıdır, – Nikollsun səsi sükutu pozdu.

Cess sakit idi yenə.

– Saat... onun yarısı... – o belə deyib dərindən ah çəkdi.

Telegram: @cinciva

– Heç ağlıma da gəlməzdi ki, bunu sizə deyim. Amma bizim bu vəziyyətdə yol gəlməyimiz, sizin belə qaşqabaqlı olmağınız inanın ki, evli olmaqdan da betərdir.

– Necə bəyəm? Mən çox dərindən nəfəs alıram? – Cess soruşdu.

Nikolls kobudcasına maşının qapısını açıb "Tanrı xatirinə belə deməyin!" – deyib parka tərəf getdi.

Cess dikəldi, Nikollsın qaça-qaça otelin içindəki mini-marketə tərəf getdiyini gördü. Bir neçə dəqiqədən sonra əlində bir şüşə şampan və bir paket plastik stəkanla geri qayıtdı.

– Belə olmaz axı! – maşındakı yerinə oturarkən dedi.

Cess onun əlindəki butulkaya nəzər saldı.

– Cessika Tomas, sülh! Xanım Tomas, atəşkəs! Uzun yol gəlmişik. Gör nə vaxtdır yoldayıq. Məncə, bu maşın o qədər böyük deyil ki, burda iki nəfər oturub bir-biriylə danışmasın.

Nikolls ona baxdı. Onun gözlərindən yorğunluq yağırdı.

Cess onun əlindən plastik stəkanı aldı.

– Üzr istəyirəm. Mən adamların mənə kömək etməsinə alışmamışam. Sizin xeyirxahlığınız məni...

– Nədir? Şübhələnirsiniz?

– Belə demək istəmirdim. Sizin bu hərəkətiniz məni çox fikirləşməyə məcbur edir.

Nikolls dərindən nəfəs aldı.

– Ok. Elə isə gəlin bunu... – Nikolls əlindəki butulkaya baxdı. – Mənsə elə bilirdim bunun qapağını burub açmaq olar.

Telegram: @cinciva

O, butulkanın ağzına elə baxırdı ki, sanki onu cin atına mindirən yeni şey peyda olub.

– Ümid etmirəm ki, sizdə burğuc olacaq, – Nikolls ona baxdı.

– Yoxdur.

– Siz bilən aparıb qaytarsam dəyişərlər?

– Qəbzi götürmüsünüz?

Nikolls yenə də dərindən nəfəs aldı, Cess onun əlindən butulkanı aldı.

– Ehtiyac yoxdur.

Belə deyib Cess maşının qapısını açıb aşağı düşdü, elə bu an Norman da başını qaldırdı.

– Yoxsa siz onu maşının şüşəsiləninə ilişdirib açmaq istəyirsiniz?

– Yox.

– Ayaqqabınızın birini çıxarıb mənə verin.

– Xahiş edirəm, ayaqqabımdan stəkan kimi istifadə etməyin. Bir dəfə keçmiş arvadım butulkanın ağzını ayaqqabı biziylə açmışdı, sübut etmək istəyirdi ki, şampandan ayaq iyinin gəlməsi erotik təcrübə deməkdir.

Cess əlini qaldırdı. Nəhayət, Nikolls ayaqqabısının birini çıxarıb ona verdi.

O, butulkanı ayaqqabının içinə qoydu, qapağının başındakı ipləri hər iki əliylə ehtiyatla tutdu, sonra isə onları dartdı.

– Məncə, nə etdiyinizi soruşmağa ehtiyac yoxdur.

– Bir dəqiqə imkan verin, – Cess gülümsündü.

Nikolls başını yüngülcə yırğaladı.

Telegram: @cinciva

Cess belini dikəldib gülə-gülə ona baxdı.

– Aha, zəhmət olmasa gəlib tıxacı çıxarın.

Nikolls əlini qaldırdı.

– Yox... yox. Corablarımın içində sınmış şüşə qırıqlarını görmək istəmirəm. Özünüz edin, zəhmət olmasa.

Cess indi də tıxacı ehtiyatla dartıb Nikollsa uzatdı. "Part" – butulkanın ağzından şampan töküldü.

Nikolls ona baxırdı, Cess onun ayaqqabısını geri qaytardı.

– Pis deyil... Sizin kimi "faydalı" qadını tanımağa şadam.

– Mən şkafın sınmış yerlərini düzəldirəm, parketin qopan taxtalarını yapışdırıram, köhnə corablardan qəşəng kəmər hazırlayıram.

– Doğrudanmı?

– Əlbəttə, maşının ventilyatoru üçün qayış yox.

Cess maşına minib plastik stəkanı əlinə götürdü.

– Bir dəfə beləsini düzəltdim. Maşında istifadə etdim. Heç otuz metr getməmiş yanıq iyi gəldi.

Norman arxa oturacaqda yüngülcə zingildəyirdi.

– "Sülh!" "Barışıq" – Nikolls da plastik stəkanı əlinə aldı.

– Sülh! Sən bir də bizi uzaq səfərə aparmayacaqsan, eləmi?

– Siz istəməsəniz yox.

– Çox gülməlidir.

Birdən-birə gecə çox sakit göründü.

Telegram: @cinciva

13

ED

Ed Cessika Tomas haqqında bəzi şeyləri kəşf etdi. Deməli, o, bir, ya iki (həmin gecə isə dörd-beş) qədəhdən sonra aqressiv olmağa son qoyur. Həyatıyla bağlı o faktı da öyrəndi ki, saçını narahatlıq hiss etdiyinə görə yığmır, ona həmişə elə gəlir hər an nəsə bir iş görəcək. O, güləndə səsi çox xırıltılı olurdu. Arıq bədən forması açıq-aşkar onun dolanışığını fiziki işlə məşğul olaraq qazandığını bildirirdi. Ucuz cins geyinirdi. Nikolls özü hər xırda şeyə diqqət verən deyildi, amma eks arvadı Lara pambıq parça kimi hər şeyi özünə çəkirdi.

Ed aşağıdakıları öyrəndi Cesslə bağlı:

1. Niki onun öz oğlu deyilmiş. Keçmiş ərinin və eks-arvadının oğluymuş.

Cess demişdi: "Niki elə bil öz oğlumdur. Səkkiz yaşı olandan bizimlə yaşayır. O, Tanzinin qeydinə qalır. Həm də indi müxtəlif cür ailələr var, elə deyilmi? İki dəfə iki həmişə dörd etmir".

Telegram: @cinciva

2. Balaca qızın on yaşı var. Ed beynində qızın yaşıyla Cessin yaş fərqini hesablayıb tapmaq istədi. Amma ondan qabaq Cess dilləndi:

– Hə, Tanzi dünyaya gələndə on yeddi yaşım vardı. Mən vəhşi uşaq idim. Mənə elə gəlirdi ki, hər şeyi bilirəm, amma faktiki olaraq heç nə bilmirdim. Marti ortaya çıxdı, mən də məktəbi atıb onunla qaçdım. Hamilə qaldım. Heç də həmişə ev təmizləyən olmağı arzulamamışam, bunu bilirsiniz. Anam müəllim idi.

Cess belə deyəndə Nikolls tərəfə baxmadı, bilirdi ki, bu fakt onu şoka salacaq.

– Aha, davam edin, – Nikolls dedi.

– Anam indi təqaüddədir. O, indi Cornwall-da yaşayır, onunla yola getmirik. Həyatdakı seçimlərimlə hələ də razılaşmır. Ona izah edə bilmərəm ki, on yeddi yaşında gözünü açıb görürsən ki, körpən var, daha heç bir seçim yeri deyil.

– İndi də seçim etmək imkanınız yoxdur? – Nikolls soruşdu.

– Yox! – Cess bir çəngə saçını barmaqları arasında fırlada-fırlada davam etdi:

– Çünki heç vaxt irəli getmək olmaz. Təsəvvür edin ki, dostlarım kollecdə oxuyanda mən evdə körpə uşağa baxırdım. Dostlarım karyeralarına başlayanda mən yaşamaq üçün bir yer axtarırdım. Tay-tuşlarım ilk maşınlarını və evlərini alanda uşağımı təmin etmək üçün iş axtarırdım. Məktəb saatı ilə üst-üstə düşən işlərdə isə maaşlar çox az olur. Yox, məni düz başa düşün, elə bilməyin ki, Tanzini dünyaya gətirdiyimə görə peşmanam.

Telegram: @cinciva

Heç vaxt peşman deyiləm buna. Heç Nikini götürdüyümə də təəssüflənmirəm. Amma yəqin ki, əgər həyatımı yenidən yaşamalı olsaydım həyatımda nəsə edəndən sonra Tanzini dünyaya gətirər və ya Nikini götürərdim. Onlara həyatda yaxşı olanları vermək çox yaxşı olardı.

Cess danışa-danışa adyalın altından dirsəyini iki oturacağa söykədi, ayaqlarını isə irəliyə uzatdı.

Ed buna etiraz etmədi.

– Siz hələ cavansınız, bundan sonra da karyera qura bilərsiniz. Demək istəyirəm ki, siz məktəbli uşaqlara dayəlik də edə bilərsiniz, – Ed dedi.

Cess ürəkdən güldü. Xırıltılı səslə. "Ha-ha-ha", – maşının içində aydınca eşidildi.

Sonra o dikəlib stəkanı əlinə aldı, iri qurtum içdi:

– Hə, düz deyirsiniz, cənab Nikolls, karyera qura bilərəm.

3. O evdə kişi işləri də görməyi bacarır. Parketin qopan taxtasını, hamamın qopan kafelini yerinə bərkitməyi bacarır. "Mən evdə istənilən işi görürəm. Belə işlərdə mahirəm. Mən hətta divar kağızını da yapışdırmağı bacarıram", – Cess demişdi.

– Aha, deməli, evinizin divar kağızlarını özünüz yapışdırırsınız, – Ed soruşmuşdu.

– Mənə belə baxmayın. Tanzinin otağının divar kağızını özüm dəyişmişəm. Hətta son vaxtlara qədər onun paltarlarını da özüm tikmişəm.

– Siz İkinci Dünya müharibəsindən qalmısınız? Mürəbbə və kəndir də yığıb saxlamırsınız ki? – Ed zarafat etdi.

Telegram: @cinciva

– Bəs siz nəçi olmaq istəyirdiniz? – Cess ondan soruşdu.

– İndi nəçiyəmsə onu.

Sonra hiss etdi ki, bu mövzuda danışmaq ona ağırdır və o mövzunu dəyişdi.

4. Onun ayaqları nəzərə çarpacaq dərəcədə balaca idi. Yəqin ki, o, uşaq ayaqqabıları alırdı (uşaq ayaqqabıları bir az ucuz olar). Ed şorgöz kişilər kimi gözaltı onun ayaqlarına baxdı.

5. Uşağı olmazdan əvvəl o bir butulka arağı içərmiş, amma özünü idarə edərmiş.

"İçirdim. Amma doğum günümü unuda biləcək dərəcədə içmirdim, özümə nəzarəti itirmirdim", – Cess demişdi.

Ed ona inanırdı. Onlar birlikdə iki butulka içmişdilər, ən çoxunu Cess içmişdi. Amma onda sərxoşluqdan əsər-əlamət yox idi.

Demək olar ki, o heç vaxt evdə içmir. "Mən pivəxanada işləyirəm, kimsə mənə içməyi təklif edəndə içirəm. Evdə olanda isə içmirəm".

Cess belə deyəndə pəncərədən bayıra baxırdı. Az sonra dedi:

– Mən heç vaxt kənar yerdə uşaqlardan ayrı qalmamışam.

– Hə, sizin üzünüzə qapı çırpan kişi ilə iki butulka şərab, – Ed dedi.

– Mən belə demək istəmirdim.

Cess uşaqlarını nəyin narahat etdiyini demədi. Ed Nikinin sifətini yadına saldı, heç nə soruşmadı.

Telegram: @cinciva

6. Çənəsinin altında çapıq vardı. Balaca olanda velosipeddən yıxılıb, yerdən bir çınqıl həmin yerə batıb, həftələrlə orda qalıb. Cess bu barədə danışanda çənəsinin altındakı çapığı ona göstərmək istədi, amma işıq zəif idi. Belində döyməsi də vardı. "Martinin dediyinə görə belimdə axmaq bir möhür var. Belimə döymə edəndən sonra o məni bir neçə həftə dindirmədi. İstəmirdi ki, döymə etdirim", – Cess fasilə verdi.

Onun orta adı Rae idi. Hər dəfə o bu adı hərfbəhərf deyirmiş.

8. O ev təmizləmək işindən narazı deyildi, amma adamların onunla "sadəcə evtəmizləyən" kimi rəftar etməsinə nifrət edirdi. (o bu barədə danışanda Ed ona zarafatla baş əydi).

9. Ərinin onu atıb getdiyi son iki il müddətində heç kimlə görüşməyib.

– Nə? Siz son iki il yarımda bir dəfə də olsun sekslə məşğul olmamısınız? – Ed soruşdu.

– Mən dedim ki, o, iki il əvvəl çıxıb gedib.

– Bu mənim "dəqiq" hesablamamdır. Axı tərk edib getməzdən əvvəl də aranızda problem olub yəqin.

Ed belə deyəndə Cess özünü dikəltdi, ona yanakı baxdı.

– Elə isə üç il yarım – əgər dəqiq hesablamaq istəyiriksə. Hm... Hm... Keçənilki bir epizoddan başqa. Şoka düşmüş kimi baxmayın mənə.

– Yox, şokda deyiləm. Üç il yarım. Bu sizin ailəli olduğunuz vaxtın dörddə biridir, – Ed dedi.

Telegram: @cinciva

– Bəli. Hesablamaya görə çox sağ olun.

Sonra Ed bilmədi ki, nə baş verdisə atmosfer dəyişdi. Cess dodaqaltı nəsə donquldandı, Ed onun dediyini anlamadı. Cess saçını yığdı, yatmaq vaxtının olduğunu dedi.

Ed fikirləşirdi ki, illərlə oyaq qalacaq. Qaranlıq maşında az əvvəl iki butulka şərab içdiyin cəlbedici qadın yanında olarkən yuxuya getmək çətinləşir. Onun üstünə örtdüyü adyalın Spange Bob Square Pants firmasının məhsulu olmasının məsələyə dəxli yoxdur.

O, başını qaldırıb göyə baxdı, Londona tərəf şütüyən maşınların səsinə qulaq asdı. Arxa oturacaqlarda yuxuda olan itin yüngülcə zingiltisini dinlədi, sonra isə real həyatını düşündü. Şirkətdəki problemləri və indi ondan minlərlə mil uzaqda olan Dinna Levisin onun zənginə cavab verməməyini yadına saldı.

– Hələ oyaqsınız? – Cess soruşdu.

Ed başını qaldırdı, fikirləşdi ki, bəlkə bayaqdan Cess ona baxırmış.

– Yox, – Ed cavab verdi.

– Ok. Elə isə "Truth game"[1] oynayaq, – Cess sanki deyinirmiş kimi təklif etdi.

Ed başını qaldırdı.

– Elə isə siz başlayın.

– Yox, birinci siz başlayın, – Cess dedi.

Ed nədən başlayacağını bilmirdi.

– Ola bilməz ki, nəsə haqda fikirləşməyəsiniz, – Cess dedi.

[1] "həqiqət oyunu"

Telegram: @cinciva

– Ok. Siz niyə çəkələk geyinirsiniz?

– Sualınız budur?

– Hə. Çöldə şaxta var. Bütün yaz boyu da hava çox soyuq olub. Siz isə hələ də çəkələk geyinirsiniz.

– Bu sizi çox maraqlandırır?

– Sadəcə başa düşə bilmirəm. Axı üşüyürsünüz.

Cess ayağının baş barmağını göstərdi:

– Yazdır.

– Nə demək istəyirsiniz?

– Deyirəm ki, yazdır, havalar yaxşılaşacaq.

– İnam ifadəsi olaraq çəkələk geyirsiniz?

– Necə istəyirsinizsə elə də yozun.

Ed nə deyəcəyini bilmədi.

Cess dedi:

– Ok. İndi mənim növbəmdir.

Ed onun sualını gözlədi.

– Siz bu səhər bizə gələndə etdiyiniz təklifdən imtina etmək istəyirdiniz?

– Yox.

– Yalançı.

– Ok. Ola bilsin ki, bir az yalan dedim. Çünki qonşunuz beysbol dəyənəyilə mənə zərbə endirmək istədi, həm də itinizdən pis iy gəlir.

– Olan olub. Bəhanə lazım deyil.

Ed onun adyal altında o biri böyrü üstə döndüyünü hiss edirdi. Ayaqları adyalın altından görünmürdü daha. Ondan şampun iyi gəlirdi. Bu da Edin yadına Bounty barlarını saldı.

Telegram: @cinciva

– Bəs niyə imtina etmədiniz?

Cavab verməzdən əvvəl o bir az fikirləşdi. Bəlkə də buna səbəb o idi ki, o Cessin üzünü görə bilmirdi. Bəlkə də üçüncü və dördüncü stəkanı da içəndən sonra Ed onun sərxoş olmadığını hiss edirdi. Ola bilsin ki, içki və gecə yarısının olması onun özünü müdafiə "bacarığını" aşağı salmışdı. Normal halda o verdiyi cavabı deməyəcəkdi.

– Çünki son vaxtlar bir axmaq hərəkət etmişəm. Ola bilsin ki, ürəyimin yarısı məni nəsə etməyə sövq edirdi. Onda özümü yaxşı hiss edərdim.

Ed fikirləşdi ki, indi Cess nəsə deyəcək. Hətta onun sual verəcəyinə də ümid etdi. Amma Cess heç nə demədi.

Ed bir neçə dəqiqə də neon lampalarına gözünü zilləyib Cessika Rae Tomasın necə nəfəs almasına baxa-baxa düşünürdü ki, gör o sadəcə yanında kiminsə yatması üçün nə qədər darıxıb. Son vaxtlar özünü planetin ən tənha adamı kimi hiss edirdi. O, Cessin bapbalaca ayaqlarını, uzun, lak çəkilmiş dırnaqlarını xatırladı. Sonra gözləri önünə qaşları tarım dartılmış bacısını gətirdi. O fikirləşdi ki, o daha çox içməlidir.

"Axmaq olma, Nikolls!" – özü-özünə dedi, arxası üstə döndü, arxasını Cessə tərəf çevirdi.

Ed qəmgin fikirləri yox olub yerində acıq qalanadək Dinna Levis haqda fikirləşdi. Sonra bayırda çox soyuq oldu, onun sol qolu soyuqdan az qala keyidi. O tərəf-bu tərəfə çevrildi, fikirləşdi ki, bu dəqiqə təhlükəsizlik xidməti əməkdaşı pəncərəni döyəcləyib ondan niyə maşında yatdıqlarını soruşacaq.

Telegram: @cinciva

14

TANZİ

Səhər yeməyi üçün stolun üstündə dörd növ peçenye, üç növ meyvə şirəsi və Cessin qeyri-qənaətcil deyib heç vaxt almaq istəmədiyi fərdi paketlərdə olan dənli bitki məhsulları vardı.

Cess səhər saat doqquza on beş dəqiqə işləmiş onların otağının pəncərəsini döydü. Onlara tapşırdı ki, səhər yeməyinə gedəndə qalın paltarlarını geysinlər, bacardıqları qədər stolun üstündə olanlardan ciblərinə doldursunlar. Onun saçı bir tərəfə yapışmışdı, üzündə makiyaj yox idi. Tanzi maşında yatmağın heç də macəra olmadığını fikirləşdi.

– Yağ və mürəbbə, yağlı çörəklər – bu kimi şeylər götürməyin. Ehtiyatlı olun!

Cess arxaya döndü, Nikollsun təhlükəsizlik əməkdaşı ilə mübahisə etdiyini gördü, təzədən uşaqlara tərəf döndü:

– Hə, bir də alma götürün. Alma yemək sağlamlıqdır. Əgər mümkün olsa bir neçə dilim donuz əti də götürün Norman üçün.

Telegram: @cinciva

– Donuz ətini hara qoyum?

– Hə, kolbasa da olar. Salfetə büküb qoyun.

– Ana, bu oğurluq deyil?

– Yox.

– Bəs axı...

– Bu həmin anlarda sənin yemək istədiyindən bir az artıq götürməkdir. Sanki siz... Hə, sanki sizin hormonal pozğunluğunuz var, çox tez acırsınız, qədərindən artıq yeyirsiniz.

– Axı mənim hormonal pozğunluğum yoxdur.

– Demədim ki, hormonal pozğunluğun var, dedim ki, ola bilərdi. Guya ac, xəstə adamsan, Tanzi! Axı səhər yeməyi üçün pul ödənib, sən də özünü elə göstər guya ordakıların hamısını yeyirsən.

Tanzi qollarını qoynuna qoydu, soruşdu:

– Sən həmişə deyirdin ki, oğurluq etmək pisdir.

– Bu, oğurluq deyil. Bu, sadəcə ödədiyin pulun dəyərində olanları götürməkdir.

– Axı biz ödəmədik, Nikolls ödəyib.

– Tanzi, nə deyirəmsə onu da et. Bax, yarım saat sonra Nikollsla maşın parkından çıxırıq. Dediklərimi edin, sonra otağa qayıdıb saat doqquzda çıxmağa hazır olun. Ok?

Cess pəncərədən əyilib Tanzinin üzündən öpdü, sonra jaketi çiyinlərində maşına tərəf qayıtdı. Birdən o dayandı, geri dönüb qışqırdı:

– Dişlərinizi fırçalamağı unutmayın. Riyaziyyat kitablarının heç birini orda qoyma.

Telegram: @cinciva

Niki hamamdan çıxdı. Onun əynində dar cins şalvar, idman köynəyi vardı, "işinin" xətrinə əlinə keçəni geymişdi.

– Sən bu paltarla heç cür kolbasa götürə bilməzsən, – Tanzi onun cins şalvarına ötəri nəzər salıb dedi.

– Mərc gələrəm ki, sən fikirləşdiyindən də çox kolbasa yerləşdirərəm bu şalvara.

Tanzi Nikiyə bir də baxdı:

– Sən artıq geyinmisən, qaçım mən də geyinim.

Nikolls başını sükana qoyub maşın parkının içi ilə maşına tərəf gələn Nikiyə və Tanziyə baxırdı. Elə Tanzi də onlara gözaltı nəzər salırdı. Niki şalvarının qabağına iki portağal və bir alma soxmuşdu. Asfaltın üstüylə azacıq axsaya-axsaya elə gəlirdi ki, sanki şalvarının içində "hadisə" baş vermişdi. Tanzi jaketini geymişdi, ona isti olduğunu hiss etmək olurdu, çünki o jaketinin başlığına dənli bitki paketlərini doldurmuşdu, cibləri də doluydu, hamilə qadına oxşayırdı.

Nikolls və Cess gülməklərini saxlaya bilmədilər.

– Tez girin maşına, tez olun, – Cess onları tələsdirib, yüngülcə maşına itələdi.

– Hə, nə gətirmisiniz?

Nikolls maşını yolun qırağında saxladı, uşaqlar "yüklərini" boşaldınca arxa güzgüdən onlara baxdı.

Niki cibindən ağ bir paket çıxardı.

– Üç paket peçenye. Bir bax, kremləri azca salfetə yapışıb. Dörd sosis, karton stəkanın içində isə Norman üçün bir neçə dilim donuz əti. İki iri dilim pendir,

Telegram: @cinciva

yoğurt və... – belə deyib o əllərini köynəyinin astarının altına saldı, ordan meyvələri dartıb çıxardı:

– İnana bilməzdim ki, bunların hamısını yerləşdirə bilərəm.

– Hə, deməli ana-oğul söhbətindən yaxşı nəticə çıxarmısan, – Cess zarafatla dedi.

Tanzi altı paket dənli bitkilər, iki banan, qızardılmış ağ çörəkdən düzəldilmiş buterbrod götürmüşdü. O, yeməyə başlayanda Norman gözlərini ona zilləmişdi, ağzının suyu oturacağın üstünə tökülürdü.

– Yumurta qaynadan qadın bizi gördü, – Niki dedi.

– Bilirəm. Ona dedim ki, səndə hormonal pozğunluq var, sən gündə üç dəfə, bədən çəkindən iki dəfə artıq yeməlisən. Dedim ki, əgər sən yeməsən, yeməkxananın ortasına yıxılıb ürəyin gedər, – Tanzi gülə-gülə dedi.

– Əla... – Niki dedi.

– Sən mən götürdüklərimdən sayca çox şey götürmüsən, – Tanzi götürdükləri şeyləri saymağa başladı. – Amma mən əlavə şeylər də götürmüşəm.

Belə deyib o, jaketinin altından penoplast fincanlarda kofe çıxardı, dik qalması üçün onları da salfetə bükmüşdü. Tanzi kofenin birini anasına, birini isə Nikollsa uzatdı.

– Sən dahisən, Tanzi! Eh, Tanzi, kaş biləydin buna necə ehtiyacım var, – Cess fincanın kağız qapağını soyub çıxardı.

O, bir qurtum içdi, gözlərini yumdu. Tanzi hələ də dəqiqləşdirə bilmirdi ki, bufetdə etdikləri düz

Telegram: @cinciva

hərəkətdir ya oğurluqdur, amma hər halda, neçə vaxt gülməyən Niki gülürdü. Anası da Marti gedəndən bəri daha xoşbəxt görünürdü.

Nikolls gözlərini zilləyib onlara elə baxırdı sanki onlar "bir dəstə əcnəbi" idilər.

– Ok. Biz donuz ətindən, pendir və kolbasadan lanç üçün buterbrod düzəldərik. Meyvə də var. Birini istəyirsiniz? – o, portağallardan birini Nikollsa uzatdı. – Düzdür, bir az istidir. Amma onu sizinçün soya bilərəm.

– Hm... Hm... Çox sağ olun. Onu deyim ki, bir də "Starbucks"da saxlayacam.

***

Səyahətin o biri hissəsi çox yaxşı oldu. Şəhərdən çıxanadək onlar tıxaca düşmədilər. Cess Nikollsdan xahiş etdi ki, onun sevimli radiodalğasına qoşulsun, yol boyunca altı mahnı oxudu, mahnının sözlərini yaxşı bilməsə də istədiyi sözləri deyirdi. "Keçəlbaş polislər", "bişmiş piroqlar" və sair sözləri işlədirdi. Başqa vaxt olsaydı, Tanzi ağzını büzərdi, amma indi o yalnız gülürdü. O hərdən Tanzini və Nikini də xorla oxumağa məcbur edirdi, əvvəlcə Nikolls bundan cana doydu, amma sonra Tanzi gördü ki, Nikolls da ritmə uyğun barmağını hərdən sükana döyəcləyir, hiss olunurdu ki, onların oxuması onu narahat etmir, əksinə, bundan həzz alır. Gün çıxmışdı, hava bir az istiydi. Nikolls maşının damında havalandırma qapağını açdı. Norman

Telegram: @cinciva

sakitcə dayanıb təmiz hava udurdu, Tanzini və Nikini qapı tərəfə itələmirdi.

Tanzi atası evdə olduğu vaxtları xatırladı. Hərdən onun maşınında gəzməyə gedirdilər. Onda da eynilə belə olurdu. Atası həmişə sürətlə sürürdü, anası ona yavaş sürməyi deyəndə o deyinərdi. Atasıyla anası maşını harda saxlayıb yeməkdən danışanda heç vaxt bir-biriylə razılaşmırdılar. Marti hirslənib deyərdi ki, niyə də onlar barda, ya kafedə bir az pul xərcləməsinlər. Cess isə deyirdi ki, o, evdə yaxşı buterbrod düzəldib, pul xərcləməyə ehtiyac yoxdur. Marti Nikini danlayırdı ki, başını oynadığı lənətə gəlmiş oyundan ayırsın, pəncərədən gözəl mənzərələrə tamaşa etsin. Niki də deyərdi ki, o heç kimdən xahiş etməyib onu gəzməyə aparsınlar, onun sözləri Martini lap dəli edirdi.

Tanzi fikirləşirdi ki, atasını çox sevməsinə baxmayaraq, onsuz olan bu səfəri daha üstün tuturdu.

İki saatdan sonra Nikolls dedi ki, bir az dayanmaq istəyir, Normanı da işəmək üçün aşağı düşürtmək lazımdı. Beləliklə də, o, maşını bir kənd parkının qırağında saxladı. Cess bufetdən "oğurlanmış" ehtiyatların bir hissəsini çıxardı, onlar bir kölgə yerdə otun üstündə oturub lanç etdilər. Tanzi bir az riyaziyyatı təkrarladı (kvadrat tənliklər), sonra Normanı götürüb ağacların altında gəzdirdi. Norman çox yaxşı görünürdü, hər dəqiqəbaşı dayanır, ətrafı iyləyirdi. Günəş şüalarını ağaclara paylayırdı. Bu vaxt onlar ceyran və qırqovul gördülər. Elə bil onlar istirahətə gəlmişdilər bura.

Telegram: @cinciva

– Sevimli balam, hər şey qaydasındadır? – Cess əlləri qoynunda Tanziyə yanaşdı.

Durduqları yerdən Nikollsu və Nikini görə bilirdilər, onlar hələ də ağacın altında oturub söhbət edirdilər.

– Özünü yaxşı hiss edirsən?

– Deyəsən elədir, – Tanzi dedi.

– Sən axşam məsələ-misal həll edə bildin?

– Hə, etdim. Sadə rəqəmlər bir az mənə çətin gəlir. Amma onların hamısını yazdım, ardıcıllığı görəndə asanlaşdı.

– Daha Fişerləri kabus hesab etmirsən ki?

– Ötən gecə yuxuda gördüm ki, kələmin üstündə sürüşürəm. Bu kələmin adı Kevin idi.

Cess ona uzun-uzadı baxıb dedi:

– Ok.

Onlar bir az parkın içinə doğru getdilər, ətrafdan bir az nəmişlik, mamır qoxusu gəlirdi. Hər tərəf yaşıl idi. Burdakı nəmişlik iyi onların evinin arxa otağından gələn nəmişlik iyi kimi deyildi, evdən gələn kif iyi idi. Cess bir cığırda dayandı, maşına tərəf döndü, sonra Tanziyə baxdı:

– Yadındadır, sənə hər şeyin yaxşı olacağını deyirdim.

Tanzi qaça-qaça gəlib ona çatdı.

Cess davam etdi:

– Sabah Nikolls bizi Şotlandiyaya çatdıracaq. Sən yarışda qalib olacaqsan, sonra isə təzə məktəbdə dərslərinə başlayacaqsan. Ümid edirəm, bütün həyatımız yaxşılığa doğru dəyişəcək. Bu yaxşıdır, eləmi? Bu yaxşı bir səyahətdir, deyilmi?

Telegram: @cinciva

Cess Tanzi ilə danışa-danışa hələ də maşına tərəf baxırdı. Hiss olunurdu ki, o bir şey haqda danışır, amma başqa şey haqqında düşünür. Hələ maşında olanda Tanzi anasının makiyaj etdiyini görmüşdü. O, üzünü bir az yana çevirdi, tuşla kirpiklərini qaraltdı. Maşın hərdən atılıb-düşəndə tuşun damcıları onun üzünə dağılırdı. Tanzi heç bilmədi ki, niyə anası tuş vurmaq istəyir. Axı o makiyajsız da gözəldir.

– Ana!

– Nədir?

– Ana, biz bufetdən oğurluq etdik, eləmi? Oğurluq olmasa da, ona bənzər bir şey. Sən gətirdiklərimizə diqqətlə baxsaydın, görərdin ki, payımıza düşəndən çox götürmüşük.

Cess bir neçə anlıq fikirli halda gözlərini ayaqlarına zilləyib baxdı, Tanziyə döndü:

– Əgər belə narahatsansa sənə verilən mükafatdan beş funt ayırıb zərfə qoyaram və onlara yollayaram. Necə fikirdir?

– Məncə, götürdüklərimizin qiymətini hesablasaq, bu beş funt yox, təxminən altı funt edir. Ehtimal ki, altı funt əlli pens.

– Elə isə, biz onda o qədər yollayarıq. İndi isə istəyirəm ki, sənin bu kök itin parkda çoxluca qaçsın. Çünki bütün səyahət boyu ayağı üstündə şöngüməkdən çox yorulub (a), bəlkə elə o burda tualetlik işini (b) qurtara və gedəcəyimiz səksən mil boyunca osdurub maşının içini iylətməyə.

Telegram: @cinciva

***

Onlar maşına minib yola davam etdilər. Bir az yağış yağdı. Bu müddətdə Nikollsa Sidney adlı bir kişi zəng etdi, onlar qiymətli kağızlardan və bazar qiymətləri haqqında danışdılar. Söhbətin ciddi olduğu hiss olunurdu, ona görə də Cess mahnı oxumağı dayandırdı. Hamı sakitcə oturmuşdu. Tanzi çalışırdı ki, gözünü riyaziyyat kitablarından uzaq saxlasın (Cess ona demişdi ki, belə etsə yenə ürəyi bulana bilər), Nikinin Nintendosunun yenə də ehtiyat enerjisi qurtarmışdı. Gözünü pəncərəyə dikib tez-tez ah çəkirdi. Onlara elə gəlirdi ki, səyahət elə sonacan bu əhvalda davam edəcək. Nikinin ən sakit, lal-dinməz dayandığı gün idi. Tanzi onunla danışmaq istədi, amma bilirdi ki, Niki danışmaq istəmirsə, ağzı yumulu gözlərini başqa tərəfə zilləyib dayanacaqdı. Tanzi şortunu geyməyə peşman idi, çünki şortun qıraqları dəri oturacağa ilişirdi, az qala onu deşirdi. Bir tərəfdən də, Norman parkda nəsə yemişdi, hələ də çeynəyirdi, pis iy gəlirdi. O bu haqda heç kimə demədi, çünki qorxurdu ki, Nikolls onların və üfunət iyi verən itin əlindən cana doyduğunu deyər. Ona görə də Tanzi barmağıyla burnunu tutmaqla kifayətləndi, ağzıyla nəfəs almağa çalışdı, burun deşiklərini hər işıq dirəyindən bir açırdı.

Axır ki, Norman ağzındakını yeyib uddu. Maşının içindən iy çəkildi. Onlar Coventrini arxada qoyub

Telegram: @cinciva

halqavarı yollarla Derbi tərəfə istiqamətlənmişdilər. Maşın fabriklərin yanından şütüyüb keçirdi.

Tanzi pəncərədən ətrafa baxırdı. İndi mənzərə elə ürəkaçan deyildi, yol qırağında yabanı bitkilər görünürdü. Ona görə də onlara baxmadan beynində hesablama aparır, onlara baxmamağa çalışırdı.

Bu vaxt Nikollsun telefonuna yenə də zəng gəldi, bu dəfə bir qadın italyan dilində qışqırmağa başladı. O, qadına heç nə deməyib telefonu söndürdü.

Cess isə pul kisəsindəki pulları sayırdı. Onun 63 dollar 91 senti vardı, fikir verməmişdi ki, on pens xarici pul imiş, deməli, onun pulu 63 dollar 81 sent idi.

– Niki, – Nikolls arxaya dönüb ona baxdı.

Niki başını qaldırdı. Nikolls arxa güzgüdən Nikiyə fikir verirmiş.

– İstəyirsənsə mənim telefonumu götür. Düzdür, mənim telefonumda elə də çox oyunlar yoxdur, amma Facebooka və Tvitterə girə bilərsən.

– Doğrudan? – Niki sevincək özünü dikəltdi.

– Hə. Telefonum jaketimin cibindədir.

Cess telefonu götürüb Nikiyə uzatdı:

– Ehtiyatlı ol. Nəyisə xarab edərsən.

– Mən öz pin kodumu deaktiv etmişəm... Bilirsən, burda film yoxdur.

– Yaxşı, – Niki gülümsəmədi. Amma onun məmnun olduğunu duymaq olardı.

– Tanzi, sən baxma. Yoxsa yenə ürəyin bulanar, – qabaq oturacaqdan Cessin səsi eşidildi.

Telegram: @cinciva

Tanzi ah çəkdi, cansıxıcıydı hər şey.

Normanın ağır başı onun dizi üstəydi, o güclə onun başını qaldırmaq istəyirdi, çünki ayağı gicişirdi. O, Şotlandiyaya nə vaxt çatacaqlarını fikirləşirdi. Həqiqətən də, lap bezmişdi, yorulmuşdu, amma bilirdi bu barədə anasına desə o da

"Tanzi, biz hamımız yorulmuşuq. Nə edə bilərəm?" deyəcəkdi. O mürgüləməyə çalışırdı, amma mürgüləyən kimi başı pəncərəyə dəyirdi. Cess və Nikolls söhbət etməyə başladılar, elə bil onlar maşında başqa adamın da olduğunu unutmuşdular.

– Hə, mənə keçmiş arvadınızdan danışın.

– Keçmiş arvadım. Ona heç də minnətdar deyiləm.

– Niyə də yox? Siz xəyanət etməmisiniz. Güman edirəm ki, o da xəyanət etməyib, yaxud da siz cəhd etməmisiniz xəyanət etməyə.

– Necə?

Ortaya sükut çökdü. Ola bilsin ki, on işıq dirəyi arxada qaldı.

– İnanmıram ki, nə vaxtsa xəyanət etmək haqda düşünüm. Yox, o da xəyanət etməyib. Yox, sadəcə bunu müzakirə etmək istəmirəm.

– Şəxsi məsələni?

– Hə, mən şəxsi məsələlər haqda danışmağı sevmirəm. Sən keçmiş ərin haqda danışmaq istəyirsən?

– Onun uşaqlarının yanında? Hə, bəlkə də bu yaxşı ideyadır.

Onlar bir neçə mil yolu sakitcə getdilər, heç biri danışmırdı. Cess barmaqlarını maşının şüşəsinə

Telegram: @cinciva

tappıldadırdı, Tanzi gözlərini zilləyib Nikollsa baxırdı. Cess hər dəfə barmağını pəncərəyə toxunduranda Nikollsun çənəsinin altında bir damar qalxıb-enirdi.

– Bəs onda nə haqda danışaq? Mən qiymətli kağızlarla maraqlanmıram, inanıram ki, mənim məşğul olduğum sahəyə olan marağınız sıfırdır. Çox vaxt mən barmağımı tarladakı inəklərə tuşlayıb deyirəm: "Ora baxın, inəklər".

Nikolls ah çəkdi.

– Hə, davam edin, burdan Şotlandiyaya hələ çox var.

Tanzi hələ də sayırdı, düz 30 işıq dirəyi arxada qalanadək araya sükut çökdü.

– İstəsəniz yenə də mahnı oxuya bilərəm. Biz hamımız bir yerdə oxuya bilərik. Niki, telefonu ver görüm, bəlkə yaxşı melodiya tapa bildim.

– Lara... İtaliyalı... Model.

– Model... – Cess telefondakı adı görüb güldü:

– Nəyə gülürsünüz? – Nikolls deyindi.

– Sizin kimi kişilərin çoxu modellərlə evlənir.

– Mənim kimi kişilər deyəndə nəyi nəzərdə tutursunuz?

Cess dodaqlarını bir-birinə sıxıb durdu.

– Hə, deyin görək, mənim kimi kişilər deyəndə nəyi nəzərdə tutursunuz?

– Varlı kişiləri.

– Mən varlı deyiləm..

Cess başını yellədi:

– Yox... Varlısınız.

Telegram: @cinciva

– Yox, varlı deyiləm.

– Məncə, bu sizin varlıları necə təsvir etməyinizdən asılıdır.

– Mən varlıları görmüşəm, mən varlı deyiləm. Dolanışığım yaxşıdır, amma hələ varlılardan çox uzağam.

Cess ona tərəf döndü. O hələ də yanındakı qadının dolanışığından xəbərsiz idi.

– Bir evinizdən başqa da eviniz var?

Nikolls siqnal verdi, sonra Cessə döndü:

– Var.

– Bəs bu maşından başqa maşınınız var?

Nikolls yana baxıb dilləndi:

– Bəli, var.

– Elə isə siz varlısınız.

– Yox. Varlı olmaq xüsusi təyyarəsi olmaq, yaxtası olmaq deməkdir. Varlı olmaq işçisi olmaq deməkdir.

– Bəs onda mən kiməm? – Cess soruşdu.

Nikolls ona baxdı:

– Siz... Siz...

– Təsəvvür edirəm, desəm ki, siz mənim işçimsiniz, onda sifətinizin ifadəsi necə olar.

Cess gülməyə başladı.

– Mənim qulluqçum... Mənim evimi təmizləyən, – belə demək istədiniz. – Hə, bəs sizinçün kimdir varlılar?

Cess torbadan bufetdəngəlmə almalardan birini götürüb, bir dişləm aldı. O danışmazdan qabaq almanı bir az çeynədi.

– Varlılar evlərinə gətirilən bütün qəbzlərin pulunu fikirləşmədən vaxtında ödəyənlərdir. Varlı olmaq tətil

Telegram: @cinciva

günlərində harasa səyahətə getmək, ya da Milad bayramını borc etmədən qeyd edib, yanvarda və fevralda borclarını geri qaytarıb pis vəziyyətdə olmamaqdır. Varlılar bütün günü yalnız pul haqda fikirləşməyənlərdir.

– Hər kəs pul haqda fikirləşir, hətta varlılar da.

– Bəli, amma siz daha çox pul qazanmaq haqda fikirləşirsiniz. Mən isə o biri həftəyə acından ölmədən keçmək üçün pul haqda fikirləşirəm.

Elə bil Nikollsun boğazında nəsə qalmışdı, onu təmizləmək istəyirdi:

– Heç inana bilmirəm ki, mən sizi Şotlandiyaya aparıram, siz də səhv qərar verdiyinizdən mənə çətin anlar yaşadırsınız. Mən sanki Donald Trampam.

– Mən sizə çətin anlar yaşatmıram. Yox, belə deyil. Sadəcə demək istəyirəm ki, siz kimləri varlı hesab edirsiniz, mənimçün varlılar kimdir.

Çox dəhşətli sakitlik oldu. Cess qızardı, sanki o, lazım olmayanı demişdi, əsəbiliklə əlindəki almadan iri dişləm aldı. Başqa vaxtı Tanzi almanı belə dişləsəydi, o bunu söz edərdi. Tanzi istəmirdi ki, anasıyla Nikolls söhbət etməyi dayandırsın, çünki gözəl gün keçirmişdilər. O, başını qabaqdakı iki oturacağın arasına salıb dedi:

– Hardasa oxumuşam ki, bizim ölkədə daha yaxşı yaşamaq üçün il ərzində ən azı yüz qırx min funtdan çox qazanmaq lazımdır. Nikolls bu qədər qazanmır, deməli, heç də varlı deyil.

– Tanzi bu sözləriylə sanki onlara kömək etmək istədi. Sözünü qurtarıb gülümsədi, təzədən öz oturacağına söykəndi.

Telegram: @cinciva

Cess Nikollsa baxdı. Bir müddət baxışlarını onun üzündə saxladı.

Nikolls da ona baxıb dedi:

– Mən də bayaqdan belə demək istəyirdim. Hə, yeri gəlmişkən, düşüb çay içək?

***

Moreton Marston sanki turistlər üçün kəşf edilib. Burda hər şey boz daşlardan düzəldilmişdi və həddindən çox qədim idi. Burda bağlar çox gözəl idi, evlərin divarlarında balaca güllər sürünür, güllərin yarpaqlarını kiçik səbətlər yuxarıya doğru çəkirdi. Havadan qoyun iyi gəlirdi, yaxınlıqda qoyunları görmək olardı, əsən külək bir az soyuq idi, elə bil demək istəyirdi ki, günəşli olmayan gündən sonra hava necə olur. Mağazalar Milad bayramı hədiyyələriylə dolu idi, marketdə Viktorian dövründəki kimi geyinmiş qadın siniyə yığdığı bulkaları satırdı, onun ətrafı hər şeyin şəklini çəkən turistlərlə dolu idi. Tanzi pəncərədən elə diqqətlə baxırdı ki, hətta Nikinin yanında olmasını da unutmuşdu. Maşın parkındakı boş yer axtaranda Tanzi onun yenə də sakitcə durduğunu gördü. O, telefona baxmırdı, amma Tanzi qəti əmin idi ki, o telefona baxmaq istəyir, onun rəngi ağappaq idi. Tanzi ondan soruşdu ki, bəlkə yenə qabırğaları onu incidir, amma Niki, yox, dedi. Tanzi yenə ondan soruşdu ki, bəlkə bufetdə şalvarına yığdığı almalardan biri şalvarına ilişib qalıb, o da çıxara bilmir.

Telegram: @cinciva

Niki bir az əsəbiləşdi:

– Tanzi, bəsdir, az sual ver.

O bu sözləri deyəndə Tanzi hiss etdi ki, dəqiq nəsə baş verib.

Tanzi anasına baxdı, Cess Nikollsa baxmırdı, Nikolls da parkda münasib yer axtarırdı ki, maşını saxlasın. Norman da başını qaldırıb ona baxdı, sanki demək istədi ki, Nikiyə çoxlu sual verib onu narahat etməsin.

Hər biri maşından düşüb bir az gərnəşdilər, əl qollarını hərəkət etdirdilər. Nikolls dedi ki, hamısı bir yerdə gedib çay içib tort yeyəcəklər, əlavə etdi ki, buna çox pul lazım deyil. O belə deyəndə Cess başını qaldırdı, nəsə demək istədi, amma bircə kəlmə "təşəkkür edirəm" dedi.

Amma deyəsən könülsüz dedi.

***

Onlar "Ye Spotted Sowe Tea Shoppe" adlı bir kafedə oturdular. Tanzi mərc gələrdi ki, burda orta əsrlərdə çay mağazaları olmayıb. O tam əmin idi ki, heç kafedə çay da vermirlər. Heç kimin də buna etiraz etdiyi hiss olunmurdu. Niki ayağa durdu ki, tualetə getsin. Cess və Nikolls piştaxtanın yanında dayanıb seçim edirdilər.

Bu vaxt Tanzi Nikollsun telefonunu çıqqıldatdı, ilk gördüyü Nikinin facebook səhifəsi oldu. O bir neçə dəqiqə gözlədi, çünki Niki onun səhifənə baxan olanda çox hirslənirdi. Tanzi tam arxayın olanda ki, Niki

Telegram: @cinciva

tualetdədir, ekranı böyütdü, orda yazılanları oxuyanda bədənini soyuq tər bürüdü.

Fişerlər Niki onlaynda olduğu müddətdə ona çoxlu mesaj yazıb söymüş, onun səhifəsini kobud hərəkətlər edən adam şəkilləriylə doldurmuşdular. Onlar onu GİMP və FAGBOY adlandırmışdılar. Tanzi bu sözlərin mənasını yaxşı bilməsə də bilirdi ki, o sözlər yaxşı söz deyil, o özünü pis hiss etdi, boylanıb anasını axtardı. Anası əlində sini gəlirdi.

– Tanzi, Nikollsun telefonu ilə ehtiyatlı ol!

Telefon stolun bir tərəfindəydi. Tanzi telefona əlini vurmadı. Düşündü ki, yəqin Niki tualetdə ağlayır.

O, başını qaldıranda anası gözlərini ona dikmişdi:

– Nə baş verib?

– Heç nə...

Anası oturdu, keksi Tanziyə tərəf itələdi. Tanzi aclıq hiss etmirdi.

– Tanzi, nə olub? De görüm nə olub?

Tanzi barmağının ucuyla telefonu anasına tərəf itələdi. Elə qorxa-qorxa itələdi ki, sanki telefon bu dəqiqə onun əlini yandıracaqdı.

Cess qaşqabağını tökdü, sonra əyilib baxdı. Barmağını telefona toxundurdu. Qəflətən az qala diksindi, bir an sonra:

– Aman Tanrım! – dedi.

Nikolls da gəlib onun yanında oturdu. O bu vaxtacan Tanzinin görmədiyi bir yekə dilim tort gətirmişdi.

– Hamı yaxşıdır? – o soruşdu.

Telegram: @cinciva

Hiss olunurdu kefi yuxarıdır.

– Balaca vəhşilər! Biclər! – Cess dedi, onun gözləri yaşla dolmuşdu.

– Nə olub? – Nikolls ağzındakı tortu udub soruşdu:

– Pis şey olub?

Adama elə gəlirdi ki, Cess onun sözlərini eşitmir. O, stulu kənara itələyib tualet olan tərəfə qaçdı.

– Madam, ora kişilərin tualetidi! – Cess tualetin qapısını itələyib açanda arxadan bir qadın onu çağırdı.

– Oxuya bilirəm, sağ olun! – Cess içəri girdi.

– Nə olub? Nə baş verib? – Nikolls ağzındakını udmağa çalışırdı.

O əvvəlcə Cessin getdiyi tərəfə baxdı. Sonra görəndə ki, Tanzi də heç nə demir, telefonuna baxdı, iki dəfə çıqqıldatdı. O telefona baxaraq heç nə demədi, eləcə baxdı. Sonra ekranı böyütdü, hiss olunurdu ki, nəsə oxuyur. Tanzi özünü birtəhər hiss etdi. O hələ tam əmin deyildi ki, Nikolls da onun gördüklərinə baxır.

– Qardaşının başına gələnlərin burdakılarla bir əlaqəsi var?

Tanzi ağlamaq istəyirdi. Fişerlər bugünkü gözəl günü korlamışdılar. Ona elə gəlirdi ki, Fişerlər onların dalınca gəlir, onlar heç vaxt onlardan canlarını qurtara bilməyəcəklər. Tanzi danışa bilmirdi.

– Ey, Tanzi! – Tanzinin gözlərindən bir damla yaş sürüşüb mizin üstünə düşəndə Nikolls bir salfet götürüb ona uzatdı. Tanzi gözlərini sildi, özünü saxlaya bilməyib hönkürməyə başlayanda Nikolls ayağa durdu,

Telegram: @cinciva

qolunu onun boynuna doladı, onu qucaqladı. Ondan limon və kişi iyi gəlirdi.

Atası evdən gedəndən bəri Tanzi bir dəfə də olsun bu iyi his etməmişdi. Bu da onu lap kədərləndirdi.

– Ey, Tanzi, ağlama!

– Üzr istəyirəm.

– Üzr istəmək üçün heç bir səbəb yoxdur. Əgər kimsə bacıma qarşı belə hərəkət etsəydi, mən də ağlayardım... Bu... bu... dəhşətdir!

Nikolls başını buladı, Tanzinin yanağını üfürdü.

– Onlar qardaşına qarşı belə şeyləri tez-tez edirlər?

– Mən bilmirəm. O bu haqda bizə heç nə demir.Tanzi burnunu çəkə-çəkə dedi.

Nikolls gözlədi ki, Tanzi tamam sakitləşsin. Sonra o yenidən stol arxasına keçdi, zefirli şokolad, şokolad tozu və əlavə qaymaq sifariş verdi.

– Bunlar bütün xəstəliklərin dərmanıdır, – deyib onları Tanziyə tərəf itələdi:

– Mənə inan. Mən hər şeyi bilirəm.

Doğrudan da o bilirmiş, dedikləri həqiqət idi.

***

Cess və Niki tualetdən çıxıb gələndə Tanzi artıq şokoladını və keksini yeyib qurtarmışdı. Anası azacıq gülümsəyirdi, elə bil heç nə olmamışdı. Qollarını Nikinin çiyninə qoymuşdu, oğlan isə tamam qəribə görünürdü. O indi Cessdən bir "baş" böyük idi. O stol arxasında

Telegram: @cinciva

oturdu, keksə elə baxdı ki, elə bil ac deyil. Sifəti yenə də əvvəlki kimiydi, nə fikirləşdiyindən baş aşmaq olmurdu. Tanzi hiss etdi ki, Nikolls Nikiyə baxır, ürəyində dedi ki, görəsən Nikolls Nikiyə telefondakılarla bağlı nəsə deyəcək, amma o heç nə demədi. Tanzi düşündü ki, Nikolls Nikinin pərt olmağını istəmədiyi üçün belə etdi. Hər halda, xoşbəxt bir gün qəmli sonluqla başa çatırdı.

Cess ayağa durub kənarda bağlanmış Normanın yanına getdi, bu dəfə Nikolls ikinci kofeni sifariş verdi, elə bil o nə haqdasa dərindən fikirləşirdi. Nəhayət, o başını qaldırıb Nikiyə baxdı, sakitcə dedi:

– Sən haker hücumunun nə olduğunu bilirsən?

Tanzi başa düşdü ki, onların söhbətinə qulaq asmalı deyil, ona görə də kvadrat tənliklərlə başını qatdı.

– Yox, – Niki dedi.

O belə deyəndə Nikolls ona tərəf əyildi, səsinin tonunu aşağı salıb dedi:

– Məncə bunu öyrənmək üçün əla vaxtdır.

***

Cess itin yanından qayıdanda Nikolls və Niki orda yox idi.

– Onlar hardadır? – Tanzidən soruşdu.

– Maşına tərəf getdilər. Həm də Nikolls dedi ki, heç kim onları narahat etməsin, – Tanzi əlindəki karandaş ağzında cavab verdi.

Birdən Cessin gözü Tanzinin cığasına sataşdı.

Telegram: @cinciva

Tanzi izah etməyə başladı:

– Nikolls dedi ki, mənə belə yaraşır. Dedi ki, sənə deyim onlar bitlikdə nəyisə aydınlaşdırırlar. Hə, Facebook-dakı məsələni.

– Nə edir? Necə?

O dedi ki, bu barədə sənə də deyəcək, – Belə deyib 5-ə oxşayan z-ni pozdu, sonra pozanın qırıntılarını üfürdü, davam etdi:

– O dedi ki, sənə deyim onları iyirmi dəqiqə sakit buraxasan, narahat etməyəsən. O sənə bir fincan da kofe və şokolad sifariş verib ki, gözləyəndə içəsən. Söhbətləri qurtaran kimi geri qayıdacaqlar. Dedi ki, şokoladlı tort lap əladır.

Cessin bundan xoşu gəlmədi. Tanzi oturub tənliklərlə məşğul odu, cavabların düz olduğunu görüb sevindi. Cess isə kafenin pəncərəsindən baxırdı, nəsə demək istədi, amma demədi. O, şokoladlı tortu yemədi. Ayağa durub kafedən çıxmağa hazırlaşdılar, Nikollsun stolun üstünə qoyduğu, kimsə qapını açanda külək yerə salmasın deyə Tanzinin üstünü pozanla örtdüyü beş funt da orda qaldı.

Nəhayət, bir qadın onların stolunun ətrafını süpürmək istəyən vaxt qapı açıldı, yüngülcə zəng çalındı, Nikolls və Niki içəri girdilər. Oğlanın əlləri cibindəydi, saçı gözünün üstünə düşmüşdü, özündən razı görkəmi vardı.

Cess ayağa durub gah Nikollsa, gah da Nikiyə baxdı. Yenə də dəqiq bilinirdi ki, o nəsə demək istəyir, amma yenə də heç nə demədi.

Telegram: @cinciva

– Şokoladlı tortun dadına baxdınız? – Nikolls Cessdən soruşdu. Onun sifəti televiktorina aparanların sifətinə oxşayırdı.

– Yox, yemədim.

– Ayıb olsun, – O zarafatla dedi, əlavə etdi: – Tort həqiqətən də yaxşıydı. Amma siz bişirən tort daha yaxşıdır.

Nikolls və Niki yanaşı addımlayıb maşına tərəf getdilər, elə bil tay-tuş idilər. Tanzi kitablarını götürdü, Cessin əlindən tutub onlara arxasıyca getdilər.

Telegram: @cinciva

15

NİKİ

Bir dəfə qəzetdə tüksüz dişi babuin haqqında maraqlı bir məqalə vardı. Onun dərisi gözlədiyiniz kimi başdan-başa qara yox, qarışıq, çəhrayı və qara imiş. Gözlərinin qırağına sanki kosmetik karandaşla layner çəkilibmiş, döşlərinin birinin giləsi çəhrayı, o birisinin giləsi isə qaraymış – insanabənzər Devid Bouvi kimi.

Amma bu babuin anadangəlmə beləymiş. Məlum olur ki, babuinlər fərqləri xoşlamır. Sözün həqiqi mənasında heç bir meymun onunla bir yerdə yaşamaq istəmir. O bütün günü təkcə , yanında heç bir erkək babuin olmadan yem axtarır. O biri babuinlər onun da onlar kimi babuin olduğunu yaxşı bilsələr də fərqli olmağa olan nifrətləri genetik istəkdən daha güclü olur..

Niki həmişə fikirləşirdi ki, dünyada tüksüz babuinin həyatından qəmli heç nə yoxdur.

Niki elə bildi ki, Nikolls ona sosial şəbəkələrin ziyanlı tərəfləri haqqında "məruzə" söyləyib məsləhət verəcək ki, başına gələnləri müəllimlərinə, ya anasına, ya da

Telegram: @cinciva

ən sonda polisə desin. Amma yox, Nikolls ona bunları demədi. O, maşınının qapısını açdı, noutbukunu çıxardı, internetə qoşuldu, sonra üzünü qabaq oturacaqda, sürücü yerinin yanında onunla yanaşı oturan Nikiyə tutdu:

– Hə, indi sən o axmaq haqqında nə bilirsənsə mənə de. Qardaşları, bacıları, ad günü, sevimli heyvanı, ünvanı, nəyi bilirsənsə de.

– Nə?

– Lazımdır ki, onun parolunu öyrənək, yaxın dur, nəsə öyrən.

Nikolls maşını maşın parkında saxlamışdı. Yanlarından adamlar gəlib keçir, aldıqlarını maşınlarına daşıyırdı. Yaxınlıqda bar, yaxud çay evi axtarırdılar. Burda dəmir arabalarda nəsə satmırdılar. Niki mərc gələrdi ki, bura ən yaxşı kəndlərdən biridir. Ağ saçlı bir qadın onların maşını yanında maşınını saxladı, Nikiyə baxıb gülümsədi. Hə, o həqiqətən də gülümsədi. Kim bilir, bəlkə də o iri başını Nikinin çiyninə qoyan Normana baxıb gülümsədi.

– Niki!..

– Bəli, fikrə getmişdim.

Niki beynindəki fikirləri təmizləmək istəyirdi. O, Fişerlər haqqında bildiklərinin hamısını Ed Nikollsa dedi. Onların ünvanı, bacısının və anasının adını birnəfəsə dedi. O, hətta onun ad gününü də bilirdi, çünki üç həftə əvvəl olmuşdu. Atası ad günündə ona velosiped almışdı, bircə həftənin içində onu əzmişdi

Telegram: @cinciva

Nikolls klaviaturada tap-tap nəsə yazırdı.

– Yox... Yox... Davam et... Başqa nəsə də olmalıdır. Bilmirsən o hansı musiqini xoşlayır? O hansı komandanı müdafiə edir? Aha, bax onun hotmail adresi var. Əla!

Niki bildiklərinin hamısını dedi. Heç nə yaramadı. Birdən onun yadına bir şey düşdü: Tulisa... Hə... Müğənni...

Nikolls yenə də nəsə yazdı, başını buladı.

– Tulisa Arse yazın görün, nə olar.

Nikolls yazdı.

– Yox, – dedi.

– İShaggedTulisa. Bir sözdür.

– Yox.

– Onda Tulisa Fişer yazın.

– Hm. Hm. Yox.

Onlar oturub fikirləşməyə başladılar.

– Bəlkə onun öz adını yazasan, – Niki təklif etdi.

Nikolls başını buladı:

– Hansı axmaq öz adından parol kimi istifadə edər?

Niki ona baxdı. Nikolls bir neçə hərf yazdı. Sonra ekrana baxdı.

– Əla! Sən dahisən.

– Bəs indi nə etmək fikrin var?

– Hə, biz indi Ceyson Fişerin facebook səhifəsində kiçik bir "oyun" oynayacağıq. Faktiki olaraq bunu mən etməyəcəm. Çünki indi öz səhifəmdə risk edə bilmərəm. Amma bunu edə bilən tanışım var.

O kiminsə nömrəsini yığdı.

Telegram: @cinciva

– Bəs o bunu mənim etdiyimi bilməyəcək?

– Necə biləcək? Axı sənin səhifəndən edilməyəcək. Heç onun ağlına da gəlməyəcək.

O tanışıyla danışırdı:

– Alo, Cez. Alo. Mənəm, Eddir. Bəli. Mənəm. İstəyirəm mənə bir işdə kömək olasan. Beşcə dəqiqə vaxtını alacaq.

Nikolls Cezə Ceyson Fişerin parolunu deyəndə Niki də qulaq asırdı. Nikolls Cezə dedi ki, Fişer adlı birisi onun dostuna nəsə çətinlik yaradıb (Belə deyəndə o yanında oturmuş Nikiyə göz vurdu). Gəl, onun səhifəsinə girib bir az onunla məzələn. Ona gələn mesajları oxu. Şəkil yerləşdir. Bunu özüm də edərdim, amma mən indi "radar altındayam", əllərimi gərək tərtəmiz saxlayam. Bəli, bəli, səni görəndə hər şeyi izah edəcəm.

Nikinin ağlına da gəlməzdi ki, bunu etmək belə asandır.

– Bəs o təzədən mənə qarşı hücuma keçməyəcək?

Nikolls telefonu cibinə qoydu:

– Hə, burda haşiyə çıxıram. Bir oğlan ki, parol üçün öz adından uzağa gedə bilmir, onun kompüter bacarıqlarının olmasına inanmıram.

Onlar maşında oturub gözlədilər, dalbadal Ceyson Fişerin facebook səhifəsinə girdilər. Birdən möcüzə kimi hər şey dəyişdi. Aman Tanrım, Fişer lap debil imiş ki.... O səhifəsinin divarında məktəbdən tanıdığı bütün qızları necə "s....k" istəyini yazmışdı. Onun divarı söyüşlər məskəniydi. Yazdığı mesajlarının çoxu eyniydi. Niki öz

Telegram: @cinciva

adı olan bir mesajı gördü, Nikolls o mesajı tələsik oxuyub Nikiyə dedi: "Bunu oxumağa ehtiyac yoxdur". Yalnız Çrissi Teylor adlı bir qıza yazdığı mesajlar fərqli idi. Qıza yazırdı ki, o həqiqətən də onu xoşlayır, yazırdı ki, qız onların evinə gəlmək istəyirmi. Hiss olunurdu ki, qızın ona çox da meyli yoxdur, amma Fişer ona mesaj yazmaqda davam edirdi. Yazmışdı ki, atasının maşınını götürüb (o heç vaxt belə edə bilməzdi) onu şəhər ətrafında gəzməyə aparar. Qıza yazırdı ki, o, məktəbdə ən qəşəng qızdır, deyirdi ki, əgər məktəbdəki oğlanlar bu məsələdən xəbər tutsa ona müqəddəs kimi baxarlar.

– Hə, kim deyir ki, indi romantika ölüb? – Nikolls dodaqaltı mızıldandı.

– Aha... başlandı. Cez, Fişerin iki dostuna mesaj yazdı ki, onlar zorakılığı xoşlamadığı üçün bir daha onlarla dostluq etmək istəmir. Cez, Çrissi adlı o qıza mesaj yazdı ki, o hələ də onu ən qəşəng qız hesab edir, amma ona hansısa keçici xəstəlik yoluxub, həkimlər bir müddət ona dərman qəbul etmək lazım olduğunu deyiblər.

– Əla! – Niki o qədər güldü ki, qabırğaları ağrıdı.

"Ceyson" Steysi adlı başqa qıza yazdı ki, o həqiqətən də onu xoşlayır. Yazdı ki, anası ona qəşəng paltarlar alıb ki, o gəzməyə çıxmağa razı olarsa, oğlu geysin. Eyni sözləri bir vaxt "üfunətli" yazdığı Ancela adlı qıza da yazdı. Eləcə də Cez Denni Keyndən gələn təzə mesajı sildi. O yazmışdı ki, onda böyük futbol yarışına bilet var, əgər istəsə birini götürə bilər.

Cez isə ona cavab yazdı ki, fikirləşmək üçün ona bir neçə gün vaxt versin (halbuki yarış həmin gün idi). Cez,

Telegram: @cinciva

Ceyson Fişerin profil şəklini götürüb onun yerinə anqıran eşşək şəkli qoydu. Sonra Nikolls bir müddət ekrana baxdı, mobil telefonu götürüb Cezə zəng etdi ki, hələlik bu qədər bəsdir.

– Niyə? – o danışığını qurtaran kimi Niki soruşdu, dedi ki, anqıran eşşək şəkli lap əlaydı.

– Biz onun şəxsi mesajlarını oxuyub, onun əvəzindən mesaj yazmışıq. O həmin dostlarla bir də əlaqə yarada bilməyəcək. Biz o məktubları göndərib, sonra delete edirik ki, onun bundan xəbəri olmasın. Onun dostları, o qızlar da onu idiot hesab edəcəklər. O özü isə bunun səbəbini heç vaxt bilməyəcək. Əsas məsələ budur.

Niki gözlərinə inana bilmirdi. İnana bilmirdi ki, kimsə Fişerin facebook səhifəsinin altını üstünə çevirə bilər.

Cez zəng edib dedi ki, o artıq Fişerin səhifəsindən çıxıb, onlar da facebook-u bağladılar.

Nikolls dedi:

– Bu gün üçün bəsdir. Özünü yaxşı hiss edirsən indi, düzdür? Cez sənin səhifəni təmizləyir, o elə edəcək ki, Fişer ora heç nə qoya bilməsin.

Niki dərindən nəfəs aldı, qəribə formada titrədi. O indi özünü yaxşı hiss edirdi. Düzdür, hər şey hələ həll olunmasa da ilk zərbə pis deyildi.

Onun titrətməsi hələ də dayanmamışdı. Normal nəfəs alana qədər bir neçə dəfə dərindən nəfəs aldı.

– Sən bunları niyə edirsən? Bizi Şotlandiyaya aparırsan, onun səhifəsinin altını üstünə çevirirsən, məncə, sən heç bizi tanımırsan da.

Telegram: @cinciva

Nikolls pəncərədən maşın parkına baxırdı. Bir anlıq ona elə gəldi ki, o, Niki ilə danışmır.

O, Nikiyə belə dedi:

– Mən hardasa sənin anana borcluyam. İstəmirəm ki, insanlar bir-biriylə düşmən kimi rəftar etsinlər.

Nikolls bir neçə dəqiqə sakitcə dayandı, Niki fikirləşdi ki, birdən o elə bilər onu özü haqqında bütün məlumatları danışmağa məcbur edir. Məktəbdə psixoloq "hər şey öz aramızda qalsın" deyib şagirddən çox şey öyrənir.

– Mən sənə bir söz deyəcəm.

Hə, bax o indi hər şeyi danışacaq. Niki çiyinlərini sildi, çünki Normanın ağzının suyu tökülmüşdü ora.

– Məktəbdə öz adamını tapmaq çətindir. Sənin öz adamını tapmağa ehtiyacın var.

– Öz adamımı tapmaq?

– Hə, öz "tayfanı"...

Niki sifətini turşutdu.

– Həmişə düşünürsən ki, bu həyatda heç nəyə yaramırsan. Özünü yararsız hesab edirsən. Bir gün bir ofisdə, ya məktəbdə, universitetdə öz adamınla üzbəüz gəlib deyirsən, hə, bax bu əsl mən istədiyim adamdır.

– Mən heç vaxt istədiyimi tapmıram.

– İndi tapmırsan, sonra ola bilər...

Niki soruşdu:

– Hə, sənin "adamın" hardaydı?

– Öz "adamımı" universitetdə kompüter orağında tapdım. Adamayovuşmaz idim. Əsl dostum Ronanla kompüter otağında rastlaşdım. Sonra isə... öz şirkətimiz.

Telegram: @cinciva

O bunları deyib qurtarandan sonra üzündə ciddi ifadə vardı.

– Mən axı məktəbi qurtarana qədər məktəbə yapışıb qalmalıyam. Yaşadığımız yerdə bir nəfər də olsun öz adamım yoxdur, – Niki saçını gözünün üstünə dartdı.

– Onlayda da öz adamını tap.

– Necə?

– Mən bilmirəm. Onlayn qruplara bax, maraqlandığın sahələrə nəzər sal. Öz həyat stilinə bax.

– Yoxsa məni də homoseksual hesab edirsən?

– Yox. İnternet böyük meydandır. Orda həmişə elə adam olur ki, onunla fikrin üst-üstə düşür. Kiminsə həyatı sənin həyatın kimidir.

– Yox, heç kimin həyatı mənimkinə bənzəmir.

Nikolls noutbukunu örtdü, yerinə qoydu. Hər şeyi yerbəyer edib kafeyə tərəf baxdı.

– Gərək geri qayıdaq. İndi Cess fikirləşir ki, görəsən biz burda nə edirik.

O belə deyib maşının qapısını açdı. Sonra geri döndü:

– Bilirsən nə var? Sən həmişə bloq yaz.

– Sənin öz adın altında olmasa da olar. Öz bloqunu yarat. Sənin kimi adamlar girib ora öz sözlərini yazarlar. Sənin kimi adamlar...

– Hə, maska altında olan adamlar. Nə musiqini, nə də teatrı xoşlamayan adamlar.

– Hə, sənin kimi riyaziyyatı bilən bacısı olanlar, sənin kimi nəhəng iti olanlar. Mərc gələrəm ki, eynilə sənin kimi kimsə var.

Nikolls bir neçə dəqiqə düşünüb dedi:

Telegram: @cinciva

– Ola bilər. Güman ki, ya Hokstonda, ya da Tupeloda.

– Bilirsən ki, mən tüksüz babuin deyiləm.

– Nə?

– Heç nə.

Niki yenə də saçını gözlərinin üstünə dartdı, üzündəki zədə yerlərini gizlətmək istəyirdi. Onun üzü indi sarımtıl idi, adama elə gəlirdi sarılıq xəstəliyi keçirib.

– Təşəkkürlər. Amma bloqlar mənlik deyil. Bloqlar orta yaşlı qadınlar üçündür ki, boşanmaları haqda yazsınlar. Ya da dırnaq laklarını müzakirə etsinlər.

– Sadəcə bu materialları ora yerləşdirirlər.

– Sən heç belə şey yazırsan?

– Yox.

Nikolls maşından düşə-düşə dedi:

– Heç mən bu haqda heç kimə demirəm də...

Niki də onun dalınca maşından düşdü. Nikolls breloku götürdü, qapı avtomatik bağlandı.

Sonra o, səsinin tonunu yavaşıtdı:

– Biz bu haqda söhbət etmədik, ok? Kimsə bilsə ki, mən məsum uşaqlara hakerlik öyrədirəm, bu yaxşı olmaz.

– Cess heç nə deməz.

– Mən təkcə Cessi nəzərdə tutmuram.

Niki ona baxdı:

– Geek klubunun[1] birinci qaydası: Burda Geek klub yoxdur. Ok.

– Yola düşməzdən qabaq sən indi bu iy verən itini gəzməyə aparırsan?

[1] Hərfi mənada həvəskarlar klubu

Telegram: @cinciva

16

TANZİ

Demək olar ki, heç biri qayıdıb maşına minmək istəmirdi. Bir müddət açıq havada vaxt keçirəndən sonra hətta Nikollsun maşını kimi gözəl bir maşında da yol getmək onları bezdirmişdi. Cess sanki uşaqlara iynə vurmağa hazırlaşırmış kimi elan etdi ki, yol uzundur, tualetə getməyiblərsə getsinlər, çünki Nikolls Newcastle-yə qədər dayanmadan sürməyi planlaşdırıb, bəlkə həmin yerdə itlərin qalmağı üçün bir yer olar. Oraya təxminən axşam saat 10-da çata bilərlər. Nikolls onu da hesablayıb ki, ondan sonra bir gün də yol qət etsələr Aberdinə çatıb universitetə yaxın bir yerdə qalarlar, növbəti gün isə Tanzi rahatlıqla gedib yarışda iştirak edə bilər. Nikolls Tanziyə ümidlə baxdı:

– Əgər maşınıma, mənə öyrəşmisənsə yenidən sizi geri qaytara bilərəm.

Tanzi başını yırğaladı.

– Yox? – Nikollsun sifətinin ifadəsi bir az dəyişdi.

Telegram: @cinciva

Birdən Nikollsun gözü arxa oturacağa yapışmış şokolad ləkəsinə sataşdı. Şokoladın kremi əriyib oturacaqda ləkə kimi qalmışdı. Tanzi o ləkəni bacardığı qədər təmizləməyə çalışsa da qəhvəyi ləkə aydınca görünürdü.

Ayaqaltı palçıqla, yaxınlıqdakı meşədə gəzərkən ayaqqabılarının altına yapışmış yarpaqlarla doluydu. Normanın ağzının suyu ilbizin yapışqanlı ifrazatı kimi oturacağa yayılmışdı. Evdə olanda Tanzi itin ağzının suyunu əskiylə silirdi, maşında bunu etməyə çalışdı, amma ürəyi bulandı. Nikolls gördü ki, Tanzi ona baxır, sadəcə gülümsəməyə cəhd etdi, elə bil demək istədi ki, "eybi yoxdur, heç nə olmaz".

– Ok. Yolumuza davam edək, – o, maşını işə saldı.

Təxminən bir saat hamı sakitcə oturdu, Nikolls Radio 4-də texnologiya haqqında nəyəsə qulaq asır, Cess götürdüyü kitablardan birini oxuyurdu. Kitabxana bağlı olduğundan yaxınlıqdakı kitab mağazasından ucuz qiymətə iki yumşaq cildli kitab almışdı, amma vaxt tapıb birini oxuya bilmirdi. O, pivəxanaya əlavə növbəyə gedəndə səhərlər Tanzi onu ağzıaçıq halda divanda uzanmış, kitabın da balışının yanına düşdüyünü görürdü. Anası hətta sadə tənlikləri də başa düşmürdü, evləri üz qabığı cırılmış dərs kitablarıyla doluydu, anası həmişə söz verirdi ki, onları oxuyacaq.

Günorta bir az yağış yağdı. Onlar yaşıl tarlaları, kəndləri bir-bir arxada qoyur, narahat halda yerlərində qurcuxur, arxadan qırış-qırış olmuş jaketlərini çiyinlərinə atırdılar. Kəndlərin hamısı Koventridə olduğu kimi

Telegram: @cinciva

gözəl idi. Tanzi pəncərədən çölə baxsa da beynində riyaziyyat məsələlərini düşünürdü, amma fikrini bir yerə cəmləyə bilmirdi, çünki Niki telefonun ekranını çıqqıldadır, bu da Tanzini çaşdırırdı. Saat altı olanda Niki yerində ora-bura tərpəndi, elə bil narahat olduğunu bildirmək istəyirdi.

– Biz nə vaxt dayanacağıq? – o soruşdu.

Cess başını yırğaladı, özünü dikəltdi, saata baxdı.

– Saat yeddiyə on dəqiqə işləyib, – Nikolls dedi.

– Biz yemək üçün dayanacağıq? – Tanzi soruşdu.

– Mən bir az düşüb gəzmək istəyirəm. Qabırğalarım incidir yenə, – Niki dedi.

Nikinin ayaqları çox uzun idi, hətta belə rahat maşında da rahat otura bilmirdi. Onun dizləri Nikollsun oturacağının arxasında qatlanmışdı, yanında şöngüyüb çəhrayı dilini yalayan Norman onu qapıya tərəf basıb sıxırdı.

– Gəlin şam etmək üçün bir yer tapaq. Leicesterdə dayanıb karri yeyərik, – Nikolls dedi.

– Buterbrodlarımızdan hələ var, onları da yeyə bilərik, – Cess dedi.

Buterbrod adı eşidəndə Niki zarıyırmış kimi səs çıxardı.

– Bu uşaqlar buterbroddan başqa heç nə yemirlər? – Nikolls soruşdu.

– Əlbəttə, yeyirlər, amma buterbrodlar etibarlıdır. Bizim oturub karri yeməyə o qədər də vaxtımız yoxdur.

– Mən karrini xoşlayıram, – Niki qaşqabaqlı dedi.

Telegram: @cinciva

– Yaxşı, Aberdində yeyərik, – Cess dedi.

– Hə, əgər mən qalib olsam, – Tanzi dilləndi.

– Sən qalib olacaqsan, balaca! Mən isə bir də o köhnə pendirli buterbrodu yesəm yerimdə qıvrıla-qıvrıla qalacam, – Niki sakitcə dedi.

Nikolls balaca bir şəhərin içiylə sürürdü, sonra başqa bir şəhərdən keçdilər, bir pərakəndə halda park gördülər. Artıq hava qaralırdı. Şənbə günü olduğundan yollar maşınla doluydu, içində futbol azarkeşləri olan maşınlar isə onların heç birinin haqqında eşitmədikləri futbol yarışındakı qələbəni qeyd edir, dalbadal siqnallar verirdilər. Onlar burunlarını maşının şüşəsinə dirəyib yollara baxırdılar. "Audi" maşınların arasından keçib irəli getdi, şüşəsilən yağış damcılarını ora-bura itələyib elə bil şüşədə tatu döyürdü.

Nəhayət, maşın bir supermarketin qarşısında dayandı, Cess dərindən ah çəkib yerə düşdü və mağazaya tərəf qaçdı. Onlar onu yağışın qamçıladığı pəncərədən aydınca görürdülər. O, mağazaya girdi, nəyisə gah götürür, gah da yerinə qoyurdu.

– Bilmirəm o niyə hazır buterbrodlardan almır? İki dəqiqəyə geri qayıda bilərdi, – qol saatına baxan Nikolls deyindi.

– Onlar çox bahadır, – Niki dedi.

– Həm də bilmirsən onlara kimin barmaqları dəyib, eləmi? – Nikolls dedi.

– Keçən il Cess supermarket üçün üç ay buterbrod düzəltdi. O deyirdi ki, onunla bir yerdə işləyən qadın

Telegram: @cinciva

buterbrodları hazırlayanda barmağını burnuna soxub sonra əlini çörəyə uzadırmış. Heç biri də əlcək taxmırmış.

Nikolls bir müddət sakit dayandı.

Bir neçə dəqiqə də keçəndən sonra axır ki, Cess göründü. O, əlindəki bazarlıq torbasını yağışdan qorunmaq üçün başı üstünə qaldırıb səkiylə qaça-qaça gəlirdi.

– Yüz faiz əminəm donuz ətiylə buterbrod alıb. Hə, bir də alma. O həmişə alma alır, – Niki dedi.

– Hə, – Tanzi dedi.

– Həm də qara çörək.

– Mənsə gedib pendirli buterbrod alım, – Nikolls dedi.

– Siz "Dairylea" pendiri alın. O yaxşı markadır, – Niki dedi.

– Yox. "Valley" pendiri.

– Ya da "Cheddar".

– Yox, bundan iyrənirəm, – Nikolls dedi.

– Ya da inək pendiri.

– Davam edin, yəqin ki, inək pendiri pis olmaz, – Nikolls dedi.

Tanzi və Niki gülməyə başladılar.

Cess maşının qapısını açdı, əlindəki torbanı qaldırıb dedi:

– Orda tunes pastası vardı. Hə, kim buterbrod istəyir?

Nikolls şəhərə tərəf sürəndə Cess ona dedi:

– Siz heç vaxt bizim buterbrodlarımızdan yemirsiniz.

Açıq yola sürən Nikolls dedi:

Telegram: @cinciva

– Mən buterbrod xoşlamıram, çünki məktəbi yadıma salır.

– Bəs nə yeyirsiniz? – Cess hansısa paketin ağzını açdı, heç bir saniyə keçmədi ki, maşının içini balıq iyi bürüdü. Tanzi fikirləşdi ki, Nikolls çox nəzakətlidir.

– Londonda? Səhər yeməyi üçün qızardılmış çörək, lanç üçün suşi, ya vermişel. Bir yer var, mən həmişə sifariş verib evə hazır yemək gətizdirirəm.

– Hər gün?

– Əgər həmin gün evdən çölə çıxmasam.

– Gündə neçə dəfə çölə çıxırsınız?

– Hazırda? Heç vaxt.

Cess ona sərt-sərt baxdı.

– Aha, zarafat edirəm, sizin pivəxanada sərxoş olanadək bayırda qalıram.

– Doğrudanmı siz hər gün eyni yemək yeyirsiniz? Siz müxtəlif yeməklər də sifariş edə bilərsiniz, – Nikolls soruşdu.

– Bunun pulunu ödəmək üçün gərək xəzinəm ola. Bəs siz Biçfrontda olanda nə yeyirsiniz?

– Mən hazır yemək götürürəm.

– Rac restoranından?

– Bəli. Siz oranı tanıyırsınız?

– Hə, tanıyıram.

Maşına sakitlik çökdü.

Birdən Nikolls soruşdu:

– Nə? Siz ora getmirsiniz? Niyə? Bahadır? Deyirsiniz ki, "Ceket" kartofu bişirmək asandır? Yox, mən onları

Telegram: @cinciva

xoşlamıram. Buterbrod da xoşlamıram. Yemək bişirməyi də xoşlamıram.

Ola bilsin ki, Nikolls çox ac idi, nədənsə qəflətən deyinməyə başlamışdı.

Tanzi iki oturacağın arasına tərəf əyilib dedi:

– Nathalie bir dəfə toyuq Jalfrezi-sinin içində tük tapmışdı.

Nikolls ağzını açdı ki, nəsə desin, Tanzi əlavə etdi:

– Hə, o tük başqasının başından düşməmişdi ora.

Düz iyirmi üç işıq dirəyi arxada qalmışdı.

– Hə, belə şeylərə görə narahat olmağa dəyər, – Nikolls dedi.

***

Nuneatonu keçəndən sonra Tanzi buterbrodlardan kəsib Normana yedizdirməyə başladı, çünki tunes pastasından heç də tunes dadı gəlmirdi, çörək də elə quruydu ki, qıraqları onun ağzının kənarlarına iynə kimi batırdı. Nikolls benzindoldurma stansiyasında saxladı.

Balaca budkaya nəzər salan Cess dedi:

– Burda satılan buterbrodlar dəhşət olar, kim bilir həftələrlə orda qalıb.

– Mən buterbrod almıram, – Nikolls dedi.

– Görəsən ətli piroq olar burda? Mən ətli piroqu xoşlayıram, – pəncərədən boylanan Niki soruşdu, səsi qəribəydi, elə bil illərdir ki, ətli piroqun həsrətini çəkir.

Telegram: @cinciva

– Onlar daha betər olar. Allah bilir, it ətindən hazırlayırlar.

Tanzi cəld əlini Normanın qulaqları üstündə tutdu.

Cess Nikiyə baxıb ah çəkdi.

Sonra o pul kisəsində nəsə axtararaq Nikollsdan soruşdu:

– Gəlirsiniz? Bu pulla şokolad ala bilərsiniz?

– Xırtıldayan olsun, – Niki sevincək dedi.

– Nanəli olsun. Böyüyünü mən götürə bilərəm? – Tanzi dedi.

Cess pulu əlində saxlamışdı. Nikolls isə sağ tərəfə baxırdı.

– Olar ki, siz gedib özünüz alasınız, mən yolu keçib qayıdıram, – Nikolls dedi.

– Hara gedirsiniz? – Cess soruşdu. Nikolls qarnını sığallayıb "oraya" dedi. Həmin anlarda o çox şən görünürdü.

***

Üstünə "Keith Kebabs" yazılmış kafedə döşəməyə bərkidilmiş altı plastik stul , pəncərəsinin qabağında iri çənlər vardı. Kafenin adındakı birinci "b " hərfi yox idi. Şüşənin altında görünən pirojnalar elə bil on illərlə ordaymış. Tanzi maşının pəncərəsindən boylanırdı. Nikolls kafenin zolaqlı işıqlandırılmış interyerinə girdi. O, piştaxtanın arxasındakı divara baxdı, şüşə altındakı podnosları göstərən kişiyə nəsə dedi, sonra isə

Telegram: @cinciva

manqaldakı qəhvəyi rəngli ətə işarə etdi. Tanzi fikirləşdi ki, görəsən hansı heyvanın əti ola bilər, ağlına yalnız camış gəldi. Ola bilsin ki, şikəst camış...

– Ay aman, nə yaxşıdır. Biz də onda ala bilmərik? – kişi əti kəsməyə başlayanda Niki dedi. Elə bil o nə vaxtdır ki, belə bir şeyin həsrətini çəkirmiş.

– Yox, – Cess dedi.

– Bilmirsən onun qiyməti neçəyə olar?

– Baha olar.

– Mərc gələrəm ki, əgər xahiş etsək Nikolls bizə də alar.

Cess bomba kimi partladı:

– Nikolls bizə həddindən çox kömək edib. Biz təzədən ondan nəyisə xahiş edə bilmərik. Ok?

Niki baxışlarını Tanziyə döndərib. "əla şeydir", – dedi.

Sonra heç birisi heç nə demədi.

Bir dəqiqədən sonra Cess dedi:

– Bağışlayın, istəmirəm ki, o bizim ondan çox şey istəməyimizi fikirləşsin.

– Bəs əgər o özü təklif etsə də belə fikirləşər? – Tanzi soruşdu.

Həqiqətən də o plastik qablardakı ərzağı yeməkdən cana doymuşdu. Ürəyində deyirdi ki, əgər onlar xahiş etsələr Nikolls onlara da alar.

– Acmısınızsa alma yeyin, ya da səhər yeməyi üçün olan yağlı çörək yeyin. Əminəm ki, az qalıb çatmağımıza, – Cess belə deyib plastik torbanı eşələməyə başladı. Niki yavaş-yavaş başını qaldırdı, Tanzi ah çəkdi.

Telegram: @cinciva

Nikolls maşının qapısını açdı, içəri isti, yağlı ət iyi doldu. Oturanda o azca qımışdı. Onun əlindəki çörəyin arasında şişin üstündəki ətdən vardı, yanlardan da göyərti sallanırdı, lap Kitçenerin bığları kimi. Dərhal Normanın ağzından su sallandı.

– Əminsiniz ki, bundan yemək istəmirsiniz? – o şən halda üzünü Nikiyə və Tanziyə tutub soruşdu, sonra dedi: – Sadəcə mən bunun üstünə soyuq sous da tökmüşəm.

– Yox, çox sağ olun. Minnətdarıq, – Cess ciddi dedi və Nikiyə xəbərdarlıq edirmiş kimi baxdı.

– Sağ olun, təşəkkürlər, – Tanzi də sakitcə dedi.

Çox gözəl iyi vardı.

– Yox, sağ olun, – Niki deyib üzünü yana döndərdi.

– Uşaqlar, buterbrod yeyirsiniz? – Cess uşaqlara baxıb soruşdu.

***

Nuneaton, Market Bosworth, Coabville. Ashby de la Zouch – işarələr bir-bir arxada qalırdı. Zanzibar və Tanzaniya haqqında Tanzi bolluca danışdı. Tanzi tez-tez "Ashby de Zouch, Ashby de Zouch" deyib təkrar edirdi. Fikirləşdi ki, adının belə olması əla olardı: "Ey, adınız nədir? Mən Ashby de la Zouch-am. Ey, Asbby!"

Kostanza Tomas quru addır. Düzdür, beş hecası var, amma ritmik deyil. Fikirləşdi ki, Konstanza de la Zouch, burda altı heca olurdu. Sonra Ashby Thomas, nisbətən bir az yumşaq səslənirdi.

Telegram: @cinciva

Kostanza de la Zouch.

Maşın yavaş-yavaş gedirdi, deyəsən heç bir səbəb olmadan yenə də tıxac yaranmışdı, onlar başqa yolla getmək istəyəndə Nikolls səhv döndü. Hiss olunurdu ki, fikri dağınıqdır.

Kostanza de la Zouch...

Onlar açıq yolda olduğu müddətdə düz 389 işıq dirəklərini arxada qoymuşdular ki, Nikolls maşını saxlamaq istədiyini dedi. Bir qayda olaraq onlardan hansısa biri maşını saxladırdı. Tanzi tez-tez susayırdı, çoxlu su içirdi, sonra isə işəməyə getmək istəyirdi. Norman hər iyirmi dəqiqədən bir zingildəyirdi, amma bilmək olmurdu ki, o da onlar kimi yorulub, yerə düşüb ətrafı imsiləmək, yoxsa həqiqətən də işəmək istəyir. Cess yenidən kitab oxuyurdu, içəridə işıq yandığından oxumaq mümkün idi. Nikolls tez-tez yerində qurcuxur, narahat olduğu hiss olunurdu.

– Xəritəyə baxın... Xəritəyə... Görün bu yaxınlarda restoran, ya kafe var? – o zəif səslə dedi.

– Siz hələ də acsınız? – Cess başını qaldırıb soruşdu.

– Yox. Yox... Tualetə getmək istəyirəm.

Cess təzədən kitab oxumağa başladı:

– Bizə fikir verməyin. Maşını saxlayıb ağacların altına gedin.

– Yox... Yüngülvarı iş deyil, – o mızıldandı.

Cess xəritəni götürüb baxdı:

– Əgər buna inansaq ən yaxın şəhər Keqvortdur. İnanıram ki, orda restoran, ya kafe olar. Ya da şose yoluna çıxsaq orda yol qırağında pullu tualet xidmətləri olur.

Telegram: @cinciva

– Hansı yaxın olar?

Cess barmağını xəritənin üstündə ora-bura aparıb dedi:

– Demək çətindir, Keqvort yaxındır?

– Uzaqdır? Nə qədər var ora?

– On dəqiqə? Bilmirəm. – Cess dedi.

– Ok, – Nikolls başını yırğaladı, sanki "ok"-i özünə deyirdi. Bir neçə dəfə "ok. dözmək olar" deyib təkrar etdi.

Niki yenə də qulaqcıqlarını taxıb musiqiyə qulaq asırdı. Tanzi Normanın iri, yumşaq qulaqlarını sığallayır, string nəzəriyyəsini fikirləşirdi. Elə bu vaxt Nikolls maşını kobud şəkildə yol qırağına sürdü, demək olar ki, hamısı yerində atılıb-düşdü, Norman az qala başı üstəydi. Nikolls cəld maşının qapısını açıb maşının arxasına qaçdı. Cess arxaya dönüb gördü ki, Nikolls bir əlini dizinin üstünə qoyub çömbəlib, sonra isə ayağa qalxmaq istədi. Pəncərələr bağlı olsa da onun səsini eşitmək olurdu.

Hamısı arxaya döndü, Cess cəld maşından düşdü.

– Cess, bir bax, gör onun qusduğu nədir? Bilmək olmur nədir, – Niki dedi.

– Oh, Aman Tanrım, – Cess həyəcanlandı.

– İyrəncdir, – Tanzi arxa pəncərədən boylanıb baxdı.

– Niki. əskilər hardadır?

Cess ona kömək etməyə getdi. O hələ də çömbəlmiş vəziyyətdə idi, görünür onun qarnı bərk ağrayırdı. Nikinin və Tanzinin pəncərədən boylandığını görüb əliylə

Telegram: @cinciva

işarə etdi ki, baxmasınlar. Halbuki o da elə onlar kimi baxırdı.

Tanzi Nikiyə baxıb soruşdu:

– Hə, hələ də kabab istəyirsən? – Tanzi Nikidən soruşdu.

– Zalımsan sən, gör mənə nə arzulayırsan?

***

Nikolls yavaş addımlarla maşına tərəf gəlirdi, elə bil yeriməyi lap indicə öyrənmişdi. Onun rəngi solmuş, sapsarıydı. Dərisinin üstü xırda tər damcılarıyla doluydu.

– Siz çox dəhşətli görünürsünüz, – Tanzi ona dedi.

Axır ki, o özünü oturacaqda rahatladı, pıçıltıyla dedi:

– Yaxşı olacaq... Hər şey yaxşı olacaq.

Cess arxaya dönüb, "Plastik torbanı verin" dedi.

Tanzi özününkünü verdi. Cess öz pəncərəsini açdı, gülümsəyib dedi:

– Ehtiyat üçün götürək.

Nikolls həqiqətən də bir neçə mil çox yavaşca sürdü. O qədər yavaş sürürdü ki, hətta arxadan gələn maşınlar siqnal verirdilər, maşınlardan biri sürətlə keçib onları arxada qoydu, sürücünün acıqlı olduğunu görmək olardı. Nikolls hərdən ağ xəttin üstünə çıxırdı, elə bil fikrini cəmləşdirə bilmirdi, Tanzi anasının məsləhətinə əməl edib heç nə soruşmurdu.

– Görəsən nə qədər qalıb? – Nikolls zəif səslə soruşdu.

Telegram: @cinciva

– Çox qalmayıb, – Cess dedi, halbuki heç o özü də bilmirdi ki, ən yaxın şəhərə nə qədər qalıb. Nikolls sanki uşaq idi, Cess onun qollarını sığallayır, deyirdi:

– Siz indi çox yaxşısınız. Yaxşı.

Nikolls Cessə baxdı, gözlərindən çox narahat olduğu hiss olunurdu.

– Davam edin... Davam edin... – Cess deyirdi, elə il təlim keçirdi.

Yarım mil də irəli gedəndən sonra Nikolls "Oh, Tanrım", – dedi və tormozu basdı, pıçıltıyla: "Mən... Mən... ehtiyac..." – dedi.

Birdən Cess irəlidə nəsə görüb "Bar! Kafe!" deyib barmağını kəndin qırağındakı bara tərəf uzatdı.

– Ora bax... orda düşərsiniz.

Nikolls ayağını pedala möhkəm basdı, maşın elə sürətlə getdi ki, Tanzinin qolları havada oynadı, maşın sanki sürüşərək maşın parkına girdi. O, cəld qapını itələyib açdı, bayıra tullandı.

Onlar da maşında oturub gözləməyə başladılar. Maşında elə sakitlik idi ki, mühərrikin səsini eşitmək olurdu. Beş dəqiqədən sonra Cess qapını möhkəm örtdü ki, içəri soyuq dolmasın.

– Hə, kabab necədir?

– Kababın iyi əla idi, – Niki musiqiyə qulaq asa-asa, gözləri yumulu dedi.

Maşın parkına bir maşın girdi, sürücünün yanında saçını yuxarıdan at quyruğu stilində bağlamış bir qadın da vardı. Onlar Cessgilin maşınına tərs-tərs

Telegram: @cinciva

baxdılar. Cess onun üzünə gülümsədi, amma o Cessə gülümsəmədi.

On dəqiqə də gəlib keçdi.

– Olar ki, mən gedib onu gətirim? – Niki qulaqcıqlarını çıxartdı, saata baxıb dedi.

– Yaxşı olar ki, yox, – Cess dedi.

O yenə də ayağını tappıldadırdı

Yenə də on dəqiqə keçdi. Tanzi maşından düşüb Normanı ətrafda gəzdirirdi, Cess də düşüb maşının arxasına belini dirəyib qəribə hərəkətlər edirdi, deyirdi ki, çoxlu oturmaqdan az qala beli əyilib. Elə bu vaxt Nikolls göründü.

Onun sifəti Tanzinin bu o vaxta qədər gördüyü bütün adamların sifətindən daha ağ idi. Sanki onun üzünü ucuz pozanla pozmuşdular.

– Məncə biz burda bir az dayansaq yaxşı olar, – o dedi.

– Barda?

– Yox, burda yox, – Nikolls arxaya baxıb dedi:

– Yox, barda yox. Bəlkə bir neçə mil də gedək sonra dayanaq?

– İstəyirsinizsə mən sürüm maşını, – Cess dedi.

– Yox! – hamısı bir ağızdan dedi, Cess gülümsədi, özünü elə göstərdi ki, guya onların "yox" sözü xətrinə dəyməyib.

Bluebell Haven yaxın on mil məsafədə boş yerləri olan yeganə yer idi. On səkkiz qoşqulu vaqondan ibarət idi, balaca meydançasında iki yelləncək, qum topası və

Telegram: @cinciva

"No Dogs" işarəsi vardı.

Nikolls başını sükana söykəyib dayandı, başını qaldırıb dedi:

– Başqa bir yer taparıq.

O ikiqat əyilmişdi, bir də dedi:

– Mənə bir neçə dəqiqə vaxt verin ki, fikirləşim.

– Deyirsən ki, iti maşında qoya bilmərik? – Tanzi soruşdu.

– Onu maşında qoya bilmərik, Tanzi!

– Gün eynəklərini götür, – Cess ona tapşırdı.

Darvazanın yanında üstünə "Reception" yazılmış səyyar ev vardı.

Əvvəlcə Cess içəri girdi, Tanzi gün eynəklərini taxıb pilləkəndə bir az gözlədi, köpmüş qapılara baxdı. Oturduğu stuldan güclə ayağa duran kök kişi dedi ki, onların bəxti gətirib ki, bir boş yerləri var, bir az baha qiymətə onu götürə bilərlər.

– Neçəyədir? – Cess soruşdu.

– Səksən funt.

– Bir gecə? Qoşqulu vaqonda?

– Bu gün şənbə günüdür.

– Axşam saat yeddidir, amma içəridə deyəsən heç kim yoxdur, – Cess dedi.

– İndi kimsə gələ bilər.

– Hə, eşitmişəm ki, Madonna bu yoldan keçir, öz adamlarıyla gecələmək üçün bir yer axtarır.

– Deyinməyə ehtiyac yoxdu, – kök kişi dedi.

Telegram: @cinciva

– Heç məni də aldatmağa ehtiyac yoxdur. Yalnız 30 funt, – belə deyib pul qabından pul çıxarmağa başladı.

– Qırx... – kişi dedi.

– Yaxşı, otuz beş... Olanım budur, hə, bizim itimiz də var, – Cess dedi.

Kişi əlini elana uzatdı: "No Dogs".

– O bələdçi itdir. Kiçik qızımındır, gözü zəif görür. Sizə xatırladıram ki, əlliliyi olanlara nəyisə qadağan etmək qanunsuzdur.

Niki Tanzinin qolundan tutub içəri – "Reception"a apardı (guya Tanzi özü yeriyə bilmir, kordur). Tanzi bir müddət qara gün eynəyinin altından baxıb heç bir hərəkət etmədən sakitcə dayandı, Norman da səbirsizcəsinə onun ayaqları yanında şöngüdü. Onlar bir dəfə də belə etmişdilər – bir dəfə Marti gedəndən sonra Portsmuta gedən qatara minəndə.

– İt əsl bələdçi itidir, problem olmayacaq, – Cess dedi.

– O it mənim gözlərimdir, onsuz mənim həyatım heç olardı, – Tanzi dedi.

Kişi əvvəlcə Tanzinin əllərinə baxdı, sonra onun üzünə gözlərini zillədi. Kişinin yanaqları Tanziyə Normanın gözlərini xatırlatdı.

– Siz məni qaydaları pozmağa məcbur edirsiniz.

– Yox, ümid edirəm ki, qaydaları pozmarıq, – Cessin əhvalı duruldu.

Kişi başını yırğaladı, açar olan şkafa tərəf getdi.

– Qızıl Tağlar... İkinci vaqon... sağdakı dördüncü... Tualetin yanında.

Telegram: @cinciva

***

Onlar qoşqulu vaqonlar olan yerə çatanda Nikolls elə vəziyyətdə idi ki, sanki heç nəyi hiss etmirdi. O hələ qarnını tutaraq zarıyırdı, "Tualetlər" yazılmış yeri görən kimi, qarnını qucaqlayıb ora qaçdı. Ən azı yarım saat o gözə görünmədi.

Qızıl Tağlar heç də qızıl deyildi, heç bir zərrə də tağa oxşarlığı yox idi. Ancaq Cess "tufanda istənilən liman da yaxşıdır", – dedi. Orda iki balaca yataq otağı vardı, qonaq otağındakı divandan da çarpayı kimi istifadə etmək olardı. Cess məsləhət gördü ki, Niki və Tanzi ikinəfərlik çarpayıda yata bilərlər, həmin otaqdakı birnəfərlik çarpayıda isə Nikolls yatar, o özü isə divanda rahatlanar. Nikinin ayağı çarpayıdan asılı qalsa da, hər tərəfi siqaret iyi bürüsə də onların yerini rahat hesab etmək olardı. Cess pəncərəni açdı ki, hava dəyişsin, suyu açıq qoydu ki, isti su gəlsin, çünki fikirləşirdi ki, Nikolls yəqin ki, yuyunmaq istəyəcək.

Tanzi bütün şkafları bir – bir açıb baxırdı, məlum oldu ki, onlar taxta yonqarından hazırlanıb. O həm də üstü güllü pərdələrə baxdı, xlor iyi verən tualetə "baxış" keçirdi. Sonra o burnunu pəncərəyə dirəyib o biri qoşqulu vaqonlardakı işıqları saydı. (məlum oldu ki, onlardan yalnız ikisi tutulub, qalanları boşdur. Bunu biləndə Cess "yalançı əclaf" dedi)

Telegram: @cinciva

Nikollsun qayıtmağını gözləyəndə Cess maşından götürdükləri xəritəni gözdən keçirdi. Barmağını bir-bir şəhər adlarının üstünə qoyub dedi:

– Bizim çoxlu vaxtımız var. Çoxlu... lap çox... Bu yaxşıdır... Tanzi, təkrar etmək üçün bol vaxtın olacaq, – Cess sanki bununla öz-özünü arxayınlaşdırırdı.

O, telefonunu ehtiyat enerji yığmağa qoymuşdu ki, birdən zəng gəldi, telefon divardan asılı vəziyyətdə onu qaldırdı.

– Alo, – Cess düşündü ki, zəng edən bəlkə Nikollsdur, tualetə yenə də kağız aparmağını istəyir.

– Des? – O əlini ağzına apardı. – Des, vaxtında gələ bilməyəcəm.

Desin əsəbi bağırtısını eşitmək olardı.

– Üzr istəyirəm. Mən nə dediyimi yaxşı bilirəm. Hər şey dəyişib... Mən indi... – Cess üzünü Tanziyə tutub soruşdu:

– Tanzi, biz indi haradayıq?

– Biz Ashby de la Zounch yaxınlığındayıq, – Tanzi cavab verdi.

– Ashby de la Zouch-dayıq indi, – Cess təkrar etdi.

Sonra o bir əliylə Tanzinin saçını sığallayaraq davam etdi:

– Ashby de Zouch. Mən bilirəm. Üzr istəyirəm. Bu səyahət heç də mən planlaşdırdığım kimi olmadı. Sürücümüz xəstələnib, telefonumun enerjisi qurtardı... və mən... Nə? – Cess həyəcanla Tanziyə nəzər saldı:

– Dəqiq bilmirəm. Güman ki, çərşənbə axşamından əvvəl... Bəlkə çərşənbə... Yol düşündüyümüzdən də uzaqdır.

Telegram: @cinciva

Tanzi də Desin səsini aydınca eşidirdi. Elə bil o danışmırdı, bağırırdı.

Cess dedi:

– Olmaz ki, Çelsi mənim növbəmdə gəlsin? Mən onu çox əvəz etmişəm... Bilirəm ki, adamların çox olan vaxtıdır... Bilirəm, Des! Üzr istəyirəm... Dedim ki, mən...

Bir az fasilə verdi:

– Yox, o vaxtdan tez gələ bilmərəm... Yox, mən həqiqətən də... Nə demək istəyirsən? Bu yarım ildə bircə dəfə də növbəmi buraxmamışam... Nə? Des, məni?

Rabitə kəsldi, Cess gözünü telefona zilləyib baxdı.

– Ana, bu pivəxanadakı Desdir?

Desi Tanzi də tanıyırdı. Bir dəfə bazar günü günorta vaxtı o, pivəxananın kənarında Normanla durub anasını gözləyirdi. Des onu gördü, ona bir paket sarımsaq sousunda krevet verdi.

...Elə bu vaxt qoşqulu vaqonun qapısı açıldı, Nikolls içəri yıxıldı.

– Uzan, yat... Yat... – o dodaqaltı deyindi, dikəlib özünü üstü çiçək şəkilli balaca yastıqların üstünə atdı. O, başını qaldırıb Cessə baxdı, az qala gözləri hədəqəsindən çıxırdı, sifəti bomboz idi.

– Yatıram... Üzr istəyirəm...

Cess hələ də ayaqüstə durub telefonuna baxırdı.

Nikolls ona baxıb soruşdu:

– Mənə zəng edirdiniz?

– O məni işdən qovdu... Mən buna inana bilmirəm... O əclaf, lənətə gəlmiş məni qovdu...– Cess dedi.

Telegram: @cinciva

17

CESS

Cess bu gecə narahat idi, yata bilməyəcək, bütün gecəni Feathers-dəki işi haqda düşünəcəkdi. Amma onun iş haqda düşünməyə heç vaxtı olmadı, bütün gecəni Nikollsa qulluq elədi. O hələ heç kimin belə xəstələndiyini görməmişdi. Gecəyarısı Nikolls elə bil quruca qəfəs idi, ondan heç bir əsər-əlamət qalmamışdı. Amma o təkidlə "Mən özümü yaxşı hiss edirəm... yaxşıyam" deyir, özünü yaxşı olduğuna inandırmağa çalışırdı. Belə deyəndən yarım saat sonra isə o, Cessin hamamda qoyduğu vedrəyə qaçar, öskürüb yaşıl öd qusardı.

Gecə çox dəhşətli keçdi, vaxt gəlib keçir, Nikolls isə hələ də eyni vəziyyətdəydi. Cess yatmaq fikrindən daşındı. O qoşqulu vaqonun karamel rəngində, təmiz silinmiş divarlarına gözünü zilləyib baxa-baxa azca mürgülədi, Nikolls da onun yanında zarıyır, tez-tez tualetə gedir, qayıdır, yenidən gedirdi. Cess uşaqların otağının qapısını bağladı, "L" formalı divanın qırağına qısılıb azca mürgülədi, o tualetdə olanda ona gah su, ağzını silməyə dəsmal verirdi.

Telegram: @cinciva

Gecə saat üçdən az sonra Nikolls duş qəbul etmək istədiyini dedi. Cess onu hamamın qapısını aşıq qoyacağına söz verməyə məcbur etdi, onun çirkli paltarlarını aşağıdakı özünəxidmət camaşırxanasına (yuyub qurudan çardaqdaydı) aparıb yudu.

Cess içəri qayıdanda Nikolls hələ də hamamdaydı, o paltarları otaqdakı qızdırıcının üstündən asdı, düşündü ki, yəqin səhərə qədər quruyarlar. Sonra hamamın qapısını tıqqıldatdı. Cavab gəlmədi, yalnız suyun şırıltısı eşidilir, qapıdan buxar çıxırdı. Cess içəri girib Nikollsu yıxılmış vəziyyətdə gördü, onun enli, qəşəng arxası divara dirənmişdi, əvvəlcə əllərini qaldırdı, sonra əliylə üzünü örtdü.

– Nikolls! – Cess onun arxasında durub, pıçıltıyla dedi. O cavab vermədi, Cess onu bir də çağırdı:

– Nikolls!

O geri baxıb Cessi gördü. Cess onu bu qədər gücsüz vəziyyətdə gördüyünə inanmırdı. Onun gözləri qızarmış, başı çiyinlərinə düşmüşdü.

– Qalxa bilmirəm. Su da soyuq gəlməyə başladı, – o zəif səslə dedi.

– Kömək edim?

– Yox... Hə...

– Gözləyin.

Cess hamam dəsmalını geniş açdı, bilmək olmurdu dəsmalı kimin qabağına tutub, özünün, yoxsa Nikollsun. Birtəhər duşu söndürdü, qolları tamam islandı.

Sonra o aşağı əyilib dedi:

Telegram: @cinciva

– Qollarını boynuma dola.

– Sən çox balacasan. Yıxa bilərəm səni.

– Yox, göründüyündən çox güclüyəm.

Nikolls tərpənmədi.

– Mən xilasedici deyiləm, kömək et ki, səni qaldırım.

O beldən aşağı hissəsini hamam dəsmalıyla bürüyüb, yaş qollarını Cessin boynuna doladı. Cess hamamın divarından tutdu, nəhayət, birtəhər ayağa durdu. Xoşbəxtlikdən, vaqon çox balacaydı, hər addımda divardan tutmaq olurdu. Onlar qonaq otağı deyilən yerə çatanda Nikolls divana yıxıldı.

– Bu da həyatımın sonu, – o, zarıya-zarıya Cessin divanın yanına qoyduğu vedrəyə baxırdı.

Cess nikotin rəngindəki divar kağızına baxıb dedi:

– Hə, mən də şənbəni çox gözəl keçirdim.

Sonra o, çay hazırladı. Gecə saat dörddən bir az keçmişdi. Gözləri yumulurdu, ayaq üstə dura bilmirdi, oturub gözlərini bir neçə dəqiqəlik yumdu.

– Minnətdaram, – Nikolls zəif səslə dedi.

– Nə üçün?

O, əlini divanın qırağına dayayıb dikəldi:

– Gecə yarısı mənə dəfələrlə tualet rulonu gətirdiyinə görə. Məni duşun altından çıxardığına görə... "Keith Kebabs" fırıldaqçılarından o zəhrimar kababı almağın sənin yox, mənim öz günahım olduğunu mənə xatırlatmadığın üçün...

– İndi də günahınızın cəzasını çəkirsiniz... Özünüz-özünüzə etdiniz.

Telegram: @cinciva

Nikolls qolları gözlərinin üstündə başını yastığa qoydu.

Cess çalışırdı ki, Nikollsun hamam dəsmalı altından görünən geniş sinəsinə baxmasın. O axırıncı dəfə çılpaq kişi bədənini ötən ilin avqustunda Desin pivəxanasının Çimərlik voleybol yarışında görmüşdü.

– Get yataq otağında uzan, orda daha rahat olacaqsan, – Cess dedi.

Bir gözünü açdı.

– Mənim üstümdəki SpongeBob adyalıdır?

– Yox, sənin üstündəki evdən götürdüyüm zolaqlı adyaldır. Elə bilmə ki, öz adyalımı sənin üstünə salmaq mərdlik əlamətdir.

– Bəs sən harada yatacaqsan? – Nikolls soruşdu.

– Elə burda. Yaxşıdır, – Cess dedi, Nikollsun etiraz etmək istədiyini görüb əlavə etdi: – İnanmıram ki, bundan sonra yuxuya gedə bilim.

Nikolls Cessin köməyilə balaca yataq otağına keçdi. Özünü güclə çarpayıya yıxanda zarıyırdı. Cess adyalı onun üstünə örtdü. Nikollsun gözünün altı kül rəngindəydi, səsi də çox zəif idi. Bununla belə Cessə dedi:

– Bir-iki saatdan sonra yaxşı olacam.

– Əlbəttə, vəziyyətin yaxşılaşacaq, – Cess onun solğun dərisinə baxıb dedi.

– Biz indi hansı cəhənnəmdəyik?

– Biz Yellow Brick Road-dayıq.

– Bura Tanrıyabənzər Şirin hamını xilas etdiyi yerdir?

Telegram: @cinciva

– Sən Narnianı deyirsən. Bura isə faydasız bir yerdir.

– Adına layiq...

Axır ki, Nikolls yuxuya getdi.

Cess yavaşca onun otağından çıxdı, gəlib dar divana uzandı, rütubət, bir az da siqaret qoxuyan şaftalı rəngli yorğanı üstünə çəkdi, çalışdı ki, divar saatına baxmasın. Ötən axşam Nikolls tualetdə olduğu vaxt ərzində Niki və Tanzi xəritəyə baxmışdılar, bacardıqları qədərincə səyahətlərinin nə vaxt başa çatacağını hesablamışdılar.

– Hələ çox vaxtımız var, – Cess öz-özünə dedi.

Nəhayət, o da yuxuya getdi.

***

Səhər Nikolls yatan otaqda tam sakitlik idi. Cess onu oyatmağı fikirləşsə də oyatmadı, hər dəfə onun otağının qapısına tərəf getmək istəyəndə ötən gecə duşun altında yıxılıb qalan vaxt onun görünüşünü xatırladı, barmaqları qapının dəstəyində qaldı. O, qapını yalnız bir dəfə açdı, çünki Niki dedi ki, bəlkə Nikolls öskürərkən qusmağı boğazında qalıb boğulub ölər. Amma Cess qapını açıb onun dərin yuxuda olduğunu gördü. Nikiylə Tanzi iti götürüb yol qırağına apardılar, Tanzi axşamkı qara eynəyini taxdı, pıçıltıyla danışa-danışa Nikiylə səhər yeməyini yedilər. Cess qalan çörəkdən buterbrod düzəltdi, (Niki "elə bircə bu çatmırdı" – edi) , vaqonun içini səliqəyə saldı, Desə mesaj yazıb bir daha üzr istədi. Amma cavab gəlmədi.

Telegram: @cinciva

Saat on birin yarısında balaca yataq otağının qapısı cırıltıyla açıldı, əynində idman köynəyi və dama-dama şort olan Nikolls "zühur etdi". O çaşqın halda ətrafına baxır, elə bil uzaq bir adada tərk edilmiş adam idi. Bir üzü üstə yatdığından yanağında qırmızımtıl qırışlar görünürdü.

– Biz indi... – ətrafına baxıb nəsə demək istədi.

– Biz Ashby de la Zouchda, ya da ona yaxın bir yerdəyik. Bura Biçfront deyil.

– Gecdir?

– On birə on beş dəqiqə qalıb.

– On birə on beş dəqiqə... Ok.

Onun çənəsi əsirdi danışanda. Saçı da başının bir tərəfinə yapışmışdı. Cess özünü elə apardı ki, guya əlindəki kitabı oxuyur. Nikollsdan yuxulu kişi qoxusu gəlirdi. Cess nə vaxtdı ki, bu qoxunu hiss etmirdi.

– On birə on beş dəqiqə... – Nikolls belə deyib üzündəki qırışları sürtürdü, sonra pəncərəyə yaxınlaşdı, bayıra boylandı.

– Elə bilirəm milyon il yatmışam.

Sonra o əli çənəsində divanın üstündəki yastığın üstündə oturdu.

Cessin yanında oturan Niki Nikollsa dedi:

– Ey, dost, – "Türmədən qaçma həyəcanı"...

– Nə?

Niki əlindəki diyircəkli qələmi yelləyib dedi:

– Siz türmədən qaçanları təzədən türməyə qaytarmalısınız.

Telegram: @cinciva

Nikolls ona baxdı, sonra Cessə tərəf döndü, elə bil demək istəyirdi ki, oğlunuz dəli olub.

– Aman Tanrım, – Cess dedi.

Nikolls qaşqabağını tökdü.

Cess Nikollsa baxıb dedi:

– Siz gərək məni ən azı nahara dəvət edəsiniz.

Nikolls dedi:

– Yaxşı... Hə... Ok.

Sonra o "ah, uf, ah, uf" edə-edə hamama tərəf yönəldi:

– Görəsən duş qəbul edə bilərəm? Ziyan olmaz ki?

Küncdə oturub riyaziyyat dəftərinə nəsə yazan Tanzi cəld dilləndi:

– Biz sizə bir az isti su saxlamışıq.

Tanzi təzədən əlavə etdi:

– Demək olar ki, isti suyun hamısını sizə saxlamışıq. Dünən sizdən pis iy gəlirdi.

Nikolls hamama girdi, iyirmi dəqiqədən sonra çıxdı. Saçları nəm idi, ondan şampun iyi gəlirdi, çənəsindəki tüklər də qırxılmışdı. Cess bir az duzu və qəndi bir stəkan suya töküb qarışdırmaqla məşğul idi, özünü elə göstərdi ki, sanki hamamdan çıxan Nikollsu görmür. Az sonra o əlindəki stəkanı Nikollsa uzatdı:

– Bu nədir? – Nikolls üzünü turşutdu.

– Rehidrat qarışığıdır. Bunu içsən dünən gecə itirdiklərini əvəz edər.

– Deyirsən bütün gecəni xəstə yatandan sonra indi bir stəkan duzlu su içim?

Telegram: @cinciva

– İç... bircə onu iç... – Cess o qədər yorğun idi ki, onunla mübahisə etmək istəmədi.

Nikolls içəndə ağzını bir az büzsə də axıracan içdi. Həmin vaxtda Cess ona kofe və qızardılmış çörək hazırladı.

O balaca Formica stolu arxasında oturdu, bir qurtum kofe içdi. Çörəkdən də bir-iki dişləm aldı. Az keçməmiş təəccüblə dedi ki, indi özünü yaxşı hiss edir.

– Necə daha yaxşı? Maşın sürə bilərsən? Ya da sürsən də hadisə törətməssən?

– Hadisə törətmək deyəndə nəyi nəzərdə tutursan? – Nikolls soruşdu.

– Deyirəm maşını yenə yol qırağına çırpacaqsan?

– Bunu dediyinə görə çox sağ ol.

Bunu deyib o çörəkdən yenə dişlədi:

– Hə. Mənə iyirmi dəqiqə də vaxt ver, əmin olum ki...

– Hə, əmin olasan ki, biz maşında sağ-salamat qalacağıq, ya yox.

– Maşında sağ-salamat... – Nikolls gülümsədi.

Onun təbəssümünü görmək çox xoş idi.

Bir an sonra o dedi:

– Cess, bura bax, indi daha yaxşıyam. Daha yaxşı hiss edirəm özümü.

Stol arxasına keçib kofedən iri bir qurtum aldı, sonra bundan razıymış kimi ah çəkdi. O əlindəki çörəyi yeyib qurtardı, soruşdu ki, başqası varsa gətirsin, sonra stolun üstünə baxdı.

Telegram: @cinciva

– Hə, əgər mən yeyəndə gözlərini belə zilləyib baxmasan özümü daha yaxşı hiss edərəm. Elə bilirəm kimsə bir tərəfimə nəsə iti bir şey soxur.

– Sən bilmirsən, halın pis olanda hamımız qışqırdıq, – Niki dedi.

– Ana dedi ki, sən qusanda ağzından öd tokülüb. Maraqlıdır, görəsən necəymiş.

Nikolls Cessə baxdı, sonra kofesini qarışdırdı. O, Cess qızarana qədər gözünü ona zillədi:

– Tanzi düz deyir? Son günlər şənbə gecələri mənimçün həmişə belə olub.

O, kofesini içib qurtardı, fincanı stolun üstünə qoyub dedi:

– Ok. Mən yaxşıyam. Əclaf kabab məğlub oldu. Gəlin yolumuza davam edək.

***

Günorta maşın keçdiyi yollarda mənzərələr tez-tez dəyişirdi. Gah hündür, gah alçaq təpələrdən, gah da morfla əhatələnmiş divarların yanından şütüyüb keçirdilər. Göyün üzü açıq idi, gün işığı maşının içinə düşürdü. Sonra onlar zavod, fabrik binalarının yanından keçdilər. Qırmızı kərpic fabrikini, elektrik stansiyasını arxada qoydular. Cess maraqla Nikollsun sürməyinə tamaşa edirdi. O əvvəlcə ehtiyatla sürürdü, sonra isə onun üzünün normal ifadəsi yerinə qayıtdı, indi o məmnun haldaydı.

Telegram: @cinciva

– İnanmıram ki, Aberdinə bu gün çataq, – Nikolls üzr istəyirmiş kimi dedi.

– Bacardığımız qədər tez çataq ki, dincələ bilək, – Cess fikrini bildirdi.

– Elə mən də onu demək istəyirdim.

– Hələ çox vaxtımız var.

– Cox vaxt...

...Maşın gedir, bir-birindən fərqli mənzərələr arxada qalır, Cess hərdənbir mürgüləyir, çalışırdı ki, narahat olmasın. O özü tərəfdəki yan güzgünü əydi ki, arxada oturmuş Nikini yaxı görsün. Yolda olduqları bu qısa vaxt ərzində Nikinin üzündəki zədə yerləri bir az solmuşdu. Evdəkinə nisbətən o indi daha çox danışırdı. Amma bununla belə o yenə də Cessdən çox şeyi gizlədirdi. Hərdən Cess narahat olurdu ki, bundan sonra da o həmişə belə olar. Cess tez-tez onu çox istədiyini, bir ailə olduqlarını ona deyir, amma heç bir dəyişiklik hiss olunmurdu. Cess anasına deyəndə ki, Niki bundan sonra gəlib onlarla bir yerdə yaşayacaq onda anası demişdi:

– Sən çox gecikmisən. Bu yaşdakı uşağa dəyməli zədə artıq dəyib. Mən bunu bilirəm.

Bir orta məktəb müəllimi kimi onun anası otuz nəfər səkkiz yaşlı uşağı hipnoz edirmiş kimi sakit oturmağa məcbur edir, tənəffüslərdə çoban qoyunları necə pəyəyə yığırsa o da onları sinfə elə yığırdı. Cess anasının onun üzünə gülümsədiyini heç vaxt görməmişdi, dünyaya gətirdiyi insana verməli olduğu azacıq təbəssümü həmişə ondan əsirgəmişdi.

Telegram: @cinciva

Bir yana baxanda anası çox şeydə haqlıydı. Orta məktəbə gedəndə o, Cessə demişdi:

"İndi etdiyin seçimlər həyatının yerdə qalan hissəsini müəyyən edəcək".

Bir dəfə bir qadının anasına dediklərini eşitdi. O qadın anasına deyirdi, gərək o, Cesslə dost olsun, onu bir kəpənək kimi sevsin. Demişdi ki, uşağı qorxu altında saxlayanda uşaq daha pis olur.

Cess hələ özü uşaq ikən Tanzini dünyaya gətirəndə artıq o bilirdi ki, hər gün qızına onu nə qədər çox sevdiyini söyləyəcək. Bilirdi ki, o qızını hər gün qucaqlayacaq, ağlayanda onun göz yaşlarını siləcək, divanda qucaqlaşıb yatacaq, onu qoruyacaq. Cess Tanzi balaca olanda həmişə özünün çarpayısında birlikdə, qolunu onun boynuna dolayıb yatmışdı. Belə vaxtlarda Marti deyinə-deyinə boş otağa keçib orda yatar, deyinərdi ki, Cessin yanında onunçün yer yoxdur. Cess bunu aydınca eşidirdi.

Sonralar, yəni Tanzi doğulandan iki il sonra Cess Nikini evə gətirmək istəyəndə çoxları ona başqasının səkkiz yaşlı, əzab dolu keçmişi olan uşağını saxlamaq istədiyinə görə "dəli" dedi. O vaxt Cess heç kəsin sözünə baxmadı, deyilənləri qulaqardına vurdu, çünki o Nikinin başqalarından, hətta öz doğma atası Martidən də nə qədər fərqli olduğunu görür, bir addımlığındakı uşağın kim olduğunu aydınca hiss edirdi. Cess öz həyatından yaxşı bilirdi ki, ana uşağına yaxın olmayanda nə baş verir, yaxud ana uşağına Allahın bəxş etdiyi ən

Telegram: @cinciva

böyük nemət olduğunu deyəndə nə olur. Hətta öz doğma anan da səni sevməyəndə nələrin baş verdiyini o gözəl anlayırdı.

Marti ailəsini atıb gedəndə o özünü ayaq üstə saxlaya bildi, özünü itirmədi. Niyə də özünü itirməliydi? Marti onu incitmədi. Cessi ən çox narahat edən bu iki uşaq idi, onları inandırmalıydı ki, onun yanında da onlara pis deyil. Çünki əgər lap bütün dünya sənə doğru daş atsa da əgər arxanda atan, yaxud anan dayanarsa hər şey qaydasında olacaq. Onda sən biləcəksən ki, sevilirsən, biləcəksən ki, sevgiyə layiqsən. Cess həyatında elə uğur qazanmamışdı ki, bununla fəxr etsin, amma onu rahatlandıran o idi, Tanzi anasının onu necə sevdiyini bilirdi. Tanzinin bunu bildiyini Cess bilirdi.

Hələlik o, Nikinin iç dünyası ilə məşğul idi.

***

– Acmamısan? – Nikollsın səsi azca mürgüləyən Cessi oyatdı.

Səs eşidib o özünü dikəltdi, boynu palto asılqanı kimi əyilmişdi.

– Acından ölürəm. Yoxsa nahar etmək üçün saxlamaq istəyirsən? – Cess boynu ağrıdığından birtəhər Nikolls tərəfə döndü.

Günəşin şüaları hər tərəfə yayılmışdı. Sol tərəfdən günəş öz şüalarını yaşıl tarlalara paylayırdı. Tanzi adətən günəş şüalarına "Tanrının barmaqları" deyərdi.

Telegram: @cinciva

Cess xəritəni götürdü, harda olduqlarını dəqiqləşdirmək istədi.

Nikolls ona baxırdı. O gülümsəyərək, bir az da utana-utana Cessə dedi:

– Bilirsən nə var, bu dəqiqə torbadakı bütün buterbrodları "məhv edə" bilərəm...

Telegram: @cinciva

18

ED

Stag və Hounds-un adı heç bir bələdçi bukletlərində qeyd edilməmişdi. Onun heç bir vebsaytı, heç bir broşürası yox idi. Bunun səbəbini aydınlaşdırmaq çox da çətin deyildi. Bu otel soyuq, küləkdöyən yerdə yerləşirdi, onun plastik, mamırlı bağ mebelləri bura gələn ziyarətçilərin sayının az olduğundan xəbər verirdi. Yataq otaqları Tanrı bilir, on il bundan əvvəl dekor edilmişdi, parlaq çəhrayı divar kağızları az qala qopurdu, krujevalı pərdələr asılmışdı pəncərələrdən. Çini qablar lazımsız yerlərdə qoyulmuşdu. Yuxarı mərtəbənin koridorunun axırında kommunal vanna otağı vardı, sanitariya məmulatının heç biri zavod məhsulu deyildi. Tünd çəhrayı rəngli sabun iki yerə bölünmüşdü. Qutu formalı televizor yalnız 3 kanalı göstərirdi, onları da xışıltıyla. Tualetdə, tualet rulonu asılan yerin yuxarısında Niki rəqs paltarı geymiş Barbi kuklasını görəndə heyrətdən donub qalmışdı.

– Mən bu kuklanı sevirəm, – o belə deyib onu yuxarı qaldırmışdı ki, parlayan donuna "baxış keçirsin":

Telegram: @cinciva

– O pisdir, o çox soyuqdur, – demişdi.

Ed hələ də bu cür yerlərin olduğuna inana bilmirdi. Amma o düz səkkiz saat idi ki, dayanmadan sürürdü. Stag və Hounds-da bir gecə üçün bir otağın qiyməti iyirmi beş funt idi. Bu elə qiymətdir ki, hətta Cess də razı qalmışdı, Normanı da içəri buraxdıqlarına görə Cess ikiqat sevinirdi.

– Biz itləri çox sevirik, – xanım Dikins bir balaca sürü Pomeraniya itlərinin içindən fəxrlə keçdi. O, saçını sığalladı, elə bil başında qəhvəyi rəngli kömbə çörək qoymuşdular.

– Cek, biz itləri adamlardan çox sevirik, elə deyil? – arxaya dönüb dedi.

Hardasa aşağıda səs-küy, qışqırıq vardı.

– Hə, itləri razı salmaq çox asandır... Siz o sevimli "cavan oğlanı" səliqəli otaqlarımıza gətirə bilərsiniz. Mənim "qızlarım" təzə "kişi" görməklərinə çox şad olacaqlar.

Belə deyib xanım Deakins iki otağın qapılarını açdı, əlini yellədi:

– Deməli, siz, mister və missis Nikollslar, bu otaqda qalacaqsınız. Sizin uşaqlarınız isə üzbəüz otaqda qalarlar. Burdakı pilləkənlər yalnız sizin qulluğunuzdadır. Səhər yeməyi üçün müxtəlif dənli bitkilərdən gözəl yeməklərimiz var. Əgər istəsəniz Cek sizə yumurta da hazırlayar.

– Təşəkkür edirik.

Dikins açarları Edə verib dedi:

Telegram: @cinciva

– Əminəm ki, siz Cekin yumurtalarını bəyənəcəksiniz.

Ed sualın ona ünvanlandığını görüb baxdı, qadın bir də təkrar etdi:

– Deyin, mən düz deyirəm? Yumurtanı bəyənəcəksiniz?

Ed ümumiyyətlə, o ağ yumurtaları görmək belə istəmirdi.

Dikins təzədən gözlərini Edə dikdi, sonra balaca, tüklü "dənizə" bənzər itləri ayağına dolaşa-dolaşa aşağı düşdü. Bu vaxt Ed gözucu baxıb Cessin gülümsədiyini gördü.

Ed əlindəki bağlamaları çarpayının qırağına qoydu.

Niki əlinin arxasıyla gözünü silib dedi:

– Mən əvvəlcə hamama girim.

– Mən də dərslərimi təkrar etməliyəm. Olimpiadanın başlamasına on yeddi saat yarım vaxtım var, – Tanzi kitablarını qoltuğunun altına yığıb üzbəüz otağa girdi.

– Əziz balam, gəl əvvəlcə Normanı aparıb gəzdir. Özün də havanı dəyişərsən, onda daha rahat yatarsan, – Cess onu səslədi, sonra çantaların zəncirbəndini açdı, ordan başlıqlı jaketini götürdü. O qollarını qaldıranda qarnı azacıq görünürdü:

– Mən bir yarım saat saçımı bunun altında saxlayım... Yox, ya da çox saxlayım belə.

Cess belə deyib başlığı altındakı at quyruğu yığdığı saçını başlığa uyğunlaşdırdı, əvvəl Dikins düşən pilləkənlərə, sonra Edə baxdı.

– Elə-belə deyirəm... Zarafat.

Telegram: @cinciva

– Hə, onun saçları gülməliydi.

Ed neylon yataq örtüyünün üstündə uzandı, cibindən telefonunu çıxardı.

***

– Hə, yaxşı xəbər var, – Pol Vilks belə deyib sözə başladı: – Polislər tədqiqatlarını qurtarıblar. İlkin nəticələr sənin tərəfindən heç bir səbəb göstərmir. Dinna Levisin, ya onun qardaşının fəaliyyətindən sənin xeyir götürməyinə aid heç bir sübut tapılmayıb. Buna münasib olaraq SFAX-ın buraxılışından sənin pul qazanmağına dair heç bir sənəd yoxdur. Ya da sənin tərəfindən pul qazanmaq üçün heç bir cəhd hiss olunmayıb.

– Çünki heç bir cəhdim olmayıb, çünki mən heç bir qazanc götürməmişəm, – Ed azacıq sevindi.

– Eyni zamanda tədqiqat qrupu deyir ki, onlar Maykl Levisin ailə üzvlərinin adına çoxlu bank hesablarının da üstünü açıblar, bununla o öz fəaliyyətinin nəticələrini gizli etmək istəyib. Tədqiqat qrupu onu da aşkar edib ki, Maykl Levisin bank hesablarındakı pulun məbləği SFAX-ın buraxılmasından da əvvəl küllü miqdarda olub – bu da onlar üçün başqa qırmızı bayraqdır.

– Ok, – Ed dedi.

Pol hələ də danışırdı, amma Ed onu çətin eşidirdi, o durub pəncərənin qabağına getdi. Tanzi həyətdə gülə-gülə qaçır, balaca, hürüşən itlər də hürə-hürə onun dalınca qaçırdılar. Cess bir kənarda, qolları qoynunda

Telegram: @cinciva

dayanıb gülürdü. Norman həyətin ortasında durub onlara baxırdı, o sanki "dəlilik dənizində" yeganə hərəkətsiz obyekt idi. Bu an Ed sanki Normanın nə fikirləşdiyini aydınca duydu. O əlini o biri qulağının üstünə qoydu, Polun səsin eşidə bildi:

– Pol, bu o deməkdir ki, mən indi geri qayıda bilərəm? Hər şey yoluna qoyulub?

Bu anlarda ofisi səhradakı ilğım kimi gözü önündə canlandı.

– Hələ bir az da gözlə, səbirli ol. Yaxşı xəbərim çox azdır. Maykl Levis təkcə səhm alveri etməyib, o həm də imkanlarıyla da alver edirmiş.

– Nəylə alver edirmiş? Sən indi polyak dilində danışırsan elə bil.

Ed gözünü döyürdü.

– Ciddi deyirsən? – Paul dedi, araya sükut çökdü .

Edin bir an gözləri önünə Polun taxta panelli ofisini, onun gözlərini gətirdi, o deyirdi:

– Gəlirlər ticarətçiyə məqsədinə çatmağa imkan verir, indiki vəziyyətdə isə onun, ya Dinnanın daha çox sərmayə qazanmasına şərait yaradır.

– Bəs bunun mənimlə nə əlaqəsi var?

– Onun imkandan istifadə edib qazandıqları külli miqdardadır, bütün hallar bir mexanizm üstündədir. Bu da deyəcəyim bəd xəbərə səbəb olur.

– Bu bəd xəbərdir?

Pol ah çəkdi.

– Ed, niyə mənə deməmisən ki, Dinnaya o zəhrimar çeki yazmısan?

Telegram: @cinciva

Ed hələ də gözünü döyürdü. Çek...

– Sənin ona verdiyin beş min dolların çekini o pula dəyişib öz hesabına yatızdırıb.

– Nə demək istəyirsən? – Ed soruşdu.

Ed artıq Polun səsinin ahənginin dəyişdiyini hiss etmişdi. Pol bir az fikirləşib ehtiyatla davam etdi:

– Bu da səni Dinnanın etdiklərinə maliyyə baxımdan bağlayır. Sən də bir tərəfdən bu ticarətə maddi imkan yaratmısan.

– Axı bu, çox deyil, ona kömək məqsədiylə verdiyim cəmi bir neçə min funtdur! Onun pulu yox idi!

– Sənin bu ticarətdən gəlir əldə edib-etməməyindən asılı olmayaraq, faktlar göstərir ki, Levislərin ticarətində sənin maliyyə marağın olub, bu SFAX-ın buraxılışından əvvəl olub. E mail mesajları hələ kifayət deyil. Bu sübut göstərir ki, sənin əleyhinə olan yalnız Dinnanın sözləri deyil, həm də sübutudur.

Ed pəncərədən həyətə, boş otlaq yerlərinə baxırdı. Tanzi hələ də atılıb-düşür, balaca itlərlə oynayırdı. Eynəkləri burnunun üstünə düşmüşdü, o yenə də gülürdü. Cess arxadan gəlib Tanzini qucaqlayıb qaldırdı.

– Son sözün nədir? – Ed soruşdu.

– Ed, demək istəyirəm ki, indi səni müdafiə etmək çox çətindir, müdafiə çox çətinləşib.

***

Ed atasının həyatındakı rolunu düşünüb bir az məyus olurdu. Buna tamamilə məyus olmaq demək

Telegram: @cinciva

olmazdı. O bilirdi ki, atası öz həyat yolunu düz müəyyən edən, necə deyərlər "dərin dənizdə" üzməyi bacaran bir oğulu daha üstün tutardı. O oğlunu bahalı təhsil müəssisələrində oxutmaqla bunu istəyirdi.

Məlum olan fakt odur ki, valideynləri illər boyunca əziyyətlə işləyib qazandıqları pullardan qənaət edib qızlarını yox, Edi özəl məktəbə yollamışdılar. Əlbəttə, bacısı valideynlərinin nifrətini qazanmamışdı. Bəlkə də onlar bilsəydilər ki, belə etməklə onlar qızlarının qarşısına maneələr çıxmasına səbəb olacaqlar, onu da özəl məktəbə göndərərdilər. Ed heç vaxt bacısını inandıra bilməmişdi ki, valideynlərinin onu özəl məktəbdə oxutmamasına səbəb ona olan pis münasibətləri deyil, sadəcə, onlar ona Eddən daha çox inanıblar, inanıblar ki, o hər şeyi özü əldə edə bilər. Ed boş vaxtlarını öz otağına, televizorun ekranına "yapışıb" qalmaqla keçirirdi. Ed idmanda uğur qazanacağına ümid etməyən bir oğlan idi. Bir gün Ed atasına bundan sonra hər səhər tezdən qaçacağını deyəndə (şəxsi məşqçisi də etiraf etmişdi ki, Ed qaçmağı çox sevir) atasının üzündəki ifadə yenə də eyniydi: elə bil balaca nəvəsinin qaçıb ona çatmasını gözləyirdi.

"İdman insanı yetişdirir" deviziylə tədris edən ictimai məktəblərə inanan Edə atası belə demişdi:

– Edvard, bu, sənə verəcəyimiz ən gözəl imkandır, nə anan, nə də mən bahalı özəl məktəbdə oxumamışıq. Bu imkandan yaxşı istifadə et.

Birinci kursun sonunda onun barəsində olan hesabat məktubunu oxuyanda atası neçə dəqiqə gözlərini Edə

Telegram: @cinciva

zilləyib baxmışdı. Məktubda yazılmışdı: o hamıdan ayrı gəzir, bacarıqlı vərdişi yoxdur, ən pisi də odur ki, hətta komanda oyunlarında oyunçu da ola bilmir.

Ed o vaxt atasına deyə bilmirdi ki, o həqiqətən də özəl məktəbdən, eşşək kimi anqıran Henrilər sürüsündən zəhləsi gedir. O atasına deyə bilmirdi ki, məktəbdə onu o zəhrimar topun dalıyca qaçmağa nə qədər məcbur etsələr də o lənətəgəlmiş oyunu sevə bilmir. Atasına deyə bilmirdi ki, o idmanı yox, kompüter ekranını daha çox sevir, həyatını da kompüterə bağlamaq istəyir.

Atasının məyus sifətini görəndə Ed dərk etmişdi ki, onun başqa seçimi yoxdur, atasının dediklərini etməlidir.

– Gələn il nəticələrim yaxşı olacaq.

Atası indi özünün əsgərlik yoldaşları yanında həmişə Edlə fəxr etdiyini deyir, onunla lovğalanıb deyirdi: "Düzdür, heç onun dəqiq hansı işlə məşğul olduğunu bilmirəm, amma bilirəm ki, bu Qiymətli Kağızlar onun gələcəyidir".

Başına gələnləri biləndə atasının üzündə hansı ifadə olacağını Ed ağlına gətirə bilmirdi. O hansı hala düşəcəkdi, bunu bilmək çətin deyil.

Ed hazırkı vəziyyətini deyərsə, atasının başının zəif boynu üstündə ona tərəf necə dönməsini göz önünə gətirdi, onun dodaqlarını əsəbdən necə çeynəməsini xəyalına gətirdi.

Başını elə yelləyəcəkdi ki, bununla da oğlundan bundan artıq heç nə gözləmədiyini demək istəyəcəkdi.

Ed qərar qəbul etdi. O, vəkilindən xahiş edəcəkdi ki, prosesi mümkün olan qədər uzatsın. Son qəpiyinə

Telegram: @cinciva

qədər xərcləyəcəkdi ki, proses gec sona çatsın, onun az qala sübut edilmiş cinayəti haqda son hökm verilməsin. Amma nə olursa olsun, atasının xəstəliyi nə qədər ciddi olsa da o Gemmanın dediyi ailə naharına getməyəcək. Bütün bunları atasının xeyri üçün, onun sağlamlığı üçün edəcəkdi. Hələ ki, atasından uzaq qalmaqla onu bir növ qorumuş olacaqdı.

Ed Nikolls çəhrayı, qopmuş divar kağızları olan, hava təmizləyən qoxusu gələn balaca yataq otağında dayanmışdı. O məyus idi, pərt olduğu hiss olunurdu, gözlərini bayıra zilləyib şappıltıyla otun üstünə yıxılan, şöngüyüb ləhləyən itin

qulaqlarını dartan balaca qıza baxıb öz həyatının nə qədər mənasız olduğunu düşünürdü.

Telegram: @cinciva

19

CESS

Tanzi çox əsəbiydi, ona görə "otuz yeddi faizi əsəbiydi, bəlkə də otuz səkkiz faizi". Şam yeməyindən imtina etdi, hətta maşın dayananda da aşağı düşmədi. Əvəzində neylon üzlü dəftərlərini götürüb riyaziyyatdan tapşırıqlar elədi. Cess çox təəccüblənmişdi, çünki Tanzi çox az hallarda belə edərdi. Anası onu arxayın etmək üçün əlindən gələni etdi, amma heç özü də nə dediyini bilmirdi.

– Tanzi, çatmağa az qalıb... Tanzi, hər şey qaydasındadır... Tanzi, narahat olmağa heç bir səbəb yoxdur...

Cess dəfələrlə belə desə də xeyri olmadı.

– Ana, elə bilirsən bu axşam yatacam?

– Əlbəttə, sən bu axşam yatacaqsan.

– Əgər yatmasam yarışda hər şeyi pis yazacam.

– Yatmasan da, yaxşı yazacaqsan. Amma hələ bu vaxtacan sənin axşamlar yatmadığını görməmişəm.

– Mən narahatam ki, çox yatmaq barəsində narahat oluram.

Telegram: @cinciva

– İnanıram ki, sən narahat olmayacaqsan. Özünü ələ al, sakitləş. Hər şey yaxşı olacaq. Hər şeyi düz yazacaqsan.

Cess onu öpəndə gördü ki, o indi dırnaqlarını daha tez-tez çeynəyir.

Nikolls həyətdəki otluqdaydı. O yarım saat əvvəl Cessin və Tanzinin olduğu yerdə aşağı-yuxarı var-gəl edərək telefonla danışırdı. Birdən dayandı, əlindəki telefona bir neçə dəqiqə davamlı baxdı, sonra ağ, plastik bağ stuluna tərəf addım atdı, görünür, fikrini bir yerə toplamaq istəyirdi. Ayaqüstə əsirdi, əl qolunu-yelləyib kiminsə ünvanına söyüş yağdıranda içəridəkilər gözlərini ona dikmişdilər.

Cess pəncərədən Edə baxırdı, nə edəcəyini bilmirdi-aşağı düşüb onun yanına getsin ya getməsin? Kafedə bir neçə qoca kişi vardı, hamısı nəsə danışan kafe sahibəsinin başına yığışıb, pivə içərək ona qulaq asırdılar.

– Deyəsən əriniz iş yeriylə danışır, elədir? – Kafe sahibəsi pəncərədən ona baxıb əl işarəsiylə soruşdu.

– Aha, bəli... O heç vaxt dayanmır. Həmişə işləyir. İndi mən ona içki apararam, – Cess qadına baxıb candərdi gülümsədi.

Nəhayət, Cess aşağı düşüb Nikollsun yanına gələndə o, alçaq daş divarın üstündə oturmuşdu, dirsəyini dizinə söykəyib gözlərini otluğa dikmişdi.

Cess ona əlindəki pivə krujkasını uzatdı, Ed bir müddət pivəyə gözünü zillədi, sonra krujkanı ondan alıb "Minnətdaram", – dedi.

Telegram: @cinciva

Nikolls çox yorğun, həyəcanlı və zəif görünürdü.

– Hər şey qaydasındadır? – Cess soruşdu.

– Yox! – o pivədən iri qurtum aldı: – Heç nə qaydasında deyil.

Cess ondan azca aralı oturub soruşdu:

– Köməyim dəyə bilər?

– Yox.

Onlar sakitcə oturdular. Kafe pis, qarmaqarışıq idi. Amma Cessin xoşuna gəldi bura. Sakitlik idi, yalnız otluqdan əsən mehin səsini, bir az aralıdan quşların cikkiltisini, bir də kafenin içində gedən söhbətin uğultusunu eşitmək olurdu. Cess ətrafdakı mənzərə haqqında nəsə demək istəyirdi ki, Nikollsun səsi sükutu pozdu:

– Cəhənnəm olsun! Boş ver dediyimi! – zəif səslə dedi.

Nikolls qəflətən elə dedi ki, Cess səksəndi.

– Sadəcə inana bilmirəm ki, mənim bu zəhrimar həyatım belə bataqlığa düşüb, – onun səsi qırıldı, özünü ələ alıb davam etdi: – İnana bilmirəm ki, neçə il işləyəm, işləyəm və belə bir iş başıma gələr. Buna inana bilmirəm. Nə üçün? Hansı zibilə görə? Hansı lənətəgəlmişə görə?

– Ed, bu sadəcə qida zəhərlənməsidir. Sən tezliklə... – Cess onu sakitləşdirmək istədi.

– Eh, mən o zəhrimar kababdan danışmıram. – O başını əlləri arasına alıb dedi:

Bu barədə danışmaq istəmirəm

Bu vaxt onun baxışları acıqlı idi.

– Ok. – Cess daha nə deyəcəyini bilmədi.

Telegram: @cinciva

Cess də özünün pivəsindən bir qurtum aldı. O pivəni çox xoşlamasa da əlindəki bir az fərqliydi. Yuxarıda hamamın pəncərəsi açıldı, buxar çıxdı.

– Hə, hüquqi baxımdan da danışa bilmərəm. Bu haqda heç kimə heç nə deməməyi tapşırıblar.

Cess Edə baxmırdı. Hələ Niki ilk dəfə onlarla bir yerdə yaşamağa gələndə belə şeyləri bir az öyrənmişdi. Sosial işçi ona demişdi ki, əgər Cess Nikiyə yaxşı baxmasa, ona nəzarət edə bilməsə ona iş açа bilərlər. Onlar heyvan kimiydilər. Onlar hədələmək üçün istənilən səbəb tapa bilirlər.

– Hə, deyə bilmərəm...Hüquqi baxımdan, – Ed dedi.

Cess alçaq daş divarın üstündən ayaq larını aşağı sallayıb batmaqda olan günəşi seyr edirdi.

– Mən belə şeyləri anlamaram, savadsız ev təmizləyənəm.

Ed dərindən nəfəs alıb bir də təkrar etdi:

– Cəhənnəm olsun! Boş ver!

Sonra isə o başını aşağı salıb, əlləriylə qısa, qara saçlarını aşağı, yuxarı sığallaya-sığallaya danışmağa başladı.

O, Cessə onu çox pis vəziyyətdə qoyan qız dostundan, ona hələ də dinclik verməyən eks-arvadından, həyatının "iflasa" uğramasından, necə dərin bir "bataqlığa" düşməsindən söz açdı. Cessə şirkətindən, indi iş yerində olub altı il üzərində işlədiyi işin nəticələrini qeyd etmək arzusunun puç olmasından danışdı. Ed indi işindən necə ayrı düşməyini, iş üçün nə qədər darıxdığını, istintaq vaxtı üzləşdiyi çətin anlardan, istintaqın

Telegram: @cinciva

nəticələrinin nə olacağından danışdı. Üstəlik, hazırda xəstə olan atasından, oğlunun başına gələnlərdən sonra onun xəstəliyinin necə şiddətlənəcəyi haqda. Ed ona vəkilindən, ona yenicə zəng edib verdiyi bəd xəbərdən, o səyahətdən Londona qayıdan kimi polis məntəqəsinə gedəcəyini xəbər verən vəkilindən danışdı. Ona qarşı irəli sürülən ittihamdan, guya dövlət sirrini başqasına ötürməkdə onun da əlinin olmasından, onu hətta iyirmi il həbsxana həyatı gözlədiyindən danışdı. O danışıb qurtaranda Cess də dərindən nəfəs aldı.

– Bu vaxtacan nə etmişdimsə, onu itirdim... Bu vaxtacan nəyin qeydinə qalırdımsa, onu itirdim. İndi öz ofisimə getməyə mənə icazə vermirlər. Hətta öz mənzilimə də gedə bilmirəm, qorxuram ki, media məni yaxalayar, baş verənlərlə bağlı ağzımdan söz qaçıra bilərəm. Mən gedib xəstə atama baş çəkə bilmirəm, çünki oğlunun necə bir axmaq olduğunu bilsə, o saat ölər.

Cess onun dediklərini "həzm" etməyə çalışırdı.

Ed ümidsizcəsinə gözlərini günəşə zilləmişdi, birdən sükutu pozdu:

– Bilirsən ən yaxşısı nədir? Bu gün ad günümdür.

– Nə? – Cess maraqla ona baxdı.

– Hə, bu gün ad günümdür.

– Bu gün? Bəs niyə deməmisən?

– Çünki otuz dörd yaşım var, bu yaşda adamın ad günü haqda danışması uşaq hərəkətidir.

Ed pivədən yenə də iri bir qurtum alıb Cessə yanakı baxdı:

Telegram: @cinciva

– Həm də o zəhrimar kababdan zəhərlənəndən sonra ad günümü qeyd etmək haqda düşünmədim, üstəgəl fikirləşdim ki, maşında "Ad günün mübarək" mahnısını oxuyarsınız uşaqlarla.

– Hə, mən o mahnını elə burda da oxuya bilərəm.

– Xahiş edirəm, oxuma. Vəziyyətim indi gərgindir.

Cessin başı fırlanırdı bütün eşitdiklərindən sonra. O, Nikollsun bu qədər pis vəziyyətdə olduğuna inana bilmirdi. Əgər Nikollsun yerinə başqası olsaydı, Cess qollarını onun boynuna salar, onu sakitləşdirmək üçün xoş sözlər deməyə çalışardı. Nikolls bir az tündxasiyyət idi. Buna görə onu günahlandırmaq da düz deyil. İndi ona təskinlik vermək qolları təzəcə amputasiya olunan adama yarasının üstünə qoymaq üçün plaster vermək kimi bir şeydir.

– Arxayın ol, hər şey yaxşı olacaq, – Cess nə qədər fikirləşsə də bundan yaxşı söz tapa bilmədi. O qız öz əməlləri üçün cəzasını alacaq. Günahları ona qənim olacaq.

Ed üzünü turşutdu.

– Nə? Günahları?

– Mən uşaqlarıma bunu tez-tez deyirəm. Yaxşı hadisələr yaxşı adamın başına gəlir. Sən sadəcə inamını itirmə.

– Sözündən belə çıxır ki, mən keçmiş həyatımda ən alçaq adam olmuşam ki, indi başıma bu işlər gəlir?

– Yox. Sən sadəcə inamını itirmə. Sənin mülkin, maşınların, beynin var. Sən baha qiymətə vəkil tutmusan. Sən bu problemin öhdəsindən gələ bilərsən.

Telegram: @cinciva

– Nədən sən bu qədər nikbinsən?

– Çünki ədalətin qalib olacağına inanıram.

– Hə, bu sözləri qatara bilet almağa pulu olmayan bir qadının dilindən eşidirəm.

Cess gözlərini bir az aralıdakı təpələrə zilləmişdi.

– Mən nikbinəm. Düzdür, həm də sənin bu gün ad günündür... İstəyirəm ki, əhvalın yaxşı olsun.

Nikolls ah çəkib dedi:

– Üzr istəyirəm, bilirəm, mənə kömək etmək istəyirsən. Amma indi sənin də nikbinliyinin tükəndiyini hiss edirəm.

– Yox, məncə sən neçə mil yol qət edib Londondan Şotlandiyaya tanımadığın adamları, yekə bir iti maşınında apardığına görə özünü yorğun hiss edirsən. Yuxarı çıx, çoxlu duş qəbul elə, özünü yaxşı hiss edəcəksən. Get!

Nikolls yuxarı çıxdı. Cess isə hələ də alçaq daş divarın üstündə oturub gözlərini otluğa zilləmişdi. O, həbsxanaya düşmək qorxusu olan, iş yerinə buraxılmayan, sevdiyi insanlardan uzaq qalmalı olan adamın halını fikirləşirdi. Kimisə Nikollsun düşdüyü vəziyyətdə göz önünə gətirmək istədi. Sonra o qərara aldı ki, bütün bunlar haqda çox fikirləşməsin, Nikinin hələ də isti suya öyrəşmədiyini yadına saldı.

Bir az sonra, o tam nikbin halda içəri keçdi. Yolüstü kafenin içinə baxdı. Kafe sahibəsi Homes Under the Hammer-ə baxırdı. Qoca kişilər də sakitcə onun yanında oturub kinoya, hərdən də qabaqlarındakı pivəyə baxırdılar.

Telegram: @cinciva

– Xanım Dikins! Bu gün ərimin ad günüdür. Mənə bir yaxşılıq edərsiniz? – Cess üzünü ona tutub dedi.

***

Nikolls saat doqquzun yarısında aşağı düşdü, günorta geydiyi, ondan qabaqkı gün geydiyi kostyumu geyinmişdi. Cess bildi ki, o yuyunub, çünki saçı nəm idi, üzünü də qırxmışdı.

– Bəs sizin çantanızda olan nədir? Yoxsa adam qoymusunuz çantanıza?

– Nə? – Nikolls ona yaxınlaşdı. Ondan Wilkinson Sword sabununun iyi gəlirdi.

– Hə, deyirəm ki, Londondan çıxandan bəri sən yalnız eyni paltarı geyirsən.

Nikolls əyilib paltarına baxdı, bir az yoxlayıb dedi:

– Əynimdəkilər təmizdir.

– Səndə bu idman köynəyindən və cinsdən neçəsi var? Hər gün birini geyirsən?

– Yaxşı ideyadır. Bir paltardan neçə dəst almaq. Yoxlayaram, – Nikolls gülümsündü.

Cess ona baxdı, sonra isə bir neçə dəqiqə əvvəl paltarı haqqında dediklərini geri götürmək istədi. Axı onun ad günüydü!

– Bu gün yaxşı görünürsən, – Ed qəflətən dedi, elə bil nəyisə yenicə görmüşdü.

Cess də paltarını dəyişib mavi rəngli sarafan və toxunma jaket geyinmişdi. Bu paltarı olimpiada günü

Telegram: @cinciva

geyinməyi planlaşdırmışdı, amma bu gün geymək qərarını verdi.

– Çox sağ olun, gərək mən də ətrafımdakılara uyğun geyinəm, düz demirəm?

– Deməli, siz o yastı papağınızı və köhnə, sürtülmüş cinsinizi tullamısınız?

– Sən istehza etdiyinə görə təəssüf edəcəksən. Çünki sürprizim var sənə.

– Aha, sürpriz? – Nikolls ehtiyatla soruşdu.

– Yaxşı şeydir. Buyurun, – Cess əlindəki stəkanlardan birini Edə uzatdı. Stəkandakını bayaq hazırlamışdı. Hətta Dikins onun düzəltdiyinə heyran olmuşdu.

– Bu nədir? – Ed Nikolls şübhəli-şübhəli stəkana baxdı.

Demək olar ki, 1987-ci ildən bəri bu barda kokteyl hazırlamamışdılar, Cess şüşə arxasından tozlu butulkaları götürəndə Dikins özü etiraf etmişdi.

– Şotland viskisi, portağal sirkəsi və portağal şirəsi.

Ed bir balaca qurtum içdi. Sonra daha böyük qurtum içib dedi:

– Əla. Lap yaxşıdır.

– Bilirdim ki, bəyənəcəksən. Mən bunu xüsusi olaraq sənincün hazırladım. Bunun adı Mitherig Bastard-dır.

Ağ plastik stolu, iki stulu otluğun tən ortasına qoydular, iki nəfərlik xalis poladdan hazırlanmış yemək dəstini də stola düzdülər. Araq butulkasındakı şamı da ortaya yerləşdirdilər. Cess kafedən əski gətirib stol və stulların tozunu silmişdi, stulların üstündə toz görməyib onlardan birini çəkib oturdu, birini də çəkdi ki, Ed otursun.

Telegram: @cinciva

– Fresko pizzası yeyəcəyik. Ad günü həzzi. Əgər sən öz stuluna təşrif buyursan, mən də mətbəxə gedib sənin burda olmağın barədə məlumat verərəm. – Edin baxışlarını görməməzliyə vuran Cess dedi.

– Hər halda yağlı çörək yeməyəcəyik, eləmi?

– Əlbəttə, yağlı çörək yeməyəcəyik.

Cess özünü elə apardı ki, guya Edin sözləri xətrinə dəyib. Mətbəx tərəfə gedə-gedə dodaqaltı mızıldandı:

– Torbada qalan yağlı çörəklərin hamısını Niki ilə Tanzi çoxdan yeyib.

Cess qayıdanda Norman şappıltıyla Edin ayağı altına yıxıldı. Cess fikirləşdi ki, yəqin o, ayağını yana çəkər, amma Cess stuluna oturandan sonra da Ed ayağını yana çəkmədi.

– Hə, necəydi?

Nikolls boş kokteyl stəkanına baxdı:

– Ləzzətli.

– Qorxuram bu axşam yalnız ikimiz olaq, çünki o biri qonaqların başı öz işlərinə qarışıb.

– Hə, yəqin biri Waterloo Road-a baxır, o birisi də sarsaq cəbr tənliklərini edir.

– Sən bizim ailəni yaxşı tanıyırsan, – Cess öz stulunda oturdu, elə bu vaxt xanım Dikins, balaca tüklü itləri ayağına dolaşa-dolaşa yolunu onların masasının yanından saldı. Restoranda baş ofisiant bükülmüş Cordon Bleu-nu necə ehtiyatla gətirərsə, o da başı üstündə folqalı piroqu və cipsi boşqablarını tutmuşdu.

Əlindəkiləri stolun üstünə qoyub ədayla dedi:

Telegram: @cinciva

– Hə, bu da sizin ət piroqunuz. Yolun kənarındakı İan adlı kişi bunu yaxşı hazırlayır.

Cess el ac idi, sanki bu vaxta qədər İanın hazırladığı piroqlardan çox yeyib, ona görə də dizi üstünə kağız salfet qoyaraq ağzından sözlərin necə çıxdığını da bilmədi:

– Aha, fantastikdir. Minnətdaram.

Xanım Deakins onların yanında dayanıb ətrafa elə baxırdı elə bil ilk dəfəydi buraları görürdü.

– Biz heç vaxt burda yemirik. Əla ideyadır! Bundan sonra müştərilərimə burda yeməyi təklif edə bilərəm. Hələ bu kokteyl. Mən bundan da hazırlatdıra bilərəm.

Nədənsə Cess kafenin içindəki o qoca kişiləri xatırladı.

Bu vaxtacan bizdə kokteyl olmamağı ayıb deyil, – o Nikollsa baxdı.

O, sakit görünürdü.

Dikins əllərini önlüyünə silib dedi:

– Hə, cənab Nikolls. Həyat yoldaşınız ad gününüzü yaxşı qeyd etmək üçün hər şey edib, – belə deyib ona göz vurdu.

Nikolls başını qaldırıb ona baxdı.

– Cess olan yerdə heç vaxt sakitlik olmur, – gözaltı Cessə baxdı.

– Bilmək olarmı nə vaxtdan evlisiniz?

– 10 ildir... Yox, üç ildir.

– Uşaqlar mənim əvvəlki ərimdəndir, – Cess piroqu dilimləyə-dilimləyə dedi.

Telegram: @cinciva

– Aha, belə de.

– Mən onu xilas etmişəm. Yolun qırağından, – Nikolls dilləndi.

– Çox romantikdir, – Dikins gülümsədi.

– Çox da romantik deyil. Həmin vaxt onu həbs etmək istəyirdilər.

– Mən hamısını ona demişəm. Aman Allah, bu cipslər yaman ləzzətlidir, – Cess öz aləmindəydi.

– Hə, görürsünüz, demişdim axı.

– Bu polislər də hər şeyi tez başadüşəndir.

Dikins geri döndü:

– Çox yaxşıdır ki, hələ də bir yerdəsiniz.

– Biz çətin yola gedirik, – Cess dilləndi.

– Hazırda başqa yolumuz yoxdur, – Nikolls da fikrini bildirdi.

– Bu da həqiqətdir, – Dikins dedi.

– Bizə qırmızı sous gətirə bilərsiniz? – Ed xahiş etdi.

– Hə, əzizim, yaxşı fikirdir.

Elə ki o gözdən itdi, Nikolls başıyla butulkanın içindəki şama, boşqablara işarə etdi. Sonra isə başını qaldırıb Cessə baxdı, daha o qaşqabaqlı deyildi.

– Doğrudan da piroq və cips ləzzətliydi. Hələ heç vaxt belə bir yerdə, belə şey yeməmişəm. Belə bir şey haqda şimali Yorkşirin heç harasında eşitməmişəm.

– Çox şadam. Ad günün mübarək.

Araya sükut çökdü, amma hər ikisi bu sükutdan razıydı. Azacıq isti yemək və tünd kokteyl adamı necə də doyuzdura bilərmiş. Cess başını qaldırıb yuxarı,

Telegram: @cinciva

otaqlarına baxdı, televizorun səsini eşidib bildi ki, Niki hələ də televizora baxır. Televizordan gələn mırıltı səsi pəncərədən keçib ətrafa yayılırdı ki, dalğalar itdi və Nikinin proqramı yarıda kəsildi. Yaxınlıqdakı telefon tellərinin üstündəki qara qarğalar qarıldaşdılar. Norman da o biri böyrü üstə çevrildi, Nikollsun ayağını "yük" dən xilas etdi. Nikolls ayağının keyimədiyinə arxayın olmaq üçün uzatdı.

Sonra başını qaldırıb Cessə baxdı və təzələnmiş kokteyl stəkanını qaldırdı.

– Ciddi sözümdür, özümü indi daha yaxşı hiss edirəm. Minnətdaram.

Nikolls eynəklərini çıxarmışdı. Cess onun kirpiklərinin necə uzun olduğunu indi hiss etdi. Stolun üstündəki şam işığında kirpikləri daha gözəl görünürdü.

– Hə... Sənin çün ən azı bunları edə bildim... Sən axı bizi xilas etmisən... yol qırağından. Bilmirəm ki, sənə necə minnətdar olum.

Nikolls cipsidən götürüb yuxarı qaldırdı:

– Mən öz " komandama" qulluq etməyi xoşlayıram.

– Elə bilirəm evlənmiş olsaydıq bu cəhətini qiymətləndirərdim.

– Alqışlar! – Nikolls ona baxıb gülümsədi. Cess heç özü də bilmədi ki, necə oldusa o da ona baxıb gülümsədi.

– Sabahkı günümüzün şərəfinə içək. Tanzinin gələcəyi naminə, – Cess təklif etdi.

– Mənasız sözlərin yoxluğu şərəfinə içək, – Nikolls dedi.

Telegram: @cinciva

– Mən də bu şərəfə içəcəm.

***

Axşam dönüb gecəyə keçdi, güclü alkoqolun təsiriylə gecənin necə keçməsi heç hiss olunmurdu. Heç kimin maşında yatmaması, burdan birbaşa hamama girmək imkanı onlara xoşbəxtlik kimi görünürdü. Televizor göstərmədiyindən Niki aşağı düşüb kafeyə gəldi, yemək yedi, gözü üstünə tökülən saçları altından orda oturan qoca kişilərə nəzər saldı. Onlar da onu yataq otağına gedib televizora baxmaq üçün geri qaytardılar. Cess iki stəkan acı Liehfraunmilch içdi, sonra yuxarı, Tanzinin yanına çıxdı ki, onun nə ilə məşğul olmasını bilsin, həm də yediklərindən ona apardı. Tanziyə tapşırdı ki, saat ondan sonra daha heç nəyi təkrarlamasın.

– Hələ saat on deyil, olar ki, gedib o biri otaqda təkrar edim? Niki burda televizora baxır.

– Olar, get.

– Səndən şərab iyi gəlir, – Tanzi çoxmənalı tərzdə dedi.

– Hə, düz deyirsən. Çünki biz indi elə bil tətildəyik. Analar tətil vaxtı içə bilərlər.

– Hm... hm... – Tanzi Cessə ciddi-ciddi baxdı, sonra başını aşağı salıb kitablarını vərəqlədi.

Niki tək çarpayılardan birinə yayxanıb televizora baxırdı. Cess içəri girib qapını örtdü və havanı iylədi.

– Sən siqaret çəkmisən, eləmi?

Telegram: @cinciva

– Əgər yadındadırsa, bütün siqaretlərimi əlimdən almısan, dedin ki, onları tullayacaqsan.

– Hə, yadıma düşdü.

Demək olar ki, Cess bunu tamam unutmuşdu.

– Sən dünən gecə də, ondan əvvəlki gecə də siqaret çəkmədən yatdın.

– Cess...

– Ok. Düz deyirəm?

Niki çiyinlərini çəkdi.

Cess dedi:

– Məncə sən mənə demək üçün aşağıdakı sözləri axtarırsan: "Mən bundan sonra yatmaq üçün qanunsuz maddələrdən istifadə etməyəcəm". Hə, indi isə bu döşəyi qaldırmağıma kömək et.

Cess Nikinin qalxmadığını görüb dedi:

– Mən axı o biri otaqda Nikollsla bir otaqda yata bilmərəm. Sənin otağında döşəmənin üstündə özümə yer hazırlayım. Ok?

Niki ah çəkdi, qalxıb ona kömək etdi. Cess hiss edirdi ki, daha o hər dəfə ayağa duranda diksinmir. Tanzinin çarpayısının yanındakı xalçanın üstünə döşəyi qoyanda qapıya tərəf getmək üçün çox az yer qaldı, demək olar ki, döşək qapıya dirəndi.

– Mən gecə tualetə getmək istəsəm gülməli vəziyyət yaranacaq, – Niki dedi.

– Daha böyük oğlansan. Yatmazdan əvvəl mütləq işə, – sonra o Nikiyə dedi ki, televizoru saat onda söndürsün, Tanzinin yatmağına mane olmasın, sonra aşağı düşdü.

Telegram: @cinciva

***

Külək şamı çoxdan söndürmüşdü, onlar qaranlıqda söhbət edərkən bir-birlərini görə bilməyəndə kafenin içinə girdilər, Deakins xanımdan və qoca kişilərdən aralı bir stol arxasına keçdilər. Artıq Cess və Nikolls valideynlərindən, ilk iş yerləri barədə danışıb qurtarıb ailə münasibətlərinə keçmişdilər. Cess ona Martidən danışdı. Bir dəfə ad günündə ona elektrik məftili almasını, "Sən axı dedin ki, məftil istəyirsən" deyib etiraz etdiyindən söz açdı. Nikolls isə keçmiş arvadı Laraya ad günündə etdiyi sürprizdən, sürücüsünə onu gedib evdən götürməyi və bahalı bir otelin restoranına aparmağından, orada ona rəfiqələri ilə bir yerdə səhər yeməyi təşkil etməyindən danışdı. Sonra isə Laranın onların şəxsi bazarlıq edəni Harvi Nikollsla vaxt keçirməsindən, günorta onunla birlikdə nahar edərkən gileylənib

"Niyə bütün günü mənimlə keçirmirsən?" deməyindən danışdı. Əgər həmin anlarda Lara Cessin yanında olsaydı o məmnuniyyətlə onun hədsiz makiyajlı üzünə şillə ilişdirərdi (Cess onun sifətinin belə olmasını özü kəşf etmişdi).

– Boşananda siz ona nəsə verdiniz?

– Verməli deyildim, amma verdim. Bundan başqa, boşanandan sonra o mənim mənzilimə düz üç dəfə girib, qiymətli çox şey götürüb.

– Sən onun götürdüklərini geri aldın?

Telegram: @cinciva

– Onunla təzədən baş-başa gəlməyə dəyməzdi . Əgər Mao Tse-tung-un rəsm əsəri onunçün elə vacibdirsə qoy onda qalsın.

– Bu rəsm əsərinin qiyməti nə qədərdir?

– Nə?

– Şəklin qiymətini soruşuram.

– Az deyil, bahadır.

– Nikolls, deyəsən biz sənlə ayrı-ayrı dildə danışırıq, – Cess belə deyib Nikollsa baxıb soruşdu:

– İndi evinin açarlarını dəyişmisən?

Nikolls yerində azacıq qurcalandı.

– Onlar hamısı maddi şeylərdir.

Cess onun sözlərini eşidib üzünü turşutmaq istəyəndə Nikolls ondan soruşdu:

– Hə, bəs ərin sənə nə verib?

– Heç nə.

– Heç nə? – onun kirpikləri az qala qaşlarına dəyirdi.

– Doğrudan heç nə? – o, bir də təkrar etdi.

– Onun heç nəyi yox idi. Xarabalıq idi. Kimisə "xarabalıq" olduğuna görə cəzalandırmaq olmaz ki.

– Sən düz deyirsən, biz bir-birimizi düz anlamırıq. Deyəsən doğrudan d, başqa dillərdə danışırıq. Axı sən təksən, iki uşaq... Onları yaşatmaq üçün sən tək mübarizə aparırsan.

Cess ona necə izah etsin ki, o iki ildir uşaqları təkbaşına böyüdür. O bilirdi ki, uşaqlar Martidən ötrü darıxırlar, amma o qəlbinin dərinliyində də olsa o gedəndən özünü yüngülləşmiş hesab edirdi. Cess özünü

Telegram: @cinciva

yüngülləşmiş, ağır yükdən xilas olmuş vəziyyətində hiss edirdi. Çünki bundan sonra o arxayın idi ki, Marti onların gələcək həyatlarına "basqın" etməyəcək. Cess onun qaşqabaqlı olmasından, bütün günü pis əhvalda olmasından bezmişdi, uşaqların hər hərəkəti Martini özündən çıxarırdı. Marti on altı yaşlı Cessi bəyənmişdi, sadəlövh, heç nə üçün məsuliyyət daşımayan Cessi...

Sonra Tanzi doğuldu, uşaq böyütmək yükünün altına girdi, Marti onun bu halını bəyənmədi.

– O hər şeyi yoluna qoyandan sonra nəsə vermək istəsə, onda qəbul edərəm. Amma onsuz da biz dolanırıq.

Cess başını qaldırıb yuxarı, Nikinin və Tanzinin yatdığı otaqlara baxdı:

– Elə bilirəm ki, onun getməyi ailəmizdə dönüş nöqtəsidir. Bəlkə də sən məni düz başa düşməzsən, bəlkə də başqaları uşaqlarımı qəribə hesab edir. Amma mən xoşbəxtəm ki, onlar mənimlədir. Onlar mehriban və zarafatcıldır. Onların maddi şeylər haqqında öz fikirləri var.

Cess özünə yenə də şərab süzdü, bir qurtum içdi. Artıq onunçün içmək daha da asanlaşmışdı. Bircə o neçə dişinin mina qatının zədələnəcəyindən qorxurdu.

– Hə, yaxşı uşaqlardır, – Nikolls dedi.

– Sağ olun. Faktiki olaraq bu gün bir şeyi dərk etmişəm. Son bir neçə gün birinci dəfədir ki, mən bütün günü onlarla bir yerdəyəm. Heç bir iş görmədən, ora-bura qaçmadan. Bazarlıq etmədən, hansısa iş dalınca

Telegram: @cinciva

getmədən. Onlarla bütün günü bir yerdə olmaq necə də yaxşıdır – əgər bu halı qeyri-normal hesab etməsək.

– Bu qeyri-normal deyil...

– Bir də Nikinin yatmağı... Heç bilmirəm sən ona nə etdin ki, o indi rahat yatır...

– Hə, sadəcə onda tarazlıq yaratdım.

Cess stəkanını qaldırdı:

– Sənin ad günündə başqa yaxşı şey də oldu. Sən mənim oğlumu ruhlandırdın.

– Bu gün yox, dünən.

Cess bir an fikrə getdi, sonra dedi:

– Həm də sən təzədən qusmadın.

– Ok. Bəsdir. Burda dayan.

Cess onu demək olar ki, yaxşı görmürdü. Çünki onlar üzbəüz yox, yanaşı oturmuşdular. Amma Cess onun rahatlandığını hiss edirdi. Bəlkə buna səbəb yediyi ləzzətli piroq, içdiyi kokteyl, ya ondan sonra içdiyi dörd parç pivə idi. Cess bunu dəqiq bilmirdi. Amma hər halda Nikolls daha həyəcanlı deyildi. O geri söykəndi, arxasını stula söykəyib ayaqlarını irəli uzatdı. Bir müddət onun bir ayağı Cessin ayağının üstündə qaldı. Cess ayağını geri çəkmək istədi, amma çəkmədi. O sanki çılpaq ayaqlarında elektrik hiss etdi.

Cess bunu çox xoşladı.

Sanki ona nəsə olmuşdu. Buna səbəb içdiyi şərab , bütün qayğılardan uzaqda olması, gedəcəkləri mənzilbaşına az məsafənin qalması deyildi. Cess ona nə olduğunu heç özü də bilmirdi. Nədənsə o Nikollsun

Telegram: @cinciva

bir daha əsəbi və ümidsiz olmasını istəmirdi. O onun üzündə təbəssüm görmək istəyirdi. Onun gülümsədiyini görəndə o da özündən asılı olmadan gülümsəmişdi. Sonra onlar barın içində , televizorun uğultusu altında sakitcə söhbət etdilər, bir-birinin həyat hekayətini dinləyib bir kəmağıl kimi tez-tez gülümsədilər.

– Bilirsən, mən hələ sənin kimisinə heç yerdə rast gəlməmişəm, – Nikolls dedi.

O, gözlərini masaya zilləmişdi, demək olar fikir dəryasına qərq olmuşdu. Cess ev təmizləyən, barda işləyən qadınlar haqqında gülməli hadisələrdən danışmaq istəyəndə bir anlıq Nikollsun bədənini qarnı üstündə göz önünə gətirdi, onun çılpaq bədənini V vəziyyətdə tarım çəkilmiş halını təsəvvür etdi. Bir anlıq özünü onunla yataqda göz önünə gətirdi, ürəyində fikirləşdi ki, görsən onunla yatmaq necə olar.

Bu fikirdən elə sarsıldı ki, hətta ürəyindəkiləri bərkdən dilinə gətirdi:

– Məncə, Nikollsla sevişmək çox yaxşı olar.

Stəkanındakı qalan şərabı da içdi, gözlərini uzaqlara zillədi, şərab boğazından keçəndə etdiyi "şikayət"in yanğısı boğazını yandırdı.

Nikolls ona baxırdı.

– Xətrinə dəyməsin. Bunu pis mənada demədim, – Cess ona baxmadan dedi.

– Yox, incimədim, – Nikolls dedi.

Cessin yanaqları qıpqırmızı qızarmışdı.

Telegram: @cinciva

– Sən bu vaxtacan rast gəldiyim ən nikbin adamsan, bacarıqlısan. Sən evdə kişi işləri də görürsən, nəyisə yerinə bərkidirsən. Sən heç vaxt təəssüf etmirsən. Yoluna çıxan hər maneənin üstündən keçib gedirsən.

– Düzdür, amma bu maneənin üstündən keçəndə şalvarım cırılır, yıxılıram.

– Amma yoluna davam edirsən.

– Hə, amma kimsə mənə kömək edəndə...

– Ok. Müqayisələrin lap məni çaşdırır, – Nikolls bir qurtum pivə içib davam etdi:

– Mən sadəcə demək istəyirəm ki... Hə... demək olar ki, səfərimiz artıq başa çatmaq üzrədir...Demək istəyirəm ki, bu səfərimizdən həzz aldım. Hətta gözlədiyimdən də çox...

– Hə, mən də, – Cess sözləri ağzından çıxandan sonra nə dediyinin fərqinə vardı.

Onlar hələ də oturmuşdular. Nikolls Cessin ayaqlarına baxırdı. Cess üçün maraqlıydı, görəsən o, Cessin nə fikirləşməsi haqda düşünürmü?

– Cess, bilirsən həm də nə baş verib?

– Nə?

– Sən daha həyəcanlanmırsan.

Onlar bir-birinə baxdılar, sanki onların arasından nəsə keçdi. Cess başını qaldırıb baxmaq istədi. Amma bacarmadı. İndi Cess yalnız onun qara gözlərini, alnına düşən saçlarını görürdü.

Sən yenə də "ata" minməlisən... – Natalinin bu sözlərini xatırladı.

Telegram: @cinciva

Nikolls başını qaldırdı.

– Dayan, saata bir bax! Çox gecdir. Gərək bir az yataq. Dedin ki, səhər tez durmalıyıq.

Nədənsə o bərkdən danışırdı.

Cess dedi:

– Hə, demək olar ki, artıq saat on birdir. Sabah günorta orda olmaq üçün biz səhər saat yeddidə yola düşməliyik. Düz demirəm?

– Düzdür.

Cess ayağa duranda azca səndələdi, onun qolundan tutmaq istədi, amma o artıq azca uzaqlaşmışdı.

Səhər yeməyi üçün nə yeyəcəklərini sifariş verdilər, xanım Dikinsə "gecəniz xeyrə" deyib əl eləyəndən sonra kafenin arxasındakı pilləkənlərlə yavaş-yavaş yuxarı qalxdılar. Cess qabaqda, Nikolls da onun arxasıyla çıxırdı. Cess yeridikcə ombaları yırğalanırdı. Həm də onun çiyinləri görünürdü. Görəsən Nikolls ona baxırdı? O müxtəlif şey fikirləşirdi. Bir anlıq düşündü ki, görəsən Nikolls indi onun çılpaq çiyinlərindən öpsə görəsən o nə edər? O düşündü ki, o özü də bilmədən qəribə səs çıxarar.

Onlar qapıya çatıb dayandılar, Cess arxaya dönüb ona baxdı. Ona elə gəldi ki, bu üç gün müddətində o Nikollsu yalnız indi görür.

– Cessika Rae Tomas. Gecən xeyrə! – Arxayın ol ki, "Rae" sözündə bütün səsləri tələffüz etdim.

Cess əlini qapının dəstəyinə uzatdı. Sonra o yenə geri dönüb ona, onun təmiz idman köynəyinə, bir az

Telegram: @cinciva

qəmgin gözlərinə baxdı, az qala nəfəsi kəsildi. Bir müddət heç nə danışa bilmədi. Qapını itələdi, ona baxıb "səhərə qədər" dedi.

– Səhər mən sənə kofe təklif etmək istəyərdim. Amma tərslikdən sən həmişə birinci oyanırsan.

Cess nə deyəcəyini bilmədi. Sadəcə gözlərini ona zillədi.

– Hm... hm, Cess!

– Nədir?

– Sənə minnətdaram. Hər şeyə görə. Xəstələnəndə etdiklərin üçün. Ad günü sürprizin üçün. Ola bilər ki, sabah bu sözləri sənə deməyə imkan olmasın, – Nikolls onun üzünə baxıb gülümsədi: – Keçmiş arvadım getsə, sevimlim olarsan...

Cess də gülümsəmək istədi, amma deyəcəyi sözlər quruyub boğazında qaldı. O qapını bir də itələdi. Yenə də nəsə demək istədi, amma qapının açılmadığını görüb fikrindən daşındı.

O geri dönüb qapını yenidən itələdi. Qapı azca, bicə qarış aralandı.

– Nə olub?

– Heç nə. Qapını açа bilmirəm, – hər iki əliylə qapını bir də itələdi.

Nikolls da gəlib qapını itələdi, cüzi aralandı.

– Qapı bağlı deyil. Qapının arxasında nəsə var, açılmağa mane olur, – o qapının dəstəyinə baxıb dedi.

Cess çömbəlib oturdu, qapının arasından içəri baxmaq istədi, bu vaxt Nikolls da qapının üstündəki işığı

Telegram: @cinciva

yandırdı. Qapının açıq hissəsindən Cess yalnız onu gördü ki, Norman döşəyin üstündə uzanıb, arxası da qapıya tərəf.

– Norman, tərpən, – Cess iti səslədi.

Norman tərpənmədi.

– Norman.

– Əgər mən itələsəm Norman oyanacaq, eləmi?

Nikolls qapıya tərəf əyildi. Bütün gücüylə qapını itələdi.

Cess başını yırğaladı.

– Sən bizim iti tanımırsan hələ.

Nikolls qapının dəstəyindən dartanda qapı yavaşca çıqqıldadı. Deyəsən indi tam bağlandı.

– Hə, orda cəmi iki çarpayı vardı, – nəhayət Nikolls dilləndi.

Cess qımışıb dedi:

– Hm. Norman tək çarpayının üstündə yatır. Mən çarpayının üstündəki döşəyi götürüb döşəməyə qoymuşdum bir az əvvəl.

Nikolls yorğun halda Cessə baxıb dedi:

– Qapını döyək?

– Yox, Tanzi çox həyəcanlanar. Mən onu oyatmağa risk etmərəm. Mən sənin otağındakı kresloda yataram.

Nikolls etiraz etmək istəyəndə Cess hamama getdi, əl-üzünü yuyub dişlərini fırçaladı, plastik çərçivəli balaca güzgüdə alkoqolun təsirindən qızarmış sifətinə baxdı, beynindəki fikirləri özündən uzaqlaşdırmaq istədi.

O, Nikollsun otağına qayıdanda Nikollsun əlində boz idman paltarı vardı, o paltarı Cessə uzadıb "götürün"

Telegram: @cinciva

dedi, sonra hamama getdi. Cess onun verdiyi paltarı geyindi, çalışırdı ki, paltardan gələn erotik kişi qoxusunu vecinə almasın. Sonra o şkafdan ehtiyat yorğanı və yastığı götürdü, kreslonun üstünə sərdi, rahat olmaq üçün bilmədi ki, ayaqlarını necə uzatsın. Deyəsən, bu gecə çox uzun olacaqdı.

Bir neçə dəqiqə sonra Nikolls qapını açıb içəri girdi, çarpayısının üstündəki işığı söndürdü. Onun əynində ağ idman köynəyi, tünd mavi şort vardı. Onun ayaqlarının əzələləri aydınca hiss olunurdu. Adətən belə əzələ heç bir idmanla məşğul olmayanlarda olur. Cess bir anlıq bu əzələli ayaqlara öz ayağı dəyərkən hansı hiss yaşayacağını düşündü.

Nikolls balaca çarpayıya uzananda çarpayı azca cırıldadı.

– Sənə belə rahatdır? – o lavanda rəngli yataq örtüyü altından başını çıxarıb soruşdu.

– Tamamilə əla! Bəs sən necə, rahatsan?

– Əgər çarpayının bu cırıldayan yaylarından biri bədənimi deşsə, icazə verirəm, maşınımı sən sürərsən. Nikolls zarafatla dedi.

Bir müddət o, Cessə baxdı, sonra çarpayının yanındakı işığı da söndürdü.

***

Hər tərəf qaranlıq idi. Bayırda külək vıyıldayır, ağacların yarpaqları xışıldayırdı. Külək maşının qapısını şappıldadırdı. Üzbəüz otaqda Norman yuxuda

Telegram: @cinciva

zingildəyir, onun səsi nazik arakəsmədən keçib onlar yatan otaqda da eşidilirdi. Cess Nikollsun hənirtisini eşidirdi. Ötən gecə ondan bir neçə qarış aralıda yatsa da yalnız indi onun varlığını duyurdu. Cess onun Nikinin təbəssümünü özünə qaytarmasını yadına saldı. Onun maşın sürərkən barmağını sükana necə qoymasını xatırladı. Onun alçaq daş divarın üstündə oturub fikrə getməsi gözü önünə gəldi. Başına gələnləri, itirdiklərini ona deyəndə keçirdiyi acıq və ağrılar onun üzündə əks olunmuşdu.

Cess bir neçə həftə əvvəl Nikidən eşitdiyi bir ifadə – YOLO (you only live once – Sən yalnız bir dəfə yaşayırsan) haqqında fikirləşdi. O, ifadəni eşidəndə Nikiyə dedikləri sözləri yadına salmağa çalışdı. Nikiyə demişdi ki, bəzi adamlar səhvlərini ört-basdır etmək üçün bu ifadəni işlədirlər.

Sonra Cess Liam haqqında düşündü. O dəqiq bilirdi ki, Liam elə bu anlarda hansısa qadınla sevişir – ya o Blue Parrot-dan olan kürən bufetçi qadınla, ya da ola bilsin gül furqonunu sürən o holland qızla. Cess Çelsi ilə aralarındakı söhbət haqda fikirləşirdi. Çelsi ona demişdi ki, o gərək o uşağının olmasını hamıya deməsin, çünki heç bir kişi iki uşağı olan subay qadına vurulmaz. Onun sözlərini eşidəndə Cess çox hirslənmişdi. Amma ürəyinin dərinliyində Chelseanın tam haqlı olduğunu bilirdi.

O bir şeyi də fikirləşirdi ki, səfərləri başa çatandan sonra hətta Nikolls həbsxanaya düşəsi olmasa da o bir də onu heç vaxt görməyəcək.

Telegram: @cinciva

Fikirlər onu yorandan sonra kresloda yerini rahatladı, üstündəki yorğan kreslodan aşağı sallandı. Bu halda o ayağını bir az rahat uzada bilirdi. Nikollsun çarpayısı ilə yorğanın arası heç dörd addım da olmazdı. Ayağa durdu, baş barmaqları akril xalçaya dəydi. O özü də nə etdiyini bilmirdi. You only live once.

Qaranlıqda o Nikollsun adyalını qaldırıb onun yanına girəndə Nikollsun dönüb ona tərəf uzandığını hiss etdi.

İndi onun sinəsi Nikollsun sinəsinə dəyirdi, onun soyuq ayaqları onun isti ayaqlarına toxunurdu. Çünki çarpayı o qədər dar idi ki, döşəyin "sıldırım" qıraqları onun arxasındaydı. Onlar o qədər yaxın idi ki, Cess onun üz qırxandan sonra vurduğu lasyonu, diş pastasının qoxusunu da duyurdu. Cess onun qalxıb-enən sinəsini hiss edirdi. Ürəyi gah yavaş, gah da sürətlə döyündükcə onun ürəyinin döyüntüsünü aydınca eşidirdi. Ed bir qolunu tərslikdən çox ağır adyalın üstündən onun ayağının üstünə qoydu, onu özünə tərəf çəkdi. O biri əliylə onun qolunu qaldırıb öz qolu üstünə qoydu. Onun bir əli quru, o biri əli isə yumşaq idi, əli Cessin ağzından azca aralıydı. Cess əyilib onun əlindən öpmək, sonra isə dodaqlarını dodaqlarına toxundurmaq istədi. O istədi ki, ağzını onun ağzına yaxınlaşdırıb dişlərini ehmalca yuxarı dodaqlarına toxundursun.

Sən yalnız bir dəfə yaşayırsan... YOLO – You only live once!

Telegram: @cinciva

Cess qaranlıqda, öz ehtirasıyla təkbətək qalıb az qala iflic olmuşdu. O bu halında hansı sual verəcəyini, onun hansı cavabı verəcəyini bilmirdi.

– Mənimlə sevişmək istəyirsən? – qaranlığa pıçıldadı.

Araya uzun sükut çökdü.

– Sən mənim dediyimi...

– Hə. Və yox, – Nikolls dedi.

Cess quruyub daşa dönməzdən əvvəl Nikolls yenə nəsə dedi:

– Məncə, bu hər şeyi daha da mürəkkəbləşdirər.

– Yox, mürəkkəbləşdirməz. Hər ikimiz cavanıq, ikimiz də təkik, bu gecədən sonra heç vaxt bir-birimizi görməyəcəyik.

– Necə?

– Sən sabah Londona qayıdıb öz həyatını yaşayacaqsan, mən də Londonun kənarında öz həyatımı yaşayacam.

Nikolls bir neçə dəqiqə susdu, sonra:

– Cess, mən belə düşünmürəm, – dedi.

– Yox, sən məni xoşlamırsan, – Cess onun keçmiş arvadı Laranın model olmasını yadına saldı.

Cess ondan azca aralansa da onun qolları belinə dolanmışdı. Onun pıçıltısını eşitdi: "Sən gözəlsən!"

Cess gözləyirdi. Onun əlləri ovcunu sığallayırdı.

– Hə, niyə mənimlə yatmaq istəmirsən?

Nikolls heç nə demədi.

– Bura bax, mən üç ildir ki, heç kimlə yatmamışam. Mən də "ata minmək" istəyirəm. Məncə, sən minmək üçün ən yaxşı...

Telegram: @cinciva

– Hə, sən mənim at olmağımı istəyirsən.

– Sən başa düşdüyün kimi yox. Metaforik at.

– İndi biz metaforaları qarışıq salırıq.

– Bura bax, indicə gözəl dediyin bir qadın heç təmənna ummadan sənə seks təklif edir. Baş açmıram nə problem var burda.

– Təmənnasız seks olmur.

– Nə?

– Kimsə həmişə nəsə umur.

– Mən səndən heç nə istəmirəm.

Cess onun çiyinlərini çəkdiyini hiss etdi.

Sonra Nikolls dedi

– Ola bilsin ki, indi istəmirsən, ola bilsin ki, sonralar...

– Aman Tanrım! – Cess o biri böyrü üstə dönüb soruşdu:

– Deyəsən o qız...

– Yox... mən sadəcə, – Nikolls nəsə demək istədi.

Cess ayağını onun ayaqları üstündə sürüşdürdü, sözünə davam etdi:

– Yoxsa elə bilirsən bu sözlərlə səni aldadıram? Yoxsa elə fikirləşirsən bu bir qadın hiyləgərliyidir? Qadın hiyləgərliyi, neylon yataq örtüyü, piroq...

Cess barmaqlarını onun barmaqlarına keçirdi. İndi onun səsi pıçıltı kimiydi. O artıq özündə deyildi. Ona elə gəldi ki, bu dəqiqə ehtirasdan boğulacaq, ürəyi gedəcək. Cess pıçıldadı:

– Heç kəslə münasibətdə olmaq istəmirəm, Ed. Nə sənlə, nə də başqa birisiylə.

Telegram: @cinciva

Uşaqlarla olan Bütün Həyatımın üstünə başqa birini də əlavə etmək niyyətim yoxdur.

O, dodaqlarını onun dodağına uzatdı, bircə barmaq məsafə vardı dodaqları arasında. Onun diş pastasının xoş qoxusunu hiss edirdi.

Nikolls bədənini ondan aralamaq istədi:

– Sən çox inandırıcı danışırsan.

– Elə sən də... – Cess belə deyib ayaqlarını onun belinə doladı, onu özünə tərəf dartdı. Onun ağırlığını üstündə hiss edib bir an az qala huşunu itirdi.

Nikolls udqunurdu.

Cessin dodaqları onun dodağından millimetr aralıydı. Sanki Cessin bütün əsəb sinirləri dərisində yerləşirdi. Ya da ola bilsin Edin dərisində.

– Bu axırıncı gecədir. Özün bilirsən. sən sabah bizi Aberdində düşürəcəksən, sonra heç vaxt bir-birimizi görməyəcəyik. Ən pis halda, mən tozsoranla evini təmizləyəndə sənə ötəri nəzər sala bilərəm. Bugünkü gecəmizi gözəl bir oğlanla, həqiqətən də gözəl olan bir oğlanla keçirdiyim ən gözəl gecə kimi xatırlayaram!

Cess dodaqlarını onun çənəsinə toxundurdu. Dodaqlarını lap xırda tüklər daladı. Az qala onun çənəsini dişləmək istəyirdi.

– Hə, sən də bu gecəni indiyədək daddığın ən yaxşı seks kimi xatırlayacaqsan.

– Düz deyirsən, – Ed pıçıldadı.

Cess ona daha da qısıldı.

– Elədir ki, var...

Telegram: @cinciva

– Sən çox yaxşı vasitəçi ola bilərdin kişiylə qadın arasında.

– Danışmağa son qoymayaq? – Cess ona tərəf daha bərk sıxıldı.

Dodaqları onun dodağına çatmışdı az qala. Yüngülcə səksəndi. Ed özünü ona təslim edəndə onun dodaqlarından ona ötürülən elektriki, onun şirinliyini daddı. Cess onu istəyirdi. O ondan ötrü alışıb yanırdı. "Ad günün mübarək" – onun qulağına pıçıldadı.

Ed birdən geri çəkildi. Gözlərini ona zilləyib baxdığını Cess həm duydu, həm də gördü. Qaranlıqda onun gözləri qaraydı, ağlagəlməz dərəcədə qaraydı. O, əlini Cessin əlindən çəkdi, əlini çəkəndə əlləri Cessin qarnı boyunca sürüdü, Cess yüngülcə inildəyib titrədi.

– Cəhənnəm olsun! Rədd olsun, – Ed sakitcə dedi.

Sonra isə zarıyırmış kimi pıçıldadı:

– Sabah buna görə mənə təşəkkür edəcəksən!

Nikolls ondan aralandı, çarpayıdan düşdü, dərindən ah çəkib kresloda oturdu, adyalı üstünə dartdı, üzünü çevirdi.

Telegram: @cinciva

20

ED

Ed fikirləşirdi ki, səkkiz saat rütubətli maşın parkında maşının içində vaxt keçirmək gecəni keçirməyin ən pis yoludur. Sonra o fikirləşirdi ki, gecəni keçirməyin ən pis yolu hardasa Derbi yaxınlığında qoşqulu vaqonda içalatını qusa-qusa tualetlə çarpayı arasında əsir-yesir olmaqdır. İndi isə o fikirləşirdi ki, bunların heç biri gecəni keçirməyin ən pis yolu deyil. Ona aydın oldu ki, gecəni keçirməyin ən pis yolu balaca otaqda sənlə sevişmək istəyən yüngülcə sərxoş bir qadınla təkbətək qalıb onunla sevişməmək, axmaq kimi onu rədd etməkdir.

Cess yuxuya getmişdi, bəlkə də özünü elə aparırdı ki, guya yuxulayıb. Bunu dəqiq demək mümkün deyildi. Ed isə dünyanın ən dar, ən narahat kreslosunda oturub ay işığında gözlərini pərdənin deşiklərinə zilləyib durmuşdu. Adyalın altından bayıra çıxan sağ ayağı keyimiş, sol ayağı isə az qala soyuqdan donurdu. Çalışırdı ki, bir neçə dəqiqə əvvəl baş verənlər haqqında fikirləşməsin. Fikirləşməsin ki, əgər o, adyalın altından

Telegram: @cinciva

tullanıb durmasaydı, indi qolları onun qoynunda, dodaqları onun dodaqlarında, onun balaca ayaqları belinə dolanmış vəziyyətdə yuxuya gedərdi.

"Yox, mən düz hərəkət etmişəm", – o öz-özünə dedi. O elə belə də etməliydi. Həyatı onsuz da mürəkkəbləşib, eksentrik ailəsi olan, ev təmizləyən ehtiraslı qəfil "zühur edən" bir qadını həyatına daxil etməyə ehtiyac yoxdur (o hətta "ev təmizləyən" sözünü beyninə yaxın qoymaq istəmirdi).

Cess kimi xarakterizə edilməsi qeyri-mümkün olan bir qadın onun üstünə əyiləndə artıq onun beyni əriməyə başlamışdı, Ed həmin situasiyaya məntiq tətbiq etməyə çalışırdı, hələ bir neçə beyin hüceyrəsinin funksiyasını yerinə yetirdiyi anlarda o aşağıdakı nəticəyə gəldi:

(a) əgər seks dəhşətli dərəcədə pis alınsaydı, onda Aberdinə qədər beş saatlıq səyahətləri əzabverici olardı.

(b) ya da seks gözlədiklərindən yaxşı alınsaydı, onda yuxudan utanaraq oyanar, yenə də səyahətləri iztiraba çevrilərdi.

(c) ən pisi də seks həddindən artıq "miqyasda" olsaydı (o, Cessin dodaqlarına uzanan ağzını yadına saldı), bu da onların münasibətlərini seksual yönümdə davam etməklə nəticələnərdi.

(d) ya da onlar bir-birinə yaraşmadıqları faktıyla barışardılar.

(e) ya da onlar bir-birinə yaraşmadığı faktıyla barışandan sonra onu həbsxanaya salardılar.

Telegram: @cinciva

(f) ya da yuxarıdakıların heç biri baş verməz, çünki Cessin faktiki olaraq iki uşağı var, bu uşaqlar həyatlarında sabitlik istəyirlər, onun kimi birisini həyatlarına əlavə etmək istəməzlər.

Ed uşaqları "nəzəriyyə" kimi xoşlayırdı, ya da onları Hindistan subkontinenti kimi qəbul edirdi və sair, yəni onların mövcudluğundan xəbərin var, amma onlar haqda heç bir məlumatın yoxdur, onlarla bir yerdə vaxt keçirməyi heç vaxt arzulamırsan.

Bütün bunlar onun hazırda münasibət qurmağının mənasız bir şey olması faktoru (g) olmadan da mümkün idi. Çünki hazırda onun həyatında fəlakətin baş verdiyi vaxtda tanımadığı adamlarla uzaq səyahətə çıxmağı bu fəlakətdən bir neçə günlük can qurtarmaqdan ötrüdür.

Hə, üstəgəl o metaforik "at" məsələsi.

Bəlkə burda elə məqamlar var ki, o heç ağlına da gətirə bilmir? Bəlkə Cess psixotikdir, bu yolla onu ələ alıb yorğa at kimi minmək istəyir? Düzdür, o belə qadına oxşamır...

Hər halda, elə Dinna da yalançıya oxşamırdı.

Ed bütün bunları beynində götür-qoy edir, arzulayırdı ki, kaş fikirlərini Ronanla bölüşmək imkanı olaydı. Göyün üzü əvvəlcə narıncı, sonra mavi rəngə boyananda həmişə sərxoşluqdan sonrakı süstlüyü baş ağrısına döndü. Ed ondan bir az aralıda adyal altından bütün bədən forması aydınca hiss edilən qadına baxmamağa çalışırdı.

Telegram: @cinciva

O, fikirli olmamağa cəhd edirdi, istəmirdi ki, fikirləri yalnız balaca Tanzinin həll edə biləcəyi mürəkkəb tənliklər kimi uzanıb getsin.

***

– Gəlin, tez gəlin, gecikirik, – Cess rəngi solğun, zolaqlı zombi kimi geyinmiş Nikini maşına salmağa cəhd edirdi.

– Mən səhər yeməyi yeməmişəm, – Niki mızıldadı.

– Buna görə də sənə dedim ki, gec yatma. Yolda yemək üçün nəsə alarıq. Tanzi, Tanzi! Hardasan? Tanzi, it "tualetini" edib?

Səma qurğuşun rəngindəydi. Yüngül çiskin yağış güclü yağışa çevrildi. Cess maşının ətrafında ora-bura qaçanda, kimisə danlayıb, kiməsə nəsə söz verəndə, Ed hələ də sükan arxasında, sürücü yerində oturmuşdu. Bəlkə də iyirmi dəqiqəlik yuxudan sonra oyanan Cess acıqlı idi, əlində çantaları sürüyə-sürüyə maşına tərəf dartır, nəyisə bağlayır, nəyisə açırdı. Səhər açılandan bəri bir dəfə də göz-gözə gəlməmişdilər. Tanzi sakitcə arxa oturacaqdakı yerində oturdu.

– Yaxşısan? – Ed əsnədi və güzgüdən ona baxıb soruşdu.

Tanzi sakitcə başını yellədi.

– Əsəbi deyilsən?

O heç nə demədi.

– Ürəyin bulanmadı ki?

Telegram: @cinciva

O yenə başıyla "yox" dedi.

– Yol gedəndə bu hallar olur. Hər şey yaxşı olacaq. Həqiqətən də, yaxşı olacaq.

Tanzi istənilən yaşlı adama necə baxardısa ona da eləcə baxdı, sonra gözlərini pəncərədən çölə zillədi. Onun sifəti dəyirmi, solğun idi, yasəmən rəngli gözlərindən yorğunluq yağırdı. Ed fikirləşdi ki, görəsən gecə o saat neçəyə qədər təkrarlamaqla məşğul olub.

– Gir, – Cess Normanı arxa oturacağa itələdi. İtin içəri girməyiylə islaq it iyi də içəri doldu. Cess Tanzinin kəmərini bağlayıb-bağlamamağını yoxladı, sonra qabaq oturacaqda əyləşdi, nəhayət, Edə tərəf dönüb "Gəlin gedək", – dedi.

Cessin üzündəki ifadəni oxumaq mümkün deyildi.

Edin maşınının əvvəlki halından heç əsər-əlamət qalmamışdı. Üç gün ərzində maşının heç bir eyib olmayan interyerindən müxtəlif qarışıq iy gəlirdi, itdən gələn iy yemək iyinə qarışmışdı. Oturacağın üstündə müxtəlif ləkələri ilk baxışda görmək olurdu. Oturacağın üstündə it tükü vardı. Qırışmış pal-paltarlar arxaya qalaqlanmışdı. Ayaqaltı konfet kağızları, cips qırıntılarıyla dolu idi. Radio dalğaları əvvəlki kimi tutmurdu.

Amma saatda qırx kilometr yol getdiyi müddət ərzində elə bil nəsə baş vermişdi. Həyatındakı son hadisələr cərəyan edəndən duyduğu zəiflik elə bil azalmışdı. O artıq bundan sonra həyatında nələr baş verəcəyini fikirləşməyə son qoymuşdu, ona gələn zəngləri səbirsizliklə gözləməyi dayandırmışdı. Daha Dinna Levis haqqında

Telegram: @cinciva

çox düşünmürdü. Daha fikirləşmirdi ki, bəlkə Dinna Levis fikrini dəyişib onu arxasıyca "sürüməkdən" əl çəkə bilər ya yox.

Elə bil o yenidən yaşamağa başlamışdı. Ed Nikolls səhərin dumanlı vaxtında neçə mil yol qət edir, yol qırağından keçənlərə, uşaqlarını məktəbə aparanlara, bazarlıq edib maşınlarına daşıyanlara baxırdı.

Ed sürürdü, yanındakı qadın sakitcə susub oturmuşdu. Güzgüdən yatan Nikini görürdü. (Tanzi izah etmişdi ki, bir qayda olaraq yeniyetmələr səhər saat on birdən əvvəl belə etmirlər) Norman hərdən interyeri iylə doldursa da o sürməkdə davam edirdi. Hər an onlar mənzil başına daha da yaxınlaşırdılar. Onun əvvəlki inamı, əvvəlki yüngüllüyü özünə qayıdırdı. Hiss etdikləri kompleks halındaydı. Oxunan musiqilər sanki yatmış inamını oyadırdı (bir qayda olaraq qabaq oturacaqdakı musiqi səsi yavaş, arxa oturacaqdakı isə yüksək olurdu).

– Yaxşısan?

– Yaxşıyam, – Cess Ed tərəfə baxmadan cavab verdi.

Ed arxaya boylandı, onlara heç kimin qulaq asmadığına əmin olandan sonra "keçən gecə haqqında" deyib sözə başlamaq istəyəndə Cess onun sözünü kəsib

"Unut getsin", – dedi.

Ed ona demək istədi ki, etdiyi hərəkət üçün peşman olub. Demək istədi ki, o çırıldayan, çökən biradamlıq çarpayı onun bədənini əzdiyini üçün orda yatmaq istəməyib. Amma bilirdi ki, dedikləri inandırıcı

Telegram: @cinciva

olmayacaq. Ötən gecə Cess demişdi ki, onlar bundan sonra bir-birini görmək üçün heç bir səbəbləri olmayan iki yad adamladır.

– Mən bunu unuda bilmərəm. Sənə izah etmək istəyirəm ki...

Cess onun sözünü yenə də yarıda kəsdi:

– İzah ediləsi heç nə yoxdur. Sən haqlıydın. Bu mənim axmaq ideyam idi.

Cess ayaqlarını altına yığdı, gözlərini pəncərədən çölə dikdi.

– Həyatım elə qatmaqarışıqdır ki... – Ed davam etməyə çalışdı.

– Həqiqətən də, bu böyük problem deyil. Mən sadəcə... – Cess dərindən nəfəs aldı, sözünün ardını dedi: – Bilmək istəyirəm ki, biz olimpiadaya vaxtında çatacağıq?

– Amma mən hər şeyin belə sona çatmağını istəmirəm.

– Sona çatılası heç nə yoxdur.

Cess əlini qarşısındakı panelin ütünə qoydu. Elə bil bəyanat verirdi: "Tez sür gedək".

– Londondan Aberdinə neçə mil yoldur? – Tanzinin başı iki qabaq oturacaq arasında göründü.

– Hansı yolla, soldan? – Ed soruşdu.

– Yox, Sauthəmpton tərəfdən.

Ed cibindən telefonunu çıxarıb Tanziyə verdi:

– Burdan xəritəyə bax.

Tanzi barmağıyla telefonun ekranını çıqqıldatdı, alnını turşutdu:

Telegram: @cinciva

– Nə? Beş yüz səksən mil?

– Elə bu qədər olar.

– Aha, əgər biz gün ərzində saatda qırx mil sürətlə getsəydik bu qədər yolu altı saata qət edərdik. Əgər mən yolda xəstələnməsəydim...

– O halda daha sürətlə gedər və bir gündə çatardıq.

– Bir gündə, – Tanzi bu fikirlə barışmaq istədi, bir az uzaqdan görünən Şotlandiya dağlarına gözlərini zillədi.

– Amma əgər biz sürətlə gedib bir gün ərzində ora çatsaydıq onda belə gözəl vaxt keçirməzdik, düzdür?

Ed yanakı Cessə baxıb dedi:

– Yox, onda belə yaxşı vaxt keçirməzdik.

Cess bir neçə an sonra arxaya döndü:

– Yox, əzizim, elə olsa yaxşı vaxt keçirməzdik...

Cessin təbəssümü çox qəmliydi.

***

Maşın yolları "yeyib" irəli şütüyürdü. Onlar artıq Şotlandiya sərhədini keçmişdilər. Ed çalışırdı ki, vaxtında çatsın. Onlar bir dəfə Tanzinin tualetə getməsi üçün dayandılar, Tanzi tualetə gedəndən iyirmi dəqiqə sonra Niki (o dedi ki, bu onun özündən asılı deyil. Tanzi gedəndə onun işəməyi gəlmirmiş) üçün, üç dəfə isə Normandan ötrü dayandılar (ikisi boş yerə. Çünki o yalnız üçüncü dəfə saxlayanda tualetlik "iş" gördü.). Cess sakitcə onun yanında oturmuşdu, tez-tez qol saatına baxır, dırnaqlarının ucunu çeynəyirdi. Hələ də

Telegram: @cinciva

ayağında çəkələk vardı. Ed fikirləşdi ki, doğrudanmı onun ayağı üşümür? Niki yuxulu gözlərini pəncərədən çölə – heç də gözəl olmayan mənzərəyə – təpələrin üstündəki daş-kəsək topasına bənzər evlərə baxırdı. Ed üçün maraqlıydı, bu "mənzərələr" də qurtarandan sonra Niki nəyə baxacaqdı, ona görə də başını qatmaq üçün ona ən azı əlli şey təklif edə bilərdi. Amma bir anlıq düşündü ki, Niki yaşda olanda kimsə ona həmin şeylərlə məşğul olmağı təklif etsə o nə edərdi? Anladı ki, həmin şeylərə heç bir diqqət yetirməzdi. Ed fikirləşdi ki, geri dönəndən sonra Cess Nikinin sağlamlığı üçün daha nələr edəcək.

Telefon zəng çaldı, Ed ekrana baxdı, az qala ürəyi düşdü: Lara.

– Eduardo, körpə! Sənlə evin damı haqqında danışmaq istəyirəm.

Ed hiss edirdi ki, Cess gözaltı ona baxır.

Ed arzu etdi ki, kaş telefonun "yes" düyməsini basmayaydı.

– Lara, bu məsələni indi müzakirə etmək istəmirəm.

– Eduardo, buna çox pul lazım deyil. Hə, sənin üçün böyük pul deyil. Vəkilimlə danışdım, o dedi ki, bu məbləği ödəmək sənin üçün heç nədir.

– Mən sənə qabaqlar da demişəm. Lara, biz son razılığa gəldik axı.

Yalnız bu anda Ed maşındakı üç adamın ona qulaq asdığını hiss etdi.

Telegram: @cinciva

– Eduardo, körpə, mən bu məsələni yoluna qoymaq istəyirəm.

– Lara...

Ed ona nəsə demək istəyirdi ki, Cess telefonu cəld götürdü:

– Alo, Lara. Mənəm, Cessdir. Üzr istəyirəm, amma bilin ki, o sizin dam üçün pul ödəməyəcək . Bundan sonra ona zəng etməyin heç bir mənası yoxdur.

Qısa sükut. Sonra sanki bomba partladı:

– Kimdir danışan?

– Mən onun təzə arvadıyam. O istəyir ki, siz Maonun şəkillərini geri qaytarasınız. Yaxşı olar ki, şəkilləri elə onun vəkilinə verəsiniz. Ok? Ürəyiniz istəyən vaxtda verə bilərsiniz. Təşəkkürlər!

İndi araya çökən sükut bir an əvvəlki "partlayışla" eyniydi.

Onun sonra nə deyəcəyini gözləmədən Cess "off" düyməsini çırtmaladı, telefonu qaytarıb Edə verdi. Ed telefonu ehtiyatla götürüb söndürdü.

– Sağ ol, – Ed Cessə dedi.

– Buyurun.

Bundan sona Ed danışanda Cess o tərəfə baxmadı.

Ed arxa güzgüyə baxdı. Gördü ki, Niki gülməyini güclə saxlayıb.

***

Hardasa Edinburqla Dandi arasındakı dar bir kənd yolunda, ağaclıqda Ed maşının sürətini azaldıb

Telegram: @cinciva

dayandı. Çünki yolda bir sürü inək vardı. Heyvanlar maşının yan-yörəsində fırlanır, qara gözləriylə maraqla maşındakılara baxırdılar. Norman da onlara qəzəblə baxdı. Tanzi eynəklərini çıxarıb gözlərini sildi, gözlərini qıyıb heyvanlara baxdı.

– Aberdin Angus, – Niki dedi.

Qəflətən, Norman iri bədənini pəncərəyə döndərib mırıldamağa, sonra hürməyə başladı. Səsi qulaq batırırdı. Arxa oturacaqda, əl-qol, səs-küy bir-birinə qarışmışdı. Niki iti sakitləşdirmək istəyir, Cess də ayağa durub iti saxlamaq istəyirdi.

– Norman, dayan!

Normanın ayaqları Tanzinin başındaydı, üzü isə pəncərəyə dirənmişdi. Ed Cessin çəhrayı jaketini götürüb burdu, itin ayaqlarını bağladı. Cess isə atılıb itin xaltasından tutdu. Onlar onu pəncərədən dala dartdılar. İt isterik vəziyyətdə ağzının suyu oturacağa axa-axa zingildədi.

– Norman, yekə axmaq, nə edirsən?

– Axı o əvvəllər inək görməyib, – Tanzi itini müdafiə etmək istədi.

– Norman!

– Tanzi, sənə heç nə olmayıb ki? – Cess soruşdu.

– Yaxşıyam.

İtin hürməyini eşidib hərəkətsiz qalan inəklər maşının ətrafından aralandılar. Maşının pəncərəsindən onlar arxadan yavaş-yavaş, lap inəklər kimi aramla gələn fermeri gördülər. Maşının yanından keçəndə başını

Telegram: @cinciva

əyib təzim etməklə onlara salam verdi. Sanki o dünya yaranandan elə bu dünyadaymış.

– Mən heç vaxt Normanı belə görməmişəm, – Cess saçını səliqəyə aldı, yanaqlarına düşən tükləri üfürüb dedi:

– Güman ki, o mal ətinin iyini hiss edib.

– Yox, inanmıram ki, o nə vaxtsa mal əti yeyib, – Ed dedi.

– Ana, mənim eynəklərim... – Tanzi əyilmiş metal parçalarını göstərib ağlamsındı:

– Ana, Norman eynəyimi sındırıb.

Bu vaxt saat on birə on beş dəqiqə işləmişdi.

– Mən eynəksiz heç nə görmürəm, ana!

Cess Edə baxdı.

– Bu da Normanın "zibili"... – Cess hirsləndi.

– Ok. Tanzi, plastik torbanı götür, mən sürəti artırıram.

Maşın indi daha sürətlə gedirdi, küləyin vıyıltısı açıq pəncərələrdən içəri dolurdu. Şotlandiyanın yolları enli və boş idi. Onlar elə sürətlə gedirdilər ki, satnav təkrar-təkrar onların mənzil başına saat neçədə çatacaqlarını göstərirdi. Tanzinin iki dəfə ürəyi bulandı. Hətta onda da Ed maşını saxlamadı ki, o düşüb yerə qussun.

– Onun halı doğrudan da pisdir, – Cess Edə deyəndə Tanzi etiraz etdi:

– Yox, pis deyiləm. İndi yaxşıyam. Doğrudan da yaxşıyam.

Telegram: @cinciva

– Balaca, sən doğrudan da dayanmağımı istəmirsən? – Ed soruşdu.

– Yox, yoluna davam et. Öhö-Öhöö... öhöö.

Dayanmağa vaxt yox idi. Ona görə yox ki, maşın sürətlə gedəndə səyahəti asan edirdi...Yox, olimpiadaya vaxtında çatmalıydılar. Niki əlini burnuna tutub, üzünü bacısından döndərmişdi. Hətta Norman da başını elə qoymuşdu ki, pəncərədən gələn təmiz havadan çox udsun.

Ed boş döngələri, küləkdöyən təpələri arxada qoyub irəliləyirdi. Maşın elə bil uçurdu. Sanki yollar yalnız onunçün idi. O üşüdüyünü , maşının içinin "xaraba qaldığını" unutmuşdu. O bütün fikrini sürətlə sürməyə, sağ-salamat mənzil başına tez çatmağa yönəltmişdi. Heç kim danışmırdı. Sükutu yalnız hərdən ağzını plastik torbaya tutub öyüyən balaca qızın səsi pozurdu.

Ed onları mənzil başına vaxtında çatdıracaqdı. Buna əmin idi. Son aylarda o, qarşısına hansısa məqsəd qoyduğunu yadına sala bilmədi.

Nəhayət, Aberdin aralıdan göründü. Gümüş rəngli köhnə binalar, başı göylərə dəyən göydələnlər... Hündür binaların yanından keçəndə az qala Edin başı fırlanırdı. O, mərkəzə doğru istiqamət götürdü. Burda yollar nisbətən daralırdı. Burdakı küçələrə daş döşənmişdi. Maşın yavaşıdı, çünki qabaqdakı bütün maşınlar dayanmışdı. Deyəsən, tıxac vardı. Araya yenə sükut çökdü. İndi satnav onun əleyhinə işləyirdi. Dəqiqələr on beş, on doqquz, iyirmi iki dəqiqə oldu. iyirmi beş dəqiqə oldu. Vaxt uçurdu.

Telegram: @cinciva

– Görəsən geciksək nə olar? – Cess Edə baxdı.

– Deyərik ki, yolda tıxac vardı.

– Bu ən mənasız bəhanədir, – Niki dedi.

– Demək olar ki, yolda qəza baş verib, – Tanzi dedi.

Cess satnava tərəf boylandı:

– Biz ünvanı düz gəlmişik? Heç bilməzdim ki, universitet ətrafında bu qədər doklar ola bilər.

– Universitetə dokların əhatəsindən keçib gəlməliydik.

– Buna əminsən?

– Əminəm, Cess! – Ed səsindəki həyəcanı boğmaq istədi, satnavı göstərdi:

– Bir satnava bax.

Qısa sükut çökdü.

– İnanmıram ki, eynək almağa vaxtımız qalsın, – Ed dedi.

– Axı o eynəksiz görə bilmir, – Cess dedi.

– Əgər aptekə gedəsi olsaq günorta olacaq.

Cess əsəbdən dodağını çeynəyirdi, sonra arxaya, Tanziyə tərəf döndü:

– Tanzi, sən eynəksiz heç görmürsən? Heç görmürsən?

Solğun üzlü Tanzi plastik torbadan başını qaldırıb "Yoxlayıb görüm görə bilirəm?" – dedi.

Maşınlar hələ də dayanmışdı. Norman hərdən yüngülcə zingildəyəndə onlar əsəbi-əsəbi onun üstünə çəmkirir, "sus, Norman" deyirdilər. Ed hiss edirdi ki, qan təzyiqi qalxıb. Onları vaxtında çatdırmaq məsuliyyəti getdikcə ağırlaşırdı.

Telegram: @cinciva

Niyə axı onlar yarım saat tez yola düşmədilər? Niyə onlar vaxtı düz hesablamadılar? Əgər onlar vaxtında çata bilməsələr nə olacaq? O, çəpəki dönüb Cessə baxdı. Əsəbi halda ayaqlarını tappıldadırdı. Ed dəqiq bilirdi ki, Cess də elə onun fikirləşdiklərini düşünür. Elə bu vaxt, gözlənilmədən sanki möcüzə baş verdi. İrəlidəki maşınlar yola düşdü. Sanki Allah onlarla zarafat edirmiş

Maşın daş döşənmiş yollarla irəli şığıyırdı. Cess irəli əyilib "get, get" deyirdi. Elə bil o at sürən məşqçi idi. Axır ki, maşın döngələrdən birinin yanında dayanıb universitetin həyətinə girdi. Satnavın qeyd etdiyindən də bir az tez çatmışdılar.

Universitetin binası 1970-ci illərdəki kimiydi.

Maşın boş yerdə dayandı, hər şey də sona çatdı. Ed dərindən nəfəs aldı, saata baxdı. On ikiyə altı dəqiqə qalmışdı.

– Buradır?

– Hə, buradır, – Ed dedi.

Cess yolda o qədər həyəcanlanmışdı ki, gözlərinə inana bilmədi. Həyəcandan az qala bədəni iflic olmuşdu. İnana bilmirdi ki, universitetə çatıblar. O belindən kəməri açdı, maşın parkına, orda gəzişən oğlanlara nəzər saldı. Oğlanlar elə bil min illərdir ki, bu dünyadaydılar. Onların bəziləri nəsə oxuyur, bəziləri isə gərgin vəziyyətdə durmuş valideynlərə baxırdılar.

Onların hamısının əynində ictimai məktəblərin forması vardı.

Telegram: @cinciva

– Fikirləşirdim ki, daha böyük olacaq, – Cess dedi.

Niki çiskin yağışdan nəmlənmiş pəncərədən baxırdı:

– Ali riyaziyyatın tədbiri var.

– Mən heç nə görmürəm, – Tanzi dedi.

– Hə, siz gedin qeydiyyatdan keçin, mən də gedib eynək alım, – Ed dedi.

Cess Edə tərəf döndü.

– Amma aldığın eynəklər onun öz eynəyi kimi olmayacaq.

– Bunu yoluna qoyaram. Siz gedin. Gedin.

Ed maşın parkından çıxıb şəhər mərkəzinə tərəf istiqamət götürənə qədər Cessin onun arxasıyca baxdığını hiss etdi.

***

Optik eynəklər satılan apteki tapmaq üçün Ed yeddi dəqiqə vaxt sərf etdi. Ed o qədər həyəcanlıydı ki, hətta Norman da arxa oturacaqdan irəli əyilmişdi.

– Burda dayan, – Ed Normanın belinə kəmər bağlayıb maşından düşdü.

Aptek boş idi. Amma bir kənarda əlində zənbil olan bir yaşlı qadın və aptekin iki işçisi söhbət edirdilər. Ed şampun, diş pastaları qoyulmuş şüşə rəflərin qabağında dayandı. Axır ki, o eynəklər qoyulmuş rəfi tapdı. Birdən yadına düşdü ki, Tanzinin hansı nömrə eynək geydiyini öyrənməyib. Ona necə eynək almaq lazımdır, yaxıngörən, ya uzaqgörən? O cibindən telefonunu

Telegram: @cinciva

çıxardı ki, Cessə zəng edib öyrənsin, yadına düşdü ki, onda Cessin nömrəsi yoxdur.

– Zəhrimara qalasan! – o deyindi.

Eynəklər qoyulmuş rəfin qarşısında dayandı, Tanzinin necə bir eynək taxdığını xəyalına gətirdi. Onun eynəyinin formasından çox güclü eynək olduğu bəlli idi.

Onu heç vaxt eynəksiz görməmişdi. Görəsən o yaxın görəndir? Bəlkə uzaq görəndir? Görəsən bütün uşaqlar yaxın görən eynək taxır? Gözü önünə yaşlı adamlar gəldi, bir qayda olaraq onlar hər hansı bir şeyi görmək üçün özlərindən bir az aralı tuturlar.

Ed on saniyə tərəddüd etdi, sonra qısa müddət ərzində son qərarını qəbul etdi. O rəfdən həm uzaqgörən, həm də yaxıngörən eynəklərdən götürdü – müxtəlif növlərdən – super güclü, çox zəif, orta və sair.

Eynəkləri təmiz torbaya yığdı.

Axır ki, qız qoca qadınla söhbətini kəsib ona yanaşdı. O əvvəlcə Edin əlindəki plastik torbadakı eynəklərə, sonra isə Edə baxdı. Ed gördü ki, qız onun köynəyinin yaxasındakı ləkəyə baxır. Heç özü də bilmədən qoluya ləkəni sildi.

– Hə, onların hamısını götürürəm. Xahiş edirəm, qiymətlərini tez hesablayın. Qız yanındakı o biri qıza baxdı, başını yırğaladı.

Qız ehtiyatla onları bükdü, plastik torbaya yığmağa başladı.

– Yox, vaxt yoxdur, hamısını bura yığın, – qızın əlindəkilərin hamısını torbaya yığdı.

Telegram: @cinciva

– Sizdə loyallıq kartı var?

– Yox.

– Bu gün biz məxsusi... pəhriz...

Ed onun sözünü axıradək deməyə imkan vermədi.

– Heç nə lazım deyil.

– Hamısı bir yerdə yüz yetmiş dörd funt.

Ed pulu ödəyib qapıdan yel kimi çıxdı. Arxadan qızın "heç bir mədəniyyəti yoxdur" sözlərini eşitdi.

O qayıdanda maşın parkında heç kim yox idi. Maşını qapıdan bayırda saxladı. Normanı arxa oturacaqda şöngümüş vəziyyətdə qoyub cəld maşından düşdü, binaya girdi.

Yanından keçən adamların hamısından "Riyaziyyat yarışması", "riyaziyyat yarıması" deyib ötürdü. Onun səsi binada əks-səda verirdi. Axır ki, bir kişi işıqlandırılmış lövhəyə əlini uzatdı – heç bir söz demədən.

O, pilləkənləri iki-iki qalxıb koridordan keçib qəbul otağına girdi.

Stol arxasında iki kişi oturmuşdu. Otağın o biri tərəfində isə Cess və Niki dayanmışdı. Edi görəndə Cess bir addım qabağa gəldi, Ed əlindəki plastik torbanı ona verib qalib ədasıyla "götür bunları", – dedi. O təngnəfəs idi, güclə danışırdı.

– O içəri girib. Başlayıblar, – Cess dedi.

Ed ağır-ağır nəfəs alaraq başını qaldırıb saata baxdı. Saat birə yeddi dəqiqə işləmişdi.

– Bağışlayın, içəri girib bir qıza eynəklərini vermək istəyirəm, – o stol arxasındakı kişiyə dedi.

Telegram: @cinciva

Kişi yavaş-yavaş başını qaldırdı, Edin stolun üstünə qoyduğu plastik torbaya gözucu baxdı.

Ed stola əyildi, torbanı düz kişinin qabağına itələyib dedi:

– Bura gələndə yolda onun eynəkləri sındı. O eynəksiz görə bilmir.

– Üzr istəyirəm, cənab, içəri heç kimi buraxa bilmərəm.

Ed başını yırğaladı:

– Bəli, bəli, siz buraxa bilərsiniz. Bir torbanın içinə baxın, yalan demirəm. Bu torbanın içində eynəkdən başqa heç nə yoxdur. Sadəcə, mən onun hansı nömrəli eynək işlətdiyini bilmədiyimdən hər növdən alası oldum. Siz yoxlaya bilərsiniz. Hamısını. Baxın. Heç bir gizli kod-filan yoxdur. Yalnız eynəklər.

O belə deyib torbanı kişinin qabağında açıb dedi:

– Siz bunları içəri aparın, o özünə lazım olanı seçib götürsün.

– Cənab, bizə icazə verilmir ki, içəri girib başqa şagirdlərin fikrini yayındıraq.

– Bəli, bəli, siz verə bilərsiniz. Bu fövqəladə vəziyyətdir.

– Qaydalar belədir.

Təxminən on saniyə Ed kişiyə sərt-sərt baxdı. Sonra o belini dikəltdi, əlini başına qoyub kişidən aralandı. Çaydan qaynayanda necə silkələnərsə, onun da içində elə bir silkələnmə vardı. Sonra o yavaş-yavaş geri dönüb kişiyə üz tutdu:

Telegram: @cinciva

– Bilirsiniz, nə var? Bura gəlmək üçün üç gün üç gecə vaxt sərf etmişik. Bu üç gün ərzində qəşəng maşınımın oturacağının üzü qusmaqla tamam bulaşıb. İt təsvir edilməyəcək dərəcədə maşını pis günə qoyub. Halbuki mən heç itləri xoşlamıram. Demək olar ki, tanımadığım bir qadınla maşında yatmışam. Yox, siz fikirləşən mənada yox! Yol boyunca elə yerdə qalmışam ki, insan olan bəndə heç vaxt orda qalmaz. Yeniyetmə oğlanın dar şalvarının ətəyindən çıxmış alma yemişəm, kabab yemişəm ki, allah bilir insan ətindən hazırlanıbmış. Londonda mənim özümün şəxsən böyük bir problemim var və o işimi qoyub beş yüz səksən mil yolu tanımadığım – yaxşı adamlardır – adamları sürüb bura gəlmişəm. Çünki bilirdim ki, bu yarışma onlar üçün doğrudan da, çox vacibdir, yaşamaq üçün vacibdir. Ona görə bu qədər yolu gəldim ki, bu balaca qız həqiqətən də, yalnız riyaziyyat haqda düşünür. Əgər onun eynəyi olmasa o heç nə görməz, bu isə o deməkdir ki, o bu yarışmada ədalətli mübarizə aparmaz. Əgər o ədalətli yarışmasa o getmək istədiyi, ehtiyac duyduğu məktəbə getmək şansını da əldən vermiş olur. Əgər bu belə olsa bilirsiniz mən nə edərəm?

Kişi təəccüblə gözlərini Edə zillədi.

– Hə, belə olsa mən sizin otaqlara girəcəm, uşaqların qarşısına qoyulmuş vərəqləri cırıq-cırıq edəcəm. Bunu çooox, çoox sürətlə edəcəm. Heç təhlükəsizlik əməkdaşlarını çağırmağa imkanınız da olmayacaq. Bilirsiniz niyə belə edəcəm?

Telegram: @cinciva

Kişi udqundu, "yox", – dedi.

– Çünki bütün bunlar hamısı heç nəyə dəymir, onların bir dəyəri olmalıdır.

Ed təzədən kişiyə yaxınlaşdı, ona daha da yaxın gəlib dedi:

– O kağızlar bir şeyə layiq olmalıdır. Bax, elə bu dəqiqə, bu an hiss edirəm ki, mənim itiriləsi heç nəyim yoxdur.

Edə sanki nəsə olmuşdu. Üzünün ifadəsi fərqliydi. Özü də bunu hiss edirdi. O özünü heç vaxt belə hiss etməmiş, elə bil özünü müxtəlif hissələrə bölüb fırladırdı. Kişinin ona baxan baxışlarından bunu hiss edirdi. Cess kişiyə yaxınlaşıb əlindəki plastik torbanı onun əlinə verəndə bunu hiss etdi

– Əgər siz bunları aparıb qızıma versəniz sizə çoox, çoox minnətdar olarıq.

Kişi ayağa durdu, qapıya tərəf getdi. Gedə-gedə də arxaya qanrılıb Edə baxırdı.

– Görüm nəsə edə bilərəmmi?

Qapı onun arxasıyca bağlandı.

***

Onlar sakitcə maşının yanına gəldilər, yağışın yağdığını da unutmuşdular. Cess maşındakı yüklərini boşaltdı. Niki bir kənarda dayanmışdı, əlini cins şalvarının cibinin dərinliklərinə qədər soxmuşdu. Şalvarının çox dar olduğunu nəzərə alsaq cibləri çox da "uzaqda" deyildi.

Telegram: @cinciva

– Hə, axır ki, biz eynəkləri içəri ötürə bildik, – Cess yüngülcə gülümsədi.

– Dedim axı, biz keçirə biləcəyik, – Ed başıyla maşınına işarə edib soruşdu:

– O qurtarana qədər gözləyim?

Cess burnunu qırışdırdı.

– Yox, sağ ol. Biz səni kifayət qədər yormuşuq.

– Bu gecə harada yatacaqsınız? – Ed sual verəndə üzündə qəribə bir təbəssüm vardı.

– Əgər Tanzi qalib gəlsə, lüks bir oteldə. Yox, əgər qalib gəlməsə... – Cess çiyinlərini çəkib dedi: – Avtobus kölgəsində.

Amma bu sözləri deyəndə onun üzündən buna inanmadığını duymaq olardı.

Cess maşının arxa qapısına yaxınlaşdı. Norman arxa oturacaqda rahatca şöngümüşdü, pəncərədən yağışa baxırdı, elə bil heç düşmək istəmirdi.

Qadın başını qapıdan içəri saldı:

– Norman, düşmək vaxtıdır.

Bir topa çanta, bağlama Audi-nin arxasında, yerdə qalaqlanmışdı. Cess çantanın birindən jaket dartıb çıxardı, Nikiyə verdi:

– Gey, çox soyuqdur.

– Belə havada, – Ed başını qaldırıb göyə baxdı.

Havadan duzlu dəniz qoxusu gəlirdi. Ed bir anlıq Biçfrontu xatırladı.

– Bizi gətirdiyinə görə çox sağ ol. Mən... biz... bunu qiymətləndirəcəyik... Eynəklər üçün də... Sağ ol, hər şeyə görə.

Telegram: @cinciva

Onlar demək olar ki, ilk dəfə olaraq bir-birinə baxdılar. Ed milyonlarla söz demək istəyirdi.

Niki də əllərini yöndəmsiz şəkildə qaldırdı:

– Təşəkkürlər, Nikolls. Təşəkkürlər.

– Aha, – Ed əlini cibinə saldı, o gün Nikiyə verdiyi ehtiyat telefonu çıxardı.

– Ehtiyat telefonumdur. Buna daha ehtiyacım yoxdur.

– Doğrudanmı? – Niki əlini uzadıb götürdü, gözlərinə inana bilmirdi.

Cess qaşqabağını tökdü.

– Bunu götürə bilmərik, sən bizim üçün həddindən çox şey etmisən.

– Elə böyük şey deyil. Həqiqətən də. Əgər Niki bunu götürməsə köhnə telefon satanlara göndərəcəm. Bunu götürsən məni əziyyətdən qurtarırsan.

Cess gözlərini ayaqlarına dikib nəsə demək istəyirdi. Birdən başını qaldırdı, saçını yenə də də ehtiyac olmadan at quyruğu bağladı

– Yaxşı. Bir də təşəkkürlər, – Cess əlini uzatdı.

Ed əvvəlcə tərəddüd etdi, dünənki gecənin yadına düşən bəzi epizodlarını özündən rədd etməyə çalışıb onun əllərini sıxdı.

– Atanıza can sağlığı arzulayıram. Hə, bir də ailə naharına getsəniz sizə yaxşı yol. Həm də bütün etdikləriniz üçün sağ olun. İnanıram ki, probleminiz də həll olunacaq. Unutmayın ki, yaxşı adamlar yaxşı hadisələrlə üzləşir.

Telegram: @cinciva

Cess bunu deyib əlini onun əlindən çəkdi, bu an ona elə gəldi ki, nəsə itirdi. O geri döndü, çiyini üstündən baxdı, Ed artıq uzaqlaşırdı.

– Ok. İndi isə bir quru yer tapıb bunları yığaq.

– Dayan, – Ed cibindən vizit kartoçkasını çıxardı, tələsik nömrəsini yazdı, Cessə tərəf gəlib ona uzatdı.

– Zəng edərsiniz.

Demək olar ki, onun yazdığı nömrənin bir rəqəmi yaxşı oxunmurdu. Ed gördü ki, Cess rəqəmə baxır.

– Hə, o rəqəm üçdür.

Ed o rəqəmi təzədən yazdı, əllərini yeniyetmə oğlanlar kimi cibinə qoydu.

– Tanzinin necə yazdığını bilmək istərdim, buyur. Götür.

Cess başını yellədi. Onun üzündəki ifadəni oxumaq olmurdu.

Sonra o təcrübəli çoban kimi əliylə Nikiyə qabağa getməyi işarə etdi. Ed oturub onlara baxırdı. Yükləri necə daşımalarına, əsəbi, getmək istəməyən iti dartmalarına tamaşa edirdi. Bağlamaları boz beton binanın bir küncünə yığıb görünməz olana qədər Ed onların arxasıyca baxdı.

***

Maşında sakitlik idi. Onlar maşında olduğu müddətdə Ed səs-küyə o qədər öyrəşmişdi ki, indi sakitlik ona bir az qəribə göründü. Daha arxa oturacaqdan Nikinin

Telegram: @cinciva

oyunlarının səsi gəlmirdi. Yanındakı oturacaqda kimsə yerində qurcalanmırdı. O arxaya döndü. Norman oturan yerdə tük, onun ağzından axan su kənardan diqqəti çəkirdi. Bir anlıq Edə elə gəldi ki, o tərk edilmiş bir evdədir. Arxada qoyulmuş külqabının içi qırıntılar və alma tumuyla doluydu. Qatlanmış qəzet, ərinmiş şokolad oturacağın cibinə basılmışdı. Edin öz paltarları həmişəki kimi məftil asılqanlardan asılmışdı. O, bir tərəfi oturacağın aşağısına tərəf əyilmiş riyaziyyat kitabını gördü. Sözsüz ki, Tanzi tələsib kitabı maşında qoyub getmişdi. Ed bir anlıq fikirləşdi ki, görəsən kitabı aparıb Tanziyə versinmi? Nə faydası olardı? Artıq gec idi.

Hə, çox gec idi.

Ed maşın parkında maşının içində oturub maşınlarına tərəf gedən, uşaqlarını gözləyərək vaxt öldürən valideynlərə baxdı. Hava da çox soyuq idi. O başını sükanın üstünə qoyub bir az dayandı. Onun maşınından başqa bütün maşınların getdiyini görəndən sonra o da maşını işə salıb sürməyə başladı.

***

Ed heç iyirmi mil getməmişdi ki, nə qədər yorğun olduğunu hiss etdi. Üç gün ərzində normal yatmaması, neçə mil yol maşın sürməsi, sərxoşluqdan sonrakı süstlüyü özünü göstərirdi. Radionu söndürdü, pəncərələri açdı, sakitləşmək istədi, amma bir faydası olmadığını görüb maşını yolun kənarında saxladı ki, yaxınlıqdakı kafeyə gedib kofe içsin.

Telegram: @cinciva

Lanç vaxtı olmasına baxmayaraq kafenin yarısı boş idi.

Bir küncdə baş aşpaz (kişi) qulplu tavada nəsə qızardırdı, onun başındakı papağı başının arxasına düşmüşdü. Bir neçə kostyumlu kişi əllərində mobil telefon, qarşılarındakı masanın üstündə ağ kağız otağın əks tərəflərində oturmuşdular, başları qarışıq idi. Onların arxasındakı divarda kolbasanın on altı növü, yumurta, bekon, paxla və cips təklif edən kağızlar yapışdırılmışdı. Ed qapının ağzındakı alçaq jurnal stolunun üstündə qəzet gördü, cəld onu qamarladı, bir stol arxasına keçib ofisiant qıza kofe sifariş verəndə o dedi:

– Üzr istəyirəm, cənab, amma biz bu saatlarda yalnız yemək veririk.

Qızın aksenti o qədər fərqliydi ki, Ed onun nə dediyini güclə başa düşdü.

– Aha. Oldu. Elə isə...

O qıza sözünü axıradək deyə bilmədi. Gözü qəzetin birinci səhifəsindəki iri hərflə yazılmış sözlərə sataşdı.

BÖYÜK BRİTANİYANIN ƏSAS TEXNOLOGİYA ŞİRKƏTİ QİYMƏTLİ KAĞIZLAR BARƏDƏ DÖVLƏT SİRRİNİ BAŞQASINA ÖTÜRMƏ LABİRİNTİNDƏ

Ed gözlərini başlığa zillədi.

– Cənab...

– Mm... mm..

Az qala onun tükləri biz-biz durmuşdu.

Telegram: @cinciva

– Cənab, əgər burda oturmaq istəyirsinizsə nəsə sifariş verməlisiniz.

– Aha. Ok.

Səlahiyyətli Maliyyə Xidmətləri İdarəsi dünən gecə təsdiq edib ki, Böyük Britaniyanın artıq satılmış texnologiya şirkətini milyonlarla funt dəyərində birja fırıldağını araşdırır. Araşdırmanın Atlantik Okeanının hər iki tərəfində aparılacağı başa düşülür. Bura Londonun və Nyu-Yorkun fond birjaları, SEC və Səlahiyyətli Maliyyə Xidmətlərinin Amerika ekvivalenti də daxildir.

Hələlik heç kəs həbs edilməyib. Ancaq London şəhər polis idarəsi bildirib ki, həbs etmək üçün sadəcə vaxt lazımdır.

– Cənab?

Ed eşidənədək qız "cənab" sözünü iki dəfə təkrar etdi. O, başını qaldırdı, qarşısında cavan, burnu çilli, bir az dağınıq saçları arxada düyünlənmiş qız vardı. Qız onun qarşısında durub gözləyirdi.

– Siz nəsə yemək istəyirsiniz?

Pauza.

– Hm. Bu günə hansı yeməyimizin olduğunu bilmək istəyirsiniz? Yoxsa bizim ən məşhur yeməklərimizdən sifariş vermək istəyirsiniz?

Sadəcə, vaxt məsələsi.

– Bizdə hər gün qızardılmış yeməklər olur.

– Çox yaxşı.

– Biz... Hm... Siz lanç üçün qızartma istəyirsiniz?

– Bəli.

Telegram: @cinciva

– Ağ çörək. yoxsa qara çörək?

– Hansı olursa-olsun.

Ed qızın ona baxdığını hiss edirdi. Sonra qız tələsik vərəqə nəsə cızma-qara elədi, yazdığı vərəqi ehtiyatla toqqasının altına soxdu və aralandı.

O, Formica masası üstündəki qəzetə gözlərini zilləyib baxırdı. Son yetmiş iki saat ərzində ona elə gəlirdi ki, bütün dünya başı aşağı, ayaqları yuxarı vəziyyətdədir, indi isə bundan sonra baş verəcək işlərə nisbətən bu ona çox sadə göründü.

***

– Gemma, iş başındayam.

– Ed, vaxtını çox almayacam.

O, dərindən nəfəs alıb dedi:

– Gemma, mən o naharda iştirak etməyəcəm.

Qısa, amma dəhşətli sükut.

– Ed, de ki, mənim qulaqlarıma səs gəldi. De ki, səhv eşitmişəm.

– Yox, gələ bilməyəcəm. Bir iş çıxıb ortaya.

– Bir iş...

– Gemma, sonra sənə izah edərəm.

– Yox. Ed, bir az gözlə. Gözlə.

Ed telefona dəyən zərbə səsini eşitdi. Yəqin ki, sıxılmış yumruq... Səsləri aydınca eşidirdi. "Sandra, istəyirəm bunu bayıra aparam... Arxadakı..."

İndi isə addım səsləri eşidildi. Sanki partlayış baş verdi:

Telegram: @cinciva

– Ed, doğru deyirsən? Sən məni uşaq yerinə qoyursan? Doğrudan?

Kafenin o başında oturan qoca qadın və kişiyə baxdı. Danışmadan balıq və cipsi yeyirdilər, çox səliqəli. Ed fikirləşdi ki, balıq sifariş verər. Ən yaxşı vaxtdır.

Ofisiant qıza baxıb, "üzr istəyirəm" deyib balıq sifariş vermək istəyirdi ki, yenə də Gemmanın səsini eşitdi:

– Ed inanmıram ki, "üzr istəyirəm" sözlərini sən deyirsən. Buna inana bilmirəm. Ed, nahar sabah olacaq. Ed, heç bilirsən hamını bir yerə yığmaq üçün ana nə qədər əziyyət çəkib? Deirdre, Saymon, Qrahamlar ailəsi gələcəklər. Hamısı gələcək. Atayla ana onların yanında sənin lə qürrələnmək istəyirlər. Sənə baxıb onların yanında lovğalanmaq istəyirlər, Ed, heç bilirsən, onlar səni görmək üçün nə vaxtdan gözləyirlər? Ata keçən həftə səni nə vaxtdan bəri görmədiyini hesabladı. Dekabrda gəlmişdin, Ed... Dekabrda. Düz dörd ay keçib. Bu dörd ayda onun vəziyyəti daha da pisləşib. Sən isə onun sağlamlığı üçün nəsə etməkdənsə ona o lənətəgəlmiş axmaq jurnalları göndərirsən.

– Gemma, ata onda demişdi ki, o, New Yorker jurnalını xoşlayır. Mən də ona görə göndərirəm ki, başını bu jurnalla qatsın.

– Ed, heç bilirsən ki, ata güclə görür? Bunu bilsəydin narahat olub gələrdin. O jurnalları ona oxuyan olsa o da xoşlayar jurnalları. Ananın isə bu jurnalları oxumaq yorub, sanki jurnal oxuyanda beyni sızıb qulağından çıxır.

Gemma elə hey danışır-danışırdı. Sanki Edin qulaqlarının üstünə saçqurudan – fen düşmüşdü.

Telegram: @cinciva

– Ed, bilirsən ana səni necə görmək istəyir? O bu nahar üçün atanın sevimli yeməklərini yox, sənin sevdiyin yeməkləri bişirib. Bax, o sənin gəlməyini belə istəyir. Sən isə, nahara iyirmi dörd saat qalmış elan edirsən ki, gələ bilməyəcəksən. Bilirsən, bu nə deməkdir? Niyə səbəbini demirsən? Nə olub? Heç sənə inana bilmirəm. Auntie Sheila deyəndə ki, bu iş səni təkəbbürlü edib, mən səni müdafiə etdim. O deyəndə ki, sən özünü ailəndən daha böyük hesab edirsən yenə də ona inanmadım. İndi isə anlayıram ki, o belə deyəndə çox haqlıymış.

...Edin qulaqları qıpqırmızı qızarmışdı. O, gözlərini yumdu. Gözlərini açanda saat ikiyə iyirmi dəqiqə işləmişdi. Deməli, Tanzinin Olimpiadadan çıxmasına qırx beş dəqiqədən də az qalıb. Bir anlıq Tanzini gözü önünə gətirdi, başını aşağı salıb qarşısındakı vərəqlərə baxır. Onun stolunun yanında döşəmənin üstü eynəklərlə doludur. Ed fikirləşdi ki, Tanze suallarına cavab tapıb sakitləşər. Ed Nikini fikirləşdi. Yəqin ki, o bayırda siqaret çəkmək üçün xəlvət yer axtarır.

Sonra o, Cessi fikirləşdi, yəqin o da bağlamalardan birinin üstündə oturub, Norman da yanında. Əllərini dizlərinə keçirib, sanki dua oxuyur və inanır ki, yaxşı şeylər fikirləşsə yaxşı da hadisələr baş verəcək.

– Ed, bəşəriyyətə ləkəsən. Sən insan adını rüsvay edirsən.

Ed hiss etdi ki, bacısı göz yaşında boğulur.

– Bilirəm, Gemma.

Telegram: @cinciva

– Ed, elə fikirləşmə ki, mən sənin o murdar sözlərini onlara deyəcəm. Yox, mən səndən ötrü belə alçaq iş görmərəm.

– Gem, qulaq as, burda səbəb...

– Heç bəhanə axtarma. Sən onların qəlbini qırmaq istəyirsən. Sən artıq bunu etmisən. Mən cana doymuşam. Ed, heç inanmıram ki, sən mənim qardaşımsan.

Gemma telefonu söndürəndə Ed güclə nəfəs alırdı. Sonra o dərindən nəfəs aldı, elə dərindən ki, az qala bütün bədəni əsdi. Nə fərqi var? Onsuz da onun başına gələnləri bilsələr elə indi deyilən sözləri deyəcəkdilər ona... Gemmaya görə o, atasının ürəyini qıran oğuldur.

Bax, elə orda, yol kənarındakı balaca, yerlərinin yarısı boş olan kafedə, süni qırmızı dəridən olan stulun üstündə oturduğu vaxtda Ed atasından ötrü nə qədər darıxdığını hiss etdi. O bu anlarda hər şeyini verərdi, təki atasının razılıq əlaməti olaraq başını necə yırğaladığını, onun həvəssiz təbəssümünü görsün. Evdən ayrı olduğu on beş il müddətində hələ evləri üçün bu qədər darıxmamışdı. O bu balaca kafedə stol arxasında oturub gözlərini yağ damcılarından ləkə-ləkə olan pəncərə şüşəsinə dikərək yoldan keçən maşınların siqnal səsinə qulaq asa-asa az qala içində nəyinsə əsdiyini hiss edirdi. Son neçə illər ərzində, yeniyetməlik illərindən sonra o ilk dəfə olaraq göz yaşı içində boğulurdu. Hətta boşananda da, polislər onu istintaqa çəkəndə də o belə ağlamamışdı.

O əllərini gözünə sıxıb durdu, sanki göz yaşlarını geri qaytarmaq istəyirdi. Dişlərini bir-birinə sıxıb içindəki qəhəri boğmağa çalışırdı.

Telegram: @cinciva

– Hər şey qaydasındadır? Heç nə olmayıb?

Cavan ofisiant qız ona yaxınlaşıb ehtiyatla sual verdi. Sanki o, bu kişinin çətin vəziyyətdə olub-olmadığını müəyyən etmək istəyirdi.

– Yox, yaxşıyam.

Ed fikirləşdi ki, sözləri inandırıcı görünər. Amma bir kəlmə sözü deyəndə səsinin necə qırıldığını duymamaq olmazdı. Görəndə ki, qız onun sözlərinə inanmadı, "miqren" dedi.

"Miqren" sözünü eşidən kimi qız elə bil rahatlaşdı.

– Aha, miqren. Bilirəm bu nə deməkdir... Çox uzun davam edir.

Ed başını yırğaladı, sanki danışa biləcəyinə inanmırdı.

– Bayaqdan baxıram, hiss etdim ki, sizə nəsə olub.

Ofisiant qız belə deyib onun yanında bir neçə dəqiqə dayandı, sonra "gözləyin" deyib getdi.

Qız bir əli başının arxasında, dəyirmi yığılmış saçlarında, piştaxtaya yanaşdı, əyildi, ordan Edin görə bilmədiyi nəyisə götürdü, sonra aramla ona sarı gəldi. Onun yanında durub arxaya boylandı, sonra folqanın içindəki iki həbi onun stulunun üstünə qoydu.

– Müştərilərə həb verə bilmərəm. Amma götürün. Bunlar yaxşıdır. Başım ağrıyanda mənə yalnız bunlar kömək edir. Hə, bunu kofe ilə atmayın, sizə su gətirərəm.

Ed əvvəlcə qıza, sonra isə qarşısındakı həblərə baxdı.

– Qorxmayın, təhlükəli həb deyil. Miqreni yox edir.

– Çox mərhəmətlisiniz.

– İyirmi dəqiqəyə başınızın ağrısı yox olacaq. Özünüzü rahat, yüngül hiss edəcəksiniz.

Telegram: @cinciva

Gülümsünəndə onun burnu qırışırdı. Ed yalnız indi onun gözlərini gördü. Kənarları qara karandaşla qaralmış mərhəmətli gözlərini. Saf üzünü.... üzündə təcrübənin yox etmədiyi qəribə bir ifadə vardı.

Qız Edin kofe fincanını götürüb apardı, sanki onu elə onun özündən qorumaq istəyirdi. Ed Cess haqqında fikirləşməyə başladı. Yaxşı şeylər baş verir. Hə, bəzən yaxşı şeylərin baş verəcəyinə inanmayanda yaxşı şeylər başı verir.

– Təşəkkür edirəm, – Ed sakitcə dedi.

– Buyurun.

Sonra Edin telefonu zəng çaldı. Telefonun səsi yol qırağı kofenin içində əks-səda verdi. O, ekrana baxdı. Tanıdığı nömrə deyildi.

– Cənab Nikollsdur?

– Bəli.

– Nikiyəm. Niki Tomas. Hm. Hm. Sizi narahat etdiyimə görə üzr istəyirəm... Amma köməyinizə ehtiyacımız var.

Telegram: @cinciva

21

NİKİ

Nikiyə aydın idi ki, elə əvvəldən maşın parkında dayanmaq yaxşı fikir deyildi.

Parkdakı uşaqların çoxu, bir neçə nəfəri çıxmaq şərtilə oğlan idi, hamısı da Tanzidən iki yaş böyük olardı. Onların autizm Asperger sindromuyla tanışlığı olmamış olmazdı. Hamısı yun idman gödəkcələri geymişdi, saçları qəribə tərzdə qırxılmışdı, qollarında braslet vardı, elə bil əynindəkiləri illərlə çıxarmamışdılar. Yəqin ki, onların valideynləri Volvo sürürdü.

Tomaslar ailəsi onların Waitrose-lərinə Aldi, pestoran ketçup idi. Çəhrayı şalvar və güllü, parıltılı (Cess tikmişdi onları jaketin üstünə) pambıq jaket geymiş Tanzi maşından düşən kimi "yerinə" düşmədiyi aydınca hiss olunurdu.

Niki Tanzinin narahat olduğunu duyurdu, hətta Norman hələ onun eynəyini sındırmazdan əvvəl də o narahat görünürdü. Maşında o çox sakit oturmuşdu, çox sakit idi. Xəyala dalıb özünün rəqəmlər dünyasındaydı,

Telegram: @cinciva

hərdən də ürəkbulanmasına başı qarışırdı. Niki hərdən onu dümsükləyib öz dünyasından ayırmaq istəyirdi, belə etmək fədakarlıq olardı, amma Aberdinə çatan anlarda o öz dünyasına elə qapılmışdı ki, lap əlçatmaz olmuşdu. Cess bütün fikrini mənzil başına çatmağa elə yönəltmişdi ki, Tanzinin halını hiss etmirdi. Cess Nikollsu tələsdirir, Tanzinin eynəyinin sınmasından narahat olduğunu deyir, bir də Tanzinin ürəyi bulananda istifadə etdiyi torbalara nəzarət edirdi. Ağlına da gətirməzdi ki, özəl məktəblərdə də MakArtur məktəbindəki kimi şagirdlər ola bilər.

Cess Tanzini qeydiyyat etməklə, ona aid olan kağız-kuğuzu götürməklə məşğul idi. Niki Edin ona bağışladığı telefonda mahnıya qulaq asırdı, ona görə də iki oğlanın gedib kənardan qeydiyyat edənlərə baxan Tanzi ilə üzbəüz durmasına fikir verməmişdi.

Niki oğlanların səsini eşitməmişdi, çünki qulaqcıqları qulağında Depeche Mode-yə qulaq asırdı, heç nəyə diqqət yetirmirdi. Birdən Tanzinin sifətinə baxdı, onun dilxor görkəmi Nikini musiqidən ayırdı və o bir qulağından qulaqcığı dartıb çıxardı.

Bilərzikli oğlan aşağı-yuxarı gedib gözlərini Tanziyə zilləmişdi, hərdən də ona suallar verirdi:

– Dəqiq bilirsən ki, düz gəlmisən? Heç bilirsən ki, Justin Bieber azarkeşləri yolun aşağısındadır?

Daha arıq olan oğlan isə onlara baxıb gülürdü.

Tanzi onlara baxırdı.

– Sən əvvəllər Olimpiadada iştirak etmisən?

Telegram: @cinciva

– Yox.

– Təəccüblüdür. Olimpiada iştirakçılarının xəzli karandaş qabı gətirdiyini deyə bilmərəm. Ceyms, sənin xəzli karandaş qabın var?

– Deyəsən götürməyi unutmuşam. Ah, nə pis oldu.

– Bunu mənə anam düzəldib, – Tanzi soyuq-soyuq dedi.

– Bunu sənə anan düzəldib? – belə deyib oğlanlar bir-birlərinə baxdılar.

– Bu karandaş qabı sənə uğur gətirir? – Brasletli oğlan soruşdu.

– Sən heç string theory haqqında nəsə bilirsən?

– Məncə, o daha çox stink nəzəriyyəsini bilir. Ya da... Ey, burnuna pis iy gəlmir? Qusmaq iyinə bənzər iy? Bilmirsən burda əsəbi olan kimdir?

Tanzi onların yanından keçib tualetlər olan tərəfə yönəldi.

– Ora girmə, ora kişilər üçündür, – belə deyib oğlanlar gülməkdən uğundular.

Tanzi tualetə gedəndən sonra Niki irəli addım atdı. Bilərzikli oğlana yanaşıb bir əlini arxadan onun boynuna qoyub, "Ey, oğlan, ey!" – dedi.

Oğlan arxaya qanrıldı, gözləri böyüdü. Niki daha da yaxın gəldi, indi səsi pıçıltı kimiydi. Bu vaxt Niki sevindi ki, nə yaxşı onun üzündə bu sarımtıl ləkələr və üzünün o biri tərəfində də çapıq var.

– Ey, dost! Bir də ağzından bircə kəlmə çıxmır. Oldu? Bir də heç vaxt mənim bacımla, heç kimin bacısıyla

Telegram: @cinciva

danışmırsan. Özüm şəxsən təzədən bura gələcəm və ağzını mürəkkəb tənliklərə bağlayacam. Anladın? Bildin nə deyirəm?

Oğlan başını yırğaladı, ağzı ayrıq qalmışdı.

Niki ona baxanda Fişerin ən yaxşı psixi baxış üsulundan istifadə etdi. Oğlanın necə udqunduğunu aydınca görmək olardı.

– Əsəbi olmaq pis deyil, hə?

Oğlan başını yellədi.

Sonra Niki onun çiynini sığalladı.

– Yaxşı... Şadam ki, tanış olduq, get məsələlərini elə.

Belə deyib Niki oğlandan aralanıb tualetlər olan istiqamətə getdi.

Birdən müəllimlərdən biri əlini qaldırıb Nikini saxladı, yavaşca soruşdu:

– Bağışlayın elə bil gördüm ki... Nə? Siz ona uğur arzulayırdınız? Aha. Əla, oğlan! Əla oğlansan.

Niki başını yırğaladı, guya kişinin sözlərinə heyran olmuşdu, sonra o, kişi tualetinə girdi ki, Tanzini ordan çıxarsın.

***

Cesslə Tanzi xanımlar tualetindən çıxanda Tansienin başı yaş idi, deyəsən Cess tualetdə Tanzinin başını sabunla yumuşdu. Tanzinin sifəti solğun, ləkəli idi.

– Tanzi, sən o cür çəpgözlərə fikir vermə! Onlar səni ruhdan salmaq istəyirdi.

Telegram: @cinciva

– O hansı oğlan idi? Bir mənə de görüm, Niki! – Cessin üz ifadəsi qəribə idi.

Cess Tanzi yarışa girdiyi ərəfədə ona tuşlanan istənilən "silaha" qarşı hücuma hazır idi.

Niki onun üzünə baxıb dedi:

– Doğrusu, heç inanmıram ki, onu tanıya biləm. Hər halda, bu işi özüm həll etdim.

Niki "həll etdim və yoluna qoydum" kimi sözləri çox sevirdi.

– Ana, axı mən görmürəm, əgər görə bilməsəm mən nə edərəm?

– Tanzi, narahat olma, bu dəqiqə Nikolls sənə eynək alıb gətirəcək.

– Bəs əgər o eynək almasa nə olacaq? Əgər o heç geri qayıtmasa nə olacaq, ana?

Niki fikirləşdi, "onun yerinə olsaydım yəqin ki, geri qayıtmazdım".

Çünki onlar onun qəşəng maşınını pis günə qoymuşdular. Bu üç gün müddətində Nikolls az qala on il qocalmışdı.

– O qayıdacaq, – Cess Tanzini arxayın etdi.

– Xanım Tomas, biz başlamalıyıq. Öz yerində əyləşmək üçün qızınızın otuz saniyəsi var, – qeydiyyatla məşğul olan kişi onlara yaxınlaşıb dedi.

– Yarışmanı bir neçə dəqiqə gec başlamaq olmaz? Həqiqətən də, həqiqətən də onun eynəyə ehtiyacı var. O, eynəksiz görmür.

– Yox, madam. Əgər qızınız otuz saniyəyə yerində oturmasa, qorxuram ki, biz yarışmanı onsuz başlayaq.

Telegram: @cinciva

– Ana, axı mən eynəksiz heç nə görmürəm, – Tanzi anasının üzünə baxdı.

– Bəlkə mən də içəri girib sən dediklərini vərəqə yazım?

– Ana, elə şey olmaz.

Cess Tanzinin çox narahat olduğunu bilirdi, Nikiyə tərəf döndü, ona baxıb yüngülcə başını yırğaladı, sanki bununla "nə edəcəyimi bilmirəm" demək istəyirdi.

Niki Tanzinin qabağında dizi üstə çömbəldi.

– Tanzi, bacaracaqsan. Sən eynəksiz də görərsən. Sən bu məsələ-misalları başı üstə də durub edə bilərsən. Sadəcə vərəqi gözlərinə çox yaxın tut, çox yaxın tut. Vaxtından səmərəli istifadə et.

Tanzi kor kimi zala baxırdı. Qapının o tərəfində şagirdlər yerlərinə tələsir, stullarını çəkib oturur, qələmlərini parta üstünə qoyurdular.

– Tanzi, Nikolls gələn kimi eynəkləri sənə çatdıracağıq, – Niki dedi.

– Hə, o gələn kimi eynəkləri sənə verəcəyik. Sən içəri gir, bacardığını et, biz burda Nikollsu gözləyirik. Norman divarın o biri tərəfindədir. Hər şey yaxşı olacaq. Sən çıxan kimi gedib lanç yeyərik. Narahat olmalı heç nə yoxdur, – Cess ona təskinlik verməyə çalışdı.

Qoltuğunda qovluq olan bir qadın ona yanaşdı.

– Kostanza, siz yarışmada iştirak etmək istəyirsiniz?

– Onun adı Tanzidir, – Niki dedi.

Elə bil qadın Nikinin sözlərini eşitmədi.

Telegram: @cinciva

Tanzi lal kimi qadının sualına başıyla "hə" cavabı verdi və onun arxasıyca yarışma keçirilən otağa girdi. O, çox pərt görünürdü.

– Tanzi, sən bacaracaqsan! Uğur sənindədir... – Nikinin səsi zalda elə əks-səda verdi ki, arxasındakı kişi dönüb baxdı.

– Allah kömək olsun, – kənardan kimsə mızıldandı.

– Uğur sənindədir, – Niki yenə elə bərkdən dedi ki, Cess heyrətlə ona baxdı.

Sonra zəng çalındı, qapını örtdülər. İndi Cess və Niki qapının bu tayında qaldılar – neçə saatı necə keçirəcəkdilər, vaxtı necə öldürəcəkdilər hələ heç biri bilmirdi.

– Gedək, – axır ki, gözlərini örtülmüş qapıdan ayıran Cess üzünü Nikiyə tutub dedi. "Gedək" desə də, hələ tərpənmirdi, əlini cibinə saldı, sonra əlini cibindən çıxardı, saçlarını hamarladı, yenə "gedək" dedi.

Edin gələcəyinə heç də ümid bəsləməyən Niki qəflətən "o gələcək" dedi.

– Bilirəm.

Araya çökən sükut elə uzun çəkdi ki, onlar məcbur olub bir-birinə baxıb gülümsədilər. Yavaş-yavaş koridor boşaldı, valideynlər hərəsi bir tərəfə getdilər. Koridorda yalnız təşkilatçı qalmışdı, o da siyahıdakı adların üstündən xətt çəkə-çəkə öz-özünə nəsə deyirdi.

– Ola bilsin ki, yenə tıxacdır.

– Ola bilər.

Niki qapının o tayındakı Tanzini aydınca təsəvvür edə bilirdi; indi o qarşısındakı kağızlara əyilib baxır,

Telegram: @cinciva

yan-yörəsinə baxıb həsrətlə kiminsə içəri girəcəyini gözləyir. Cess gözlərini tavana dikmişdi, çox da pis olmayan bir söyüş söydü, sonra at quyruğu bağladığı saçını gah açdı, gah bağladı. Niki görürdü ki, o eyni şeyi dəfələrlə edir.

Sonra yaxınlıqdan kiminsə həyəcanlı səsini eşitdilər. Gələn Nikolls idi. O əlindəki plastik torbanı yuxarı qaldırıb koridor boyunca onlara tərəf dəli kimi qaçırdı. Deyəsən plastik torbanın içindəkilərin hamısı eynək idi. Təşkilatçının stoluna çatan kimi onunla mübahisə etməyə başladı – belə mübahisəni yalnız itirəcəyi heç nəyi olmayan adamlar edə bilərdi. Edi görəndə Niki daxilən yüngülləşdiyini hiss etdi, o bu anlarda bayıra çıxıb, üzünü divara söykəyib ürəkdən ağlamaq istəyirdi.

***

Nikollsla sağollaşmaq ağır mənzərə idi. Onlar narın yağış yağa-yağa Edin maşınının yanında durmuşdular, Cess elə hərəkət edirdi ki, guya Edlə sağollaşmaq heç onun vecinə də deyil. Amma əslində belə deyildi. Niki isə həqiqətən də, ona minnətdar idi, Fişerin səhifəsində etdikləri üçün, onları bu boyda yolu sürüb gətirdiyi üçün təşəkkür etmək istəyirdi. Nikolls ona ehtiyat mobil telefonunu verəndə Niki az qala şoka düşdü, sözlər boğazında quruyub qaldı, yalnız "təşəkkürlər" deyə bildi. Sonra isə Nikolls maşınına mindi. Cesslə Niki Norman da yanlarında maşın parkından üzü universitet binasına

Telegram: @cinciva

doğru getməyə başladılar, özlərini elə aparırdılar ki, sanki Nikollsun maşınının səsini eşitmirdilər.

Onlar koridorda dayandılar, Cess bağlamaları və çantaları qarderoba yığdı, Nikinin çiyinlərində gözə görünməyən tükü üfürdü. Onun səsi elə yavaş idi, Niki inana bilmirdi danışanda onun çənəsi tərpənir.

– Gəl gedək, gedək bu iti gəzdirək.

***

Düzdür, Niki çox danışmırdı. Amma bu o demək deyildi ki, onun deməyə sözü yox idi. Həqiqət o idi ki, o sözləri demək üçün heç kim yox idi. Səkkiz yaşından, atasıyla və Cesslə bir yerdə yaşamağa başlayan vaxtdan bəri hamı çalışırdı ki, onunla onun "hissləri" barəsində söhbət etsinlər. Elə bil onun "hissləri" arxa çantası idi, o bu çantanı arxasıyca sürüyür, çantanı açıb içində nəyin olduğunu hamıya göstərməliydi. Amma demək olar ki, Niki çox vaxt heç nə düşündüyünü də bilmirdi. Siyasət, iqtisadiyyat haqqında heç bir fikri yox idi, hətta doğma anası haqqında da öz fikri yox idi. Onun doğma anası narkoman imiş, anası narkotiki oğlundan çox istəyirmiş. Deyiləsi başqa nə var ki?

Bir müddət Niki psixoloq dedikləri məsləhətçinin yanına getdi. Ona məsləhət verməli olan qadın az qala Nikini dəli etmişdi, elə hey ona nə olduğunu soruşurdu. Niki ona deyirdi ki, o heç də acıqlı deyil, o deyirdi ki, anasının ona qulluq edə bilmədiyini başa düşür.

Telegram: @cinciva

O bilirdi ki, anasının başqa uşağı olsaydı, onu da Niki kimi atardı. Anası çox qəmgin olurdu. Niki onu yalnız çox balaca olanda görürdü, heç anasının ona nə etdiyini də xatırlamır.

Amma psixoloq elə yenə də eyni şeyi deyirdi: "Nikolls, sən ürəyində olanları kiməsə açıb deməlisən, baş verənlərin hamısını içində saxlamaq heç də yaxşı deyil".

Psixoloq qadın ona içi doldurulmuş iki fiqur verdi, sonra dedi ki, anasının onu atarkən özünü necə hiss etməsini bildirsin.

Niki ona demədi ki, ofisdə oturub onu kuklalarla oynamağa məcbur etmək ona pis təsir edir. Ona demək istəyirdi ki, onun bu kuklanı "Nikolas" adlandırması ona hər şeydən pis təsir edir. Niki əslində acıqlı adam deyildi. Onun nə doğma anasına, nə Ceyson Fişerə acığı tutmurdu, bir tərəfdən də heç kəsin onun başa düşəcəyini də gözləmirdi. Nikiyə görə Fişer axmaqdan başqa heç kim deyildi. Onun heç bir intellekti yox idi, ona görə də kiməsə zərbə endirməkdən başqa əlindən heç nə gəlmirdi. Fişer qəlbinin dərinliyində özünün heç nəyi olmadığını çox gözəl bilirdi. Fişer çox yaxşı bilirdi ki, o "saxtadır", heç kimin onu xoşlamadığını çox yaxşı bilirdi. Ona görə də o özünün içində olan pis "hissləri" əli çatan başqa bir şəxsə ötürürdü (Niki bunları deyəndə psixoloq deyirdi ki, görürsən, terapiyanın faydası olub).

Beləliklə də o vaxtdan bəri Cess Nikiyə gəzintiyə çıxmaq deyəndə, Niki bir az şübhələnirdi. Çünki o öz hissləri haqqında çox söhbət etmək, öz hisslərini müzakirə etmək istəmirdi.

Telegram: @cinciva

Niki keçmişi haqda fikir dünyasına qərq olanda Cess onun başını yavaşca cırmaqlayıb dedi:

– Niki, qorxma, mənəm. Nikollssuz bir az qeyri-adidir, eləmi?

***

Hə, onlar parkda aşağıdakı şeylər haqqında danışdılar.

– Aberdindəki binaların gözlənilməz gözəlliyi haqda

– İt haqda

– Hansısa birinin it üçün plastik torbalar götürüb-götürməməsi haqda

– Parkdakı bir maşının altındakı, heç bir maşının tapdalamadığı hansısa bir şey haqda

– Ot üstündə ayaqqıbının burnunu təmizləməyin ən yaxşı yolu haqda.

– Nikinin üzü haqda. Üzü incidir ya yox (Nikinin cavabı: yox, daha incitmir).

– Zədələnmiş başqa yerlərinin incidib-incitməməyi haqda (Nikinin cavabı: yox, bir az, sağalır).

– Onun cins şalvarı haqda. Niyə o cinsini yuxarı dartmır ki, altdan geydiyi retuzlar da görünməsin.

– Nikinin retuzları haqda.

– Martinə "Rolls" haqda deyib-deməmək haqda. Niki ona dedi ki, Marti maşına nişan qoymayıb ki, onun tərpəndiyini bilsin. O hardan biləcəkdi? Cess isə dedi

Telegram: @cinciva

ki, o, Martiyə yalan deyə bilməz, çünki bu ədalətli olmaz. Bunu deyib Cess bir az sakit durdu.

– Nikinin özünü necə hiss etməyi haqda; evdən uzaqda özünü daha yaxşı hiss edirmi? Evə qayıtmaq barədə narahat olurmu? Bax elə bu yerdə Niki söhbət etməyi dayandırdı, çiyinlərini çəkməyə başladı. Demək üçün söz vardı ki?

Onlar aşağıdakılar haqda danışmadılar:

– Tanzi haqqında. Universitet binasının ətrafında gəzərkən sanki Tanzi onların ikisinin arasında havada asılı qalmışdı. Niki Tanzini təsvir edə bilirdi: başını aşağı salıb, özünün doğma rəqəmlər dünyası haqda bildiklərini qarşısındakı vərəqə "tullayır". Niki dəqiq bilirdi ki, Cess də Tanzeni elə beləcə təsəvvür edir.

– Onlar evə beş min funtla qayıtsalar nələr olacağı haqda.

– Tanzi Müqəddəs Anne məktəbinə getsə, Niki də altıncı sinifdən orta məktəbi atası olsa görəsən Cess ondan xahiş edərmi ki, gedib hər gün Tanzenin məktəbdən gətirsin.

– Əgər Tanzi qalib olsa bu axşam hansı yeməyi yeyəcəkləri barədə. Sözsüz ki, kabab yox.

– Təkidlə yaxşı olduğunu desə də Cessin niyə titrəyib-əsməsi haqda. Onun qollarının üstündəki balaca tüklər biz-biz durmuşdu.

– Nikolls haqda. Xüsusilə də, ötən gecə Cessin harada yatması haqda. Yol boyunca Cesslə Nikollsın niyə bir-biriylə danışmaması haqda. Yeniyetmə oğlanla qız

Telegram: @cinciva

kimi hərdən bir-birinə niyə oğrun-oğrun baxmaları haqda. Niki fikirləşirdi, Cess o anlarda onların heç nə başa düşmədiyini fikirləşirmiş.

– Nikinin əvvəlkinə nisbətən niyə daha çox söhbət etməsi barədə.

***

Onlar bayırda gözləyirdilər, nəhayət, saat ikidə qapı açıldı. Tanzi birinci dəstənin içində çıxdı. Xəzli qələmqabını sinəsinə sıxıb gəlirdi. Cess qollarını açıb onu qucaqladı:

– Necə oldu?

Tanzi dayanıb uzun-uzadı onlara baxdı.

– Tanzi, çoxlu pozdun? – Niki qımışıb sual verdi.

Elə bu vaxt, Tanzi balaca uşaq olanda etdiyi kimi üzünü qırışdırdı, ağlamağa başladı. Həm Cess, həm də Niki üç saniyə ərzində fikirləşdilər ki, ya pis şey baş verib, ya da böyük bir hadisə. Yox, onun fəryadı pis şeydən xəbər verirdi.

Cess Tanzini özünə daha bərk sıxdı, bilmədi ki, nə etsin. Onu sakitləşdirsin, ya özünün sarsıldığını ondan gizlətsin, bilmək olmurdu. Niki bir əlini Tanzinin çiyninə qoydu. Norman onun ayağının altında şöngüyüb oturdu. Uşaqların bəziləri az qala uçurdular, bəziləri isə Tanzi kimi sakit idilər. Hönkürə-hönkürə Tanzi nə baş verdiyini danışırdı.

– Mən birinci yarım saat heç nə etmədim – vaxtı əldən verdim. Həm də müəllimlərin bəzi sözlərini yaxşı

Telegram: @cinciva

başa düşmürdüm, aksentləri çox fərqliydi. Demək olar ki, heç nəyi yaxşı görmürdüm. Bu da məni çox əsəbiləşdirirdi, gözlərimi qarşımdakı ağ vərəqə zilləyib baxırdım. Eynəklərimi gətirib mənə verəndən sonra gözümə uyğun eynəyi tapmaq üçün az qala illər itirdim. Sonra isə heç birinci sualı da başa düşmədim.

Cess başını qaldırıb dəhlizdəki təşkilatçıları gözdən keçirdi, Tanziyə dedi:

– Mən təşkilatçılarla danışaram, onlara nə baş verdiyini deyərəm. Sənin görmədiyini nəzərdə tuturam. Bunu nəzərə alıb sənin nəticələrinə dəyişiklik edərlər.

– Yox, mən istəmirəm ki, sən onlarla danışasan. Gözlərimə uyğun gələn eynəyi tapandan sonra da mən heç birinci sualı başa düşmədim. Dedilər ki, o sualı bu yolla həll etmək olar, amma mən o yolla həll edə bilmədim.

– Ola bilsin ki... – Cess nəsə demək istədi.

– Hər şeyi korladım, – Tanzi belə deyib hönkürürdü, sonra Cessə döndü:

– Bu haqda daha heç nə demək istəmirəm, getmək istəyirəm.

– Əziz balam, sən heç nəyi korlamamısan. Həqiqətən də. Sən əlindən gələni etmisən. Əsas olan da budur, – Cess onun saçını sığallaya-sığallaya dedi. Elə bil belə etməklə hər şey yaxı olacaq.

– Yox, mən korladım. Pul olmasa mən Müqəddəs Ann məktəbinə gedə bilməyəcəm.

– Yaxşı... nəsə olmalıdır. Narahat olma, Tanzi! Bir şey fikirləşib taparam. Yoluna qoyacam.

Telegram: @cinciva

Tanzi axmaq deyildi. Cessin üzündə az da olsa təbəssüm yox idi. O, qəlbiqırılmış adam kimi ağlayırdı.

Niki heç vaxt Tanzini belə görməmişdi. Hətta onun ağlamağı Nikini də azca ağlatdı.

Tanzinin göz yaşları dözülməz olanda Niki ona "Gəl evə gedək", – dedi.

Amma bu sözləri eşidən daha bərkdən ağlamağa başladı.

Cess Nikiyə baxdı. Cessin üzü ağappaq idi, əvvəlki rəngindən əsər-əlamət yox idi.

Anası baxışlarıyla ona demək istəyirdi ki, Niki, nə edəcəyik? Bu sualın cavabını hətta Cessin də bilməməsi faktı Nikiyə elə təsir etdi, bir anlıq ona gəldi ki, bütün dünyaya nəsə olub. Niki fikirləşdi: Kaş ki, Cess mənim narkotiklərimi "müsadirə etməyəydi". Həyatı boyu o heç vaxt onları çəkməyə bu qədər ehtiyac duymamışdı.

Onlar hələ də dəhlizdə durub gözləyirdilər. Qalib olan uşaqları qruplara böldülər. Uşaqların bəziləri buterbrod yeyir, bəziləri isə aşağı düşüb valideynləri ilə maşına minib gedirdilər, ilk dəfə olaraq Niki hirsləndi. Niki bayaq bacısına lağ edən o axmaq oğlanlara hirsləndi ki, niyə bacısını ruhdan saldılar. O bu axmaq riyaziyyat yarışmasına və bu yarışmanın qaydalarına üsyan etmək istədi ki, görə bilməyən bapbalaca qız üçün qaydalarında bir cıqqılı dəyişiklik etmirlər. O bu uzunluqda yolu gəlib, sonda uğur qazanmadıqları üçün özlərinə acıqlandı.

Bu ailənin istədiyinin heç biri baş vermədi.

Telegram: @cinciva

Dəhliz tamam boşalanda Cess əlini arxa cibinə saldı, ordan düzbucaqlı bir kart çıxardı, kartı Nikiyə uzatdı:

– Nikollsa zəng elə.

– Axı indi o, yolunu yarı edib. Həm də axı o nə edə bilər ki? – Niki dedi.

Cess dodaqlarını dişlədi. Bir az Nikidən aralandı, sonra yenə qayıdıb dedi:

– O bizi Martinin yanına apara bilər.

Niki heyrətlə ona baxdı.

– Niki, zəng elə. Bilirəm, ona zəng etmək bir az yöndəmsiz görünür, amma başqa nə edəcəyimizi bilmirəm. Tanzi atasını görmək istəyir. Nəsə elə bir şey olsun ki, o qalib olmaması haqda düşünməsin.

***

Ed yarım saatdan sonra onların yanındaydı. O, Cessə dedi ki, nəsə yemək üçün yol qırağındakı kafedəymiş. Niki sonralar fikirləşdi ki, görəsən nəyə görə Ed çox uzağa getməyib, elə yol qırağında dayanıb və niyə yüngülcə qəlyanaltı etməyi belə çox çəkib.

Niki Cesslə mübahisə edirdi:

– Bilirəm ki, sən Martini görmək istəmirsən.

– Mən görmək istəmirəm, Tanzi istəyir.

– Onun yanına getmək heç nəyi yaxşıya doğru dəyişməyəcək.

– Sənə görə ola bilsin ki, dəyişməyəcək. Niki, bilirəm ki, hal-hazırda atan barəsində fikirlərin qarışıqdır. Buna

Telegram: @cinciva

görə heç səni günahlandırmıram da. Bilirəm ki, elə çaşdırıcı məqamlar olub ki...

– Mən heç vaxt çaşmamışam.

– Niki, Tanzi indi elə bil quyu dibinə düşüb. Onu o quyudan çıxarmaq üçün ona nəsə lazımdır. Bir də Marti burdan çox da uzaqda deyil.

Əlini uzadıb Nikinin qoluna toxundu:

– Bura bax, əgər həqiqətən də, biz ora çatanda onu görmək istəmirsənsə maşında otura bilərsən, ok?

Nikinin heç nə demədiyini görüb "üzr istəyirəm" dedi.

– Düzünü desəm, mən indi onu heç görmək belə istəmirəm. Amma Tanzinin xətrinə bunu etməliyik.

Niki ona nə deyə bilərdi? Niki ona nə deyəydi ki, o da inansın? Niki tam əmin idi ki, onun yalnız beş faizi səhv edib-etmədiyini fikirləşirdi.

Cess maşına söykənib Niki ilə Cessin söhbətinə qulaq asan Nikollsa tərəf döndü:

– Zəhmət olmasa. Bizi Martigilə apararsan? Yox, Martigilə yox, onun anasıgili nəzərdə tuturam. Üzr istəyirəm, bilirəm ki, sən bizimçün çox şey etmisən. Sənə çox əziyyət vermişik. Amma səndən başqa elə adam yoxdur ondan xahiş edim bizi ora çatdırsın. Tanzi atasını görmək istəyir. Mənim, bizim onun haqqında nə düşünməyimizdən asılı olmayaraq Tanzi atasını görmək istəyir. Burdan ora yalnız bir neçə saatlıq yoldur.

Ed onun üzünə baxdı.

Telegram: @cinciva

– Ok. Ola bilsin ki, yavaş sürətlə getsək bir az da çox olar. İndi isə, zəhmət olmasa, yana durun, maşını döndərim, mütləq dönməliyəm.

Nikolls o biri tərəfə addımladı. Arxa qapını açıb Tanziyə baxıb dedi:

– Gəlin gedək.

Onların hamısının yüngülləşdiyi görünürdü. Amma Nikiyə görə Martinin yanına getmək heç də yaxşı ideya deyildi.

Telegram: @cinciva

22

CESS

Cess axırıncı dəfə Mariya Kostanzanı Martini Liamın qardaşının ərzaq daşıyan maşınında onun evinə aparanda görmüşdü. Qlazqoya yüz mil qalmış Marti adyalın altında yuxulayırdı. Mariya Kostanzanın evinin qarşısında dayanıb ona oğlunun depressiyada olmasından, nevroz kimi hər xırda şeyə əsəbiləşməsini izah etməyə çalışanda Maria ona elə baxmışdı ki, elə bil Cess onun oğlunu öldürməyə çalışırdı.

Mariya Kostanzanın heç vaxt Cessdən xoşu gəlməmişdi. O fikirləşirdi ki, dırnaqlarını evdə boyayan on altı yaşlı məktəbli qız onun oğluna layıq deyil. Cess Martiylə bir yerdə yaşayandan sonra Marianın Cess haqqındakı aşağılayıcı fikri dəyişməmişdi. O fikirləşirdi ki, Cessin gördüyü ev işləri spesifikdir, uşağına paltarı özünün tikməsi eksentrikdir. Bununla belə, Maria heç vaxt Cessdən soruşmurdu ki, niyə qızına paltarı özü tikir, niyə gedib hazır paltar almır, ondan heç vaxt soruşmurdu ki, niyə boya , yaxud divar kağızı alıb evlərini

Telegram: @cinciva

təmir etmirlər. Maria ondan soruşmurdu ki, niyə mətbəxin qab yuyulan yerinin altında tıxac yarananda oranı Cess təmizləyir, Marti yox.

Mariya bilirdi ki, Cess əlindən gələni edir, bilirdi ki, Cess nəzakətlidir, başqa qadınlar kimi evdə baş verənləri qonşulara danışmır. Maria bilirdi ki, Cess Martiyə çox sədaqətlidir və dünyanın ən gözəl qızını dünyaya gətirib, uşağı təmiz saxlayır, onu vaxtında yedizdirir və sair. Mariya Kostanza dünyanın ən acıdil qadınlarından biriydi. Cess onun üzündə bircə dəfə də olsun təbəssüm gördüyünü yadına sala bilmirdi – yalnız qonşulardan hansısa birinin xəstələndiyini, ya başına bir ağır iş gəldiyini eşidəndə üzündə azacıq təbəssüm görmək olurdu.

Yolda olarkən Cess Nikollsun telefonu ilə ona iki dəfə zəng etmək istədi. Amma cavab verən olmadı.

– Yəqin ki, nənə hələ işdən gəlməyib. Ya da ola bilsin onlar bibinin təzə doğulan körpəsini görməyə gediblər, – Cess Tanziyə dedi.

– Sən hələ də istəyirsən ki, mən maşını onların qapısına sürüm? – Nikolls belə deyib Cessə nəzər saldı.

– Zəhmət olmasa. Əminəm ki, biz çatanda onlar evdə olacaqlar. Mariya Kostanza heç vaxt axşamlar evdən bayıra çıxmır.

Maşının güzgüsündən Nikinin gözləri Cessin gözləriylə qarşılaşdı, sonra o cəld gözlərini yayındırdı. Maria Costanzanın Tanziyə münasibətini isti münasibət saymaq olardı, amma o heç vaxt adını belə eşitmədiyi bir oğlan nəvəsinin də varlığından xəbər tutanda elə bil ona

Telegram: @cinciva

ailələrində hamıya qotur düşməsi xəbərini bəyan etmişdilər. Cess onun inciyəcəyini bilib ona demədi ki, bu oğlan uşağı neçə illər onun xəbəri olmadan da bu dünyada olub. O deyə bilmirdi ki, əgər Marti narkoman bir qadını özünə cəlb edibsə elə o yolla da onu rədd edə bilər.

– Tanzi, atanı görmək istəyirsən? – Cess arxaya dönüb ondan soruşdu.

Qız əyilib Normanın başını sığallayırdı. Onun üzü solğun və kədəliydi.

Anasının sualını eşidəndə o başını azca qaldırıb başıyla "hə" dedi.

– Onu görmək əla olacaq. Hələ nənəni də. Heç bilmirəm niyə hələ yolda olanda onlara getmək haqda fikirləşməmişik, – Cess dedi.

Cess Martinin də nömrəsinə zəng eləmək istəyəndə yadına düşdü ki, Martinin nömrəsi həmişə bağlı olub. Cess onunla həmişə skaypla danışardı, ya da Marti özü zəng edər, danışıb qurtaran kimi yenə telefonunu söndürərdi. Cess fikirləşirdi ki, çox şeylər dəyişəcək. Çox şeylər.

Maşında heç kim danışmırdı. Tanzi başını Normana söykəyib mürgüləyirdi, Niki isə sakitcə oturub qaralan səmaya baxırdı. Cess musiqiyə qulaq asmaq istəmirdi. O istəmirdi ki, uşaqları Aberdində baş verənlərdən sonra onun özünü yaxşı hiss etməsini fikirləşsinlər, özü də orda baş verənlər haqqında düşünmək istəmirdi, istəyirdi ki, Tanziyə uğursuzluğunu unutdursun, sonra isə hər şeyi yoluna qoyar.

Telegram: @cinciva

– Yaxşısan? – Ed Cessdən soruşdu.

– Yaxşıyam, – Cess hiss etdi ki, Ed onun sözlərinə inanmadı.

Cess Edə tərəf döndü:

– Bilirəm ki, Tanzi atasını görəndən sonra özünü yaxşı hiss edəcək. Bunu bilirəm.

– Tanzi gələn il də olimpiadada iştirak edə bilər. Onda artıq nə etmək lazım olduğunu yaxşı biləcək.

Cess gülümsəməyə çalışdı:

– Nikolls, bu nikbinlik bir az şübhəli səslənir.

Ed Cessə baxdı, onun gözlərindən mərhəmət yağırdı.

Yenidən Nikollsun maşınında olmaq Cessi rahatlaşdırmışdı. O, maşında özünü elə rahat hiss edirdi ki, elə bil maşında olanda onlara heç nə ola bilməz. Bir anlıq o, Martinin anasının onları necə qarşılayacağını göz önünə gətirdi, onların hamısının onlarda gecələyəcəyini biləndə üzündəki ifadənin necə dəyişəcəyini xəyalına gətirdi. Cess bir anlıq Kostanzanın balaca evinin qabağında dayandıqlarını, başına gələnləri, niyə gəldiklərini ona izah etməyə çalışdığını gözü önünə gətirdi. "Rolls-Royc"e haqqında eşidəndə Martinin üzünün ifadəsinin necə olacağını təsvir etdi. Səhərisi gün avtobus dayanacağında gözlədiklərini, uzun səyahətdən sonra evə doğru atılan ilk addımları haqda fikirləşdi. Cess hələ bilmirdi ki, onlar hamısı maşından düşəndən sonra Nikollsdan onlar evlərinə qayıdanədək Normanın maşında qalmasını xahiş etsin, ya yox. Bu haqda fikirləşəndə bir anlıq bu uzun səyahətin Nikollsa nə qədər əziyyət verdiyini düşünüb, daha Norman haqda heç nə demədi.

Telegram: @cinciva

Bu vaxt gördü ki, kimsə qoluna toxundu, Ed idi.

– Cess?

– Nədir?

– Cess, mənə elə gəlir çatmışıq. Satnav göstərir ki, biz ünvana çatmışıq. Bax gör tanış gəlir ev?

Cess özünü qaydaya saldı, boynunu bir iki dəfə şıqqıldatdı. Divarları ağappaq olan bir evin qabağındaydılar. O, azca həyəcanlandı.

– Saat neçədir? – Eddən soruşdu.

– Hələ saat yeddi olmayıb.

Cess gözlərini bir daha ovuşduranadək gözlədi.

– Evin işıqları yanır. Məncə evdə adam var, – Ed dedi.

Cess pəncərədən çölə baxdı, sonra arxaya döndü:

– Ey, uşaqlar, çatmışıq. Atanızı görmək vaxtıdır.

***

Balaca cığırla evə tərəf gedəndə Tanzi Cessin əllərini möhkəmcə sıxırdı. Niki isə maşından düşməkdən imtina etdi, dedi ki, Nikollsla bir yerdə maşında gözləyər. Cess Tanziyə dedi ki, birinci o içəri girsin, özü isə arxaya qayıdıb Nikiylə danışıb geri qayıtdı.

– Tanzi, həyəcanlanırsan?

Qız başıyla təsdiqlədi. Bu anlarda Tanzinin üzündə ümid vardı. Cess başa düşdü ki, bura gəlməkdə düz edib. Hər halda, bu səyahətin bir xeyri olardı. Marti ilə Cessin arasındakı problemləri sonra da həll etmək olardı. Cığırın kənarlarında şaftalı rəngli qızılgül kolu

Telegram: @cinciva

vardı, Cess fikirləşirdi ki, ehtiyatsız olan adama bu kollar maneçilik törədər evə tərəf gedərkən. Birinci pilləkənin yanına Cessin adını bilmədiyi bənövşəyi rəngli güllərdən təzə "sərhədlər" çəkilmişdi.

Cess jaketini səliqəyə saldı, Tanzinin üzünə düşən saçını kənara elədi, ağzının kənarlarını sildi, sonra qapının zəngini basdı.

Mariya Kostanza birinci Tanzini gördü, ona baxdı, sonra Cessi gördü. Bu an onun üzündə Cessə tanış olmayan ifadə vardı.

Cess onun üzündəki ifadəyə təbəssümüylə cavab verdi.

– Mariya! Bu tərəflərə gəlmişdik, fikirləşdim ki, Martini görmədən getməyək. Həm də səni.

Mariya Kostanza hələ də gözlərini zilləyib Cessə baxırdı.

– Sənə zəng etdik. Bir neçə dəfə... İstədim ki, mesaj yazım, amma... – Cessin səsi özünün də qulaqlarına qəribə gəldi

– Salam, nənə! – Tanzi ona tərəf qaçıb belini qucaqladı. Mariya Kostanza əlini qaldırdı, aşağı salıb Tanzinin arxasında saxladı. O saçını çox tünd rəngdə rəngləmişdi – Cess görən kimi fikrini bildirdi. Mariya Kostanza bir neçə dəqiqə beləcə dayandı, sonra maşına tərəf baxdı. Niki maşında sakitcə dayanıb arxa pəncərədən onlara baxırdı.

"Nə olar, Tanzini qucaqla, dünya dağılmaz ki, bircə dəfə üzündə sevinc ifadəsi olsa..." Cess ürəyində dedi, fikirləşdi ki, bu anlarda Niki əsəbindən partlayır.

Telegram: @cinciva

Bununla belə, Cessin üzündə hələ də təbəssüm vardı, Mariyaya dönüb dedi:

– Niki elə indicə oyanıb. Dedim ki, hələ bir neçə dəqiqə maşında durub özünə gəlsin.

Onlar dayanıb bir-birinə baxır, gözləyirdilər.

Cess onun danışmadığını görüb ağzını açıb nəsə demək istəyəndə Mariya dedi:

– O... O burda yoxdur.

– İşdədir? Əgər o işləmək istəyibsə bu çox yaxşıdır.

– Cessika, Marti burda yoxdur.

– O xəstədir? Aman Tanrım, ona nəsə olub?

Amma Mariyanın üzündəki ifadəni o hələ bu vaxtacan gördüyünə əmin deyildi.

Elə bil o utanırdı. Pərt idi.

Cess hiss edirdi ki, Mariya pərtliyini gizlətmək istəyir. O arxaya dönüb baxdı, sonra qollarını qoynunda çarpazlayıb soruşdu:

– Bəs hardadır o ?

– Sən... Məncə özün get onunla danış, – belə deyib Mariya kostanza əlini ağzına apardı, elə bil özünə mane olmaq istəyirdi ki, heç nə deməsin, sonra nəvəsinin qollarını ehtiyatla belindən açıb dedi:

– Gözlə, mən Martinin yaşadığı ünvanı yazıb verim.

– Onun ünvanını?

Mariya Kostanza heç nə demədən onları elə qapının ağzında qoyub balaca dəhlizin qapısını azacıq örtüb görünməz oldu. Tanzi başını qaldırıb istehzayla onun arxasıyca baxdı, Cess isə sakitcə gülümsündü. Amma onun təbəssümü heç də göründüyü kimi deyildi.

Telegram: @cinciva

Qapı təzədən açıldı. Mariya Cessə bir vərəq kağız uzatdı:

– Burdan ora bir saat, ya da nəqliyyatdan asılı olaraq saat yarımlıq yoldur.

Cess kağıza baxdı, sonra dönüb evin içinə nəzər saldı. Onları tanıdığı bu neçə il ərzində evdə heç bir dəyişiklik yox idi. Demək olar heç nə dəyişməmişdi. Bu an Cessin beyninin dərinliyində elə bil nəsə bir xəbərdarlıq zəngi çalınırdı.

– Oldu, – Cess dedi, artıq onun üzündə təbəssüm yox idi.

Mariya Cessin ona zillənmiş baxışlarına tab gətirmədi. Ovcunun içiylə Tanzinin yanaqlarını sığalladı, dedi:

– Sonra geri qayıdıb gecəni nənəylə keçir, oldu?

O, başını qaldırıb Cessə baxdı:

– Onu geri gətirəcəksən? Nə vaxtdır ki, onu görmürəm.

Mariyanın ikiüzlü rəftarı Cessi daha çox əsəbiləşdirirdi tanış olduğu bu illər ərzində.

Cess Tanzinin qolundan çəkib maşına tərəf döndü.

Nikolls başını qaldırdı, heç nə demədi.

– Götür bax. Bu ünvana getməliyik, – Cess əlindəki kağızı ona uzatdı.

O heç bir söz demədən poçt indeksini satnava proqramlaşdırdı.

Cessin nəbzi sürətlə vururdu.

Tanzi qulaqcıqlarını taxandan sonra Cess Nikollsa arxa güzgüdən baxıb dedi:

Telegram: @cinciva

– Deyəsən ünvanı tanıdın.

Niki nənəsinin evinə baxa-baxa gözünün üstünə düşmüş saçlarını yana itələdi.

– Biz bir neçə gün əvvəl onunla skaypda danışmışıq. Amma nənənin evində təzə divar kağızı yoxdur.

Tanzi isə Cessdən Martinin harada olduğunu soruşmadı.

Bir saatı sükut içində getdilər. Cess özünü ələ almağa çalışırdı, amma o danışa bilmirdi. Onun başından milyon fikir keçirdi. Hərdən də o güzgüdən Nikiyə baxırdı. O gözlərini pəncərədən çölə zilləyib yol qırağına baxırdı. O bu bir neçə ay ərzində Nikinin də atasıyla söhbət etməyini istəyirdi.

Onlar tutqun kənd yollarından keçib şəhərin təzə salınmış ətraf yerlərinə tərəf gedirdilər. Burda təzə, bahalı maşınlar qaranlıqda parlayırdı. Nikolls Castle Courtda maşını saxladı. Dar səkinin kənarlarında dörd gilas ağacı elə bil keşik çəkirdilər. Adama elə gəlirdi ki, bu vaxtacan heç kim bu səkiyə ayaq basmayıb.

Qarşılarındakı ev deyəsən təzə tikilmişdi, evin damı yağış altında parıldayırdı.

Cess pəncərədən evə baxırdı.

– Yaxşısan? – bir saatlıq yol boyunca Nikolls ilk dəfəydi ki, danışırdı.

– Siz burda gözləyin, uşaqlar, – Cess belə deyib maşından düşdü, evin qapısına baxdı, mis lövhədə yazılmış ünvana baxdı, giriş qapısını taqqıldatdı. İçəridən

Telegram: @cinciva

gələn televizor səsini eşidirdi, sonra isə gur işıq altında kiminsə qapıya tərəf gələn kölgəsini gördü.

Yenidən qapını döydü. Yağışı heç hiss etmirdi.

Zalda addım səsləri...Qapı açıldı, onun qarşısında sarışın bir qadın dayanmışdı. Onun əynində tünd qırmızı yun don vardı, ayağında bahalı ayaqqabı vardı. Saçı bankda, yaxud pərakəndə satışla məşğul olan yerdə işləyən, "qaya cücəsi" olmadıqları kənardan bilinən qadınların saçı kimi kəsilmişdi.

– Marti burdadır? – Cess soruşdu.

Elə bil qadın danışmaq istəmirdi, Cessi başdan ayağa süzdü, onun ayağındakı şap-şaplara, əzik-üzük ağ şalvarına, son dəqiqələrdə dəyişən üzünə baxdı, Cess hiss etdi ki, qadın onun kim olduğunu bildi.

– Burda gözləyin, – o dedi.

Qapını azacıq örtdü, Cess onun koridorda dediyi sözləri eşitdi:

– Mart! Mart!

Mart... qadının Martini belə çağırırdı.

Hə... Ticarət mərkəzi. Qadının səsi bunu deyirdi.

Az keçmiş Cess Martinin səsini eşitdi. Deyəsən güləgülə televizorda gördüklərindən danışırdı, sonra qadının səsi yavaşıdı, Cess onların kölgələrini görürdü. Qapı açıldı, Marti qapının ağzındaydı.

Marti saçını uzatmışdı. Alnına düşən uzun saçını yeniyetmə oğlanlar kimi yana daramışdı. Onun əynində Cessin heç vaxt görmədiyi tünd göy cins şalvar vardı, həm də arıqlamışdı. O Cessin gördüyü Martiyə oxşamırdı. Rəngi çox, çoox solğun idi.

Telegram: @cinciva

– Cess...

Cess danışa bilmədi.

Onlar bir-birinə baxırdılar, heç biri danışmırdı. Marti udqundu, "sənə demək istəyirdim", – dedi.

Cessin beyninin yarısı gördüklərinə inanmaq istəmirdi. Bu ana qədər o fikirləşirdi ki, bəlkə səhv edir, bəlkə Marti hansısa dostunun evində qalır, ya da Marti yenə xəstələnib, ona görə də Maria Costanza öz təbəssümüylə bunları gizlətmək istəyib Cessdən. Amma indi Cess gördüklərinə inanmaya bilməzdi.

Səsini "tapmaq" üçün Cessə bir neçə saniyə lazım oldu:

– Sən... sən belə bir evdə yaşayırsanmış?

Cess ətrafına, evin qabağındakı bağa, pəncərədən görünən otaqlara baxdı. Birdən hiss etdi ki, maşına söykənib, ombası maşına dəyirdi, əlini çəkdi, sanki maşın bu dəqiqə əlini yandıracaqdı.

– Sən belə bir evdə yaşayırsanmış? Mən iki ildir gecə-gündüz işləyirəm ki, uşaqları isti saxlayım, onları yedizdirə bilim, sənsə belə bir villada yaşayırsanmış? Təzə brend "Toyota" sürürsənmiş?

Martı sanki qorxa-qorxa arxasına baxdı:

– Cess, biz danışmalıyıq.

Hə, bax elə bu vaxt Cess yemək otağındakı divar kağızını gördü. Qalın zolaqlı divar kağızları...Hər şey aydın oldu.. Onun niyə skaypla danışması...Onun telefonunun həmişə bağlı olması...Hər dəfə skaypla danışanda, günün istənilən vaxtında Mariya Kostanzanın

Telegram: @cinciva

yatdığını deməsi... Cessi danışmaq üçün vaxt təyin edəndə Cessin zəngini eşidən kimi cəld cavab verməsi...

– Nə? Danışmalıyıq? – Cess indi elə bil gülürdü.

– Hə, gəl danışaq, Marti! Mən nədən danışım? İki il ərzindən səndən heç nə tələb etmədiyimdən? Nə uşaqlarına pul , nə də onlara vaxt ayırmağı tələb etmədiyimdən? Çünki mən elə bilirdim ki, sən xəstəsən. Elə bilirdim hələ də depressiyadasan. Mən elə bilirdim ki, sən ANAN-la bir yerdə yaşayırsan.

– Mən anamla yaşayırdım.

– Nə vaxtdan burda yaşayırsan?

Marti ağzını yumdu.

– Nə vaxtdan, Marti? – Cessin səsi qulaq batırırdı.

– On beş ay.

– Deyirsən sən on beş aydır burda yaşayırsan?

Marti başını aşağı salıb ayaqlarına baxırdı.

– Deməli, sən on beş aydır ki, burda yaşayırsan? Deməli, bir ildən çoxdur ki, burdasan?

– Sənə demək istəyirdim. Amma bilirdim ki, sən...

– Hə, qorxurdun ki, "zühur edərəm"? Sən lüks həyat yaşayırsan, sənin arvadın və uşaqların isə sənin qoyub gəldiyin o xarabada yaşayır.

– Cess.

Balaca bir qız qapını itələyəndə Cess bir anlıq səsini kəsdi. Martinin arxasında balaca, sarışın, əynində Hollister trikotaj köynəyi və Converse şalvarı geymiş qız göründü. O, Martinin qolundan tutub dartmaq istəyirdi: "Marti, sevdiyin proqram başladı".

Telegram: @cinciva

Amma Cessini görən kimi səsini kəsdi.

– Get ananın yanına. Mən də indi gəlirəm, – Marti baxışlarını arxaya döndərib qıza dedi.

Balaca qız ehtiyatla Cessə baxırdı, yəqin ki, onun yad olduğunu artıq hiss etmişdi. Qız elə Tanzi yaşda olardı.

– Get, – Marti qıza dedi və qapını çəkdi.

Elə bu vaxt Cess bomba kimi partladı.

– Onun... onun uşaqları da var?

Marti udqundu.

– İkisi.

Cess əlini əvvəlcə üzünə, sonra saçına apardı. O geri döndü, kor kimi cığırda addımladı. Əslində o hara getdiyini də bilmirdi.

– Aman Tanrım... Aman Tanrım...

– Cess, mən heç vaxt ... – Marti nəsə demək istəyirdi.

Bu vaxt Cess arxaya qanrıldı və Martinin üstünə cumdu. O Martini əzişdirmək, xurd-xəşil etmək, onun axmaq sifətini yumruqlamaq, bahalı saç düzümünü dağım-duğum etmək istəyirdi. O, Martinin payını vermək istəyirdi.

Marti demək olar ki, heç Cessin nə etdiyini bilmədən maşının arxasına tərəf əyildi.

Cess indi maşını təpikləyirdi, maşının yekə təkərlərini, parlayan panellərini təpikləyirdi, parlayan ağ maşının qapısını təpikləyirdi.

– Sən mənə yalan demisən! Sən bizim hamımızı aldatmasın! Mən axmaq isə səni müdafiə etmək istəyirdim! Mən inana bilmirəm... Mən inana bilmirəm.

Telegram: @cinciva

O, maşını təpikləyir, təpikləyirdi. Təpikləri maşına dəydikcə sanki bir az sakitləşirdi, barmaqları incitsə də təpikləyirdi. Bir az dayanıb yenidən təpikləyirdi, yumruğunu düyünləyib maşının pəncərələrinə zərbələr endirirdi.

– Cess! Dəli olmusan? Dəlisən?.. Maşını... – Marti qışqırırdı.

Qadın maşına zərbələr endirirdi, çünki onun özünə zərbə endirə bilmirdi. O maşına ayağıyla, əlləriylə zərbə endirirdi, heç nə haqda fikirləşmədən, hönkürə-hönkürə, göz yaşları süzülə-süzülə təpikləyirdi. Marti onu dayandırmaq istədi, maşınla Cessin arasında durub maşını onun təpiklərindən qorumaq istədi. Marti Cessin qollarından yapışıb kənara çəkdi.

Martinin gözlərinin içinə, onun qorxaq gözlərinin içinə baxdı. O onun gözlərini yumruqlamaq istədi.

– Cess.

Nikolls qolunu onun belinə dolayıb onu arxaya tərəf çəkirdi, onu sakitləşdirməyə çalışırdı.

– Əl çək məndən, – Cess bağırdı.

– Uşaqlar baxırlar... Gəl... – Nikollsın bir əli hələ də Cessin qolundaydı.

Cess nəfəs ala bilmirdi. Elə bil bədəninin hər yerindən inilti səsi gəlirdi. Nikolls onu bir neçə addım geri apardı. Marti qışqıraraq nəsə deyirdi, Cess başındakı səs-küydən Martinin nə dediyini eşidə bilmirdi.

– Çıxın gedin.Çıxın gedin... – bu sözləri eşidə bildi Cess.

Telegram: @cinciva

Maşın. Uşaqlar. Cess maşına baxdı, Tanzinin üzünü gördü. Gördüklərindən sarsılmış Tanzinin gözləri az qala hədəqəsindən çıxırdı. Niki onun yanında hərəkətsiz müqəvva kimiydi. Cess yenə geri dönüb təmtəraqlı villaya baxdı. Pəncərədən iki uşaq baxırdı. Onların arxasında anaları dayanmışdı.

– Sən dəlisən, – maşının əzilmiş panellərinə gözlərini zilləyən Marti bağırırdı.

– Əsl dəlisən... – o, təkrar edirdi.

Cess indi tir-tir əsirdi. Nikolls qollarının onun boynuna doladı, onu maşına tərəf çəkdi.

– Min. Otur.

Cess oturandan sonra Nikolls qapını bağladı.

Martı yavaş-yavaş cığırla onlara tərəf gəlirdi. Cess fikirləşdi ki, o dalaşmağa gəlir. Amma maşına on beş addım qalmış o maşına tərəf boylandı, maşının içinə baxdı, əyildi ki, maşındakıları yaxşı görsün, elə bu vaxt arxa qapı açıldı və Tanzi yerə düşüb ona tərəf qaçdı.

– Ata! – Tanzi qışqırdı. Marti onu qucağına alıb yuxarı qaldırdı, bundan sonra nə baş verdiyini Cess bilmədi.

Cess maşında gözlərini ayaqaltına zilləyib nə qədər oturduğunu bilmədi. Heç nə haqqında fikirləşə bilmirdi. Heç nəyi hiss etmirdi. Yaxınlıqda kiminsə deyindiyini eşitdi, bir dəfə də Nikinin irəli durub əlini onun çiyninə qoyub, təəssüf edirəm" dedi. Sözü sonacan deyə bilmədi, səsi qırıldı.

Cess onun əlindən möhkəm tutdu və "sənin... günahın deyil", – pıçıldadı.

Telegram: @cinciva

Nəhayət, qapı açıldı. Nikolls başını içəri saldı. Üst-başı nəm idi, yaxalığından yağış damcılayırdı.

– Deməli belə, Tanzi bir-iki saat burda qalacaq.

Cess ona baxdı, sonra həyəcanlandı.

– Yox. Yox. Tanzi onun yanında qalmalı deyil... Onun bu qədər etdiklərindən sonra...

– Cess, səndən və ondan söhbət getmir burda.

Cess üzünü evə tərəf döndərdi. Giriş qapısı yüngülcə aralıydı. Tanzi artıq içəridə idi.

– Axı Tanzi onlarla bir yerdə qala bilməz. Onlarla bir yerdə...

Nikolls yerində oturdu, Cessin əlindən tutdu, öz əli buz kimi soyuq və yaş idi.

– Tanzi atasını görmək istəyir...

Nikolls elə danışırdı ki, sanki kimsə anlamaz bir uşağa nəyisə izah edirdi:

– Tanzi bu gün çox pis bir gün keçirib, ona görə də o atasıyla bir az vaxt keçirmək istəmişdi. Cess, əgər o indi öz həyatını yaşasa da Tanzi də onun həyatının bir hissəsidir.

– Amma bu..

– Ədalətlidir. Mən bilirəm.

Onlar maşındaydılar. Üçü də gur işıqlanmış evə baxırdılar.

Tanzi indi o evin içindəydi. Martinin təzə ailəsi ilə bir yerdə. Elə bil kimsə əlini Cessin içinə uzatmış, ürəyini dartıb qabırğalarının altından çıxarmışdı. O gözlərini pəncərədən ayıra bilmirdi.

Telegram: @cinciva

– Bəlkə Tanzi fikrini dəyişib? Bəlkə o orda qalmaq istəmir? O orda özünü yalqız hiss edəcək. Biz onları tanımırıq. Mən bu qadını tanımıram. Ola bilər ki, o...

– Cess, o atasıyla bir yerdədir. Ona heç nə olmaz.

Cess Nikollsa baxırdı. Onun üzündən mehribanlıq yağırdı, bütün gücüylə Cessə həmdərd olmağa çalışırdı. Amma səsində qəribə ciddilik vardı.

– Sən niyə onun tərəfini saxlayırsan? – Cess pıçıltıyla soruşdu.

– Mən onun tərəfində deyiləm, – Nikolls barmaqlarını Cessin barmaqlarına keçirdi.

– Gedək nəsə yemək üçün yer axtaraq, ona qədər də bir-iki saat gəlib keçəcək. Uzağa getməyək ki, birdən Tanzi zəng edər, onda tez gəlib onun götürərik.

– Yox. Mən də orda qalacam. Mən də onunla bir yerdə qalacam ki, o tək qalmasın, – arxadan Nikinin səsi eşidildi.

Cess Nikiyə tərəf döndü. Niki maşının pəncərəsindən baxırdı.

– Doğrudan istəyirsən?

– Mənə heç nə olmaz Həm də onun nə dediyini eşitmək istəyirəm, – onun üzünün ifadəsindən baş açmaq olmurdu.

Giriş qapıya çatanadək Nikolls da Nikiylə getdi. Cess oğulluğuna, qara dar cinsin içində onun daha da arıq görünən uzun qıçlarına, qapı açılanda qəribə, yöndəmsiz duruşuna baxırdı. Qapını açan sarışın qadın Nikinin üzünə gülümsəməyə çalışırdı, hərdən də gizlicə maşına

Telegram: @cinciva

tərəf baxırdı. Cess bilirdi ki, qadın ondan qorxub. Qapı bağlandı. Cess gözlərini yumdu, onları içəridə görmək istəmədi. Qapı arxasında nələrin baş verəcəyini xəyalına gətirmək istəmədi.

Sonra Nikolls maşına mindi, özüylə soyuq havanı da içəri gətirdi.

– Gedək. Hər şey yaxşıdır. Heç vaxtın necə keçdiyini bilməyəcəksən.

***

Onlar yol kənarındakı bir kafedə oturdular. Cess heç nə yeyə bilmirdi. O, kofe içdi, kofenin onu oyaq saxlayacağını fikirləşmədən içirdi. Nikolls buterbrod aldı, onunla üzbəüz oturdu. Cess bilmirdi ki, Nikollsun deməyə nəsə sözü var. "İki saat. İki saatdan sonra mən onları götürə biləcəm", – Cess öz-özünə təkrar edirdi.

Yenidən uşaqlarıyla maşında olmaq, Martidən, onun təzə ailəsindən uzaq olmaq, Martidən və onun yalanlarından, onun təzə arvadından uzaq olmaq istəyirdi. Cess bundan başqa daha heç nə haqda düşünmürdü. O, qol saatına baxır və kofenin soyumağını gözləyirdi. Hər dəqiqə ona sonsuzluq kimi görünürdü.

Kafedən çıxmazdan on dəqiqə qabaq telefon zəng çaldı, Cess cəld telefonunu qamarladı. Tanımadığı nömrəydi. Martinin səsi gəldi.

– Onları bu gecə mənimlə qalmağa qoyarsan?

Elə bir hər yandan havanı apardılar ki, Cess nəfəs ala bilməsin.

Telegram: @cinciva

– Yox, yox, – elə bil səsini itirmişdi, birtəhər tapıb dedi: – Onları saxlamağa haqqın yoxdur.

– Mən sadəcə... onlara hər şeyi izah etməyə çalışıram.

– Hə, onların bəxti gətirib. Yoxsa lənətlənmişəm, başa düşə bilmərəm?

Cess səsini qaldırmışdı. O hiss edirdi ki, kafedəki adamlar başlarını çevirib ona baxırlar.

– Mən sənə deyə bilməzdim, Cess. Bilirdim ki, sən bayaqkı kimi reaksiya verəcəkdin

– Aha, bu mənim günahımdır... Hə, mənim günahımdır.

– Bizimki qurtarıb. Sən bunu məndən də yaxşı bilirdin.

Cess kafedə ayaqüstəydi. Ayaqlarını hiss etmirdi. Nədənsə hansısa səbəbdən Nikolls da ayaqüstəydi.

– Sənin harda olmağın heç vecimə də deyil. Amma sən gedəndən bəri mən çörəkpulu üçün ən ağır işlər görürəm. İndi isə görürəm ki, sən kiminləsə yaşayırsan. Brend divanın, parlayan maşının var. Onun uşaqlarının qulluğunda durmusan. Amma öz uşaqlarınla maraqlanmırsan. Marti, mən bütün bunlara necə reaksiya verməyim?

– Bu evdəkilər mənim pulumla yox, Linzinin puluyla alınıb. Onun pulundan sənin uşaqlarına verə bilmərəm.

– Nə? Mənim uşaqlarıma? – Cess artıq stoldan aralanıb qapıya doğru gedirdi. Ofisiantı çağırıb ona pul verən Nikollsu o dumanlı xatırlayırdı.

Telegram: @cinciva

– Bura bax, Tanzi doğrudan da bizdə qalmaq istəyir. O, riyaziyyat yarışıdır-nədir, ondan sonra özünü çox pis edir. Özü məndən xahiş etdi ki, bunu sənə deyim.

Cess artıq danışa bilmirdi. O gözləri yumulu maşının yanında dayanmışdı.

– Üstəgəl, Nikiylə də bəzi məsələləri aydınlaşdırmalıyam.

– Sənə inanmaq olmaz.

– Cess, imkan ver uşaqlarla bəzi şeyləri yoluna qoyum. Sənlə isə biz sonra da söhbət edərik. Bircə gecəlik, onlar burdaykən qoy qalsınlar. Uşaqlar üçün darıxmışam, Cess. Bilirəm ki, hər şeydə günahkar mənəm. Bilirəm ki, zibil olmuşam. Amma onları burda görməyimə çox şadam. Sənin nə baş verdiyindən xəbərdar olmağına sevinirəm. Sadəcə indi bir az irəliyə getmək istəyirəm.

O, maşının yanında dayanıb ətrafına baxırdı. Bir az uzaqdan polis maşını görünürdü, mavi işıqları yanıb-sönürdü. Ayaqları zoqquldayırdı. Ayaqüstə dayana bilmədi, maşının yanında oturub dedi:

– Telefonu Tanziyə ver .

Araya qısa sükut çökdü. Deyəsən qapı açıldı. Cess dərindən nəfəs aldı.

– Ana?

– Tanzi, əzizim, yaxşısan?

– Yaxşıyam, ana. Onların su tısbağaları var. Onlardan biri axsayır. Onun adı Maykdır. Ana, biz də su tısbağası alarıq?

– Bu barədə sonra danışarıq.

Telegram: @cinciva

Cess qab-qacaq səsi eşitdi, krandan su axırdı.

– Hm... hm... Tanzi, doğrudan sən gecəni onlarda keçirmək istəyirsən? Tanzi, sən belə etməli deyildin. Sən sadəcə... Hə, sənə necə xoşdursa, elə də et.

– Qalmaq istəyirəm, ana. Syuzi çox qəşəngdir. O mənə High School Musical pijaması verəcək.

– Syuzi kimdir?

– Linzinin qızdır. Hə, gecə qonaqlıq verəcəklər bizə. Yadındadır, sən şəklə baxıb muncuq düzəldirdin , onda həmin muncuqlardan var.

– Ok.

Qısa sakitlik oldu. Cess arxadan səs eşidirdi.

– Hə, ana, sabah məni nə vaxt gəlib götürmək istəyirsən?

Cess udqundu, çalışdı ki, Tanzi onun həyəcanını hiss etməsin.

– Səhər yeməyindən sonra. Saat doqquzda. Əgər fikrini dəyişsən, qalmaq istəməsən, zəng elə, ok? Hər halda, hər şey ola bilər. Zəng edən kimi gəlib səni apararam. Lap gecənin yarısı da olsa. Fərqi yoxdur ki, nə vaxt.

– Başa düşdüm.

– İstənilən vaxt gələrəm. Səni çox istəyirəm, şəkərim. İstənilən vaxt zəng elə.

– Ok.

– Tanzi, telefonu Nikiyə verə bilərsən?

– Səni çox istəyirəm. Hələlik.

Nikinin səsindən heç nə anlamaq olmurdu.

– Ona demişəm ki, qalacam. Amma Tanziyə nəzarət etmək üçün, – Niki dedi.

Telegram: @cinciva

– Ok. Biz hardasa bu yaxın yerlərdə olacağıq. O necə... O necə qadındır? Deyirəm, hər şey yaxşıdır?

– Linzi qəşəngdir.

– Bəs sən... onunla yola gedirsən? Marti...

– Mən yaxşıyam.

Uzun fasilə oldu.

– Cess?

– Bəli.

– Hər şey yaxşıdır? – Niki soruşdu.

Cess dərindən nəfəs aldı, əlini qaldırıb yanaqları boyunca üzüaşağı axan göz yaşlarını sildi. O heç bilməzdi ki, gözündə bu qədər göz yaşı varmış. Cess bir də özünü toxtadandan sonra Nikiyə cavab verdi.

– Yaxşıyam. Məndən narahat olma. Səhər gəlib hər ikinizi götürəcəm.

Nikolls onun yanındaydı. Sakitcə telefonunu Cessdən aldı.

– Gecələmək üçün bir yer tapmışam. Normanı da içəri buraxacaqlar.

– Burda içki var? – Cess əlinin arxasıyla göz yaşlarını silib soruşdu.

– Nə?

– İçmək istəyirəm, Ed. Həqiqətən də, doğrudan da, içmək istəyirəm.

Ed bir qolunu onun boynuna doladı, Cess onun əlindən tutdu.

– Ed, deyəsən ayağımın baş barmağı sınıb.

Telegram: @cinciva

23

ED

Hə, Ed bir dəfə bir qadınla tanış oldu. O qadın bu vaxtacan tanıdığı ən nikbin qadın idi –yaza ümid edib çəkələk geyən qadın. Həyatın içindən o, cizgi filmindəki pələng kimi keçib gedirdi, başqa adamları yıxan şeylər ona toxunmurdu. Ya da o yıxılsa da təzədən özünü dikəldirdi. Bir də yıxılanda gülümsəyib üstünün tozunu çırpar, yenə də yoluna davam edirdi. Ed başa düşə bilmirdi ki, gördüyü qadın dünyanın ən qəhrəman qadınıdır, yoxsa ən axmağı.

Sonra Ed hardasa Carlisle-də dörd yataq otağı olan böyük bir malikanənin yaxınlığında səki kənarında oturdu və bu qadının inamının necə qırılmasını müşahidə elədi. Bu qadından əsər-əlamət qalmamışdı, sonra o gəlib qabaq oturacaqda Edin yanında müqəvva kimi oturdu. Onun nikbinliyinin necə yox olması aydınca duyulurdu. Bu vaxt Edin də ürəyində sanki nəsə sındı.

Ed gecəni keçirmək üçün gölün sahilində bir kottec sifariş verdi. Martinin evinə, yaxud onun arvadının

Telegram: @cinciva

evinə yaxın ərazidə Ed iti də içəri buraxan elə bir otel tapmadı, sonuncu otelin inzibatçısı olan, üst-başının yaş olduğunu görüb Edə düz səkkiz dəfə "Duck" deyə müraciət edən gülərüz qadın ona başqa bir yeri, dostunun gəlininin evini təklif elədi. Amma qadın dedi ki, ən azı üç günün pulunu ödəmək lazımdır və yeməyi də özləri bişirməlidir. Ed etiraz etmədi. Cess ondan heç nə soruşmadı. Edə hətta elə gəlirdi ki, Cess harda olduqlarını da unudub.

Ed açarları qəbul otağından götürdü, ağacların arasıyla gedib bir kottecin yanında maşını saxladı, Cessə maşından düşməyə kömək etdi, iti düşürtdü, içəri girdilər. Cess azca axsayırdı. Ed birdən Cessin maşını çəkələklə vəhşi kimi necə təpiklədiyini yadına saldı.

– Duş qəbul elə.

Ed bütün işıqları yandırıb pərdələri çəkdi. Bayırda çox qaranlıq idi, heç nə görünmürdü. O yenə üzünü Cessə tutdu:

– Get, duş qəbul elə. Sakitləş. Mən də gedim yeməyə bir şey alım. Əgər olsa barmağına kompres qoymaq üçün buz alaram.

Cess ona tərəf baxdı, başıyla razılığını bildirdi, gülümsədi. Əsl təbəssümə oxşayırdı təbəssümü.

Ən yaxın supermarketin yalnız adı supermarket idi. Orda iki səbət solmuş göyərti, rəflərdə Edin heç vaxt adını belə eşitmədiyi brend markası adı altında "uzunömürlü" ərzaqlar vardı. Ed ikinəfərlik hazır yemək, bir az çörək, kofe, süd, donmuş noxud, bir də ağrıkəsici aldı. Bir az fikirləşəndən sonra iki butulka da çaxır aldı.

Telegram: @cinciva

Nəzarət kassasının yanında olanda telefonuna mesaj gəldi, telefonu cibindən çıxardı, elə bildi ki, Cess mesaj yazıb. Amma birdən yadına düşdü ki, iki gün əvvəl Cessin telefonu bağlanıb.

Salam, əzizim. Təəssüf edirəm ki, sabah gələ bilməyəcəksən. Amma nə qədər ki, gec deyil səni görmək istəyirik. Sevgilərlə Anan. Atan sənə salam göndərir. Bu gün halı bir az yaxşı deyil.

– İyirmi iki funt, səksən pens.

Ed kassadakı qızın səsini eşidənədək qız iki dəfə təkrar etdi.

– Üzr istəyirəm, – Ed cəld cibindən kartını çıxarıb ona uzatdı.

– Kart maşını işləmir. Orda elan da yazmışıq.

Ed qız baxan istiqamətdə baxıb elanı gördü. "Yalnız nağd və çeklə".

Diyircəkli qələmlə, iri hərflərlə, tələsik yazıldığı bilinən bir elan.

– Yoxsa məni aldadırsınız? – Ed dedi.

– Niyə sizi aldadım ki? – qız fikirli halda ağzındakını çeynəyə-çeynəyə dedi.

– Dəqiq bilmirəm ki, üstümdə kifayət qədər nağd pul olsun.

Qız sakitcə durub Edə baxırdı.

– Deməli kart götürmürsünüz, eləmi?

– Elana bax gör nə yazılıb.

– Sizdə manual kart da qəbul etmirlər?

– Bu tərəflərdə çox adam nağd ödəyir.

Telegram: @cinciva

Qızın üzündəki ifadədən bilmək olurdu ki, o, Edin bu tərəflərdə yad olduğunu bilir.

– Ok. Ən yaxın kart maşını hardadır görəsən?

– Carlisle-də.

Ed fikirləşdi ki, yəqin qız zarafat edir. Amma yox, düz deyirdi.

– Əgər nağd pulunuz yoxdursa, götürdüyünüz ərzağı geri qaytarın.

– Nağd pulum var. Mənə bir az vaxt verin cibimə baxım.

Ed ciblərini eşib tökdü, arxasında dayanıb əsəbiləşən, gözlərini oynadan adamları vecinə almadan bütün ciblərini axtardı. Jaketinin iç cibindən və pul kisəsinin dibində olan pulların hamısını çıxardı. Yalnız soğan bhajisinə pulu çatmadı, qız bhajini kənara itələdi. Şübhəsiz, az keçməmiş onları öz yerinə qoyacaqdı.

Ed də aldıqlarını nazik bazar zənbilinə yığdı-allah bilir elə yolda cırılacaqdı. O çalışırdı ki, anası haqqında fikirləşməsin.

Ed aldıqlarını bişirəndə Cess aşağıdan axsaya-axsaya yuxarı çıxdı. Axır ki, Ed mikrodalğalı sobanın içindən iki podnosu çıxardı. Onun kulinariya sənətindən azçox anlayışı olması göz qabağındaydı. Cessin əynində hamam dəsmalından xalat vardı, saçlarını yığıb başına dəsmalla çalma bağlamışdı. Ed heç vaxt başa düşmürdü ki, qadınlar çalmanı necə edirlər. Eks arvadı da belə edirdi. Ed fikirləşirdi ki, bəlkə qadınlara çalmanı necə düzəltməyi öyrədirlər, əllə paltar yumağı öyrətdikləri kimi. Cessin makiyajsız sifəti çox gözəl idi.

Telegram: @cinciva

– Buyur, – Ed bir stəkan çaxırı ona uzatdı.

Cess stəkanı görən kimi cəld onun əlindən aldı. Ed artıq divar peçini yandırmışdı, Cess sobanın qabağında oturdu, hələ də fikrə qərq olmuşdu. Ed donmuş noxudları ona verdi ki, ayağının əzilən yerlərinə qoysun, sonra mikrodalğalı sobada qalan yeməkləri gətirməyə getdi.

– Nikiyə mesaj yazdım. Sadəcə harda qaldığımızı ona bildirdim, – Ed çəngəli yeməyə uzadaraq dedi.

Cess çaxırdan bir qurtum alıb soruşdu:

– Nə yazdı? Yaxşıdır?

– Hə, yaxşı olduğunu yazdı, dedi ki, yemək yeyirlər.

Cess bu sözləri eşidəndə qəfil səksəndi, Ed bir anlıq o evdə stol ətrafında oturanları xəyalına gətirdi.

– Ayağın incidir?

– İncidir.

Cess çaxırdan iri bir qurtum da aldı, Ed gördü ki, artıq o stəkanı boşaldıb.

Cess ufuldaya-ufuldaya ayağa durub özünə yenə çaxır süzdü, bu vaxt ayağına qoyduğu donmuş noxudlar da döşəməyə dağıldı. O sanki indi xatırlayırmış kimi əlini xalatının cibinə saldı, balaca plastik torbadan nəsə çıxardı.

– Nikinin narkotikidir, alıb özümdə saxlamışdım. Məncə, bunları qəbul etməyin əsl vaxtıdır.

Cess bu sözləri deyəndə əl-qolunu elə oynatdı ki, elə bildi Ed onu narkotikdən çəkindirəcək. Amma Ed ona heç nə demədi.

Qadın kofe stolunun üstündən turist bələdçisi lefletini götürüb dizi üstünə qoydu, əlindəkiləri kağıza

Telegram: @cinciva

bükdü. Sonra onu yandırdı, acgözcəsinə dərindən qullab vurdu. Azca öskürdü, sonra yenidən çəkdi. Başına bağladığı çalma arxaya sürüşmüşdü, o bir az hirsləndi, çalmasını tamam arxaya itələdi, indi yaş saçları çiyinlərinə dağılmışdı. O yenidən çəkdi, gözlərini yumdu, sonra əlindəkini Edə uzatdı.

– Mən maşına minəndə bunun iyi gəlməlidir? – Ed ona baxdı.

Cess bir gözünü açdı.

– Fikirləşirsən ki, mən səni rüsvay edirəm?

– Yox, əgər Tanzi qəfil zəng edəsi olsa ikimizdən birimizin ağlı başında olmalıdır ki, maşını sürsün.

Cessin gözləri balacalandı.

– Cess, sən çox çəkirsən. Sənin ehtiyacın...

– Hə? Təzə həyat? Özümü ələ alım? İrəlidə nə var? – O, fikirli-fikirli dedi, sonra nəsə fikirləşib: "Yox, yox, bu gecə bunu etməli deyiləm. Heç indi də çəkməli deyiləm", – dedi.

– Cess...

O, başını qaldırdı.

– Üzr istəyirəm. Ok. Gəl yeyək.

Onlar mətbəxdə balaca stol arxasında oturub yeyirdilər. Yeməklər dadlıydı, amma Cess stəkana əl uzadıb içməyi üstün tutdu. O içində qızardılmış toyuq olan boşqabı irəli-geri itələdi, yalnız bir-iki tikə yedi. Ed boşqabları stoldan yığışdırıb götürdü.

Ed qabları götürüb yumaq istəyəndə Cess üzünü turşutdu.

Telegram: @cinciva

– Çox axmaqlıq etdim, eləmi?

Ed əlində boşqab yuya-yuya dedi:

– Heç bilmirəm necə yuyum...

– Mən hamamda olanda qərar verdim. İllər boyunca uşaqlara məsləhət vermişəm ki, insanlarla necə rəftar etsinlər, düz olanı etsinlər, hər şey də öz yoluna düşəcək. Oğurluq etməyin! Yalan danışmayın! Düz olanı edin! Bu sözləri onların beyninə yeritmişəm, demişəm ki, bütün dünya onların haqlı olduğunu görəcək. Deməli, dediklərimin hamısı cəfəngiyatmış, hə? Heç kim mən dediyim kimi etmir.

Onun səsi qəribəydi, ağrı hiss olunurdu.

– Yox. Elə deyil...

– Nə? Yox? İki il mən az qala qəpiyə güllə atmışam. Cibim bomboş olub. Düz iki ildir ki, onu müdafiə edirəm. Onu əsəbiləşdirmək istəməmişəm, öz uşaqlarının problemlərini ona deməmişəm. Amma bu iki ildə o elə bir şəraitdə yaşayırmış, təmtəraqlı villada, bahalı mebelli, ən son model cins geyərək, təzə arvadıyla...

Cess təəccüblə başını yırğalayıb davam etdi:

– Mən heç nəyə şübhə etmirəm. Bir dəqiqə də. Hamamda olanda bu qərara gəldim. Sənin lə necə rəftar edirlərsə, sən də elə et... Məncə hamı belə edə bilər, elə deyil? Amma heç kim belə etmir. Dünya "boş ver" deməyi bacarmayan adamlarla doludur. Bu adamlar istədiklərini əldə edənə qədər adamın üstünə çıxarlar. Hətta öz uşaqları olsa belə onları ayaq altında qoyub istədiklərini götürərlər.

Telegram: @cinciva

– Cess...

Ed mətbəxdə gəzişirdi, ondan bir-iki addım aralıydı, nə deyəcəyini bilmirdi. İstəyirdi qolunu onun boynuna dolasın, amma nəsə fikirləşib etmirdi. Cess özünə yenə çaxır süzdü, stəkanı qaldırıb onun yanına gəldi:

– Bilirsən ki, o qadın heç vecimə də deyil. Məsələ bunda deyil, çünki Marti ilə mənimki çoxdan qurtarıb. Bəs axı o özünün uşaqlarına kömək edə bilərdi! Hətta Tanzinin təhsil haqqına kömək etməkdən də imtina etdi.

Cess əlindəkindən bir iri qurtum da içdi, sakitcə davam etdi:

– Sən o balaca qızın paltarını gördün? Bilirsən neçəyədir? Altmış yeddi funt...

Bir balaca uşaq paltarına altmış yeddi funt... Bir dəfə Eylin satdığı paltarlar arasında görmüşdüm beləsini.

Cess acıqlı-acıqlı göz yaşlarını sildi:

– Heç bilirsən fevralda Nikinin ad günü olanda Marti ona nə yollamışdı? On funt vauçer. Kompüter oyunları almaq üçün on funt vauçer. Hətta on vauçerə kompüter oyunu da almaq olmaz. Almaq olar, yalnız ikinci əldən. Adətən ikinci əldən satanda diskin tozunu da silmirlər. Ən axmaq şey odur ki, biz hamımız onun yolladığı on vauçerdən razı qalmışdıq. Biz fikirləşdik ki, Marti yaxşılaşır, depressiyadan çıxıb. Uşaqlara dedim ki, işləməyən adam üçün on funt böyük məbləğdir.

Cess gülməyə başladı. Dəhşətli bir gülüş. Boş-boş güldü.

Telegram: @cinciva

– Mən onun haqqında elə fikirləşəndə isə o həmin rahat divanda otururmuş... O bahalı pərdəli pəncərədən baxırmış. Saçını yeniyetmələr kimi düzəltdirirmiş... Bircə kəlmə də mənə bu haqda demədən.

– O qorxaqdır, Cess.

– Hə, o qorxaqdır. Mən isə axmağam. Dünyanın o başından onun uşaqlarını boş yerə sürüyüb gətirmişəm ki, bəlkə Tanzi qalib gələ, pul qazanıb təhsil haqqını verək. Maşını yolda cərimələdilər, neçə min funt borcum var indi. Pivəxanadakı işimi də bura gəldiyimə görə itirdim. Hər şey məhv olub. Tanzinin inamı itdi. Nəyə görə? Çünki mən həqiqəti görməkdən imtina etmişəm.

– Həqiqəti?

– Hə, həqiqəti, bizim kimi adamların əldə edə bilməyəcəyi həqiqəti. Bizim kimi adamlar heç vaxt yuxarıya doğru hərəkət etmirlər. Bizim kimilər yalnız aşağıda tullanıb-düşür, siçanlar zirzəmidə etdiyi kimi. Nəyisə quru saxlamaq istəyirik zirzəmidə.

– Heç də hər şey sən deyən kimi deyil, Cess!

– Sən nə bilirsən? – Cessin səsində indi acıq yox idi, azca tələş vardı, davam etdi:

– Sən nə başa düşürsən? Sən necə başa düşə bilərsən? Şəhərdə ən böyük bir cinayət etmisən. Ciddi desək, bu cinayəti etmisən. Öz qız dostuna hansı səhmləri almağı demisən, o da bunu edib kalan pul qazanıb. Amma yenə də özünü bu işin içindən çıxaracaqsan.

Ed əlindəki stəkanı elə ağzının yanında saxladı.

– Hə, bu cinayətin altından çıxacaqsan. Ola bilsin ki, bir iki həftə içəridə qalasan, şərti hökmlə. Baha qiymətə

Telegram: @cinciva

vəkillər tutmusan, onlar da səni real təhlükənin içindən dartıb çıxaracaqlar. Adamların var ki, onlar səndən ötrü mübahisə edəcəklər, sənə görə mübarizə aparacaqlar. Sənin evlərin, maşınların, resursların var. Narahat olmağına ehtiyac da yoxdur. Sən mənim kimilərin çəkdiyini necə başa düşə bilərsən, hə?

– Düz demirsən. Ədalətli deyilsən, – Ed yavaşca dedi.

– Mənə ədalətdən danışma, – elə bil Cessə od qoydular.

O, təzədən üzünü döndərdi, yenə çəkdi. Elə çəkdi ki, sanki həqiqətən də huşunu itirmək istəyirdi. Gözlərini yumdu, çəkdi, çəkdi, çəkib tavana üfürdü...

Ed onun yanında oturdu, barmaqları arasındakını götürdü.

– Məncə, bunu çəkmək ideyan heç də yaxşı ideya deyil.

Cess dartıb Edin əlindən aldı:

– Mənə nəyin yaxşı ideya olduğunu demə.

– İnanmıram ki, bu sənə kömək edər.

– Heç bilmirəm sən nə...

– Mən burda sənin düşmənim deyiləm, Cess!

Cess ona ötəri nəzər saldı, sonra isə üzünü ocağa tərəf döndərdi. Ed ona demədi ki, bəlkə o Edin çıxıb getməyini istəyir. Cessə demədi ki, bəlkə o, Edin onun üstünə bağırmağını istəyir... Ed "Mən heç yana gedən deyiləm. Elə burda oturmalıyam", – fikirləşdi.

– Üzr istəyirəm, – Cess az sonra dilləndi. Onun səsi sərt idi.

Telegram: @cinciva

– Çox yaxşıdır.

– Yox, çox yaxşı deyil, – Cess ah çəkib dedi: – Mən bunu sənə deməli deyildim.

– Hər şey qaydasındadır. Bu gün çox ağır gün oldu. Mən durub gedim duş qəbul edim. Az da olsa yatıb yorğunluğumuzu çıxarmalıyıq.

– Əlimdəkini çəkib qurtaran kimi duracam, – Cess yenidən çəkməyə başladı.

Ed bir neçə dəqiqə gözlədi, sonra onu otaqda ocağa baxan vəziyyətdə qoyub çıxdı. O elə yorğun idi ki, çimməkdən başqa heç nə haqda düşünmürdü.

Ed duş altındaydı, heç nə haqda düşünmək istəmirdi. İsti su başından süzüldükcə özünü rahat hiss edirdi. O gün ərzində baş verənləri unutmaq istəyirdi. Cess haqda, onun yolunu həsrətlə gözləyən anası haqda fikirləşmək istəmirdi. Çalışırdı ki, bir neçə dəqiqə heç nə haqda fikirləşməsin. O, başını suyun altında elə saxladı ki, ən azı nəfəs ala bilsin.

Amma o nədənsə rahat ola bilmirdi. Sanki nəsə Edin sümüyünə sürünüb girmişdi, onu rahat olmağa qoymurdu. Nə qədər etsə də rahat ola bilmirdi. Elə bu vaxt səs eşitdi. Səs uzaqdan gəlmirdi. Hardasa yaxındaydı. Sanki təcrübəsiz bir sürücü sürətlə maşın sürməyi öyrənirdi. Elə bil maşın nahamar yerdə irəliyə getməyə çalışırdı.

Ed gözlərini açdı, elə bildi ki, səsi daha eşitməyəcək. Amma yox, səs yenə də gəlirdi. O elə bilirdi ki, qaldıqları yer dünyanın ən sakit yeridir, o burda sakitlik tapacaq. Amma yox, deyəsən sakit yer deyilmiş.

Telegram: @cinciva

Fikirləşdi ki, bəlkə aşağıda hansısa musiqi sistemi var, Cess onu açıb, indi isə söndürə bilmir.

– Cess!

Ed onu çağırdı, amma cavab gəlmədi. Onda o daha da həyəcanlandı.

Elə bu vaxt içindəki narahatlığın səbəbi ona aydın oldu. Səs onun öz maşınından gəlirdi.

Ed duşu bağladı. Bir anlıq dimdik dayandı. Sonra hamam dəsmalını götürüb belinə bağladı, hamamdan çıxıb pilləkənlərlə aşağı qaçdı. Pilləkəni iki-iki düşdü. Cessin oturduğu divan boş idi. Norman hələ də ocağın yanında şöngüyüb baxırdı.

Giriş qapısına çatıb onu itələdi. Soyuq hava ona bomba kimi dəydi. Ayağını çınqıllar kəsə-kəsə qaçırdı.

Maşın saxladığı yerdən bir az aralıydı, yırğalana-yırğalana gedirdi.

Cess sükan arxasındaydı . O heç bir faranı yandırmamışdı.

– CESS!

Ed çınqıllı yolla maşına tərəf qaçırdı. Hərdən də bir əliylə belinə doladığı dəsmalı bərkidirdi. Çalışırdı ki, gedib ona çatsın. Axır ki, çatdı. Özünü maşına sıxıb qışqırırdı.

– CESS!

Ed maşının yanındaydı. O özünü irəli atıb qapını açmaq istədi, sürücü tərəfdəki qapını. Qapı açıldı, amma maşın irəliləyirdi.

– Sən nə edirsən, Cess? Nə edirsən?

Telegram: @cinciva

Amma maşın dayanmırdı. Maşın gedirdi. Ed özünü maşına sıxmışdı. Dəsmal belindən düşmüşdü.

– Düş! Maşını saxla! CESS, MAŞINI SAXLA!

– Ed, aralan. Yoxsa əzilərsən.

Bu vaxt maşın sola tərəf aşdı.

– Bu nə...

Axır ki, Ed açarı çıxara bildi. Edin sağ çiyni qapıya dirənmişdi. Cessin burnu zərblə sükana dəydi.

– Lənət şeytana!

Ed əlini sükana uzatdı, arxası üstə yerə dəydi. Baş verənləri dərk etmək üçün bir iki saniyə bəs edərdi.

Birtəhər ayağa durdu, hələ də açıq olan qapıdan içəri girib maşını söndürdü. Bir də onda gördü ki, maşın bir addım gölə giribmiş.

Cessin ayağı hələ də əyləcdəydi. Ed onu kənara dartdı.

– Sən nə edirsən? Sən nə EDİRDİN?

Görəsən o niyə bunu edib? Ed anlaya bilmirdi. O ətrafına baxıb dəsmalını axtardı.

Elə bu vaxt gördü ki, yaxınlıqda başqa kotteclər də varmış. Onlardan Edin xəbəri yox idi. Kotteclərdən işığı yanırdı, pəncərə qabağında siluetlər görünürdü. Hamı onlara baxırdı.

Ed bir əliylə ayıb yerini örtdü, o biri əliylə isə yerdəki dəsmalı götürüb belinə bərkitdi. Bu vaxt əlini qaldırıb yellədi. Elə bil pəncərədən baxanlara demək istəyirdi ki, baxmalı bir şey yoxdur (onsuz da bayır qaranlıq idi, heç nəyi görmək olmurdu).

Cess hələ də bayaqkı yerindydi.

Telegram: @cinciva

– Heç bilirsən bu gecə nə qədər içmisən? Heç bilirsən nə qədər o zəhrimar narkotiki tüstülətmisən? Sən özünü də öldürərdin, məni də!

Ed onu silkələyib ayıltmaq istədi.

– Gərək qəbrini mənim maşınımda qazaydın?

Sonra Ed onun səsini eşitdi. O başını əlləri arasına alıb ağlayırdı.

– Üzr istəyirəm... Bağışla

Ed dəsmalı bir də belinə bərkitdi.

– Sən nə etdiyini bilirsən? Bu, dəlilikdir.

– Mən gedib onları gətirmək istədim. Onları orda qoya bilmərəm. Onun yanında.

Ed dərindən nəfəs aldı, yumruğunu düyünləyib yenə açdı:

– Axı biz bu məsələni müzakirə etmişdik? Onlar çox yaxşıdır. Niki bayaq dedi ki,

bir problem olsa zəng edəcək. Səhər açılan kimi də gedib onları gətirəcəyik. Sən bunu bilirsən. Bəs bu nə....

– Mən qorxdum, Ed!

– Nədən qorxdun?

Cessin burnundan qan axırdı. Dodaqları şişmişdi. Gözlərinin altına tuş dağılmışdı.

– Qorxdum ... qorxdum ki, onlar Martinin evini xoşlayar. Bir də geri qayıtmaq istəməzlər. Həmişə orda qalmaq istəyərlər.

Bunu deyib Cess Tomas başını Edin çılpaq sinəsinə söykədi. Ed bir an fikirləşdi, qollarını onu boynuna doladı, onu sinəsinə sıxdı. İndi Cess daha möhkəm hönkürürdü.

Telegram: @cinciva

***

Ed dindar adamların həyat təcrübələrindən danışdıqlarını eşitmişdi. Onların dediyinə görə, insan həyatında elə anlar olur ki, hər şey birgünlük pərvanə kimi uçub gedir. Onların danışdıqları Edə o vaxtlar qəribə gəlirdi.

Amma Edin də həyatında belə anlar baş verdi. Hardasa Carlisle yaxınlığında, gölün, ya da bəlkə bir kanal yaxınlığındakı taxta bir kottecdə. Burda qalmazdan əvvəl Ed bir qadınla tanış olmuşdu, o qadın ona özü demişdi ki, hər şeyi bacarır, özünü dünyanın ən nikbin insanı hesab edirdi. Sonra isə bu qadın heç nə edə bilmədiyini dedi. Qadının bu halını görəndə Ed anladı ki, o hər şeyi düz etməlidir. Ed o qadına edilən ədalətsizliyi özünə qarşı edilənlərdən daha yaxşı anladı. O, qadını qucaqlayıb, başının tən ortasından öpəndə, onun ona daha sıx qısılmasını hiss edəndə qərara gəldi ki, qucaqladığı bu qadını, onun iki uşağını xoşbəxt etmək üçün hər şey edəcək.

Ed özündən soruşmayacaq ki, cəmi dörd gün müddətində o qadını tanıyıb, ya yox. Yox, o bu sualı özünə verməyəcək. On illər boyunca etdiklərindən daha aydın görünürdü o qadının həyatı.

Ed nə fikirləşdiyini o qadına dedi. Ürəyində nə düşünürdüsə hamısını o qadına dedi. Sakit-sakit dedi. Nəyisə etiraf edəndə insan özünü necə yüngül hesab

Telegram: @cinciva

edərsə o da bunları ona dedikcə rahatlanırdı. Ürəyindən keçənlərin hamısını ona dedi, çünki o qadın onun bu vaxtacan rast gəldiyi ən heyranedici qadın idi. Sonra o qadın şişmiş gözlərini açıb təəccüblə ona baxdı, sanki onun nə dediyini, özünün nə eşitdiyini dərk etməmişdi. Ed onun qanayan burnunu sildi, sonra dodaqlarını onun dodaqlarına toxundurub son qırx səkkiz saat ərzində nə etmək istədiyirdisə onu da etdi. Hətta başlanğıcda o nə etmək istədiyini özü də anlamamışdı. Ed onu öpdü. Sonra, sonra isə o qadın da onun öpüşünə cavab verdi – onu öpdü, əvvəlcə sanki təcrübə keçirmiş kimi öpdü. Daha sonra isə bütün gücüylə, ehtirasıyla öpdü, gözlərini yumub qollarını onun boynuna doladı, Ed onu qucağına alıb kottecə apardı.

Həmin anlarda Ed onu da dərk etdi ki, o həmin anlarda o bir az qorxaq Marti kimidir. Çünki həyatı boyu o da bəzi şeylərlə üzbəüz qalmaqdan uzaq qaçıb. O nəyinsə dəyişəcəyini dərk edirdi.

– Cess! – Ed onun bədənini sığallaya-sığallaya, həyatının 180 dərəcə dəyişdiyini dərk edəndən sonra Cessi çağırdı.

Cess cavab verəndə dedi:

– Cess, mənim bir xahişimi də yerinə yetirərsən?

– Yenə də? Razıyam..Razıyam..– Cess yuxulu-yuxulu cavab verdi, əllərini onun sinəsinə qoydu.

– Yox... Onu sabah edərik... – Ed başını onun sinəsinə qoyub dedi.

Telegram: @cinciva

Cess ona sarıldı, ayaqlarını onun ayaqlarına keçirdi. Ed onun dodaqlarını bədənində hiss edirdi.

– Əmin ol.... Nə istəyirsən?

Ed gözlərini tavana zilləmişdi. Sonra yavaşca:

– Cess, mənimlə bir yerdə atamgilə gedərsən?

Telegram: @cinciva

24

NİKİ

Cessin sevdiyi bəzi ifadələr var: "Hər şey yaxşı olacaq!", "Yoluna qoyarıq" və s. O deyir ki, hər ailənin öz forması, öz ölçüsü var.

Hə, əgər bizim ailə də əvvəllər dəhşətli formadaydısa, indi bu ailə daha çox dəli formasındadır.

Mən başqa uşaqlar kimi bütün günü ana görmürəm... İndi isə başqa versiyada anam var, lap natamam iş günü kimi... Linzi Foqarti. Doğrusu, heç yaxşı bilmirəm, o mənim nəyimdir. Görürəm o hərdən gözücu mənə baxır, hərəkətlərimi müşahidə edir. Elə bil mənim pis hərəkət edib-etməyəcəyimi bilmək istəyir. Bilmək istəyir ki, mən onların tısbağasını, yaxud başqa bir heyvanı öldürmək istəyirəm, ya yox. Ata dedi ki, Linzi yerli şurada hansısa yüksək vəzifədə işləyir. Ata bunu elə dedi ki, elə bil o bununla fəxr edir, onun yüksək vəzifədə olması sanki hər şeydir onunçün. Əminəm ki, ata ona baxdığı kimi heç vaxt Cessə nəzər salmayıb.

Telegram: @cinciva

Onların evində olduğum ilk bir saat çox pis hiss edirdim özümü. Elə bil həyatımda yenə elə bir yer var ki, o yerdə də mən özümü rahat hiss etmirəm, elə bir yer ki, mən ora uyğunlaşa bilmirəm. Ev həddindən çox səliqəlidir, amma evlərində bizim evdəki kimi kitab yoxdur. Bizim evdə demək olar ki, hamamdan başqa Cess hər yerə kitab dürtüb – tualetdə isə həmişə mütləq bir köhnə kitab olur. Gözlərimi zilləyib ataya baxırdım, çünki inana bilmirdim ki, o bizə yalan deyə-deyə belə bir normal şəraitdə yaşayırmış. Buna görə də ataya nifrət etdiyim kimi Linziyə də nifrət edirdim.

Sonra şam yeməyi yeyəndə Tanzi nəsə dedi, Linzi onun sözlərini eşidən kimi gülməyə başladı. Onun gülüşü dəli gülüşü kimiydi, kişi kimi gülürdü. Sonra atayla bir-birinə baxdılar, bundan sonra Linzi əllərini ağzının üstünə qoydu, sanki bununla demək istədi ki, gərək gülməyəydi.

Fikirləşdim ki, indi onun ailəsi də qeyri-adi, fövqəladə formadadır. Onun iki uşağı var: Syuzi və Josh, bir də ata onlarla yaşayırdı. Qəflətən mən – (ata məni həmişə Gothboy çağırırdı) – üzü-gözü zədəli, arıq, onların geydiyindən fərqli geyinmiş bir oğlan və Tanzi meydana çıxır onların ailəsində. Hə, Tanzi, iki eynəyi üst-üstə taxan Tanzi. O iki eynək taxıb, deyir ki, birinci eynək gözünün ölçüsündə deyil, məcbur olub ikincini də onun üstündən taxıb ki, bəlkə onda yaxşı görər. Cess isə maşınla dəli kimi rəftar elədi, onun maşınını əzik-üzük etdi. Bir də Nikolls, yəqin ki, onun da Cesslə

Telegram: @cinciva

hansısa bir əlaqəsi var, bütün günü bizə yapışıb qalıb, sakitcə hamını "müəyyən etmək" istəyir. Şübhəsiz ki, ata Linziyə mənim bioloji anam haqqında da nəsə demiş olar, kim bilir, bəlkə günlərin birində mənim bioloji anam da bağıra-bağıra onların qarajında peyda ola bilər. Mən Cesslə və ataya yaşamağa başlayandan sonra ilk Milad bayramında o gəlib evin pəncərəsinə butulkalar atmışdı, xırıltılı səslə bağırmışdı, axırda qonşular məcbur olub polis çağırmışdılar. Deməli, indi Linzinin də ailəsi o gözlədiyi formada deyil.

Heç bilmirəm, bütün bunları sizə nəyə görə deyirəm. Hazırda gecə saat dördün yarısıdır, bu evdə indi məndən başqa hamı yatıb. Mən də Tanzi ilə birlikdə Linzinin oğlu Coşun otağındayam. Coşun şəxsi kompüteri var (hər iki uşağın ayrıca kompüteri var – Apple Macs). Amma mən oyun oynamaq üçün onun kodlarını bilmirəm ki, kompüteri açım. Nikollsın mənə dediklərini xatırlayıram, bloq yaratmaq barədə. O demişdi ki, bloq yaradıb özünə yaxın adamları tapmaq olar.

Ehtimal ki, siz də mənim adamım deyilsiniz. Yəqin ki, sizlər də porno və bu kimi şeyləri axtarıb tapanda sözləri düz yazmırsınız. Amma mən heç vaxt hərf səhvi etmirəm. Yalnız bəzi hallarda siz də mənim kimi ola bilərsiniz.

Son iyirmi dörd saatda mən bəzi şeyləri görmüşəm. Ola bilsin ki, ailənizə uyğun olduğunuz kimi mən öz ailəmə uyğun deyiləm. Səliqəli. Sanki bir mıxça ətrafında fırlanırsınız. Bizim ailədə isə mıxçaları bir az yon-

Telegram: @cinciva

malı olmuşuq, çünki bu mıxçalar əvvəldən başqa yerdə olub. İndi bizim mıxçalar "çəpgöz" kimidir. Amma ata mənim yanımda oturub məni görməyə sevindiyini deyəndə onun gözləri yaşardı. Ola bilsin ki, atam alçağın ən yekəsidir, əclafdır, amma hər halda, atamdır və o, mənim olub-qalan yeganə alçağımdır – atamdır. Mən xəstəxanada olanda Cessin çarpayımın yanında oturmağını yada salıram, burda qalacağımı, məktəbdə həqiqətən də yaxşı oxuyan balaca bacıma (deyərdim ki, artıq onun xəyal dünyası darmadağın olub) göz qoymaq üçün bu qərara gəldiyimi biləndə onu necə ağladığını yada salıram. Mən hara məxsus olduğumu dərk etdim.

Məncə, Cessin ailəsinə məxsusam.

Telegram: @cinciva

25

CESS

Ed yastığa söykənib Cessin makiyaj etməsinə, üzündəki zədə yerlərini ört-basır etməsinə baxırdı. Qulağının arxasındakı zədə yerlərini də birtəhər gizlətməyə çalışırdı. Amma burnunun üstü bənövşəyi rəngdə idi. Zərbənin gücündən burnunun dərisi sıyrılmışdı, üst dodağı da şişmişdi. Elə bil bəzi qadınlar kimi gel doldurmuşdu dodağına.

– Burnu yumruqlanan adama bənzəyirsən.

Cess ehtiyatla əlini onun ağzına apardı:

– Elə sən də.

–Hə, düzdür, özməşınım "yumruqlayıb", minnətdaram.

Cess arxaya dönüb ona baxdı, Ed gülümsəyirdi, Cess də gülməyini saxlaya bilmədi.

– Cess, məncə neyləsən də dodağındakı şişi gizlədə bilməzsən. Nə etsən də xeyri yoxdur, əksinə, daha da şişkin görünür.

– Fikirləşmişəm ki, sənin valideynlərinə qapıya dəydiyimi deyim.

Telegram: @cinciva

Ed ah çəkdi, gərnəşdi, gözlərini yumdu.

– Əgər bu günün sonunadək onlar mənim barəmdə ən pis şey fikirləşməsələr əla olaram.

Cess üzünü makiyaj edib qurtardı, kosmetika çantasını bağladı. Edin məsləhətiylə zədə yerlərinə buz qoymuşdu, bu da kömək etmişdi. O diliylə üstü dodağını yalayıb Edə baxdı:

– İnana bilmirəm ki, ötən gecə biz sevişəndə bunu hiss etməmişəm.

Hə, ötən gecə...

...Cess böyrü üstə dönüb Edin üstünə uzandı. Bu kişinin hər yeri ona tanış idi. O bu kişinin bədəninin hər nöqtəsinə bələd idi, ağlına sığışdıra bilmirdi ki, cəmi bir həftə əvvəl o bütün bunlardan xəbərsizmiş. Ed gözlərini açdı, yuxulu-yuxulu Cessin saçlarını ovcuna alıb oynatdı.

Düşündüklərini Edə deyəndə o dedi:

– Bəlkə də buna səbəb məndəki maqnit gücüdür.

– Ya da çəkdiyim iki marixuana bükümü və yarım butulka Merlot... – Cess dedi.

Ed qolunu Cessin boynuna doladı, onu özünə tərəf çəkdi. Cess bir anlıq gözlərini yumdu, onun dərisini qoxuladı, seks qoxusu gəlirdi.

– Ehtiyatlı ol. Əzilən yerlərə dəymə, – Ed yüngülcə mızıldadı.

– İndi səni öpüşlərimlə "yuyaram", – Cess Edin başının maşının qapısına dəyən yerini öpüşə qərq elədi. Onlar öpüşdülər, uzun-uzadı, yavaş-yavaş... Sonda... ehtiyac yarandı.

Telegram: @cinciva

– Yaxşısan? – Cess soruşdu.

– Özümü heç vaxt bundan yaxşı hiss etməmişəm, – Ed bir gözünü açdı.

– Mən "lançdan" danışıram.

Ed ona ciddi-ciddi baxdı, təzədən başını yastığa qoydu.

– Elə bilirəm "lançdan" sonra özümü daha yaxşı hiss edəcəm.

***

Səhər saat doqquza on beş dəqiqə qalmış Cess Martiyə zəng elədi, dedi ki, bir işi həll eləmlədir, ona görə də uşaqları bir də günortadan sonra – üçlə dörd arasında gəlib götürə bilər. Cess ondan heç nəyi xahiş etmədi. Qərara gəldi ki, bundan sonra Martiyə yalnız nəyisə desin, heç nə xahiş etməsin. Sonra Cess Tanzini telefona çağırdı, o ötən gecə haqqında heç nə demədi, yalnız Normanı soruşdu, onsuz özünü necə aparmasıyla maraqlandı. Norman buxarının qabağında yayxanmışdı, lap balaca xalçaya oxşayırdı. Cess heç əmin deyildi ki, on iki saat müddətində it səhər yeməyi istisna olmaqla yerindən tərpənib ya yox.

– Tanzi, it sənsiz də yaxşıdır burda.

– Ata dedi ki, o bekondan buterbrod hazırlayacaq, Sonra isə biz parka gedəcəyik, yalnız ata, mən və Niki. Linzi Syuzini baletə aparıb, həftədə iki dəfə onun balet dərsləri var.

Telegram: @cinciva

– Əla səslənir, – Cess dedi.

Cess fikirləşdi ki, təpiklədiyi şeylərin onu bir az sevindirməsi onun super gücünün əlamətidir.

Tanzi danışıb qurtarandan sonra Marti təzədən telefonu götürəndə Cess ona dedi:

– Mən bir də saat üçdən sonra gələcəm. Tanziyə paltosunu geyindir.

Cess sözünü qurtaranda Marti dedi:

– Cess, uşaqlar çox yaxşıdır... İki uşaq... Mən sadəcə...

Cess udqundu.

– Üçdən sonra. Əgər bir az gecikəsi olsam zəng edəcəm.

Sonra Cess iti birinci otağın qabağında gəzdirdi, o qayıdanda Ed artıq oyanmışdı və səhər yeməyini yemişdi. Edin valideynlərinin yaşadığı evə qədər bir saat yolu sakitcə, danışmadan getdilər. Üzünü qırxmışdı, köynəyini dəyişmişdi (bütün köynəkləri eyni olsa da). Cess onun yanında oturmuşdu, heç nə demirdi, gözləri önünə ötən axşamkı intim yaxınlıq anları gəlirdi. Bir neçə dəfə o nəsə demək üçün ağzını açdı, amma nə deyəcəyini, necə deyəcəyini bilmədi. Ona elə gəlirdi ki, elə bil kimsə onun dərisinin bir qatını soyub çıxarıb, bütün əsəb sinirləri çöldə qalıb. İndi o güləndə də bərkdən gülürdü, hərəkətləri fərqliydi, özünə inamlıydı. Ona elə gəlirdi ki, sanki o milyon illər boyunca yuxuda olub və kimsə partlayış səsiylə onu oyadıb.

Onun yeganə istəyi Edə toxunmaq, barmaqlarını onun barmaqlarına keçirmək, əllərini onun belinə

Telegram: @cinciva

qoymaq idi. Cess hələ əmin deyildi ki, onlar yataq otağından çıxıblar. Hələ də özünü çarpayıdakı kimi hiss edirdi.

O hələ Edin nə fikirləşdiyindən xəbərsiz idi. Soruşmağa qorxurdu.

Cess əzilmiş ayağını qaldırdı, buzlu noxudları zədəli yerlərin üstünə qoydu. Əvvəl qoyduqlarını götürür, yerinə təzələrini qoyurdu.

– Necəsən? – Ed soruşdu.

– Əla.

Cess əslində nəyisə etmək xətrinə ayağına buzlu noxud qoyurdu.

Edə cavab verəndə o gülümsədi, Ed də ona baxıb gülümsədi.

Cess ona tərəf əyilib onu öpmək, barmaqlarını onun boynuna toxundurmaq istəyirdi. İstəyirdi ki, o belə edəndə Ed ona ötən gecə baxdığı kimi baxsın. İstəyirdi ki, belinə bağladığı kəməri açsın, Edi özünə sarı çəksin, ən azı iyirmi dəqiqə heç nə haqqında düşünməsinlər. Sonra Cess Natalini xatırladı. Yük maşınının kabinəsində Deanla yanaşı oturanda ona seksual həzz vermək üçün onun şalvarını aşağı dartanda Dean maşını Mini Metronun yanında birtəhər saxlayıb onun üstünə qışqırıb: "Nə etmək istəyirsən? Nə edirsən?" deyib şalvarını düzəltmək istəyəndə Natalinin xalası Doreen supermarketdən çıxıb nə baş verdiyini bilmək üçün qaça-qaça maşının yanına gəlmişdi. Xalası o vaxta qədər heç vaxt Nataliyə onda baxdığı kimi sərt baxmamışdı.

Telegram: @cinciva

"Yox, bəlkə heç nə etməyim" – Cess beynindən fikirləri qovmaq istədi.

Amma onlar hələ də oğrun-oğrun bir-birinə baxırdılar. Cess Edin əllərini yalnız bədənində təsəvvür edirdi, saçlarını sığallaya-sığallaya qarnına toxunduğu anları göz önünə gətirirdi. Cess Edin bədəninin qoxusunu, bərk əzələsini, hamar dərisini yadına saldı, özündən asılı olmadan "Ah, Tanrım" deyib ayaqlarını bir-birinin üstünə aşırdı və gözlərini pəncərədən çölə zillədi.

Amma deyəsən Edin fikri başqa yerdəydi. Həddən artıq sakit idi, çənəsinin əzələsi hərdən dartılır, sükandan daha möhkəm yapışırdı.

Cess təzədən zədəli ayağına baxdı, duzlu noxudların yerində olub-olmadığını yoxladı. Qatarlar haqqında fikirləşdi. İşıq dirəklərini yada saldı. Riyaziyyat Olimpiadası haqda fikirləşdi.

"Heç kimlə münasibət qurmağa ehtiyacı olmayan bir qadınam. Sadəcə hormonlarımı tərpətməklə özümü çaşdırmışam. Şorbaya ehtiyacım olduğu kimi", – o öz-özünə dedi.

"İlk baxışda diqqəti cəlb edən qadınlardan deyiləm. Səmimi desək, hazırda həyatımda hər şey qarmaqarışıqdır, bu qarışıqlığa yeni münasibət əlavə etməyə ehtiyac yoxdur. Bunlar həyatımın yalnız bir neçə günüdür", – Cess belə fikirləşib gözlərini pəncərədən çölə zillədi. O bu sözləri ürəyində o qədər təkrar etdi ki, axırda sözlər öz mənasını itirdi.

Telegram: @cinciva

***

Edin valideynləri Viktorian binasında yaşayırdılar. Ümumi həyəti olan yaşayış binası... Bu binalarda qonşular hər an biri-birinin pəncərəsinə boylanır, zibil atmaq bəhanəsiylə həyətə düşüb bir-birindən hal-əhval tuturlar.

Binanın qabağında Ed maşını saxladı, bir neçə dəqiqə maşının pəncərəsindən uşaqlıq illərini keçirdiyi evə baxdı. Darvaza təzəcə rənglənmişdi, yaşıllıq elə bil dırnaq qayçısıyla kəsilmişdi.

Ed yerindən tərpənmədi. Cess heç nə fikirləşmədən əlini uzadıb Edin əlinə toxundurdu, bu vaxt o Cessə tərəf döndü, elə bil onun maşında olduğunu unutmuşdu.

– Əminsən ki, mənimlə bura gəldiyinə peşman deyilsən? – Ed soruşdu.

– Əlbəttə, yox, – Cess az qala kəkələyə-kəkələyə dedi.

– Sənə çox minnətdaram. Bilirəm ki, sən uşaqları götürmək istəyirdin.

Cess əlini onun əlindən çəkmədən dedi:

– Gəl o məsələnin üstündən keçək. Düşək.

Onlar cığırla evə tərəf getdilər, Ed bir an dayandı, elə bil əyninə nə geydiyini yoxlayırdı. Evlərinin qabağına çatdılar, Ed qapını möhkəm taqqıldatdı, bir-birlərinə baxıb gülümsədilər, gözləməyə başladılar. Qapını açan olmadı. Bir az da gözlədilər.

Telegram: @cinciva

Otuz saniyə keçdi. Ed qapını yenidən döydü, bu dəfə daha möhkəm. Sonra o qapının üstündəki poçt qutusunun xırda deşiyindən içəri boylandı, cibindən telefonunu çıxarıb dedi:

– Məncə, Gemma demişdi ki, nahar bu gün olacaq. Qoy mesaja baxım!

Bir neçə mesajı nəzərdən keçirdi, başını tərpətdi, əmin olandan sonra qapını bir də taqqıldatdı.

– Dəqiq bilirəm ki, əgər evdə kimsə varsa taqqıltını eşidərdi.

Qərara aldılar ki, başqa qapını döyüb nəsə soruşsunlar.

Elə bu vaxt qonşu evin dəmir çərçivəli pəncərəsindən kiminsə baxdığını gördülər.

– Sənsən, Ed?

– Salam, xanım Harris. Valideynlərimə baş çəkməyə gəlmişəm. Bilmirsən onlar hardadır?

Qadın bir az bikef halda dedi:

– Ed, əzizim, onlar hamısı xəstəxanaya gediblər. Deyəsən, bu səhər tezdən atana yenə nəsə oldu, xəstəxanaya apardılar.

Ed əllərini gözünün üstünə qoyub soruşdu:

– Bilmirsən hansı xəstəxanaya?

Qadın bir az duruxdu, sanki yadına salmaq istəyirdi xəstəxananın adını.

– Kral xəstəxanasına. Şose yoluyla getsən burdan ora heç dörd mil deyil. Yolun axırında sola dönərsən...

Ed artıq geri qayıda-qayıda dedi:

Telegram: @cinciva

– Ok, xanım Harris. Minnətdaram. Kral xəstəxanasının harada olduğunu bilirəm.

– Məndən ona salam deyin, – Harris xanım arxadan çağırdı.

Cess pəncərənin örtüldüyünü gördü. Ed artıq maşının qapısını açırdı.

***

Onlar bir neçə dəqiqəyə xəstəxanaya çatdılar. Cess heç nə danışmırdı. O nə deyəcəyini bilmirdi. Birdən heç özü də bilmədi ki, sözlər ağzından necə çıxdı:

– Ən azı onlar səni görüb sevinəcəklər.

Amma Cess özü də başa düşdü ki, bu sözlər yerinə düşmədi. Həm də Ed elə fikirliydi ki, bəlkə də heç onun sözlərini eşitmədi də.

Ed informasiya stoluna yaxınlaşıb atasının adını dedi, onları Viktoriya Palatasına qədər müşayiət etdilər.

– Onkologiyanın yerini bilirsiniz, eləmi? – qeydiyyatçı qız Edə kömək edirmiş kimi durduğu yerdən soruşdu.

Ed "onkologiya" sözünü eşidib səksəndi.

Polad liftə minib iki mərtəbə yuxarı çıxdılar. Qapılar açıldı, palatanın adını gördülər. Ed daxili telefonla adını dedi, antibakterial losyonla əllərini sildi, qapılar açılanda Cess də onun arxasıyla girdi.

Koridorda onlara tərəf bir qadın gəlirdi. Əynində parlaq pudel yubka vardı, rəngli kolqot geyinmişdi. Onun saç forması qəribəydi, çoxlu hörükləri vardı.

Telegram: @cinciva

Adətən belə saç düzümünü o qadınlar seçir ki, guya bütün günü məşğul olurlar, saçlarına vaxt ayıra bilmirlər.

Qadının onlara çatdığını görüb Ed də addımlarını yavaşıtdı:

– Salam, Gem.

Qadın Edə baxdı, sanki gözlərinə inanmırdı. Onun çənəsi tərpəndi, Cessə elə gəldi ki, o nəsə demək istəyir.

– Səni görməyimə şadam, – Ed birinci başladı.

Qadın əllərini qaldırıb Edin üzünə şillə çəkdi. Şillənin səsi dəhliz boyunca əks-səda verdi.

Ed əllərini yanağına tutub bir az geri çəkildi.

– Axmaq! Lənətə gəlmiş! Debil! – qadın hələ söyürdü.

Edlə Gemma bir-birinə baxırdılar, Ed əlini yanağına çəkib sonra əlinə baxdı. Elə bil qanayıb-qanamadığını yoxlamaq istəyirdi. Gemmanın çənəsi əsirdi, elə bil o Edin nəsə deməyini gözləyirdi, amma Ed heç nə demədi.

Sonra Gemma əlini yellədi, gözlərini zilləyib əllərinə baxdı, sanki özü də nə etdiyinə təəccüblənmişdi. Sonra o elə həmin əlini ehtiyatla Cessə uzatdı:

– Salam, adım Gemmadır.

Cess bir an duruxdu, sonra onun əlini sıxıb dedi:

– Hm... Hm... Adım Cessdir.

Gemma qaşqabağını tökdü:

– Hə, bildim, uşağıyla təcili köməyə ehtiyacı olan qadın.

Cess başıyla onun sözlərini təsdiqləyəndə Gemma da başını qaldırıb onu başdan-ayağa qədər düşmən kimi süzüb dedi:

Telegram: @cinciva

– Fikirləşdim ki, sən elə həmin qadınsan. Ok. Ed, ana dəhlizin o başındadır. Gedək.

***

– O burdadır? Bu Eddir?

Qadının gümüşü saçları arxadan səliqəli sancaqlanmışdı.

– Ah, Ed, sənsən? Ah, əzizim. Sən özünü niyə bu kökə salmısan?

Ed anasını qucaqladı, anası əlini onun burnunun zədələnmiş yerinə toxunduranda azca anasından aralandı, gözaltı Cessə baxıb gülümsədi:

– Mən... Mən qapıya dəymişəm.

Anası təzədən yaxına gəldi, əliylə Edin çiynini sığalladı:

– Səni görməyimə elə sevinirəm ki...

Anasının əlləri bir neçə dəqiqə Edin çiyinlərində qaldı, birdən o anasının əllərini ehmalca çəkib Cess tərəfə döndü:

– Ana, bu Cessdir.

– Mən. Mən Edin dostuyam.

– Çox gözəl, səni də görməyimə şadam. Mənim də adım Anndır.

İndi o baxışlarını Cessin burnuna, bir az şişmiş dodağına yönəltdi. Bir an duruxdu, nəsə soruşmaq istədi, güman ki, soruşmamağa qərar verdi.

– Heç bilmirəm Ed sizin haqqınızda mənə danışıb, ya yox. Həm də yaxşı bilirəm ki, o özü barəsində çox şeyi

Telegram: @cinciva

mənə demir. Ümid edirəm ki, Edin demədiklərini də siz deyərsiniz mənə.

Anası əllərini Edin qoluna qoydu, dodaqlarında təbəssüm hiss olundu:

– Biz çox gözəl bir nahar planlaşdırmışdıq, amma...

Gemma anasına bir az da yaxın gəldi, əl çantasında nəsə axtarmağa başladı.

– Amma atanın vəziyyəti yenə də pisləşdi. O bu naharı elə səbirsizliklə gözləyirdi ki.. Saymon və Deirdreyə çatdırdıq ki, daha gəlməsinlər. Onlar Peak Districtdən elə yola düşmək üzrəydilər.

– Təəssüf edirəm, – Cess dedi.

– Nə etmək olar?

Onun özünü ələ aldığı hiss olunurdu, təzədən sözünə davam etdi:

– Ən iyrənc bir xəstəlikdir, təslim olmaq bilmir. Şəxsən özümün bu xəstəliyə yoluxmamağım üçün əlimdən gələni edirəm.

O, yazıq-yazıq Cessin üzünə baxıb candərdi gülümsədi:

– Hərdən yataq otağımıza gedib otağa olmazın söyüşlər yağdırıram. Bob az qala sözlərimdən dəhşətə gəlir.

Cess də qadının üzünə gülümsəyib dedi:

– İstəsəniz, bildiyim söyüşlərdən bir neçəsini sizə deyərəm.

– Deyin, nə yaxşı. Əla olardı. Amma pis olsun. Həm də bərkdən demək lazımdır.

Telegram: @cinciva

– Cess bərkdən söyməyi bacarır, – Ed dedi.

Araya sükut çökdü.

– Hə, mənim toruma qızıl balıq düşüb ki. – Ann dedi, amma kimə ünvanladığı bəlli deyildi.

Cess hiss edirdi ki, Gemma ona baxır. İnstinktiv olaraq o köynəyini dartdı, belindəki döyməsinin köynəyin altından görünməyini istəmirdi. "Sosial işçi" adı eşidəndə həmişə kiməsə nəzarət edən, kimisə yoxlayan adam gəlirdi göz önünə.

Sanki Gemma artıq Cessin kim olduğunu, hansı kökdən-nəsildən çıxdığını artıq araşdırmışdı.

Sonra Ann gedib yenə Edin qollarından tutdu. Bunu elə qəfil etdi ki, Cess səksəndi.

– Əziz oğlum... Əzizim... Bilirəm ki, lap yapışqan kimi sənə yapışıb qopmuram. Amma incimə. Hamısı səni çox istəməyimdəndi.

Belə deyib Edi təzədən qucaqladı. Bu anlarda Ed günahkar kimi Cessə baxıb gülümsədi:

– Anam son dəfə məni 1997-ci ildə qucaqlayıb, – Gemma mızıldandı.

Cessə elə gəldi ki, Gemmanın bu sözləri bərkdən dediyindən xəbəri yoxdur.

– Mənim anamsa məni heç vaxt qucaqlamayıb, – Cess dedi.

Gemma ona baxdı, elə bil Cessin orda olduğunu artıq unutmuşdu.

– Hm. İndi də qardaşıma şillə vurmağı haqda... Yəqin ki, o sizə hansı işlə məşğul olduğumu deyib. Mən məcbur oldum, adətən mən insanlara zərbə endirmirəm.

Telegram: @cinciva

– İnanmıram ki, qardaşlar bunu nəzərə alsınlar.

Qəfil Gemmanın gözlərində işartı göründü:

– Bu çox ağıllı fikirdir.

– Elə bir neçə gün əvvəl mən də buna oxşar bir hərəkət etmişəm, – Cess dedi.

***

Bob Nikolls palatada çarpayısında uzanmışdı, yorğanı çənəsinə qədər çəkmişdi, əllərini də yorğanın üstünə ehmalca qoymuşdu. Dərisinin solğunluğundan onun sağlam olmadığı aşkar görünürdü. Çətinliklə nəfəs alırdı, onlar içəri girəndə başını hərləyib baxdı. Çarpayısının yanında oksigen balışı qoyulmuşdu. Yanaqlarında zəif qızartıdan oksigen balışından yenicə istifadə edildiyi məlum olurdu. Ona baxmaq ağrılıydı.

– Ey, ata!

Cess görürdü ki, Ed şoka düşdüyünü gizlətmək istəyir. O, atasına tərəf əyildi, onun çiyinlərinə toxunmazdan əvvəl azca duruxdu.

– Edvard! – onun səsi yarıda qırıldı, amma hələ də onun səsində güc vardı.

– O yaxşı görünmür, Bob, düz demirəm? – Edin anası Boba baxdı.

Atası göz qapaqlarını yüngülcə qaldırıb Edə baxırdı. O danışanda çox yavaş danışırdı, düşünə-düşünə, elə bil ona hər sözü işlətməyə icazə vermirdilər.

– Yox, onun üzündə qalib olmuş insana xas ifadə var.

Telegram: @cinciva

Yalnız indi Cess gördü ki, Edin üzündə bayaq bacısının vurduğu şillənin də izləri qalıb. Özündən asılı olmadan Cess əlini şişmiş dodaqlarına apardı.

– Bu vaxtacan hardaydın?

Ed onun sualını cavabsız qoyub Cessi təqdim etdi:

– Ata, bu Cessdir.

Atasının üzü indi Cessə tərəf döndü. Qaşlarını azacıq dartdı.

– Bəs sənin üzünə nə olub? – Bob yavaşca Cessdən soruşdu.

– Maşında bir hadisə oldu. Mənim günahım ucbatından.

– Onun də üzü orda olub?

Cess gözərini qırpmadan dedi:

– Hə.

Bir neçə dəqiqə o, Cessə diqqətlə baxıb soruşdu:

– Hiss olunur ki, əziyyətli işdə işləyirsən.

Gemma irəli əyilib dedi:

– Ata, Cess Edin dostudur.

Atası Gemmaya döndü, sanki Cessi unutdu:

– Əgər danışmaq imkanım varsa, xoşladığım sözləri deyəcəm. Acıqlı adama oxşamır. Üzr istəyirəm, adınızı unutdum, siz təhqir edilmisiniz? Deyəsən yaddaşım itir, beyin hüceyrələrim yoxa çıxıb.

– Adım Cessdir. Yox, təhqir edilməmişəm.

Bob hələ də ona baxırdı.

– Bəli, əziyyətli işdə çalışıram.

Telegram: @cinciva

Bob Nikolls güclə gülümsəyirdi, gülümsəyəndə Cess onun xəstələnməzdən əvvəl necə göründüyünü təsvir etdi.

– Bunu eşitməyə şadam. Mən həmişə əzab-əziyyətlə yaşayan qadınları xoşlamışam.

– Ata, necəsən? – Ed soruşdu.

Atası gözlərini qırpmadan ona baxırdı:

– Ölürəm.

– Biz hamımız ölürük, ata, – Gemma dedi.

– Sosial işçi sofistikanı mənə ötürmə. Mən daha sürətlə, narahat halda ölürəm, yaşamaq qabiliyyətmi itirmişəm. Ola bilsin ki, kriket mövsümünün sonuna sağ çıxmayacam. Ed, sualına yaxşı cavab verdim?

– Bağışla, sualıma görə. Bağışla ki, vaxtında gəlmədim, – Ed sakitcə dedi

– Sən çox məşğul idin?

– Bu haqda... – Ed nəsə demək istədi.

Əllərini ciblərinin dibinə qədər soxmuşdu:

– Ata, sənə bir söz demək istəyirəm. Sənə baş verənlərin hamısını demək istəyirəm.

Cess cəld ayağa durdu, dedi:

– Yaxşı olar ki, gedib buterbrod alım, siz söhbətinizi edin.

Cess fikirləşdi ki, görəsən Gemma onun bu hərəkətini necə qiymətləndirəcək.

– Mən içməyə də nəsə almalıyam, çay, yoxsa kofe?

Bob Nikolls Cessə baxdı.

– Sən elə indicə gəlmisən. Otur.

Telegram: @cinciva

Cessin gözləri Edin gözlərinə sataşdı, o yüngülcə çiynini çəkdi, elə bil demək istəyirdi ki, onunçün fərqi yoxdur, əgər istəyirsə getsin.

– Bu nədir, əzizim? – anası əlini Edin çiyninə qoyub soruşdu:

– Sən özünü necə hiss edirsən? Yaxşısan?

– Narahat olma, yaxşıyam. Demək istəyirəm ki, sağlamam. Xəstə deyiləm. Ancaq... – Belə deyib udqundu, təzədən sözünə davam etdi:

– Yox, mən heç də yaxşı deyiləm. Sizə deyiləsi sözüm var.

– Nə? – Gemma soruşdu.

Ed dərindən nəfəs alıb dedi:

– Hə, indi deyirəm.

– Nəyi? Tanrı xətrinə, Ed, de. Görək nə demək istəyirsən? – Gemma bir də təkrar soruşdu.

– Məni qiymətli kağızlar barədə dövlət sirrini başqasına ötürdüyümə görə istintaqa c\lb ediblər. İşlədiyim şirkət məndən şübhələnib. Gələn həftə polisə gedəcəm. Yəqin ki, ordan da birbaşa həbsxanaya.

Elə bil bütün otaq onun dediyi sözlərin altında qalmışdı, uzun sükut çökdü. Sanki kimsə içəri girib otaqdakı havanın hamısını udub getmişdi. Cessə elə gəldi ki, bu dəqiqə oksigen çatmazlığından öləcək.

– Zarafat edirsən? – anası soruşdu.

– Yox.

– Yaxşısı budur, mən gedib çay alım, – Cess belə deyib ayağa durdu.

Telegram: @cinciva

Heç kim onun sözlərinə fikir vermədi. Edin anası plastik stulu çəkib oturdu.

– Nə? Qiymətli kağızlar barədə dövlət sirri? – İlk olaraq Gemma danışmağa başladı, əlavə etdi:

– Bu , çox ciddi bir şeydir. Ed!

– Hə, bunu mən də bilirəm, Gem.

– Necə? Xəbərlərdə eşitdiyimiz kimi qiymətli kağızlar barədə sirri başqasına ötürmək?

– Elə bir şeydir.

– Edin yaxşı vəkilləri var, – Cess sözə qarışdı.

Yenə sanki heç kim onun sözünü eşitmədi.

– Onun vəkilləri ən məşhur vəkillərdir, baha qiymətə müdafiə edirlər.

Edin anasının əli ağzında qalmışdı. Yavaşca əlini aşağı aldı. – Başa düşə bilmirəm. Bu nə vaxt baş verib?

– Bir ay əvvəl, ya buna səbəb olan hadisə bir ay əvvəl olub.

– Bir ay əvvəl? Bəs bizə niyə deməmisən? Bəlkə kömək edə bilərdik?

– Yox, ana , heç cür kömək edə bilməzdiniz. Heç kim kömək edə bilməzdi.

– Bəs həbsxana? Cinayətkar kimi tutacaqlar səni? – Ann Nikollsun rəngi qaçmışdı.

– Ana, əgər kimisə həbsxanaya salırlarsa bu, onun cinayətkar olması deməkdi, – Ed dedi.

– Ed, bəlkə səhv edirlər. Yəqin ki, aydınlaşdırarlar hər şeyi.

– Yox, ana, inanmıram ki, səhv etsinlər.

Telegram: @cinciva

Yenidən araya uzun sükut çökdü.

– Nə edəcəksən?

– Hər şey yaxşı olacaq, ana. Cessin də bayaq dediyi kimi, yaxşı vəkillərim var. Artıq onlar müəyyən edib ki, bu əməliyyatda mənim heç bir gəlirim olmayıb.

– Hətta sən bu işdə pul da qazanmamsan?

– Bir səhv etmişdim.

– Səhv? Ed, anlaya bilmirəm, sən səhvən sirri başqasına necə ötürə bilərsən? – Gemma dedi.

Ed çiyinlərini dikəldib bacısına baxdı. Dərindən nəfəs aldı, baxışları Cessə yönəldi. Sonra başını qaldırıb tavana baxa-baxa dedi:

– Hə, mən bir qadınla sevişmişdim. Mənə elə gəlirdi ki, onu xoşlayıram. Sonra anladım ki, o heç də mən düşündüyüm biri deyil. Ondan yaxamı qurtarmaq istədim, axmaq qərar qəbul etdim, fikirləşdim ki, o bir az artıq pul qazanıb borclarını qaytarar, səyahətə çıxar.

– Hə, sən ona daxili məlumatları verdin.

– Hə. SFAX-ın məlumatlarını.

– Aman Tanrım! – Gemma başını yelləyib dedi: – Eşitdiklərimə inana bilmirəm.

– Mənim adım hələ mətbuatda hallanmayıb. Amma mətbuata çıxacaq adım.

O yenə də əllərini cibinə qoyub ailə üzvlərinə baxdı. Cess fikirləşdi ki, mütləq indi Edin əlləri əsir.

– Hm. Hm. Buna görə də... bu səbəbdən gələ bilmirdim. İstəyirdim ki, sizdən gizli saxlayım, hər şeyin yoluna düşəcəyinə ümid edirdim, deyirdim onda siz heç

Telegram: @cinciva

nə bilməzsiniz bu barədə. Amma işlərin gedişi göstərdi ki, ümidlərim əbəsmiş. Gərək sizə deyəydim, onda vaxtımın çoxunu da burda keçirərdim. Amma... amma sizin həqiqəti bilməyinizi istəmirdim. İstəmirdim ki, başıma açdığım bu işdən xəbəriniz olsun.

Heç kim danışmırdı. Cessin sağ ayağı tir-tir əsirdi. Baş barmağının dırnağını titrəyən ayağına toxundurdu. Maraqlıdır ki, titrəməsi dayandı. Cess başını qaldıranda Ed atasına baxırdı.

– Hə, ata. Heç nə demək istəmirsən? – Ed atasına baxdı.

Bob Nikolls başını balışdan azca qaldırdı.

– Nə deməyimi istəyirsən, Ed?

Ed və atası bir-birinə baxdılar.

– İstəyirsən deyim ki, sən axmaq olmusan? Hə, deyirəm ki, axmaq olmusan. İstəyirsən deyəm ki, o cür əla karyeranı əldən vermisən? Bunu da deyərəm.

– Bob... – Edin anası ona baxdı.

– Hə, nə deməyimi istəyisən? – o kobud-kobud deyib öskürməyə başladı.

Ann və Gemma ayağa qalxdılar ki, ona kömək etsinlər, biri dəsmal gətirdi, o birisi bir stəkan su gətirdi.

Ed atasının çarpayısının aşağısında oturmuşdu.

– Həbsxana? – anası təzədən soruşdu.

– Hə, ana, o belə də dedi. – Gemma anasının sualına cavab verdi.

– Bu, dəhşətdir.

Telegram: @cinciva

– Ana, əyləş, dərindən nəfəs al, – Gemma anasına stulda oturmağa kömək etdi.

Heç kim Edə yaxın getmədi. Niyə heç kim onun qucaqlamadı? Niyə onların heç biri görmədi ki, Ed özünü necə də tənha hiss edir?

– Təəssüf edirəm, – Ed sakitcə dedi.

Elə bil heç kim onu eşitmədi.

– Olar ki, mən də söz deyim? – Cess artıq dözə bilmədi.

O öz səsini eşitdi-aydın və yüksək səsini.

– Sadəcə sizə demək istəyirəm ki, biz darda olanda Ed mənə və iki uşağıma kömək etdi. O bizi ölkənin bu başına maşınla sürüb gətirdi, çünki ümidsiz vəziyyətdə idik. Dediyim odur ki, sizin oğlunuz çox yaxşı insandır.

Hamı başını qaldırıb Cessə baxdı.

– O mərhəmətlidir, etdiyi bəzi işlərlə razılaşmasam da hər halda o çox ağıllıdır. Hətta az tanıdığı insanlara qarşı da mərhəmətlidir. Qiymətli kağızlar barədə sirri başqasına ötürsə də, belə oğlum olsaydı, xoşbəxt olardım. Çox xoşbəxt olardım.

Hamı gözlərini Cessə dikib baxırdı.

Cess əlavə etdi:

– Onunla yatmazdan qabaq da onun barəsində bu fikirdəydim.

Heç kim heç nə demədi. Ed gözlərini ayaqlarına dikmişdi.

– Yaxşı... bu... bu... – Edin anası başını yüngülcə tərpədib nəsə demək istədi.

Telegram: @cinciva

– Hə, bu maariflənmədir, – Gemma dedi.

Hələ də Annin səsi gəlirdi:

– Eh, Edvard.

Bob Nikolls ah çəkib gözlərini yumub dedi:

– Aləmə car çəkməyin bu haqda.

O, gözlərini təzədən açdı, işarə etdi ki, çarpayının başını azca qaldırsınlar.

– Bura gəl, Ed. Yaxın gəl ki, səni görə bilim. Görə bilmirəm.

Əliylə stəkana işarə etdi, arvadı stəkanı onun dodaqlarına apardı.

O, suyu əziyyətlə içdi, əliylə Edi düz yanına çağırdı. Əlini uzadıb Edib çiyninə qoydu. Əllini güclü qaldırdı.

– Sən mənim oğlumsan, Ed. Sən axmaq, məsuliyyətsiz ola bilərsən. Sənə qarşı hiss etdiklərimə bunların dəxli yoxdur.

– Bağışla məni, ata.

Bob Nikolls başını yüngülcə yellədi.

– İnanmıram ki, sənə kömək edə bilim. Nəfəs ala bilmirəm...

O belə deyib üzünü turşutdu, yenə də əziyyətlə udqundu. Əlləriylə Edin əllərini möhkəm sıxdı.

– Biz hamımız səhv edirik. Get cəzanı çək, sonra qayıdıb həyatını yenidən başla.

Ed atasına baxdı. Cess sanki yeniyetmə bir oğlan görürdü, xətrinə dəyiblər, sonra tərifləyirlər.

– Gələn dəfə daha yaxşı uğur qazan. İnanıram ki, bacararsan.

Telegram: @cinciva

Bax, Elə bu vaxt Ann ağlamağa başladı, əlinin arxasıyla gözlərini silsə də, göz yaşları yenə yanaqlarına süzülürdü. Bob başını arvadına çevirdi:

– Oh, əzizim.

Cess burda özünü artıq olduğunu hesab etdi, qapını açıb sakitcə çıxdı.

***

Xəstəxananın yaxınlığındakı mağazada o telefonuna pul yüklədi, sonra Edə mesaj yazıb harda olduğunu, ayağını həkimə göstərmək üçün gözlədiyini yazdı.

– Çox pis əzilib, – Cavan polyak həkim onun ayağına baxıb dedi. Cess ayağını harda əzdiyini deyəndə həkimin üzündə heç təəccüb ifadəsi də olmadı.

O, Cessin ayağına dərman qoyub sarıdı, resept yazdı, sonra Cessin çəkələklərini özünə qaytardı, ona istirahət etməyi məsləhət gördü.

– Çalış bir də maşınları təpikləmə.

Cess təzədən Viktoriya Palatasına gəldi, plastik stul götürüb dəhlizdə gözlədi. Ora istiydi, ətrafındakı adamlar pıçıltıyla danışırdılar. Otura-otura yüngülcə yuxuladı. Ed otaqdan çıxanda o oyandı. Cess Edin jaketini ona uzatdı, Ed də heç bir söz demədən götürdü. Bir dəqiqə sonra Gemma dəhlizdə çıxdı. Onlar bir müddət bir-birlərinə baxıb durdular. Gemma əlini Edin yanağına, bayaq şillə dəyən yerə qoyub dedi:

Telegram: @cinciva

– Mənim ağılsız qardaşım!

Ed yenə də Niki kimi əllərini cibinə salıb başını aşağı dikdi.

– Ey, axmaq, mənə zəng edirsən.

Ed üzünü döndərdi. Onun gözlərinin içi qıpqırmızıydı.

– Məhkəmədə iştirak edəcəm. Tanıdığım adamlar sənə kömək edə bilər ki, cəzanı çöldə çəkəsən. Dediyim odur ki, sən A kateqoriyalı cani deyilsən. Əslində sən heç nə etməmisən.

Gemma əvvəlcə Cessə, sonra isə Edə baxıb dedi:

– Sən heç nə etməmisən, düzdür?

Ed əyilib bacısını qucaqladı, bacısından ayrılanda yalnız Cess hiss etdi ki, Edin gözləri həqiqətən yumulur.

Xəstəxanadan çıxdılar. Gözəl, günəşli bir yaz havası vardı. Yoldan keçən maşınların səsi, yol gedən fəhlənin əlindəki radio – əsl həyat idi.

Cess dərindən nəfəs aldı, elə bil xəstəxananın qoxusundan, Edin atasının sinəsinə çökmüş ölümdən sonra belə xoş hava üçün minnətdar idi.

Ed yola doğru addımladı. Onun bu halı Cessə Nikinin bura gəlməzdən əvvəlki halını xatırlatdı. Onda Nikinin üzündə heç bir ifadə yox idi, sanki heç nəyi hiss etmirdi.

Onlar maşın parkında Edin maşınına çatanda Ed dayandı. Maşının qapısını pultla açdı. Sonra dayandı. Elə bil addım ata bilmirdi.

Elə yerindəcə qaldı, bir əli maşının qapısında.

Telegram: @cinciva

Cess azca gözlədi. O da da maşının yanına gəldi. Açar topasını Edin əlindən aldı. Nəhayət, Edin gözləri Cessə dönəndə Cess ona yaxınlaşdı, onun qollarını öz belinə doladı. Ed başını onun çiyinlərinə qoyanadək Cess onun əllərini belində saxladı.

Telegram: @cinciva

26

TANZİ

Niki bir də səhər yeməyi yeyərkən danışmağa başladı. Lap televizordakı kimi səhər yeməyi yeyirdilər. Tanzi halqavarı çörək yeyir, Syuzi ilə Coş şokoladlı ponçik yeyirdi. Syuzi dedi ki, onlar hər səhər belə ponçik yeyirlər, bu onların sevimlisidir. Əlbəttə, stol arxasında Martinin təzə ailəsiylə oturub səhər yeməyi yemək dəhşət idi, amma bu heç də Tanzinin fikirləşdiyi kimi pis deyildi. Marti kəpək laylarına bənzər nəsə yeyirdi, o dedi ki, formada qalmaq üçün az yeməlidir, belə deyib əliylə qarnını sığallamışdı. Tanzi fikirləşdi ki, əgər atası işə getmirsə, formada qalmaq onun nəyinə gərəkdir.

Tanzi atasından faktiki olaraq hansı işlə məşğul olduğunu, Linzinin də qarajında çoxlu kondisionerlərin olub-olmamasını soruşdu. Deyəsən Linzi heç nə yemədi. Niki isə qızardılmış çörəklə elə bil oyun oynayırdı, çünki bu səyahətə qədər demək olar ki, o heç vaxt səhər yeməyi yemirdi. Birdən o Martiyə baxıb dedi:

Telegram: @cinciva

– Cess bütün günü işləyir. Bütün günü. Fikirləşmirəm ki, bu ədalətlidir.

Marti əlindəki qaşığı ağzına apara bilmədi, Tanzi düşündü ki, mütləq o Nikiyə acıqlanacaq. Çünki evdə olanda Niki nəsə xoşagəlməz söz deyəndə o həmişə özündən çıxardı. Bir neçə dəqiqə heç kim heç nə demədi. Sonra Linzi əlini Martinin əlinin üstünə qoyub dedi: "O haqlıdır, canım mənim!"

Mart bir az qızardı:

– Bu gündən başlayaraq hər şey yaxşı mənada dəyişəcək, biz hamımız səhv etmişik.

Tanzi onun sözlərini eşidib qoçaqlıq edirmiş kimi cəld dilləndi:

– Yox, düz demirsən. Düzünü desək, heç də hamımız səhv etməmişik. Mən alqoritmlərdə səhv etdim, Norman inəkləri görəndə səhv edib eynəklərimi sındırdı. Anam isə "Rolls-Royce"u sürə bilməyib səhv etdi. Niki ailədə səhv etməyən yeganə şəxsdir.

Tanzi sözünü deməyə başlayanda Niki stolun altından onu ayağını təpiklədi, gözünü ağartdı.

– Nə deyirsən? – Tanzi baxışlarıyla soruşdu.

– Yum ağzını, yum, – Nikinin baxışları dedi.

– Mənə ağzını yum demə! – Tanzinin baxışları cavab verdi.

Sonra Niki Tanziyə baxmadı.

– Balaca, şokoladlı ponçik istəyirsən? – Linzi Tanziyə dedi, heç cavab gözləmədən ponçikin birini onun boşqabına qoydu.

Telegram: @cinciva

Linzi Tanzinin bütün paltarlarını yuyub qurutmuşdu, onun paltarlarından səhləb çiçəyi və vanil iyi gəlirdi. Bu evdə hər şeydən hansısa bir iy gəlirdi. Elə bil heç nəyə icazə vermirdilər ki, öz iyi olsun. Linzinin əlindəki televizor pultundan tropik meşələrin və bəzi çiçəklərin iyi gəlirdi. Hamamda az qala bir milyon şam vardı – müxtəlif iylər bir-birinə qarışmışdı. Tanzi içəridə olanda burnu qaşınırdı.

Hamısı geyinəndən sonra Linzi Syuzini baletə apardı. Marti ilə Tanzi parka getdilər, az qala iki il idi ki, Tanzi parka getmirdi, elə bil parka getməyi yadırğamışdı. Amma bunu Martiyə deyib onun qanını qaraltmaq istəmədi, parka gedib yelləncəyə mindi, Marti də onu yellədi. Niki də bir tərəfdə durub onlara baxırdı – əlləri cibində. O Nintendosunu Nikollsın maşınında qoymuşdu, Tanzi həmin anlarda Nikinin çəkmək istədiyini çox yaxşı bilirdi. Amma Martinin yanında onun cəsarət edib çəkəcəyi haqda fikirləşmədi Tanzi.

Qəlyanaltıya isti yemək hazırlamışdı Linzi (Marti əlini qarnına qoyub sığallaya-sığallaya Linziyə dedi: "Demə hansı yemək bişirmisən, Linzi, demə").

Sonra Marti Nikidən Nikollsun kim olduğunu soruşdu.

– O sarışın kimdir? Cessin boy-frendidir?

– Yox...

Niki "yox" sözünü elə dedi ki, Marti daha o barədə heç bir sual verməsin.

Telegram: @cinciva

Tanzi fikirləşdi yəqin Nikinin danışıq tərzi Martini şoka salıb. Məsələ kobud olmaqda deyil, elə bil Martinin nə fikirləşməsi Nikinin vecinə deyildi. Üstəgəl, indi Niki Martidən hündür idi, Tanzi onu da anladı ki, Nikinin boyunun hündürlüyünə heç Marti fikir də vermədi.

Tanzi üşüyürdü, çünki paltosunu gətirməmişdi. Onlar geri qayıtdılar ki, Tanzi paltosunu götürsün, onlar gələndə Syuzi artıq baletdən gəlmişdi. Niki kompüterdə nəsə etmək üçün yuxarı çıxdı. Tanzi Syuzi ilə oynadı, sonra gedib tısbağalarla oynadılar. Yorulanda Syuzi Tanzini öz otağına apardı, dedi ki, DVD pleyer var, gedib filmə baxsınlar. Hər gecə yatmazdan əvvəl bu filmlərə baxdığını dedi.

– Bəs sənin anan sənə kitab oxumur? – Tanzi ondan soruşdu.

– Onun çox vaxtı yoxdur. Buna görə də o mənə DVD pleyer alıb. Anamın rəfində çoxlu film diskləri var, hamısı onun sevimli filmləridir. Ona görə də o bizim baxdığımız filmlərə yox, öz sevdiklərinə baxır yuxarıda.

– Marti qanqster filmlərini xoşlayır, o da belə filmlərə baxır.

Bunu deyəndə Syuzi burnunu qırışdırdı, bir-iki dəqiqəyə Tanzi anladı ki, faktiki olaraq Syuzi onun atası haqda danışanda burnunu qırışdırdı. Amma o nə deyəcəyini bilmədi.

– Sənin jaketindən xoşum gəlir, – Syuzi Tanzinin çantasına boylanıb dedi.

– Anam Milad bayramında hazırlayıb.

Telegram: @cinciva

– Doğrudan anan hazırlayıb?

Syuzi gedib jaketi gətirdi, Cessin jaketin qollarına bərkitdiyi parıltılı muncuqlar işıq saçırdı.

– Aman Tanrım! Sənin anan nəçidir? O modelyerdir?

– Yox, o ev təmizləyəndir.

Syuzi güldü, ona elə gəldi ki, Tanzi zarafat edir.

– Bəs bunlar nədir? – Syuzi riyaziyyatdan test dəftərlərini göstərib soruşdu.

Bu dəfə Tanzi heç nə demədi.

– Bu riyaziyyatdır? Oh, aman, bu əyri-üyrü xətlər sənin qardaşlarındır? Bu xətlər də narkotik çəkir ?

Syuzi pıqqıldayıb güldü, kağızlara çırtma vurdu, sonra kağızlardan bir neçəsini barmaqları arasında tutdu, elə bil onlar istiydi, əlini yandıracaqdı.

– Qardaşın da riyaziyyat narkomanıdır?

– Bilmirəm, – Tanzi qızardı, çünki o yalan danışa bilmirdi.

Syuzi kağızları bir tərəfə basıb Tanzinin o biri paltarlarını çantadan dartıb çıxardı.

Tanzi heç nə demədi. O, kağızları döşəmədən götürmədi, çünki heç nəyi izah etmək, olimpiada haqda fikirləşmək istəmirdi. Fikirləşirdi ki, bəlkə bu gündən başlayaraq o da Syuzi kimi olsun, axı o həddindən artıq xoşbəxt görünürdü, atası da bu evdə xoşbəxt görünürdü. Sonra Syuzidən xahiş etdi ki, gedib aşağıda birlikdə televizora baxsınlar, o həqiqətən də heç nə haqqında fikirləşmək istəmirdi.

Telegram: @cinciva

Onlar Fantasia filminin üçdə bir hissəsinə baxmışdılar ki, Tanzi atasının səsini eşitdi: "Tanzi, gəl, anan burdadır".

Anası dəhlizdə ayaqüstə durmuşdu, elə bil bu dəqiqə mübahisə etməyə hazırlaşırdı.

Tanzi yaxına gəlib ona baxanda o, əlini dodağının üstünə qoydu, sanki elə o an dodağının şişdiyini bilmişdi.

– Yıxılmışam, – o dedi.

Tanzi dönüb maşında oturan Nikollsa baxdı, Cess yenə də cəld dilləndi:

– Hə, o da yıxılıb.

Halbuki Tanzi Nikollsın üzündəki zədəni görməmişdi, sadəcə maşına baxıb bilmək istəyirdi ki, onlar yenə də maşında gedəcəklər, yoxsa avtobusa minməli olacaqlar.

Sonra Marti dedi:

– Elə bil bu günlərdə müqavilə bağlamısınız ki, haminizin üzündə zədə olsun.

Cess çəpəki ona baxdı. Marti dodaqaltı evin təmiri haqda, gəlib bəzi əşyalarını gətirəcəyi barədə nəsə dedi. Tanzi dərindən nəfəs alıb anasının yanına qaçıb onu qucaqladı, çünki Linzinin evində nə qədər yaxşı vaxt keçirsə də o Normandan ötrü çox darıxmışdı, o həqiqətən də anasınn yanında olmaq istəyirdi.

***

Nikollsun kirayə etdiyi kottec qoca adamlar təqaüdə çıxandan sonra yaşamaq istədikləri evə bənzəyirdi.

Telegram: @cinciva

Kottec gölün sahilində yerləşirdi, ətrafda bir neçə ev də vardı, amma o evlər bucaqlardaydı və ağacların arxasındaydı, ona görə də yaxşı görünmürdü. Burda heç bir evin pəncərəsi o biri evin pəncərəsinə baxmırdı. Göldə əlli altı ördək və iyirmi qaz var idi. Cessgil çay içib qurtaranda qazlardan üçündən başqa hamısı yenə suda idi.

Tanzi fikirləşdi ki, bəlkə Norman o qaz və ördəklərin dalına düşüb qovub, amma yox, Norman otun üstündə ora-bura qaçıb baxırdı.

Hətta çöl-bayırda olmağı xoşlamayan Niki də heyrətlə içini çəkib "qəşəng yerdir" dedi. Tanzi dörd gündür Nikinin çəkmədiyini dəqiq bilirdi.

O, gözlərini zilləyib gölə baxırdı, bir müddət heç nə demədi. O pul haqda nəsə demək istədi, bu vaxt Nikolls əlini qaldırıb "yox, yox, yox" dedi. Elə bil Cessin dediklərini eşitmək istəmirdi. Cess ona baxıb qızardı, heç nə demədi.

Onlar ot üstündə oturub nahar etdilər. Düzdür, piknik havası deyildi, amma Cess dedi ki, artıq səyahətləri başa çatacaq, bir də haçansa belə bir yerdə nahar etmək imkanları olmayacaq. Nədənsə o hamıdan çox danışırdı, dedi ki, düzdür, əlindəki az-çox pulunu göyə sovurub, bununla belə o hərdən belə vaxt keçirməyin də vacibliyindən danışdı. Onlar kolbasa və toyuq budu , təzə bulkalar, salat yedilər. Cess iki iri plastik qabda dondurma almışdı. Yox, bu dondurma Cessin həmişə aldığı ucuz, plastik kartonlardakı dondurmadan deyildi. Həm də o,

Telegram: @cinciva

Martinin evi barəsində heç bir sual vermədi, əvəzində Tanzini çoxlu-çoxlu qucaqlayıb öpür, ondan ötrü çox darıxdığını deyirdi.

Hər biri ayrılıqda lətifə danışdı. Hətta Tanzi də çubuğun qəhvəyi rəngdə və yapışqan olması haqda nəsə söylədi, hamı güldü. Sonra onlar bir oyun oynadılar. Bu oyunda süpürgəni alına qoyub dairə boyunca qaçırsan, qaçırsan, ta yıxılana qədər. Bu da adamı güldürür. Cessin ayağının sarıqlı olmasına və güclə yeriməsinə baxmayaraq o da bu oyunu bir dəfə oynadı, dairənin başına bir dəfə fırlandı. Anasına baxanda Tanzini gülmək tuturdu, çünki anasının dəyişdiyini görmək xoş idi. Nikolls isə "yox, yox, mən oynamıram" deyib durmuşdu, deyirdi ki, o tamaşa edir, oynamaq istəmir. Cess onun yanına gəldi, qulağına yavaşca nəsə dedi, Nikolls qaşlarını azca yuxarı dartıb "doğrudanmı?" deyəndə Cess də başıyla təsdiqlədi, onda Nikolls dedi:

– Aha, ok, oynayıram.

O, qaça-qaça guppultuyla yıxılanda az qala yer silkələndi. Hətta heç vaxt oyun oynamayan, çubuq kimi nazık qıçlı Niki də bu oyunu oynadı. O yerə yıxılıb güləndə onun gülüşü çox qəribəydi, "huh... huh... huh" deyirdi elə bil. Tanzi onun belə gülüşünü illərlə eşitməmişdi. Bəlkə də heç vaxt.

Tanzi dairənin başına altı dəfə fırlandı, başı gicəllənib dünya başına fırlanana qədər qaçdı, sonra arxası üstə yerə yıxıldı. Göy də onun başına fırlanırdı, o fikirləşdi ki, onların ailəsi də həyatda beləcə fırlanır – həmişə nəzərdə tutduqları kimi yox, indi bir az fərqli.

Telegram: @cinciva

Onlar yemək yedilər, Cess və Nikolls bir az çaxır içdilər, Tanzi toyuğun sümüyünün üstündə qalan əti sıyırıb Normana verdi, çünki o eşitmişdi ki, itlərə toyuq sümüyü verəndə ölürlər. Sonra onlar paltolarını geyinib hörmə kreslolarda oturub gölə tamaşa etdilər, suda üzən qazlara, ördəklərə baxdılar qaranlıq düşənə qədər. "Bu yer çox xoşuma gəldi", – Cess öz-özünə dedi. Tanzi inanmadı ki, Cessin sözlərini hamı eşitdi, amma Cess belə deyən kimi Nikolls ona yaxınlaşıb əllərini sıxdı.

Axşam Nikolls bir az qəmgin görünürdü. Tanzi onun niyə qəmgin olmasının səbəbini bilmirdi, düşünürdü ki, bəlkə onun bikef olmasına səbəb səyahətlərinin hələ də sona çatmamasıdır. Tanzi qazların, ördəklərin şappıltıyla sahilə çıxmasını xatırlayırdı. Qazların səsi ətrafın sükutunu pozdu bir anlıq. Sonra Tanzi heç nəyi xatırlamırdı, deyəsən yuxuya gedib, o bir də onu xatırlayır ki, Nikolls onu qolları arasında pilləkənlərlə yuxarı qaldırır. Tanzinin o da yadındadır ki, anası tez-tez Tanziyə onu çox sevdiyini deyirdi. Həmin gecədən Tanzinin yadında qalan odur ki, heç kim olimpiada haqqında kəlmə də kəsmədi, Tanzi də buna çox sevinirdi.

***

Cess günorta yemək hazırlayanda Tanzi Nikollsdan xahiş etdi ki, kompüterini bir neçə dəqiqəliyə ona versin. Bu vaxt o özəl məktəblərdə aşağı-gəlirli ailələrin statistikasına baxdı, gördü ki, onun kimi uşaqların

Telegram: @cinciva

Müqəddəs Ann məktəbinə getmə ehtimalı faizi çox azdır, yalnız tək-tük hallarda mümkündür. Tanzi başa düşdü ki, olimpiadada iştirak etmək üçün yazdığı test nəticələri nə qədər yaxşı olsa olimpiadaya getmək üçün evi tərk etməmişdən əvvəl onlar bu faizə diqqət yetirməliydilər. Çünki rəqəmlərə bir dəfə yaxşı diqqət yetirməyəndə sonra gec olur, axıracan hər şey səhv gedir. O, kompüterə baxanda Niki də yuxarı çıxdı, gəlib onun yanında durub heç nə demədən onun nə etdiyinə baxdı, sonra dedi ki, o məktəbdən tanıdığı bəzi adamlardan xahiş edəcək ki, Tanzinin Müqəddəs Ann məktəbinə gedib-getməməsiylə orda maraqlanıblar, ya yox.

Onlar Linzinin evində olanda Marti dedi ki, özəl məktəblər heç də həyatda uğur qazanmağa zəmanət vermir. O bu sözləri düz üç dəfə təkrar etdi: "Uğur sənin içində olan niyyətindir". Sonra o Tanziyə dedi ki, Syuzinin saçını bu formaya necə saldığını öyrənsin, bəlkə Tanzi də saçını elə düzəltsə ona yaraşar.

Həmin axşam Cess divanda yatmaq istədiyini dedi. Amma Tanzi onun gecə divanda yatdığına əmin deyildi, çünki gecə yarısı o susadığına görə oyandı (anası yeməyi duzlu etmişdi), aşağı düşdü, anası divanda yox idi. Səhər isə anası Nikollsun hər gün geydiyi boz idman köynəyini geymişdi, bunu görən Tanzi düz iyirmi dəqiqə gözlərini Nikolls yatan otağın qapısına zillədi ki, görəsən o hansı paltarı geyinib otaqdan çıxacaq.

Telegram: @cinciva

***

Səhər gölün üstündə azca duman vardı. Onlar əşyalarını maşına daşıyanda duman lap sehrbazın oyunundakı kimi qəfil yoxa çıxdı. Norman otun üstündə imsinə-imsinə ora-bura gedirdi. "Dovşanlar" – Nikolls dedi (onun əynində başqa boz köynək vardı). Hava soyuq idi, meşə göyərçinləri ağaclarda quruldaşırdılar. Bu vaxt Tanzi bikeflədi, düşündü ki, bu gözəl yerdə bir gecə qaldı, indi isə hər şey sona çatır.

– Evə getmək istəmirəm, – Ed baqajın qapağını örtəndə sakitcə dedi.

Cess səksəndi:

– Nə deyirsən, şəkər balam?

– Mən evə qayıtmaq istəmirəm.

Cess Nikollsun üzünə baxdı, sonra o gülümsəməyə çalışdı, yavaşca irəli-geri addımlayıb dedi:

– Tanzi, yoxsa atanla bir yerdə qalmaq istədiyini demək istəyirsən? Əgər həqiqətən də sən bunu istəyirsənsə...

– Yox, mən sadəcə bu kotteci xoşlayıram, bura çox gözəldi.

O həm də demək istədi ki, o olimpiadada hər şeyi korladı, daha ümidlə sabaha baxmır, bu yerlərdə Fişerlər yoxdur.

Tanzi anasının üzünə baxanda anladı ki, elə anası da onun fikirləşdiyini düşünür, çünki həmin anlarda o tez-tez Nikiyə baxır və çiynini çəkirdi.

Telegram: @cinciva

– Bilirsən. qızım, nəyisə düzgün etməyə cəhd etmək heç də ayıb deyil, – Cess gah Tanziyə, gah Nikiyə baxdı, davam etdi:

– Biz hamımız nəsə əldə etmək üçün əlimizdən gələni etdik, amma alınmadı. Əvəzində isə başqa şeylər baş verdi. Biz heç vaxt görmək imkanımız olmayan yerləri gördük, bəzi şeylər öyrəndik. Atanızla haqq-hesab çəkdik. Həm də bəzi dostlar qazandıq.

Tanzi fikirləşirdi ki, anası sözsüz Linzini və onun uşaqlarını nəzərdə tutur, amma o belə deyəndə onun gözləri Nikollsa yönəldi.

– Nə olursa olsun, nə baş verməyindən asılı olmayaraq, hər şeyin planlaşdırdığımız kimi olmamağına baxmayaraq, bizim nəyisə əldə etməyimizə cəhd etməyimiz çox yaxşı haldır. Ola bilər, evə çatandan sonra da hər şey siz düşündüyünüz kimi pis olmayacaq.

Nikinin sifətindən heç nə anlamaq olmurdu. Tanzi dəqiq bilirdi ki, Niki yolda xərclənən pul haqda düşünür.

Sonra səhərdən bəri heç nə deməyən Nikolls maşının yanına gəldi, qapını açdı ki, Cess keçib otursun, sonra üzünü Tanziyə tutub dedi:

– Hə. Yaxşı. Mən də elə bu haqda düşünürdüm. Biz dövrələmə yolla gedib bir az da istirahət edəcəyik.

Telegram: @cinciva

27

CESS

Evə qayıdarkən sanki maşında lallardan ibarət bir dəstənin üzvləri vardı. Heç kimin telefonundan musiqi səsi gəlmirdi, söhbətləri də çox qısa olurdu. Hətta Norman da daha zingildəmirdi, elə bil bu maşını özünün evi hesab edirdi. Cess neçə gün bu səfəri planlaşdıranda yalnız Tanzini Olimpiadaya vaxtında çatdırmaq haqqında düşünmüşdü, ondan sonra heç nəyi xəyal etməmişdi. O planlaşdırmışdı ki, ora vaxtında çatacaqlar, Tanzi testlərini edəcək, hər şey də planlaşdırdığı kimi olacaq. Onun heç ağlına da gəlməzdi ki, bu səfər üç gündən də çox çəkə bilər, ya da əlindəki pulların hamısını xərcləyəcəyini fikirləşməmişdi. Heç ağlına da gəlməmişdi ki, yolda hardasa gecələyə bilərlər. İndi onun cəmi 13.81$ nağd pulu vardı.

Cess bunların heç birini Edə demədi. Ed sakitcə maşın sürürdü, gözlərini yola zilləmişdi, fikirliydi, ola bilsin atasını düşünürdü. Arxa oturacaqda oturan Niki isə Edin noutbukunu dizi üstə qoyub qulaqlarında

Telegram: @cinciva

qulaqcıq nəyləsə məşğul idi, alnını qırışdırıb fikrini bir yerə cəmləməyə çalışırdı. Cess şübhələndi ki, deyəsən Nikolls hansısa məqsədlə Nikiyə internetə girməyə icazə verib. Sevinirdi ki, daha Niki əvvəlki kimi deyil, onlarla söhbət edir, onlarla birlikdə yemək yeyir, normal yatır. Tanzi də bir əlini Normanın yekə başına qoyub tez-tez ötüb keçən mənzərələrə baxırdı. Cess hər dəfə ondan hər şeyin ok. olduğunu soruşanda o sakitcə başını yırğalamaqla "hə" deyirdi.

Bunların heç birinin əslində elə də əhəmiyyəti yox idi, çünki onun özündə nəsə kökündən dəyişmişdi.

Ed... Cess onun adını ürəyində dəfələrlə təkrar edirdi. O adını təkrar etdiyi bu kişidən bircə qarış aralı oturmuşdu. Cessə görə bu kişi bu vaxtacan tanıdığı adamlardan ən yaxşısı, ən böyüyü idi, ona çox qəribə gəlirdi ki, ondan başqa heç kim bunu olduğu kimi dərk etmirdi. Ed gülümsəyəndə Cess də gülümsəməyini saxlaya bilmirdi, o da ona baxıb gülümsəyirdi. Ed bir az qəmli görünəndə elə bil Cessin də içində nəsə qırılırdı. Ed uşaqlarla bir yerdə olanda da Cess ona baxırdı həmişə. O, noutbukda Nikiyə nəsə göstərəndən sonra Nikidə böyük dəyişiklik baş verdi. Tanzi nəsə deyəndə Ed onu dinləyib fikrini bildirirdi. Tanrı bilir, Marti Tanzinin dediyi həmin sözləri eşitsəydi gözləri hədəqəsindən çıxardı. Bu vaxtlarda Cess fikirləşirdi kaş ki, Ed onların həyatında çoxdan olaydı. Onlar ikisi təkbətək qalanda Ed onu özünə möhkəm sıxıb əllərini onun buduna toxunduranda, onun nəfəsini hiss edəndə Cess fikirləşirdi ki,

Telegram: @cinciva

hər şey yaxşı olacaq. Yox, hər şeyi Ed ok. etməyəcəkdi – onun özünün öz problemləri vardı – elə bil ailə üzvlərinin sayının üstünə nəsə yaxşı bir şey əlavə olunmuşdu və bu da onların həyatını yaxşılaşdıracaqdı. O, Cessin bu vaxtacan rast gəldiyi yeganə adam idi ki, Cess "onlar bir yerdə lap yaxşı yola gedirlər" ifadəsinin mənasını dərk etmişdi.

Eddən bu ifadənin daha hansı məna verəcəyi barədə soruşmağa qorxurdu, fikirləşirdi ki, niyə bu vaxtacan özünü sərbəst hiss edəndə kiməsə ehtiyacı olacağını düşünməyib. Heç vaxt ağlına da gəlməzdi ki, həyatında bu iki uşaqdan, bir də Normandan başqa kiməsə ehtiyac duya bilər.

Cess Ed Nikollsu istəyirdi. Edlə birlikdə oyanmaq, onunla birgə içmək, çubuqlarla ona yemək yedizdirmək istəyirdi. İstəyirdi ki, gecələr ayaqlarını onun ayaqlarına dolayıb onu içində hiss eləsin, onu özünə möhkəm sıxanda ağrıdan həzz alsın. Onun dərisindən gələn duz tamını istəyirdi, tərləyən bədəninə üzünü sürtmək istəyirdi. İstəyirdi ki, gecələr dodaqları onun dodaqlarında, gündüzlər gözləri gözlərində olsun. Ed maşın sürürdü. Cess ötən iki gecənin ən şirin anlarını gözü önündə canlandırırdı. Gecə uşaqları oyatmamaq üçün yavaş addımlarla Edin otağına necə getməklərini xatırlayırdı.

Neçə illər Cess yalnız uşaqlar haqda fikirləşmişdi, yalnız iş haqqında, ödəməli olduğu çeklər, pul haqda fikirləşmişdi. İndi isə onun başı "Edlə" doluydu. Ed ona tərəf baxanda qızarırdı. Ed onun adını deyəndə o öz

Telegram: @cinciva

adını Ed qaranlıqda, gecə dediyi kimi eşidirdi. Ed ona kofe uzadanda, əli azca Cessin əlinə toxunanda sanki bütün bədənindən elektrik keçirdi. Edin ona baxmağını xoşlayırdı, onun gözlərini qəmli görəndə nə haqda düşündüyünü bilmək istəyirdi.

Cess bütün düşündüklərini ona hansı yolla deyəcəyini bilmirdi. Cess Martiylə tanış olanda çox cavan idi. Feathers-də Liam Stubbsın bir dəfə əllərini onun yaxasına salmağını çıxmaq şərtilə Martidən başqa heç bir kişiylə hətta əlaqələrin başlanması mərhələsini də etməmişdi.

Yalnız məktəbdə oxuyanda Martiylə görüş təyin etmişdi. O vaxtdan bəri bir dəfə də olsun görüşə getməmişdi. Bu, hətta Cessin özünə də gülməli görünürdü.

– Hə, uşaqlar, hər şey qaydasındadır? Biz Nottinqemə gedirik, – Ed Cessə baxıb uşaqlara müraciət etdi.

Edin burnunun bir tərəfindəki zədə hələ də getməmişdi.

– Biz gecəni buralarda bir yerdə keçirə bilərik. Ertəsi gün isə rahatca evə qayıda bilərik.

Bəs sonra? Cess Eddən soruşmaq istədi, amma soruşmadı, ayaqlarını bir az irəli uzadıb "əla səslənir" dedi.

***

Onlar yanacaqdoldurma məntəqəsində dayanıb, ora yaxın bir yerdə lanç etməyi qərara aldılar. Daha Niki və Tanzi buterbroddan başqa yeməyə nəyinsə olduğunu soruşmağı tərgitmişdilər, indi onların gözü fast-fud, kofe ya fərqli bir şey axtarırdı.

Telegram: @cinciva

Maşın dayananda onlar bir az gərnəşdilər, üst-başlarını qaydaya saldılar.

– İsti sosislə aranız necədir? – Ed belə deyib əlini kafeyə uzatdı.

– Kofe və isti sosis, ya Kornuol pastaları. Mənim sevdiyim şeylər. Gəlin getdik.

Cess ona baxırdı.

– Göy-göyərti istəyirəm. Uşaqlar, siz yağlı, piyli nə istəyirsiniz? – Ed dedi.

– Ey, xəsis, sonra meyvə də yeyərik. – Cess üzünü Edə tutdu.

– Bəs qorxmursan? Kababdan sonra başına gələnləri unutmusan?

Gün şüalarından qorunmaq üçün əlini qaşının üstünə qoyan Ed Cessə baxdı.

– Hə, artıq dərk etmişəm ki, mən təhlükəli yaşamağı xoşlayıram.

Ötən gecə Niki Edin noutbukunda nəyisə yazıb qurtarıb yatmağa gedəndən sonra Ed Cess olan otağa gəlmişdi. Bu vaxt Cess özünü yeniyetmə qız kimi hiss edirdi, əliylə Edə işarə etdi ki, televizoru söndürsün və uşaqların yatdığına tam əmin olandan sonra əlini ona toxundurdu. Nikinin yuxuya getməsinə arxayın olandan sonra Ed noutbuku açdı.

– Niki orda nə yazır? – Ed ekrana baxanda Cess soruşdu.

– Yaradıcı bir yazıdır.

– Oyun oynamır? Tüfəng atmır? Partlayış olmur?

Telegram: @cinciva

– Heç biri.

– Niki yatır. Biz evdən çıxandan bəri hər gecə normal yatıb. Marixuana çəkmədən, – Cess pıçıldadı.

– Hər gecə yatıb. O kefdədir ki? Mənə elə gəlir illərdir ki, yatmıram.

Elə bil bu qısa vaxt ərzində Ed neçə yaş qocalmışdı, Cess bilmirdi ki, buna görə ondan üzr istəsin ya yox, fikirləşirdi ki, neçə gün onlarla bir yerdə ağır gün keçirdiyindən gileylənir o. Cess Natalinin onun uşaqlarıyla bağlı dediklərini yadına saldı. Elə bu vaxt, nə edəcəyinə əmin olmayanda Ed əlini ona uzatdı, əllərindən tutub özünə tərəf çəkdi:

– Hə, Cessika Rae Tomas, bu gecə imkan verərsən bir az yuxulayım?

Cess onun alt dodağını öpdü, Edin əllərini belində hiss edib titrəyərək pıçıldadı:

– Yox.

– Əla cavabdır, Cessika Rae Tomas, – Ed gülümsədi.

Cess yaxşı xatırlamır. Bəlkə də üç saat beləcə vaxt keçdi.

...Lanç edəndən sonra istiqaməti dəyişdilər. İndi onların yolu turistlərin bol olduğu küçələrdən keçirdi. Turistlər bankomatdan pul çıxarır, harasa tələsirdilər. Cess isti noxudların qoxusunu uzaqdan hiss edirdi.

Uşaqlar, Edin onlara verdiyi kağız pullar da əllərində Edin göstərdiyi istiqamətdə görünməz oldular. Uşaqların tam uzaqlaşdığını görəndə Ed Cessə yaxın gəldi.

– Nə edirsən?

Telegram: @cinciva

– Sadəcə baxıram.

Hər dəfə Ed ona daha yaxın gələndə sanki Cessin bədəni od tutub yanırdı.

– Baxırsan?

– Hə, sənə yaxın gəlmək qeyri-mümkün olub .

Edin dodaqları Cessin qulaqlarına toxunurdu, səsi bədəninə dəyirdi elə bil.

Cess hiss etdi ki, bədəni tir-tir əsir.

– Bütün günü özümü sənlə bir yerdə təsəvvür edirəm, səni qamarlayıb özümə sıxmaq, üstünə uzanmaq, sənlə "ədəbsiz şeylərlə məşğul olmaq" istəyirəm.

Belə deyib o, Cessin şalvarının belindən tutub özünə tərəf dartdı, bu an Cessin bədənindən sanki alov dilimləri keçdi, ona qəribə gəldi ki, niyə başqaları bunu görmədi. Cess azca dala dartındı, arxaya dönüb baxdı, adamların onları görmədiyinə əmin oldu.

– Hə, deməli yol boyu bunları fikirləşirdin? Lap sürəndə də? Danışmadığın vaxtlarda da?

– Hə, – Ed Cessin başı üstündən mağaza tərəfə boylanıb dedi:

– Uşaqlar ordadır.

– Mənim iki sevimlim ordadır.

Ed əllərini Cessin boynundan belinə tərəf sürüşdürdü, Cessin ayaqları gücdən düşürdü elə bil. O heç vaxt Martini Edi istədiyi kimi istəməmişdi.

Sonra Ed qollarını onun belinə doladı, əllərini köynəyinin altından onun bədəninə toxundurdu. Cess Edin qolları arasında uçunurdu.

Telegram: @cinciva

– Bu səhər oyananda çox xoşbəxt idim. Hədsiz xoşbəxt. Həyatımda ciddi problem olsa da xoşbəxt idim. Sənə baxıram, özümü yaxşı hiss edirəm. Hətta hiss edirəm ki, o böyük problemin də içindən keçib keçəcəyik.

Elə bil Cessin boğazına nəsə tıxanmışdı, güclə dedi:

– Hə, mən də.

Ed başını qaldırıb günəşə baxdı:

– Hə, düz de görüm, mən at deyiləm?

– Sən at deyilsən. Ən yaxşı halda deyərdim ki, sən dünyanın ən...

Ed başını əyib Cessin dodaqlarından öpdü, Cess də onu öpdü. Bu öpüş ona bütün dünyanı unutdurdu, bu anlarda bütün dünya alt-üst olsaydı da o heç nəyi hiss etməzdi. Amma dodaqlarını Edin dodaqlarından çəkdi, ona görə yox ki, doydu, ona görə ki, uşaqların onu görməsini istəmirdi. Barmaqlarını Edin dodaqlarına qoydu, eləcə barmağını ona toxundurmaqdan həzz alırdı. Bu vaxt Ed qımışdı:

– Gəlirlər.

Cess içkidən beyni dumanlanmış, sərxoş kimi ona baxdı.

Uşaqlar onlara tərəf qaça-qaça gəlirdilər, Tanzi əlindəkilərin kağızını açırdı:

– Hə, atam demişdi ki, bundan alım.

– Tanzi, özün istəyən heç nə yox idi?

Ed Niki ilə danışırdı, Niki aldıqlarının kağızını qoparırdı.

Telegram: @cinciva

Cesslə Tanzi yavaş-yavaş maşına tərəf getdilər, maşında əyləşəndən sonra başları yeməyə qarışdı. Elə bu vaxt Cess hiss etdi nəsə çatmır:

– Tanzi, riyaziyyat kitabların hanı?

– Onların hamısını Linzigildə qoyub gəldim.

– Nə? İstəyirsən Martiyə zəng edim?

Cess əl çantasından mobil telefonunu çıxarmaq istədi. Üzünü Tanziyə tutdu:

– Ona deyərəm ki, kitabların hamısını poçtla göndərsin. Bəlkə də kitablar bizdən tez çatar.

– Yox, – Tanzi başını azca anası tərəfə əyib, onun gözlərinə baxmadan dedi:

– Yox, heç nə demə. Təşəkkür edirəm.

Niki maşına çatıb dayandı. O əvvəlcə Cessə, sonra Tanziyə baxdı. Elə bildi nəsə pis şey olub.

***

Maşın bir də dayananda demək olar ki, axşam saat doqquz idi. Hamısı çox yorulmuşdu. Yol boyu biskvit, şirin şeylər yeyən Tanzi və Niki acmamışdılar, onlar maşın dayanan kimi qalacaqları yeri "yoxlamağa " getdilər. Ed bağlamaları daşıdı, sonra Tanzi aşağı düşüb iti gəzdirməyə getdi.

Qalacaqları otel çox geniş idi. Otaqdakılar hamısı çox bahalıydı. Xanım Ritter bir dəfə telefonun kamerasıyla çəkdiyi şəkli ona və Nataliyə göstərəndə belə otaq görmüşdü.

Telegram: @cinciva

Ed oteldəki yerləri telefonla zəng edib sifariş vermişdi, Cess yerlərin baha olduğunu bilib etiraz etmək istəyəndə Ed onun qulağına pıçıldamışdı:

– Hamımız çox yorğunuq, Cess. İstəyirəm mənim çarpayım sənin Əlahəzrət bədənin olsun.. Gəl bu gecə burda qalaq, ok?

Üç geniş otaq və koridor onların ixtiyarındaydı.

– İstəyirəm özüm tək yatım, – Niki belə deyib üstünə 23 yazılmış otağın qapısını açıb girdi. Cess qapını itələyib açanda o bir az yavaş səslə dedi:

– Tanzini də, onun etdiyi hər şeyi də xoşlayıram. Amma onun necə xoruldamağından xəbərin yoxdur.

Cess 24 nömrəli otağın qapısını açanda Tanzi dedi:

– Hə, Norman bu otağı çox xoşlayacaq.

Elə bil it də onun sözlərinə razılıq əlaməti kimi çarpayının yanında tullanıb-düşürdü.

– Ana, mən istəmirəm ki, Niki ilə bir otaqda yatam. Həqiqətən də, o çox pis xoruldayır.

Nədənsə nə Niki, nə də Tanzi heç Cessin harada yatacağı ilə maraqlanmadılar. Cess onların nəyisə hiss etdiklərini, amma etiraz etmədiklərini dəqiq bilmirdi.

Yoxsa onlar hələ də Edlə Cessin maşında yatacaqlarını güman edirdilər. Cess bunu bilmirdi.

Niki Edin noutbukunu götürdü. Tanzi öz otağındakı televizorun pultunu necə işlətməyi öyrəndi, bir proqrama baxandan sonra yatacağını dedi. O, bir daha Linzigildə qoyub gəldiyi riyaziyyat kitabları haqda danışmayacağını bildirdi.

Telegram: @cinciva

– Bu barədə danışmaq istəmirəm, – dedi.

Cess nə qədər fikirləşsə də Tanzinin əvvəllər ona belə bir söz deməsini yadına sala bilmədi.

– Tanzi, əzizim, ola bilər ki, arzu etdiyin bir şeyi ilk cəhddə əldə etməyəsən. amma bu o demək deyil ki, sən arzuna çatmaq üçün yenə də cəhd etməyəsən, – Cess Tanzinin pijamalarını çarpayının üstünə qoya-qoya dedi.

Tanzinin üzündə qəribə ifadə vardı, heç vaxt Cess onun üzünü belə görməmişdi. Onun sözləri Cessin ürəyini parçaladı:

– Ana, məncə nəyimiz varsa ona qane olsaq daha yaxşı olar.

***

Mən indi nə edim? – Cess Eddən soruşdu.

– Heç nə. Sən onu günahlandıra bilməzsən, – Ed əlindəki bağlamaları otağın bir küncüə qoyub dedi.

Cess iri taxtın bir qırağında oturub titrəyən ayaqlarını gizlətməyə çalışırdı.

– Ed, Tanzi heç özünə oxşamır. Axı o riyaziyyatı çox sevir. Həmişə sevib. İndi isə özünü elə aparır ki, elə bil bir daha riyaziyyata yaxın durmayacaq.

– Cess, olimpiadadan cəmi ikicə gün keçib. Təsəvür et ki, onun həyatında böyük çevriliş olub. Heç nə demə. O hər şeyi özü yoluna qoyacaq.

– Sən elə arxayın danışırsan ki.

Telegram: @cinciva

– Onlar ağıllı uşaqlardır. – Ed işıqları söndürdü. Hər tərəf qaranlıq olandan sonra yenə də gözlərini işıqlara dikmişdi.

– Hə, onlar da anaları kimi ağıllıdır, amma sən hərdən rezin top kimi arxaya sıçrayırsan, onlar da belə etməli deyil ki?

Cess Edə baxdı.

– Yox, bu tənqid deyil. Demək istəyirəm ki, bu həftə Tanzi üçün çox gərgin keçib.

Məncə sən bir müddət ona təzyiq göstərməsən hər şey yoluna düşəcək. O elə əvvəlki Tanzidir. Onda elə bir dəyişiklik hiss etmirəm.

Ed köynəyini çıxardı, stulun üstünə tulladı. Cessin fikirləri bir-birinə qarışmışdı. İndi isə bütün fikri Edin bədənində idi.

– Sən necə belə müdrik olmusan? – Cess gözlərini ona dikib soruşdu.

– Müdrik? İnanmıram ki, indi məndə bir qırıq ağıl olsun, – belə deyib o Cessə tərəf iki addım atdı, sonra aşağı əyilib onun şap-şaplarını ayağından çıxardı, yaralı ayaqdan ehtiyatla çıxarmağa çalışırdı.

– İncidir?

– Çox yox. Yaxşıdır.

Heç bir söz demədən Cessin köynəyinin zəncirbəndini aşağı çəkdi. Əlləri onun bədəninə dəyəndə Cessi titrətmə tutdu.

Ed Cessi öpür, öpə-öpə ona nəsə pıçıldayırdı:

– Bu bizim yolda keçirdiyimiz son gecədir.

Telegram: @cinciva

Sonra Ed onun şalvarının kəmərini açdı, şalvarını dartıb çıxardı:

– Hə, Cessica Rae Tomas, indi sənin qulluğunda durmaq vaxtıdır.

***

Geniş hamamda Edvard Nikolls Cessin arxasında dayanıb onun saçlarını yuyurdu. Yuyub yaxaladı, hərdən balaca dəsmalla onun gözlərini silirdi ki, gözünə şampun düşməsin. Cess istəyirdi ki, saçını özü yusun, amma Ed onun əllərini kənara itələdi. Bu vaxtacan heç kim onun saçını yumamışdı – saç ustasından başqa.

Özünü elə rahat hiss edirdi ki... İşini qurtarandan sonra Ed vannada uzandı, qollarını onun belinə dolayıb az qala köpüklü suyu qoxulayır, onun qulaqlarının ucunu öpürdü. Elə bil onların bədənlərinin bəzi hissələri deyirdi ki, hə, etdiklərinizə üçün sağ olun, indi başqa məqamdır. Cess Edi üstündə hiss edir, bir az aşağıya doğru dartınırdı... Onlar su vannadan bir neçə dəfə daşıb ətrafa tökülənədək qovuşdular... Cess bilmirdi ki, duyduğu ağrıya səbəb nədir, ayağının əzilən yerləri, yoxsa Edi içində hiss etməsi.

Bir müddət beləcə, bir-birinə sarılmış vəziyyətdə qaldılar, sonra ikisi də gülməyə başladı. Duş altında birləşmək adi haldır, amma vannanın içində sevişməyi onlar özləri kəşf etmişdilər, düzdür, bu çox əziyyətli olsa da həm də həzzvericiydi, xoşbəxtlik idi. Cess dönüb

Telegram: @cinciva

Edin üstünə uzandı, qollarını onun boynuna dolayıb, yaş sinəsini onun sinəsinə daha möhkəm sıxdı. Bir anlıq fikirləşdi ki, bu vaxtacan heç bir insana bu qədər sıx yapışmayıb. "Ed, səni sevirəm" – onun qulağına pıçıldadı, onun bütün bədənini öpüşə qərq elədi. Onun üzünü əlləri arasına alıb çənəsindən öpdü, üzünün zədələnmiş yerini, dodaqlarını öpdü. Edin qolları Cessi özünə sıxanda Cess özünə söz verdi ki, bu anlarda hiss etdiyini həmişə xatırlayacaq.

Ed ona pıçıldadı:

– Bütün səyahətimiz real həyatın bir parçası idi.

Cess suyun vannadan daşıb töküldüyünü gördü, qalxmaq istəyəndə Ed dedi:

– Suya fikir vermə. Bədənimlə "danış!"

Cess dodaqlarını yenidən onun sinəsinə sıxıb pıçıldadı:

– Bu beş gündə biz xəstəliklə əlləşmişik. Uşaqlarla... Martiylə... Az qala ayağım sınmışdı. Hələ səyahətin əvvəlində polis.. Hə, bunlar real həyat mənzərəsidir.

– Sənin dediyin hər sözü xoşlayıram.

– Mənsə səndə olan hər şeyi xoşlayıram, – Cess dedi.

– Biz bu səyahət ərzində bir-birimizə lazımsız şeylər də dedik.

– Yox, mən o sözləri də xoşlayıram.

Su getdikcə soyuyurdu... Cess sıyrılıb Edin qolları arasından çıxdı, əlini dəsmal asılmış asılqana uzatdı. İsti dəsmalın birini Edə verdi, birinə isə özü büründü.

Telegram: @cinciva

– Ah, yumşaq otel dəsmalları. – Dəsmalla bədənini qurulayan Ed dedi.

Bir anlıq Cess maraqlandı ki, görəsən Ed otel dəsmallarına çoxmu öyrəşib.

O özünü yorğun hiss edirdi. Dişlərini də fırçaladı, hamamın işığını söndürdü. Cess otağa qayıdanda Ed artıq iri taxtın üstündəydi, Cessi görüb yataq örtüyünü qaldırdı ki, Cess örtüyün altına girsin. Ed çarpayının yanındakı işığı söndürdü, Cess bir müddət beləcə Edin yanında uzandı. Edin dodaqlarını yenə bədənində hiss edirdi. Bir anlıq fikirləşdi ki, hər gecə belə olsa onda nə baş verərdi?

– Cess, heç bilmirəm, qayıdandan sonra başıma nə gələcək?

Elə bil Ed onun nə fikirləşdiyini hiss etmişdi. Onun səsində kədər vardı.

– Hər şey yaxşı olacaq.

– Mən ciddi deyirəm. Cess. Sən özünün optimistik fəndlərini belə cinayətə tətbiq edə bilməzsən. Nə olursa olsun, mən hər şeyi itirəcəyəm.

– Mən belə fikirləşmirəm.

– Hər şey mümkündür.

– Yox, sən düşünən kimi olmayacaq, Ed.

Edin səsindən narahatlığı duyulurdu.

– Nə olursa olsun, səni gözləyəcəm, – Cess nə deyəcəyini fikirləşməzdən əvvəl sözlər ağzından çıxdı.

Cess Edin dodaqlarını dodaqlarında hiss etdi:

– Əgər sən məni gözləyəcəksənsə... xoşbəxtəm.

Telegram: @cinciva

***

Evə çatana qədər Edə üç zəng gəldi, bütün danışıqları eşitmək olurdu, çünki hands-free-yə qoşulmuşdu.

Biri deyəsən onun vəkili idi. Qəribə aksenti vardı. Adətən Kral Ailəsinin nahara gəlməsini elan edənlərin səsi belə olur. Vəkil ona gələn çərşənbə axşamı günü polis idarəsində olacağını xəbər verirdi, o heç bir dəyişikliyin olmadığını dedi. Ed hər şeyi ailəsinə xəbər verməsindən danışdı. Ed belə deyəndə elə bil Cessin ürəyində nəsə qırılırdı. O Edin bu halına dözə bilmıədi, əlini uzadıb onun əlindən tutdu. Ed onun əlini möhkəm sıxanda Cessə tərəf baxmadı.

Sonra Edin bacısı zəng edib dedi ki, atası ötən gecə özünü yaxşı hiss edib. Onlar sığorta haqda da söhbət etdilər, nahar üçün Gemmanın nə hazırladığından danışdılar. Daha heç kim ölmək haqda danışmırdı.

Gemma Edə dedi ki, Cessə salam desin, bu vaxt Cess də bərkdən "hello" dedi. Bundan razı qaldığı hiss olunurdu.

Nahardan sonra Edə Levis adlı bir kişi zəng elədi. Onlar bazar qiymətləri haqda, faizlər və girov barədə danışdılar. Cess hiss etdi ki, Ed Biçfrontadakı evini girov qoymaq haqda danışır.

Danışıb quraranda "onu satmaq vaxtıdır", – dedi.

Cess nə baş verdiyi ilə maraqlananda Ed ona tərəf döndü:

Telegram: @cinciva

– Hələ nə olacağını bilmirik. Heç kim dəqiq bilmir.

Cess dəqiq bilmirdi ki, Ed göründüyündən də çox dilxordur, ya yox.

Sonra Ed kiməsə zəng etmək istədi, zəngə heç kim cavab vermədi. Amma mesaj gəldi-Ronandır. Mesajınızı qoyun.

Maşın irəli getdikcə real həyat onlarla üzbəüz idi sanki.

Cess bir fakt haqqında fikirləşirdi ki, Edin həyatının çox anları haqqında xəbərdar deyil.

***

"Audi" Cessgilin evinin qabağında dayananda saat dörd olmuşdu. Çiskin yağış yağırdı. Maşın evin yanında dayananda Cessin gözləri bir anlıq yuxarı otağın pəncərələrinə, Martinin heç vaxt imkan tapıb rəngləmədiyi solğun rəngə sataşdı. Cess həmişə ona nəsə iş tapşıranda o ya özünü məşğul göstərirdi, ya da deyərdi ki, yorğundur. Rəngi getmiş pəncərəni görəndə Cess bir anlıq özünü çox pis hiss etdi, bu balaca evdə həsrətlə onun yolunu gözləyən problemləri yadına düşdü.

Cess Edə baxdı. O, Tanziyə çantalarını götürməyə kömək edirdi, Nikinin dediyi hansısa sözə gülürdü.

Yolda gələrkən Ed maşını texniki mallar da satılan iri bir supermarketin yanında saxlamışdı. İri bir karton qutuda nəsə alıb onların bağlamalarının yanına qoymuşdu. Cess fikirləşirdi ki, bəlkə o evini satmazdan əvvəl

Telegram: @cinciva

nəyisə təmir etmək istəyir, ya da evin daha yaxşı görünməsi üçün nəsə alıb.

Ed maşında olan bütün bağlamaları daşıyıb evin qapısının ağzına yığdı. Bayaq yolda aldığı iri karton qutu da əlindəydi. Evə çatan kimi Niki ilə Tanzi cəld öz otaqlarına qaçdılar. Cess koridor boyunca yığdığı kitablara, divardakı ucuz divar kağızlarına baxıb bir az pərt olmuşdu.

– Sabah qayıdıb atamgilə gedəcəm, – Ed dedi.

Bir anlıq Cessin ürəyi sancdı.

– Çox yaxşı... Çox yaxşı, – Cess özü də nə dediyini bilmirdi.

– Yalnız bir neçə günlüyə. Gələn həftəyədək. Amma getməzdən əvvəl bunları yerləşdirmək istəyirəm.

Cess onun əlindəkilərə baxdı.

– Bu təhlükəsizlik kamerası və hərəkət detoktorudur. Bir iki saata quraşdıraram.

– Sən bunu bizimçün almısan?

– Nikini döyürlər, Tanzi də Fişerlərdən qorxur. Fikirləşdim ki, bunlar olsa özlərini təhlükəsiz hiss edərlər. Hə, mən burda olmadığım vaxtlarda...

Cess qutudakılara baxdı. Birdən yadına düşdü ki, qarşısında duran bu kişi onları qorumağa söz verən adamdır.

O heç nə deyəcəyini bilmədən danışmağa başladı:

– Bunu mən özüm də bacarıram. Sən əziyyət çəkmə.

– Nə? Əzilmiş ayaqla nərdivana çıxacaqsan? – Ed təəccüblə ona baxıb soruşdu.

Telegram: @cinciva

– Cessika Rae Tomas, sən imkan verəcəksən ki, kimsə sənə kömək etsin?

– Bu şərtlə razı olaram ki, daha məni Cessika Rae Tomas çağırmayasan.

– Özümlə bacara bilmirəm. Belə deməyi xoşlayıram.

Əslində Cess də Edin onu belə çağırmasını xoşlayırdı.

– İndi nə edim? – Cess soruşdu.

– Heç nə. Sakitcə otur və zədələnmiş ayağını uzat. İşimi qurtarıb Nikiylə bir yerdə restorana gedib hazır yemək alarıq. Bolluca pulu göyə sovurum səyahətin sonuncu günü. Sonra gəlib bir stol arxasında oturub yeyərik. Doyunca yeyəndən sonra divanda uzanıb hansımızın qarnının ölçüsünün böyüdüyünə tamaşa edərik.

– Ed, sənin belə sözlərini xoşlayıram.

Cess içəridə oturdu. Heç nə etmədən. Öz divanında. Tanzi içəri girib bir neçə dəqiqə onun yanında oturdu, Ed gedib nərdivanı gətirdi, divara söykədi, pəncərədən əlindəki dreli zarafatla Cessə tuşladı. Hərdən də ayağını nərdivana elə qoyurdu ki, guya bu dəqiqə yıxılacaq. İçəri baxıb Cessin həyəcanlandığını görüb gülümsünürdü.

– Mən səkkiz günün içində iki müxtəlif xəstəxanada olmuşam. Bu kifayətdir, üçüncü dəfə xəstəxanaya getmək istəmirəm, – Cess içəridən ona qışqırırdı bu anlarda.

Cess heç vaxt işsiz dayanmağa öyrəşməmişdi, ayağa durub çirkli paltarları maşına yığdı. Sonra yenə oturub ayağını uzatdı ki, durub o bir işlərlə məşğul olar.

Telegram: @cinciva

Ed divarı drellə deşirdi, bu Cessə xoş gəlirdi. Evdə ondan başqa da kiminsə işlədiyini hiss etmək xoş duyğu idi.

Ed hərdən nəyisə yerinə quraşdırandan sonra Cessi çağırırdı ki, gəlib baxsın, sonra işinə davam edirdi.

Cess yadına sala bilmədi ki, bu evdə sökülüb dağılan yerləri ondan başqa kimsə təmir etsin.

O axsaya-axsaya çölə çıxıb ona baxırdı.

Ed yerə düşüb, bağın içindəki cığırda durub evin qabağına baxırdı:

– Hə, mən kameranı elə yerə bərkitmişəm ki, təkcə bağa girənlər yox, həm də bağın ətrafından keçənlər də görünsün. Onun qabarıq linzaları var.

Cess fikirləşirdi ki, uşaqlar yatsaydı Ed bir az da onlarda qalardı.

– Bax, əsl qorxutma vasitəsi budur. İndi kim evə yanaşsa biləcəksiniz.

Ed fikirləşdi sözsüz ki, uşaqlar onların münasibətlərini hiss ediblər.

– Cess!

Ed onun qarşısında dayanmışdı.

– Nədir?

– Çox iş qalmayıb. Bircə oranı da drellə deşib bu məftilləri ora bərkitməliyəm. Xoşbəxtlikdən mənim elektrik işlərindən başım çıxır, hər şeyi indi hazır edəcəm. Nəyisə bir-birinə birləşdirməkdə mahirəm.

Özündən məmnun halda Cessə baxdı. Sonra ciblərini axtarıb vintləri tapdı.

Telegram: @cinciva

– Cess, son sözlərimə qulaq asırdın?

– Hə, – Cess günahkar kimi dedi.

Ətrafına baxıb uşaqları görməyəndə Ed qollarını Cessin boynuna doladı, özünə tərəf çəkib onu öpdü. Çənəsindəki xırda tüklər Cessi daladı.

– İndi isə icazə ver gedim. Fikrimi çaşdırma. İçəri girib restorandan alacağım yeməklərin menyusunu tərtib et.

Cess gülümsədi, axsaya-axsaya mətbəxə getdi. Özündən asılı olmadan bir-bir siyirmələri çəkib baxdı. Yadına sala bilmədi ki, son dəfə nə vaxt restorandan hazır yemək alıblar. Ed yuxarı qalxdı ki, məftilləri birləşdirsin. Ordan qışqırıb dedi ki, hansısa mebelin yerini dəyişmək lazımdır.

– Bu da mənə cərimə, – Cess aşağıdan yuxarı qışqırdı.

Cess yuxarı otaqda onun nəyisə dartdığını eşidirdi. Ona möcüzə kimi gəlirdi hər şey... Bu işləri özündən başqa görən adamın olması onunçün möcüzəydi.

Sonra o gəlib divana uzandı. Ayağına buz qoydu. Sonra çay dəsmallarını yığdığı siyirmədəki köhnə menyulara gözünü dikdi.

Nəyi yazacağını bilmirdi. Dəqiq bilirdi ki, indi restoranlarda çin yeməkləri hazırlamırlar. Pizzalara etibar etmək olmazdı. Curry-house yeməkləri normaldır, Natali alanda içindən tapdığı tükü xatırladı. Toyuq baltisi. Plov. Popadumlar. Cess Edin son sözlərini, yanaşı uzanıb bir-birinin qarnına baxmaları haqda dedikləri sözləri xatırladı. İndi o nə etdiyini unutmuşdu. Edin çılpaq qarnı gözü önünə gəlirdi.

Telegram: @cinciva

Cess o qədər fikirliydi ki, Edin gəlib içəri girməsini hiss etməmişdi.

– Cess?

– Ed, məncə bu menyudakılar yaxşıdır, – belə deyib yazdıqlarını ona uzatdı. Onlara uyğun içkilər və...

Bax elə bu vaxt Cess onun üzünün ifadəsini gördü.

Ed əlində tutduğuna inana bilmirmiş kimi soruşdu:

– Cess! – onun səsi eləydi ki, elə bil başqa adama məxsus idi.

– Mənim Security kartım niyə sənin corab yığılan siyirməndədir?

Telegram: @cinciva

28

NİKİ

Demək olar ki, Cess iki gün yataqda qaldı.

Niki aşağıya düşəndə o hələ də divanda oturub gözlərini bir nöqtəyə zilləmişdi – komada olan adamlar kimi. Drel hələ də pəncərənin qabağındaydı, nərdivan isə evin qabağında divara söykənili idi.

– Nikolls restorana yemək almağa gedib? – Niki soruşdu, heyfsiləndi ki, ondan soğanlı bhajis almağı xahiş etməyib.

Elə bil Cess Nikinin sözlərini eşitmədi.

– Cess!

Sanki onun sifəti donmuşdu. Nikinin sualına başını yüngülcə yellədi, yavaşca "yox" dedi.

– O indi geri qayıdacaq, eləmi? – bir dəqiqədən sonra Niki yenidən soruşdu. Sonra gedib soyuducunun qapısını açdı, orda nə axtardığını heç özü də bilmirdi. Soyuducuda bir neçə büzüşmüş limon və yarım banka Branston şorbası vardı.

Araya sükut çökdü.

Telegram: @cinciva

– Bilmirəm, – Cess Nikinin sualına çox gec cavab verdi.

Sonra bir daha "bilmirəm" dedi, adama elə gəlirdi ki, bir an əvvəl cavab verdiyini unutmuşdu.

– Hm... Deməli, o bizə yemək alıb gətirməyəcək?

– Yox.

Niki ümidsizcəsinə inildədi.

– Hər halda o geri qayıdacaq. Onun noutbuku məndədir, yuxarıda.

Nikiyə aydın oldu ki, Cesslə Nikolls arasında nəsə mübahisə olub, amma o Martiylə dalaşdıqları vaxtda olduğu kimi hərəkət etmirdi. Martiylə dalaşanda o qapını şappıltıyla örtər, dodaqaltı "heyvan" deyərdi. Ya da üzündə qəribə ifadə olardı , sanki "Mən niyə sənin kimi axmaqla yaşayıram?" demək istəyirdi. Uşaqlara görə Marti onun üstünə qışqıranda isə Cess heç nə deməzdi. İndi isə Cessin halı eləydi ki, elə bil ona cəmi altı ay ömrü qaldığını elan ediblər.

– Sən yaxşısan?

Cess Nikinin sualını eşidib bir an gözlərini döydü, sonra əlini alnına apardı, elə bil qızdırmasının olub-olmadığını bilmək istəyirdi.

– Hm. Niki... Mən yatmalıyam. Özün nəsə tapıb yeyə bilərsən? Orda, soyuducuda nəsə olmalıdır.

Onlarla bir yerdə yaşadıqları neçə illər ərzində Cess heç vaxt ona deməmişdi ki, özünə nəsə hazırlasın. Hətta iki həftə qrip olanda da... Niki ona nəsə demək istəyəndə Cess üzünü çevirib axsaya-axsaya yuxarı çıxdı.

Telegram: @cinciva

***

Cess yuxarıdan aşağı düşməyəndə Niki artıq dəqiq bildi ki, o, Nikollsla mübahisə edib, nəticəsi də belə. Niki ilə Tanzi onun yataq otağının qapısı ağzında vargəl edir, pıçıltıyla müzakirə edirdilər. Sonra çay və qızardılmış çörək götürüb içəri girdilər, o hələ də gözlərini divara zilləyib durmuşdu, çöldə soyuq olsa da pəncərə hələ açıq idi. Tanziyə elə gəldi ki, anası otağın soyuq olmasını heç hiss etmir. Niki pəncərəni bağladı, nərdivanı və dreli aparıb qaraja qoydu. "Rolls-Royce"-dan sonra qaraj hədsiz böyük görünürdü. Bir neçə saatdan sonra o təzədən Cessin otağına girib boşqabı və stəkanı götürmək istəyəndə çaya və çörəyə əl dəymədiyini gördü. Çarpayının yanındakı balaca stolun üstündə çay soyumuş, çörək də quruyub qalmışdı.

– Yəqin ki, bu ağır səyahət onu çox yorub, – Tanzi qoca arvadlar kimi dedi.

Cess o biri gün də yataqda qaldı.

Niki onun otağına girəndə yataq örtüyü səliqəsiz çarpayının üstünə çəkilmiş, yataq paltarı da hələ əynindəydi.

– Xəstələnmisən? – Həkim çağırım? – Niki pərdəni yana çəkib soruşdu.

– Yox, Niki. Bir gün də yatmaq istəyirəm, – sakitcə dedi.

Telegram: @cinciva

– Nathalie gəlmişdi, ona dedim ki, sən özün ona zəng edəcəksən. Nəsə ev təmizləməklə bağlı söz demək istəyirdi.

– Ona de ki, xəstəyəm

– Axı xəstə deyilsən. Hə, polisdən də zəng edib maşını nə vaxt götürəcəyini soruşdular. Tsvangarai müəllim də zəng etmişdi, amma ona nə deyəcəyimi bilmədim, dedim ki, mesaj yazsın sənə.

– Niki, nə olar, az danış! – Cessin sifəti elə qəmliydi ki, Niki daha heç nə demədi. Cess bir az çarpayının qırağında oturdu, sonra uzanıb adyalı çənəsinə qədər çəkib üzünü döndərdi.

Niki Tanziyə səhər yeməyi hazırladı. İndi səhərlər o durub bir işlə məşğul olurdu. Daha o narkotik üçün darıxmırdı. Normanı bağa apardı, evdə o yatan yeri təmizlədi. Nikolls pəncərənin qabağına təhlükəsizlik işığını qoymuşdu. O hələ də qutunun içindəydi, yağan yağış onu islatmışdı, heç kim bunu görməmişdi. Niki onu qaldırdı, götürüb evə gətirdi, başladı ona baxmağa.

Niki Nikollsa zəng etmək istədi. Amma nədənsə Nikollsa zəng edib onlara gəlməyini düz hesab etmədi. Əgər kimsə səninlə bir yerdə olmaq istəyirsə o özü gələcək. Niki bunu çox yaxşı bilirdi. Görünür, Cesslə Nikolls arasında nə baş vermişdisə çox ciddiydi, Nikinin buna qarışması düz olmazdı.

Gör necə ciddiydisə hətta o geri qayıdıb noutbukunu də aparmadı.

Telegram: @cinciva

Niki otağına girdi, noutbuku açıb bir az oyun oynadı. Amma oyun oynamaq onu bezdirdi, pəncərədən küçəyə baxdı. Asudə vaxt mərkəzinin uzaqdan görünən narıncı binasına baxanda anladı ki, daha dava oyunlarını oynamaq istəmir. O heç otağına yapışıb qalmaq da istəmirdi. Niki açıq yolda olduqları vaxtı, Nikollsun onları uzaq məsafəyə aparmasını, növbəti dəfə harda dayanacaqlarını bilmədikləri anları yadına saldı, dərk etdi ki, o öz otağından – "bu balaca şəhərdən" kənara çıxmalıdır.

Anladı ki, Nikolls dediyi kimi, "öz adamını", yəni "öz tayfasını" tapmalıdır.

***

Cessin iki gün yataqda qaldığını görüb Niki az qala dəli olurdu. Bircə həftədən sonra tətil qurtarır, dərslər başlanırdı, bilmirdi ki, dərs başlansa Cessə, Tanziyə, eləcə də, Normana necə qulluq edəcək, başqa işlərini necə çatdıracaqdı. Niki tozsoranla evi təmizlədi, yaddan çıxıb maşında qalmış, az qala kiflənmiş paltarları təzədən yudu, onları ipə sərəndə Tanzi də ona kömək etdi. Bir yerdə mağazaya getdilər, çörək və başqa ərzaqlar, it yemi aldılar. Niki Tanziyə bildirmək istəməsə də özünü çox rahat hiss edirdi, daha küçəyə çıxanda ona "ana uşağı", "narkoman" demirdilər. Fikirləşirdi ki, bəlkə də Cess hər şeyin yaxşılığa doğru dəyişdiyini deyəndə haqlıymış, bəlkə onun həyatının yeni bir mərhələsi başlayır.

Telegram: @cinciva

Mağazadan qayıdandan az sonra, Niki poçtu nəzərdən keçirəndə Tanzi mətbəxə girdi:

– Niki, biz təzədən mağazaya qayıda bilərik?

Niki başını qaldırmadı, fikirliydi. Bilmirdi ki, Xanım C. Tomasa ünvanlanmış məktubu açsın ya yox.

– Biz mağazadan indicə qayıtmışıq.

– Sən getmirsənsə özüm tək gedərəm.

Tanzinin bu sözlərini eşidəndən sonra Niki başını qaldırıb Tanziyə baxdı. O, saçını bir az qəribə formada yığmışdı. Saçının çox hissəsini bir tərəfə daramışdı, heç özünə oxşamırdı.

– Mən anaya açıqca almaq istəyirəm. İstəyirəm onu bir az sevindirim.

Niki çox gözəl bilirdi ki, Cessi açıqcayla sevindirmək olmaz.

– Titç, niyə özün düzəltmirsən açıqcanı? Pula qənaət elə.

– Həmişə ona açıqcanı özüm düzəltmişəm. Amma hərdən mağazadan alınan açıqcalar daha yaxşı olur.

Niki Tanziyə baxdı.

– Tanzi, makiyaj etmisən?

– Hə, yalnız bir balaca pomada.

– Cess heç vaxt icazə verməzdi ki, sən pomada çəkəsən. Sil onu!

– Syuzi də pomada çəkirdi.

– Cess, inanmıram ki, Syuzinin pomada çəkməsi Cessi çox sevindirsin. Tez ol, sil onu, mağazadan qayıdan kimi sənə yaxşı "makiyaj" dərsi verəcəm.

Telegram: @cinciva

Tanzi jaketini asılqandan götürüb evdən çıxdı. Yalnız doqquz yaşı olandan sonra anası ona mağazaya getməyə icazə vermişdi.

– Mən onu yolda siləcəm, – qapıdan çıxanda Tanzi qışqırdı.

– Tanzi, Normanı da özünlə apar, – Niki arxadan onun hayladı. Amma deyəsən Tanzi onun səsini eşitmədi.

Sonra Niki kofe hazırlayıb yuxarıya, Cessə apardı. Onun niyə belə etdiyini artıq öyrənmək vaxtıydı. Özözünə bu sözləri dedikcə özünü inamlı, böyük hesab edirdi. Hə, onun niyə belə etdiyinin səbəbini öyrənməlidir.

Cessin otağı qaranlıq idi. Günorta saat üçə on beş dəqiqə işləmişdi, amma hələ pəncərənin pərdələrini də kənara çəkməmişdi.

– Onu bir tərəfə çək, – Cess Nikini görüb mızıldandı. Otaqdan günlərlə çimməyən adamın bədənindən gələn iy gəlirdi.

– Cess, yağış dayanıb.

– Çox yaxşı.

– Cess, sən artıq durmalısan.

O heç nə demədi.

– Həqiqətən də, sən mütləq durmalısan. Bura iylənib az qala.

– Çox yorğunam, Niki, mən sadəcə bir az istirahət etmək istəyirəm.

– Cess, sənin istirahətə ehtiyacın yoxdur. Sən bu evin sahibəsisən, Cess! Sən bu evin Duaracell Bunny-sisən.

Telegram: @cinciva

– Niki, əzizim...

– Cess, sənin bu hərəkətini anlaya bilmirəm. Nə baş verib axı?

Cess üzünü döndərdi, həqiqətən də, çox yavaş-yavaş, sonra yenə balınca söykəndi.

Aşağıdan itin səsi gəlirdi, o dayanmadan nəyəsə hürürdü. Cess gözlərini ovuşdurdu.

– Tanzi haradadır?

– Mağazaya gedib.

– O yemək yeyib?

– Hə, çox vaxt da vermişel... Mən o uzun çubuqları həqiqətən də bişirə bilmirəm, Tanzi də bezib belə yeməkdən.

Cess Nikiyə baxdı, sonra üzünü pəncərəyə çevirdi, elə bil nəyisə ölçürdü. Sonra o Nikiyə dedi:

– Nikolls geri qayıtmadı...

Bu vaxt onun üzü qırış-qırış idi.

İndi isə itin səsi çöldən gəlirdi. "Axmaq it" – Niki düşündü.

Onun fikri-zikri Cessin dediyi sonuncu cümlədəydi.

– Doğrudan? Heç vaxt gəlməyəcək?

Bu vaxt iri damla Cessin yanağından üzüaşağı yuvarlandı. O əlinin arxasıyla göz yaşını sildi və başının işarəsiylə "yox" dedi.

– Niki, heç bilirsən hansı axmaq şeyə görə? Mən faktiki olaraq unutdum. Belə hərəkət etdiyimi unutdum. Biz yolda olanda elə xoşbəxt idim, elə bəxtəvər idim. Elə bil o hərəkəti neçə illər öncə mən yox, başqası

Telegram: @cinciva

etmişdi, ona görə də yadımdan çıxdı. Ax, bu it də baş-beynimi apardı...

Niki onun dediklərini tam anlamırdı. Bir an fikirləşdi ki, bəlkə o həqiqətən də xəstədir.

– Sən ona zəng edə bilərdin.

– Etdim. Amma cavab vermədi.

– İstəyirsənsə onlar tərəfə gedim...

Niki belə desə də deməyinə peşman oldu. Çünki o, Nikollsu çox xoşlasa da, yaxşı bilirdi ki, heç kimi zorla kiminsə yanında saxlamaq olmaz. Səni istəməyən bir adama zorla yapışıb qalmaq mənasız bir hərəkətdir.

Cess ürəyindəkini Nikiyə dedi, çünki onun bu haqda deyəcəyi başqa adam yox idi.

– Niki, mən onu sevdim. Bilirəm, bu qısa vaxtdan sonra belə demək axmaqlıqdır, amma mən onu sevdim.

Cessdən bu sözləri eşitmək şok idi. O ürəyindəkini açıb-tökdü. Niki fikirləşdi ki, bircə dəfə mübahisə etməklə qaçıb getmək də düz deyil.

Niki demək olar ki, kimisə qucaqlamaq, bağrına basmaq bilmirdi. Bununla belə, o, Cessin çarpayısının qırağında oturub onu qucaqladı. Cess balacaydı, halbuki Niki həmişə onu elə özü boyda hesab edirdi. O, başını Nikinin çiyninə qoyub çox qəmgin oldu, hiss edirdi ki, Niki nəsə demək istəyir, amma deyə bilmir.

Bax, elə həmin dəqiqələrdə itin səsi aləmi başına götürmüşdü. Lap Şotlandiyada inək görəndə hürdüyü kimi. Niki ayağa durdu, itin hürməyini eşidib dedi:

– O elə hürür elə bil dəli olub.

Telegram: @cinciva

– Boş yerə hürür yenə. Yəqin yenə 56-cı həyətdəki balaca itdir onu hürdürən.

Gözlərini əliylə silib dedi:

– Lap and içərəm ki, o bilə-bilə iti hürdürür.

Niki pəncərəyə yaxınlaşdı. Norman bağdaydı, isterikcəsinə hürürdü. O başını taxta çəpərdəki deşikdən (həmin yerin taxtası çürümüşdü, iki taxta qopmuşdu) çölə çıxarıb dayanmadan hürürdü. Norman heç özünə oxşamırdı, o dal ayaqları üstündə durub, tüklərini qabartmışdı.

O, pərdəni bir az da çəkib yola baxdı. Tanzini də yolda elə bu vaxt gördü. Fişerlərdən ikisi və Nikinin tanımadığı başqa bir oğlan Tanzini divara qısnamışdılar. Niki gördü ki, oğlanlardan biri Tanzinin jaketini qamarlayanda Tanzi oğlanın əlini geri itələdi.

– Ey! Ey! – Niki pəncərədən qışqırırdı, amma onun səsini heç kim eşitmədi.

Onun ürəyi guppultuyla döyünürdü.

Niki yumruğunu pəncərənin dəmir çərçivəsinə vurub "Alçaqlar! Murdarlar!" deyib qışqırırdı.

– Nə olub? – Cess yerindən dik atıldı.

– Fişerlər.

Hər ikisi Tanzinin qışqırığını aydınca eşitdi. Cess çarpayıdan düşüb aşağıya qaçanda Norman artıq bir an hürməyini dayandırdı, taxta çəpərin uçmuş yerindən çölə qaçdı. Nağıllardakı itlər kimi qaçırdı, ayağının altından havaya taxta parçaları "uçurdu". Norman düz Tanzinin səsi gələn tərəfə qaçırdı.

Telegram: @cinciva

Niki pəncərədən gördü ki, Fişerlər arxaya qanrılıb nəhəng qara itin raket kimi onlara tərəf qaçdığını gördülər, qorxudan ağızları ayrıq qaldı. Sonra Niki əyləc səsini, guppultu, Cessin "ah, Tanrım, oh, Tanrım" dediyini eşitdi.

Sonra isə hər şey sükuta qərq oldu – sanki lap əbədilik...

Telegram: @cinciva

29

TANZİ

Tanzi öz otağında təxminən bir saat oturub anası üçün açıqca çəkmək istədi. Amma nə şəkli çəkəcəyini bilmirdi. Anasına baxanda hiss olunurdu ki, o xəstədir, amma Niki dedi ki, yox, o, Nikolls yolda xəstələndiyi kimi xəstə deyil... Bu o deməkdir ki, ona "Tezliklə Sağal" tipli açıqca lazım deyil. Tanzi "Xoşbəxt Ol" yazmaq istədi. Bu sözlər əmr kimi səslənirdi. Bəlkə də ittiham kimi. Sonra o

"Mən səni sevirəm" yazmağı qərara aldı, bu sözləri qırmızı qələmlə yazmaq istədi, gördü ki, qırmızı qələminin ucluqları sınıb. Yalnız bundan sonra o açıqca almağı fikirləşdi, çünki anası həmişə Martiyə deyirdi ki, Valenetin günündə neçə il qabaq bir-birini sevdiyi vaxtlarda aldığı açıqcadan başqa hələ ona açıqca almayıb. "Sevdiyi vaxtlar" – sözü Tanziyə gülməli görünürdü.

Tanzi sadəcə onu sevindirmək istəyirdi. Anası indi aşağıda olmalıydı, yuxarıda çarpayıda yox, o ora-bura vurnuxub bir işlə məşğul olmalıydı, ta yuxarıda

Telegram: @cinciva

qaranlıq otağa yapışıb qalmalı deyildi. Tanzi elə bilirdi ki, elə bil anası yuxarıda deyil, ondan milyon mil uzaqdadır. Bu fikir Tanzini bərk qorxudurdu. Nikolls çıxıb gedəndən sonra evlərində dəhşətli sükut hökm sürürdü, elə bil nəsə xoşagəlməz hadisə baş vermişdi.

Bu səhər yuxudan duran kimi Tanzi anasının otağına gedib onun çarpayısına çıxdı ki, anası onu qucaqlasın. Anası qollarını onun boynuna doladı, başının ortasından öpdü. Anasının saçı yağlanmışdı, üzündə heç bir makiyaj yox idi, amma bununla belə Tanzi özünü onun yanında rahat hiss edirdi.

– Ana, sən xəstəsən?

– Çox yorğunam, Tanzi.

Anasının səsi elə bil dünyanın ən qəmgin, ən yorğun səsi idi.

– Söz verirəm, tezliklə duracam, – Tanzinin saçını sığallaya-sığallaya dedi.

– Ana, xəstələnməyinə səbəb mən deyiləm ki?

– Nə?

– Deyirəm bir daha riyaziyyatla məşğul olmaq istəmədiyimə görə xəstələnmisən? Buna görə belə qəmginsən?

Bu vaxt anasının gözləri yaşla doldu, Tanzi başa düşdü ki, sual verməklə əksinə, anasının vəziyyətini daha da pisləşdirib.

Anası onu sinəsinə sıxdı:

– Yox, əzizim, qəmgin olmağımın sənin riyaziyyatına heç bir dəxli yoxdur. Heç ağlına da gəlməyən bir şeydir.

Anası yenə də yataqdan qalxmadı.

Telegram: @cinciva

Tanzi cibində Nikinin ona verdiyi iki funt əlli pens mağazaya tərəf gedirdi. Niki pulu versə də açıqca almağın axmaq fikir olduğunu söyləmişdi. Tanzi bir az ucuz açıqca alıb qalan pulla şokolad da almağı planlaşdırmışdı. Elə bu vaxt yolun qırağında bir maşın saxladı. Tanzi fikirləşdi ki, yəqin yenə kimsə Beachfronta gedən yolu soruşacaq (adamlar çox vaxt Biçfronta gedən yolu soruşurdular) . Amma yox, maşındakı Jason Fişer idi.

– Ey, narkoman! – Fişer onu səslədi.

Amma Tanzi ona fikir verməyib yoluna davam etdi.

Fişer saçına gel vurmuşdu. Gözlərini qıyıb danışırdı, elə bil bütün həyatını xoşlamadığı şeylərə beləcə gözlərini qıyıb baxmışdı.

– Ey, narkoman, sənin ləyəm.

Tanzi çalışırdı ki, ona baxmasın, ürəyi bərk-bərk döyünürdü. Addımlarını yeyinlətdi.

Fişer də maşını bir az irəli sürdü, Tanzi fikirləşdi ki, bəlkə o sürüb gedəcək. Amma yox, o maşından düşdü, gəlib düz onun qabağında dayandı, Tanzinin əlindən onu geri itələməkdən başqa heç nə gəlmədi. Fişer bir tərəfə əyildi, elə bil axmaq bir adama nəyisə izah edirdi:

– Sənin lə danışan adama cavab verməmək kobudluq əlamətidir. Anan bunu sənə heç vaxt deməyib?

Tanzi elə qorxmuşdu ki, heç nə deyə bilmədi. O yalnız başını yellədi.

– Bəs qardaşın hardadır?

– Bilmirəm, – Tanzinin səsi pıçıltı kimi çıxdı.

Telegram: @cinciva

– Yox, sən onun harda olduğunu çox yaxşı bilirsən, dördgözlü narkoman! Qardaşın elə bilir ki, Faceboo-ok-səhifəmdə "avaralanmaqla" ağıllı hərəkət edib.

Belə deyib Tanziyə tərəf iki addım da atdı.

– Ona de ki, onunla hesabı çürüdəcəm. Yoxsa o özünü ağıllı hesab edir? Ona de ki, mən real olaraq onun həyatını "zibilləyəcəm".

Tanzinin heç vaxt adını xatırlamadığı o biri Fişer, Ceysonun əmisi oğlu ona nəsə dedi, Tanzi eşitmədi. İndi o da maşından düşüb Tanziyə tərəf gəlirdilər.

– Ey, sənin qardaşın bir şeyi başa düşməlidir. O, profilimi "zibilləyir", biz də əvəzindən onun həyatını zibilləyəcəyik, – Fişer belə deyib hayqırdı, səkiyə tüpürdü. İri bir lomba yaşıl bəlğəm səkinin üstünə düşdü. Tanzi duruxdu, ayağını onun üstünə qoymaq istəmədi.

Tanzi fikirləşdi ki, görəsən onlar onun necə çətinliklə nəfəs aldıqlarını duyublarmı?

– Maşına min.

– Maşına min dedim!

– Yox, – Tanzi arxaya dönüb evlərinə tərəf getməyə başladı. Hərdən arxaya dönüb onların gəlib-gəlmədiyinə əmin olmaq istəyirdi. Onun ürəyi qəfəsdəki quş kimi çırpınırdı.

– Kostanza, sənə dedim ki, maşına min! – Fişer onun adını elə tələffüz etdi ki, Tanzi adından iyrəndi. O qaçmaq istədi, amma yaxşı qaça bilmirdi – qaçanda onun ayaqları həmişə əyri bucaq kimi yana meyllənirdi. Dəqiq bilirdi ki, nə qədər möhkəm qaçsa da gəlib ona

Telegram: @cinciva

çatacaqlar. O, yolu keçib sonra evlərinə tərəf dönmək istəyirdi ki, birdən çiyinlərində əl gördü.

– Bir bunun saçına bax.

– Ey, dördgöz, sən oğlanlar barədə nəsə bilirsən?

– Əlbəttə, o heç nə bilmir. Bir onun formasına bax.

– Hələ bir pomadasına bax qancığın. Eybəcər qancıq!

– Ey, niyə baxırsan ona, onun üzünə baxmalı deyil ki...

Sonra ikisi də gülməyə başladılar.

Tanzi danışmağa başladı, elə bil səsi başqasının səsiydi:

– Çıxıb gedin. Niki heç nə etməyib. İstədiyimiz odur ki, biz sakit buraxın.

"Bizi sakit buraxın", – Tanzinin sözlərini təkrar-təkrar deyib ona lağ edirdilər.

Fişer ona doğru daha bir addım atdı. Səsini yavaşıtdı:

– Kostanza, sənə deyirəm maşına min.

– Çıxın gedin!

Bu vaxt Fişer onun paltarından dartdı, qorxudan Tanzinin bədəni buza döndü. Az qala ürəyi ağzından çıxacaqdı. Onları itələməyə çalışırdı. Deyəsən qışqırırdı, amma heç kim köməyə gəlmirdi. İkisi də onun qollarından tutub darta-darta maşına tərəf aparırdılar. Onlar onu səkidə sürüyəndə Tanzi onların dezadorantının iyini yaxından hiss edirdi. Dəqiq bilirdi ki, nə olursa olsun, lap dünya dağılsa da maşına minməyəcək. Çünki maşının qapısı nəhəng vəhşi heyvan ağzı kimi açılanda o birdən Amerikada yad kişilərin maşınlarına minən qızların aqibəti haqqındakı statistikanı xatırladı.

Telegram: @cinciva

Ayağını maşına qoyan kimi sağ qalma şansı 72 faizdən aşağı düşür. Bu faiz sanki onun əlində daşa döndü. Bu "statistikadan tutub" onları itələyir, təpikləyir, vururdu. Birdən başının bir tərəfinə zərbə dəydi, yerində fırlandı, tappıltıyla yerə yıxıldı. İndi o hər tərəfi əyri görürdü. Həyəcanlı səslər, uzaqdan bağırtı eşidirdi. Birtəhər başını qaldırdı, dumanlı görünürdü hər tərəf, amma yolda Normanın ona tərəf qaçdığını görürdü. Normal elə sürətlə qaçırdı ki, Tanzi hələ bu vaxtacan onu belə qaçan görməmişdi. Dişlərini qıcamışdı, heç Normana oxşamırdı, kinolardakı vəhşi qaniçənə bənzəyirdi. Sonra Tanzi havada nəsə qırmızı bir şey, əyləcin qulaq batıran ciyiltisini eşitdi. O, havada nəyinsə uçduğunu görürdü dumanlı şəkildə. Bir də o kiminsə fəryadını, bağırtısını, qışqırığını eşidirdi, elə bil səs ki, dünyanın o başınacan gedib çatardı, bu vaxtacan eşitdiyi ən pis səs idi. Birdən o başa düşdü ki, bu səs onun öz səsidir, bu fəryad onun öz fəryadıdır.

Telegram: @cinciva

30

CESS

Norman asfaltın üstündəydi. Tanzi ona tərəf qaçırdı, təngnəfəs, nəfəsi kəsilə-kəsilə...Onun yanında bir kişi durmuşdu, başını əlləri arasına almışdı, ayaqüstə əsirdi.

– Mən onu görmədim. Heç görmədim. Yavaş-yavaş sürürdüm maşını.

Niki onun yanındaydı. Başını yırğalayırdı – ağ vərəq kimi idi.

– Dost, özünə gəl. Özünə gəl.

Tanzinin gözləri alacalanmış, qollarını yanlarına sıxıb şok vəziyyətindəydi.

Cess dizü üstə çökmüşdü. Normanın gözləri mərmər kimi parlayırdı, ağzından və qulaqlarından qan süzülürdü.

– Oh, yox, yox... Norman, yox, qalx...

Cess qulağını itin sinəsinə dirədi. Heç nə eşitmədi. Cessi qəhər boğdu, elə bil boğulurdu.

O, Tanzinin əllərini çiynində hiss etdi, o balaca əlləriylə Cessin köynəyindən yapışıb dartır, elə hey deyirdi:

Telegram: @cinciva

– Ana, onu ayağa durğuz. Ana, onu qaldır.

Belə deyə-deyə Tanzi də düzü üstə çöküb üzünü itin tüklərinə sürtürdü.

– Norman... Norman...

Sonra Tanzi hönkürüb ağlamağa başladı. Dəhşətlə qışqırıb ağlayanda Nikinin səsini eşidirdi:

– Onlar Tanzini maşına basmaq istəyirdilər... Onun səsinə hay vermək istəyirdim, amma pəncərəni açа bilmirdim. Pəncərəni açа bilmirdim, eləcə qışqırırdım ki, Norman çəpərdən çıxdı. Mən ora çatmazdan əvvəl. O, Tanzinin qışqırığını eşitmişdi. Birbaşa ona doğru qaçırdı. Norman ona kömək etməyə qaçırdı.

...Natali qaça-qaça onların yanına gəldi, tələsdiyindən köynəyinin düymələrini də səhv bağlamışdı, saçında xəmir vardı. O, qollarını Tanzinin boynuna dolayıb qucaqladı, onu sakitləşdirməyə çalışdı.

Normanın gözləri açıq idi, elə bil gözlərini hansısa yeməyə zilləmişdi. Cess bir də Normana tərəf əyildi, az qaldı ki, ürəyi partlasın.

– Mən heyvan xəstəxanasına zəng eləmişəm, – kənardan kiminsə səsi eşidildi.

Cess Normanın iri, yumşaq qulağını sığallayıb heyvan xəstəxanasına zəng etdiyini deyən adama "Təşəkkür edirəm", – dedi.

– Biz təcili nəsə etməyə çalışdıq, – həmin adam dedi.

Cess əlini Nikinin çiyninə qoydu:

– Niki, elə bilirəm ki, o... o ölüb.

Telegram: @cinciva

– Yox, belə demə. Sən özün deyirdin ki, belə deməyək. Boş yerə təslim olmayaq. Sən deyirdin ki, hər şey yaxşı olacaq. Yox, belə demə.

Tanzi təzədən ağlamağa başlayanda Nikinin də gözləri doldu. O da ağladı, əllərini Normanın üzünə qoyub hönkürdü, yaş gözlərindən sel kimi axırdı.

Cess yolun ortasında oturmuşdu, maşınlar onun yanından fırlanıb keçirdilər, səsi eşidən qonşular pilləkənlərinin birinci pilləsində durub yola boylanırdılar.

Sonra Cess Normanın iri, qanlı başını dizinin üstünə qoyub üzünü göyə tutdu, sakitcə dedi:

– Nə olub? Nə baş verib?

***

Cess Ceyson Fişerin maşına minib sürüb getdiyini görmədi.

Amma təhlükəsizlik kamerası bunu "gördü".

Telegram: @cinciva

31

TANZİ

Cess Tanzini evə gətirdi. Amma o Normanı tək qoyub gəlmək istəmirdi. O, Normanın şose yolunda, bir-birinə nəsə pıçıldayan yad adamların yanında ölməyini istəmirdi. Qonşuluqda yaşayan Naycel gəlib dedi ki, gedib itin yanında duracaq. Bundan sonra Cessin etdiyi yeganə şey Tanzini evə aparmaq oldu. Tanzi ayağını yerə dirəyib fəryad qoparanda Cess onu möhkəm qucaqladı, özünə sıxıb qulaqlarına dedi:

– Əziz balam, hər şey keçib getdi, evə gedək. Belə baxma, o sağalacaq.

Amma Cess özü belə desə də, həyətə girib qapını bağlayandan sonra gözləri yaşla doldu, ətrafı görə bilmədi göz yaşlarından. Tanzi onların arxasıyla gələn Nikinin də hönkürtüsünü eşidirdi, onun hönkürtüsü çarəsiz, nə etmək lazım olduğunu bilməyən adamın hönkürtüsünə bənzəyirdi.

Cess ona yalandan hər şeyin yaxşı olacağını deyirdi, yalandan deyirdi, Niki elə bilirdi ki, daha hər şeyin, hər şeyin sonudur.

Telegram: @cinciva

32

ED

Gemma arxaya dönüb üzbəüz stol arxasında qışqırıb ağlayan uşağa nəzər salıb dedi:

– Hərdən fikirləşirəm ki, pis valideynlər sosial işçilərin dindirdiyi valideynlər yox, bax burdakı kimi kafe işçilərinin sorğu-suala tutduğu valideynlərdir.

Sonra o gözlərini qarşısındakı kofeyə zillədi, elə bil yerinə düşəsi başqa söz axtarırdı.

Ağlayan uşağın anası, buruq saçları çiyinlərinə dağılmış qadın uşağı sakitləşdirməyə çalışır, "kapuçinoni iç" deyirdi. Amma uşaq anasının sözlərinə fikir vermir, bəlkə də özünün yaratdığı səs-küydə heç anasının səsini eşitmir, onun nə dediyini anlamırdı.

– Baş açmıram biz niyə pivəxanaya getmədik?

– Səhər saat on birdə? Aman allah, bu uşağın anası niyə onu sakitləşdirmir? Niyə onu götürüb aparmır? Heç biri uşağı sakitləşdirə bilmir?

İndi uşaq daha möhkəm qışqırırdı. Səsdən Edin başı ağrıyırdı.

Telegram: @cinciva

– Gedə bilərdik.

– Gedərdik, amma hara?

– Pivəxanaya. Ora daha sakit olardı.

Gemma ona baxdı, sonra əlini atıb onun çənəsini qaldırdı:

– Ed, bir de görüm ötən gecə nə qədər içmisən?

...Dünən o bütün gününü polis şöbəsində keçirmişdi. Sonra isə bacısıyla birlikdə az qala indi adını unutduğu vəkillə, hə, Pol Vilks və başqa iki vəkillə görüşdülər. Bu iki vəkildən biri qiymətli kağızlarla istənilən əməliyyat işində mütəxəssis idi. Onlar qırmızı taxtadan hazırlanmış stol arxasında oturub məhkəmə işi haqqında açıq danışdılar, Ed bu məhkəmə işində nələrin yazıldığından xəbərsiz idi. Onun əleyhinə olan e-maillərdən, Dinna Levisin şahid ifadəsindən, onun qardaşının zənglərindən, onun öz əliylə imzaladığı çekdən və sair barəsində söhbət etdilər.

Dinna and içmişdi ki, o etdiyinin qanunsuz hərəkət olduğunu bilməyib. O, ifadə vermişdi ki, Ed çeki ona özü verib. O ifadə verib ki, əgər Edin ona edilən təklifinin qanunsuz olduğunu bilsəymiş bu addımı atmazmış, ya da bu haqda qardaşına heç nə deməzmiş.

Edin xeyrinə olanlar: O bu əməliyyatdan bir sent belə gəlir əldə etməyib. Edin vəkil komandası, onun fikrincə, şad xəbər kimi dedilər ki, bu halı xüsusi vurğulayacaq, iddia qaldıracaqlar ki, Dinna Levis nə etdiyini çox yaxşı bilirmiş, Edlə Dinna arasındakı əlaqələr isə bacı-qardaş Levslərin əvvəlcədən hazırlayıb həyata keçirdikləri

Telegram: @cinciva

məqsəd imiş, məqsəd Edi cinayətə təhrik etmək olub. İstintaq komandası Edin bank hesabını nəzərdən keçirib, pul qoyulmadığını müəyyən ediblər, o hər il vergini vaxtında ödəyib, onun heç bir investisiyası olmayıb.

Vəkillər həm də onu vurğuladılar ki, Edin yazdığı çek Dinnanın adına ünvanlanmayıb, onun ixtiyarına verilib, onun adı öz xəttiylə yazılıb. Vəkillər Dinna Levisin Edin evində olarkən boş blankı götürdüyünü sübut etməyə çalışacaqlarını dedilər.

– Axı o götürməyib, – Ed dedi.

Elə bil vəkillərdən heç biri onun sualını eşitmədi.

Bütün bunların nəticəsi həbsxana ola bilərdi, vəkillər ona dedilər, amma Ed hər şeyə nikbin baxırdı, xüsusilə işlə bağlı deyilənlərə. O bir müddət direktorluqdan uzaqlaşdırılacaqdı. Onu buna hazırlamaq lazım idi. Buna görə də onlar öz aralarında müşavirə-məşvərət apardılar.

Elə bu vaxt Ed dedi:

– Mən öz günahımı etiraf etmək istəyirəm.

– Nə? – Vəkillər heyrətləndilər.

Otaq sükuta qərq oldu.

– Mən Dinnaya məlumatı demişəm. Amma bunun qanunsuz olduğunu bilmirdim. Sadəcə onun məndən uzaqlaşmağını istəmişəm və necə pul qazanmağı ona demişəm.

Hamı bir-birinə baxdı.

– Ed! – Gemma nəsə demək istədi.

– Mən həqiqəti demək istəyirəm, – Ed sözünün üstündə durmuşdu.

Telegram: @cinciva

Vəkillərdən biri irəli əyildi:

– Faktiki olaraq çox yaxşı müdafiə hazırlamışıq, cənab Nikolls! Çekdə sənin xəttinin olmamağını nəzərdə tuturam. Biz bundan çox yaxşı məqsədlə istifadə edə bilərik.

– Axı çeki ona mən vermişəm.

Pol Vilks Edə tərəf əyildi:

– Ed, sən düzgün qərar verməlisən. Əgər günahını etiraf etsən, həbsxanaya düşmək "şansını" artırmış olursan.

– Vecimə deyil.

– Bütün günü Vinçesterdə tək-tənha qalanda vecinə olacaq, – Gemma dedi.

Ed bacısının sözlərini güclə eşidirdi.

– Mən yalnız həqiqəti demək, bunun necə olduğunu söyləmək istəyirəm.

– Bura bax, Ed! Məhkəmə zalında həqiqətə yer yoxdur. Sən bununla vəziyyəti pisləşdirəcəksən, – bacısı onun qolundan dartdı.

Amma Ed başını yelləyib sakitcə stulunda əyləşmişdi. Bundan sonra o daha heç nə demədi.

Ed bilirdi ki, bacısı da, vəkillərin üçü də onun bu hərəkətini qəribə hesab edirlər, lakin bu da onun vecinə deyildi. Sanki bunların heç birini görmürdü. Sakitcə, lal-dinməz stulda oturmuşdu. Daha çox bacısı sual verirdi. Ed "Maliyyə Xidmətləri və Bazar aktı – 2000" deyildiyini eşidirdi. O ürəyində "cəhənnəm olsun" deyirdi. O, "cəzanı çöldə çəkmək", c"əza cərimələri",

Telegram: @cinciva

"Cinayət aktı 1993" kimi sözlər eşidirdi, amma bununla belə o stulunda yenə də lal-dinməz oturub ağzını açmırdı. O həbsxanada yatacaq? Nə üçün? Bir yandan da o hər şeyin itirirdi.

– Ed, nə dediyimi eşitdin?

– Təəssüf ki, yox.

"Təəssüf ki..." – Edin sön günlər işlətdiyi söz bu idi. Vəssalam!

"Təəssüf, yaxşı eşidə bilmədim. Təəssüf, qulaq asmırdım. Təəssüf, hər şeyi belə çətinə salmışam. Təəssüf, məni axmaq hesab edən bir adama vurulmuşam" və s.

Son vaxtlar beynini başqa sual zəbt etmişdi: Bəs Cess ona nə qədər yalan deyib? Necə ola bilər ki, az qala bir həftə maşında yanbayan otursunlar, o isə hətta bircə dəfə də bu haqda danışmağa cəhd etməsin? Niyə?

Cess bilə-bilə ki, onun cibindən pul götürüb, özünün maliyyə problemlərindən ona necə danışa bilərdi ? Onun cibindən pul götürdüyü halda onun boynunu qucaqlayıb onu necə öpə bilərdi? Onun cibindən pul oğurladığı halda Cess etibardan necə söz açа bilərdi?

Hətta sonda, evə çatandan sonra da bu haqda danışmağa ehtiyac duymayıb. O əlində Security kartı Cessin yanına gələndə Cessin sakit durması ona hər şeyi dedi.

– Sənə demək istəyirdim, – demişdi.

Hə, əllərini ağzına qoyub sonra da "sənə demək istəyirdim" dedi.

Fikirləşmirdim ki, o belə edə bilər. Ah, aman Tanrım. Suallar yordu məni.

Telegram: @cinciva

O hətta Laradan da pisdir. Hər halda Lara daha vicdanlıydı, Ed onu özünə cəzb etmişdi. Lara pulu xoşlayırdı, həm də Edin ona necə baxmağını da xoşlayırdı. Edə görə sonda onların hər ikisi anlamışdı ki, onların evliliyi "alver"dir. Bundan sonra Ed öz-özünə həmişə deyirdi ki, hamının evliliyi bu və ya başqa formada "alver"dir.

Bəs Cess? Cess özünü elə aparırdı ki, sanki Ed onun bu vaxtacan həqiqətən də istədiyi yeganə kişidir. Cess elə rəftar etmişdi ki, Ed onun həqiqi Edi istədiyini fikirləşirdi – o qusanda da, üzündə zədə olanda da, valideynləri ilə görüşməkdən qorxanda da. Bu hallarda sadəcə ona baxıb gülümsəyirdi.

– Ed!

– Üzr istəyirəm, – o başını əlləri arasından qaldırdı.

– Çətin vəziyyətdə olduğunu bilirəm, amma sən bu işdən xilas olacaqsan, – bacısı əllərini uzadıb onun əlini sıxdı.

Onlar oturan stolun arxasından hələ də uşaq qışqırığı eşidilirdi. Edin başı zoqquldayırdı.

– Mən də buna əminəm.

Bacısı gedən kimi Ed pivəxanaya tərəf getdi.

***

Məhkəmədə onun etirafını eşidib işi sürətləndirdilər. Məhkəməyə etiraf etməyə getməzdən əvvəl Ed bir neçə gün valideynləriylə bir yerdə qaldı. Bu bir tərəfdən, öz

Telegram: @cinciva

seçimi olsa da, bir tərəfdən də Londondakı mənzilinin satılmasıyla bağlıydı.

O heç bir qiymətlə maraqlanmadan hər şeyi satmışdı. Bu daşınmaz əmlak agentinə təəccüblü görünməmişdi.

– Bu blokdakı evlər üçün növbədə duranlar var, – Ed ehtiyat açarları verəndə agent belə demişdi.

– İnvestorlar pullarını yaxşı mənzilə vermək istəyirlər. Doğrusunu desək, onlar neçə il bu mənzildə heç bir ev əşyası olmadan otururlar, amma bunu satmaq barədə düşünməzlər.

Elə həmin gün Ed əmin oldu ki, ətrafdakı evlərin çoxu boşaldılıb. Çünki axşamlar evə gələndə blokda çox az evdən işıq gəldiyini gördü, bu da kənardan diqqəti cəlb edirdi. Həmin vaxt Ed bir neçə dəqiqə fikirləşib agentdən verdiyi açarları geri almaq istədi. Amma bilmədi ki, bunu etməyə hüququ var ya yox? Bəs görəsən bu blokdakı işığı yanmayan o biri mənzillərin sahibləri harda yaşayacaq? Ed açarı geri almaq fikrindən daşındı. Hər iki mülkü satılandan sonra, məhkəməyə pulu ödəyib yerdə qalan puldan asılı olaraq bir az balaca, ucuz mənzil ala bilərdi. Harda iş tapacağını fikirləşdi. Gələcək işinin hara olması haqda fikirləşmək dəhşət idi.

Ed üç gecə valideynləriylə bir yerdə qaldı, uşaqlığını keçirdiyi otaqda yatdı, səhər tezdən, axşamtərəfi qaçmaqla məşğul oldu. Çarpayısının başı üstündən divara vurulmuş meşə mənzərəsinin üstündə barmaqlarını ora-bura sürüşdürdü, bu vaxtlarda neçə illər öncə yeniyetmə bacısının tappatapla pilləkənləri çıxmağını,

Telegram: @cinciva

atasının onun hansı istiqamətə yönəlməyəni "həzm" edib hirsindən yataq otağının qapısını necə şappıltıyla örtməsini yadına salmağa çalışdı.

Bu üç gün ərzində o səhərlər anasıyla birlikdə çox sakit mətbəxdə səhər yeməyi yedi, dərk elədi ki, atası bundan sonra elə həmişə xəstəxanada qalacaq, evə gəlməyəcək, bir daha qəzet oxuya-oxuya əllərini qara kofeylə dolu (şəkərsiz) fincanına uzatmayacaq. Mətbəxdə olanda anası tez-tez gözünün yaşını tökür, sonra isə salfetkanı gözlərinə sıxaraq, "heç nə olmayıb, həqiqətən də yaxşıyam", – deyirdi.

Viktoriya Palatasında, 3 nömrəli otaqda Bob Nikolls çox az danışırdı, az yeyirdi, az hərəkət edirdi. Ed həkimlərlə danışıb nəyin baş verdiyini soruşmağa ehtiyac duymurdu. Gözləri önündə atasının bədəni əriyir, yoxa çıxır, başının dərisi, gözləri yuvadaymış kimi görünürdü.

O atasıyla şahmat oynadı. Danışanda yorulsa da, Bob Nikolls şahmat oynayırdı, amma oyunun ortasında onu yuxu tutardı, Ed isə səbirlə onun çarpayısının qırağındakı stulda oturub səbirlə onun oyanmasını gözləyərdi. Gözlərini açandan sonra bir neçə dəqiqə heç nə demədən, oyunun harasında qaldığını yada salırdı. Bu vaxt Ed özünü elə aparardı ki, sanki atası bir saat yox, bircə dəqiqə əvvəl yatıb.

Ed atasıyla söhbət edirdi – vacib olan şeylər barədə yox. Ed əmin deyildi ki, onlardan hansısa biri bu mövzuda danışmağa cəhd edib. Onlar kriketdən, havadan danışırdılar. Atası həmişə ona gülməli sözlər deyən,

Telegram: @cinciva

yanaqlarında batıqları olan tibb bacısından danışırdı. Atası Eddən anasından muğayat olmağı xahiş etdi, onun çox işləməsindən narahat olduğunu bildirdi, dedi ki, darvazanın ağzındakı arxın içini təmizləyən kişi onun yoxluğundan istifadə edib ondan daha çox pul alacaq.

O heyfsilənirdi ki, hər payız yaşıllıqdakı bataqlığı təmizləmək üçün çox pul xərcləyib, amma nəticəsini görməyib. Ed onunla mübahisə etmədi.

– Hə, bəs sənin o "yanğınsöndürənin", "müdafiəçin" hanı? – Bir axşam şahmat oynayanda atası soruşdu. Bu vaxt Edin mat olmağına iki gediş qalmışdı, Ed bu gedişləri fikirləşirdi.

– Kimi deyirsən?

– Sənin qızını deyirəm.

– Laranı? Ata, bilirsən ki, biz artıq...

– Onu yox, o birisini...

Ed dərindən nəfəs aldı.

– Cessi deyirsən? O... məncə o, indi evindədir.

– O qız xoşuma gəldi. O sənə çox yaxşı baxırdı, – belə deyib o şahı qara taxtaya tərəf itələdi.

– Şadam ki, sən o qızla bir yerdəsən. Əzab çəkən qız, – Bob Nikolls sanki bu sözləri öz -özünə deyirdi, sonra başını yelləyib gülümsədi.

Ed necə oynadığını bilmədi, atası üç gediş onu uddu.

Telegram: @cinciva

33

CESS

Saqqalı kişi hər iki tayı açıq darvazadan içəri girə-girə əllərini ağ xalatına silirdi. İçəri girəndən sonra bir an dayanıb durdu – evin içinə girib nə edəcəyini xatırlamayan adamlar kimi.

– Norman Tomas?

Cessin heç ağlına da gəlməzdi ki, onların itinin familiyası da ola bilər.

– Norman Tomas? Hansı növə aid olduğu müəyyən edilməyən it? – kişi birbaşa Cessə baxıb soruşdu.

Cess plastik stulun qabağındakı sütuna söykənib qalmışdı.

– O çox böyük daxili qanaxmadan əziyyət çəkib, – kişi müqəddiməsiz dedi, itə bir də baxıb davam etdi: – Onun bir budu, bir neçə qabırğası sınıb, eləcə də qabaq qıçı sınıb. Şiş çəkilməyənə qədər daxildə nələrin baş verdiyini deyə bilmərik. Amma tam əminliklə deyirəm ki, o sol gözünü itirib.

Telegram: @cinciva

Cess onun mavi rəngli rezin ayaqqabılarının içindəki çirkli qanı indi gördü.

O, Tanzinin əllərini əliylə möhkəm sıxıb kişidən soruşdu:

– Demək istəyirsiniz ki, o hələ sağdır?

– Mən sizə yalandan ümid vermək istəmirəm.

Onun səsindən bilmək olurdu ki, çayda boğulan adamın saman çöpünə əl atmasına şahidlik edib.

– Qırx səkkiz saat onun halı kritik olaraq qalacaq.

Kişinin yanında duran Tanzi qəribə səs çıxardı, bilmək olmurdu ki, itin sağalacağına ümid bəsləyib sevinir, ya qırx səkkiz saatdan sonra onun halının daha da pisləşməsini fikirləşib narahat olur.

– Yaxın gəl, – kişi arxasını uşaqlara çevirib Cessə pıçıldadı:

– Onun zədələrini görüb demək istəyirəm ki, sağalacağına hələ ümid etmirəm.

– Bəs o qırx səkkiz saatdan sonra sağ qalsa necə?

– Belə olsa o ciddi müalicə olunmalıdır, amma xanım Tomas, bayaq da dediyim kimi, sizə yalandan ümid verə bilmərəm. Onun vəziyyəti yaxşı deyil.

Qapıdan çöldə o biri müştərilər baytar həkimi gözləyirdilər, kimisi qucağındakı pişiyi sığallayır, kimisinin balaca iti ora-bura qaçırdı.

Niki həkimə baxır, gərginlikdən dodaqları əsirdi. Onun həyəcanı gözlərindən bilinirdi.

– Onu da deyim ki, müalicəni davam etdirəsi olsaq bu heç də ucuz başa gəlməyəcək. O bir neçə dəfə əməliyyat

Telegram: @cinciva

olunmalıdır. Deyərdim ki, daha çox əməliyyata ehtiyacı var. O sığortalanıb?

Cess başının işarəsiylıə "yox" dedi.

Baytar həkim daha da kobud səslə dedi:

– Sizə xəbərdarlıq edirəm ki, sığorta olunmadığından müalicəyə lap çox məbləğ lazımdır. Bir tərəfdən də, sağalacağına zəmanət verə bilmərik. Yaxşı olar ki, siz bunu müalicəyə başlamazdan qabaq götür-qoy edəsiniz.

Qonşuları Naycel iti xilas etmişdi. O evlərindən iki adyal aparmış, tir-tir əsən Tanzini adyalın birinə bürümüş, o biri adyalı isə itin üstünə sərmişdi.

– Evə get, uşaqları evə apar, – o, Cessə demişdi.

Köhnə adyalı itin üstünə örtəndə Nataliyə dönüb soruşdu:

– Sən baş verənləri gördün?

Natali yolda baş verənlərdən xəbərsiz idi, yalnız camaatın toplaşdığını və Tanzinin ağlamağını. uşaqların qışqırığını eşidib gəlmişdi.

Birdən Naycel Nataliyə döndü:

– Natali, bir bax. Onun dilinə bax... Məncə, o tövşüyür. Yaxın gəl, onu qaldır. Gəl onu maşına qoyaq. Cəld ol!

Cessin qonşularından üçü köməkləşib iti maşının arxa oturacağına ehtiyatla qoydular, sonra isə şəhərin kənarına, baytarların təcrübə keçdiyi yerə apardılar. Natali də itin yanında oturub onun başını sığallayır, elə oturmuşdu ki, itin başı möhkəm dəyməsin oturacağa. Maşının oturacağının üzlüyü başdan-başa qana batsa da Naycel bir dəfə də olsun bunu Cessə demədi. Bir də baytarın

Telegram: @cinciva

yanına çatanda onlar Cessə zəng edib dedilər ki, bacardığı qədər tez ora gəlsin. Cess özünü elə unutmuşdu ki, pijamasının üstündən jaket geyinib getmişdi...

***

– Nə etmək istəyirsiniz?

Lisa Ritter bir dəfə ərinin səhv sonluqla nəticələnən böyük bir iş gördüyünü danışmışdı.

– Beş min funt borc alsan, sən onun heç vaxt qaytara bilməsən, bu sənin problemindir. Bankdan beş milyon funt kredit götürüb verə bilməsən artıq bu bankın problemidir.

Cess qızının yalvarış dolu baxışlarını gördü. Cess Nikinin üzündəki qəribə ifadəyə baxdı: onun üzündə kədər, sevgi və qorxu ifadələri bir-birinə qarışmışdı.

Bu işi yoluna qoymaq yalnız Cessin öhdəsindəydi.

– Nə lazımdırsa edin. Pul tapacam. Nəyə ehtiyac varsa edin, – Cess dedi.

Araya sükut çökdü, Cessə elə gəldi ki, baytar həkimi onu axmaq hesab edir.

Amma kişi heç nə demədi:

– Elə isə gəlin bu yerdə imza edin.

***

Naycel onları evə apardı. Cess ona pul vermək istədi, amma o, Cessin pul tutan əlini ehtiyatla yana itələyib dedi:

Telegram: @cinciva

– Bəs qonşu adama nə gündə lazımdır?

Naycelin arvadı Belinda onları görüb ağladı .

Cess qolları Tanzinin boynunda Belindaya dönüb dedi:

– Sağ ol...Biz yaxşıyıq indi...

Baytar dedi ki, əgər itin halı pisləşsə zəng edəcəklər.

Cess uşaqlara demədi ki, gedib yatsınlar, bilirdi ki, onlar otaqlarına getmək, orda tək qalmaq istəmirlər. O, qapını bağladı – iki dəfə, sonra isə köhnə filmlərdən birinin diskini qoydu. Həmişə etdiyi işlərlə məşğul oldu – evin hər yerinə baş çəkib pəncərələrə baxdı, pərdələri çəkdi, dal qapının ağzına stul itələdi ki, möhkəm dursun. Sonra üç krujka kakao hazırladı, öz adyalını aşağı gətirdi, ona büründülər – uşaqların hərəsi bir tərəfində oturub televizora baxdılar – halbuki heç biri televizordakı filmi yox, beyinlərindəki fikirləri "görür", dua edirdilər ki, telefon zəng çalmasın.

Telegram: @cinciva

34

NİKİ

Bu, bir ailənin başına gələn, ailənin layıq olmadığı hekayətdir. Bir az qəribə, kosmetikadan daha çox riyaziyyatı xoşlayan bir balaca qızın və kosmetikanı xoşlayan və heç yerdə öz "adamını" tapmayan bir oğlanın hekayətidir. Bu, ailənin başına gələn, layiq olmadığı hekayəti sizə danışıram – bu hekayətin sonu qəmlidir, nağıllardakı kimi xoşbəxt sonluğu yoxdur.

Anam bir daha yataqda qalmadı, amma hər dəfə qabları yuya-yuya Normanın yerinə baxıb göz yaşlarını sildiyini görürəm. Bütün günü məşğuldur: işə gedir, təmizləyir, evin problemlərini həll edir. O bütün işləri başıaşağı və lal-dinməz, heç nə danışmadan edir. O, üç karton qutusuyla dolu kitabı aparıb xeyriyyə mağazasına verib dedi ki, daha kitab oxumağa vaxtı yoxdur, bir tərəfdən də uydurmalara inanmağın mənasız olduğunu söyləyib.

Normandan ötrü çox darıxıram. Bir vaxt şikayətləndiyin bir heyvandan ötrü indi darıxmaq bir az qəribə

Telegram: @cinciva

səslənir. Normansız evimiz çox sakitdir. Həkimin dediyi qırx səkkiz sat keçəndən sonra cənab Adamson zəng edib Normanın yaşamaq şansının olduğunu deyəndə çox sevindik, amma bundan sonra məni başqa şey narahat edirdi. Ötən axşam Tanzi yatandan sonra anamla divanda oturanda ona dedim:

– Nə edəcəyik?

O televizora baxırdı, başını qaldırdı.

– Demək istəyirəm ki, əgər yaşasa, müalicə xərclərini haradan alacağıq?

O, dərindən nəfəs aldı, hiss etdim ki, o da mənim kimi narahatdır.

– Niki, bilirsən, nə var? Biz seçim etmədik. Norman Tanzinin itidir və o Tanzini xilas etdi. Seçim olmayanda yaşamaq bir az sadə olur.

Görürdüm ki, dediklərinə həqiqətən də inanır, ola bilər ki, seçim etməyəndə yaşamaq daha da asanlaşır. Bununla belə, hər bir yeni problemdən sonra onun daha da yaşlandığını, daha yorğun olduğunu görürdüm.

O, Nikollsdan daha söz açmırdı.

Başa düşə bilmirdim, necə ola bilər ki, onlar bir yerdə olurlar, sonra isə hər şey belə sona çatır? Sanki bir dəqiqə əvvəl sən həqiqətən də çox xoşbəxtsən, sonra isə bu xoşbəxtliyə nöqtə qoyulur. Elə bilirdim bu kimi şeyləri böyüyəndən sonra yoluna qoymaq olur, amma indi aydın görürəm ki, heç də belə deyilmiş, həmişə ümidlə gələcəyə baxmalısan.

Sonra mən ona yaxınlaşdım, onu qucaqladım. Ola bilsin ki, sizin ailənizdə ananızı qucaqlamaq elə də

Telegram: @cinciva

böyük bir hadisə deyil, amma bizim ailəmizdə başqa cürdür. Bu, etdiyim ilk fərqli addım idi.

Çox şeyi başa düşə bilmirəm. Necə ola bilər ki, bizim ailədə hamı düzgün olanı edir, amma hər şeyin sonu mənasız olur? Başa düşə bilmirəm, mənim bacım xeyirxah, ağıllı, deyərdim ki, hardasa bir az dahi olduğu halda niyə onun sevdikləri yoxa çıxır?! Səbəb də onun bir az fərqli olmağıdır. Başa düşə bilmirəm, niyə indi o hər gün yuxudan duranda ağlamalıdır, gecələr yatanda qorxmalıdır?! Niyə mən hər gecə oyaq qalıb anamın gecə saat dörddə bacımı necə sakitləşdirdiyinə qulaq asmalıyam? Niyə bacım hətta hava isti olanda da evdən bayıra çıxmır, bütün günü evdə qalır? Çünki o hələ də Fişerlərdən qorxur, qorxur ki, yenə də gəlib onu aparırlar. Bundan sonra o bu halda altı ay məktəbdə olmalıdır, bir vaxt riyaziyyatı sevən bacım indi bütün günü deyir ki, o da başqaları kimi olacaq, dərslərini oxumayacaq. Tanzini riyaziyyatsız təsəvvür edə bilmirəm, bu Wise-siz Morecambe kimidir, yaxud portağalsız Caffa piroquna bənzəyir. Hələ də xəyalıma gətirə bilmirəm ki, Tanzi riyaziyyatsız necə ola bilər?

Başa düşə bilmirəm ki, bir vaxtlar bütün günü evdə yatmağa vərdiş edən mən indi aşağıdan gələn "mövcud olmayan" səs-küyü dinləyib oyaq qalıram? Başa düşə bilmirəm, niyə indi də mağazaya gedib şirniyyat, ya kağız alıb qayıdanda yenə də arxaya baxıb kiminsə arxamca gəlməyindən narahat oluram?

Telegram: @cinciva

Başa düşə bilmirəm, niyə heç kəsə ziyan vurmayan, əksinə, tullanıb-düşməklə hamının gözlərini sevincdən yaşardan bir it sadəcə sevdiyi qızı xilas etdiyi üçün bir gözünü tamam itirməli, bütün içalatı əməliyyat edilib təzədən yerinə qoyulmalıdır?

Əsasən də başa düşə bilmirəm ki, niyə xuliqanlar, oğrular – alçaqlar – insanların həyatını dağıdır, bunu necə edə bilirlər, anlamıram. Bir nahar pulu üçün kiminsə böyrəyini yumruqlayan oğlanları, insanları kəmağıl hesab edən polislərin hərəkətini başa düşə bilmirəm. Başa düşə bilmirəm, niyə bəzi uşaqlar onlar kimi olmayan, dərslərini oxuyan, riyaziyyat yarışında iştirak edən uşaqlara lağ edir, onları ruhdan salır, "username" ilə parolun fərqini bilməyənlər niyə başqalarını təhqir edir?! Başa düşə bilmirəm, niyə bəzi atalar öz ailəsini tərk edib Febreze qoxusu gələn, özünün aldığı "Toyota"nı sürən qadınla özünə təzə həyat başlayır və o qadın da ona inanan, onu sevən adamlara düz iki il yalan deyən əclafı, bir lomba tüpürcəyə layiq olan "atanın" dediyi hər zarafata elə gülür elə bil Tanrının ona göndərdiyi nemətdir.

Anam həmişə bizə deyərdi ki, yaxşı adamların başına yaxşı işlər gəlir. Bilirsiniz indi nə olub? Anam daha bu sözü təkrar etmir.

Əgər yazdıqlarım sizi kədərləndirdisə üzr istəyirəm. Amma bizim həyat indi bu vəziyyətdədir. Mənim ailəm – uduzanlardır. Bu hekayə deyil, eləmi, bu bir ibrətamiz nağıldır.

Telegram: @cinciva

35

CESS

Polis bir də Normanın başına gələn bədbəxt hadisədən dörd gün keçəndən sonra gəldi. Cess qonaq otağının pəncərəsindən baxanda bağdakı cığırla bir zabitin evə tərəf gəldiyini gördü, həmin anda ilk olaraq beyninə belə bir fikir gəldi ki, yəqin zabit Normanın ölüm xəbərini gətirib. Zabir gənc qadın idi, saçlarını səliqəli şəkildə arxadan yığmışdı. Cess heç vaxt bu zabiti görməmişdi.

Cess qapını onun üzünə açan kimi o, RTA-nın[1] hesabatlarına əsasən gəldiyini dedi.

– Deməyin ki, sürücü maşınına dəyən ziyanın ödənilməsini tələb edir, – Cess qadınla birgə mətbəxə keçdi.

Qonşuları Nigel demişdi ki, belə də ola bilər. O bunu deyəndə Cess nə deyəcəyini bilməyib gülməyə başlamışdı.

Zabit əlindəki dəftərçəyə baxdı.

[1] Yol-Nəqliyyat Bədbəxt Hadisələr üzrə Agentliyi

Telegram: @cinciva

– Yox, ən azı sürücü bunu indi etməz. Həm də maşına çox az ziyan dəyib. Bəzi mübahisəli məqamlar, məsələn, sürət həddini keçmə kimi hallar da ola bilər. Amma bura gəlməkdə məqsədim başqadır. Bizə müxtəlif məlumat veriblər, bilmək istərdik ki, hadisə baş verməzdən əvvəl nələr olub. Bir neçə məqamı aydınlaşdıra bilərsinizmi?

Cess paltaryuyan maşına yaxınlaşdı.

– Məqsədiniz nədir? Çox vaxt polislər buna diqqət vermirdilər.

Qadının işində təzə olduğu hiss olunurdu.

– Xahiş edirəm hadisədən əvvəl baş verənlərdən söz açın. Bu sizin heç on dəqiqə də vaxtınızı almayacaq.

Beləliklə də, Cess hələ də kiminsə ona inanacağına ümid etmədən danışmağa başladı. O qadına Fişerlərdən danışdı, onların ailəsi ilə olan ədavətindən, indi balaca qızının qorxudan evdən bayıra çıxmamağından, Cessin çəpərdəki uçuq yerləri düzəltməyinə baxmayaraq hətta bağa getməyə qorxmasından danışdı. O, itinin müalicə olunmasından, müalicə xərclərinin gündən-günə artmasından danışdı. Dedi ki, itin müalicəsinə tələb olunan pulla bir ay lüks oteldə qalmaq pulu eynidir. O, qadına oğlundan, onun necə olursa-olsun bu şəhərdən uzaq bir yerə gedib orda yaşamaq istəyindən danışdı. Fişerlərin sayəsində onun imtahanda pis qiymət almasından danışdı.

Hiss olunurdu ki, Cessin danışdıqları qadını yormur, o bu söhbətdən bezmirdi.

Cessə qulaq asandan sonra o, dəftərçəsinə bəzi qeydlər edib ayağa durdu, Cessdən xahiş etdi ki, çəpərin

Telegram: @cinciva

uçmuş yerini ona göstərsin. Cess ona heç bayıra çıxmadan da çəpərin uçulmuş yerlərini göstərdi.

– Baxın, oradır. Görürsünüz, mən nazik taxtalarla oranı tutmuşam. Baş verən hadisə də ordan əlli yard sağ tərəfdə olub.

Cess çanaqdakı bulaşıq qabları yumağa başladı, qadın həyətə düşdü, yavaş addımlarla çəpərin qırağına getdi.

Elə bu vaxt alverçi Eylin Trent satlıq mallarını yığdığı balaca arabasını arxasıyca çəkə-çəkə onların darvazasının yanından keçirdi. Bağda kiminsə olduğunu görüb elə bildi ki, Cessdir, şən halda əllərini qaldırıb onu salamladı. Amma az sonra bağdakı qadının kim olduğunu görüb başını əydi, sakitcə yolun o biri tərəfinə keçdi.

Zabit qadın demək olar ki, on dəqiqə bağda bəzi yerlərə nəzər yetirdi.

Cess az qala onun orda olduğunu da unutmuşdu. Paltaryuyan maşından paltarları çıxaranda qadın otağa girdi.

– Xanım Tomas, sizə bir sual verə bilərəm? – o qapını arxasıyca bağlayıb dedi.

– Sual vermək sizin işinizdir.

– Təhlükəsizlik kamerasını deyirəm. Görəsən o nəyi çəkib?

***

Zabit qadın Cessi üç dəfə polis məntəqəsinə çağırdı, Cess də onunla yanaşı plastik stulda oturub bir yerdə

Telegram: @cinciva

təhlükəsizlik kamerasının çəkdiyi materiallara baxdılar. Tanzinin balaca bədəni, onun üstü bəzəkli jaketi... Hərdən dayanıb eynəyini düzəltməsi... Sürətini azaldan maşın, maşının qapısının açılması... Tanzinin bütün hərəkətləri – ağlaması, qışqırması... Onun arxasıyla gələn Fişerlər... Onların əllərini necə qaldırması... Cess daha baxa bilmirdi...

– Xanım Tomas, bunlar böyük dəlillərdir. Kameradakılar bizə çox kömək edəcək, – zabit qadın sevincək dedi.

Cess hələ də inana bilmirdi, hələ də zabit qadının sözlərini ciddi qəbul etmirdi.

Şübhəsiz ki, Ceyson Fişer əvvəlcə hər şeyi dandı, dedi ki, guya Tanzi ilə zarafat etmək istəyirmiş.

– Bizim sübutlarımız, iki şahid ifadəsi var. Sizin facebook səhifənizdə nələr yazdığınızdan xəbərimiz var. Siz Tanziyə nə etmək istədiyinizi yazmısınız.

– Nə etmək istəyib? – Cess həyəcanla soruşdu.

Qadının üzündəki təbəssümü bir anlıq yox oldu:

– Sizin qızınıza qarşı pis bir hərəkət.

Cess daha heç nə soruşmadı.

Polis şöbəsinə Ceyson Fişerin öz adını parol kimi istifadə etməsi barəsində ipucu məlumat daxil olmuşdu.

Zabit qadın Cessə "öz aramızda qalsın, əslində, facebook səhifəsindəki yazılanlar ciddi sübutlar deyil, amma işimizə kömək edir" demişdi.

Hadisə barədə müxtəlif məlumatlar yazılırdı.

Yerli gənclər, yeli mətbuat bu barədə yazdı. Kiçik yaşlı uşağa hücum və onu oğurlamağa cəhd başlıqlı

Telegram: @cinciva

yazılar dərc olundu. Növbəti həftə isə bu hadisəni törədənlərin adları açıqlandı. Fişerlər ailəsinə yaşadıqları bələdiyyəyə məxsus evi tərk etmək barədə göstərişlər verildiyini yazmışdılar. Məlum olmuşdu ki. Tomaslar ailəsi onların narahat etdikləri yeganə ailə deyilmiş. Yaşayış yeri assosiasiyasından deyiblər ki, bu ailəyə çoxdan bəri axırıncı dəfə xəbərdarlıq edilibmiş.

Niki yerli qəzeti əlində tutub Fişerlər haqda yazılanları oxudu. Oxuyub qurtarandan sonra hamısı bir an sakitcə dayandı, elə bil baş verənlərə inana bilmirdilər.

– Doğrudanmı orda yazılıb ki, Fişerlər tamam başqa yerə köçürlər?

– Belə yazıblar, – Niki dedi.

– Bəs sonra?

– Yazıblar ki, onlar Surreyə, qayınıgil yaşayan yerə köçürlər.

– Surrey? Bəs...

– Bundan sonra onlar bələdiyyə evlərində yaşaya bilməzlər. Heç biri. Ceyson Fişer və onun əmisi oğlu. Onların ailəsi. Onların əmisi də onlarla birgə buranı tərk edir. Hətta burda istisna da var ki, onlar geri qayıtmaq istəsələr onlara mane olsunlar. Bir bax, bu şəkildə Fişerin anası ağlayır, o biri şəkildə isə deyir ki, həmişə onları pis başa düşüblər, Ceyson Fişer heç milçəyə də əl qaldırmır.

Niki bir az fasilə verdi, əlindəki qəzeti stolun üstünə qoydu.

Cess yazılan məqaləni bir də oxudu, fikirləşdi ki, bəlkə Niki yazılanları səhv başa düşüb.

Telegram: @cinciva

Özü də oxuyandan sonra hər şeyin Niki dediyi kimi olduğunu başa düşdü.

– Görürsən, ana? – Niki ağzındakı son tikəni də çeynədi.

– Sən haqlısan. Deyirdin ki, hər şey dəyişəcək.

Cess onun "ana" sözünü eşidib sakitcə durdu. Əvvəlcə qəzetə, sonra isə Nikiyə, ona "ana" deyəndən sonra bir az utanan Nikiyə baxdı. Niki bir az qızarmışdı, elə bil heç ağlına da gəlməmişdi ki, dediyi bircə söz Cessin diqqətini cəlb edə bilər. Cess udqundu, sonra əllərinin arxasıyla gözlərinin yaşını sildi və bir neçə dəqiqə stolun üstündəki boşqaba gözlərini zillədi, sonra təzədən yeməyə davam etdi.

– Düzdür, – Cess dedi. Onun səsi qəhərli idi.

– Bu çox yaxşı xəbərdir. Çox yaxşı xəbər, – o əlavə etdi.

– Doğrudanmı sən elə fikirləşirsən ki, hər şey dəyişə bilər? – Tanzi ehtiyatla sual verdi.

Cess əlindəki çəngəli stolun üstünə qoydu.

– Mənə elə gəlir, əziz balam, hə, belə fikirləşirəm. Hamımızın ağır anlarımız oldu. Amma, hə, inanıram ki, hər şey dəyişəcək.

Bu vaxt Tanzi əvvəlcə Nikiyə, sonra isə dönüb Cessə baxdı, sonra o da yeməyini yeməyə başladı.

***

Həyat davam edirdi. Şənbə günü Cess Feathers-ə getdi, nahar vaxtı. Ora çatmağa az qalmış axsamağını

Telegram: @cinciva

gizlətməyə çalışırdı, təzədən işə qaytarılmasını xahiş etdi.

Des ona dedi ki, o artıq City of Paris-dən bir qız götürüb işə.

– Yox, əsl Paris şəhərindən yox, belə şey etmərəm, baha başa gələr mənə.

– Nasoslar xarab olanda o qız nasosları götürə bilir? Kişilərin tualetində unitaz laxlayanda onu bərkidə bilir? – Cess soruşdu.

Des əlini yellədi.

– Əlbəttə, yox, amma mənə etibarlı işçi lazımdır. Sən etibarlı deyilsən.

– Des, imkan ver mən də öz fikrimi deyim. İki ildə bir həftə işdən qalmışam. Mənə iş lazımdır, Des.

Des dedi ki, bu haqda təzədən fikirləşər.

Dərs başlananda uşaqlar məktəbə getdilər. Tanzi hər gün günorta Cessin gəlib onu məktəbdən aparmasını istəyirdi. Niki daha özü yuxudan dururdu, daha əvvəlki kimi Cess onu altı dəfə çağırandan sonra yox. Niki hər gün səhər yeməyi yeyirdi. Daha o narahatlıq əleyhinə olan reseptlərini təzələmək istəmirdi.

Gözlərinin altındakı, yanağındakı zədə yerləri daha hiss olunmurdu.

– Fikirləşirəm ki, altıncı sinfi də MakArturda davam etdirim. Bilirsən, bir də Tanzi ali məktəbə daxil olandan sonra başqa yerdə təhsilimi davam etdirərəm, – Niki dedi.

Cess sevinclə ona baxdı:

– Bu çox yaxşı fikirdir.

Telegram: @cinciva

Cess Natali ilə bir yerdə yenə də evləri təmizləməyə gedirdi. Natali Fişerlər ailəsi haqda eşitdiyi xəbərləri ona deyirdi. Pleasant View-dan köçməzdən əvvəl mətbəxin divarlarını necə təpikləmələrini, divarlardakı elektrik açarlarını yumruqlamalarından danışırdı. Onu da dedi ki, bazar günü gecə yaşayış yeri assosiasiyasının binasının qabağında döşəyə od vurub odlayıblar.

– Sən özünü indi daha rahat hiss edirsən, eləmi? – Natali soruşdu.

– Əlbəttə.

Natali işini qurtarıb arxasının tozunu sildi:

– Səndən bir söz soruşmaq istəyirəm. Nikollsla bir yerdə Şotlandiyaya getmək necəydi? Məncə bundan ağır bir şey yoxdur.

Cess başını aşağı alıb işiylə məşğul ola-ola bir az dayandı, bir anlıq gözlərini pəncərədən görünən dənizə zillədi, sonra dedi:

– Yox, çox yaxşıydı.

– Maşında gedəndə sən yerə düşüb daha onunla yol getmək istəmədiyini demədin ki? Sənin yerinə olsaydım deyərdim.

Cess başını əyib paslanmayan poladdan olan qab-qacaq çanağını qaşıyanda gözlərində yaş parlayırdı.

– Yox, Natali, gülməli də olsa mən belə etmədim.

***

Cess Edin yoxluğunu hiss edirdi: qalın bir yorğanın yoxluğunu hiss etdiyi kimi. Onun təbəssümü, dodaqları,

Telegram: @cinciva

bədəni üçün darıxırdı. Sinəsindən göbəyinə qədər "sürünən" qara tüklər üçün darıxırdı. Onun yanında olanda özünü hiss etdiyi anlar üçün darıxırdı. İnana bilmirdi ki, cəmi bir neçə gün ərzində tanıdığı insandan ötrü bu qədər darıxa bilər, elə bil bədəninin bir hissəsini itirmişdi. Yediyi yeməklərin dadını hiss etmirdi, bütün rənglər gözündə solğun idi. Bəzi axşamlar uşaqlar öz otaqlarına gedəndən sonra o özünün çarpayısında yatmaq əvəzinə dizlərini qucaqlayıb balaca divanda televizora baxa-baxa mürgüləyər, içindəki boşluğu içindən qovmağa çalışırdı.

Hiss edirdi ki, Marti evi tərk edib gedəndə o belə deyildi. O vaxt o yalnız maddi problemləri düşünmüşdü, pul haqda düşünmüşdü, gecə növbəsində işləyəndə zibil vedrələrini kimin boşaldacağını düşünmüşdü. Marti gedəndə o daxilində bir rahatlıq tapmışdı. Daha bundan sonra heç kim onun əhval-ruhiyyəsinə hökmranlıq etməyəcəkdi. Bundan sonra o uşaqlarla Marti arasında hakim rolu oynamayacaqdı. Marti gedəndən sonra onunla olan münasibəti qoruyub saxlamaq haqda fikirləşməmişdi.

Onun ən çox nifrət etdiyi fakt o idi ki, onu ən yaxşı insan kimi qəbul edən Ed indi onu ən pus insan hesab edirdi. İndi Ed üçün Cess də başqa qadınlar kimiydi, bəlkə də onlardan da pis. İndi Cess onun üçün onun həyatının altını üstünə çevirən Deannadan da pis idi. Hamısının da günahkarı Cess özü idi. O bu

Telegram: @cinciva

günahdan özünü xilas edə bilmirdi. Onun öz günahıydı, öz günahı.

Üç gecə o fikirləşdi, götür-qoy etdi, nəhayət, o Edə məktub yazdı:

Beləliklə, haqqımda pis düşündüyünüz o bir dəqiqənin içində mən elə bir şəxsə çevrildim ki, həmişə uşaqlarımı o cür şəxs olmamaq ruhunda tərbiyə etmişdim. Hamı sınaqdan keçir bu həyatda, amma mən sınaqdan keçmədim, pis vəziyyətdə qaldım.

Buna təəssüf edirəm.

Səndən ötrü darıxıram.

P.S. Bilirəm ki, mənə inanmayacaqsan, amma mən onları sənə qaytarmaq istəyirdim.

Cess bir zərf götürüb özünün telefon nömrəsini zərfin üstünə yazdı, zərfin içinə isə məktubu və 20 funt pul qoydu. Zərfin üstünə Birinci Ödəniş yazdı. Sonra zərfi Nataliyə verib xahiş etdi ki, təmizləməyə gedəndə zərfi Nikollsun Biçfrontdakı evinə aparsın. Ertəsi gün Natali iki nömrəli qapının üstündə

"Satılır" elanı yazıldığını dedi. Bu vaxt Cessin bu xəbərə necə reaksiya verməsinə fikir verdi, sonra daha Nikolls haqda ona sual vermədi.

Məktubu göndərdiyi gündən beş gün keçdi, cavab gəlmədiyini görüb bütün gecəni oyaq qaldı, sonra özünə söz verdi ki, bundan sonra bütün günü evdə yatıb qala bilməz, daha iradəli olmalıdır ki, uşaqlarını böyütsün.

Uşaqlarını tək böyüdən anaya dərd çox baha başa gəlir.

Telegram: @cinciva

***

Bazar ertəsi o özünə çay hazırladı, mətbəxdə oturdu, telefon nömrəsinin məxsus olduğu şirkətə zəng etdi, ona dedilər ki, telefonunun minimum aylıq ödəmələrini etməlidir. Sonra o, polisdən gələn məktubu açdı. Məktubda deyilirdi ki, o texniki baxışdan keçməyən, sığortasız maşını sürdüyü üçün min funt cərimə olunur, əgər bu cərimədən narazıdırsa məhkəməyə müraciət edə bilər. Sonra o biri məktubu açdı, "Rolls"u keçən çərşənbə axşamından cərimə meydançasında saxladıqları üçün yüz iyirmi funt ödəməli olduğunu yazırdılar. Baytar həkimin göndərdiyi birinci çekə baxdı, sonra qaytarıb zərfin içinə qoydu. Bir gün ərzində "həzm" etmək üçün kifayət qədər xəbər vardı. Martinin yazdığı mesajı oxudu, o bilmək istəyirdi ki, tətil müddətində gəlib uşaqları görə bilərmi.

Səhər yeməyində Martinin mesajı barədə uşaqların fikrini soruşdu:

– Hə, nə deyirsiniz, gəlsin?

Hər ikisi çiyinlərini çəkdi.

Çərşənbə axşamı pivəxanadan gecə növbəsindən çıxandan sonra ucuz qiymətə məsləhət verən vəkilin yanına getdi. İyirmi beş funt verib dedi ki, Martiyə boşanma barəsində və iki il müddətində uşaqlara ödəməli olduğu aliment barədə məktub yazsın.

– Nə qədər müddətə? – vəkil soruşdu.

Telegram: @cinciva

– İki il.

Vəkil heç başını da qaldırmadı. Cess fikirləşdi ki, vəkil hər gün onun kimi neçə qadının, ya kişinin şikayətlərini dinləyir, artıq belə şeylər onun üçün adi haldır.

Vəkil kompüterdə nəsə yazdı, sonra ekrandan üzünü Cessə çevirib soruşdu:

– Kifayət qədər böyük məbləğdir. Bilirəm ki, o hissə-hissə ödəməyi xahiş edəcək. Adətən belə edirlər.

– Eybi yox. Az -az ödəyər. Ona kömək edən var, – Cess çantasını götürüb dedi.

Yol boyu o həll etməli məsələlər haqda fikirləşdi. Hərdən o özünə deyirdi ki, həyat müxtəlif maneələrdən ibarətdir, yalnız iradə hesabına bu maneələri dəf etmək mümkündür. O dənizin sahilində gedə-gedə and içdi ki, nə olursa-olsun maliyyə problemlərini uşaqlardan gizli saxlayacaq. Onlara ümid verməlidir ki , hətta o olmayanda da bu ümid onları yaşatsın. Ən azı onlara ümid verə bilər – başqa heç nəyə gücü çatmasa da. O, gözlərini mavi səmaya zillədi, təmiz dəniz havası uddu, qərara aldı ki, sözünün üstündə durmaq üçün əlindən gələni edəcək. O bütün çətinliklərdən sağ çıxmaq üçün içində güc tapacağına əmin idi.

Düz dənizin qırağına gəldi, irəli-geri gedən dalğalara baxdı. Barmaqlarıyla nəyə şükür etməli olduğunu saydı:

– Tanzi sağ-salamatdır.

– Niki sağ-salamatdır.

– Normanın vəziyyəti yaxşılaşır.

Telegram: @cinciva

Nələr baş verməyindən asılı olmayaraq onlar salamatdır, baş verənlər isə sadəcə həyatın xırda detallarıymış.

Artıq o özündə inam tapmışdı.

***

İki gün keçəndən sonra bir axşam üçü də bağda köhnə plastik stullarda oturmuşdular. Tanzi saçlarını yumuşdu, Cessin qucağında oturmuşdu, Cess onun saçının pırtlaşığını açır, iki yerə ayırıb hörürdü.

Bu vaxt o uşaqlara Nikollsun niyə geri qayıtmadığının səbəbini dedi.

Niki həyəcanla Cessə baxdı:

– Onun cibindən?

– Yox, pul onun cibindən düşmüşdü. Pulu taksidə gördüm. Amma kimin pulu olduğunu bilirdim.

Ortaya sarsıdıcı sükut çökdü. Cess Tanzinin üzünü görə bilmirdi, Nikinin sifətinə baxmadı. Sadəcə Tanzinin saçını daramaqda davam etdi. Sonra sakit tonda danışdı. Onun səsi sakit idi, səbirlə danışırdı. Elə bil etdiyi hərəkəti nəyə görə etdiyinin səbəbini tapmışdı.

– Bəs o pulu neylədin? – Tanzi sual verdi. Onun üzü sakit idi.

Cess udqundu.

– İndi xatırlaya bilmirəm.

– Sən onu mənim qeydiyyatım üçün xərclədin?

Cess hələ də Tanzinin saçını darayırdı. Saç indi hamardır...

Telegram: @cinciva

– Doğrusu, indi yadıma sala bilmirəm, Tanzi. Onu nəyə xərcləməyim indi vacib deyil.

Tanzi görürdü ki, Cess danışanda Nikii gözlərini ona zilləyib baxır.

– Bəs bunları bizə niyə deyirsən? – Niki soruşdu.

– Çünki... çünki istədim ki, dəhşətli səhv etdiyimi siz də biləsiniz. İndi etdiyim səhvə görə peşmanam. Mən o pulu geri qaytarmağı planlaşdırsam da əslində mən o pulu götürməməli idim. Bunu götürməyə bəhanəm yox idi. Ed bunu biləndə məni atıb getməliydi, çünki insanlar arasında ən dəyərli şey etibardır.

Cess çalışırdı ki, həyəcanını büruzə verməsin. Amma danışmaq çox ağır idi:

– Sizi kədərləndirdiyimə görə üzr istəyirəm. Bilirəm ki, həmişə sizə necə hərəkət etməyi məsləhət vermişəm, özüm isə sizə məsləhət verdiyim kimi yox, əksinə etmişəm. Sizə ona görə deyirəm ki, sizə deməməklə ikiüzlü olardım. Bir də ona görə deyirəm ki, bir səhv hərəkətin nəticəsinin necə olduğunu biləsiniz. Mənim vəziyyətimdə səhvimin nəticəsi olaraq ən çox qiymət verdiyim bir insanı itirdim.

Çox böyük dəyər verdiyim insanı!

Üçü də sakit dayanıb heç nə demədilər.

Bir dəqiqə sonra Tanzi qolunu Cessin boynuna dolayıb onun qucağında oturmuşdu. O barmaqlarını Cessin barmaqlarına doladı:

– Ok. Bütün insanlar səhv hərəkət edir.

Cess gözlərini yumdu.

Telegram: @cinciva

O, gözlərini açanda Niki də başını yuxarı qaldırdı. Bir az pərt görünürdü.

– O bu pulu sənə qaytarardı, – Niki tam əminliklə dedi.

Cess ona baxdı.

– Hə, o bu pulu sənə verərdi, əgər ona desəydin...

– Hə, – Cess dedi.

Onun əlləri Tanzinin saçında donub qaldı:

– Ən pis olan da elə budur. Bilirəm ki, o belə də edərdi.

Telegram: @cinciva

36

NİKİ

Bir həftə də keçdi. Hər gün avtobusa minib Normanı görməyə gedirdilər. Onun sol gözünü çıxarıb göz yuvasının ağzını tikmişdilər. Tanzi ilk dəfə Normanı görəndə dözə bilmədi, hönkürüb ağlamağa başladı. Baytar dedi ki, ilk vaxtlar Norman üçün çətin olacaq, yeriyəndə zərblə harasa dəyə bilər, amma sonra öyrəşəcək. Dedilər ki, ilk vaxtlar vaxtının çoxunu yatmaqla keçirəcək. Niki baytara daha demədi ki, günlərlə yataqda qalmağın necə olduğunu o hamıdan yaxşı bilir. Cess Normanın başını sığalladı, "sən qoçaqsan" -dedi.

Cümə günü Cess Nikiyə Tanzi ilə birlikdə qəbul otağında gözləməyi tapşırdı, özü isə birinci stola yanaşıb ordakı qadından itin müalicəsinin neçəyə başa gəlməsiylə maraqlandı. Qadın bir vərəq kağızı printerdən çıxarıb verdi, sonra ikinci kağızı printerdən çıxardı, sonra üçüncünü printerdən çıxarıb Cessə verdi. Yol boyunca Cess barmaqlarını hər vərəqin üstündə yazılmış rəqəmlərin üstünə qoyub nəsə fikirləşir, bundan sonra

Telegram: @cinciva

onun necə udqunduğunu aydınca görmək olurdu. Cessin hələ də axsamağına baxmayaraq evə avtobusla yox, piyada gəldilər.

Dənizin üstündəki boz duman çəkilib mavi səma görünəndə şəhər çox məşğul görünürdü. İlk vaxtlar Fişerlərin olmamasına inana bilmirdilər. Sanki heç kim buna inanmırdı. Bəzi adamlar onların Surreyə yox, Sasseksə getdiklərini deyirdi. Bəzi adamlar Ceyson Fişerin atasının Northəmptonda kiməsə fiziki güc tətbiq etdiyi üçün həbs olunduğunu deyirdi. Daha heç kim küçəyə çıxanda qorxmurdu. Xanım Vorboys axşamlar loto oynamağa gedirdi. Niki arxayınca mağazaya gedib gəlirdi – heç bir narahatlıq keçirmədən. O artıq əsəbi deyildi, küçəyə çıxanda heç kimin onu hədələməsindən qorxmurdu. Niki bunu desə də hələ də ona inanmırdılar, Tanzi hələ də Cess yanında olmasa küçəyə çıxmağa qorxurdu.

Demək olar ki, on gün Niki bloquna baxmadı. Normanın başına o hadisə gələn gün, içi qəzəblə dolduğu vaxt bloqunda yazı yerləşdirmişdi, sanki bununla hirsi bir az soyumuşdu. O heç vaxt içində belə güclü qəzəb hiss etməmişdi, amma Fişerlərin elə hərəkət etdiyi gün o içinin qəzəblə dolduğunu hiss etmişdi. Qəzəb onun qanıyla bədəninin hər yerinə yayılırdı elə bil. Fəryad etmək, qışqırmaq istəyirdi. Qəzəb elə bil zəhər idi, onun qanını zəhərləmişdi. Həmin günlərdə ürəyindəkiləri yazıb bloqunda yerləşdirmək ona çox kömək etmişdi, sanki içindəki qəzəbi çıxarıb atmışdı. Elə bil ürəyindəkiləri yazmaqla o içindəkiləri heç tanımadığı bir adama

Telegram: @cinciva

demişdi, fikrini onunla bölüşmüşdü. O başqalarının bu ədalətsizliyə necə reaksiya verməsini bilmək istəmişdi.

Sonra, hirsi soyuyandan, sakitləşəndən sonra Fişerlərin etdikləri üçün cavab verməli olduğunu eşidəndən sonra Nikiyə etdiyi hərəkət bir az axmaq göründü. Bu ona bənzəyirdi ki, elə bil bütün ürəyini kiməsə açıb-tökəndən sonra çox danışdığını anlayıb dua edirsən ki, qəlbindəkiləri dediyin insan kaş ki, sənin dediklərini unutsun, qorxursan ki, dediyin sözlərdən sənin əleyhinə istifadə edərlər. İndi də Niki fikirləşirdi ki, yazdığını ora yerləşdirməyin nə mənası vardı? Niyə hamı onların dərdindən xəbərdar olmalı, onlara yazığı gəlməlidir? O düşünürdü ki, yolda bir qəza baş verəndə yoldan keçən maşın dayanıb, maşının sürücüsü bir neçə dəqiqə qəzaya baxıb sonra yoluna davam etdiyi kimi insanlar da onun yazdıqlarına eləcə ötəri nəzər salacaqlar.

O yerləşdirdiyinə bir də baxmaq istədi, çünki onu silmək istəyirdi. Sonra fikrindən daşındı, dedi ki, axı insanlar onun yazdığını görüblər. Əgər yazdığını silərsə onda daha axmaq hesab edərlər onu. Sonda qərara gəldi ki, Fişerlər ailəsinin evlərindən çıxarılması, onların başqa şəhərə köçməsi barəsində nəsə qısa bir neçə cümlə yazsın, bununla da daha o barədə yazmağa son qoysun. Niki onların adını çəkmək istəmirdi, sadəcə nəsə şad bir xəbər yazmaq istəyirdi. Bəlkə kimsə onun yazdığıyla maraqlanıb, indi hər şeyin yaxşılığa doğru dəyişməsindən xəbərdar olsun, onların ailəsinin daha faciəvi həyat yaşamadığını bilsinlər. Əvvəlcə o bir həftə əvvəl

Telegram: @cinciva

yazdığını təzədən oxudu-o yazarkən çox emosional idi, həm də necə deyərlər, bir az da xam idi. Yazdıqlarını oxuyanda yazdıqlarına görə xəcalət çəkdi, ona elə gəldi ki, yazdığını oxuyanlar indi onu təkcə narkoman yox həm də axmaq hesab edirlər. Axır ki, yazısının sonuna gəlib çatdı və şərhləri gördü:

– Ey, Gothboy, orda gözlə, hamı bilir ki, belə şeylər oxuyanda ürəyim bulanır.

– Bloqunuzda yazdıqlarınızı bir dostum yollayıb mənə. Oxuyub ağladım. Ümid edirəm ki, indi itinizin vəziyyəti yaxşıdır. Mümkünsə, imkan tapan kimi itiniz haqqında yazın, onun aqibətiylə maraqlanıram.

– Salam, Niki! Mən Portuqaliyadanam, adım Viktordur. Sizi tanımıram. Dostum sizin Facebook-dakı bloqunuzun linkini mənə göndərmişdi. Demək istəyirəm ki, sizi çox yaxşı başa düşürəm. Çünki bir il əvvəl sizin keçirdiyiniz halları yaşamışdım. Sonra hər şey yaxşı mənada dəyişdi. Narahat olmayın! Hələlik!

Niki bir az səhifənin aşağısına gəldi. Aman Tanrım, mesaj-mesaj dalınca gəlmişdi. O bloqunu axtarış sisteminə qoydu, məlum oldu ki, yazdıqları yüzlərlə, minlərlə dəfə nüsxələnərək paylaşılıb. Niki statistikaya baxdı, sonra stulunda oturdu, gözlərini 2876 rəqəminə zilləyib bir neçə dəqiqə baxdı. Cəmi bir həftənin içində. Bu qədər insan. Hamısı da yad. Az qala üç min adam onun yazdığı sözləri oxumuşdu.

Telegram: @cinciva

Bunlardan dörd yüz nəfəri isə ona mesaj yazmışdı. Yalnız iki nəfər onu "axmaq" adlandırmışdı.

Hələ bunlar hamısı deyildi. İnsanlar ona pul göndərmişdilər. Əsl pul. Kimsə virtual olaraq ianə hesabı açmışdı ki, itin müalicəsi üçün pul yığsınlar. Bu insanlar Normanın sağalmağını istəyirdilər. Nikiyə bu pulu PayPal hesabı vasitəsilə necə götürə biləcəyini yazmışdılar

– Düzdü, mən sizin bacınızın təhsil haqqına kömək edə bilmərəm, amma əgər o biri iti sağaltmaq mümkün olmasa bacınızın təzə bir it alması üçün az da olsa kömək edə bilərəm. Nə yaxşı ki, bacınızın sizin kimi qardaşı var.

– İtin müalicəsi üçün az da olsa kömək edirəm. Mənim əvəzimdən bacınızı qucaqlayıb öpün. Başınıza gələnlərə təəssüf edirəm.

– Mənim də itimi bir dəfə maşın vurmuşdu, o vaxt onu POSA xilas etmişdi. Güman edirəm ki, sizə yaxın yerdə POSA olmaya bilər. Əgər kimsə mənə kömək edibsə niyə mən də sizə kömək etməyim? Mənim göndərdiyim on dolları itinizin müalicəsi üçün kiçik bir kömək kimi qəbul edin.

– Riyaziyyatı sevən bir qızdan. Bacınıza deyin ki, davam etsin. Elə etməsin ki, kimsə ona qalib gəlsin!

Telegram: @cinciva

***

Onun yazdıqlarını 459 nəfər paylaşmışdı. Niki ianə səhifəsində yüz otuz adamın adını gördü, ən kiçik məbləğ iki dollar, ən böyük məbləğ isə iki yüz əlli funt idi. Tamamilə yad bir adam ona iki yüz əlli funt yollamışdı. Bütünlükdə 932 .50 pens idi. Son məbləğ cəmi bir saat əvvəl göndərilmişdi. Niki səhifəsinə baxır, gözlərini rəqəmə zilləyib baxırdı. Bilmək istəyirdi ki, rəqəmi yazanda nöqtənin yerini səhv qoymayıblar ki...

Onun ürəyi sürətlə döyünürdü. O əlini ürəyinin üstünə qoydu, fikirləşdi ki, birdən ürəktutması ola bilər, ona elə gəldi ki, bu dəqiqə həyəcandan öləcək. Nə edəcəyini bilmədi, eləcə güldü... Sevindiyindən gülməkdən başqa nə edəcəyini bilmədi. O tamam yad adamların insanlığına sevinib güldü. O, yad adamların xeyirxahlığını hiss edib güldü, onların yaxşılığını hiss edib güldü.

Heç tanımadıqları insanı sevindirən, onun dərdinə şərik olan, tanımadıqları, görmədikləri və heç vaxt da görə bilməyəcəkləri yad adama pul yollayan insanların insanlığını duyub güldü. Hər şeyin səbəbkarı onun yazdığı sözlər idi, o sözlərinin dəyərini duyub güldü.

Cess servantın yanındaydı, çəhrayı çay dəsmallarını çıxarıb qonaq otağına aparmaq istəyirdi ki, Niki içəri girdi.

– Bir bura bax... Bax.

Belə deyib o, Cessin qolundan tutub divana tərəf çəkdi.

Telegram: @cinciva

– Nə olub?

– Əlindəkini bir yana qoy.

Sonra Niki noutbuku dizi üstünə qoydu, Cess az qala səksəndi, çünki Nikollsa məxsus bir əşyaya yaxın durmaq ona əzab verirdi.

– Bir bax... Bura bax, – Niki ianə hesabını ona göstərdi.

– Bir bax. Adamlar pul yollayıblar. Norman üçün.

– Nə demək istəyirsən?

– Cess, bircə bura bax.

Cess gözlərini qıyıb ekrana baxdı, səhifəni aşağı-yuxarı qaldırdı, oxudu, təkrar bir də oxudu.

– Amma... amma biz bu pulu götürə bilmərik.

– Bunu bizim üçün göndərməyiblər. Tanziyə göndəriblər. Normana yollayıblar.

– Heç başa düşə bilmirəm, niyə heç tanımadığımız adamlar bizi pul göndəriblər?

– Çünki onlar baş verənlərdən pis olublar. Çünki onlar baş verənlərin ədalətsiz olduğunu hiss ediblər. Çünki onlar kömək etmək istəyirlər. Bilmirəm nə deyim.

– Bəs onlar bunu hardan biliblər?

– Mən bu haqda bloqumda yazmışdım.

– Harda yazmışdın? Anlamadım.

– Nikolls mənə demişdi O mənə öz adamlarımı tapmağın yolunu öyrətmişdi... Mən sadəcə yazıb orda yerləşdirdim. Bizim başımıza gələnləri yazdım.

– Yazdığını mənə göstər.

Niki bloqunu ona göstərdi.

Cess yavaş-yavaş Nikinin yazdıqlarını oxudu, fikrini bir yerə cəmləyib oxudu. Bu vaxt Niki özünü çox

Telegram: @cinciva

qəribə hiss edirdi. Elə bil o heç kimə göstərmədiyini indi kiməsə göstərirdi. Tanıdığı adama emosiyalarını göstərmək ona ağır gəlirdi.

– Hə, müalicənin pulu nə qədərdir? – Niki Cessin oxuyub qurtardığını görüb soruşdu.

Cess heyrətdən yerində donub qalan adam kimi danışırdı.

– Səkkiz yüz yetmiş səkkiz funt... Hə, bir də qırx iki pens.

Niki əllərini göyə qaldırdı.

– Deməli, biz verə biləcəyik. Hamısını verə biləcəyik.

Cess ona baxdı, yarım saat əvvəl Nikikinin üzünün ifadəsi necəydisə, indi Cessin də üzünün ifadəsi elə idi.

– Hə, yad adamların mərhəməti...

Cess əlini ağzına apardı.

– Sadəcə inana bilmirəm ki, insanlar heç tanımadıqları adama pul yollaya bilər.

– Hər şey sən deyən kimidir. Yaxşı şeylər baş verir...

Niki istəyirdi ki, Cess gülümsəsin. O istəyirdi ki, Cess də onun kimi sevinsin. Elə bil haqqında eşitmədiyi bir dünyaya qapı açılmışdı – bu qapıdan baxanda çoxlu mərhəmətli insanlar görünürdü, xoşbəxtliyin mümkün olmasını görmək olurdu.

– Bu şad xəbərdir, Cess. Sevin!

Bir an sonra Cessin gözlərindən yaş axırdı, gözləri dolub-boşalırdı. Sonra o elə çaşmış halda baxdı ki, Niki əyilib onu qucaqlayıb öpdü.

Telegram: @cinciva

Son üç il ərzində Niki könüllü olaraq onu üçüncü dəfə qucaqlayırdı.

– Üzündə tuş ləkəsi qaldı, – Cess dedi.

– Oh, – Niki gözlərinin altını sildi.

Cess özünün də gözlərinin altına dağılmış tuşu sildi.

– Gözümün altında tuş qalıb? – Cess soruşdu.

– Yox. Bəs mənim üzümdə? – Niki dedi.

Cess əyilib baş barmağı ilə onun gözünün kənarlarını təmizlədi.

Sonra o dərindən nəfəs aldı, bu vaxt o elə bil əvvəlki Cessə döndü. Ayağa durdu, cins şalvarını şotkayla təmizlədi.

– Əlbəttə, gec-tez bu pulları geri qaytaracağıq.

– Pulların çoxu 3 funtdur.

– Tanzi bunu yoluna qoyar.

Cess çəhrayı çay dəsmallarını təzədən servanta qoydu. Üzünə tökülən saçını arxaya daradı.

– Niki, riyaziyyat haqqında yazılan mesajı da Tanziyə göstər, oldu? Bu ona çox vacibdir.

Niki başını qaldırıb Tanzinin yataq otağına baxdı.

– Əlbəttə, göstərəcəm.

Bircə anlıq da olsa onun üzünə kədər çökdü.

– Amma inanmıram ki, bunun bir xeyri ola, – özözünə dedi.

Telegram: @cinciva

37

CESS

Normanı evə gətirdilər. Cənab Adamson onlara güzəşt etdi, dedi ki, hər şey heyranedici olub. Cess fikirləşdi ki, "heyranedici" deyərkən o, Normanın zədələrinin tez sağalmasını nəzərdə tutur. Amma sonra məlum oldu ki, Adamsonun yanında işləyən tibb bacılarından biri Tanzi deyəndən sonra Nikinin bloquna baxıb. Adamson Normanın heyranedici it olduğunu, normal xarakterinə görə gözlənildiyindən də yaxşı nəticələr əldə edildiyini dedi.

– Biz də bu qəhrəmana kömək etməliyik, elə deyil, cavan oğlan? – belə deyib Adamson itin başını sığalladı. Baytar elə səmimi danışırdı ki, sanki Norman da bunu hiss etdi, döşəmənin üstündə atılıb-düşdü. Bu vaxt Adamson da əyilib itin yanında çömbəldi, onun bəzi yerlərinə diqqətlə baxıb gülümsədi. O, gördüyü işin nəticələrindən razı qalmışdı. Bu anlarda Cessin beynində Nikinin tez-tez təkrar etdiyi bir ifadə dolaşırdı: yad insanların mərhəməti.

Telegram: @cinciva

– Xanım Tomas, sevinirəm ki, siz o vaxt iti müalicə etdirməyə qərar verdiniz, – Adamson ayağa durdu.

Bu vaxt onun dizinin şıqqıltısını hər biri eşitməzliyə vurdu. Norman Adamsonun arxasında dilini yalaya-yalaya şöngümüşdü, elə bir durmağa köklüyü mane olurdu.

– Norman bu şansa layiq itdir. Ümid edirəm ki, tezliklə hələ daha da yaxşılaşacaq.

Cess telefonuna aylıq ödəmədən də çox ödədi. O heyvanların mərhəmət qutusuna iyirmi funt qoydu. Düzdür, iyirmi funti vacib olan başqa yerə də xərcləyə bilərdi, amma o düzgün hərəkət etdiyini düşündü.

Evə gedərkən Tanzi itin iri qara bədəninə sıxılıb, onun xaltasından elə tutmuşdu ki, sanki bu həyatda sağ qalma yolu it idi. İtin müalicə olunduğu yerdən evə qayıdarkən son üç həftə ərzində Tanzi ilk dəfə olaraq evdən bayırda anasının əlindən tutmadan yeriyirdi.

Cess ümid etmişdi ki, itin sağalıb təzədən evə qayıtması Tanziyə kömək edəcək, qızının əhvalının düzəlməsinə çox təsir edəcək. Amma Tanzi hələ də balaca kölgə kimi idi. Evin ətrafında gəzişir, evin künc-bucağına göz gəzdirir, dərs gününün sonunda məktəb darvazasının qabağında sinif müəlliminin yanında dayanıb narahatlıqla anasının yolunu gözləyirdi. Ya da saatlarla divanda oturub bir əlini Normanın başına qoyaraq multfilmə baxırdı. Tsvangarai müəllim təzə rüb başlayandan ailəsində hansısa hadisənin baş verməsi səbəbindən məktəbə gəlmirdi. Sanki onun yoxluğu da Tanzinin

Telegram: @cinciva

riyaziyyatı "kənara" itələməyinə təkan verdi, elə bil əvvəlki Tanzi indi başqa bir Tanziyə dönmüşdü. Hərdən Cessə elə gəlirdi ki, əvvəlki Tanzini bədbəxt, sakit bir qızla dəyişiblər.

Müqəddəs Ann məktəbindən Cessə zəng edib Tanzinin məsələsini müzakirə etmək istədiklərini bildirdilər. Cess onlara Tanzinin o məktəbə getmədiyini demək istədi. Amma sözlər elə bil boğazında ilişib qalmış iri bir qurbağaydı.

– Xanım Tomas, qızınızı bu məktəbdə oxutmağı sizə məsləhət görürük. İstəyirik ki, qabaqcadan onu məktəbin bütün şəraiti ilə tanış edək. Yaxşı olardı ki, gəlib burda oxuyan tay-tuşları ilə də tanış olsun. Yoxsa o hazırda oxuduğu məktəbdən vaxt tapıb gələ bilmir?

– Yox. Demək istəyirəm ki, o gəlməyəcək.

– Tamam gəlməyəcək?

– Yox.

Qısa sükut.

– Ah, belə deyin, – qeydiyyatçı dedi. Cess hiss edirdi ki, o əl atıb başqa kağızı götürdü:

– Bu doxsan faiz təqaüdə layiq görülən qızdır, eləmi? Costanza?

– Hə, – Cess qızardığını hiss etdi.

– Bəlkə o, Petersfield Academy məktəbinə getmək istəyir? Yoxsa o məktəbdən də ona təqaüd təklif ediblər?

– Yox. Belə bir fikrimiz yoxdur.

İndi o danışanda gözlərini yummuşdu:

Telegram: @cinciva

– Güman etmirəm... İmkan varmı ki, təqaüdü bir az da artırasınız?

– Bir az da artıraq? Xanım Tomas, bu, indiyədək təsis etdiyimiz ən böyük təqaüd idi. Üzr istəyirəm, belə şey olmaz.

Cess indi gözlərini daha bərk yummuşdu, sevinirdi ki, onun necə utandığını heç kəs görmür.

– Əgər gələn il pul tapa bilsəm, onda o yenə təqaüd ala bilər?

– Əmin deyiləm ki, bu mümkün olsun. Lap əgər olsa da, bu o biri namizədlərə qarşı ədalətsizlik olardı.

Qadın tərəddüdlə danışırdı, elə bil Cessin hansı vəziyyətdə olduğunu görürdü.

– Əgər bir daha müraciət etsəniz bu məsələni təkrar nəzərdən keçirərik.

Cess gözlərini yerə sərilmiş xalçadakı ləkəyə zilləmişdi. Bir dəfə Marti motosikli evə gətirmişdi, onda xalçaya benzin dağılmışdı, ləkə hələ də dururdu.

O, danışa bilmirdi, elə bil iri bir daş parçası qalmışdı boğazında.

– Xanım Tomas, – qadın dedi.

İndi onun səsi bir az yumşaq idi, küsdüyü adamla barışan adamın səsinə bənzəyirdi.

– Hələ bir həftə vaxtınız var. Son ana qədər biz bu yeri sizin qızınız üçün saxlayacağıq.

– Minnətdaram, çox sağ olun. Amma məncə buna ehtiyac yoxdur.

Telegram: @cinciva

Bunu Cess də bilirdi, elə o qadın da. Cess bilirdi ki, bir həftə içində möcüzə baş verməyəcək. Birdən-birə daha hündürə tullanmaq qeyri-mümkündür.

Qadın Cessdən xahiş etdi ki, onun salamlarını Tanziyə çatdırsın, onun öz məktəblərində görmək istədiklərini desin. Cess dəstəyi yerinə qoydu, ona elə gəldi ki, qadın indi başqa namizədlərin nömrələrini yığıb onlarla danışacaq.

***

Cess bu haqda Tanziyə heç nə demədi. Ürəyinə dammışdı ki, o, son qərarı bilir. Çünki iki gün əvvəl o, riyaziyyata aid olan bütün kitablarını özünün kitab şkafından yığışdırmış, dəhlizdə Cessin evdə qalan bəzi kitablarının arasına soxmuşdu. İndi Tanzinin riyaziyyata aid olan kitabları tarixi, bədii kitabların arasındaydı, elə qoymuşdu ki, Cess onları görə bilməsin. Cess bu kitabları görəndə onları ehtiyatla çıxardı, səliqəli şəkildə paltar şkafının siyirmələrinə yığdı. Burda onları heç kim görməyəcəkdi. Amma Cess əmin deyildi kitabları ora qoymaqla özünün arzularını "xilas" etmək istəyirdi, yoxsa qızının.

Vəkilin məktubunu alandan sonra Marti zəng etmişdi. Özündən çıxmışdı, etiraz edib nəyə görə ödəyə bilmədiyi üçün səbəblər deyirdi.

Amma Cess ona dedi ki, bu onun öz əlində deyil, qanunda belədir. Cess Martiyə dedi ki, onun uşaqlarının

Telegram: @cinciva

ayaqqabıya, paltara ehtiyacı var. Marti daha tətil vaxtlarında gəlmək haqda bir kəlmə də demədi.

Cess təzədən pivəxanadakı işinə qayıtdı. City of Paris-dən olan qız Texas Rib Shack barına işə getdiyindən daha işə gəlmədi. O. üç dəfə gecə növbəsində qalandan sonra daha işə gəlməmişdi. Onun getdiyi barda qiymətlər daha yüksək idi.

– Heç nə itirmədim. O hətta bilmirdi ki, gitarada "Layla" çalanda sakit durmaq lazımdır. Baş açmıram o necə işçi idi? O hələ dərk etmir ki, gitarada soloda

– "Layla" çalınanda mütləq sakit durmaq lazımdır, – Des öz fikrini bildirdi.

Cess həftədə dörd dəfə Nateli ilə birlikdə ev təmizləməyə gedirdi – Biçfrontdakı iki nömrəli mənzildən başqa.

O, divarlara kağızlar yapışdırıb görə biləcəyi işləri təklif edirdi, sobanın içini qaşımaq və sair bu kimi işləri. Bəlkə də Natali onun bu hərəkətini qəribə hesab edirdi, amma heç nə demirdi.

İş elanları verilən qəzetdə elan verdi. İlk işi elanı verəndən iyirmi dörd saat sonra gəldi. Təqaüdçü Aden Kreşentə hamam kabineti quraşdırmaq lazım idi. Qadın onun işindən çox razı qalmışdı, zəhmət haqqından əlavə beş funt da "çaypulu" verdi. Dedi ki, rəhmətlik əriylə qırx iki il bir yerdə yaşayıblar əri heç jaket asmaq üçün asılqan da düzəldə bilmirmiş. O, Cessin işini başqa rəfiqəsinə tərifladi, rəfiqəsi paltaryuyan maşının yerini dəyişmək istəyirdi, bir də xalçalarını çırpmaq.

Telegram: @cinciva

Sonra başqa iki yerdə iş təklifi gəldi, onlar da təqaüdçülər idi. Bu dəfə Cess Biçfrontdakı iki nömrəli mənzilə İkinci Ödəmə adlı bir zərf göndərdi, daha doğrusu, Natali apardı, xəbər gətirdi ki, "Satılır" elanı hələ də qapının üstündədir.

Ailədə ən yüksək əhvalı olan Niki idi. Elə bil bloq ona yeni bir həyat bəxş etmişdi. Adətən axşamlar Normanın sağlamlığındakı irəliləyiş barədə məlumat yazırdı. O, facebookdakı dostlarından biri ilə real həyatda görüşdü. İRİ-nin mənasını Cessə də izah etdi. Sonra isə real həyatda gördüyü oğlan haqqında "çox yaxşı oğlandır", – dedi. Niki iki kollecdə keçirilən açıq qapı günlərində iştirak etməyi planlaşdırmışdı, onunla əlavə məşğul olan müəllimlə çətinlikləri necə aradan qaldırmaq barədə söhbət edirdi. Niki gülümsəyirdi – gün ərzində bir neçə dəfə. Normanı mətbəxdə quyruğunu yelləyən görəndə dizi üstə oturub itin başını sığallayar, ya da qırx yeddi nömrəli həyətdə yaşayan, saçlarını Nikinin saçı rəngində boyayan Lola adlı qızı görəndə qeyri-iradi əlini qaldırıb onu salamlayardı. Cess fikir vermişdi ki, qız həyətlərində çox vaxt gitara çalardı.

Niki indi sərbəst şəhərə çıxır, daha çiyni üstdən qanrılıb arxaya baxmırdı.

Bir gün günorta vaxtı Cess gördü ki, Niki yenə də özünün köhnə kompüterində yazır.

Cess tez soruşdu:

– Bəs noutbuk hanı?

Telegram: @cinciva

– Mən onu geri qaytardım. Natali ilə birgə getdim onun evinə.

– Sən onu gördün? – Cess tələsik soruşdu.

Niki baxışlarını Cessin baxışlarından yayındırmaq istədi.

– Təəssüf ki, yox. Onun ev əşyaları ordaydı, amma hamısı qutularda. İnanmıram ki, o daha orda qalsın.

Əslində burda təəccüblü heç nə yox idi. Amma Cess daha dözməyib aşağı düşdü, əlini ürəyinin üstünə qoydu, sanki bütün dünyası tar-mar olmuşdu.

Telegram: @cinciva

38

ED

Bir neçə həftə sonra Ed məhkəməyə gedəndə bacısı da onunla birlikdəydi. Hava çox sakit və istiydi. Sanki istilik Londonun damarlarında qanın hərəkətinə mane olur, maşınlar küçələrdə "sürünürdü". Ed anasına demişdi ki, məhkəməyə gəlməsin, çünki bilirdilər ki, həmin ərəfədə atasını xəstəxanada tək qoyub gəlmək düz fikir deyildi. Taksi ilə məhkəməyə gedəndə, yolda nəqliyyatın sıx olmasını görüb Gemma qeyri-iradi əllərini dizinə döyəcləyir, irəli əyilib baxır, heç nə demirdi. Bəlkə də o, Eddən də gərgin vəziyyətdə idi. Ed özünü qəribə hiss edirdi. Gələcəyi, itirdikləri, bu gün onu nəyin gözlədiyi barədə fikirlər.

Demək olar ki, məhkəmə zalı boş idi. Old Baileydə qətl hadisəsi baş vermişdi. Eləcə də bir gənc aktrisanın ölümü bütün jurnalistlərin başını qarışdırmışdı. Zalda məhkəmə sözçüsü və Financial Times qəzetinin bir müxbiri vardı. Ed neçə gün əvvəl vəkil komandasının etirazına baxmayaraq, gəlib günahını etiraf etmişdi.

Telegram: @cinciva

Dinna Levisin günahsız olması barədə iddiaları rədd edilmişdi. Çünki Dinna ilə münasibətləri olan bir bankir dostu dəfələrlə ona yazmışdı ki, onun etdikləri qiymətli kağızlar üzrə qeyri-qanuni əməliyyatdır. Dinna isə cavabında ona "hər şeyə bəhanə axtaran", "hay-küy qaldıran" kimi ifadələr və "niyə mənim irəliyə getmək üçün şansımdan istifadə etməyimə mane olursan?" yazmışdı.

Ed bir-birinin yanında oturub məhkəmə sözçüsünün bəzi vərəqləri dörd qatlayıb cırmasına baxan vəkillərinə baxırdı.

– Mənə məlumdur ki, günahınızı etiraf etmisiniz, bu da təcrid edilmiş cinayət hərəkətidir. Sizin Dinna Levislə münasibətinizin əsasında pul yox, başqa faktorlar dayanır. Amma bu fikirləri Maykl Levis barəsində deyə bilmərəm , FSA onun başqa cinayətlərinin üstünü də açıb, – hakim dedi, bir az fasilə verib əlavə etdi:

– Demək istəyirəm ki, sizin hərəkətiniz investorların inamını azaldır, bütövlükdə maliyyə sisteminin quruluşunu zəiflədir. Sizə tətbiq edilən cəza "qorxutma vasitəsi" hesab edilə bilər. Çünki belə olmasa bəziləri bu hərəkəti "qurbansız" cinayət adlandıra bilər.

Ed dokda dayanıb deyilənləri dinləyir, bilmirdi sevinsin ya 750, 000 funt məbləğində cəriməni, altı aylıq şərti cəzanı, on iki ay isə şübhəli şəxs qismində olmasını fikirləşsin.

Məhkəmə qurtardı.

Gemma elə dərindən nəfəs aldı ki, az qala çiyinləri titrədi. Sonra başını əlləri arasına aldı. Ed quruyub

Telegram: @cinciva

almışdı, "elə bu?" deyəndə Gemma başını qaldırıb inamsızlıqla ona baxdı. Məhkəmə işçisi dokun qapısını açdı, Ed ordan çıxanadək onu müşayiət etdi. Pol Vilks dəhlizdə göründü, əlini Edin çiyninə qoyub şappıldatdı.

– Minnətdaram, – Ed dedi, ona elə gəldi ki, o anda demək üçün bundan yaxşı söz yoxdur.

Bu vaxt Ed dəhlizdə Dinna Levisi gördü. O, əl-qolunu oynada-oynada kürənsaç bir kişiylə söhbət edirdi. Hiss olunurdu ki, kişi Dinnaya nəyisə izah etməyə çalışır, o isə başını yelləyir, kişinin sözünü yarıda kəsirdi. Ed bir müddət dayanıb ona baxdı, amma sonra heç nə fikirləşmədən dəhlizdə toplaşmış adamların arasından keçib birbaşa ona tərəf yönəldi, ona çatıb dedi:

– Demək istəyirəm ki, təəssüf edirəm. Əgər mən fikirləşsəydim...

Dinna Levis çiyni üstündən qanrıldı, az qala gözləri hədəqəsindən çıxmışdı:

– Nə? Sürüş burdan!

Qəzəbdən onun üzü qıpqırmızıydı, sözünü deyib arxasını yenə Edə çevirdi:

– Hər şeyini uduzan əclaf!

Dinnanın səsini eşidənlər əvvəlcə dönüb Edə baxdılar, sonra başlarını aşağı salıb getdilər. Edə elə gəldi ki, kimsə güldü. Ed elə koridorda dayanmışdı, bir əlini də qaldırıb elə bil nəyisə sübut etmək istəyirdi, bu vaxt qulağına səs gəldi:

– Dinna heç də axmaq deyil. O çox yaxşı bilirdi ki, bunu qardaşına deməli deyildi.

Telegram: @cinciva

Ed dönüb baxdı, arxasında dayanan Ronan idi. Əynində həmişəki dama-dama köynəyi , gözündə də həmişəki qara eynəkləri, noutbuk çantası da çiyninə aşırılmışdı, üzündən tam sakit olduğu bilinirdi.

– Sən... Sən səhərdən bəri burdaydın? – Ed soruşdu.

– Ofisdə oturmaqdan bezdim. Gəldim ki, əsl məhkəmənin necə olduğunu görüm.

Ed dayanıb ona baxırdı:

– Baha başa gəldi.

– Hə, mən də elə düşünürdüm.

Gemma Pol Vilkslə əl sıxıb ayrılırdı, sonra jaketinin qırışını düzəldə-düzəldə onlara yanaşdı.

– Ok. İndi isə gedək anaya zəng edib bu şad xəbəri deyək.

Gemma anasının telefonuna zəng çatmadığını, ehtiyat enerjisinin qurtardığını dedi. "Kaş ki o telefonuna enerji yığaydı" deyib Ronana yanaşdı:

– Salam, Ronan.

Ronan əyilib onun yanağından öpdü.

– Gemma, səni görməyimə şadam. Nə vaxtdır görmürdüm səni.

– Gör nə vaxtdır. Hə, gəlin bizə gedək, – bunu deyib Gemma Edə tərəf döndü:

– Nə vaxtdır ki, uşaqlarımı görmürsünüz. Soyuducuda yaxşı spagetti sousu var. Ronan, sən də gəl. Əlavə də nəsə ala bilərik.

On səkkiz yaşında olduğu vaxtlardakı kimi Ronan yenə baxışlarını yayındırdı, döşəmədə nəyisə təpikləməyə başladı.

Telegram: @cinciva

Ed bacısına tərəf döndü:

– Hm... Hm... Gemma, əgər indi getməsək incimərsən ki? Bircə bu gün yox!

Gemmanın üzündəki təbəssümün necə yox olduğunu Ed aydınca hiss etdi.

– Başqa bir vaxt təyin edib gələrik. Bu gün... Sadəcə... Ronana deməli çox sözüm var. Çoxdandır ki...

Gemma gah Edə, gah da Ronana baxdı.

– Eybi yox, mənə zəng edərsən, – Gemma gözlərinin üstünə düşən saçını arxaya itələdi, sonra da çantasını çiyninə aşırıb pilləkənlərə tərəf yönəldi.

O, pilləkənlərə çatmamış Ed onu arxadan səslədi, elə bərkdən çağırdı ki, hətta bəzi adamlar dönüb ona baxdılar.

– Ey, Gemma!

Gemma arxaya döndü.

– Sağ ol. Hər şeyə görə.

Gemma yerində dayanıb ona baxdı.

– Hə, çox sağ ol. Zəhmətini çox qiymətləndirirəm.

Gemma gülümsəyib başını yırğaladı. Sonra adamların arasında görünməz oldu.

– Hə, içmək istəyirsən? – Ed çalışdı ki, sözləri yalvarış kimi çıxmasın. Sonra isə zarafatla:

– Qorxma, mən alacam, – dedi.

– Əgər belədirsə... – Ronan gülümsədi.

***

Edin anası deyirdi ki, əsl dost həftələrlə, ya illərlə bir-biriylə görüşməsələr də, lazım olan anda, ehtiyac

Telegram: @cinciva

olanda yanında görə bildiyin adamdır. Edin elə də çox dostu yox idi ki, onları sınaqdan keçirsin. Edlə Ronan çox adamın olduğu bir bara gedib yellənən kreslolarda oturdular. Əvvəlcə bir az sakit durdular, sonra isə yadlarına düşən zarafatları üyüdüb tökdülər.

Ronan pul qabını götürüb pul götürmək istəyəndə Ed onun kredit kartlarının yanında bir qızın şəklini gördü.

– Hə, o qəşəng qız necədir?

– Kareni deyirsən? – Ronan gülümsədi, yalnız şəxsi həyatda xoşbəxt olanlar belə gülümsəyə bilərlər.

– O yaxşıdır. Faktiki olaraq indi bir yerdəyik.

– Baho? Artıq bir yerdəsiniz?

Ronan başını qaldırdı:

– Artıq altı aydır onunla tanışıq . Ev kirayələrinin baha olduğu Londonda ayrı-ayrı evlərdə qalmaq sərfəli deyil.

– Fantastik xəbərdir. Təbrik edirəm.

– Hə, o çox yaxşı qızdır. Mən xoşbəxtəm, həqiqətən də.

Bir müddət ikisi də sakit dayandı. Ed hiss etdi ki, Ronan saçını qırxdırıb. Əynindəki də təzə jaket idi.

– Çox sevinirəm, Ronan. Elə həmişə düşünürdüm ki, siz bir-birinizə yaraşırsınız.

– Təşəkkürlər, Ed.

Hər ikisi gülümsədi.

Ed gözünü pivəyə zilləmişdi. Çalışırdı ki, kefinin pozulduğunu Ronan hiss etməsin. Çalışırdı ki, öz həyatını düşünməsin. Günün sonu olduğundan işdən çıxanlar, ofis işçiləri, dikdaban tufli geyinmiş qızlar

Telegram: @cinciva

bara girib-çıxırdılar. Birdən Edə elə gəldi ki, sanki onun danışmaq limiti qurtarmaq üzrədir.

– Üzr istəyirəm, Ronan!

– Nəyə görə?

– Hər şeyə görə. Dinna Levislə əlaqələrim barədə sənə demədiyimə görə. Etdiyim hərəkətə görə.

Səsi yarıda qırıldı.

– Həyatımı alt-üst etdim. Demək istəyirəm ki, işimə görə pis oluram. Amma ən çox etdiklərimə görə peşmanam.

Ronan pivədən bir iri qurtum aldı.

– Narahat olma. Mən bu haqda çox düşünmüşəm, anladım ki, əgər sənin yerində mən olsaydım, yəni Dinna Levis mənim yanıma gəlsəydi mən də bunu səndən gizlədərdim, – Ronan yazıq-yazıq gülümsədi.

– Hə, o, Dinna Levisdir, – əlavə etdi.

– O heç də bizim fikirləşdiyimiz kimi deyilmiş, – Ed dedi.

– İstəyirsən inan, istəyirsən inanma, mən onun necə olduğunu bilirdim, – Ronan qımışdı.

– Ciddi deyirəm, düzdür, mən işimi itirməyimə, çox şeyi itirdiyimə görə təəssüf edirəm. Amma bilsəydin ki, son vaxtlar necə...

Ronan çiynini çəkdi, Edin nə deyəcəyini gözlədi.

Yenə də sakitcə oturdular. Ronan kresloya söykəndi.

– Bilirsən, neçə vaxtdır ki, sən işdə deyilsən. Bu məni bəzi şeyləri dərk etməyimə kömək etdi. İnan ki, daha Mayfly-da işləmək istəmirəm. Sən orda işləyəndə ordakı iş mənə maraqlıydı. Gəlir-çıxır, səhmlər, bunlar

Telegram: @cinciva

mənlik deyil. Mənim xoşladığım bunlar deyildi. Biz buna görə bu işə start verməmişdik.

– Mən də. Mən səndən ötrü darıxıram, onlar üçün yox.

– Sonu olmayan iclasları deyirəm. Ed, heç bilirsənmi indi onlar hər işçiyə ayrıca vaxt cədvəli təyin ediblər. Yorucudur.

Ed gözləyirdi.

– Ronan!

– Nədir?

– Bir ideyam var. Son iki həftədir bu barədə düşünürəm. Yeni bir proqram təminatı. Bu çox sadədir, həm də bütün insanlara kömək edə bilər. Pulu necə xərcləməyi bilməyən adamlar üçün. Elə mürəkkəb deyil. Bu cədvəldə seçim hesablaması olacaq.

– Maraqlıdı.

– Bunu həyata keçirmək üçün ucuz kompüter də kifayətdi. Ya da ucuz mobil telefonlar da. Amma...

Ronan fikirləşirdi. Ed bilirdi ki, Ronan indi onun dedikləri barədə fikirləşir.

– Məsələ bundadır ki, kodlaşdırmanı yaxşı bilən adam lazımdır.

Ronan pivəsinə baxdı, onun sifəti neytral idi.

– Sən yaxşı bilirsən ki, daha Mayfly-a qayıda bilməzsən, düzdür?

Ed başını yırğaladı.

Universitet illərindən tanıdığı ən yaxın dostu dedi:

– Mən kodlaşdırmanı yaxşı bilirəm.

Roman Edə vaxdı, ikisi də qımışdı.

Telegram: @cinciva

39

ED

Bütün bu illər ərzində Ed heç vaxt bacısının telefon nömrəsini əzbərdən bilmədi. Bütün bu illər ərzində bacısı həmişə eyni evdə yaşasa da Ed onun ünvanını yadında saxlamadı. Bunları fikirləşən Ed özünü pis hiss etdi.

Ronan Tube stansiyasında dönüb gedəndə Ed, King's Head-dən kənardaydı. Dostunu yola salandan sonra Ed fikirləşdi ki, öz evinə, əşyaları qablaşdırılmış evinə getməyəcək.

Altı dəfə zəng etsə də bacısı telefona cavab vermədi, amma Ed bacısının ona tərəf gəldiyini gördü.

– Gemma?

– Hə, – nəfəsi kəsilə-kəsilə dedi, – Ed, bu pilləkənləri də tanımırsan?

– Hələ bir de görüm spaggetii şorbası hələ durur?

Finsbury Park-dakı balaca evin qapısı açıldı və onlar velosipedlərin, ayaqqabı topasının, zala doğru uzanan əsas yolu tutmuş aşıb-daşan qarderobun yanından keçib axır ki, otağa daxil oldular.

Telegram: @cinciva

– Axır ki, gəlib çıxdın! – belə deyib bacısı Edi qucaqladı.

Gemma indi kostyum geyinməmişdi, əynində cins şalvar və cemper vardı.

– Axırıncı dəfə bizə nə vaxt gəldiyini yadıma sala bilmirəm, – dedi. – Fil, Ed axırıncı dəfə bizdə nə vaxt olub?

– Larayla gəlmişdi, – dəhlizin o başından səs gəldi.

– İki il əvvəl? – Gemma soruşdu.

– Gemma, yaxşısı budur butulka açanı gətir mənə, – əri dedi.

Otaq səs-küylü və tör-töküntü idi. Mətbəxdən buxar qalxır, sarımsaq iyi aləmi bürümüşdü. Mətbəxin bir tərəfində paltarlar sərilmiş paltarqurudan vardı.

Hara baxsan kitab, kağız, uşaqların çəkdiyi şəkilləri görmək olurdu. Fil Edlə görüşəndən dedi:

– Şam yeməyindən qabaq bir neçə e mail yollamalıyam. Etiraz etmirsinizsə mən gedim.

Gemma sözə qarışdı:

– Qarmaqarışıqlığa görə üzr istəyirəm. Neçə gündür ki, işdə oluram. Phil də evdə olmayıb, bir tərəfdən də, Rosario gedəndən bəri başqa ev təmizləyən götürməmişik. Çünki o çox ucuz edirdi, başqaları baha edir.

Amma Ed belə qarmaqarışıq, səliqəsizlikdən ötrü elə bil darıxmışdı.

– Mənim xoşuma gəlir bu, – o dedi. Üzündə qəribə istehzalı təbəssüm vardı. – Ciddi deyirəm, xoşlayıram. Mənə elə gəlir ki...

– Hər yan səliqəsizdir, çirklidir axı, – Gemma dedi.

Telegram: @cinciva

– Çox yaxşıdır, belə xoşlayıram.

Ed mətbəxdəki stulda oyurdu, dərindən nəfəs aldı.

– Salam, Ed dayı!

Ed gözlərini döydü,

– Sən kimsən? – deyə soruşdu.

Parlaq saçlı, gözlərinin altına tuş çəkmiş yeniyetmə qız Edə baxıb gülümsəyirdi.

Ed bacısına tərəf döndü.

– Ed, uşaqlar tez böyüyür, Ed! Tanımadın? Custin, gəl Ed dayınla görüş!

– Mənsə elə bilirdim, Ed dayı həbsxanaya gedəcək, – o biri otaqdan başqa adamın səsi eşidildi.

– Ed, bağışla, – Gemma mətbəxdəki işini buraxıb səs gələn otağa girdi. Ed otaqdan gəln ciyiltili səsi eşitdi. Deyəsən bacısı kiməsə qulaqburması verirdi.

– Anam deyir siz olub qalan pulunuzu da itirmisiniz, – Custin içəri girdi, Edlə üzbəüz oturdu, stolun üstündəki Fransız çörəyinin qabığını soyub yeməyə başladı.

Ed bir iki il əvvəl gördüyü, arıq, çənəsi uzun uşaqla qarşısındakı uşağı müqayisə edib sanki möcüzə görürmüş kimi heyrətləndi. Muzeydə əntiq bir əşya görürmüş kimi öz-özünə pıçıldadı:

– Çox qəşəng. Çox qəşəng.

– Sənin o qəşəng evin durur? – Custin soruşdu.

– Bir neçə saat bundan qabaq dururdu.

– Eh, mənsə xahiş edəcəkdim ki, on altı yaşımı sənin mənzilində qeyd etmək üçün icazə verəsən.

– Hə, deməli, bundan imtina etmək xoşbəxtliyindən azad olmuşam.

Telegram: @cinciva

– Həbs olunmadığın üçün xoşbəxtsən, düz deyirəm, dayı?

– Məncə mən indi ailəmiz üçün bir ibrətamiz sənədli film kimiyəm.

Gemma gülümsədi, – Justine , sən lap dayın uşaq olanda necə dəcəllik edirdisə elə edirsən.

– Deməli, mənim dəcəlliyim sənə keçib? – Ed də gülümsəyib Justineyə baxdı.

– Hə, ana, bu evdə mənəvi dərs almışıq. Görürsən, səhv yolla gedəndə nələr baş verir? Bir vaxtlar dayımın hər şeyi vardı, indi isə...

– Mən indi yemək dilənirəm, yeddi il bundan əvvəlin maşınını sürürəm, – Ed yarızarafat, yariciddi dedi.

– Bizim maşınlar ondan da köhnədir, – Custin zala tərəfə baxıb Edin qulağına pıçıldadı: – Dayı, anama qarşı sevginizdə xəsislik etməyin. Dünən bütün günü o telefondan asılı qalıb, neçə adama zəng edib, təki sən içəri düşməyəsən.

– Doğrudan?

– Həqiqətən də o sarsılmışdı. O kiminləsə danışanda mən də eşitdim. Deyirdi ki, sən Pentonvill həbsxanasında heç beş dəqiqə də qala bilməzsən.

Ed içində qəribə bir ağrı his etdi. Bəlkə də bu ağrıya səbəb bacısının onunçün etdiklərinə etinasız yanaşmasını hiss etməsi oldu. Həbsxanaya düşməsinin yaxınlarına necə təsir etməsi haqda heç düşünməmişdi də.

– Ana bunu deməkdə haqlıdır, Custin.

Telegram: @cinciva

Custin saçını alnına dağıtdı, bir çəngə saçını əlinə alıb oynatmağa başladı. Hiss olunurdu ki, bundan həzz alır.

– Dayı, de görüm indi nə etmək istəyirsən? Sən işsiz, evsiz qalmaqla lap ailəni rüsvay etmisən? Nəylə məşğul olmaq fikrin var?

– Hələ heç bir qərar verməmişəm. Bilmirəm, bəlkə narkotikə qurşanacam, – Ed gülümsündü.

– Hm. Hm... Bu lap pis olar, – Custin dedi, gözlərini dayısına dikdi: – Onu da deyim ki, sənin gəlişinlə evimizdə əsl Ana günüdür. Bacın özü hiss etdirməsə də sənin gəlişindən çox məmnundur. İnan ki, o hətta həyətdəki tualeti də təmizləyirdi ki, birdən işdir sən ora gedə bilərsən.

– Elə? İndi gedərəm ora, sözlərinin doğruluğuna əmin olmaq üçün.

Custin gözlərini qıyıb dayısına baxdı, sanki onun sözlərinin ciddi olub-olmadığını yoxlamaq istəyirdi. Sonra o ayağa durdu, yuxarıdakı otağa çıxdı.

***

– Hə, Ed, nə baş verirdi burda? – Gemma stolun üstünə salat , yemək qoydu, elə birinci öz boşqabına salat qoyub yeyə-yeyə soruşdu.

– Yaxşı yadıma düşdü, sənlə xəstəxanaya gələn o qız necə oldu bəs? Onun adı nəydi? Joss? Yoxsa Cess? Mənsə elə bilirdim o bu gün məhkəmədə də iştirak edəcək.

Telegram: @cinciva

Ed də salatdan öz boşqabına qoyub dadına baxdı. Son illər ərzində yediyi ən dadlı salat idi bu, üç dəfə salatdan götürüb boşqabına qoydu. Elə bil neçə həftə bundan əvvəl yoxa çıxmış iştahası geri qayıtmışdı.

O, ağzındakını çeynəyib udandan sonra bacısının sualına cavab verdi:

– Mən bu mövzuda danışmaq istəmirəm.

– Ed, bəsdi də, sən elə heç vaxt heç nə haqda danışmaq istəmirsən. Di, danış, de görüm nə oldu?

– Nə olacaq? Pozuluşduq.

– Nə? Niyə? Bir yerdə çox xoşbəxt görünürdünüz axı! Hətta Lara ilə bir yerdə olduğun vaxtlardakından da daha xoşbəxt.

– Hə, xoşbəxt idik...

– Ed, vallah sən axmaqsan. O çox normal qadın idi, sənin də münasibəti çox yaxşıydı, sənsə ondan da uzaqlaşmısan.

– Gem, həqiqətən də bu mövzuda danışmaq istəmirəm.

– Yox, Ed, elə şey yoxdur. Danışacaqsan. Yoxsa münasibətləri davam etdirməyə qorxdun? Yoxsa düşündün ki, Larayla boşanmanızdan hələ çox vaxt keçməyib? Sən heç də Laranı arzulamırsan, düz deyil?!

Ed bir tikə çörək götürdü, onu boşqabdakı sousa batırıb ağzına qoydu. Tikəni ağzında bir neçə dəqiqə çeynədi, elə bil bununla cavab vermək üçün vaxt qazanmaq istəyirdi.

Telegram: @cinciva

– O məndən oğurluq etdi, – nəhayət, Ed dərindən nəfəs alıb dilləndi.

– Nə etdi?

Yuxarı otaqda Gemmanın uşaqları mübahisə edirdilər, səsləri otağı başına götürmüşdü . Ed bu an Nikini və Tanzini xatırladı. Onlar da maşının arxa oturacağında tez-tez mübahisə edər, hərdən də mərc gələrdilər.

Edə elə gəldi ki, ürəyindəkiləri kiməsə açıb deməsə ürəyi partlayar. Ona görə də Ed Cess barədə hər şeyi bacısına danışdı.

Gemma qabağındakı boşqabı bir az yana itələdi, azca irəli əyilib stola dirsəkləndi. Edə qulaq asdıqca hərdən alnını qırışdırır, hərdən gülümsəyirdi. Nəhayət, Ed Cessin evində təhlükəsizlik kamerasını quraşdırmasını, mebeli yana çəkmək üçün siyirmədən tutub dartarkən siyirmənin içindəki mavi corabın içində özünün laminasiyalı şəkli olan security kartını və pulu gördüyünü danışdı.

– Gemma, o əllərini ağzına tutub "bu barədə sənə demək istəyirdim", – dedi. Kaş biləydin mən onda nələr çəkdim. Aman Tanrım! – Gemma, mən elə bilirdim o fərqlidir. Elə düşünürdüm o başqa qadınlar kimi deyil... Elə bilirdim o tam fərqlidir, öz prinsipləri var, möhkəm xarakteri var. Amma... rədd olsun, o da elə Lara kimiymiş. Lap elə Dinna kimi... bütün fikri-zikri yalnız məndən nəsə çırpışdırmaq imiş. Gem, ağlıma sığışdıra bilmirəm, o niyə bunu edib? Niyə mən bu qadınları bir kilometr uzaqdan tanıya bilmirəm?

Telegram: @cinciva

Ed danışıb qurtardı, o da stola dirsəklənib bacısının nə deyəcəyini gözlədi.

Gemma heç nə demədi.

– Gemma, nədir, niyə dinmirsən? Niyə mənim xarakterimin bu zəif cəhəti haqda heç nə demirsən? Niyə məni danlamırsan ki, yenə də hansısa bir qadının mənə məxsus olanları götürməsinə imkan vermişəm? Niyə mənim axmaqlığımdan danışmırsan, Gemma?

– Ed, mən heç də sənin kimi düşünmürəm.

– Bəs nə demək istəyirsən?

– Heç bilmirəm, – Gemma boşqabına baxa-baxa dedi.

Gemmanın üzündə təəccüb ifadəsi yox idi. Ed fikirləşdi ki, bəlkə on il sosial işçi kimi işlədiyindən bu cür xəbərlər heç də onu sarsıtmır. Neytral ifadə vardı üzündə.

– Bundan da pis ola bilərdi, – Gemma dilləndi.

– Necə yəni, oğurluqdan da pis? – Ed təəccübləndi.

– Ed, heç sən bilmirsən ki, ümidsiz olmaq nə deməkdir.

– Ümidsiz olanda başqasının pulunu oğurlayırlar?

– Yox, əlbətə yox. Amma... hm... hm... Unutma ki, dünənki günü biz məhkəmədə keçirmişik. Sən dövlət sirrini başqasına dediyinə görə öz günahını etiraf etdin. Bu isə o deməkdir ki, sən heç də mənəvi arbitr deyilsən. İş olanda olur. Bütün insanlar səhv edir, – Gümma ayağa durdu, stolun üstündəki boşqabları götürüb "kofe gətirim?" – soruşdu.

Ed isə hələ də ona baxırdı.

– Sənin susmağını razılıq kimi qəbul edirəm. Durum boşqabları yuyum, kofe hazırlayım. Mən boşqabları yuya-yuya sən də Cess haqda mənə danış.

Telegram: @cinciva

Gemma boşqabda qalan yeməkləri yavaşca sıyırıb başqa qaba yığdı.

Ed danışmağa başladı, çalışırdı ki, Gemmanın gözlərinə baxmasın. O danışdıqca Gemmanın fikrə daldığı hiss olunurdu. Ed danışıb qurtardı, boşqabları çanağın içinə yığmaqda bacısına kömək etdi.

– Aha, deyirsən ki, o ümidsiz vəziyyətdədir. Əri onu atıb gedib. Deyirsən ki, onun uşaqlarına hədə-qorxu gəlirlər, tez-tez oğlunu döyürlər. O da qorxur ki, gələcəkdə qızını da döyə bilərlər. Bu vaxtlarda o hardasa, bəlkə də pivəxanada pul tapır və onu götürür.

– Gem, axı o bilirdi ki, o pullar mənimdir.

– Amma onda o səni tanımırdı.

– Bəyəm bunun bir fərqi var ki?

Gemma çiyinlərini çəkdi.

– Yalançılar özlərini sığortalamaq üçün belə deyə bilər.

Ed yenə də nəsə demək istəyəndə Gemma dedi:

– Düzünü desəm, mən onun nə fikirləşdiyini deyə bilmərəm. Onu deyə bilərəm ki, insanlar gərgin vaxtlarda, dara düşəndə axmaq hərəkətlər edirlər, doğru olmayan qərar qəbul edirlər. Mən bu cür hallarla demək olar ki, hər gün qarşılaşıram. Onlar axmaq hərəkət edir, bunu da düzgün səbəb hesab edirlər. Bəziləri səhvlərini sonralar anlayır, bəziləri isə yox.

Ed heç nə deməyəndə Gemma davam etdi:

– Heç iş yerindən evə diyircəkli qələm gətirdiyin vaxtlar olub?

Telegram: @cinciva

– Gemma, bu diyircəkli qələm deyil, beş yüz funtdan söhbət gedir.

– Olubmu ki, maşını park etmisən, amma sayğaca baxmadan az ödəmisən, hətta buna görə sevinmisən də. Belə şeylər olmayıb?

– Gemma, bunlar eyni şey deyil.

– Ed, heç yolda sürət həddini ötüb keçməmisən? Heç vaxt başqalarının Wİ-Fİ-dan istifadə etməmisən?

Gemma Edə tərəf əyildi:

– Heç verdiyin vergini şişirtməmisən?

– Gem, bütün bunlar tamam ayrı-ayrı şeylərdir.

– Bilirəm, məqsədim sənə hər birimizin bu və ya başqa şəkildə cinayət etdiyini xatırlatmaqdır. Sənin dünənki günün isə, ay balaca qardaşım, buna parlaq misaldır. Bununla onun hərəkətinə haqq qazandırmaq istəmirəm. Deyirəm, bəlkə bu bir hərəkətə görə ona qiymət verməyəsən.

Gemma qabları yuyub qurtardı, əlindən rezin əlcəkləri çıxardı. Sonra iki krujka kofe süzüb stolun üstünə qoydu. Özü isə hələ ayaqüstə olarkən sözünə davam etdi:

– Bilmirəm nə deyim. Bəlkə mən insanlara elə ilk səhv hərəkətdən qiymət vermədiyim üçün bu fikirdəyəm. Bəlkə də əgər sən də hər gün neçə-neçə insanın məhzun sifətini görsəydin onda mənim kimi fikirləşərdin. Sənin yerində olsaydım, onu axıra qədər dinləyib səbəbini öyrənərdim.

Ed cavab vermək haqqında fikirləşmirdi.

Telegram: @cinciva

– Düzünü de, ondan ötrü darıxırsan?

Ondan ötrü darıxırdımı? Ed elə bil bədəninin hansısa bir orqanını itirmişdi, bir bədən üzvü olmayanda insan necə olarsa onun da halı eləydi. O hər gün onunla bağlı fikirləri beynindən qovmaq istəyirdi, fikirlərinin istiqamətini dəyişdirməyə çalışırdı. Amma əbəs yerə. Hər şey Edə onun xatırladırdı – maşın, çarpayı, yemək... Hər şey... Hər gün səhər yeməyindən qabaq xəyalən onunla mübahisə edirdi, yatağa getməzdən qabaq azı min dəfə ehtiraslı barışıq anları yaşamışdı xəyalən.

Yuxarı otaqdan uşaqların səsi Edi fikirlərindən ayırdı.

– Bilmirəm, bundan sonra ona etibar edə bilərəmmi? – Ed Gemmaya baxdı.

Ed bacısına nəyisə edə bilməyəcəyini bildirəndə Gemma ona necə baxardısa indi də elə baxdı.

– Məncə, etibar edə bilərsən, Ed. İnanıram ki, etibar edərsən.

***

Ed spirtli içkinin qalanını da içib qurtardı, sonra özüylə gətirdiyi butulkanı da içdi. Bacısıgildə divanın üstündə oturub bu butulkaya görə nə qədər mübahisə etmişdilər. Gemma onun içməsini istəmirdi, ona görə də butulkanı aparmasına razı deyildi.

Səhər saat altının yarısında oyananda tərin içindəydi. Yataqdan durub bacısına qısa bir qeyd yazıb təşəkkür etdi. Sakitcə gedib maşınına mindi. Biçfronta, evinə

Telegram: @cinciva

gəldi ki, evi satan agentlə söhbət etsinlər. "Audi"ni və "BMW"ni keçən həftə maşın dəllalına vermişdi satmaq üçün. İndi o köhnə-kürüş, yeddi il əvvəlin "Mini"sini sürürdü.

Gözəl bir yaz səhəriydi. Yollarda maşın az idi, evə gəlib çatanda saat on birin yarısıydı, yenə də yollarda sıxlıq yoxdu. İstirahət parkında qonaqlar qaynaşırdı. Bəziləri çiyinlərində dəsmal çimərliyə tərəf gedirdilər Yaxşı geyinmiş uşaqlar valideynləri ilə həyətdə gəzişirdilər. Ed həyətdəkilərin yanından keçib iki nömrəli evin qabağındakı səliqəli yerdə dayandı. Maşından düşüb bir an ayaq saxladı, sahildən gələn dalğaların səsini dinlədi.

Qapını açıb evə girdi. Axırıncı gəlişinin olması fikirlərini beynindən qovmağa çalışdı. Bir həftə əvvəl evinin gec satılmasından gileylənirdi. Qərara almışdı ki, evi satılandan sonra gedib valideynləri ilə bir yerdə qalar. Hələ ki, başqa heç bir planı yox idi.

Evdə olan-qalan nə vardısa o olmayanda qablaşdırılmışdı. Qapını bağlayıb zala doğru addımlayanda ayaq səsləri boş evdə əks-səda verirdi. Yuxarı mərtəbəyə çıxdı, ordakı boş otaqlara nəzər saldı. Orda-burda qutuları bağlamaq üçün lentlər, qalın iplər vardı. Demək olar ki, otaqlar bomboş idi. Gələn həftəyədək Ed bağlamaları hara yığmaq haqda qərara gəlməliydi. Hə, bax budur çoxlu mala-mülkə sahib olmağın problemi. Ona deyən gərəkdi, bu qədər divan, çarpayı onun nəyinə gərək idi?

Telegram: @cinciva

O son bir neçə həftə ərzində başına gələnləri yadına salırdı. Kənardan baxan olsaydı onun qəmgin-qəmgin necə baxdığını görərdi. O başını aşağı alıb otaqlarda ora-bura gedə -gedə xəyala dalmışdı. Bəlkə də belə fikirli olmasının bir səbəbi bir az çox içməsiydi. On iki ay ərzində onun başına nələr gəlməmişdi? İşini itirdi, arvadından ayrıldı, atasının ömrünün başa çatmasına çox az qalıb.

Mətbəxdə stolun üstündə, görünən yerdə dörd zərf vardı. Hiss olunurdu ki, poçtla gəlməyib. Zərflərin üstü diyircəkli qələmlə yazılmışdı. Ed elə bildi ki, inzibati məktubdur. Məktublardan birini açanda bənövşəyi rəngli iyirmi dolları gördü. Üstünə "Üçüncü ödəmə" yazılmışdı.

Sonra Ed o biri məktubları da açdı, axır ki, birinci məktub da əlinə gəldi. Cessin yazdığı məktubu oxuyanda onun surəti gözlərin önündən çəkilmədi. Onun üzünün ifadəsi, məktubu yazarkən keçirdiyi həyəcanı hiss edirdi Ed. Yəqin ki, "Təəssüf edirəm" yazanda dəfələrlə arxadan at quyruğu bağladığı saçını açıb bağlayıb.

"Təəssüf edirəm".

Cessin səsi onun beynindəydi. Təəssüf edirəm. Ed məktubun içindən çıxardığı pulu hələ də əlində tutmuşdu. Bilmirdi ki, onun neyləsin. Ed onun " təəssüf edirəm" sözünə baxmaq istəmirdi. Bunların heç birini istəmirdi.

Ed mətbəxdən çıxıb arxaya, zala tərəf getdi. Ovcunda əzik-üzük olmuş pulları həyəcandan daha da bərk

Telegram: @cinciva

sıxırdı. O əlindəki pulu pəncərədən atmaq istəyirdi. Bir tərəfdən də, bu pulun elə həmişə əlində olmasını istəyirdi. Ona elə gəldi ki, içində nəsə od tutub yanır. O, evin bir tərəfindən o biri tərəfinə getdi, təzədən geri qayıtdı. İrəli-geri, aşağı-yuxarı getdi otaqlarda. Bu pulu neynəyəcəyini düşündü. Atsın, ya ovcunda saxlasın? Bilmirdi. Otaqların divarlarına baxırdı, burda yaşadığı illərdə sanki divara baxmağa macal tapmamışdı. Divardakı dəniz mənzərəsinə, heç bir qonağın bəyənmədiyi mənzərəyə baxdı. İndi ona aydın oldu ki, o bu evdə heç vaxt özünü evindəki kimi hiss etməyib.

Bir an ona elə gəldi ki, bundan sonra o heç bir yerdə özünü rahat hiss etməyəcək. Bu fikir onun içini darmadağın etdi elə bil. O təzədən zalda narahat, həyəcanlı halda o baş bu başa getdi. İstəyirdi bununla özünü məşğul kimi göstərsin. Pəncərəni açdı, ümid etdi ki, içəri dolan dəniz havası onu bir az sakitləşdirər. Amma həyətdə gəzişən xoşbəxt ailələrin gülüş səsləri bir şillə kimi üzünə dəydi.

Karton qutulardan birinin üstündə bir qəzet vardı, elə bil nəyinsə üstünə qoyulmuşdu. Narahat halda otaqda gəzişən Ed dayandı, qəzeti götürdü. Çox maraqlıydı, qəzetin altına noutbuk və mobil telefon vardı. Bir anlıq Ed heç nə fikirləşə bilmədi, bu telefonla noutbukun niyə orda olmasını ağlı kəsdirə bilmədi. O bir an tərəddüd etdi, sonra əyilib telefonu götürdü. Bu Aberdində Nikiyə verdiyi mobil telefon idi. Yəqin qəzeti də bunların üstünə ona görə qoyublar ki, ev üçün baxmağa gələn müştərilərin nəzərlərini cəlb etməsin.

Telegram: @cinciva

Neçə həftəydi ki, onun içi acıqla, hirslə doluydu. Cessin hərəkətini bağışlaya bilmirdi. İndi isə içində nə varsa sanki yox oldu, içi buza döndü. İndi Edin əlində tutduğu bu mobil telefon bir vaxt yeniyetmə oğlana bir dünya sevinc bəxş etmişdi. Bax, indi o oğlan bu telefonu ona qaytarmağa məcbur olub. Edin qulağına bacısının səsi gəlirdi, elə bil o bacısının səsini eşidirdi, amma nə dediyini anlaya bilmirdi. Axı o niyə insanları mühakimə edirdi? Hər şeyin necə olduğunu bilmədən niyə Cessi günahkar bilirdi?

– Yox mən təzədən gedib onu görə bilmərəm, – Ed fikirləşdi.

Niyə onun yanına gedim?

Gedib ona nə deyim?

O yenə də boş otaqlarda o başa bu başa var-gəl etməyə başladı. Onun addım səsləri taxta döşəmədə əks-səda verirdi. Ovcundakı kağız pulları daha bərkdən sıxırdı.

Ed pəncərənin qabağına gəldi, pəncərədən dənizə baxdı. Bu vaxt ürəyindən keçdi ki, kaş tutulaydı, həbsxanaya düşəydi.

Yox, Ed Cess haqqında fikirləşmək istəmirdi.

O hər dəfə gözlərini yumanda onu görmək istəmirdi.

Yox, o gərək bu yerlərdən tamam uzaq bir yerə getsin, təzə iş tapsın, həyatına təzədən başlasın. O gərək hər şeyi unutsun. Onda bəlkə hər şey asan olar.

Bu vaxt qulaqbatıran telefon zəngi Edi fikirdən ayırdı. Nədənsə telefon zənginin səsi ona tanış gəlmədi. Hə,

Telegram: @cinciva

yadına düşdü. Nikiyə verdiyi telefonun zəngi beləydi. Ed gözlərini telefonun ekranına dikdi. Elə bil ekran göz vururdu, ekran gah işıqlanır, gah qaralırdı. Beş zəngdən sonra Ed telefonu götürdü.

– Xanım Thomasdır? – kimsə soruşdu.

Ed telefonu özündən araladı. Elə bil radioaktiv bir maddəni özündən uzaqlaşdırırdı.

– Zarafat edirsiniz? – Ed telefonu qulağına yaxınlaşdırıb cavab verdi.

Xəttin o başındakı səs sahibi deyəsən qrip idi

– Üzr istəyirəm, yüksək qızdırmam var. Nömrəni düz yığmışam? Kimdir danışan? Kostanza Tanzinin valideynidir?

– Kimsiniz? Nəçisiniz? – Ed soruşdu.

– Mən Andrey Prentissəm. Olimpiada təşkilatından zəng edirəm.

Ed bir an fikrini bir yerə cəmlədi. Pilləkənlərdə oturdu.

– Olimpiada? Üzr istəyirəm, bəs mənim nömrəmi sizə kim verib?

– Bu nömrə bizim kontakt listimizdəydi. İmtahan vaxtı vermisiniz. Nömrəni düz yığmışam?

Edin indi yadına düşdü ki, imtahan günü Cessin telefonu balansında pul olmadığı üçün bağlanmışdı. Ola bilsin ki, Cess Nikinin nömrəsini vermək əvəzinə Edin nömrəsini verib.

– Hə, düz yığmısınız, – Ed dedi.

– Şükür! Neçə gündür ki, bu nömrəyə zəng edirik. Mesajlarımızı oxumusunuz? İmtahana görə zəng

Telegram: @cinciva

etmişəm. Məsələ bundadır ki, imtahanın nəticələrinə qiymət verərkən anormal bir hal aşkar etmişik. Birinci sual səhv çap olunub, nəticədə də alqoritmin cavabını həll etmək mümkün olmayıb.

– Nə?

– Bir də bütün final nəticələr tutuşdurulandan sonra bunu başa düşmüşük. Fakt budur ki, heç bir iştirakçı birinci sualın cavabını düz tapmayıb. Nəticələri müxtəlif müəllimlər yoxladığından bir də sonda bunu bilmişik. Hər halda, üzr istəyirik. İstədik ki, qızınız bir daha özünü sınasın. Hər şeyi yenidən edirik.

– Olimpiadada iştirak etsin? Nə vaxt?

– Məsələ də elə budur. Bu gün. Günortadan sonra. Bir həftədir ki, bu nömrəyə zəng edirik. Cavab verən yoxdur. Bu gün son dəfə zəng etməyi qərara aldım.

– Demək istəyirsiniz ki, o bu gün dörd saata Şotlandiyaya getsin?

Prentiss fasilə verdi, asqırandan sonra davam etdi:

– Yox, yox. Bu dəfə Şotlandiyada olmayacaq. Biz hər iştirakçıya yaxın olan ərazini seçdik, qeyd etdiyiniz məlumata əsasən. Siz cənub sahilində yaşayırsınız. Olimpiada Basinqstokda olacaq. Xəbəri Kostanzaya çatdıracaqsınız?

– Hm... hmm... Hə.

– Təşəkkür edirəm. Belə səhvlərimiz yəqin bir də təkrar olunmaz. Üzr istəyirəm, başqa bir iştirakçıya da zəng etməliyəm. Bütün məlumatlar veb saytımızda var.

Prentiss var gücüylə asqırdı. Sonra səs kəsildi.

Ed boş otaqda dayanıb gözlərini əlindəki telefonun ekranına zilləmişdi.

Telegram: @cinciva

40

CESS

Cess Tanzini inandırırdı ki, qapını açsa heç nə olmaz. Məktəbdəki psixoloq Cessə demişdi ki, Tanzi bütün günü evdə oturub həyət-bacaya çıxmasa əvvəlki inamını özünə qaytarmaq üçün ilk növbədə xarici aləmdən başlamaq lazımdır. Psixoloq Cessə tapşırmışdı ki, qapı döyüləndə Tanziyə qapını açmağı tapşırsın. Onu inandırsın ki, bir şey olarsa Cess onun yanındadır. Yavaş-yavaş o yenə də əvvəlki kimi gedib bağda oynayacaq, yaxud da insanlarla ünsiyyət quracaq. Amma bunlar yavaş-yavaş, addım-addım baş verəcək.

Psixoloqun nəzəriyyəsi çox yaxşıydı – əgər Tanzi bunları etməyə razılaşsaydı.

– Ana, qapını döyürlər, – Tanzi multfilmə baxa-baxa anasını çağırdı. Cess bilmirdi ki, bütün günü multfilmə baxan qızına qarşı necə sərt hərəkət etsin. Cess hesablamışdı ki, Tanzi gün ərzində ən azı beş saat divanda oturub multfilmə baxmaqla məşğuldur.

Telegram: @cinciva

– Tanzi çox sarsılıb, – psixoloq Liversec Cessə demişdi. – Məncə, o təzədən hansısa bir yaradıcı işlə məşğul olsa getdikcə yaxşılaşacaq

– Ana, mən qapını açа bilmərəm, burda qorxudan ağappaq ağarmışam.

Son günlər Tanzinin səsi lap inilti kimi çıxırdı.

– Ana, niyə Nikiyə demirsən qapını açsın?

– Niki mağazaya gedib.

Sükut.

Tanzinin otağından hansısa multfilmin musiqisi eşidilirdi. Cess görməsə də qapının arxasında kiminsə olduğunu dəqiq bilirdi, güzgüdən kölgə hiss olunurdu. Əvvəlcə o düşündü ki, yəqin Aileen Trentdir. Son iki həftə ərzində o dörd dəfə xəbər etmədən gəlmiş, uşaqlar üçün paltar gətirmiş, "bunları əldən vermək olmaz" demişdi. Cess fikirləşdi ki, bəlkə Eylin Trent də Nikiyə pul göndərdiklərindən xəbər tutub. Çünki məhəllədə demək olar ki, bunu eşitməyən adam yox idi.

Cess yenə də Tanzini səslədi:

– Tanzi, mən burda pilləkənlərin başında durub sənə baxacam, qorxma, get aç qapını.

Qapının zəngi bir də, bu dəfə iki dəfə basıldı.

– Tanzi, get, qorxma, heç bir şey olmaz. İstəyirsən, Normanı da özünlə gətir.

Tanzidən yenə səs çıxmadı.

Cess əlinin arxasıyla gözündən axan yaşı sildi. Tanzinin vəziyyəti gündən-günə yaxşılaşmaq əvəzinə daha da pisləşirdi. Son iki həftə ərzində o gəlib Cessin

Telegram: @cinciva

çarpayısında yatmağa adət etmişdi. Səhər tezdən, səssiz-səmirsiz gəlib Cessin çarpayısına çıxırdı. Cess yuxudan duranda heç bilmirdi ki, Tanzi nə vaxt və necə gəlib onun yanına. Cess ürək eləyib ona deyə bilmirdi ki, bir də belə eləməsin. Məktəbdəki psixoloq deyirdi ki, Tanzi heç bir səbəb olmasa belə etməzdi.

– Tanzi!

Yenə ondan səs çıxmadı. Qapının zəngi bir də basıldı, üçüncü dəfə. Zəngin səsindən əsəbiliklə basıldığı hiss olunurdu.

Cess bir az da gözlədi. Artıq o qərar vermişdi ki, daha Tanzini gözləməsin, aşağı düşüb özü açsın qapını.

– Gözləyin, gəlirəm, – Cess yorğun səslə dilləndi.

Sonra o rezin əlcəklərini əlindən çıxardı, bu vaxt zalda addım səsi eşidib dayandı. Normanın ayaq səsləri idi. Tanzi şirin səslə onu arxasınca səsləyirdi. Son günlər bu hal çox təkrarlanmışdı.

Aha, qapı açıldı. Bu vaxt Cess fikirləşdi ki, gərək Tanziyə deyəydi, əgər gələn Eylin Trentdirsə, ona desin ki, içəri girməsin. Bilirdi ki, ona içəri girmək imkanı verilən kimi qonaq otağına girəcək, iri qara çantasından ucuz, keyfiyyətsiz pal-paltarları divanın üstünə sərəcək.

Yox, Cessin eşitdiyi səs Eylinin səsi deyildi.

– Ey, Norman! – bir nəfər iti səslədi.

Cess donub qaldı.

– Dayan, bəs onun üz-gözünə nə olub?

– İndi Normanın bircə gözü var, – Tanzinin səsi gəldi.

Telegram: @cinciva

Cess pilləkənin yuxarısından aşağı boylandı. İndi o qapının ağzında dayanan adamın ayaqlarını görə bilirdi. Onun ürəyi sürətlə döyünməyə başladı.

– Nə olub onun gözünə? Nəsə bir hadisə baş verib?

– Norman məni xilas etdi. Fişerlərdən.

– O neylədi?

İndi Tanzi üyüdüb-tökürdü başına gələnləri:

– Fişerlər məni maşına basmaq istəyirlərdi, bu vaxt Norman çəpəri yarıb mənə köməyə gələndə yolda onu maşın vurdu. Onu müalicə etdirməyə pulumuz yox idi, Niki bu haqda yazandan sonra adamlar bizə pul yolladılar. Normanı müalicə edən həkim də bizə güzəşt etdi, dedi ki, bu vaxtacan hələ belə qoçaq it görməyib.

Neçə gün susan, lal-dinməz oturan Tanzi dil boğaza qoymurdu. Dayanmadan danışırdı.

Cess bir pilləkən də düşdü. Sonra bir pilləkən də.

– Demək olar ki, Norman ölmüşdü. Baytar da əvvəlcə onu əməliyyat etmək istəmirdi, çünki daxili orqanlarında qanaxma çox idi. Deyirdi ki, Normanı boş yerə əməliyyat edib əziyyət verməyək, qoy ölüb canı qurtarsın. Anam onunla razılaşmadı. Bundan sonra Niki bloqunda baş verənlər haqqında yazdı. Nikinin sözlərini oxuyan kimi adamlar bizə pul yollamağa başladılar. Hə, çoxlu sayda adamlar hərəsi az da olsa pul göndərdi. Heç bir səbəb olmadan. Bizim də Normanı ölümün caynağından xilas etməyə kifayət qədər pulumuz oldu. Deməli, Norman məni xilas etdi, tanımadığımız adamlar da Normanı xilas etdilər. Amma onun

Telegram: @cinciva

indi bir gözü var, çox tez yorulur, çox hərəkət etmir, hələ tam sağalmayıb.

...Cess indi onu aydınca görürdü. O aşağı oturub Normanın başını sığallayırdı. Cess ona elə baxırdı ki, elə bil başqa heç bir tərəfə baxa bilmirdi: qara saç, ona yaraşan köynək.. Hə, həmin boz köynək. Cessin içindən hönkürtüyə bənzər nəsə qalxdı. Səsinin eşidilməməyi üçün əliylə ağzını tutdu.

O hələ də Normanın başını sığallayırdı, sonra birdən başını qaldırıb Tanziyə baxdı, soruşdu:

– Tanzi, bəs sənə də nəsə olub?

Tanzi saçını əlində oynada-oynada dedi:

– Demək olar ki, hə.

– Nə olub, əziz qızım!

Tanzi bir an duruxdu, ayaq barmaqlarını döşəməyə sürtə-sürtə sakitcə dayandı, sonra bir az irəli getdi və onun qucağına qaçdı. O, Tanzini qucaqlayıb bağrına basdı, elə bil Tanzidən bunu gözləyirmiş. Tanzi başını onun çiyninə qoydu, tərpətmədi, eləcə onun qolları arasında, başı da onun çiynində – dəhlizdə.

Cess gördü ki, o gözlərini yumub. Bu vaxt o bir pilləkən yuxarı çıxdı, istəmədi ki, onu görsün. Bilirdi ki, Cessə tərəf baxsa, o, dözə bilməyəcək, hönkürəcək.

– Hə, mən itə baxan kimi bildim ki, ona nəsə olub. Elə görən kimi bildim.

– Doğrudan?

– Hə, Tanzi. Sən və Norman. Bir komandasınız. Duyğusu olan hər kəs bunu hiss edərdi. Tanzi, bilirsən nə

Telegram: @cinciva

var? Norman bir gözlə də çox yaxşı görünür. İndi də heç kim Normana bata bilməz.

Cess nə edəcəyini bilmirdi. Bilirdi ki, onun ona əvvəlki kimi baxmadığını görüb dözə bilməyəcək. Cess tərpənə bilmirdi, o aşağı düşə bilmirdi, o hərəkət edə bilmirdi.

– Anam sənin nə üçün gəlmədiyini bizə deyib.

– Deyib?

– Hə, anam sənin pulunu götürübmüş, ona görə.

Ağrılı və uzun sükut.

– Anam dedi ki, o səhv hərəkət edib. Elə səhv hərəkət ki, bizə həmişə belə səhv etməməyi məsləhət görür.

Yenə sükut.

– Sən pulunu geri almağa gəlmisən?

– Yox, yox. Buna görə gəlməmişəm.

O başını qaldırdı, yuxarı baxdı:

– O evdədir?

Artıq gizlənməyin yeri yox idi. Cess bir pilləkən də düşdü. Sürahidən tutub bir pilləkən də düşdü. Sonra bir pilləkən də. Rezin əlcəkləri də əlində dayandı, gözlədi ki, o ona tərəf baxsın.

Cessin ağlına da gəlməzdi ki, o Cessə tərəf baxanda belə desin:

– Tanzi ilə Basingstokeyə getməliyik.

– Nə?

– Olimpiadaya. Sualların birində texniki səhv var imiş. Ona görə də imtahanı təzədən keçirirlər. Bu gün.

Tanzi də başını qaldırıb anasına baxdı, o da elə Cess kimi çaşqın vəziyyətdə idi. Birdən sanki onun beynində yenə "işıq" yandı. Tanzi ona tərəf döndü:

Telegram: @cinciva

– Səhv birinci sualda olub, eləmi?

O başıyla təsdiqlədi.

– Mən bunu bilirdim, – Tanzi qəfil gülümsədi. – Mən elə bilirdim ki, orda bir səhv var.

– Tanzi bütün vərəqdəkiləri təzədən köçürməlidir.

– Hə. Bu günorta.

– Bu, qeyri-mümkündür.

– Yox, Şotlandiyada yox, Basinqstokda. Ora getmək mümkündür.

Cess nə deyəcəyini bilmirdi. O keçən dəfə olimpiadaya aparmaqla qızının bütün inamının necə qırılmasın fikirləşdi. Şotlandiyaya getmələri, yolda baş verənlər, nəhayət, səyahətin necə başa çatması haqda fikirləşdi.

– Bilmirəm heç Tanzi... – Cess nəsə demək istədi.

O hələ də ayaqüstə dayanmışdı, əlini Tanzinin çiyninə qoyub dedi:

– Sən bu şansı əldən vermək istəyirsən?

Cess Tanzini üzündəki inamsızlıq ifadəsini aydınca görürdü. İndi Tanzi Normanın xaltasından daha bərk yapışmışdı, ayağının birini götürüb o birini qoyurdu.

– Tanzi, bu şansı əldən vermək olmaz, – Cess dedi.

– Onu da bil ki, heç kim o sualın cavabı tapa bilməyib, – Edin səsi sakit, inamlı idi.

– Mənə zəng edən kişi dedi ki, cavabı tapmaq qeyri-mümkün imiş. Şagirdlərin heç biri birinci sualı düz həll etməyib.

Niki əlində plastik torba Edin arxasında dayanmışdı. Mağazadan gəlirdi. Torbanın içində dəftərxana ləvazimatı vardı.

Telegram: @cinciva

– Tanzi, anan haqlıdır, amma mən sənin yerinə olsaydım gedib imtahanda iştirak edərdim. İstəyərdim ki, sənə lağ edən oğlanlara nəyə qadir olduğunu göstərəsən, – Ed dedi.

Niki irəli gəlib Edlə görüşdü.

– Davam elə, Titch! – Niki dedi. – Get onlara kimliyini sübut elə.

Tanzi başını qaldırıb Cessə baxdı. Sonra o Edə baxdı, burnunun üstünə düşən eynəyini dala itələdi.

Dörd nəfərin heç biri sanki nəfəs almırdı.

– Ok. Razıyam imtahana getməyə, bu şərtlə ki, Normanı da aparım.

Cessin əli ağzında qaldı.

– Ana, keçən dəfə birinci sualı etmədiyimə görə çox həyəcanlandım, sonra da o biri səhvləri etdim.

Cess daha iki pilləkən aşağı düşd, ürəyi hələ də sürətlə vururdu. Rezin əlcəyin içində olan əlləri tamam tər idi.

– Bəs biz ora necə gedib vaxtında çatacağıq?

Ed ayağa durdu, Cessin gözlərinə baxdı.

Onun üzündəki ifadəni oxumaq olmurdu.

– Mən apararam.

***

Mini-də dörd nəfər və bir də iri it vardı. Kondisioneri olmayan, çox da isti olmayan havada yol getmək asan deyildi. Onu da nəzərə alın ki, it də əvvəlki kimi sağlam

Telegram: @cinciva

deyildi. Vaxt azlığından saatda qırx mil getməyə məcbur idilər.

Pəncərələrin hamısını açıq qoymuşdular. Hamısı sakitcə oturmuşdu. Yalnız hərdən Tanzinin səsi eşidilirdi. O unutmuş hesab etdiyi bəzi qaydaları öz-özünə təkrar edirdi. Hərdənbir də ağzını plastik torbaya yaxınlaşdırırdı.

Edin bumaşınında satnav yox idi. Cess əlindəki xəritəyə baxırdı. Bir saat qırx beş dəqiqədən sonra onlar üstünə OLİMPİADA sözü yazılmış beton binanın qabağında dayandılar. Bir tərəfdə də OTU TAPDALAMAYIN yazılmışdı.

Bu da tam hazırlıqlı gəlmişdilər. Cess Tanziyə ehtiyat üçün bir eynək də verdi.

(Niki Edə dedi ki, Tanzi daha ehtiyat eynək olmasa heç hara getmir). Tanzi qələmini, karandaşını və pozanını götürdü. Hər üçü onu qucaqlayıb bağırlarına basdılar. Ona ürək-dirək verdilər, dedilər ki, eybi yox, düz yazmasa da heç nəyi itirmir.

Nəhayət, Tanzi otağa daxil oldu. Qapı bağlandı.

Cess dəhlizdəki stola yaxınlaşıb bəzi kağızlara imza etdi. Bu vaxt Edlə Niki həyətdəki çəmənliyin yanında söhbət edirdilər. Niki Edə nəsə deyirdi, Edin ona verdiyi köhnə telefonda nəsə göstərirdi, bu vaxt Ed də başını yırğalayırdı. Cess bildi ki, Niki bloq barəsində danışır.

– Ana, o yaxşı yazacaq. Həyəcan keçirmə, – Cess onlara yaxınlaşanda Niki ona dedi. Normanın xaltası Nikinin əlindəydi. O, Tanziyə söz vermişdi ki, binadan uzağa getməycəklər.

Telegram: @cinciva

– Hə, o əla yazacaq, – Ed dedi, onun əlləri cibindəydi.

Niki gah Ed, gah da Cessə baxdı. Sonra başını aşağı salıb itə baxdı.

– Biz gedək tənəffüs edək. Əlbəttə, ki, əsas da Normana "tənəffüs" lazımdır.

Cess istədi Nikiyə desin ki, onu da gözləsin, amma demədi.

İkisi tək qaldı.

– Deməli, – Cess elə bir söz demək istədi ki, nəyisə dəyişə bilsin. – Sən yenə də bizi xilas etdin.

– Deyəsən sizi xilas etmək üçün yaxşı işçi tapmısınız, – Ed gülümsədi.

Yenə də sakitcə dayandılar. Maşın parkında bir maşın dayandı, içindən ana və yeniyetmə bir oğlan düşüb qaçaraq binaya girdilər.

– Ayağın necədir?

– Sağalır?

– Daha çəkələk geymirsən?

– Yox, – Cess ayağındakı idman ayaqqabısına baxdı.

Ed əlini başına apardı, göyə baxdı.

– Sən göndərən məktubları aldım.

Cess danışa bilmirdi.

– Mən onları bir də bu səhər görmüşəm. Elə bilmə ki, o biri məktubları çoxdan alıb sənə bildirməmişəm. Əgər hər şeyi vaxtında bilsəydim... Əgər vaxtında alsaydım səni tək qoymazdım.

– Sən bizə çox yaxşılıq etmisən.

Cessin ayağının altında balaca daş vardı. O yaxşı olan ayağıyla daşı təpiklədi, daşın yerini dəyişdi.

Telegram: @cinciva

– Sağ ol ki, bizi yenə də olimpiadaya gətirdin. Nə olursa olsun mən həmişə...

– Dayanacaqsan?

– Nə olub?

– Deyirəm bu daşı təpikləməyi dayandıracaqsan? Belə danışmağa son qoyacaqsan? Gəl gedək, maşına minək.

– Nə?

– Maşında söhbət edək.

– Yox... minnətdaram.

– Nə?

– Mən sadəcə... Biz burda danışa bilmərik?

– Niyə maşına minməyək ki?

– İstəmirəm.

– Başa düşə bilmirəm. Niyə maşına minmirsən?

– Özünü elə göstərmə ki, bimirsən, – Cessin gözlərindən yaş sel kimi axdı. O, əlinin arxasıyla yaşı sildi.

– Bilmirəm nə demək istəyirsən.

– Mən də deməyəcəm.

– Gülməlidir, gəl gedək maşına minək.

– Yox...

– Niyə axı?

– Çünki... çünki... – Cessin səsi qırıldı. – Çünki biz maşında bir vaxt xoşbəxt olmuşduq...Mən maşında bir vaxtlar xoşbəxt olmuşdum. Heç vaxt belə xoşbəxt olmamışdım hələ.... İndi minə bilmərəm. Mən orda otura bilmərəm... İkimiz... sən... mən...

Cessin səsi qırıldı...

Telegram: @cinciva

Üzünü Eddən yana çevirdi. İstəmədi ki, Ed onun göz yaşlarını görsün. Bu vaxt Ed ona yaxınlaşdı, o qədər yaxın gəldi ki, az qala Cess nəfəs ala bilmədi. Əvvəl Cess istədi ona desin ki, aralı dursun. Amma bildi ki, o aralansa dözə bilməz.

Ed əyilib Cessin qulağına pıçıldadı:

– Mən səninlə bir yerdə olmaq istəyirəm... Biz bir yerdə olmuşuq... Bilirəm. İndi səninlə birgə olmağa özümü tamam haqlı hesab edirəm... Eh, heç bilmirəm nə deyirəm. Belə sözləri deyə bilmirəm.

Cess ona baxdı. Ed gözlərini onun ayağına zilləmişdi, əlləri hələ də cibindəydi.

Birdən başını qaldırdı:

– Bilirsən Tanzinin imtahanında səhv sual nə imiş?

– Nə?

– Sual Emergence nəzəriyyəsi haqdaymış. Güclü emergence deyir ki, rəqəmlərin cəmi iştirak edən elementlərdən çox ola bilər. Bilirsən nə deyirəm?

– Yox riyaziyyatı bilmirəm.

– Sənin etdiyin hərəkətə bir də qayıtmaq istəmirəm. Heç kim ideal insan deyil. Mən də... amma ideal olmağa çalışıram...

Ed ona yanaşdı, onun cins şalvarının belindəki kəmərdən tutdu, onu özünə sıxdı. Cess istəsə də ondan aralana bilmədi. Axır ki, o başını qaldırdı, Edə baxdı. Ed də ona baxırdı. Bu anlarda Cess həm ağlayırdı, həm də gülümsəyirdi. Həyatı boyu heç vaxt belə gülümsəməmişdi.

– Düşünürəm görüm biz Cessika Rae Tomasa nə əlavə edə bilərik. Üçümüzü də... Sən nə deyirsən?

Telegram: @cinciva

41

Tanzi

Müqəddəs Ann məktəbinin məktəbli forması tünd göy rənglidir, üstündə sarı zolağı var. Formanın üstündən də gödəkcə geyirik. Bəzi qızlar evə qayıdanda gödəkçəni çıxarırlar, amma mən belə etmirəm. Əgər can atdığına, arzuladığına çatmısansa istəyirsən ki, bunu başqaları da görsün. Məktəb formasının bir xeyri də var ki, harda Müqəddəs Ann məktəbinin şagirdini görsən mütləq ona əl eləməlisən, bu artıq adət halını alıb. Bəzən kiməsə daha çox əl eləyirsən, rəfiqəm Sritini görəndə belə edirəm, çünki o mənim ən yaxşı dostumdur. O, səhrada təyyarə gözləyən adam kimi diqqəti tez cəlb edir.

Məktəbin bəzi şagirdləri isə barmaqlarını qaldırmaqla əl edirlər, Dilan Karter kimi. O başqa uşaqlarla danışmağa utanır, hətta öz qardaşıyla da söhbət etmir. Hər halda, bütün şagirdlər bir-birinə əl edir. Bu məktəbin uniformasını geyib bir-birinə əl etməyən şagird yoxdur, bu isə o deməkdir ki, bu məktəbin şagirdləri eyni ailənin üzvləridir.

Telegram: @cinciva

Mən həmişə əl eləyirəm. Xüsusən də avtobusda olanda.

Çərşənbə axşamı və cümə axşamı günləri məni Ed maşınla gəlib götürür məktəbdən. Həmin günləri riyaziyyat dərnəyimiz olur, anam da o günlərdə işdə olur. İndi anam üç adamın evində iş görür. Ed deyir ki, anam artıq kiminsə evində işləməyə öyrəşib, özü boss olmaq istəmir.

Cümə günləri anam işləmir, gəlib məni məktəbdən götürür, bir yerdə biskvit yeyirik. İkimiz. Bu xoşuma gəlir. Amma ona deyəcəm ki, mən daha məktəbdən bir az gec çıxacam, çünki A səviyyəsinə çatmalıyam. Atam gəlib bizi görməyə hələ imkan tapmayıb, amma hər həftə onunla skaypla danışırıq. Həmişə söz verir ki, bizi görməyə gələcək.

Niki Sauthəmptonda altıillik kollecdə oxuyur. O, incəsənət universitetinə daxil olmaq istəyir. Hətta onun Lola adında qız dostu da var. Anam o qızı çox bəyənir. Niki tünd qəhvəyi saçını bir az uzadıb. İndi Niki anamdan çox hündürdür. Mətbəxdə olanda Niki zarafatla dirsəyini anamın çiyninə qoyur. Hələ də o bloqunda bəzi şeylər yazır. Çox vaxt deyir ki, işi çoxdur, amma hər şeyin daha yaxşı olacağına ümid edir.

Norman üçün göndərilən pulun 77 faizini geri qaytardıq. Pul göndərənlərin 14 faizi dedilər ki, onlar bunu mərhəmət xətrinə ediblər. Pul göndərənlərin 9 faiziylə heç cür əlaqə saxlaya bilmədik. Anam deyir ki, əsas odur ki, biz onlarla əlaqə saxlamağa cəhd etdik. Hərdən

Telegram: @cinciva

yad adamların mərhəmətini qəbul edib onlara təşəkkür etmək lazımdır. Anam deyir ki, o heç vaxt yad adamların xeyirxahlığını unutmayacaq.

Demək olar ki, Ed həmişə bizimlədir. O, Biçfrontdakı evini satdı, indi onun Londonda balaca bir evi var. Biz onun evinə gedəndə Nikiylə mən ikimərtəbəli çarpayıda yatmalı oluruq. Amma yuxarıda da dediyim kimi, o çox vaxt bizimlə bir yerdə qalır. O mətbəxdə oturub noutbukunda nəsə yazır, dostuyla skaypla danışır. Bəzən də "Mini"sinə minib iş görüşlərinə gedir. Ed təzə maşın almaq fikrindədir, çünki "Mini" çox balacadır. Hamımız minəndə maşına sığmırıq. Amma doğrusunu desəm , heç birimiz onun təzə maşın almasını istəmirik. Çünki bir-birimizə sıxılıb oturmaq da çox yaxşıdır. Bir tərəfdən də, bu maşında ürəyim bulanmır.

Norman da çox yaxşıdır. Baytar həkimin dediklərinə əməl edirik. Demək olar ki, ehtimal nəzəriyyəsi artıq hətta tətbiq olunub. Bəzən arzularına çatmaq üçün daha çox vaxt sərf etməlisən. Nə qədər çox çalışsan o qədər çox uğur əldə edəcəksən.

Bir sözlə, işində irəliyə doğru getməlisən.

Mən Normanı tez-tez bağa aparıram. Bu həftə mən ona düz səksən altı dəfə top atmışam. Hələ ki Norman gedib topları geri gətirmir.

Amma inanıram ki, bir gün o arzuladığım kimi gedib topları gətirəcək.

Telegram: @cinciva

Az 2015
1870

Jojo M

The One Plus One

Coco Moyesin "Bir üstəgəl bir" romanı – valehedici, oxucunu sonadək həyəcanlı durumda saxlayan əsər iki tənhalığın birləşdiyi zaman nələr yarada biləcəyindən bəhs edir.

...Tənha qadın.

Cess Tomasın iki uşağı və iki işi var. Hər gün yorucu iş. Həm yad evlərdə, həm də öz evində. Ona kimsənin yazığı gəlmir, kənardan köməyə də özü bel bağlamır. Buna görə də bəzən Cess riskli qərarlar qəbul etmək məcburiyyətində qalır.

...Dəlisov ailə.

Tanzi – Cessin əcaib-qəraib, lakin istedadlı qızıdır.

Nikki – Cessin ögey oğlu da məktəbdəki bir dəstə dələduz və dəcəl yaşıdları qarşısında aciz qalıb.

Bəzən Cessə elə gəlir ki, vəssalam, hər şey bitdi. Lakin Ed Nikolsla tanışlıq onun bütün həyatını dəyişir. İki ruhən tənha adam müxtəlif və çoxsaylı çətinlikləri adlayaraq, nəhayət, birgə həyata başlayırlar. Amma buna qədər onları Şotlandiyaya uzun, çox uzun, yorucu bir səfər gözləyir.

"Çox gözəl bir kitab"
HELLO!

"Gah ürəkparçalayan, gah gülüş doğuran, gah da düşünməyə vadar edən kitab"
SUNDAY EXPRESS

"Maraqlı, həvəsləndirici, həyatın bir parçası"
HEAT



© Stine Heilmann

ISBN 978-9952-36-106-3

12 99

QANUN NƏŞRİYYATI
kitab sifarişi (012) 431-16-62
və www.qanun.az saytında
www.fb.com/qanunpublishing
www.qanun.az

Telegram: @cineiva